شَرْحُ

# الأَرْبَعِينَ النَّوَوِيَّة

لِلإِمَام أَبُو زَكَرِيَّا

يَحْيَى بْنِ شَرَفِ النَّوَوِيّ

(٦٣١-٦٧٦ هـ)

Peyğəmbər ﷺ demişdir:
“Mənim sözümü eşidib yadında saxlayan və onu eşitdiyi kimi başqalarına çatdıran kimsənin üzünü Allah nurlu edər.”

**Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir.**
**(DK-872/Ə 27.09.2019)**

**İmam Əbu Zəkəriyya**
**Yəhya ibn Şərəf ən-Nəvəvi**

# *Qırx hədis*

## *və şərhi*

Bakı – 2019

Əsərin adı:
**Qırx hədis və şərhi**

Müəllif:
**İmam Əbu Zəkəriyya**
**Yəhya ibn Şərəf ən-Nəvəvi**

Tərcümə:
**Əlixan Musayev**
Redaksiya heyəti:
**Mübariz Qarayev**
**Aydın Salehli**

Nəşrə hazırlayan:
**Mahmud Qəhrəmanov**

Oxuculara təqdim olunan bu kitabda İslam dininin hər bir sahəsini əhatə edən hədislər toplanmışdır. Bu səbəbdən də İslam dinini öynmək istəyən hər kəsə məsləhətdir ki, elmin ilkin mərhələsində, bu kitabdakı hədisləri, şərhi ilə birlikdə oxuyub-öyrənsin, onları əzəbərlədikdən sonra başqalarına da öyrətsin. Bu kitab yazıldığı gündən bəri, İslam alimləri onu təqdirəlayiq hesab etmiş, onu çox tərifləmiş və öz tələbələrinə onu oxuyub-öyrənməyi məsləhət görmüşlər.

## *Müqəddimə*

إن الحمد لله نحمده و نستعينه و نستغفره، و نعوذ بالله من شرور أنفسنا و من سيئات أعمالنا، من يهده الله فلا مضل له، و من يضلل فلا هادي له، و أشهد أن لا إله إلا الله وحده لا شريك له، و أشهد أن مُحَّدا عبده و رسوله، صلى الله عليه و على آله و صحبه و سلم تسليما كثيرا إلى يوم الدين،

فَإِنَّ خَيْرَ الْكَلامِ كَلامُ اللهِ، وَخَيْرَ الْهَدْيِ هَدْيُ مُحَمَّدٍ ﷺ، وشرَّ الأُمورِ محدثاتُها، وكُلَّ محدَثَة بدعة، وكُلَّ بدعةٍ ضلالة، وكُلَّ ضلالةٍ في النار، أما بعد ...

Əziz müsəlmanlar, əlimizdəki bu kitab, elə bir kitabdır ki, Uca Allah ona bərəkət vermiş, əsrlər boyu saysız-hesabsız insanlar ondan faydalanmış və indi də faydalanmaqdadırlar. Bu, hicri tarixi ilə VII əsrdə yaşamış, İmam Əbu Zəkəriyya Muhyiddin Yəhya ibn Şərəf ən-Nəvəvinin ﷺ "Qırx hədis" kitabıdır. İslam alimləri "Qırx hədis" mövzusunda neçə-neçə kitablar yazmışlar. Lakin müsəlmanlar arasında ən çox yayılanı və ən çox istifadə olunanı, məhz İmam Nəvəvinin kitabıdır. Elə bir müsəlman yoxdur ki, onun evində Nəvəvinin "Qırx hədis" kitabı olmasın, elə bir elm tələbəsi yoxdur ki, bu kitabı əzbər bilməsin və ya ən azı onu bir dəfə oxumamış olsun. Şübhəsiz ki, bu kitaba bu qədər bərəkət verən, Allahdır. Allahu Əkbər, heç Nəvəvi təsəvvür edərdimi ki, Allah onun kitabına bu qədər bərəkət verəcək. İmam Zəhəbi Nə-

vəvini yada saldıqda deyərmiş: "Kaş biləydim, Nəvəvi Allaha necə yalvarıb ki, Allah onun kitabına bu cür bərəkət verib." İmam Nəvəvi bu kitabda, İslam dininin hər bir sahəsini əhatə edən hədisləri toplamışdır. O üzdən də, İslam dinini öyrənmək istəyən hər kəsə məsləhətdir ki, elmin ilkin mərhələsində, bu kitabdakı hədisləri, şərhi ilə birlikdə oxuyub-öyrənsin, üstəlik, onları əzbərləsin, sonra da onları başqalarına öyrətsin. Bu kitab yazıldığı gündən bəri, İslam alimləri onu təqdirəlayiq hesab etmiş, onu çox tərifləmiş və öz tələbələrinə onu oxuyub-öyrənməyi məsləhət görmüşlər.

İmam ən-Nəvəvi bu kitabda cəmi qırx iki hədis cəm etmişdir. Müəllifdən yüz il sonra yaşamış Zeynuddin Abdurrəhman ibn Əhməd ibn Rəcəb əd-Diməşqi ﷺ "Camiul-Ulum vəl-Hikəm" kitabında bu hədisləri şərh etmiş və daha səkkiz hədis də əlavə edərək hədislərin sayını əlliyə çatdırmışdır. Müasir alimlərdən – Muhəmməd ibn Saleh əl-Useymin, Abdulmuhsin əl-Abbad, Abdurrəzzaq əl-Abbad, Saleh Ali Şeyx və başqaları da, bu hədisləri şərh etmişlər. Biz də, qərara gəldik ki, həmin şərhlər sayəsində, bu əlli hədisin şərhini yığcam şəkildə sizə təqdim edək.

Bu kitab, söhbət açdığımız mövzuda yazılmış ən əzəmətli və ən faydalı kitabdır. Kitab nə uzun və yorucu, nə də ki, qısa və faydasızdır. Əksinə, yığcam və əhatəli bir kitabdır. İslam alimlərinin ərsəyə gətirdiyi möhtəşəm kitablardan biri də, məhz bu kitabdır.

İslam alimlərindən bir çoxu "qırx hədis" mövzusunda kitablar yazmışlar. Belə ki, bu xüsusda varid olmuş "zəif" rəvayətdə deyilir ki, "Kim mənim hədislərim arasından ümmətim üçün qırx hədis seçib ayırarsa, Qiyamət günü mən ona şəfaətçi olaram." İmam ən-Nəvəvi, kitabın müqəddiməsində bu rəvayəti zikr etmiş və onun zəif olduğunu bildirmişdir. Həmçinin, bildirmişdir ki, o, bu kitabı, bu "zəif" hədisə əsasən yox, başqa "səhih" hədislərə əsasən tərtib etmişdir. Məsələn: Peyğəmbər ﷺ demişdir: "Qoy sizlərdən hədislərimi eşidənlər, onları eşitməyən kimsələrə danışsınlar."[1] O, həmçinin, demişdir: "Mənim sözümü eşidib yadında saxlayan və onu eşitdiyi kimi başqalarına çatdıran kimsənin üzünü Allah nurlu edər."[2]

İmam ən-Nəvəvi öz müqəddiməsində, "Qırx hədis" mövzusunda kitab yazmış on üç böyük alimin – birincisinin Abdullah ibn əl-Mubarək, sonuncusunun isə Əbu Bəkr əl-Beyhəqi olduğunu zikr etdikdən, üstəlik, qədim və müasir alimlərdən bir çoxunun bu mövzuya dair kitablar yazdığını da qeyd etdikdən sonra demişdir: "Alimlərdən bəzisi dinin əsaslarına dair, bəzisi fiqhi məsələlər barədə, bəzisi cihada aid, bəzisi zahidlik haqqında, bəzisi İslam ədəbinə dair, bəzisi də xütbələr barədə varid olmuş "qırx hədisi" cəm etmişdir. Hamısı da, bunu gözəl məqsədlə etmişdir. Allah o kitabları tərtib edənlərin hamısından razı olsun!

[1] Səhih əl-Buxari, 67; Səhih Muslim, 1679.

[2] Sunən ət-Tirmizi, 2658; Sunən İbn Macə, 230; Musnəd İmam Əhməd, 3/225.

Mən bu kitabların hamısını nəzərdən keçirdikdən sonra qərara gəldim ki, bunlardan daha əhəmiyyətli və bu mövzuların hamısını özündə cəm edən qırx hədisi toplayım. Bu kitabda zikr edilən hədislərin hər biri, özündə dinin əzəmətli qaydalarını cəm edir. İslam alimləri xüsusilə qeyd etmişlər ki, bu hədislərdən bəzisi İslam dininin hamısını, bəzisi onun yarısını, bəzisi də onun üçdə birini əhatə edir.

Mən bu hədisləri tərtib etdikdə çalışmışam ki, bu kitaba yazdığım hədislərin hamısı səhih olsun. Belə ki, əksəriyyətini Buxari və Muslimin "Səhih"lərindən nəql etmişəm. Bundan əlavə mən bu hədislərin isnadlarını zikr etməmişəm ki, oxucuya onları əzbərləmək asan olsun və Allahın istəyi ilə hamı ondan faydalansın. Düşünürəm ki, axirətini qazanmağa çalışan hər kəsə, bu hədisləri öyrənmək lazımdır. Bu hədislərdən hər biri özündə mühüm məsələləri cəm edir, üstəlik, itaətə və ibadətə aid hər sahəni əhatə edir. Deyilənlərin həqiqət olduğu, bu kitabı oxuyanlara bəllidir."[1]

Həqiqətən də, bu hədisləri şərhi ilə birlikdə öyrənib yadda saxlayan hər bir elm əhli bilir ki, bu hədislərdə şəriətlə əlaqəli istənilən suala cavab tapmaq mümkündür. Odur ki, bu hədisləri bilən alim ancaq bu hədislərə istinad edərək, cəmiyyətdə baş verən istənilən fəsadın qarşısını ala bilər, istənilən ixtilafı aradan qaldıra bilər. Şeyx Abdurrəzzaq əl-Abbad bu hədisləri şərh edərkən maraqlı bir əhvalat danışır, deyir ki, bir neçə il bundan əvvəl

[1] İmam Nəvəvinin müqəddiməsi, İbn Dəqiq əl-İdin şərhi ilə birlikdə, səh. 15.

mən İmam Nəvəvinin 40 hədis kitabını filan məsciddə şərh edirdim, artıq yeddi hədisi şərh etmişdim. Dərsdən sonra bir fəhlə mənə yaxınlaşıb məndən bu dərslərdə iştirak etməsi üçün izn istədi. Dedim: "Mən sənə bir şərtlə izn verərəm ki, sən, keçdiyimiz yeddi hədisi və bundan sonra keçəcəyimiz hədisləri əzbərləyəsən." Adam mənim şərtimlə razılaşdı. Nəhayət, biz bu kitabın şərhini bitirdikdən sonra həmin fəhlə mənə yaxınlaşıb dedi: "Şeyx, mən artıq özümü alim hesab edirəm." Mən ondan bunun səbəbini soruşduqda, o dedi: "Çünki, mənim işlədiyim yerdə olan fəhlələr arasında dinə aid istənilən məsələdə mübahisə düşdükdə, mən onlara həmin məsələyə dair bir hədis danışıb mübahisəni həll edirəm, özü də, hədisi əzbərdən deyirəm. Odur ki, fəhlələrin hamısı məni öz aralarında alim hesab edirlər." Diqqət edin, qardaşlar, Peyğəmbərin ﷺ hədisləri insanın dünyada və axirətdə uğur qazanması üçün səbəbdir. Xüsusilə qeyd edək ki, bu hədislər elmin başlanğıcı sayılır. Odur ki, İslam elmlərini öyrənən hər kəs üçün bu hədisləri öyrənmək zəruri sayılır.

Əsrlər boyu İslam alimləri öz məclislərində bu kitabdakı hədisləri öz tələbələrinə şərh etmişlər. Biz də, həmçinin, qərara gəldik ki, bu kitabdakı hədisləri və onların şərhini azərbaycandilli müsəlmanlara çatdıraq. Xüsusilə qeyd etmək istəyirik ki, bu hədislərin şərhini hazırlayarkən İbn Rəcəbin, İbn Useyminin, Abdulmuhsin əl-Abbadın, Saleh Ali Şeyxin və Abdurrəzzaq əl-Abbadın şərhlərindən istifadə etmişik.

Bu hədisləri oxuyacaq hər bir müsəlmana nəsihətimiz budur ki, Peyğəmbərin ﷺ bu yığcam və genişmənalı hədislərini əzbərləsin, onların şərhini təkrar-təkrar oxusun və nəhayət, bu hədislərin mənasını dərk etdikdən sonra onları başqalarına da öyrətsin.

Allahdan istəyimiz budur ki, bu şərhi, onun əsli olan "Qırx hədis" kitabı kimi bərəkətli və faydalı etsin. Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizləri, Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin! Həqiqətən də, Allah hər şeyi Eşidəndir, duaları Qəbul Edəndir. Peyğəmbərimizə, Onun əhli-beytinə, onun səhabələrinə və onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

Əbu Yəhya

09.09.2019

## Birinci hədis

عَنْ أَمِيرِ الْمُؤْمِنِينَ أَبِي حَفْصٍ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ قَالَ: سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "إنَّمَا الْأَعْمَالُ بِالنِّيَّاتِ، وَإِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوَى، فَمَنْ كَانَتْ هِجْرَتُهُ إلَى اللَّهِ وَرَسُولِهِ فَهِجْرَتُهُ إلَى اللَّهِ وَرَسُولِهِ، وَمَنْ كَانَتْ هِجْرَتُهُ لِدُنْيَا يُصِيبُهَا أَوْ امْرَأَةٍ يَنْكِحُهَا فَهِجْرَتُهُ إلَى مَا هَاجَرَ إلَيْهِ".

رَوَاهُ إِمَامَا الْمُحَدِّثِينَ أَبُو عَبْدِ اللهِ مُحَمَّدُ بنُ إِسْمَاعِيل بن إِبْرَاهِيم بن الْمُغِيرَة بن بَرْدِزبَه الْبُخَارِيُّ الْجُعْفِيُّ [رقم:١]، وَأَبُو الْحُسَيْنِ مُسْلِمٌ بنُ الْحَجَّاج بن مُسْلِم الْقُشَيْرِيُّ النَّيْسَابُورِيُّ [رقم:١٩٠٧] رَضِيَ اللهُ عَنْهُمَا فِي "صَحِيحَيْهِمَا".

Rəvayət edilir ki, möminlərin əmiri, Əbul-Həfs Ömər ibn əl-Xattab ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaqdır. Kimin hicrəti Allah və Onun Rəsulu ﷺ üçündürsə, onun hicrəti, Allaha və Onun Rəsuluna ﷺ aiddir. Kimin də hicrəti, əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına görədirsə, onun hicrəti, hicrət etdiyi şeyə aiddir."

Bu hədisi, Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim ibn əl-Muğira ibn Bərdizbəh əl-Buxari və Əbul-Huseyn Muslim ibn əl-Həccac ibn Muslim əl-Quşeyri ən-Nisaburi öz "Səhih"lərində rəvayət etmişlər.[1]

---

[1] Səhih əl-Buxari, 1; Səhih Muslim, 1907.

Səhabələr arasında bu hədisi yalnız Ömər ibn əl-Xattab ﷺ rəvayət etmişdir. Ömər ibn əl-Xattabdan da, bu hədisi yalnız Alqamə ibn Vəqqas əl-Leysi, rəvayət etmiş, ondan da, bu hədisi yalnız Muhəmməd ibn İbrahim ət-Teymi rəvayət etmiş və nəhayət, ondan da, bu hədisi yalnız Yəhya ibn Səid əl-Ənsari rəvayət etmişdir. Sonrakı təbəqədə isə artıq bu hədisi Yəhya ibn Səiddən eşidən ravilərin sayı çox olmuşdur. Elə bu səbəbdən də, hədis istilahında buna "səhih-ğarib" hədis deyilir.

İmam Buxari öz "Səhih"ini bu hədislə başlamış və Peyğəmbərin ﷺ: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə var ki, bunlar: "Sübhanəllahi və bihəmdihi, subhanəllahil-azim!" kəlmələridir" hədisi ilə tamamlamışdır. İmam Buxari bu üslubu ilə bildirmək istəyir ki, əməlin başlanğıcı niyyət, sonu isə bu əməlin, Qiyamət günü tərəzidə çəkilməsidir.

Bir çox alimlər də, öz kitablarını bu hədislə başlamışlar. Məsələn: Abdulğani əl-Məqdisi "Umdətul-Əhkam" kitabını, Bəğəvi "Məsabihus-Sunnə" və "Şərhus-Sunnə" kitablarını və Suyuti "əl-Camius-Sağir" kitabını bu hədislə başlamışdır.

Bu hədis dinin əsas üç təməlindən biri sayılır.

Bu xüsusda İmam Şafii ﷺ demişdir: "Bu hədis elmin üçdə birini təşkil edir və fiqh elminin yetmiş fəslinə aid edilir."[1] İmam Şafii demək istəyir ki, bu hədis şəriətə aid olan hər bir məsələdə müsəlmanın yanında olmalıdır, yəni hər bir əməlin başlanğıcında onu Allah üçün yerinə yetirəcəyinə niyyət etməlidir. Rəvayət edilir ki, Abdurrəhman ibn Məhdiy demişdir: "Əgər mən şəriət elmi-

[1] Şərh Muslim, 13/53; Fəth əl-Bari, 1/11.

nə aid bir kitab yazsam, bu hədisi hər bir fəsilin başlanğıcına yazaram.” Alim demək istəyir ki, əgər istənilən bir əməli yerinə yetirən kimsənin o əməli yerinə yetirəcəyinə dair niyyəti olmazsa, bu əməl ona heç bir fayda verməz.

Həmçinin, İmam Əhməd ﷀ belə demişdir: “Üç hədis var ki, bunlar dinin əsasını təşkil edir: Ömərin ﷀ rəvayət etdiyi: “Əməllər ancaq niyyətlərə görədir” hədisi, Aişənin ﷀ: “Hər kim dinimizə aid olmayan bir əməli ona əlavə edərsə, bu əməl rədd edilər”[1] hədisi və bir də Nomən ibn Bəşirin ﷀ: “Halal da bəllidir, haram da bəllidir”[2] hədisi.”[3]

İmam Əhmədin ﷀ bu sözünü izah edib demək olar ki, İslam dini əmr və qadağalardan ibarətdir, yəni halal və haramlardan. Əmrləri yerinə yetirdikdə, habelə, qadağalardan çəkindikdə onların ibadət sayılması üçün niyyətin olması lazımdır və nəhayət, niyyət edilmiş əməlin qəbul olunması üçün onun Sünnəyə uyğun olması vacibdir. Beləliklə də, aydın olur ki, bu üç hədis dinin əsasını təşkil edir.[4]

Bu hədisdə Peyğəmbər ﷺ: “Əməllər ancaq niyyətlərə görədir”– deyir. Yəni, əməllərin qəbul olunması və ya səhih sayılması üçün niyyətin olması lazımdır. Burada “əməl” deyildikdə, onun hər üç növü nəzərdə tutulur. Yəni, qəlbdən keçən, dillə deyilən və bədən əzaları ilə yerinə yetirilən əməllər.

---

1 Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

2 Səhih əl-Buxari, 52, 2051; Səhih Muslim, 1599.

3 Məcmu əl-Fətavə, 18/249; Camiul-Ulum vəl-Hikəm, 1/9.

4 Fəthul-Qəviyyul-Mətin fi Şərh əl-Ərbəin, Abdulmuhsin əl-Abbad səh. 3.

Hamıya məlumdur ki, əməlin qəbul olunması üçün, onda iki şərtin olması vacibdir, birincisi ixlas – niyyət buna aiddir, ikinci isə sünnəyə müvafiq olmasıdır. Bu xüsusda, Uca Allah buyurur:

﴿ ٱلَّذِى خَلَقَ ٱلْمَوْتَ وَٱلْحَيَوٰةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا ﴾

“Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur.”[1] Rəvayət edilir ki, Fudeyl ibn İyad bu ayəni izah edib demişdir: “Əməl baxımından daha yaxşı olanınız” yəni daha səmimi və daha doğru olanınız. Ondan: “Daha səmimi və doğru olanı nədir?”– deyə soruşulduqda, o belə cavab vermişdir: “Əgər əməldə səmimiyyət olsa, lakin doğruluq olmasa, o qəbul olunmaz. Həmçinin, əgər əməldə doğruluq olsa, lakin səmimiyyət olmasa, o, yenə qəbul olunmaz. Əməl yalnız o təqdirdə qəbul olar ki, onda səmimiyyət və doğruluq olsun. “Səmimi əməl” deyildikdə, Allah üçün yerinə yetirilən əməl, “doğru əməl” deyildikdə isə Sünnəyə uyğun olan əməl nəzərdə tutulur.”[2]

Niyyət sözünə gəlincə, bu, istənilən bir ibadəti Allah üçün yerinə yetirməyi qəsd etməkdir, yeri də, qəlbdədir, yəni tələffüz etməyə gərək yoxdur.

Sonra hədisdə deyilir ki, “Hər kəsə yalnız niyyət etdiyi şey qalacaqdır”, yəni, adam etdiyi əməlin savabını niyyətinə görə qazanır. Deməmk, niyyət, insanın etdiyi əməlin Allah rizası üçün, yoxsa dünya mənfəəti əldə etmək üçün olduğunu ayırd edir. Məqsəd də, adəti ibadətdən, yaxud ibadətlərin birini digərindən ayırd etməkdir.

---

[1] əl-Mulk, 2.

[2] Təfsir əl-Bəğəvi; Təfsir əs-Sədi.

Birincisinə yeməyi misal çəkmək olar. Adamın biri yeməyə olan istəkdən dolayı onu yeyir, beləliklə də, o, bu əməlinə görə savab qazanmır. Digəri isə Allahın "əl-Əraf" surəsindəki "yeyin için"[1] əmrini yerinə yetirmək niyyəti ilə yeyir, beləliklə də etdiyi əmələ görə savab qazanır.

Bu məsələyə dair çimməyi də misal çəkmək olar. Birisi sərinlənmək məqsədilə çimir, ikincisi isə cənabət halını aradan qaldırmaq üçün qüsl edir. Birincisi adət, ikincisi isə ibadət sayılır.

İbadətlərin birini digərindən ayırd etməyə də iki rükətli namazı misal çəkmək olur. Birisi iki rükət nafilə namazı qılır, digəri isə iki rükətli vacib namazı. Bu iki niyyət bir namazı digərindən ayırd edir. Beləcə digər ibadətləri də, buna müqayisə edə bilərsiniz.[2]

Niyyətin yeri qəlbdir və onu dillə tələffüz etməyə ehtiyac yoxdur. Çünki Peyğəmbər ﷺ və onun səhabələri niyyəti dillə tələffüz etməyiblər.

İbadət üçün niyyət etməyin hökmünə gəlincə, "əl-Beyyinə" surəsinin 5-ci ayəsinə əsasən demək olar ki, hər bir ibadət üçün niyyət etmək vacibdir. Çünki həmin ayədə Uca Allah buyurur:

﴿ وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ ﴾

"Halbuki onlara, dini məhz Allaha məxsus edərək ibadət etmək əmr olunmuşdu." Ayədən aydın başa düşülür ki, əməl ixlasla Allah üçün olmalıdır. Yəni Allaha ibadət edən adam, niyyət etməlidir ki, yerinə yetirəcəyi əməli Allah üçün edəcək. Əks təqdir-

[1] əl-Əraf, 31.

[2] "Şərh əl-Ərbəin", İbn Useymin, 1/4-5.

də, yəni əgər adamın niyyətinə riya qarışarsa, əməli puç olur. Riyanı da İslam alimləri iki qismə bölmüşlər:

Birincisi, ibadətin əvvəlindən onu Allahdan qeyrisi üçün yerinə yetirməyə niyyət etmək. Məsələn: əgər adam namazı kiməsə özünü göstərmək məqsədilə qılarsa, o namaz batil olar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Kim özünü göstərmək məqsədilə namaz qılar, yaxud oruc tutar, yaxud da sədəqə verərsə, Allaha şərik qoşmuş olar."[1]

İkincisi, ibadət əsnasında niyyətə riya qarışdırmaqdır. Bunun da bir neçə halı var:

1-cisi, ibadət əsnasında niyyəti dəyişib onu məxluq üçün etmək. Məsələn: adam namazı Allah üçün qılmağa niyyət edib namaza başlayır, lakin namaz əsnasında niyyətini dəyişib onu, namazı müşahidə edən kimsə üçün qılmağa başlayır. Bu niyyət əməli bütövlüklə puç edir.

2-cisi, əməli məxluqa görə gözəlləşdirmək. Məsələn: adam namazı Allah üçün qılır, lakin bir kimsənin ona baxdığını görəndə namazını daha gözəl tərzdə qılmağa çalışır, məsələn rükuda həmişəkindən artıq təsbih gətirir. Belə olduğu təqdirdə onun sadəcə riya ilə artırdığı əməli puç olur, ibadətin əslinə isə təsir etmir, çünki onun əsli Allah üçündür.

3-cüsü, yerinə yetirilən əməl başa çatdıqdan sonra qəlbə riya gələrsə, bu niyyət əməli puç etmir. Hətta əgər adam özü istəmədən insanlar onu həmin əmələ görə tərifləyərlərsə, bu onun üçün Qiyamət günü uğur qazanacağına işarə olar. Hədislərin birində

---

[1] Musnəd İmam Əhməd, 4/125; Musnəd əl-Bəzzar, 8/407.

rəvayət edilir ki, səhabələrdən biri Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, əgər adam etdiyi yaxşı əmələ görə tərif olunmağı istəmədiyi halda insanlar onu tərif edərlərsə, onda necə?"- deyə soruşmuş, Peyğəmbər ﷺ də belə cavab vermişdir: "Bu tərif, möminin dünyadakı müjdəsidir."[1]

Bundan əlavə xüsusilə qeyd etmək lazımdır ki, niyyətlə bağlı Allah üçün yerinə yetiriləcək əməllər iki qismə bölünür:

1-cisi, sırf Allah üçün yerinə yetirilməsi vacib olan əməllərdir ki, bunlar da, ibadətlərin və şəri əməllərin çoxunu təşkil edir. Belə əməlləri yerinə yetirdikdə, onun müqabilində dünya mənfəəti əldə etmək barədə əsla düşünmək olmaz. Məsələn: namaz qılmaq, oruc tutmaq və s.

2-cisi isə o əməllərdir ki, şəriət, onların müqabilində axirət savabı ilə yanaşı dünya mənfəəti də əldə etməyi caiz buyurub. Məsələn: qohumluq əlaqələrini möhkəmləndirmək. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Qoy ruzisinin artmasını və ömrünün uzanmasını istəyən kəs qohumları ilə əlaqə saxlasın"[2] Demək, adam qohumlarla əlaqəni möhkəmləndirdikdə, axirət savabından əlavə, ruzisinin artması və ömrünün uzanması üçün də niyyət edə bilər.[3]

Bu hədisdə Peyğəmbər ﷺ hicrət edən şəxsi misal çəkib buyurur ki: "Kimin hicrəti Allah və Onun rəsulu ﷺ üçündürsə, onun hicrəti, Allaha və Onun rəsuluna ﷺ aiddir."

---

[1] Səhih Muslim, 2642.

[2] Səhih əl-Buxari, 2067; Səhih Muslim, 2557.

[3] Şərh əl-Ərbəin ən-Nəvəviyyə, Saleh Ali əş-Şeyx, 1/25-29.

Hicrət kəlməsi lüğəti mənada "tərk etmək", şəri mənada isə, küfr diyarından İslam diyarına və ya İslamını yaşaya biləcək bir diyara köçməkdir. Necə ki, səhabələr Məkkədən Həbəşistana və ya Məkkədən Mədinəyə hicrət etmişlər.

Bir müsəlmanın İslamı yaşamaq və onu yaymaq üçün, habelə, Peyğəmbərin ﷺ yanında olub onun sünnəsinə riayət etmək, sünnəyə dəvət etmək və onu müdafiə etmək məqsədilə hicrət etməsi, Allah və Onun rəsulu ﷺ üçün yerinə yetirilən hicrət sayılır. Sual verilə bilər ki, Rəsulullahın ﷺ vəfatından sonra onun üçün hicrət etmək istəyən kimsə necə etməlidir, axı Rəsulullah ﷺ artıq aramızda deyil. Sualın cavabı budur ki, onun sünnəsini yaymaq və onu müdafiə etmək məqsədilə hicrət etmək, Rəsulullah ﷺ üçün yerinə yetirilən hicrət sayılır.

Hədisin sonunda deyilir ki, "kimin hicrəti, əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına görədirsə, onun hicrəti, hicrət etdiyi şeyə aiddir" yəni, əgər adam bir yerdən başqa yerə dünya malı əldə etmək, yaxud qadınla evlənmək və ya başqa dünya mənfəətlərinə nail olmaq məqsədilə hicrət edibsə, ona, yalnız dünya mənfəəti çatır.

Peyğəmbərin ﷺ başqa bir hədisi bu məsələyə daha geniş aydınlıq gətirir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Kimin məqsədi Axirəti qazanmaq olarsa, Allah onun varını qəlbinə yerləşdirər, *o, hər şeyə qane olar,* onun işlərini avand edər və *qədərinə yazılmış* dünya malı ram edilmiş halda gəlib onu tapar. Kimin də məqsədi dünyanı qazanmaq olarsa, Allah onun kasıblığını onun

gözləri arasına gətirər, işlərini dolaşığa salar və dünya malından da, o, yalnız qədərinə yazılmış olanı əldə edər."[1]

Hədisdən aydın başa düşülür ki, kimin niyyəti haradırsa, mənzili də oradır. İndi gəlin, sələflərin niyyət barədə dedikləri bir neçə ibrətamiz sözlərlə bu hədisin şərhinə son verək:

Abdullah ibn əl-Mubarək ﷬ demişdir: "Ola bilər ki, niyyət kiçik bir əməlin savabını qat-qat artırsın və ola da bilər ki, niyyət böyük bir əməlin savabını azaltsın."[2]

Yəhya ibn Kəsir ﷬ demişdir: "Niyyətin mahiyyətini öyrənin, çünki onu öyrənmək əməlin mahiyyətini öyrənməkdən daha əhəmiyyətlidir."[3]

Süfyan əs-Sovri ﷬ demişdir: "İslah etdiyim əməllərim arasında mənə ən ağır gələni niyyətim olub. Çünki o, tez-tez dəyişir."[4]

İbn İclan ﷬ demişdir: "Əməllər yalnız üç şeylə islah olur: Allahdan qorxmaq, gözəl niyyət etmək və sünnəyə müvafiq iş görməklə."[5]

Sonda, Allahdan istəyimiz budur ki, bizə, daim Allahın və Onun rəsulunun ﷺ rizasını qazanmaq üçün niyyətlər etməyi və niyyətimizi müvəffəqiyyətlə həyata keçirməyi və bunun sayəsində böyük savablar qazanmağı nəsib etsin.

---

[1] Sunən ət-Tirmizi, 2/76; Silsilətul-Əhadisis-Səhihə, 949-cu hədis.

[2] Camiul-Ulum vəl-Hikəm, 1/71.

[3] Hilyə əl-Ovliya, 3/70.

[4] Hilyə əl-Ovliya, 7/62.

[5] Camiul-Ulum vəl-Hikəm, 1/71.

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ يَا مُقَلِّبَ الْقُلُوبِ ثَبِّتْ قُلُوبَنَا عَلَى دِينِكَ ))

“Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!”[1]

[1] Sunən ət-Tirmizi, 3517; Silsilə əl-Əhadis əs-Səhihə, 2091.

## **İkinci hədis**

عَنْ عُمَرَ ﷺ أَيْضًا قَالَ: "بَيْنَمَا نَحْنُ جُلُوسٌ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ ذَاتَ يَوْمٍ، إذْ طَلَعَ عَلَيْنَا رَجُلٌ شَدِيدُ بَيَاضِ الثِّيَابِ، شَدِيدُ سَوَادِ الشَّعْرِ، لَا يُرَى عَلَيْهِ أَثَرُ السَّفَرِ، وَلَا يَعْرِفُهُ مِنَّا أَحَدٌ. حَتَّى جَلَسَ إلَى النَّبِيِّ ﷺ. فَأَسْنَدَ رُكْبَتَيْهِ إلَى رُكْبَتَيْهِ، وَوَضَعَ كَفَّيْهِ عَلَى فَخِذَيْهِ، وَقَالَ: يَا مُحَمَّدُ أَخْبِرْنِي عَنْ الْإِسْلَامِ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ الْإِسْلَامُ أَنْ تَشْهَدَ أَنْ لَا إلَهَ إلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَتُقِيمَ الصَّلَاةَ، وَتُؤْتِيَ الزَّكَاةَ، وَتَصُومَ رَمَضَانَ، وَتَحُجَّ الْبَيْتَ إنْ اسْتَطَعْت إلَيْهِ سَبِيلًا. قَالَ: صَدَقْت. فَعَجِبْنَا لَهُ يَسْأَلُهُ وَيُصَدِّقُهُ! قَالَ: فَأَخْبِرْنِي عَنْ الْإِيمَانِ. قَالَ: أَنْ تُؤْمِنَ بِاَللَّهِ وَمَلَائِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الْآخِرِ، وَتُؤْمِنَ بِالْقَدَرِ خَيْرِهِ وَشَرِّهِ. قَالَ: صَدَقْت. قَالَ: فَأَخْبِرْنِي عَنْ الْإِحْسَانِ. قَالَ: أَنْ تَعْبُدَ اللَّهَ كَأَنَّك تَرَاهُ، فَإِنْ لَمْ تَكُنْ تَرَاهُ فَإِنَّهُ يَرَاك. قَالَ: فَأَخْبِرْنِي عَنْ السَّاعَةِ. قَالَ: مَا الْمَسْئُولُ عَنْهَا بِأَعْلَمَ مِنْ السَّائِلِ. قَالَ: فَأَخْبِرْنِي عَنْ أَمَارَاتِهَا؟ قَالَ: أَنْ تَلِدَ الْأَمَةُ رَبَّتَهَا، وَأَنْ تَرَى الْحُفَاةَ الْعُرَاةَ الْعَالَةَ رِعَاءَ الشَّاءِ يَتَطَاوَلُونَ فِي الْبُنْيَانِ. ثُمَّ انْطَلَقَ، فَلَبِثْنَا مَلِيًّا، ثُمَّ قَالَ: يَا عُمَرُ أَتَدْرِي مَنْ السَّائِلُ؟. قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: فَإِنَّهُ جِبْرِيلُ أَتَاكُمْ يُعَلِّمُكُمْ دِينَكُمْ ". رَوَاهُ مُسْلِمٌ [رقم:٨].

Rəvayət edilir ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "Bir dəfə biz Peyğəmbərin ﷺ yanında oturmuşduq. Birdən ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən bir əsər-əlamət görünməyən və heç birimizin tanımadığı bir adam yanımıza gəldi. Nə-

hayət, o yaxınlaşıb Peyğəmbərlə ﷺ üzbəüz oturdu, dizlərini onun dizlərinə dayadı, əllərini də öz budunun üstünə qoyub dedi: "Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!" Peyğəmbər ﷺ buyurdu: "İslam odur ki, Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə Kəbəni ziyarət edəsən." Adam: "Doğru söylədin!"– dedi.

Ömər ibn əl-Xattab dedi: "Biz ona təəccüb etdik, o həm sual verdi, həm də cavabın doğru olduğunu təsdiqlədi. Sonra o dedi: "Mənə iman haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "*İman odur ki,* Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən." Adam: "Doğru söylədin!"– dedi. Sonra o dedi: "Mənə ehsan haqqında xəbər ver". Peyğəmbər ﷺ buyurdu: "*Ehsan odur ki,* Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, *bil ki,* O səni görür". Sonra o dedi: "Mənə Qiyamət saatı haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "Bu haqda soruşulan soruşandan çox bilmir." Sonra o dedi: "Mənə onun əlamətləri haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "O vaxt ki, cariyə öz ağasını dünyaya gətirəcək və sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."

Ömər dedi: "Sonra o çıxıb getdi. Biz uzun müddət gözlədik. Sonra Peyğəmbər ﷺ məndən soruşdu: "Ey Ömər, bilirsən, sual verən kim idi?" Mən: "Allah və Onun rəsulu daha yaxşı bilir!"–

dedim. Peyğəmbər ﷺ buyurdu: "O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi."

Bu hədisi, Muslim رحمه الله öz "Səhih"ində rəvayət etmişdir.[1]

Yadınıza gəlirsə, əvvəlki hədisi şərh edərkən dedik ki, İmam Buxari öz "Səhih"ini o hədislə, yəni: "Əməllər ancaq niyyətlərə görədir" hədisi ilə başlamışdır. İmam Muslim də öz "Səhih"ini bu hədislə başlamışdır. Deməli, ixlası və sünnəni əhatə edən bu iki hədis bütün hədislərin başında durur.

İslam alimlərindən bəzisi bu hədisi "Ummus-Sunnə/Sünnənin anası" adlandırmışlar. Necə ki, Quranda "əl-Fatihə" surəsi "Ummul-Quran/Quranın anası" adlanır, eləcə də, Sünnədə varid olmuş bu hədis "Ummus-Sunnə" adlanır. Çünki Sünnə bütövlüklə bu hədisə söykənir. Belə ki, bu hədis sağlam əqidəni bəyan edir, sağlam əqidə isə İmanın altı dayağına söykənir, eləcə də, bu hədis, şəriəti bəyan edir, şəriət isə, İslamın beş dayağına söykənir. Hədisin axırına nəzər salmaq kifayətdir. Axırında Peyğəmbər ﷺ buyurur: "O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi." Deməli, İslam dini üç hissədən ibarətdir, İslam, iman və ehsan.

Bu hədisdə Ömər رضي الله عنه xəbər verir ki, səhabələr Peyğəmbərin ﷺ yanında ikən birdən ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən heç bir əsər-əlamət görünməyən və tanımadıqları birisi onların yanına gəldi. Diqqət edin, adamın paltarının tərtəmiz olması, onun uzun müddət səfərdə olmasından yox, hardansa peyda olmasından xəbər verir. Həmçinin, onun saçlarının qapqara olması da, onun cavan adam olmasını göstərir. Səhabələrin

[1] Səhih Muslim, 8.

onu tanımaması isə, o adamın Mədinə əhlindən deyil, qərib bir adam olduğundan xəbər verir. Adamın Peyğəmbərlə ﷺ üzbəüz oturması, dizlərini onun dizlərinə dayaması, əllərini də, öz budunun üstünə qoyması, onun Peyğəmbərə ﷺ olan böyük ehtiramından irəli gəlir. Peyğəmbərin ﷺ öz səhabələri ilə bir yerdə oturması, onun təvazökar insan olmasına dəlalət edir.

Hədisdən aydın başa düşülür ki, mələk insanlar arasına insan surətində gələ bilər. Qurani Kərimdə də xəbər verilir ki, Cəbrail عليه السلام Məryəmin عليها السلام yanına insan surətində gəlmişdir, habelə, İbrahim və Lutun عليهما السلام yanına gəlmiş mələklər də insan surətində olmuşlar. Qeyd edək ki, mələklərin insan surətinə girməsi, onların öz istəyi ilə yox, yalnız Allahın izni ilə baş verir.

Bu hədis hər bir müsəlmana dini öyrənməyin yolunu göstərir. İlk əvvəl ədəb qaydalarından başlayır. Hədisdən aydın başa düşülür ki, elm öyrənmək istəyən kəs onun dalınca getməli, onu bilənlərdən öyrənməli və elm məclislərində iştirak etməlidir. Üstəlik, elm tələb edən kimsənin zahiri görünüşü də, gözəl olmalıdır – libası təmiz, saçları daranmış və s. Habelə, o, alimin qarşısında ədəb-ərkanla oturmalı, bilmədiyini ondan soruşmalı və səbirlə onu dinləməlidir. Kim öz dinini öyrənmək üçün sual verməzsə, xeyirdən məhrum olar. Elə buna görə də, alimlər demişlər: "İki xislət vardır ki, bunlar kimdə olarsa, o kimsə elmdən məhrum olar: bu, həya və təkəbbürlükdür." Yəni, bir, sual verməyə utanan kimsə, bir də təkəbbürlüyündən sual verməyən kimsə elm öyrənə bilməz. Elm öyrənmək istəyən kəs həm təvazökar olmalı, həm də bilmədiyini bilənlərdən soruşmalıdır. Xüsusilə qeyd etmək lazım-

dır ki, sualı verən kimsənin niyyəti yaxşı olmalıdır. Məsələn: sualı, dini öyrənmək və onu başqalarına öyrətmək, bunun sayəsində savab qazanmaq və s. gözəl məqsədlərlə vermək lazımdır. Biləsiniz, dini öyrənmək məqsədilə alimə sual verməyiniz ibadət sayılır. İbadət isə yalnız iki şərtlə qəbul olur: ixlas və mütabəə. Yəni gözəl niyyətlə və sünnəyə müvafiq şəkildə olmalıdır. Yəni, əgər sualı yaxşı niyyətlə versəniz savab, yox, əgər bunu pis niyyətlə etsəniz, günah qazanacaqsınız. Odur ki, sual verən adam əvvəlcə niyyətini düzəltməlidir. Bəzi adamlar sualı, özlərini göstərmək, yaxud bəyənmədiyi bir kimsəni biabır etmək, yaxud birisinə hiylə qurmaq və s. pis məqsədlərlə verir. Verilən sual yalnız o halda yaxşı sual sayıla bilər ki, o sualı verən kimsənin niyyəti yaxşı olsun. İmam Buxarinin "Səhih"ində rəvayət edilmiş hədisdə, Abdul-Qeys qəbiləsinin nümayəndələrinin verdiyi sualı misal çəkmək olar. O zaman onlar Peyğəmbərə ﷺ belə demişdilər: "Ya Rəsulullah! Bizə haqqı batildən ayırd edən bəlli bir şey əmr et ki, onu geridə qalanlarımıza da xəbər verək və onun sayəsində Cənnətə girək."

Cəbrailin عليه السلام Peyğəmbərə ﷺ: "Mənə İslam haqqında xəbər ver" deməsi dəlildir ki, Muhəmməd ﷺ insanlara İslam dini haqqında xəbər verən peyğəmbərdir.

Peyğəmbərin ﷺ İslamı zahiri əməllərə - şəhadət, namaz, zəkat, oruc və həccə aid etməsi o deməkdir ki, İslam sadəcə bu əmrlərə zahirən boyun əyməkdir və iman gətirmədən bu zahiri əməlləri yerinə yetirməyin heç bir faydası yoxdur. Yəni, əgər adam bir

yandan dili ilə şəhadət gətirsə, bir yandan da, Allaha və Onun rəsuluna ﷺ iman gətirməsə, kafir sayılar.

İslam alimləri bu və buna bənzər hədislərə əsasən deyirlər ki, İslam: Allahın vəhdaniyyətini qəbul etmək, Onun buyuruqlarını yerinə yetirmək, üstəlik, şirkdən və müşriklərdən uzaq olmaqdır.

Müxtəsər olaraq qeyd edək ki, bu hədisdə şəhadət kəlməsini tələffüz etmək deyildikdə, həm də onun mənasını başa düşmək qəsd edilir. əz-Zuxruf surəsinin 86-cı ayəsində belə buyurulur:

﴿إِلَّا مَن شَهِدَ بِٱلۡحَقِّ وَهُمۡ يَعۡلَمُونَ﴾

"Yalnız o kəslərdən başqa ki, onlar dediklərinin mənasını bildikləri halda haqqa şəhadət verirlər."

Müsəlman olmaq istəyən hər kəs şəhadət kəlməsini – "Lə ilahə illəllah, Muhəmmədun Rəsulullah" sözünü dili ilə tələffüz etməli, onu qəlbən qəbul etməli və onun tələblərini yerinə yetirməlidir.

"Muhəmmədun rəsulullah" şəhadətinin tələblərini yerinə yetirmək deyildikdə, onun əmrlərinə riayət etmək, qadağan etdiyi əməllərdən isə çəkinmək nəzərdə tutulur. Yəni, Uca Allaha yalnız Onun rəsulunun ﷺ öyrətdiyi qaydada ibadət etmək, ona ehtiram göstərmək, onu sevmək, ona tabe olmaq, onun yolunu tutub getmək. Habelə, əqidəyə və ibadətə aid hər növ küfrə və azğınlığa aparan bidətlərdən uzaq olmaq lazımdır. Belə ki, bidətin yaxşısı olmur. Hər bir bidət zəlalət hesab olunur. Həmçinin, həm əqidə məsələlərində, həm fiqhi məsələlərdə, həm də fəzilətli əməllərdə "səhih" və ya "həsən" olmasından asılı olmayaraq hər növ məqbul hədisə riayət etmək, habelə, sabit olmadığı üçün "zəif" və

"uydurma" hədisləri inkar etmək də buna aiddir. Müxtəsər olaraq qeyd edə bilərik ki, "Muhəmmədun rəsulullah" şəhadətinin əhatə etdiyi məsələlər bunlardır:

1 – Muhəmmədin ﷺ peyğəmbər olduğuna iman gətirmək.

2 – Peyğəmbərin ﷺ təbliğ etdiyini – Quran və Sünnəni təsdiqləmək və onlara hörmətlə yanaşmaq.

3 – Peyğəmbərə ﷺ tərəddüdsüz itaət etmək.

4 – Peyğəmbərin ﷺ yolunu tutub getmək.

5 – Peyğəmbəri ﷺ sevmək.

6 – Peyğəmbəri ﷺ ilahiləşdirmədən onun hörmətini saxlamaq.

7 – Peyğəmbərin ﷺ gətirdiyi dinin, şəriətin və sünnənin yayılmasına yardım etmək.

8 – Peyğəmbərə ﷺ salavat demək.

Həmçinin, bu hədisdə, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və həcc ziyarətini yerinə yetirmək deyilir ki, bu haqda biz, in şaa Allah növbəti hədisin şərhində ətraflı danışacağıq.

Şərh etdiyimiz bu hədisdə, Ömər ibn əl-Xattab رضي الله عنه deyir ki: "Biz ona təəccüb etdik, o həm sual verdi, həm də cavabın doğru olduğunu təsdiqlədi." Bu sözdən aydın başa düşülür ki, sual verən artıq cavabı bilirmiş. Bundan belə nəticə çıxır ki, adam başqalarına fayda vermək məqsədilə cavabını bildiyi bir sualı alimə verə bilər. Bu da, şəriətin bizə öyrətdiyi gözəl üslublardan biridir.

Bu hədisdə zikr olunan imanın altı dayağı Quranda da öz təsdiqini tapıb. əl-Bəqərə surəsinin 177-ci ayəsində yaxşı əməl sahiblərinin, Allaha, Axirət gününə, mələklərə, kitablara və peyğəm-

bərlərə iman gətirən kimsələr olduğu bildirilir. Həmçinin, ən-Nisa surəsinin 136-cı ayəsində belə buyurulur: “Ey iman gətirənlər! Allaha, Onun elçisinə, elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən kəs, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşdür.” Qədərə iman barədə isə ayrıca bir ayədə - əl-Qəmər surəsinin 49-cu ayəsində belə buyrulur: “Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq.”

Məlumat üçün qeyd edək ki, heç bir hədisdə imanın rüknləri, yəni dayaqları deyə ifadə zikr edilməyib, lakin İslam alimləri bu və buna bənzər hədislərə əsaslanaraq imanın altı rüknü olduğunu bildiriblər.

**Birinci rükn**, Allaha iman gətirməkdir və bu, dörd şeyi əhatə edir:

1-cisi, adam iman gətirməlidir ki, onu yaradan Rəbbi var, eləcə də, digər varlıqlar öz-özünə yaranmayıb, onları yaradan var.

2-cisi, iman gətirməlidir ki, bu səltənətin sahibi təkdir, səltənətində Onun heç bir şəriki yoxdur və O, öz səltənətini istədiyi kimi idarə edir. Buna, Rububiyyə tovhidi deyilir.

3-cüsü, iman gətirməlidir ki, bu səltənət sahibinin gözəl adları və uca sifətləri var. Bu adların və sifətlərin heç birində nöqsan yoxdur, əksinə, onların hamısı kamil adlar və sifətlərdir. Buna da adlar və sifətlər tovhidi deyilir.

4-cüsü, iman gətirməlidir ki, bu səltənətin sahibi olan Allahdan başqa ibadət olunmağa haqqı çatan bir məbud yoxdur. Buna da Uluhiyyə tövhidi deyilir.

**<u>İkinci rükn</u>**, mələklərə iman gətirməkdir. Mələklərə iman iki qismə bölünür.

1-cisi, müxtəsər surətdə iman gətirməkdir. Hədisdə qəsd edilən iman da, buna aiddir. Yəni, adam iman gətirməlidir ki, mələklər Allahın nurdan yaratdığı, pak və möhtərəm məxluqlardır. Allah onları göylərə yerləşdirmiş, bəzilərinə də yer əhlinə aid işləri yerinə yetirməyi həvalə etmişdir. Onlar Allahın əmrlərini yerinə yetirən qullarıdır.

2-ci qism isə, təfsilatlı şəkildə iman gətirməkdir. Bu da, Allahın Öz kitabında və Peyğəmbərin ﷺ Sünnədə mələklər barədə - onların halı, vəsfi, xilqəti, üstünlükləri, adları və sairə barədə bildirdiyi hər bir xəbərə iman gətirməkdir. Belə ki, onlardan bəzisinin adları bizə məlumdur, məsələn: Cəbrail, Mikail, İsrafil, Malik, Munkir və Nəkir, Harut və Marut, habelə, onlardan kimisinə vəhy gətirmək, kimisinə yağış endirmək, kimisinə can almaq, kimisinə ana bətnindəki uşağa ruhu üfürmək və onun qədərinə dörd şey yazmaq, kimisinə Cənnəti mühafizə etmək, kimisinə də Cəhənnəmi mühafizə etmək həvalə edildiyi bizə məlumdur. Bütün bunlara iman gətirmək isə mələklərə təfsilatlı şəkildə iman gətirmək deməkdir.

**<u>Üçüncü rükn</u>**, kitablara iman gətirməkdir. Bu da, həmçinin, iki qismə bölünür:

1-cisi, müxtəsər surətdə iman gətirməkdir. Hədisdə qəsd edilən iman da buna aiddir. Yəni, adam iman gətirməlidir ki, Allah Öz peyğəmbərlərinə kitablar nazil etmiş və bu kitabları onların peyğəmbər olduğuna dəlalət edən bir möcüzə etmiş, habelə, bu

kitabları insanlara doğru yol göstərən və onları islah edən bir rəhbər etmişdir.

2-ci qism isə, təfsilatlı şəkildə iman gətirməkdir. Yəni adları bəlli olan kitablara xüsusi olaraq iman etməkdir. Məsələn: adam iman etməlidir ki, Qurani Kərim Muhəmmədə ﷺ nazil olmuş, özündən əvvəlkiləri təsdiqləyən, həm də onları nəsx edən sonuncu kitabdır, Allahın, insanlar arasında Qiyamətədək qalacaq möcüzəsidir. Eləcə də, adam Tövratın Musaya عَلَيْهِ السَّلَامُ, İncilin İsaya عَلَيْهِ السَّلَامُ və Zəburun Davuda عَلَيْهِ السَّلَامُ göndərilən səmavi kitab olduğuna, habelə, İbrahim və Musa عَلَيْهِمَا السَّلَامُ səhifələrinin Allahdan nazil olduğuna iman gətirməlidir. Qeyd edək ki, bu kitablardan birini inkar edən kimsə kafir sayılır.

Uca Allah mömin qullarının səmavi kitabların hamısına iman gətirdiklərini təsdiqləmələri üçün onlara belə buyurmuşdur: "Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!"[1]

<u>**Dördüncü rükn**</u>, elçilərə və peyğəmbərlərə iman gətirməkdir. Bu da, həmçinin, iki qismə bölünür:

1-cisi, müxtəsər surətdə iman gətirməkdir. Hədisdə qəsd edilən iman da, buna aiddir. Yəni, adam iman gətirməlidir ki, Allah insanları tovhidə - yəni Allahın tək ilah olduğunu qəbul etməyə dəvət edən elçilər və peyğəmbərlər göndərmiş və onları, peyğəm-

---

[1] əl-Bəqərə, 136.

bərliklərini sübuta yetirən dəlillərlə qüvvətləndirmişdir. Onlar da, öz növbəsində Allahın göndərdiyi risaləti tam şəkildə təbliğ etmişlər. Bu xüsusda əz-Zumər surəsinin 71-ci ayəsində belə xəbər verilir: "Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda, onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla qorxudan elçilər gəlməmişdi?" Onlar: "Bəli, *gəlmişdi!*"– deyəcəklər. Lakin əzab sözü kafirlər barəsində gerçəkləşdi."

2-ci qism isə, təfsilatlı şəkildə iman gətirməkdir. Bu da, Quranda və hədislərdə peyğəmbərlər barədə - onların halı, vəsfi, üstünlükləri, adları və sairə barədə zikr edilən hər bir xəbərə iman gətirməkdir. Belə ki, onlardan bəzisinin adları bizə məlumdur. Quranda bizə o peyğəmbərlərdən iyirmi beşinin adı bildirilir.[1] Bu

---

[1] Quranda adları zikr olunan peyğəmbərlər bunlardır:

**Adəm** عليه السلام (əl-Bəqərə, 31), **İdris** عليه السلام (Məryəm, 56), **Nuh** عليه السلام (əl-Ənam, 84), **Hud** عليه السلام (Hud, 50), **Saleh** عليه السلام (ən-Nəml, 45), **İbrahim** عليه السلام (əl-Ənam, 83), **İsmail** عليه السلام (əl-Ənam, 86), **İshaq** عليه السلام (əl-Ənam, 84), **Lut** عليه السلام (əl-Ənam, 86), **Şueyb** عليه السلام (əl-Əraf, 85), **Yəqub** عليه السلام (əl-Ənam, 84), **Yusuf** عليه السلام (əl-Ənam, 84), **Zulkifl** عليه السلام (əl-Ənbiya, 85), **Əyyub** عليه السلام (əl-Ənam, 84), **Yunus** عليه السلام (əl-Ənam, 86), **Musa** عليه السلام (əl-Ənam, 84), **Harun** عليه السلام (əl-Ənam, 84), **İlyas** عليه السلام (əl-Ənam, 85), **Əlyəsə** عليه السلام (əl-Ənam, 86), **Davud** عليه السلام (əl-Ənam, 84), **Suleyman** عليه السلام (əl-Ənam, 84), **Zəkəriyya** عليه السلام (əl-Ənam, 85), **Yəhya** عليه السلام (əl-Ənam, 85), **İsa** عليه السلام (əl-Ənam, 85) və **Muhəmməd** ﷺ (Ali-İmran, 144).

Peyğəmbər olub-olmadığında ixtilaf edilmiş əməlisaleh möminlər isə bunlardır:

**Zulqərneyn** عليه السلام (əl-Kəhf, 83), **Uzeyr** عليه السلام (ət-Tovbə, 30) və **əl-Xədir** عليه السلام (əl-Kəhf, 67; Səhih əl-Buxari, 122).

xüsusda Ğafir surəsinin 78-ci ayəsində, Uca Allah Muhəmmədə ﷺ belə buyurur:

﴿وَلَقَدْ أَرْسَلْنَا رُسُلًا مِّن قَبْلِكَ مِنْهُم مَّن قَصَصْنَا عَلَيْكَ وَمِنْهُم مَّن لَّمْ نَقْصُصْ عَلَيْكَ﴾

“Biz səndən əvvəl də, elçilər göndərmişdik. Onlardan bəziləri haqqında sənə danışmışıq, bəziləri haqqında isə danışmamışıq.” Xüsusilə qeyd etmək lazımdır ki, o peyğəmbərlərdən birini belə inkar edən kimsə kafir hesab edilir. Bu xüsusda Uca Allah ən-Nisa surəsinin 150-ci və 151-ci ayələrində buyurur: “Allaha və Onun peyğəmbərlərinə küfr edənlər, Allahla peyğəmbərlərini bir-birindən ayırmaq istəyib: “Biz o peyğəmbərlərin bəzisinə inanır, bəzisinə isə inanmırıq!”– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər – məhz onlar kafirdirlər.”

Yeri gəlmişkən, qeyd edək ki, elçi – yəni rəsul və peyğəmbər arasında fərq var. Onların arasında olan fərq belədir:

Rəsul o kimsəyə deyilir ki, Allah ona şəriət qanunları nazil etmiş və ona bu şəriəti insanlara təbliğ etməyi buyurmuşdur. Yəni ona özünə xas olan kitab nazil etmişdir. Məsələn: Musaya عليه السلام Tövratı, Davuda عليه السلام Zəburu, İsaya عليه السلام İncili və Muhəmmədə ﷺ Quranı nazil etmişdir. əl-Hədid surəsinin 25-ci ayəsində belə buyurulur: “Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab nazil etdik...” Bu ayə dəlildir ki, hər bir rəsula kitab nazil edilib.

O ki qaldı peyğəmbər – yəni nəbi sözünə, nəbi o kimsəyə deyilir ki, Allah ona, özündən əvvəlki rəsulun şəriətini təbliğ etməyi buyurmuş və ona ayrıca bir kitab nazil etməmişdir. Bu xüsusda

əl-Maidə surəsinin 44-cü ayəsində belə buyurulur: “Həqiqətən, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini *Allaha* təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər.” Diqqət edin, Allah Tövratı Musaya عليه السلام nazil etmişdir. Demək, Musa عليه السلام rəsuldur. İsrail oğulları arasında Musadan عليه السلام sonra göndərilən peyğəmbərlər isə yalnız Tövratı təbliğ etmişlər. Bundan bizə aydın olur ki, rəsul dərəcə baxımından peyğəmbərdən üstündür. Hər bir rəsul peyğəmbərdir, hər bir peyğəmbər isə rəsul deyil. Məlumat üçün qeyd edək ki, Allah bəşəriyyətə minlərlə peyğəmbər göndərib, bunlardan üç yüz on beşi rəsul olub.”[1] Əgər peyğəmbərləri dərəcələri ilə sadalasaq belə demək olar ki, insanların ən fəzilətlisi, peyğəmbərlərdir; peyğəmbərlərin ən fəzilətlisi, rəsullardır; rəsulların ən fəzilətlisi isə “Ulul-azm” yəni əzm sahibləri olan beş rəsuldur: Nuh, İbrahim, Musa, İsa və Muhəmməd aleyhimussalətu vəssəlam. Bu xüsusda əl-Əhzab surəsinin 7-ci ayəsində belə buyurulur: “Bir zaman Biz peyğəmbərlərdən əhd almışdıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da!” Bu beş rəsulun da ən fəzilətlisi, əlbəttə ki, Muhəmməddir ﷺ. Qurani Kərim bizə elçilərin və peyğəmbərlərin birinin digərindən üstün olduğunu xəbər verir. əl-Bəqərə surəsinin 253-cü ayəsində belə buyurulur: “Biz elçilərin bəzisini digərlərindən üstün etdik. Allah onlardan bəzisi ilə danışmış, bəzisini də dərəcələrlə yüksəltmişdir.” Həmçinin, əl-İsra surəsinin 55-ci ayəsində də deyilir ki: “Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik.”

[1] Musnəd imam Əhməd, 5/265; Silsilə əl-Əhadis əs-Səhihə, 2668-cı hədis.

**<u>Beşinci rükn</u>**, axirət gününə iman gətirməkdir. Bu da, həmçinin, iki qismə bölünür:

1-cisi, müxtəsər surətdə iman gətirməkdir. Yəni, adam iman gətirməlidir ki, insanların dirilib, haqq-hesaba çəkilmələri üçün məhşərə toplanılacaqları Qiyamət günü vardır.

2-ci qism isə, təfsilatlı şəkildə iman gətirməkdir. Bu da Quranda və hədislərdə axirət həyatı barədə deyilənlərə - ölümdən sonra başlayan bərzəx həyatından ta əbədi yurdda məskunlaşanadək baş verəcək hadisələrə, yəni ölümdən sonra qəbirdə sorğu-suala çəkilməyə, qiyamətədək orada ya nemət içində, ya da əzab içində qalmağa, sonra Qiyamət günü dirilməyə, haqq-hesab çəkilmək üçün məhşərə toplanmağa, şəfaətçilik etməyə, əməllərin tərəzidə çəkilməsinə, Cəhənnəmin üzərinə salınmış körpünün üstündən keçməyə və nəhayət, Cənnətə və ya Cəhənnəmə daxil olmağa iman gətirməkdir.

Axirətə iman gətirmək, insanın əməllərini islah edir. Əgər insan axirət gününü və o gün baş verəcək hadisələri – Allahın hüzuruna gətiriləcəyini, əməl kitabının qarşısına qoyulacağını və əməllərinə görə sorğu-sual ediləcəyini, üstəlik, əməllərinin tərəzidə çəkiləcəyini və buna görə mükafat alacağını, yaxud cəzalandırılacağını, sonra da cənnətlik, yaxud cəhənnəmlik olacağını düşünərsə, əlbəttə ki, pis işlərdən çəkinib yaxşı əməllər görməyə tələsər, beləliklə axirətdə uğur qazananlardan olar. əl-Haqqə surəsinin 19, 20, 21 və 22-ci ayələridən deyilir: "Kitabı sağ əlinə verilən kimsə deyəcək: "Budur, oxuyun kitabımı! Mən əməllərimə görə haqq-hesaba çəkiləcəyimə iman gətirmişdim." O kimsə uca Cənnətdə xoşbəxt həyat sürəcək." Ayədən aydın başa düşülür ki, ki-

tabı sağ əlinə verilən kimsə, dünyada ikən axirətə iman gətirdiyinə və etdiyi günahlar üzündən Allahdan qorxduğuna görə uğur qazanacaq və cənnətlik olacaq.

Yox, əgər adam axirətə iman gətirməzsə, dünya həyatında da, axirətdə də bədbəxt olar. Çünki bu dünyada onun məqsədi ancaq mal-dövlət toplamaq olar, axırda da, topladığı mal-dövləti bu dünyada qoyub, yükləndiyi günahlarla Rəbbinin hüzuruna gətirilər və cəhənnəmlik olar. əl-Haqqə surəsinin 25-ci ayəsindən 31-ci ayəsinədək belə xəbər verilir: "Kitabı sol əlinə verilən kimsə isə deyəcək: "Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni *əzabdan* qurtarmadı. Hökmranlığım da məhv olub getdi." *Mələklərə deyiləcək*: "Onu yaxalayıb zəncirləyin! Sonra da Cəhənnəmə atın!"

**Altıncı rükn**, qədərə – onun xeyrinə və şərinə iman gətirməkdir.

Özlərini İslama mənsub edən bəzi firqələr, ələlxüsus da qədərilər, imanın bu rüknünü inkar edir, beləliklə, mürtəd sayılırlar. Bu xüsusda Abdullah İbn Abbas ﷺ demişdir: "Qədərə iman gətirmək, tövhidin əsaslarındandır. Kim Allahın tək İlah olduğuna iman gətirsə, lakin qədəri inkar edərsə, onun bu inkarı, onun tovhid etiqadını puç edər."[1] Səhabənin bu sözündən aydın başa düşülür ki, qədərə iman gətirmək vacibdir. Bu xüsusda Uca Allah buyurur:

---

[1] Məcmə əz-Zəvaid, 7/197; Şərh Usul İtiqad Əhli-Sünnə, 1224; Şifa əl-Alil, səh: 65.

﴿وَكَانَ أَمْرُ ٱللَّهِ قَدَرًا مَّقْدُورًا﴾

“Allahın əmri əzəldən müəyyən etdiyi bir hökmdür.”[1] Başqa bir ayədə Uca Allah buyurur:

﴿ثُمَّ جِئْتَ عَلَىٰ قَدَرٍ يَٰمُوسَىٰ﴾

“Sonra əzəldən yazılmış qədərə görə gəlib *bu yerə* çatdın, ey Musa!”[2] Yenə bir ayədə Uca Allah buyurur:

﴿سَبِّحِ ٱسْمَ رَبِّكَ ٱلْأَعْلَى ﴿١﴾ ٱلَّذِى خَلَقَ فَسَوَّىٰ ﴿٢﴾ وَٱلَّذِى قَدَّرَ فَهَدَىٰ ﴿٣﴾﴾

“Ən Uca Rəbbinin adına təriflər de! O *Rəbbin* ki, *hər şeyi* yaradıb kamilləşdirdi. O *Rəbbin* ki, *hər şeyin müqəddəratını* əzəldən müəyyən edərək yol göstərdi.”[3] Beləliklə, bizə aydın olur ki, qədərə iman gətirmək dinin əsaslarından biridir. Bu xüsusda imam Əhməd ibn Hənbəl ﷺ demişdir: “Qədər, Allahın qüdrətidir.”[4] Demək, kim qədəri inkar edərsə, Allahın qüdrətini inkar etmiş olar. Allahın qüdrətini inkar edən kimsə isə kafir olar. Qədərə iman gətirmək də, iki qismə bölünür:

1-cisi, müxtəsər surətdə iman gətirməkdir. Yəni, adam iman gətirməlidir ki, kainatda baş verən hər bir hadisə Allahın əzəldən yazdığı qədərə müvafiq olaraq baş verir.

2-ci qism isə, təfsilatlı şəkildə iman gətirməkdir. Bunun özü də iki qismə bölünür.

---

[1] əl-Əhzab, 38.

[2] Ta-ha, 40.

[3] əl-Əla, 1-3.

[4] Minhac əs-Sunnə, 3/254; Məcmu əl-Fətavə, 8/308.

Birincisi, baş vermiş hadisənin əzəldən qədərə yazıldığına iman gətirməkdir. Bu da iki məsələni əhatə edir:

1-cisi, Allahın hər şeyi bilməsidir. Yəni Allah, keşmişdə nələr baş verdiyini, gələcəkdə nələr baş verəcəyini və hazırda baş verənləri, habelə, nələr baş vermədiyini və əgər baş versəydi, necə nəticələr verəcəyini bilir.

2-cisi, adam iman gətirməlidir ki, Allah məxluqatın qədərini, göyləri və yeri yaratmazdan əlli min il öncə yazmışdır və bu yazı lövhi-məhfuzda yerləşir.

Qədərə təfsilatlı şəkildə iman gətirməyin ikinci qismi də iki məsələni əhatə edir:

1-cisi, Allahın istəyinin mütləq şəkildə baş verməsidir. Yəni kainatda nə baş vermişdirsə, hazırda nə baş verirsə və gələcəkdə nə baş verəcəksə, hamısı Allahın istəyi ilədir.

2-ci məsələ budur ki, adam Allahın Xaliq, Ondan savayı olanların isə məxluq olduğuna iman gətirməlidir.

Yeri gəlmişkən xüsusilə bir məsələni qeyd edək. Sünnədə varid olmuş hədislərdə, bəzən yalnız İslam kəlməsi, bəzən də, iman kəlməsi, bəzən də, bu hədisdə olduğu kimi, hər ikisi eyni hədisdə zikr edilir. Qeyd edək ki, yalnız İslam kəlməsi zikr edilən hədislərdə İslam kəlməsi həm də imanı əhatə edir. Habelə yalnız iman kəlməsi zikr edilən hədislərdə də iman kəlməsi həm də İslamı əhatə edir. Məsələn: hədislərin birində deyilir: "Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa insanlara zərər dəyməsin." Burada təkcə "müsəlman" deyilsə də, bu qadağa möminə də aiddir. Həmçinin, hədisdə deyilir: "Mömin o kəsdir ki, insanlar onun,

onların malına və canına xətər toxundurmayacağından əmin olsunlar." Buradakı qadağa, müsəlmana da aiddir. Hər iki kəlmə - yəni İslam və iman kəlmələri eyni bir hədisdə zikr edilirsə, hər biri özünəməxsus mənanı ifadə edir. Belə olduğu halda, əlbəttə ki, imanın mərtəbəsi İslamdan üstün sayılır. İslam alimlərinin qoyduğu qayda kimi: "Hər bir mömin müsəlmandır, lakin hər bir müsəlman mömin deyildir." Buna dəlil, əl-Hucurat surəsinin, 14-cü ayəsidir. Ayədə deyilir: "Bədəvilər dedilər: "Biz iman gətirdik!" De: "Siz iman gətirmədiniz! Siz sadəcə: "Biz müsəlman olduq!"– deyin. Çünki iman sizin qəlbinizə hələ daxil olmamışdır."

Həmçinin, İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, Səd ibn Əbu Vəqqas رضي الله عنه demişdir: "Bir dəfə Peyğəmbər ﷺ bəzi şeyləri camaat arasında paylaşdırdı. Onda mən dedim: "Ya Rəsulullah! Filankəsə də pay ver, axı o, mömindir." Peyğəmbər ﷺ buyurdu: "Bəlkə müsəlmandır deyəsən." Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, müsəlmanla mömin arasında fərq var.

Şərh etdiyimiz hədisin davamında xəbər verilir ki, adam: "Mənə ehsan haqqında xəbər ver"– dedi. Peyğəmbər ﷺ buyurdu: "*Ehsan odur ki,* Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, *bil ki,* O səni görür." Bundan aydın başa düşülür ki, ehsan dinin ən yüksək mərtəbəsidir. Buna əsasən demək olar ki, hər bir muhsin, həm mömin, həm də müsəlmandır. Lakin hər bir mömin yaxud müsəlman, muhsin deyil. Necə ki, hər bir mömin müsəlmandır, lakin hər bir müsəlman mömin deyil. Demək, adam mərhələ-mərhələ ehsan mərtəbəsinə yüksəlir

- müsəlman, sonra mömin, sonra da muhsin. Yalnız muhsin dərəcəsinə yüksəlmiş – yəni Allahdan layiqincə qorxan adam Allaha ibadət etdikdə, sanki görürmüş kimi ibadət edir və Allahın onu gördüyünü düşünür. Mömin adam yalnız bu cür ibadət etdiyi təqdirdə muhsin sayıla bilər. Lakin bu o demək deyil ki, mömin adam bu mərtəbəyə yetişməsə onun əməlləri qəbul olmur. Əvvəlki dərslərdə qeyd etmişdik ki, əməlin qəbul olması üşün iki şərtin olması vacibdir: ixlas və mutabəə - yəni əməlin Allah üçün və bir də sünnəyə müvafiq olması. Lakin Allaha daha yaxın olmaq üçün bu məqama yetişmək lazımdır. Bu məqamın özü də, iki mərtəbədən ibarətdir.

1-cisi, nəzarət mərtəbəsidir ki, bu, Peyğəmbərin ﷺ: "Sən Onu görməsən də, *bil ki,* O səni görür" sözündə öz təsdiqini tapıb. Qeyd edək ki, möminlərin çoxu bu mərtəbəyə yetişə bilir. Yəni ibadəti yerinə yetirdikdə, Allahın onlara nəzarət etdiyini yəqin bilirlər. Çünki Uca Allah Yunus surəsinin 61-ci ayəsində buyurur:

﴿ وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُواْ مِنْهُ مِن قُرْءَانٍ وَلَا تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلَّا كُنَّا عَلَيْكُمْ شُهُودًا إِذْ تُفِيضُونَ فِيهِ ﴾

"Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq."

İhsanın 2-ci mərtəbəsi isə müşahidə etmək mərtəbəsidir. Bu da, Peyğəmbərin ﷺ: "Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən" sözündə öz təsdiqini tapıb. Xüsusilə vurğulamaq lazımdır ki, burada "görmək" deyildikdə, Allahın zatını yox, Onun,

yaratdıqlarında görünən sifətlərini müşahidə etmək qəsd edilir. Mömin adamın, Allahın isim və sifətləri xüsusundakı elmi və yəqinliyi artdıqda, bu sifətlərin mənasını dərk etdikdə, sanki onu müşahidə edir. Məsələn: muhsin dərəcəsinə çatmış adam Allahın daim onu əhatə etdiyini düşünür və bir iş gördükdə, Ondan qorxur, hətta xəlvətdə, Allahdan başqa heç kəsin onu görmədiyi bir halda lüt gəzməyə həya edir.

Sonra Cəbrail عليه السلام Peyğəmbərdən ﷺ Qiyamətin nə zaman qopacağı barədə soruşur. Peyğəmbər ﷺ isə ona, bu bilginin yalnız Allaha məxsus olduğunu bildirir. Buna da dəlil, əl-Əraf surəsinin 187-ci ayəsidir. Ayədə deyilir ki: "Səndən Qiyamətin nə zaman qopacağı barədə soruşurlar? De: "Bu haqda bilgi yalnız Rəbbimə məxsusdur." Qaldı ki, Peyğəmbərin ﷺ qeyb xəbərlərindən bəzisini bilməsinə, bu da, yalnız Allahın istəyi ilədir, yəni bunu ona Allah öyrədir. Buna da dəlil, Hud surəsinin 49-cu ayəsidir. Ayədə deyilir: "Bunlar, sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi."

Bu hədisdə Peyğəmbər ﷺ Qiyamətin kiçik əlamətlərindən ikisi barədə xəbər verir. Yeri gəlmişkən qeyd edək ki, Qiyamətin əlamətləri iki qismə bölünür:

***Birinci qismi,*** kiçik əlamətlərdir ki, bunlar artıq olub-keçib, bəziləri isə, hələ də davam etməkdədir.

Məsələn: Muhəmmədin ﷺ Peyğəmbər göndərilməsi. İmam Buxari və Muslimin "Səhih" əsərlərində nəql edilmiş rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ orta barmağıyla işarə barmağını birləşdirib demişdir: "Qiyamət saatı insanlara, bu iki barmaq qə-

dər yaxın olduğu zaman mən peyğəmbər göndərildim." Qeyd edək ki, hədislərdə əllidən çox belə əlamətlər barədə xəbər verilib, hamısı da, artıq baş verib. Həmin əlamətlərdən ikisi şərh etdiyimiz bu hədisdə zikr edilir. Cariyənin öz ağasını dünyaya gətirməsi və bir də, ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışmalarıdır. Cariyə – keçmiş zamanlarda azadlıqdan məhrum edilən, pulla alınıb-satıla bilən, hər cəhətdən sahibinin arzularına tabe olan qız və ya qadındır. Bəzi mühəddislər hədisdə: "Cariyənin öz ağasını dünyaya gətirməsi" deyildikdə, onun öz ağasından dünyaya gətirdiyi uşağın böyüyəndə ona ağalıq edəcəyi qəsd edildiyini, bəziləri də ümumiyyətlə, övladın öz valideynlərinin üzünə ağ olacağı qəsd edildiyini demişlər. Həmçinin, ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışmaları da, Qiyamətin kiçik əlamətlərdəndir.

***İkinci qisim,*** Qiyamətin böyük əlamətləridir ki, bu əlamətlər baş verdikdən dərhal sonra Qiyamət qopacaq. Bunların isə sayı ondur və onların heç biri hələ üzə çıxmayıb. Muslim "Səhih" əsərində Huzeyfə ibn Useydin belə dediyini rəvayət etmişdir: "Bir gün biz bir-birimizlə söhbət edərkən Peyğəmbər ﷺ bizim yanımıza gəldi və: "Nə haqda danışırsınız?"– deyə soruşdu. Biz: "Qiyamət saatı barədə danışırıq"– dedik. Onda o: "Doğrusu, on əlamət baş verməyincə Qiyamət qopmayacaq"– dedi, sonra da, bu əlamətləri bir-bir sadaladı: məşriqdə, məğribdə və Ərəb yarımadasında batma hadisələrinin baş verməsi, tüstünün gəlməsi, Dəccalın peyda olması, heyvanın zühur etməsi, günəşin məğribdən çıxması, Məryəm oğlu İsanın yerə enməsi, Yəcuc və Məcucun

axışıb gəlməsi və bir də Yəməndən alovun çıxıb insanları məhşərə qovması.”

Hədisin axırında Ömər رضي الله عنه deyir ki, sonra adam çıxıb getdi. Biz uzun müddət gözlədik. Sonra Peyğəmbər ﷺ məndən soruşdu: “Ey Ömər, bilirsən, sual verən kim idi?” Mən: “Allah və Onun rəsulu daha yaxşı bilir!”– dedim. Peyğəmbər ﷺ buyurdu: “O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi.” Burada “biz uzun müddət gözlədik” deyilir, digər rəvayətdə isə daha dəqiq: “mən üç gün gözlədim” deyilir.

Sonda, Allahdan istəyimiz budur ki, bizə, ehsan mərtəbəsinə yüksəlməyə kömək olsun və bizi müttəqilərdən etsin!

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ آتِ نُفُوسَنَا تَقْوَاهَا، وَزَكِّهَا أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا، أَنْتَ وَلِيُّهَا وَمَوْلَاهَا، اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ عِلْمٍ لَا يَنْفَعُ، وَمِنْ قَلْبٍ لَا يَخْشَعُ، وَمِنْ نَفْسٍ لَا تَشْبَعُ، وَمِنْ دَعْوَةٍ لَا يُسْتَجَابُ لَهَا ))

“Allahım, nəfsimizi təqvalı et və onu təmizə çıxart, Sən təmizə çıxaranların ən xeyirlisisən. Sən nəfsimizin qəyyumu və hamisisən! Allahım, fayda verməyən elmdən, Səndən qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olmayan duadan Sənə sığınırıq!”[1]

---

[1] Muslim, 6844.

## Üçüncü hədis

عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ بْنِ الْخَطَّابِ رضي الله عنهما قَالَ: سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "بُنِيَ الْإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إلَهَ إلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَحَجِّ الْبَيْتِ، وَصَوْمِ رَمَضَانَ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٨]، وَمُسْلِمٌ [رقم:١٦].

Rəvayət edilir ki, Əbu Abdurrəhman Abdullah ibn Ömər ibn əl-Xattab ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "İslam beş dayaq üzərində qurulmuşdur: Allahdan başqa ibadətə haqqı olan məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan orucunu tutmaq."

Bu hədisi, imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Hərçənd, bundan əvvəlki hədisdə İslamın beş rüknü zikr edilir, lakin imam Nəvəvi bu hədisi ayrıca zikr etməklə bu beş dayağın insan üçün nə dərəcədə əhəmiyyətli və vacib olduğunu göstərir.

Bu hədisdə İslamın əsasları və onun əzəmətli dayaqları zikr edilir. İslam alimləri məhz bu hədisə əsaslanaraq İslamın beş rüknü olduğunu demişlər. Çünki bu hədisdə Peyğəmbər ﷺ demişdir: "İslam beş dayaq üzərində qurulmuşdur." Hədisdə "qurulmuşdur" deyilir, lakin bu beş dayağın kim tərəfindən qurulduğu

[1] Səhih əl-Buxari, 8 və 4514; Səhih Muslim, 16.

bildirilmir. Əlbəttə ki, İslam dinini, bu dayaqlar üzərində quran, pak və müqəddəs Allahdır. Peyğəmbər ﷺ isə sadəcə bu rüknləri təbliğ edəndir.

Bu hədisdə "İslam" deyildikdə, din qəsd edilir. Necə ki, Ali-İmran surəsinin 19-cu ayəsində deyilir: "Həqiqətən, Allah yanında haqq din, İslamdır!" Hərçənd, peyğəmbərlərin – aleyhimussalətu vəssəlam – hamısının dini İslam olub – yəni Allahın tək ilah olduğunu qəbul etmək və yalnız Ona itaət etmək, habelə, Allaha şərik qoşmaqdan və Ona şərik qoşanlardan uzaq olmaq, lakin bu hədisdə İslam deyildikdə, xüsusilə Muhəmməd Peyğəmbərə ﷺ nazil olmuş şəriət qəsd edilir. Belə ki, bu ümmətin şəriət qayda-qanunları əvvəlki ümmətlərin şəriət qayda-qanunlarından fərqlənir. İmam Buxarinin "Səhih"ində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Peyğəmbərlər ata bir, ana ayrı övladlardır." Yəni dinləri bir, şəriət qayda-qanunları isə fərqlidir.

Bu hədisdə "şəhadət" kəlməsinin ilk dayaq olduğu bildirilir. Bu kəlməni etiqad etmək, mənasını dərk etmək və bir də onu ucadan tələffüz etmək vacibdir. Bu kəlmə iki rükn üzərində dayanır: inkar və isbat. Kəlmənin əvvəlindəki "Lə ilahə (yoxdur ilah)"– ümumi inkar və bir də onun axırındakı "illəllah (Allahdan başqa)" – xüsusi isbat deməkdir. Bu kəlmənin əvvəlindəki ümumi inkar, – "Lə ilahə (yoxdur ilah)" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir. "İlləllah" kəlməsi isə ibadətin bütövlüklə Tək Allaha məxsus olduğunu isbat edir. "Lə ilahə" sözündəki "ilah" kəlməsi, "məbud" deməkdir. Demək, sən: "lə ilahə" yəni "lə məbudə" deyəndə, Allahdan başqa ibadət edilən ilahla-

rın hamısını inkar edirsən. Bu cümlədəki "lə" inkar ədatı cinsə, yəni qondarma ilahların hamısına aid edilir. Demək, "lə ilahə illəllah" – "Allahdan başqa *ibadətə layiq haqq* məbud yoxdur" deməkdir. Odur ki, Allah Təbarəkə və Təalədən başqa olan ilahların hamısı – nə cür olursa olsun, kim olursa olsun – batil sayılır. Bundan aydın olur ki, ibadət yalnız Allah Təbarəkə və Təalənin haqqıdır və heç kəs, heç bir vəchlə bu haqqa şərik ola bilməz. Odur ki, "lə ilahə illəllah" kəlməsini həqiqi mənada, sidq-ürəkdən deyən adam ibadətdən sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməməlidir. Beləsi istədiyini yalnız Allahdan istəyər, yalnız Allahdan kömək diləyər, yalnız Allahdan mədəd və yardım diləyər, beləliklə də ibadətini yalnız Allaha yönəldər. Demək, adam dili ilə "lə ilahə illəllah" desə, sonra da Allahdan qeyrisinə yalvarsa, Allahdan qeyrisindən kömək diləsə, Allahdan başqasından mədəd diləsə, Allahdan qeyrisi üçün qurban kəssə və s. ibadəti Allahdan qeyrisinə yönəltsə, bütün əməllərini puç etmiş olar. Odur ki, "lə ilahə illəllah" kəlməsini deyən adam Allaha şərik qoşduğu halda, bu kəlməni onlarca, yüzlərcə, minlərcə kərə təkrar etsə belə, bu ona heç bir fayda verməz. Fayda verən yalnız odur ki, bu kəlmənin məğzini təkAllahlıq etiqadı ilə səmimi-qəlbdən yalnız Allah Təbarəkə və Təaləyə yönəltmiş olsun. Ancaq dildə bu kəlməni deyib, əməldə onu puç etmək isə onu deyən adama heç bir fayda verməyəcək. Bu da, bizə, avam adamları zəlalətə çağıran dəvətçilərin nə dərəcədə qorxulu olduqlarını bəyan edir. Onlar "lə ilahə illəllah" kəlməsinin mənasını avamlara yanlış şəkildə öyrədirlər. Məsələn: bəziləri deyirlər ki: "Lə ilahə illəl-

lah (Allahdan başqa yaradan yoxdur)" deməkdir, yaxud: "Lə ilahə illəllah (Allahdan başqa ruzi verən yoxdur)" deməkdir. Beləliklə də "lə ilahə illəllah" deyən və bunu "Allahdan başqa yaradan yoxdur" və ya "Allahdan başqa ruzi verən yoxdur" kimi başa düşən adam elə güman edir ki, əgər Allahdan savayı ruzi verənin və ya yaradanın olmadığına etiqad edirsə, demək, o, Allahdan qeyrisinə ibadət etsə də, təkAllahlığı təsdiqləyən tövhid əhlindən sayılır. Bu ona görədir ki, zəlalətə çağıran dəvətçilər Allaha ibadət etmək və dini ixlasla Allaha yönəltmək məfhumunu bu kəlmənin anlamından çıxarmışlar. Beləliklə də, batili yayan dəvətçilərin sayəsində bir çox insanlar aşkar zəlalətə düşür və böyük fəsada uğrayırlar. Odur ki, həqiqi mənada və səmimi-qəlbdən "lə ilahə illəllah" deyən kimsə yalnız Allaha yalvarar, yalnız Allahdan kömək istəyər, yalnız Allahdan mədəd və yardım diləyər, yalnız Allaha rüku və səcdə edər, yalnız Allah üçün qurban kəsər və yalnız Allah üçün nəzir verər. Bu xüsusda Uca Allah buyurur:

﴿ قُلْ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ ﴿١٦٢﴾ لَا شَرِيكَ لَهُ ۖ وَبِذَٰلِكَ أُمِرْتُ وَأَنَا أَوَّلُ
الْمُسْلِمِينَ ﴿١٦٣﴾ ﴾

"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm."

Bu kəlmənin tələblərinə gəlincə, onun yeddi tələbi vardır: "lə ilahə illəllah" kəlməsinin nəyi isbat və nəyi inkar etdiyini bilmək,

onu yəqinliklə təsdiq etmək, onun özündə cəm etdiyi hər bir mənanı qəbul etmək, buyuruqlarına əməl etmək və qadağan etdiklərindən çəkinmək, bu kəlməyə olan imanda sadiq olmaq, bu sözü ixlasla tələffüz etmək və bir də bu kəlməni sevmək.

Qaldı ki, "Muhəmməd ﷺ Onun rəsuludur" kəlməsinə, bunda da həmçinin, kəlmənin mənasını dərk etmək və onu ucadan tələffüz etmək, üstəlik, Muhəmmədin ﷺ Allahın qulu və rəsulu olduğuna, Allahdan ona Cəbrail عليه السلام vasitəsi ilə vəhy nazil olduğuna etiqad etmək vacibdir. Bu kəlmənin tələblərinə gəlincə, bu, Muhəmmədin ﷺ buyurduğu əməlləri yerinə yetirmək, qadağan etdiyi işlərdən çəkinmək, xəbər verdiyi hər bir sözü təsdiqləmək və Allaha yalnız onun öyrətdiyi şəriətə uyğun şəkildə ibadət etməkdir. Bundan əvvəlki hədisdə, yəni Cəbrail hədisində - bu kəlməni daha geniş izah etmişik.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, şəhadət kəlməsi İslamın əsas dayağı, o biri dayaqlar isə bu dayağa tabe olan dayaqlar sayılır. Yəni, əgər adam şəhadət kəlməsini qəbul etməzsə, o biri əməllər ona fayda verməz.

– Şərh etdiyimiz hədisdə zikr edilən ikinci dayaq, namaz qılmaqdır.

**Namaz:** xüsusi kəlmələrdən və hərəkətlərdən ibarət, təkbirlə yəni, "Allahu Əkbər" deməklə başlanan və təslimlə "əs-Səlamu aleykum və rahmətullah" deməklə tamamlanan ibadətdir. Namaz, şəhadət kəlməsindən sonra İslamın ən mühüm dayağı sayılır. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, İbn Məsud رضي الله عنه Peyğəmbərdən ﷺ: "Ən fəzilətli *əməl* hansı əməldir?"-

deyə soruşmuş, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Namazı öz vaxtında qılmaq." Başqa bir hədisdə də, Rəsulullah ﷺ demişdir: "İnsanın Qiyamət günü ilk soruşulacağı əməl namaz olacaq. Əgər bu sorğu-sualdan keçsə, uğur qazanar və nicat tapar, əks halda isə bədbəxt olar və ziyana uğrayar." Digər bir hədisdə o demişdir: "Şübhəsiz ki, insanla şirk və küfr arasında namazı tərk etmək durur." Başqa ləfzdə isə belə buyurulur: "Bizimlə onların arasında olan əhd namazdır, kim onu tərk edərsə, küfr etmiş olar." Yenə bir hədisdə o, belə buyurmuşdur: "Hər kim namazını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namaz onun üçün bir nur, onun lehinə bir dəlil və bir də onun nicat tapması üçün bir səbəb olacaq. Namazı qılmayan kimsənin isə nə bir nuru, nə bir dəlili, nə də nicat tapmaq üçün bir qurtuluş yolu olacaqdır. Beləsi Qiyamət günü Qarunla, Fironla, Hamanla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq." Bu hədislər namazın nə dərəcədə əhəmiyyətli olduğunu bildirir.

Namaz qılmaq: həddi-büluğa çatmış, ağlı başında olan hər bir müsəlmana vacibdir.

– Şərh etdiyimiz hədisdə zikr edilən üçüncü dayaq, zəkat verməkdir.

**Zəkat:** müəyyən edilmiş maldan, müəyyən olunmuş vaxtda, xüsusi sinif adamlar üçün çıxarılan vacib haqdır.

Zəkat vermək: malı zəkat miqdarına çatmış və üstündən bir il keçmiş, hər bir azad müsəlmana vacibdir.

Zəkat, beş növ maldan verilir:

1. Ev heyvanları: dəvə, inək və qoyun;

2. Dənli bitkilər və saxlanılması mümkün olan meyvələr;

3. Nağd pul: qızıl, gümüş və bunları əvəz edən kağız əskinazlar;

4. Ticarət malı;

5. Mədəndən çıxarılan qiymətli əşya və tapılan xəzinə;

Zəkat veriləcək insanlar isə səkkiz qismdir. Bu xüsusda ət-Tovbə surəsinin 60-cı ayəsində belə buyurulur: "Zəkat Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbi *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur."

Zəkat malının üstündən bir il keçməsi, yalnız ev heyvanlarına, nağd pula və ticarət malına aiddir. Dənli bitkilərin və meyvələrin (xurma və s.) zəkatı isə məhsul yığımı zamanı verilməlidir. O ki qaldı mədəndən çıxarılmış qiymətli əşyalara və tapılmış xəzinəyə, onların zəkatı tapıldığı vaxt verilməlidir. Heyvanların qarnındakı balalara və ticarət mallarının gəlirinə gəlincə, bunların zəkatı onların əslinin zəkat vaxtına aid edilir.

Onu da qeyd edək ki, zəkatın özünəməxsus üstünlükləri vardır. Onlardan bəzisi bunlardır:

1. Müsəlmanların varlıları ilə kasıbları arasında həmrəylik, isti münasibət və məhəbbət yaradır;

2. Nəfsi təmizə şıxarır, üstəlik, onu tamahkarlıqdan və xəsislikdən uzaq edir;

3. Allahın verdiyi bərəkətə və daha artığına, üstəlik, verilən malın əvəzini almağa nail olmaq.

İslamın ikinci və üçüncü rüknlərini yerinə yetirməyin, yəni namaz qılmağın və zəkat verməyin vacib olmasına dəlil isə, Uca Allahın bu kəlamıdır:

﴿ وَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَءَاتُوا۟ ٱلزَّكَوٰةَ ﴾

"Namaz qılın, zəkat verin!"[1]

– Şərh etdiyimiz hədisdə zikr edilən dördüncü dayaq, oruc tutmaqdır.

**Oruc:** niyyət edərək dan yeri sökülən vaxtdan gün batanadək, yeməkdən, içməkdən və orucu batil edən digər əməllərdən çəkinməkdir.

Ramazanda oruc tutmağın vacib olmasına dəlil isə, Uca Allahın bu kəlamıdır:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ كُتِبَ عَلَيْكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ ﴾

"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız."[2] Demək, oruc tutmaq: həddi-büluğa çatmış, ağlı başında olan, orucu tutmağa qadir olan hər bir müsəlmana vacibdir.

Orucun fəziləti barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Oruc Cəhənnəm odundan qoruyan bir sipərdir. Qoy oruc tutan adam günah işlər görməsin və cahillik etməsin. Əgər kimsə onunla dalaşmaq istəsə və ya onu söysə, qoy təkrar-təkrar: "Mən oruc

---

[1] əl-Bəqərə, 43.

[2] əl-Bəqərə, 183.

tutmuşam"– desin. Canım Əlində olan Allaha and olsun ki, oruc tutan adamın ağzından gələn qoxu, Uca Allahın yanında müşk qoxusundan daha gözəldir. Allah buyurur: "O, Mənə görə öz yeməyindən, içməyindən və şəhvətindən imtina etmişdir. Oruc Mənim üçündür və Mən oruc tutan adama ayrıca mükafat verəcəyəm."[1]

– Şərh etdiyimiz hədisdə zikr edilən beşinci dayaq, həcc ziyarətini yerinə yetirməkdir.

**Həcc:** müəyyən zaman əsnasında, müəyyən əməlləri yerinə yetirmək məqsədilə Məkkəyə səfər etməkdir.

Həcc ziyarətini yerinə yetirməyin vacib olmasına dəlil, Uca Allahın bu kəlamıdır:

﴿ وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ﴾

"Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır."[2] Demək, həcc etmək: həddi-büluğa çatmış, ağlı başında olan, buna imkanı çatan hər bir azad müsəlmana vacibdir.

Həccin fəziləti barədə Peyğəmbər ﷺ belə demişdir: "Kim Allah xatirinə həcc ziyarətini yerinə yetirsə, ziyarət əsnasında qadını ilə yaxınlıq etməsə və digər günah işlərdən çəkinsə, dünyaya gəldiyi gündə olduğu kimi pak halda evinə qayıdar."[3]

---

[1] Səhih əl-Buxari, 1894.

[2] Ali-İmran, 97.

[3] Səhih əl-Buxari, 1521.

Sonda, Allahdan istəyimiz budur ki, bizə, bu beş rüknü, habelə, digər vacibləri və sünnələri yerinə yetirməyi, beləliklə də, Allah dostlarının cərgələrinə qatılmağı nəsib etsin!

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ احْفَظنَا بالإِسْلاَمِ قائِماً، واحْفَظنَا بالإِسْلاَمِ قاعِداً، واحْفَظنَا بالإِسْلاَمِ راقِداً، ولا تُشْمِتْ بِنَا عَدُوّاً ولا حاسِداً، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خزائِنُهُ بِيَدِكَ، ونَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ ))

"Allahım, bizi həm ayaq üstə olduğumuz zaman, həm oturduğumuz, həm də uzandığımız vəziyyətdə İslam dini ilə mühafizə et. Düşməni və paxılı bizə qarşı sevindirmə. Allahım, xəzinəsi Sənin Əlində olan hər bir xeyri Səndən istəyir və xəzinəsi Sənin Əlində olan hər bir şərdən Sənə sığınırıq!"[1]

---

[1] Mustədrək əl-Hakim, 1/525; Silsilə əl-Əhadis əs-Səhihə, 1540-cı hədis.

# Dördüncü hədis

عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ﷺ قَالَ: حَدَّثَنَا رَسُولُ اللَّهِ ﷺ – وَهُوَ الصَّادِقُ الْمَصْدُوقُ-: "إِنَّ أَحَدَكُمْ يُجْمَعُ خَلْقُهُ فِي بَطْنِ أُمِّهِ أَرْبَعِينَ يَوْمًا نُطْفَةً، ثُمَّ يَكُونُ عَلَقَةً مِثْلَ ذَلِكَ، ثُمَّ يَكُونُ مُضْغَةً مِثْلَ ذَلِكَ، ثُمَّ يُرْسَلُ إِلَيْهِ الْمَلَكُ فَيَنْفُخُ فِيهِ الرُّوحَ، وَيُؤْمَرُ بِأَرْبَعِ كَلِمَاتٍ: بِكَتْبِ رِزْقِهِ، وَأَجَلِهِ، وَعَمَلِهِ، وَشَقِيٍّ أَمْ سَعِيدٍ؛ فَوَاللَّهِ الَّذِي لَا إلَهَ غَيْرُهُ إنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ الْجَنَّةِ حَتَّى مَا يَكُونُ بَيْنَهُ وَبَيْنَهَا إلَّا ذِرَاعٌ فَيَسْبِقُ عَلَيْهِ الْكِتَابُ فَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ فَيَدْخُلُهَا. وَإِنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ حَتَّى مَا يَكُونُ بَيْنَهُ وَبَيْنَهَا إلَّا ذِرَاعٌ فَيَسْبِقُ عَلَيْهِ الْكِتَابُ فَيَعْمَلُ بِعَمَلِ أَهْلِ الْجَنَّةِ فَيَدْخُلُهَا".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٣٢٠٨]، وَمُسْلِمٌ [رقم:٢٦٤٣].

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: “Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə bir hədis danışmışdır: “Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra onun yanına bir mələk göndərilir və bu mələk ona ruh üfürür. Mələyə dörd şey yazmaq əmr edilir: uşağın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını. Özündən başqa haqq məbud olmayan Allaha and olsun ki, sizlərdən biri ömrü boyu Cənnət əhlinin əməli kimi əməllər edər və nəhayət, onunla Cənnət arasında bir dirsək məsafə qaldıqda, əzəldən yazılmış qədəri onu qabaqlayar

və o, Cəhənnəm əhlinin əməlinə bənzər əməl edər, beləliklə də, cəhənnəmlik olar. *Həmçinin,* sizlərdən biri ömrü boyu Cəhənnəm əhlinin əməli kimi əməllər edər və nəhayət, onunla Cəhənnəm arasında bir dirsək məsafə qaldıqda, əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cənnət əhlinin əməlinə bənzər əməl edər, beləliklə də cənnətlik olar."

Bu hədisi imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədis qədərə iman gətirmək məsələsinə aid əsas hədislərdən biri sayılır. Mömin adam bu hədisi oxuduqda, qəlbində qorxu yaranır ki, görəsən, ana bətnində onun qədərinə nələr yazılıb və bir də son aqibəti necə olacaq? Bu hədis dəlildir ki, hər bir insanın müqəddəratı əzəldən yazılmışdır ki, o, bu haqda düşünüb əməllərini islah etməyə çalışsın.

Bu rəvayətdə Abdullah ibn Məsud ﷺ Peyğəmbərin ﷺ hədisinin doğruluğunun təsdiq edildiyini xəbər verir. Səhabə bildirmək istəyir ki, bu hədisdə zikr edilmiş qeybə aid xəbərləri Peyğəmbər ﷺ öz istəyi ilə deyil, məhz Allahdan nazil olan vəhy sayəsində bildirir.

Sonra hədisdə Rəsulullah ﷺ: "Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən..." deyir. Qeyd edək ki, bel və köks sümükləri arasından çıxan məni uşaqlıqda bir-birinə birləşdikdən sonra insan yaranmağa başlayır. Bu xüsusda Uca Allah buyurur:

﴿ خُلِقَ مِن مَّآءٍ دَافِقٍ ﴾

[1] Səhih əl-Buxari, 3208; Səhih Muslim, 2643.

"*İnsan* axıdılan nütfədən yaradılır."[1] Digər ayədə Uca Allah buyurur:

﴿أَلَمْ نَخْلُقكُّم مِّن مَّآءٍ مَّهِينٍ ﴿٢٠﴾ فَجَعَلْنَٰهُ فِي قَرَارٍ مَّكِينٍ ﴿٢١﴾﴾

"Məgər Biz sizi dəyərsiz bir sudan xəlq etmədikmi? Biz onu möhkəm bir yerdə yerləşdirmədikmi?"[2]

Bəzi alimlər, insanın dəyərsiz nütfədən yaradılmasının təkəbbürlü və özünüdartan insanlar üçün tərbiyəvi əhəmiyyəti olduğunu söyləmişlər. Əgər adam öz yaradılışı barədə düşünsə, görər ki, o, iki kərə cincisiyyət orqanından çıxmışdır. Birincisi nütfə ikən atasının belindən gəlib anasının bətninə düşdükdə, ikinci isə insan olaraq dünyaya gəldikdə. Elə isə nə ilə təkəbbürlük edir. İnsan sadəcə dəyərsiz nütfədən yaradılmış bir məxluqdur. Rəvayət edilir ki, bir gün Mutarrif ibn Abdullah ibn Şixxir, Muhəlləb ibn Əbu Sufrənin ipək cübbə geydiyini, özünün də təkəbbürlə yeridiyini görüb dedi: "Bu, Allahın və Onun rəsulunun ﷺ nifrət etdiyi bir yerişdir." Muhəlləb ona: "Məgər sən bilmirsən, mən kiməm?"– deyərək özünü dartdı. Mutərrif də ona belə cavab verdi: "Bəli, bilirəm sən kimsən. Sənin əvvəlin dəyərsiz nütfə olmuş, axırın da çürümüş cəsəd olacaq. Üstəlik qarnında nəcis daşıyırsan." Bu sözdən sonra Muhəlləb öz yerişini düzəltdi."[3]

Bu hədisdə insanın mərhələlərlə yaradıldığı xəbər verilir. Belə ki, əvvəlcə o, nütfə - yəni az miqdarda maye halında olur, sonra

---

[1] ət-Tariq, 6.

[2] əl-Mursəlat, 20-21.

[3] Təfsir əl-Qurtubi, "əl-Məaric" surəsinin, 39 ayəsinin təfsiri.

o, qan laxtasına çevrilir, daha sonra da ət parçası olur. Bu üç mərhələ Quranda da öz təsdiqini tapmışdır. əl-Həcc surəsinin 5-ci ayəsində belə xəbər verilir: "Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, *bilin ki,* həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq." Yeri gəlmişkən qeyd etmək lazımdır ki, insan yaradılışının mərhələləri bununla bitmir. Qurani Kərimdə bundan sonrakı mərhələlər də, zikr edilmişdir. əl-Muminun surəsinin 12-ci, 13-cü və 14-cü ayələrində insan yaradılışı belə vəsf edilir: "Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq; sonra o qandan bir parça ət yaratdıq; sonra o bir parça ətdən sümüklər yaratdıq; sonra da sümükləri ət ilə örtdük; sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!" Bu ayədən aydın olur ki, insanın yaradılışı yeddi mərhələ keçmişdir. Rəvayət edilir ki, İbn Abbas ﷺ: "İnsan yeddi mərhələdə yaradılmışdır"– demiş, sonra bu ayəni oxumuşdur.

Şərh etdiyimiz bu hədisdə xəbər verilir ki, insanın bu üç yaradılış mərhələsindən sonra, yəni yüz iyirmi günlüyündə onun yanına bir mələk göndərilir və bu mələk ona ruh üfürür. Deməli, bundan əvvəlki günlərdə o, ölü olur. Ona ruh üfürüldükdən sonra isə artıq o, canlı sayılır. Qurani Kərimdə xəbər verilir ki, insan iki kərə ölü olur və iki kərə ona həyat verilir. "Allaha necə küfr edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi?! Sonra O sizi öldürəcək,

sonra dirildəcək, sonra da siz Ona qaytarılacaqsınız." Demək, insana ruh üfürülməzdən əvvəl o, ölü olur, sonra ona ruh verilir və o, əcəli yetişənədək yaşayır. Sonra Allah onun canını alır və nəhayət, Qiyamət günü yenidən diriltdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, mələyi göndərən, ona, ruhu ana bətnindəki ət parçasına üfürməyi buyuran, habelə, ona, o insanın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını yazmağı əmr edən Allahdır.

Diqqət edin, hədisdə insanın yaradılışı vəsf edilir – onun əvvəlcə nütfə, sonra qan laxtası, sonra da ət parçası olduğu xəbər verilir, lakin ruhun ona harasından və necə üfürüldüyü barədə heç nə deyilmir, çünki ruh haqqında bilgi yalnız Allaha aiddir. Kitabəhli Peyğəmbərdən ﷺ ruh haqqında soruşduqda, Uca Allah "əl-İsra" surəsinin bu ayəsini nazil etmişdir: "Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir."[1]

Yeri gəlmişkən qeyd edək ki, əgər uşaq yüz iyirmi günündən sonra, yəni ona ruh üfürüldükdən sonra ana bətnində ölərsə, ona dünyaya gəlib sonra ölmüş uşağın əhkamları tətbiq edilir. Yəni yuyulur, kəfənlənir, cənazə namazı qılınır və s. əhkamlar tətbiq edilir.

Şərh etdiyimiz hədisin davamında deyilir ki, onun yanına göndərilən mələyə dörd şey yazmaq əmr edilir: uşağın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını. İlk baxışdan elə başa düşülür ki, bu yazı da, insana yüz iyirmi günlüyündə yazılır, lakin imam Muslimin "Səhih"indəki digər rəvayətdə xəbər verilir

[1] əl-İsra, 85.

ki, Peyğəmbər ﷺ demişdir: "Nütfə ana bətninə düşdükdən qırx iki gün sonra Allah onun yanına bir mələk göndərir və bu mələk onun rəsmini çəkir - onun qulağının, gözünün, dərisinin, ətinin və sümüyünün biçimini verir. Sonra soruşur: "Ey Rəbbim, o, kişi olacaq, yoxsa qadın?" Allah istədiyini buyurur, mələk də Onun buyurduğunu yazır. Sonra mələk onun əcəli və ruzisi barədə soruşur. Allah yenə dilədiyini buyurur, mələk də, əlindəki kitaba Allahın buyurduğunu yazır, buna nə bir şey əlavə edir, nə də ondan bir şey əksildir." Bu hədisdən aydın başa düşülür ki, ana bətnində insanın qırx iki günlüyündə gələcək müqəddəratı yazılır, həm də onun kişi və ya qadın olacağı təyin edilir. Bu da o deməkdir ki, qırx iki gündən əvvəl Allahdan başqa heç kəs, heç mələk belə o nütfənin kişi və ya qadın olacağını bilmir. Bu da, Allahın qeyb elminə aiddir və bunu bilmək yalnız Allaha məxsusdur. Bu xüsusda Loğman surəsinin 34-cü ayəsində belə buyurulur: "Həqiqətən, *Qiyamət* saatı haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı yalnız O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır." Bu ayə və hədis dəlildir ki, heç bir canlı və ya heç bir cihaz qırx iki gündən əvvəl uşağın kişi və ya qadın olacağını təyin edə bilməz.

Uşağın hələ qırx iki günlük nütfə ikən onun rəsminin çəkilməsinə gəlincə, bu, onun qulağının, gözünün, dərisinin, ətinin və sümüyünün tam şəkildə yaranması demək deyil, sadəcə ona biçim verilməsidir. Onun tam xəlq edilməsi isə əvvəldə qeyd etdiyimiz

əl-Muminun surəsinin 12-ci, 13-cü və 14-cü ayələrində zikr edilən mərhələlərdən sonra olur.

Bu iki səhih hədisdə aydın olmayan bir müşkül məsələ qalır, bu da, o uşağın müqəddəratının nə zaman yazılmasıdır. Bu iki hədisdən birində qırx iki gün, digərində isə yüz iyirmi gün deyilir. Bu iki hədisi izah edən təhqiqatçıların bəzisi demişdir: “Uşağın müqəddəratı qırx ikinci günündə yazılır. Yüz iyirminci gün isə ona sadəcə ruh üfürülür. Əgər biz o biri rəvayətə diqqət yetirsək görərik ki, ərəbcə cümlədə təqdim və təxir, yəni mənası cümlənin əvvəlinə aid olan kəlmələr, axırda gəlir. Diqqət edin, hədisdə deyilir ki: “Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra onun yanına bir mələk göndərilir və bu mələk ona ruh üfürür...” Hədisin bu hissəsi dəlildir ki, ruh insana yüz iyirmi günlüyündə üfürülür. Sonra hədis davam edir və deyilir ki, mələyə uşağın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını yazmaq əmr edilir, lakin onun hansı gün yazıldığı qətiyyətlə bildirilmir, sadəcə ana bətnində ona müqəddəratı yazıldığı xəbər verilir. Ərəb dilində də, belə cümlə qurmaq – yəni kəlmələr arasında təqdim və təxir etmək caizdir. Məsələn: əs-Səcdə surəsinin 7-ci, 8-ci və 9-cu ayələrində Uca Allah buyurur:

﴿ ٱلَّذِيٓ أَحۡسَنَ كُلَّ شَيۡءٍ خَلَقَهُۥۖ وَبَدَأَ خَلۡقَ ٱلۡإِنسَٰنِ مِن طِينٖ ۝٧ ثُمَّ جَعَلَ نَسۡلَهُۥ مِن سُلَٰلَةٖ مِّن مَّآءٖ مَّهِينٖ ۝٨ ثُمَّ سَوَّىٰهُ وَنَفَخَ فِيهِ مِن رُّوحِهِۦۖ وَجَعَلَ لَكُمُ ٱلسَّمۡعَ وَٱلۡأَبۡصَٰرَ وَٱلۡأَفۡـِٔدَةَۚ قَلِيلٗا مَّا تَشۡكُرُونَ ۝٩ ﴾

"Allah yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş..." Ayələrə diqqət yetirsək görərik ki, məna baxımından bu ayədəki: "ona Öz ruhundan üfürmüş" sözü əvvəldə qeyd edilməlidir, çünki Adəmin nəsli yaranmamışdan əvvəl onlara ruh verilir. Bu da dəlildir ki, ərəb dilində cümlələrdə təqdim və təxir etmək caizdir. Bu mövzuya dair daha geniş məlumat almaq istəyənlər baxa bilərlər, "Məcmu əl-Fətavə", 4-cü cild, 238-ci səhifədən 242-ci səhifəyədək, həmçinin, "Tohfətul-Movdud bi-Əhkamil-Movlud", 259-cu səhifədən 261-ci səhifəyədək.

Bütün bu deyilənlərdən bizə aydın oldu ki, ana bətnində insanın müqəddəratı yazılır. Buna "ömür qədəri" deyilir, yəni insanın ümrünün sonunadək yazılan müqəddəratı. Məlumat üçün qeyd edək ki, qədərin bir neçə növü var: mələklərin bir gün,[1] yaxud bir il,[2] yaxud da bir insan ömrü nələr baş verəcəyini yazmasıdır. Və bir də, Löfhi-məhfuzda yazılanlar. Qeyd edək ki, mələklərin bildiyi gündəlik, yaxud, illik və ya ömürlük qədər dəyişə bilər, yəni Allah istədikdə, mələyin əlindəki kitabdakı qədəri dəyişdirə bilər. Bu xüsusda ər-Rəd surəsinin 38-ci və 39-cu ayələrində belə buyurulur: "Hər vaxtın bir yazısı var. Allah *bu yazıdan* istədiyini silər,

---

[1] Gündəlik yazılan qədərə dəlil, ər-Rəhman surəsinin 29-cu ayəsidir: "*Allah* hər gün bir işdədir (həmin günün müqəddəratını müəyyən edir)."

[2] Bir illik yazılan qədərə dəlil, əd-Duxan surəsinin 4-cü ayəsidir: "Hər bir hikmətli iş *qədr gecəsində* ayırd edilir."

*istədiyini də* sabit saxlayar. Kitabın anası Onun yanındadır." İbn Abbas ﷺ bu ayəni belə izah etmişdir: "Allah *bu yazıdan* istədiyini silər, *istədiyini də* sabit saxlayar"– deyildikdə, mələklərin əllərində olan yazılar qəsd edilir, "Kitabın anası Onun yanındadır"– deyildikdə isə, Löfhi-məhfuz nəzərdə tutulur, yəni o kitabda olan yazı dəyişilməzdir.[1]

Odur ki, Ömər ﷺ Allaha yalvarıb belə dua edərmiş:

(( اللَّهُمَّ إِنْ كُنْتَ كَتَبْتَنِي شَقِيًّا، فَاكْتُبْنِي سَعِيدًا ))

"Allahım, əgər mənim qədərimə bədbəxt olacağımı yazmısansa, o yazını dəyişib qədərimə xoşbəxt olacağımı yaz!"[2] Ömər belə dua etməklə, mələklərin əlində olan, dəyişilə biləcək yazını qəsd edir. Löfhi-məhfuzda yazılmış qədər isə dəyişilməzdir. Bunun da hikməti budur ki, insan öz əməllərini islah etməyə və Rəbbinin rizasını qazanmağa çalışsın, Allaha çoxlu dua edib, Ondan mərhəmət diləsin və beləliklə də, yaxşı işlər görməyə müvəffəq edilsin. Necə ki, səhih hədisdə buyurulur: "Hər kəsə nə asanlaşdırılmışdırsa, ona uyğun da əməl edər."[3]

Bu deyilənlərdən bizə aydın olur ki, insan Allaha dua etsə, Allah onun ruzisini xeyirli-bərəkətli edər, onun ömrünü uzada bilər, onun əməllərini islah edə bilər, ələlxüsus da onu xoşbəxt in-

---

[1] Təfsir ət-Təbəri, 13/166-168; Təfsir əl-Qurtubi, 9/329; Təfsir İbn Kəsir, 2/520-521; Durr əl-Mənsur, 4/660.

[2] Şərh İtiqad Əhlis-Sunnə, əl-Laləkai, 4/663-664; Məcmu əl-Fətavə, 8/540; Şifa əl-Alil, səh: 90; Umdətu əl-Qari, 11/182.

[3] Səhih əl-Buxari, 6596.

sanlardan edər. Bu hədisdə xoşbəxt deyildikdə, Cənnət əhli, bədbəxt deyildikdə isə Cəhənnəm əhli qəsd edilir. Bu xüsusda Hud surəsinin 105, 106, 107 və 108-ci ayələrində belə buyurulur: "Onlardan kimisi bədbəxt, kimisi də xoşbəxt olacaq. Bədbəxtlərə gəlincə, onlar Cəhənnəmə giriftar olacaqlar. Onlar orada zarıyacaq və bağıracaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir. Xoşbəxtlərə gəldikdə isə, onlar Cənnətə girəcəklər. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. *Bu,* tükənməz bir sovqatdır."

Hədisin davamında Peyğəmbər ﷺ buyurur: "Həqiqətən də, sizlərdən biri ömrü boyu Cənnət əhlinin əməli kimi əməllər edər və nəhayət, onunla Cənnət arasında bir dirsək məsafə qaldıqda, əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cəhənnəm əhlinin əməlinə bənzər əməl edər, beləliklə də, cəhənnəmlik olar. *Həmçinin,* sizlərdən biri ömrü boyu Cəhənnəm əhlinin əməli kimi əməllər edər və nəhayət, onunla Cəhənnəm arasında bir dirsək məsafə qaldıqda, əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cənnət əhlinin əməlinə bənzər əməl edər, beləliklə də, cənnətlik olar."

Burada "bir dirsək" deyildikdə, insanın əcəlinin yaxınlaşması qəsd edilir. Hədisdə: "ömrü boyu Cənnət əhlinin əməli kimi əməllər edər" yaxud "ömrü boyu Cəhənnəm əhlinin əməli kimi əməllər edər" deyilir. İmam Buxarinin "Səhih"indəki digər rəvayətdə: "insanlara görünə bilər" əlavəsi var. Həmin rəvayətdə Peyğəmbər ﷺ buyurdu: "Həqiqətən, insanlara kimsənin Cənnət əhlinin əməli kimi bir əməl etdiyi görünə bilər, halbuki həmin adam

Cəhənnəm əhlindəndir. Həmçinin, onlara kimsənin Cəhənnəm əhlinin əməli kimi bir əməl etdiyi görünə bilər, halbuki həmin adam Cənnət əhlindəndir."[1] Hədisdən aydın başa düşülür ki, insana görünən yaxşı əməllər qəbul olmaya bilər, eləcə də, bunun əksi, günah işlər bağışlana bilər və beləliklə də, adamın sonu, əvvəlinin tam əksi ola bilər. Bütün bunlar ona görədir ki, insan daim ümid və qorxu içində yaşasın, yəni həm Allahın mərhəmətinə ümid etsin, həm də Onun əzabından qorxsun. Ümumiyyətlə, insanlar özlərinin əvvəlinə və sonluqlarına görə dörd qismə bölünürlər:

1-ci qism, əvvəli də, axırı da, yaxşı olan kəslərdir. O kəslər ki, müsəlman ailəsində doğulub, müsəlman kimi yaşayıb və müsəlman olduqları halda dünyadan köçüblər. Buna az yaşlı səhabələri misal çəkmək olar.

2-ci qism, əvvəli də, axırı da, pis olan kəslərdir. O kəslər ki, kafir ailəsində doğulub, kafir kimi yaşayıb və kafir olduqları halda dünyadan köçüblər. Buna da, müşrik olduqları halda ölmüş Məkkə müşriklərini misal çəkmək olar.

3-cü qism, əvvəli yaxşı, axırı isə pis olan kəslərdir. O kəslər ki, müsəlman ailəsində doğulub, müsəlman kimi yaşayıb, lakin ömrünün sonunda mürtəd olub və kafir olduqları halda dünyadan köçüblər. Buna da, Peyğəmbərin ﷺ vəfatından sonra mürtəd olan və mürtəd olduqları halda dünyadan köçən kimsələri misal göstərmək olar.

---

[1] Səhih əl-Buxari, 4203.

4-cü qism, əvvəli pis, axırı isə yaxşı olan kəslərdir. O kəslər ki, kafir ailəsində doğulub, kafir kimi yaşayıb, lakin ömrünün sonunda İslamı qəbul edib və müsəlman olduqları halda dünyadan köçüblər. Buna da, Musanın ﵇ dövründə olan sehrbazları misal çəkmək olar. Həmçinin, kitab əhlindən olan bir gəncin ölüm yatağında ikən Peyğəmbərin ﷺ dəvətini qəbul edib müsəlman kimi dünyadan köçməsini də misal çəkmək olar. Bu hədisdən ibrət alan neçə-neçə dəvətçilər var ki, ölüm yatağında olan insanları ziyarət edib onları İslam dininə dəvət edir və bir çox hallarda gözəl nəticələr əldə edirlər.

İndi gəlin, sələflərin bu mövzuya dair dedikləri bir neçə ibrətamiz sözlərlə bu hədisin şərhinə son verək:

Rəvayət edilir ki, Süfyan əs-Sovri ﵀ bəzən ağlayıb deyərmiş: "Mən qorxuram, Löfhi-məhfuzda qədərimə bədbəxt olacağım yazılmış olsun!"[1]

Yenə bir rəvayətdə xəbər verilir ki, Süfyan əs-Sovri dostlarından birisinə deyir: "Heç, Allahın sənin qədərinə yazdıqları barədə düşünüb ağlamısanmı?" Dostu da ona belə cavab verir: "Sən mənə elə söz dedin ki, çətin mən bundan sonra sevinim."[2]

Rəvayət edilir ki, Malik ibn Dinar ﵀ uzun-uzadı gecə namazı qılar və ağlaya-ağlaya deyərmiş: "Ey Rəbbim! Sən kimin Cənnət əhli, kimin də Cəhənnəm əhli olduğunu bilirsən. Görəsən Malik bunlardan hansı birinə aiddir."

---

[1] Hilyətul-Övliya, 7/51; Camiul-Ulum vəl-Hikəm, 1/173.

[2] Hilyətul-Övliya, 6/246; Camiul-Ulum vəl-Hikəm, 1/173.

Sonda, Allahdan istəyimiz budur ki, bizə, ömrümüzün sonunadək müsəlman kimi yaşamağı, müsəlman kimi bu dünyadan köçməyi və müsəlmanlarla birlikdə Cənnətə daxil olmağı nəsib etsin!

Hamımızın adından Allahın bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( رَبِّ هَبْ لَنَا حُكْمًا وَأَلْحِقْنَا بِالصَّالِحِينَ، وَاجْعَلْ لَنَا لِسَانَ صِدْقٍ فِي الْآخِرِينَ، وَاجْعَلْنَا مِنْ وَرَثَةِ جَنَّةِ النَّعِيمِ ))

"Ey Rəbbim, bizə hikmət bəxş et və bizi əməlisalehlərə qovuşdur. Sonra gələnlər arasında həmişə yad edilək deyə bizə yaxşı ad qismət elə. Və bizi Nəim cənnətinin varislərindən et!"[1]

((فَاطِرَ السَّمَاوَاتِ وَالْأَرْضِ أَنْتَ وَلِيِّي فِي الدُّنْيَا وَالْآخِرَةِ تَوَفَّنِي مُسْلِمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ))

"Ey göyləri və yeri yaradan! Dünyada da, axirətdə də Sən bizim Himayədarımızsan. Bizim canımızı müsəlman olduğumuz halda al və bizi əməlisalehlərə qovuşdur!"[2]

---

[1] Bu dua əslində İbrahim peyğəmbərin ﷺ duasıdır. Duanın əsli əş-Şuəra surəsinin, 83, 84 və 85-ci ayələrində zikr edilir.

[2] Bu dua əslində Yusuf peyğəmbərin ﷺ duasıdır. Duanın əsli Yusuf surəsinin, 101-ci ayəsində zikr edilir.

# Beşinci hədis

عَنْ أُمِّ الْمُؤْمِنِينَ أُمِّ عَبْدِ اللَّهِ عَائِشَةَ رضي الله عنها قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ فَهُوَ رَدٌّ". رَوَاهُ الْبُخَارِيُّ [رقم:٢٦٩٧]، وَمُسْلِمٌ [رقم:١٧١٨].

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: "مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ".

Möminlərin anası Aişə رضي الله عنها rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər."

Bu hədisi, imam Buxari və Muslim rahiməhuməllah rəvayət etmişlər.[1] İmam Muslimin nəql etdiyi digər rəvayətdə, Peyğəmbər ﷺ demişdir: "Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, bu əməl rədd edilər."[2]

Hədisin isnadına diqqət etsək görərik ki, bu hədisi Aişədən رضي الله عنها rəvayət edən tabiin, onu möminlərin anası adlandırır. Çünki Uca Allah Peyğəmbərin ﷺ zövcələrini, o cümlədən də, Aişəni رضي الله عنها möminlərin anası adlandırır. "əl-Əhzab" surəsinin 6-cı ayəsində belə buyurulur: "Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır."

Bu hədisin ərəbcəsində:

---

[1] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

[2] Səhih Muslim, 1718.

(( مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ، فَهُوَ رَدٌّ ))

digər ləfzdə isə

(( مَنْ عَمِلَ عَمَلاً لَيْس عَلَيْهِ أَمْرُنا؛ فَهْوَ رَدٌّ ))

deyilir. Hər iki hədisdə keçən "əmr" kəlməsi din mənasında işlənir. Necə ki, "ən-Nur" surəsinin 63-cü ayəsində Uca Allah buyurur:

﴿ فَلْيَحْذَرِ ٱلَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِۦٓ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ ﴾

"Qoy onun əmrinə (yəni dininə) qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar."

Şərh etdiyimiz hədisdə İslam dininə əlavə edilən yenilik və ya dinimizdə olmayan bir əməl deyildikdə, bidət qəsd edilir. Bu iki hədis dəlildir ki, kim İslamda əsli olmayan bir əməli din adı ilə dinə əlavə edərsə, yaxud özü hər hansı bir bidəti edərsə, onun əməli rədd edilər, özü də böyük günah qazanar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Dində bidətə yol verənə və bidətçiyə dəstək verənə, Allah lənət eləsin!"[1] Əgər bir adam özü bidət etməklə yanaşı başqalarını da, o bidətə dəvət edərsə, onların qazandıqları günah qədər günah qazanar. Bu xüsusda "ən-Nəhl" surəsinin 25-ci ayəsində belə buyurulur: "Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin gü-

---

[1] Səhih əl-Buxari, 1870; Səhih Muslim, 1366.

nahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!" Həmçinin, bu xüsusda ayrıca bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim İslam dininə yenilik gətirsə *insanları buna təhrik etsə,* ona bunun günahı və ona əməl edənlərin günahı qədər günah yazılar."[1]

Yeri gəlmişkən qeyd edək ki, bidət, İslam ümmətini parçalayan əsas amillərdən biridir. Bu xüsusda "əl-Ənam" surəsinin 153-cü ayəsində belə buyurulur: "Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Belə ki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar."

Hər kəsə məlumdur ki, Sünnəyə riayət etmək, müsəlmanlar arasında sevgi yaradır, onları bir-birinə qardaş edir, bidət etmək isə, əksinə, onları parçalayır və bir-birinə düşmən edir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Namaza duranda cərgələrinizi düzəldin. Yoxsa Allah sizin üzünüzü ayrı-ayrı tərəflərə çevirər (aranıza ədavət salar)."[2]

Odur ki, Peyğəmbərin ﷺ sünnəsinə riayət edənlər "Əhlus-Sünnəti vəl-Cəmaə/Sünnəyə riayət edib camaat olanlar" Peyğəmbərə ﷺ müxalif olanlar isə "Əhlul-Bidəti vəl-Furqa/bidət edib firqələrə bölünənlər" adlanırlar.

Peyğəmbər ﷺ öz ümmətinə bidətdən uzaq durmağı buyurub demişdir: "Mənim və doğru yolda olan raşidi xəlifələrimin yolunu tutub gedin və həmin yoldan arxa dişlərinizlə yapışın. Yenilik-

[1] Səhih Muslim, 6975.

[2] Səhih əl-Buxari, 717; Səhih Muslim, 978.

lərdən isə çəkinin, çünki hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir."[1]

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər."[2]

Qurani Kərimdə bu hədislərin mənasını, yəni dinə əlavə edilən yeniliklərin rədd edildiyini təsdiqləyən neçə-neçə ayələr var. Məsələn: "əl-Maidə" surəsinin 3-cü ayəsində deyilir: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim." Habelə, "əş-Şura" surəsinin 21-ci ayəsində deyilir: "Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edə bilən şərikləri vardır?!" Həmçinin, "əl-Həşr" surəsinin 7-ci ayəsində belə buyurulur: "Allahın rəsulu sizə nəyi əmr edirsə, onu yerinə yetirin, nəyi də qadağan edirsə, ondan çəkinin."

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bidət edən – yəni şəriətə müxalif olan adamın niyyəti yaxşı olsa belə, onun əməli qəbul olmur. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, qurban günü Peyğəmbər ﷺ bayram namazından sonra səhabələrə xütbə verdi və buyurdu: "Kim bizim kimi namaz qılsa və bizim kimi qurban kəssə, qurbanlıq heyvanını şəriətə uyğun kəsmiş olar. Kim qurbanlıq heyvanı bayram namazından əvvəl kəsərsə, namazdan qabaq özü üçün heyvan kəsmiş olar və onun qurbanı qəbul olunmaz." Əbu Burdə ibn Niyar رضي الله عنه dedi: "Ya Rəsulullah, mən öz qoyunumu namazdan əvvəl kəsdim. Mən bilirdim ki, bu

[1] Mocəmul-Kəbir, 18/248/623; Silsilətul-Əhadisis-Səhihə, 2735-ci hədis.

[2] Səhih əl-Buxari, 5063.

gün yemək-içmək günüdür, elə buna görə də istədim ki, mənim qoyunum evimdə kəsilən ilk qurbanlıq olsun. Odur ki, namaza gəlməmişdən əvvəl qoyunumu kəsib bir az ondan yedim.” Peyğəmbər ﷺ buyurdu: “Sənin qoyunun ətlik qoyundur.”[1] Hədisdən aydın başa düşülür ki, niyyət gözəl olsa belə, yerinə yetirilən əməl şəriətə zidd olarsa, rədd edilər.

Səhabələr də, həmçinin, dinə əlavə edilmiş yeniliklərin, yəni bidətlərin qarşısını almağa çalışmışlar. İmam Dariminin “Sunən” əsərində səhih isnadla rəvayət edilmişdir ki, bir gün İbn Məsud رضي الله عنه məscidə daxil olub görür ki, bir toplum adam halqa şəklində oturub, qarşılarına da, çoxlu xırda daşlar yığıb zikr edirlər. Aralarından biri: “Subhanəllah”- deyir, qalanları da, əllərindəki daşlarla saya-saya xorla bunu təkrar edirlər. Beləcə, əlhəmdulilləh, Allahu əkbər, lə ilahə illəllah, zikrlərinin hər birini yüz kərə təkrar edirlər. İbn Məsud onlara yaxınlaşıb deyir: “Vay sizin halınıza, ey Muhəmməd ümməti! Siz özünüzü necə də, həlak edirsiniz! Peyğəmbərin ﷺ libası hələ köhnəlməyib, qabları hələ qırılmayıb, səhabələri də, hələ sizin aranızdadır! Canım əlində olan Allaha and olsun ki, siz ya özünüzü Muhəmmədin ﷺ səhabələrindən daha ağıllı hesab edirsiniz, ya da bilərəkdən zəlalət qapısını açırsınız.” Səhabə demək istəyir ki, Peyğəmbərin ﷺ vəfatından az müddət keçdiyi halda, onlar bu bidətə yol verirlər. İbn Məsud onlara etirazını bildirdikdə, onlar deyir: “Ey Əbu Abdurrəhman, vallahi ki, biz xeyir əldə etmək üçün belə edirik.” İbn Məsud da

---

[1] Səhih əl-Buxari, 955; Səhih Muslim, 1961.

onlara belə cavab verir: “Nə çox xeyir əldə etmək istəyənlər var ki, xeyirə nail olmurlar.”[1]

Bu rəvayətdən aydın olur ki, bidəti edən bu adamlar onun yaxşı əməl olduğunu və onlara savab qazandıracağını düşünürdülər. Lakin səhabə onlara yanlış fikirdə olduqlarını bildirdi. Həmçinin, indi də bir çoxları dinə aid olmayan ayinləri dindən hesab edir və bunu gözəl bidət adlandırırlar. Əslində, Peyğəmbərin ﷺ demədiyi sözü deyir və istisna etmədiyi bir hökmü istisna edirlər. Halbuki Peyğəmbər ﷺ heç bir hədisdə “gözəl bidət” deyilən bir əməl olduğunu bildirməmiş, əksinə, səhih hədisdə: “hər bir bidət zəlalətdir” – demiş və heç bir istisna etməmişdir. Yəni deməmişdir ki, filan gözəl bidətdən başqa bütün bidətlər zəlalətdir. Bu xüsusda imam Malik ibn Ənəs رحمه الله demişdir: “Kim desə ki, İslam dinində gözəl bidət var, artıq o, Muhəmmədin ﷺ Allahın dininə xəyanət etdiyini iddia etmiş sayılar. Çünki Uca Allah buyurur:

﴿ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ ٱلْإِسْلَٰمَ دِينًا﴾

“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim.”

(İmam Malik davam edib deyir:) Həmin gün hansı əməl dindən sayılırdısa, bu gün də, yalnız o əməl dindən sayılır.”[2]

İmam Malik demək istəyir ki, Allah bu dini kamil şəkildə tamamladıqdan sonra kim bu kamil dində naqislik olduğunu iddia

[1] Sunən əd-Darimi, 1/68-69; Silsilə əl-Əhadis əs-Səhihə 2005-ci hədis.

[2] əl-İtisam, əş-Şatibi, 1/49.

edərsə, Peyğəmbərin ﷺ dini tam şəkildə insanlara təbliğ etmədiyini iddia etmiş sayılar.

İslam alimləri Peyğəmbərin ﷺ Sünnəsini ümumən altı qismə bölmüşlər: səbəbi, cinsi, sayı, necəliyi, zamanı və məkanı sünnəyə uyğun gələn əməllər.

1-cisi; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu səbəbə müvafiq olmalıdır. Məsələn: əgər adam hər dəfə evinə daxil olduqda iki rükət nafilə namaz qılsa və bunu sünnə hesab etsə, bu əməl qəbul olunmaz. Hərçənd şəriətə görə iki rükət namaz qılmaq icazəlidir, lakin bunun səbəbi şəriətə müvafiq olmadığına görə, bu əməl sünnəyə müxalif sayılır.

2-cisi; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu cinsə müvafiq olmalıdır. Məsələn: əgər adam qurbanlıq günü qurban məqsədilə at kəsərsə, bu heyvan qurban kimi qəbul olmaz. Çünki o, şəriətin buyurduğu cinsdən - yəni dəvə, yaxud inək və ya qoyun cinsindən deyil. Hərçənd adam at kəsib onu sədəqə olaraq paylaya bilər, lakin qurban günü bayaq sadaladığımız üç cins heyvandan başqa bir heyvanı qurban məqsədilə kəsərsə, bu əməl sünnəyə müxalif sayılar.

3-cüsü; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu saya müvafiq olmalıdır. Məsələn: əgər adam məğrib namazını dörd rükət və ya iki rükət qılarsa, yəni şəriətin buyurduğu sayı əksildər, yaxud ona əlavə edərsə, namaz qəbul olunmaz.

4-cüsü; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu qaydaya və ya ardıcıllığa müvafiq olmalıdır. Məsələn: əgər adam namaz qılarkən əvvəlcə səcdə edib, sonra qalxıb rüku

edərsə, o namaz batil sayılar. Çünki onun ardıcıllığı sünnəyə müxalifdir.

5-cisi; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu zamana müvafiq olmalıdır. Məsələn: əgər adam namazı vaxtından əvvəl qılarsa, o namaz batil sayılar.

6-cısı; ibadət məqsədilə yerinə yetiriləcək əməl, şəriətin buyurduğu məkana müvafiq olmalıdır. Məsələn: əgər həcc ziyarətinə getmiş adam ərəfat gününü, yəni zil-hiccə ayının 9-unu Ərəfatda yox, başqa bir məkanda – Minada, yaxud Müzdəlifədə və ya başqa bir yerdə keçirərsə, ziyarəti qəbul olunmaz.

Yeri gəlmişkən qeyd edək ki, bu mövzuya dair əməllər iki qismə bölünür: əsli halal olan şeylərdən istifadə etmək və əsli halal olan əməlləri yerinə yetirmək.

Əsli halal olan şeyin, haram olmasını demək üçün şəriətin buyurduğu dəlilə yəni Quran və ya Sünnəyə əsaslanmaq lazımdır. Dəlil olmadığı təqdirdə həmin şey öz əslində, yəni halallığında qalır. Məsələn: adam quş ovlayıb ki, onu yesin. Və əgər kimsə ona bunun haram olduğunu deyərsə, bunu əsaslandırmalıdır. Əsaslandıra bilməsə, o yemək halallığında qalır, yəni o quşu yemək halal sayılır. Bu xüsusda "əl-Bəqərə" surəsinin 29-cu ayəsində belə buyurulur: "Yer üzündə olanların hamısını sizin üçün xəlq edən Allahdır."

Həmçinin, əsli halal olan bir əməlin, başqa cür desək, ibadətə aid olmayan bir əməlin haram olmasını demək üçün yenə şəriətin buyurduğu dəlilə əsaslanmaq lazımdır. Dəlil olmadığı təqdirdə həmin əməl öz əslində, yəni halallığında qalır. Məsələn: adam

evində ibadətə aid olmayan bir iş görür, yaxud müəyyən saatlarda kitab oxuyur və ya müəyyən günlərdə idman edir, yəni dünyəvi işlə məşğul olur, başqa birisi də onu görüb bu işin haram olduğunu deyir. Əlbəttə ki, bunu deməyin özü böyük günahdır. Allahın haram buyurmadığı bir şeyin və ya əməlin haram olduğunu demək, qəti qadağandır. Bu xüsusda "ən-Nəhl" surəsinin 116-cı ayəsində belə buyurulur: "Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!"– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar."

Bütün bu sadalananlara əsasən deyə bilərik ki, ibadətə aid olan işlər üç qismə bölünür:

1-cisi, şəriətin buyurduğu ibadətlərdir ki, bunları yerinə yetirmək lazımdır.

2-cisi, şəriətin qadağan etdiyi əməllərdir ki, bunlardan çəkinmək lazımdır.

3-cüsü, ibadətə aid olub-olmadığını bilmədiyimiz şübhəli əməllərdir ki, bunlardan da, həmçinin, uzaq durmaq vacibdir.

Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Halal da bəllidir, haram da bəllidir. Bunların arasında şübhəli işlər var ki, insanların bir çoxu bunları bilmir. Hər kim şübhəli işlərdən uzaq durarsa, dinini və ismətini qorumuş olar. Kim də şübhəli işlərə dalarsa, harama dalmış olar..."[1]

Dünyəvi işlərə gəlincə, onlar da üç qismə bölünür:

---

[1] Səhih əl-Buxari, 52 və 2051; Səhih Muslim, 1599.

1-cisi, şəriətin halal buyurduğu şeylərdir ki, bunlardan istifadə etmək icazəlidir. Məsələn: at əti, yaxud balıq və ya başqa bu kimi şəriətin izin verdiyi yeməklərdən yemək.

2-cisi, şəriətin haram buyurduğu şeylərdir ki, bunlardan da istifadə etmək qadağandır. Məsələn: donuz əti, yaxud leş və ya başqa bu kimi haram buyurulanlardan yemək.

3-cüsü, hökmünü bilmədiyimiz şeylərdir ki, bunlardan istifadə etmək icazəlidir.

Peyğəmbər ﷺ öz səhabələrinə istənilən əmri və ya qadağanı bir dəfə deyər, onlar da dərhal onun əmrini yerinə yetirər, qadağan etdiyi əməldən çəkinərdilər. Lakin bidətdən uzaq durmağı daim onlara xatırladardı, halbuki onlardan heç biri heç vaxt bidətə yol verməmişdir. Peyğəmbər ﷺ İslam ümmətinin gələcək nəslini bidətdən çəkindirmək üçün belə etmişdir. İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Məndən əvvəl elə bir peyğəmbər olmayıb ki, ona, öz ümmətini özlərinin xeyrinə olan işlərə yönəltmək, habelə, onları özlərinin zərərinə olan işlərdən çəkindirmək buyurulmasın. Bu ümmətin isə əvvəlinciləri xeyirə nail olacaq, axırıncılarının isə başına bəla gələcək və onlar sizin məqbul saymadığınız, şəriətə müxalif olan əməlləri edəcəklər. Zaman gələcək bir-birinin ardından elə fitnələr baş qaldıracaq ki, əvvəlincisi sonrakından daha yüngül olacaq. Bir fitnə baş qaldıracaq, mömin adam: "Bu fitnə məni məhv edəcək"- deyəcək, sonra başqa bir fitnə baş qaldıracaq, yenə mömin adam: "Bu fitnə məni məhv edəcək"- deyəcək. (Beləcə fitnələr baş alıb gedəcək.) Hər kim Cəhənnəm odundan uzaqlaşıb

Cənnətə daxil olmaq istəyirsə, qoy Allaha və axirət gününə iman gətirdiyi halda bu dünyadan köçsün!"[1]

İndi gəlin baxaq görək sələflərdən bəzisi bidət haqqında nə demişdir:

Abdullah İbn Ömər ﷺ demişdir: "İnsanlar bidətləri *dinə əlavə edilmiş yenilikləri* yaxşı əməl hesab etsələr belə, hər bir bidət zəlalətdir."[2]

Abdullah ibn Məsud ﷺ isə belə demişdir: "*Sunnəyə* tabe olun, bidət etməyin. Bu, sizə yetər."[3] O, həmçinin, demişdir: "Sünnə sayılan əməllərdə orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir."[4]

Ömər ibn Abdüləziz ﷺ demişdir: "Sizlərə Allahdan qorxmağı və Onun əmrləri ilə kifayətlənməyi tövsiyə edirəm. Həmçinin, Peyğəmbərin ﷺ əmrlərinə tabe olmağı və ondan sonra insanların etdiyi yenilikləri tərk etməyi tövsiyə edirəm."[5]

İbn Sirin ﷺ demişdir: "*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Ara qarışdıqdan sonra isə onlar: "Ravilərinizin adlarını bizə söyləyin"– deməyə başladılar. Beləcə, sünnə əhlinə diqqət

---

[1] Səhih Muslim, 1844.

[2] Şərh əl-İtiqad, əl-Lalakai, 126; Silsilətul-Əhadisis-Səhihə, 6/526.

[3] Sunən əd-Darimi, 205; Şoəbul-İman, 2024; Şərhus-Sunnə, 1/214; əl-İbanətul-Kubra, 174; Mənasikul-Həcc vəl-Umrə (əl-Albani), səh: 44.

[4] Mustədrək, 352; Sunən əl-Beyhəqi əl-Kubra, 4522; Silslətul-Əhadisis-Səhihə, 5/11.

[5] Hilyətul-Ovliya, 5/338; əl-İbanətul-Kubra, 163.

yetirilər və onların hədisləri qəbul edilər, habelə, bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi."[1]

Sonda, Allahdan istəyimiz budur ki, haqqı haqq olaraq bizə göstərsin və bizi haqqa yönəltsin, habelə, batili batil olaraq bizə göstərsin və bizi ondan uzaq etsin!

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik."[2]

---

[1] Muslimin müqəddiməsi, 27.

[2] Musnəd imam Əhməd, 5/243.

# Altıncı hədis

عَنْ أَبِي عَبْدِ اللَّهِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﵄، قَالَ: سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "إنَّ الْحَلَالَ بَيِّنٌ، وَإِنَّ الْحَرَامَ بَيِّنٌ، وَبَيْنَهُمَا أُمُورٌ مُشْتَبِهَاتٌ لَا يَعْلَمُهُنَّ كَثِيرٌ مِنْ النَّاسِ، فَمَنْ اتَّقَى الشُّبُهَاتِ فَقْد اسْتَبْرَأَ لِدِينِهِ وَعِرْضِهِ، وَمَنْ وَقَعَ فِي الشُّبُهَاتِ وَقَعَ فِي الْحَرَامِ، كَالرَّاعِي يَرْعَى حَوْلَ الْحِمَى يُوشِكُ أَنْ يَرْتَعَ فِيهِ، أَلَا وَإِنَّ لِكُلِّ مَلِكٍ حِمًى، أَلَّا وَإِنَّ حِمَى اللَّهِ مَحَارِمُهُ، أَلَّا وَإِنَّ فِي الْجَسَدِ مُضْغَةً إذَا صَلَحَتْ صَلَحَ الْجَسَدُ كُلُّهُ، وَإِذَا فَسَدَتْ فَسَدَ الْجَسَدُ كُلُّهُ، أَلَا وَهِيَ الْقَلْبُ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٥٢]، وَمُسْلِمٌ [رقم:١٥٩٩].

Rəvayət edilir ki, Əbu Abdullah Nomən ibn Bəşir ﵄ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Halal da bəllidir, haram da bəllidir. Bunların arasında şübhəli işlər var ki, insanların bir çoxu bunları bilmir. Hər kim şübhəli işlərdən uzaq durarsa, dinini və ismətini qorumuş olar. Kim də şübhəli işlərə dalarsa, harama dalmış olar. Necə ki, çoban (heyvanını) qoruğun kənarında otarır və az qalır ki, qoruğa girsin. Bilin ki, hər bir hökmdarın qoruğu var. Bilin ki, Allahın qoruğu haram buyurduğu şeylərdir. Diqqət edin! Bədəndə bir ət parçası var. Əgər o islah edilərsə, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, bu ət parçası qəlbdir."

Bu hədisi, imam Buxari və Muslim rahiməhuməllah öz “Səhih”lərində rəvayət etmişlər.[1]

Hədisi rəvayət edən səhabə Nomən ibn Bəşir ﷺ bu hədisi eşitdikdə səkkiz yaşı var idi. Bu o deməkdir ki, səhabələr az yaşlarından elm məclislərində iştirak edər, eşitdiklərini yadda saxlayar və onları başqalarına rəvayət edərdilər.

Bu hədis dəlildir ki, hökmlər üç qismə bölünür:

1-cisi, halallığı hər kəsə bəlli olan şeylərdir. Məsələn: buğda, xurma, balıq və başqa bu kimi halal yeməklərdən yemək, yaxud icazə verilən şərtlər əsasında alış-verişlə məşğul olmaq, evlənmək və s.

2-cisi, haramlığı hər kəsə bəlli olan şeylərdir. Məsələn: donuz əti yemək, şərab içmək, oğurluq və ya zina etmək, haqsız yerə adam öldürmək və s.

3-cüsü, şübhəli şeylərdir. Yəni halal, yoxsa haram olub-olmadığı insanların bir qisminə bəlli olmayan şeylərdir. Peyğəmbərin ﷺ: “Bunların arasında şübhəli işlər var ki, insanların bir çoxu bunları bilmir” sözü dəlildir ki, bu şübhəli işlərin hökmünü bilən alimlər var. O alimlər ki, şübhəli məsələyə aid araşdırma apardıqdan sonra dəlillərə əsaslanaraq onun halal və ya haram olduğuna dair qəti hökm verirlər.

Hökmü şübhə altında olan işlərə gəlincə, bu, adamın ya bir məsələnin hökmünə aid olan hədisin səhih, yoxsa zəif olduğunu bilmədiyindən, yaxud bir məsələyə dair ayrı-ayrı hökmləri əhatə edən hədisləri cəm etmək iqtidarında olmadığından, yaxud məsə-

---

[1] Səhih əl-Buxari, 52, 2051; Səhih Muslim, 1599.

ləyə dair ayrıca bir dəlil olmadığına görə onu başqa bir dəlilə qiyas etdiyindən, yaxud səhih hədisin, aid edilən məsələyə aidiyyatı olub-olmadığını başa düşmədiyindən, ya da ümumiyyətlə məsələnin hökmünə dair heç bir dəlil bilmədiyindən, həmin məsələ ona şübhəli gəlir. Dolayısıyla, insanların bir çoxu elminin az olduğuna, yaxud məsələyə dair varid olmuş dəlili başa düşmədiyinə, ya da o dəlili yanlış başa düşdüynə görə şübhəyə düşür.

İbn Rəcəb ﷺ öz şərhində şübhəli məsələlərə aid "əl-iynə" ticarətini misal göstərir. əl-İynə ticarəti nə deməkdir? Satıcının bir malı müştəriyə əvvəlcə nisyə olaraq satıb, sonra da, o müştəridən həmin malı daha ucuz qiymətə nağd pulla almasına, "əl-iynə ticarəti" deyilir. Məsələn: adam maşın alverçisinin yanına gəlib, yüz minlik bir maşını bir il müddətinə ödəmək şərtilə nisyə almaq istədiyini bildirir. Nəhayət, satıcı ilə razılaşıb sövdələşdikdən sonra artıq, o maşını öz malı kimi həmin satıcıya daha ucuz qiymətə, məsələn: səksən minə təklif edir, satıcı da, bununla razılaşır və beləliklə də, o müştəri maşın alverçisindən maşın yox, səksən min pul götürür ki, bir il müddətinə yüz min qaytarsın. Bu ticarətin zahirinə baxan adam onun halal ticarət olduğunu güman etsə də, İslam alimləri bu növ ticarətin ribaya aid olduğunu bildirmişlər. İmam Əhməd, İshaq və başqa alimlər bu növ ticarətin harama gətirib çıxaran şübhəli əməllərdən olduğunu demişlər.

Bu deyilənlərdən bizə aydın oldu ki, Quran və Sünnədə olan hökmlərin hamısı bəlli hökmlərdir, yəni halal da bəllidir, haram da bəllidir, sadəcə olaraq məsələyə dair ayə və hədislərdən xəbəri olmayanlar və ya onları düzgün başa düşməyənlər olur. Yoxsa ki,

şəriətdə hər şey gün kimi aydındır. Bu xüsusda "ən-Nəhl" surəsinin 89-cu ayəsində Uca Allah buyurur:

﴿وَنَزَّلْنَا عَلَيْكَ ٱلْكِتَٰبَ تِبْيَٰنًا لِّكُلِّ شَىْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَىٰ لِلْمُسْلِمِينَ﴾

"Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik."

Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mən sizə, gecəsi gündüzü kimi aydın olan din qoyub gedirəm. Bu haqq yoldan yalnız həlak olan kimsələr azarlar."[1]

Bu hədisdə ərəbcə işlənən "istəbraə" feli, "bəraət qazanmaq" mənasında işlənir. Yəni kim şübhəli işlərdən uzaq durarsa, həm din, həm də dünya işlərində naqis əməllərinə görə bəraət qazanar. Belə ki, şübhəli işlərlə məşğul olmaq nə Allaha, nə də insanlara xoş gəlir. Sələflərin gözəl bir sözü var, deyərlər: "Kim şübhəli işlərə dalarsa, qoy öz ünvanına deyilən töhmətlərə görə özündən başqa heç kəsi qınamasın."[2]

Sonra bu hədisdə: "Kim də şübhəli işlərə dalarsa, harama dalmış olar"– deyilir. Yəni şübhəli işlər adamı harama yaxınlaşdırır və sonda onu haram iş görməyə gətirib çıxarır. Peyğəmbərin ﷺ çəkdiyi misal açıq-aydın buna dəlalət edir. Necə ki, qoruğun yaxınlığında otlayan heyvan, qoruğun yaşıl otla dolu olduğunu görəndə, dözməyib qoruğa girir, eləcə də insan şübhəli şeylərə yaxınlaşdıqda nəfsini saxlaya bilməyib onlardan istifadə edir. Burada "harama dalmış olar" ifadəsi, iki mənanı ehtiva edir.

---

[1] Musnəd İmam Əhməd, 4/26.

[2] Cami əl-Ulum vəl-Hikəm, 1/204.

1-cisi, şübhəli işlərə yaxınlaşan adam özü də hiss etmədən harama dalır və elə güman edir ki, yaxşı iş görür.

2-ci mənası budur ki, adamın yaxınlaşdığı şübhəli işlər onu harama yaxınlaşdırır. Belə ki, adam şəriətə müxalif əməl etdikcə, kiçik fəsaddan böyük fəsada keçir. Bu xüsusda "əl-Bəqərə" surəsinin 61-ci ayəsində kafirlər barədə belə buyurulur: "Onlara zəlillik və düşgünlük üz verdi, üstəlik, onlar Allahın qəzəbinə düçar oldular. Bu cəza ona görə idi ki, onlar Allahın ayələrinə küfr edirdilər və peyğəmbərləri haqsız yerə öldürürdülər. Bu, onların asi olduqlarına və həddi aşdıqlarına görə idi." Diqqət edin, əvvəlcə asilik edən adamlar, axırda küfr edir və peyğəmbərləri öldürürlər. Bundan bizə aydın olur ki, mömin adam harama və ya küfrə aparıb çıxaracaq hər bir əməldən uzaq durmalıdır, başqa cür desək, şər qapısını əvvəlcədən bağlamalıdır. Necə ki, "əl-Ənam" surəsinin 108-ci ayəsində buyurulur: "*Müşriklərin* Allahdan savayı tapındıqları bütlərini söyməyin. Yoxsa onlar da, elmsiz olaraq düşməncəsinə Allahı söyərlər."

Peyğəmbərin ﷺ: "Kim şübhəli işlərə dalarsa, harama dalmış olar" sözünü, onun başqa bir hədisi daha geniş izah edir. Həmin hədisdə ﷺ Peyğəmbər demişdir: "Allah doğru yola aid bir məsəl çəkdi; bu yolun hər tərəfində bir divar, həmin divarlarda açıq qapılar və bu qapıların üstündə sallanmış pərdələr vardır. Yolun başında dayanmış bir nəfər insanları çağırıb: "Ey insanlar! Hamınız bu yolla gedin və firqələrə bölünməyin!"– deyir. Digər dəvətçi də yolun üstündə dayanıb nəzarət edir. Kimsə o qapılardan birini açmaq istəyəndə ona: "Vay sənin halına! O qapını açma. Əgər sən

onu açsan, mütləq ora girəcəksən"– deyir. Peyğəmbər ﷺ davam edib deyir: "Burada yol – İslam dinidir; divarlar – Allahın qoyduğu hüdudlar və qayda-qanunlardır, açıq qapılar – Allahın haram buyurduqlarıdır, yolun başında dayanan çağırışçı – Allahın Kitabıdır və nəhayət, yolun üstündə duran nəzarətçi – Allahın hər bir müsəlmanın qəlbində təyin etdiyi nəsihətçidir."[1]

Bu hədisdən aydın olur ki, səhlənkarlıq edib harama yaxınlaşan adam, məsələn naməhrəm qadınla təkliyə çəkilən günaha bata bilər. Odur ki, Uca Allah zinanın haram olduğunu buyurarkən, demir ki, "zina etməyin", ümumiyyətlə, ona yaxınlaşmağı qadağan edib buyurur: "Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!"[2]

Şərh etdiyimiz hədisdə deyilir ki, "Bədəndə bir ət parçası var. Əgər o islah edilərsə, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar." Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, insanın zahiri əməli, onun qəlbinin necəliyindən xəbər verir. Bu hədis, günah işlər görən və "qəlbim təmizdir" deyən adamların, yanlış fikirdə olduqlarını göstərir. Onların yanlış fikirdə olduqlarını isbat etmək çox asandır. Deyirsən ki, əgər qəlbin təmiz olsa, əməllərin də təmiz olar. Heç eşitmisinizmi ki, haram işlər görən adama: "Filankəs təmiz adamdır"- desinlər. Əlbəttə ki, yox! Deməl, haram işlər görən və asilik edən adam, qəlbinin təmiz olduğunu iddia etsə də, onun zahiri əməlləri, qəlbinin xarab olduğunu bildirir.

[1] Musnəd İmam Əhməd, 4/182; Səhih əl-Cami, 3887.

[2] əl-İsra, 32.

Bu hədis dəlildir ki, insanın bütün əzalarını qəlb idarə edir.

Əbu Hureyra ﷺ bunu izah edib deyir: "Qəlb padşahdır, əzalar da onun əsgərləri. Padşah düzələrsə, əsgərləri də düzələr. Yox, əgər korlanarsa, əsgərləri də korlanar."[1] Bu da o deməkdir ki, ağıl başda yox, qəlbdədir. Ağılın qəlbdə olmasını isbat edən neçə-neçə ayələr nazi olub. Məsələn: "əl-Həcc" surəsinin 46-cı ayəsində belə buyurulur: "Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri və eşidən qulaqları olsun?! Əslində, gözlər kor olmaz, lakin kökslərdəki qəlb kor olar." Həmçinin, "əl-Əraf" surəsinin 179-cu ayəsində deyilir: "Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, lakin onunla anlamazlar." Bu ayələrdə açıq-aydın bildirilir ki, insanın beyni yox, qəlbi düşünür. Yəni ağıl başda yox, qəlbdədir.

Rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ Siffin döyüşündə demişdir: "Həqiqətən, ağıl qəlbdədir, mərhəmət qara ciyərdədir, şəfqət dalaqdadır və nəfəs ağ ciyərdədir."[2] Əli ﷺ belə məqamda bu sözü deməklə insanları qəlblərini islah etməyə və fitnə baş qaldırdığı zaman fitnədən uzaq durmağa, habelə, mərhəmətli və şəfqətli olmağa çağırır.

İbn Həcər əl-Əsqəlani ﷺ Peyğəmbərin ﷺ: "Bədəndə bir ət parçası vardır. Əgər o, yaxşı olarsa, bütün bədən yaxşı olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, o *ət parçası* qəlbdir" hədisini şərh edərkən demişdir: "Bu hədis qəlbin olduqca qiymətli olduğuna, onun islah olunmasının zəruriliyinə, üstəlik,

---

[1] Məcmuə əl-Fətavə, 7/644.

[2] əl-Ədəbul-Mufrad, Buxari, səh: 192; Şuəb əl-İman, əl-Beyhəqi, 4/161.

insanın pak ruzi qazanmaqda onun böyük rolu olduğuna dəlalət edir. Bütün bunlar Allahın qəlbin içinə yerləşdirdiyi ağıldan asılıdır. Bu da, dəlildir ki, ağıl qəlbdədir. Buna, Uca Allahın bu ayələrini də dəlil göstərmək olar: "Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri və eşidən qulaqları olsun?! Əslində, gözlər kor olmaz, lakin kökslərdəki qəlb kor olar." Həmçinin, "Qaf" surəsinin 37-ci ayəsində belə buyurulur: "Həqiqətən, bunda dərk edən qəlbi olan, hazır durub diqqətlə qulaq asan kimsə üçün ibrət vardır." Müfəssirlər ayədə keçən "dərk edən qəlbi"n ağıl olduğunu demişlər. Qəlb ağılın yerləşdiyi yer olduğu üçün ayədə o, qəlb sözü ilə ifadə edilir."[1]

İndi gəlin, sələflərin bu mövzuya dair dedikləri bir neçə ibrətamiz sözlərlə bu hədisin şərhinə son verək:

Əbu Dərda ﷺ demişdir: "İnsanın təqvasının kamilliyi ondadır ki, ən xırda günahdan belə çəkinsin, hətta özünə halal göründüyü, lakin haramlığına ehtiyat etdiyi işlərdən də çəkinməlidir ki, özü ilə haram işlər arasına bir sədd çəksin."[2]

Həmçinin, İbn Ömər ﷺ demişdir: "Mən özümlə haramlar arasına, halal işləri sədd çəkirəm ki, harama dalmayım."[3]

Həmçinin, Həsən əl-Bəsri ﷺ demişdir: "Müttəqilər, haramlığına dair şübhə etdikləri bir çox halal şeyləri tərk etdiklərinə görə, təqvaya yiyələnmişlər."[4]

---

[1] Fəthul-Bari, 1/128-129.

[2] Cami əl-Ulum vəl-Hikəm, 1/209.

[3] Əvvəlki mənbə.

[4] Əvvəlki mənbə.

Həmçinin, Süfyan ibn Uyeynə ﵀ demişdir: “Müttəqilər, çəkinilməsi vacib olmayan işlərdən çəkindiklərinə görə müttəqi adlanmışlar.”[1]

Sonda, Allahdan istəyimiz budur ki, bizim qəlbimizi dini üzərində sabit etsin!

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الثَّبَاتَ فِي الْأَمْرِ، وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَنَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَنَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ، وَحُسْنَ عِبَادَتِكَ، وَنَسْأَلُكَ قَلْبَاً سَلِيمَاً، وَلِسَانَاً صَادِقَاً، وَنَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَنَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلاَّمُ الْغُيُوبِ ))

“Allahım, Səndən dində sabit qalmağımızı və doğruluğa can atmağımızı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, Sənin nemətlərinə şükür etməyi və Sənə gözəl şəkildə ibadət etməyi, habelə, salamat qəlb və düzdanışan dil diləyirik. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarımıza görə Səndən bağışlanma diləyirik. Heç şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən.”[2]

---

[1] əl-Hilyə, Əbu Nueym, 7/284.

[2] Musnəd İmam Əhməd, 4/125; Sunən ət-Tirmizi, 3407.

(( اللَّهُمَّ آتِ نُفُوسَنَا تَقْوَاهَا، وَزَكِّهَا أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا، أَنْتَ وَلِيُّهَا وَمَوْلَاهَا، اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ عِلْمٍ لَا يَنْفَعُ، وَمِنْ قَلْبٍ لَا يَخْشَعُ، وَمِنْ نَفْسٍ لَا تَشْبَعُ، وَمِنْ دَعْوَةٍ لَا يُسْتَجَابُ لَهَا ))

"Allahım, nəfsimizi təqvalı et və onu təmizə çıxart, Sən təmizə çıxaranların ən xeyirlisisən. Sən nəfsimizin qəyyumu və hamisisən! Allahım, fayda verməyən elmdən, Səndən qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olmayan duadan Sənə sığınırıq!"[1]

---

[1] Səhih Muslim, 6844.

## Yeddinci hədis

عَنْ أَبِي رُقَيَّةَ تَمِيمِ بْنِ أَوْسٍ الدَّارِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: "الدِّينُ النَّصِيحَةُ. قُلْنَا: لِمَنْ؟ قَالَ لِلَّهِ، وَلِكِتَابِهِ، وَلِرَسُولِهِ، وَلِأَئِمَّةِ الْمُسْلِمِينَ وَعَامَّتِهِمْ".

رَوَاهُ مُسْلِمٌ [رقم: ٥٥].

Rəvayət edilir ki, Əbu Ruqeyya Təmim ibn Ovs əd-Dari ﷺ demişdir: “Bir gün Peyğəmbər ﷺ dedi: “Din nəsihətdir.” Biz soruşduq: “Kimin üçün, *ya Rəsulullah*?” O buyurdu: “Allah üçün, Onun Kitabı üçün, Onun rəsulu üçün, habelə, müsəlmanların rəhbərləri və bütün müsəlmanlar üçün.”

Bu hədisi, imam Muslim öz “Səhih”ində rəvayət etmişdir.[1]

Digər rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ: “Din nəsihətdir” sözünü üç kərə təkrar etmişdir.[2]

Peyğəmbərin ﷺ “Din nəsihətdir” sözü dində nəsihət etməyin böyük əhəmiyyəti olduğunu bildirir. Belə ki, nəsihət, dinin əsası və dirəyi hesab edilir. Necə ki, Peyğəmbər ﷺ: “Həcc, Ərafatdır”– demişdir. Yəni həcc ziyarətinin əsas dayağı, zil-hiccə ayının 9-u Ərafatda qalmaqdır. Həmçinin, necə ki, o: “Dua, ibadətdir”– demişdir. Yəni, dua ibadətin əsas dayaqlarından biridir. Burada da, həmçinin, nəsihət, dinin əsas dayaqlarından biri sayılır. Din deyildikdə, İslam, iman və ehsan nəzərdə tutulur. Necə ki, Cəbrail hədisində Peyğəmbər ﷺ onun İslam, iman və ehsan barədə ver-

[1] Səhih Muslim, 55.

[2] Musnəd İmam Əhməd, 4/102.

diyi suallara təfsilatlı şəkildə cavab verir və axırda: “Bu, Cəbrail idi, gəlmişdi sizə dininizi öyrətsin” deyir. Burada zikr edilən din, əməlləri əhatə edir. Necə ki, “əl-Maidə” surəsinin 3-cü ayəsində “Sizin üçün din olaraq İslamı bəyənib seçdim.” Yəni Allah bu dini nazil edib ki, insanlar onun tələblərini yerinə yetirsinlər. Bundan əlavə din kəlməsi cəza mənasını da ifadə edir. Necə ki, “əl-Fatihə” surəsinin 4-cü ayəsində deyilir: “Din gününün Hökmdarı” yəni cəza və haqq-hesab günü.

Hədisə diqqət edin, Peyğəmbər ﷺ “Din nəsihətdir” deyir, sonra da bilərəkdən onu izah etmir ki, səhabələri onun izahı barədə soruşsunlar və onu öyrənib ona əməl etməyə həris olsunlar. Çünki belə üslubla öyrənilən elm, yaddaşda daha yaxşı qalır.

Odur ki, səhabələr dərhal: “Kimin üçün?” deyə sual verirlər. Onların bu cür sual verməsi dəlildir ki, onlar nəsihətin nə olduğunu başa düşmüşdülər, lakin onun kimin üçün olduğunu öyrənmək istəyirdilər.

Əgər biz bu “nəsihət”lə bağlı olanlara diqqət yetirsək görərik ki, o, bütün dini – həm əqidəyə, həm ibadətə, həm davranışlara, həm də haqq sahiblərinin haqqını ödəməyə aid olan məsələlərin hamısını əhatə edir.

Bir çox İslam alimləri öz kitablarında, bu hədisdə zikr edilən beş nəsihəti şərh etmişlər. Biz bu şərhlərdən ikisini seçmişik. Gəlin onları olduğu kimi oxuyaq:

1-cisi, Əbu Amr İbn əs-Salahın رحمه الله şərhidir. İbn əs-Salah “Siyanatu Səhih Muslim” kitabında demişdir: “Nəsihət, dərin məna ifadə edən bir kəlmədir. Və bu, nəsihət edənin nəsihət edilənə çoxlu xeyir arzulamasını və onu xeyirli işlərə yönəltməsini əhatə edir.

Hədisdə “Allah təbarəkə və təalə üçün nəsihət” deyildikdə, Onun tək ilah olduğunu qəbul etmək, Onun, kamil və uca sifətlərə sahib olduğuna və bütün nöqsanlardan uzaq olduğuna etiqad etmək, üstəlik, Ona itaət etmək, Onu səmimi-qəlbdən sevmək, bir kimsəni yalnız Onun xatirinə sevmək və bir kimsəyə yalnız Onun xatirinə nifrət etmək, günahlardan uzaq durmaq, habelə, Ona küfr edən və onlara yardım edən kafirlərlə mübarizə aparmaq, üstəlik, başqa müsəlmanları da buna təşviq etmək qəsd edilir.

“Allahın kitabı üçün nəsihət” deyildikdə, ona iman gətirmək, onun şənini uca tutmaq, onu öyrənib başqalarına öyrətmək, oxuduqda təcvidlə oxumaq, əmrlərini yerinə yetirmək və qadağalarından çəkinmək, onun təfsirlərini araşdırmaq və ayələrinin mənasını başa düşməyə çalışmaq, başqalarını da, buna dəvət etmək, habelə, bu kitabı təhrif etmək istəyən və ona tənə edən sapıqların cavabını vermək qəsd edilir.

“Allahın rəsulu ﷺ üçün nəsihət” deyildikdə, ona və onun təbliğ etdiyinə iman gətirmək, onu uca tutmaq və onu tərifləmək, ona itaət etmək və daim onun sünnəsinin yayılmasına yardım etmək, sünnəsini öyrənib başqalarına öyrətməklə onu yaşatmaq, üstəlik, onun kimi əxlaqlı və ədəbli olmaq, habelə, ona və onun sünnəsinə nifrət edənlərə ədavət bəsləmək, onu və onun sünnəsini sevənləri, xüsusilə onun əhli-beytini və səhabələrini sevmək nəzərdə tutulur.

“Müsəlmanların rəhbərləri üçün nəsihət” deyildikdə, idarəçilikdə onlara dəstək vermək və onlara itaət etmək, bilmədikləri məsələləri və ya unutduqları işləri mülayim şəkildə onların yadına salmaq, onlara qarşı üsyan etməmək, onların yaxşı işlər gör-

məsinə müvəffəq olmaları üçün Allaha dua etmək və başqalarını da buna təşviq etmək nəzərdə tutulur.

"Bütün müsəlmanlar" deyildikdə, ixtiyar sahiblərindən başqa bütün müsəlmanlar qəsd edilir. Onlar üçün nəsihət deyildikdə isə onları xeyirli işlərə yönəltmək, onlara dini və dünyəvi işlər öyrətmək, onların eyiblərini gizlətmək, onların düşməni ilə ədavət aparmaq və onlara düşmənə qarşı yardım etmək, onları aldatmamaq və onlara həsəd aparmamaq, özü üçün istədiyini onlar üçün istəmək, habelə, istəmədiyini də, onlar üçün istəməmək qəsd edilir."[1]

2-ci şərh, İbn Həcər əl-Əsqəlaninin ﷺ şərhidir. İbn Həcər "Fəthul-Bari" əsərində demişdir:

"Hədisdə "Allah üçün *nəsihət*" deyildikdə, Onu layiqincə vəsf etmək, aşkarda da, gizlində də Ona boyun əymək, Onun razılığını qazanmaq üçün buyuruqlarını yerinə yetirmək, qəzəbindən qurtulmaq üçün qadağan etdiyi şeylərdən çəkinmək, asilik edənləri Onun yoluna qaytarmaq uğrunda mübarizə aparmaq nəzərdə tutulur. Sövri, Abduləziz ibn Rufeydən, o da Əlinin sirdaşı olmuş Əbu Sumamədən rəvayət etmişdir ki, *bir dəfə* həvarilər *Məryəm oğlu* İsadan عليه السلام: "Ey Allahın ruhu! Kimdir Allaha nəsihət edən?"– deyə soruşdular. İsa عليه السلام *onlara* belə cavab verdi: "Allahın haqqını öz haqqından üstün tutan kimsə!"

"Allahın Kitabı üçün *nəsihət*" deyildikdə, onu öyrənmək və *başqalarına* öyrətmək, oxuduqda təcvidlə oxumaq, yazdıqda düzgün şəkildə yazmaq, ayələrinin mənasını başa düşməyə səy gös-

[1] Siyanatu səhih Muslim minəl-ixlal vəl-ğalət və himayətuhu minəl-isqati vəs-səqti, səh: 223-224.

tərmək, ayələrdə keçən qayda-qanunları qorumaq, əhkamları yerinə yetirmək və onları təhrif edənlərin cavabını vermək qəsd edilir.

"Allahın Rəsulu üçün *nəsihət*" deyildikdə, Rəsulullaha ﷺ saygı göstərmək, hər zaman ona *və onun dininin yayılmasına* kömək etmək, sünnəsini öyrənib *başqalarına* öyrətməklə onu yaşatmaq, sözdə və əməldə onun yolunu tutub getmək, onu və ardınca gedənləri sevmək nəzərdə tutulur.

"Müsəlmanların rəhbərləri üçün *nəsihət*" deyildikdə, idarəçilikdə onlara dəstək vermək, bixəbər olduqları məsələlərdən onları agah etmək, səhvlərini gördükdə onlara yaltaqlanmamaq, əksinə, bu səhvi hikmətlə onlara başa salmaq, onların *şəriətə müvafiq olan* bir sözünü iki eləməmək, onları camaata sevdirmək və gözəl tərzdə onları zülm etməkdən çəkindirmək qəsd edilir. Qeyd etmək lazımdır ki, rəhbərlər deyildikdə bura alimlər də aid edilir və onlara nəsihət etmək deyildikdə elmlərinə ehtiram göstərmək, onların yaxşı əməlləri barədə danışmaq və barələrində yaxşı zənn etmək nəzərdə tutulur.

"Bütün müsəlmanlar üçün *nəsihət*" deyildikdə isə onlara mərhəmət etmək, onlara yaxşılıq etməyə səy göstərmək, fayda verəcək şeyləri onlara öyrətmək, onlara əziyyət verməmək, özünə istədiyini onlar üçün də istəmək və özünə rəva bilmədiyini onlara da rəva bilməmək qəsd edilir. Hədisdən belə nəticə çıxır ki, *yaxşı* əməl din adlandırıla bilər. Çünki Peyğəmbər ﷺ öyüd-nəsihət verməyi din adlandırmışdır."[1]

---

[1] Fəth əl-Bari, 1/89.

Bu deyilənlərdən bizə aydın oldu ki, Allah üçün nəsihət deyildikdə, Allahın haqqını layiqincə ödəmək, Onun vəhdaniyyətini, yəni həm rububiyyət, həm uluhiyyət, həm də isim və sifətlər tovhidini qəbul etmək, Onun buyuruqlarını yerinə yetirmək və qadağan etdiyi əməllərdən çəkinmək vacibdir.

Allahın kitabı, yəni Qurani Kərim üçün olan nəsihətə gəlincə, onu layiqincə dəyərləndirməyimiz, onu öyrənib, başqalarına öyrətməyimiz, gecə-gündüz fürsət tapdıqca onu çoxlu oxumağımız lazımdır.

Allahın rəsulu ﷺ üçün olan nəsihətə gəlincə, biz onun yolunu tutub getməli, onun verdiyi hökmləri tərəddüdsüz qəbul etməli, onu tez-tez yad etməli, adı çəkiləndə salavat gətirməli, onun gətirdiyi dini hər yerdə yaymalı, onunla görüşməyi arzulamalı, onun sevdiyi kimsələri sevmək və onun nifrət etdiyi kimsələrə nifrət etməliyik.

Müsəlman rəhbərlərinə nəsihətə gəldikdə isə, qeyd etmək lazımdır ki, nəsihət etmək iqtidarında olan hər bir müsəlmana vacibdir ki, ixtiyar sahiblərinə mülayim şəkildə və ədəb-ərkanla, həm də camaat yanında yox, təklikdə nəsihət etsin, sonra da, onların islah olması üçün Allaha dua etsin. Rəvayət edilir ki, Fudeyl ibn İyad demişdir: "Bilsəydim ki, mənim bir duam qəbul olacaq, onu ixtiyar sahibinin islah olunmasına yönəldərdim."[1] İxtiyar sahiblərinə itaət etmək xüsusunda onlarla hədis rəvayət edilib. Gəlin bunlardan bir neçəsini zikr edək:

İmam Əhmədin nəql etdiyi hədisdə, Peyğəmbər ﷺ demişdir: "Üç xislət vardır ki, bunları özündə cəm edən möminin qəlbi əsla

[1] Şərhus-Sünnə, 116.

dönük çıxmaz: əməli səmimi-qəlbdən Allah üçün etmək, müsəlmanların rəhbərlərinə nəsihət etmək və müsəlman camaatdan ayrılmamaq"[1] başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim öz rəhbərinin xoşagəlməz bir hərəkətini görsə, qoy buna səbir etsin. Çünki kim *müsəlman* camaatından bircə qarış kənara çıxıb ölərsə, cahiliyyət dövründə olduğu kimi ölmüş olar."[2] Digər hədisdə o, demişdir: "Allahdan qorxun, beş vaxt namazlarınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və müsəlman rəhbərinizə itaət edin, beləliklə də, Rəbbinizin Cənnətinə daxil olarsınız."[3]

Qaldı ki, müsəlmanın müsəlmana olan haqqına, bu barədə olduqca çox hədis rəvayət edilmişdir. Məsələn: hədislərin birində Rəsulullah ﷺ demişdir: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır." Səhabələr soruşdular: "Nədir bunlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Müsəlmanla rastlaşdıqda, ona salam ver, dəvət etdikdə, dəvətini qəbul et, nəsihət istədikdə, ona nəsihət ver, asqırıb, Allaha həmd etdikdə, *Allahdan* onun üçün rəhmət dilə, xəstələndikdə, ona baş çək və vəfat etdikdə, cənazəsinin ardınca get."[4] Başqa bir rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qal-

---

[1] Musnəd İmam Əhməd, 5/183; Silsilətul-Əhadisis-Səhihə, 404-cü hədis.

[2] Səhih əl-Buxari, 7054.

[3] Sunən ət-Tirmizi, 2/516; Silsilətul-Əhadisis-Səhihə, 867-ci hədis.

[4] Səhih Muslim, 2162.

ması halal deyildir."[1] Yenə bir hədisdə Rəsulullah ﷺ demişdir: "Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan sözdür. Bir-birinizə kələk gəlmək məqsədilə malın qiymətini qaldırmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!"[2]

Bu mövzuda olduqca çox hədis rəvayət edilmişdir.

İslam dininin nəsihət olması barədə sələflərin də, gözəl sözləri var. Gəlin onlardan bir neçəsini zikr edək.

Fudeyl ibn İyad رحمه الله demişdir: "Biz, çoxlu nafilə namazı qılan və oruc tutan kimsələri yox, əliaçıq və qəlbi təmiz olan, üstəlik, ümmətə daim nəsihət edən kəsləri xeyirli işlərdə hamını ötüb-keçən müsəlmanlardan hesab edirik."[3]

O, həmçinin demişdir: "Mömin adam öz mömin qardaşının eyibini gizlədər və ona təklikdə nəsihət edər, fasiq adam isə mömin qardaşının eybini yayar və onu biabır etməyə çalışar."[4]

Məmər رحمه الله demişdir: "Sənə ən çox nəsihət edən kəs, Allah rizası üçün sənin başına bir müsibət gəlməsindən qorxan adamdır."[5]

Sonda, Allahdan istəyimiz budur ki, bizi, Allaha və Onun rəsuluna ﷺ itaət etməyə, Allahın Kitabını öyrənib onu başqalarına öyrətməyə və İslam ümmətinə fayda verməyə müvəffəq etsin!

---

[1] Səhih əl-Buxari, 6076; Səhih Muslim, 2558.

[2] Səhih əl-Buxari, 6066; Səhih Muslim, 3563.

[3] Camiul-Ulum vəl-Hikəm, 1/225.

[4] Əvvəlki mənbə.

[5] Əvvəlki mənbə.

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( رَبِّ أَعِنَّا وَلَا تُعِنْ عَلَيْنَا، وَانْصُرْنَا وَلَا تَنْصُرْ عَلَيْنَا، وَامْكُرْ لنَا وَلَا تَمْكُرْ عَلَيْنَا، وَاهْدِنَا وَيَسِّرِ الهُدَى إِلَيْنَا، وَانْصُرْنَا عَلَى مَنْ بَغَى عَلَيْنَا، رَبِّ اجْعَلْنَا لَكَ شَكَّارِينَ، لَكَ ذَكَّارِينَ، لَكَ رَهَّابِينَ، لَكَ مِطْوَاعِينَ، إِلَيْكَ مُخْبِتِينَ أَوَّاهِينَ مُنِيبِينَ، رَبِّ تَقَبَّلْ تَوْبَتَنَا، وَاغْسِلْ حَوْبَتَنَا، وَأَجِبْ دَعْوَتَنا، وَثَبِّتْ حُجَّتَنَا، وَاهْدِ قَلُوبَنَا، وَسَدِّدْ أَلْسِنَتَنَا، وَاسْلُلْ سَخِيمَةَ قَلُوبِنَا ))

"Ey Rəbbim, bizə kömək et, əleyhimizə olan işlərdə heç kəsə kömək etmə. Bizə qələbə bəxş et, heç kəsə bizim üzərimizdə qələbə qazandırma. Bizə düşmənlərimizə hiylə qurmağa kömək ol, başqasının bizə hiylə qurmasına yol vermə. Bizə hidayət ver və bizim üçün doğru yola yönəlməyi asanlaşdır. Bizə təcavüz edənə qalib gəlməyimizə yardım et. Ey Rəbbim, bizi yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bəndələr et. Ey Rəbbim, bizim tövbəmizi qəbul et, günahlarımızı yu, duamızı qəbul et, dəlilimizi möhkəmləndir, qəlbimizi haqqa yönəlt, dilimizi doğruluğa öyrət və qəlbimizin qara ləkəsini yox et!"[1]

---

[1] Sunən Əbu Davud, 1510; Musnəd İmam Əhməd, 1/227; Səhih əl-Ədəb əl-Mufrad, 665.

## Səkkizinci hədis

عَنْ ابْنِ عُمَرَ رضي الله عنهما، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: "أُمِرْت أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَشْهَدُوا أَنْ لَا إلَهَ إلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَيُقِيمُوا الصَّلَاةَ، وَيُؤْتُوا الزَّكَاةَ؛ فَإِذَا فَعَلُوا ذَلِكَ عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إلَّا بِحَقِّ الْإِسْلَامِ، وَحِسَابُهُمْ عَلَى اللَّهِ تَعَالَى".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٢٥]، وَمُسْلِمٌ [رقم:٢٢].

İbn Ömər رضي الله عنهما rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "İnsanlar, Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, onlarla vuruşmaq mənə əmr edildi. Əgər aşkarda bunu yerinə yetirsələr – İslam haqqı istisna olmaqla – canlarını və mallarını məndən qorumuş olarlar. Onların gizli əməllərinin haqq-hesabı isə Allaha aiddir."

Bu hədisi imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

İmam Buxari və Muslimin rəvayət etdiyi başqa bir hədisdə "mənə əmr edildi" deyilir. Bir qayda olaraq, Peyğəmbər ﷺ "mənə əmr edildi" və ya "mənə qadağan edildi" deyəndə, Allahın ona əmr və ya qadağan etdiyini qəsd edir, səhabələr isə, "bizə əmr edildi" və ya "bizə qadağan edildi" deyəndə, Peyğəmbərin ﷺ onlara əmr və ya qadağan etdiyini qəsd edirlər. Demək, burada Peyğəmbər ﷺ "Rəbbim mənə əmr etdi" demək istəyir. "ən-

---

[1] Səhih əl-Buxari, 25; Səhih Muslim, 22.

Nəcm" surəsinin 3-cü və 4-cü ayələri bunu təsdiqləyir. Həmin ayələrdə Uca Allah buyurur:

﴿وَمَا يَنطِقُ عَنِ ٱلۡهَوَىٰٓ ٣ إِنۡ هُوَ إِلَّا وَحۡيٞ يُوحَىٰ ٤﴾

"Peyğəmbər öz istəyi ilə danışmır. Bu, yalnız ona təlqin edilən bir vəhydir." Həmçinin, "ət-Tovbə" surəsinin 29-cu ayəsində belə buyurur:

﴿قَٰتِلُواْ ٱلَّذِينَ لَا يُؤۡمِنُونَ بِٱللَّهِ وَلَا بِٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَلَا يُحَرِّمُونَ مَا حَرَّمَ ٱللَّهُ وَرَسُولُهُۥ وَلَا يَدِينُونَ دِينَ ٱلۡحَقِّ مِنَ ٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ حَتَّىٰ يُعۡطُواْ ٱلۡجِزۡيَةَ عَن يَدٖ وَهُمۡ صَٰغِرُونَ﴾

"Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun rəsulunun haram buyurduğunu haram saymayan və həqiqi dinə etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun."

İmam Muslimin "Səhih"indəki digər rəvayətdə xəbər verilir ki, Peyğəmbərin ﷺ vəfatından sonra Əbu Bəkr xəlifə seçildikdə ərəblərin bir qismi mürtəd oldu. Mürtəd olanlar üç qisim idilər: bir qismi cahiliyyət dövründəki etiqadlarına – bütpərəstliyə qayıtdılar, bir qismi peyğəmbərlik iddiasında olan Museyləməyə və Əsvəd əl-Ənəsiyə uydular, bir qismi də müsəlman olduqlarını iddia etdikləri halda, zəkat verməkdən boyun qaçırdılar və bunu inkar etdilər. Ömər ibn əl-Xattab, Əbu Bəkrin رضي الله عنه mürtədlərə qarşı, o cümlədən də, zəkat verməyənlərə qarşı vuruşmağa hazırlıq gördüyünü görüb ona belə dedi: "Peyğəmbər ﷺ: "İnsanlar "lə

ilahə illəllah" deyincəyə qədər onlara qarşı vuruşmaq mənə əmr edildi. Odur ki, kim: "Lə ilahə illəllah" desə – İslam haqqı istisna olmaqla – canını və malını məndən qorumuş olar. Onun gizli saxladıqlarının haqq-hesabı isə Uca Allaha aiddir"– buyurduğu halda, sən nə əsasla onlarla vuruşacaqsan?!" Əbu Bəkr dedi: "Vallahi, mən namazla zəkatı bir-birindən ayıran hər kəslə vuruşacağam. Çünki zəkat malın haqqıdır. Vallahi, əgər onlar Rəsulullaha ﷺ zəkat ödədikləri kimi, zəkat ödəməsələr, buna görə onlarla hökmən vuruşacağam". Ömər dedi: "Vallahi ki, mən Allahın Əbu Bəkrin köksünü bu döyüş üçün açıb genişləndirdiyinə şahid oldum və bunun haqq olduğunu başa düşdüm."[1]

İbn Həcər bu hədisi izah edib demişdir: "Hədisdən belə nəticə çıxır ki, şəriət hökmləri barədə ictihad etmək caizdir, üstəlik, bunu Allaha və Onun Peyğəmbərinə ﷺ həvalə etmək, yəni Kitab və Sünnəyə müraciət etmək vacibdir, habelə bu xüsusda mübahisə etmək, lakin sonunda daha doğru rəyə qayıtmaq, habelə, mübahisəni ədəblə, kobudluğa yol verməməklə və mülayim şəkildə aparmaq müsəlman əxlaqına uyğundur. Mübahisə edən kəs doğru rəyi anlayanadək ona hüccət gətirmək vacibdir. Əgər dəlil-sübutdan sonra inadkarlıq edərsə, ona sərt münasibət göstərmək caizdir. Eləcə də bir fikri sübuta yetirmək üçün Allaha and içmək məqsədəuyğundur. Hədisdən, həmçinin o nəticə də çıxır ki, sadəcə "lə ilahə illəllah" deyən və şəhadətin ikinci tərəfini, yəni "Məhəmmədən Rəsulullah" deməyən kimsəni kafir sayaraq qətlə yetirmək qadağandır. Bəli, bu, danılmaz həqiqətdir. Yaxşı bəs "lə

[1] Səhih Muslim, 20.

ilahə illəllah" deməklə o kəs müsəlman sayılırmı? Daha doğru rəy odur ki, xeyr, sayılmır. Əksinə, bu adam imtahan edilənədək, sadəcə onu öldürmək qadağandır. Əgər o, Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirsə və İslam əhkamlarını yerinə yetirsə, onun müsəlman olduğuna hökm vermək olar. Buna da dəlil: "Peyğəmbərin ﷺ: "İslam haqqı istisna olmaqla" sözüdür. Bəğəvi bu xüsusda demişdir: "TəkAllahlılığı qəbul etməyən bütpərəst kafir "lə ilahə illəllah" dediyi zaman zahirən onun müsəlman olduğuna hökm verilsə də, sonradan ona İslamın əhkamlarının hamısını qəbul etməyi və bu dinə zidd olan batil inancların hamısından uzaq olmağı məcbur etmək lazımdır. Qaldı ki, təkAllahlılığı təsdiqləyib Peyğəmbəri ﷺ inkar edən kimsəyə, beləsi "Muhəmmədun Rəsulullah" deməyincə onu müsəlman saymaq olmaz. Əgər o, Muhəmmədin ﷺ ancaq ərəblərə peyğəmbər göndərildiyini etiqad edirmişsə, onun bütün insanlara elçi göndərildiyini deməlidir. Və əgər İslamda vacib buyurulmuş bir hökmü inkar edərsə, yaxud haram buyurulmuş bir şeyi halal sayarsa, ona etiqadından dönmək buyurulmalıdır." Bəğəvinin: "məcbur etmək lazımdır" sözündən belə çıxır ki, əgər həmin adam İslam qanunlarını inkar edərsə, mürtəd sayılar..."[1]

Şərh etdiyimiz hədisdən aydın başa düşülür ki, müsəlman olmaq üçün şəhadət kəlməsinin zahiri mənasını başa düşərək onu tələffüz etmək kifayətdir və beləsini kafir saymaq olmaz.

Bu fikri isbat etmək üçün onlarla hədis rəvayət edilib. Bunlardan birini zikr etməklə kifayətlənək. İmam Muslimin "Səhih"ində

---

[1] Fəth əl-Bari, 19/382.

rəvayət edilmiş hədisdə Usamə ibn Zeyd ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ bizi döyüşə göndərdi. Nəhayət, gəlib səhərə yaxın Cuheynədəki Huraqata hücum etdik. Orada mən kafirlərdən birisini yaxaladım. O: "Lə ilahə illəllah!"– dedi, lakin mən onu vurub öldürdüm. Sonra qəlbimə şübhə düşdü. Mən bu hadisəni Peyğəmbərə ﷺ danışdım. Peyğəmbər ﷺ dedi: "Adam "lə ilahə illəllah" dediyi halda sən onu öldürdün?!" Dedim: "Ya Rəsulullah! O, silahdan qorxub belə dedi". Peyğəmbər ﷺ buyurdu: "Məgər sən onun qəlbini açıb baxmışdın ki, onun bu sözü qəlbən dediyini biləsən?" Peyğəmbər ﷺ bu sözü mənə o qədər təkrar etdi ki, axırda mən öz-özümə: "Kaş ki, mən İslamı bu gün qəbul etmiş olaydım"– deyə təmənna etdim..."[1]

Usamə demək istəyir ki, yəni kaş bu günah, İslamı qəbul etməmişdən əvvəl etdiyim günahlardan sayılardı və İslamı qəbul etdikdə Allah mənim bu günahımdan keçərdi.[2]

Bu hədisdən aydın başa düşülür ki, şəhadət kəlməsinin mənasını başa düşdüyü halda onu tələffüz edən və onu qəbul edən kimsəni kafir saymaq olmaz. İbn Useymin ﷺ demişdir: "Bir adama yalnız o halda kafir demək olar ki, onun kafir sayılmasına dair şəriətin qoyduğu şərtlərin hamısı onda öz əksini tapsın, üstəlik, onun kafir sayılmasına əngəl olan maneələrin hamısı aradan qalxsın."

Meydana belə bir sual çıxır? Bəs nə üçün Əbu Bəkr ﷺ zəkat verməyənləri kafir saydı və onlara qarşı vuruşdu? Çünki onlar

---

[1] Səhih Muslim, 96.

[2] Dibac alə Muslim, 1/112.

zəkat verməyin vacibliyini inkar edərək bundan boyun qaçırırdılar. Suleyman ibn Abdullah Ali-Şeyx demişdir: "Hərçənd, "lə ilahə illəlah" demək Cənnətə daxil olmaq və Cəhənnəm əzabından qurtulmaq üçün səbəbdir, həm də tələb olunan bir şeydir, lakin tələb olunan hər bir iş özünəməxsus şərtlərə riayət etməklə və buna əngəl törədəcək maneələrdən çəkinməklə yerinə yetirilməlidir. Bu şərtlərdən hər hansı birinin yerinə yetirilmədiyi və ya əmması çıxdığı təqdirdə, Cənnəti qazanmaq mümkün deyildir. Odur ki, Həsən əl-Bəsridən: "Bəzi adamlar deyirlər ki: "Kim: "lə ilahə illəllah"– desə, Cənnətə daxil olar?"– deyə soruşduqda, o, belə cavab vermişdir: "Kim: "lə ilahə illəllah"– desə, sonra da bu kəlmənin haqqını ödəsə və buna aid olan vacibləri yerinə yetirsə, Cənnətə daxil olar." Vəhb ibn Munəbbih isə ondan: "Məgər "lə ilahə illəllah" kəlməsi Cənnətin açarı deyilmi?"– deyə soruşan adama belə cavab vermişdir: "Elədir, lakin hər bir açarın dişləri vardır. Və əgər sən dişli bir açar gətirsən, o, sənin üçün bu qapını açar, yoxsa qapını açmaz."[1]

Alimin bu izahından aydın olur ki, şəhadət kəlməsini deyən adam onun tələblərini yerinə yetirməli, yəni namaz qılmalı və zəkat verməlidir. Bu xüsusda ayrıca bir hədisdə rəvayət edilir ki, Muaz ﷺ demişdir: "Bir zaman Peyğəmbər ﷺ məni Yəmənə göndərmiş və demişdi: "Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən. Onları Allahdan başqa ibadətə haqqı olan məbudun olmadığına və mənim Allahın elçisi olduğuma şəhadət verməyə dəvət et. Əgər bu işdə sənə itaət etsələr, onlara xəbər ver ki,

[1] Təysirul-Azizil-Həmid, 1/111.

Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur. Əgər bu işdə sənə itaət etsələr, onları xəbərdar et ki, Allah onlara zəkat verməyi, varlılarından götürülüb kasıblarına paylanılmasını vacib buyurmuşdur. Əgər bu işdə də sənə itaət etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin və məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında – bu bədduanın qarşısını ala biləcək heç bir maneə yoxdur."[1]

İbn Useymin ﷺ hədisi izah edərkən demişdir: "Hədisdə bir incəlik var, ona xüsusi diqqət yetirmək lazımdır. Bu da Peyğəmbərin ﷺ "ən uqatilə", yəni vuruşmaq, mübarizə aparmaq sözüdür. Ərəbcə "qatələ" bir sözdür, yəni vuruşmaq, mübarizə aparmaq, "qətələ" başqa bir sözdür, yəni qətlə yetirmək, öldürmək. Bunda aydın başa düşülür ki, Peyğəmbərə ﷺ "lə ilahə illəllah" deməyən kimsəni öldürmək yox, onunla vuruşmaq əmr edilmişdir. Yəni kafirlərlə mübarizə aparmaq lazımdır ki, Allahın kəlamı ucalsın. "Qətələ" isə müəyyən şəxsi qətlə yetirmək deməkdir ki, bu, qəti qadağandır. Buna, İslam şəriətində yalnız müəyyən şərtlərə əsasən icazə verilir, yəni bu hökmü İslam ölkəsində yalnız əmir və ya qazılar şurası verə bilər. "əl-muqatələ/vuruşmaq" sözü daha geniş mənanı əhatə edir. Necə ki, "əl-Hucurat" surəsinin 9-cu ayəsində buyurulur: "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir." Diqqət

---

[1] Səhih əl-Buxari, 1496; Səhih Muslim, 19.

edin, Uca Allah möminlərin bir qismini, dində həddini aşan digər mömin dəstəni islah etmək məqsədilə onlarla vuruşmağı əmr edir. Əbu Bəkr ﷺ də məhz bu və bu mənada olan ayələrə əsasən qərar vermişdir. Əgər tarixə baxsanız görərsiniz ki, Əbu Bəkr ﷺ onlarla, zəkatı verənədək vuruşmuş və nəhayət, onlar haqqa boyun əydikdən sonra onları sağ buraxmış və heç birini qətlə yetirməmişdir."

Bu xüsusda Tiybi ﷺ demişdir: "Biz: "Lə ilahə illəllah" deyən və zahirən müsəlman olduğunu göstərən heç bir kimsəyə qarşı vuruşmamalı, habelə onun səmimi olub-olmadığını araşdırmamalıyıq."[1]

Hədisin sonunda deyilir ki, hər kim şəhadəti gətirsə, namaz qılıb zəkat versə, onun zahirinə hökm verilir. Və əgər o adam zahirən müsəlman olduğunu göstərib, qəlbində olan küfrü gizlədirsə, buna görə Allah qarşısında özü cavab verəcək. Yəni hansısa şübhəyə əsasən belə adamı kafir saymaq olmaz.

Bu da Peyğəmbərin ﷺ İslam ümmətinə olan vəsiyyətidir. Peyğəmbər ﷺ vida həccində müsəlmanlara belə buyurmuşdur: "Həqiqətən, sizin qanınız, malınız və namusunuz, bu ayınızda və bu şəhərinizdə, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır." Peyğəmbər ﷺ demək istəyir ki, müsəlmanın digər müsəlmanın qanını tökməsi, malına və ya namusuna təcavüz etməsi haramdır.

Hədisdə "İslam haqqı istisna olmaqla"– deyilir. Yəni şəriət qanunları keçən ölkələrdə, qisas və s. edam hökmləri tətbiq edilir və

---

[1] Tohfətul-Əhvəzi", 7/283.

günahkar adam edam edilir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu, yalnız şəriət məhkəməsi olan yerlərə aiddir. Yəni edam hökmü olmayan ölkələrdə kimsə özbaşına hökm verib bir kimsəni qətlə yetirə bilməz. Bu, qətiyyətlə haramdır.

Bu mövzuya dair xüsusi olaraq bir məsələyə toxunmaq vacibdir. Bu da kafirlərin haqqıdır. Yeri gəlmişkən qeyd edək ki, kafirlər dörd qismə bölünür. Müstəmin, müahid, zimmi və müanidlər.

Müstəmin – aman diləyən, müahid – müsəlmanlarla sülh müqaviləsi bağlayan, zimmi – muzdla İslam ölkəsində işləyən və nəhayət müanid – İslama qarşı vuruşan kimsələrdir.

İlk üç qisminin haqqı budur ki, onlar şəhadət kəlməsini qəbul etməsələr belə, onlarla vuruşmaq və ya onları qətlə yetirmək olmaz. Bu xüsusda kifayət qədər dəlillər varid olub. Məsələn, müstəmin barədə "ət-Tovbə" surəsinin 6-cı ayəsində belə buyurulur: "Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar *haqqı* bilməyən bir qövmdür." Həmçinin, müahid barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim bir müahidi öldürərsə, Cənnətin iyini duymaz. Halbuki onun iyi qırx illik məsafədən duyulur." Zimmi barədə də bu mənada hədis varid olmuşdur. Ayə və hədislərdən aydın olur ki, müsəlmanlarla sülh müqaviləsi bağlamış, yaxud müəyyən muzd müqabilində İslam diyarında işləyən və ya müsəlmanlardan sığınacaq istəyən kafiri öldürmək və ya ona əziyyət vermək olmaz. İslam dininə görə kafirlərin ən pisi sayılan müanidə, yəni qəddar düşmənə belə zülm etmək qadağandır. Bu xüsusda Uca Allah "əl-Bəqərə" surəsinin 190-cı ayəsində belə buyurur:

﴿ وَقَٰتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ ٱلَّذِينَ يُقَٰتِلُونَكُمۡ وَلَا تَعۡتَدُوٓاْۚ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ ٱلۡمُعۡتَدِينَ ﴾

"Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir."

Burada "hədd" deyildikdə, qadağan edilmiş bütün hədlər qəsd edilir. Belə ki, sizə qarşı vuruşmayan qadınları, uşaqları, qocaları, rahibləri və başqa bu kimi insanları qətlə yetirmək, vuruşan kişilərinin öldürülmüş cəsədlərini eybəcər hala salmaq, burunlarını, qulaqlarını və s. kəsmək, həmçinin, heyvanları qırmaq, ağacları kəsmək, ibadətgahları dağıtmaq, evləri uçurmaq və s. qadağandır. Budur əsl sülh dini, İslam!

Sonda, hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

((اللَّهُمَّ اهْدِنَا فِيمَنْ هَدَيْتَ، وَعَافِنَا فِيمَنْ عَافَيْتَ، وَتَوَلَّنَا فِيمَنْ تَوَلَّيْتَ، وَبَارِكْ لَنا فِيمَا أَعْطَيْتَ، وَقِنَا شَرَّ مَا قَضَيْتَ، فَإِنَّكَ تَقْضِي وَلاَ يُقْضَى عَلَيْكَ، إِنَّهُ لاَ يَذِلُّ مَنْ وَالَيْتَ، وَلاَ يَعِزُّ مَنْ عَادَيْتَ، تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ ))

"Allahım, hidayət verdiyin kimsələr arasında bizə də hidayət ver! Salamatlıq bəxş etdiyin kimsələr arasında bizə də salamatlıq bəxş et! Dost qəbul etdiyin kimsələr arasında bizi də Özünə dost qəbul et! Bizə verdiyin nemətləri bərəkətli et! Qərar verdiyin şeylərin şərindən bizi qoru! Hər şeyə Sən qərar verirsən, Sənin üçün isə qərar verilməz. Dost qəbul etdiyin kimsə zəlil olmaz. Ədavət apardığın kəs isə qüdrətli olmaz. Ey Rəbbimiz, Sən xeyirxahsan və ucasan!"[1]

---

[1] Musnəd İmam Əhməd, 1/199; İrva əl-Ğəlil, 2/172; 429-cu hədis.

## Doqquzuncu hədis

عَنْ أَبِي هُرَيْرَةَ عَبْدِ الرَّحْمَنِ بْنِ صَخْرٍ ﷺ قَالَ: سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "مَا نَهَيْتُكُمْ عَنْهُ فَاجْتَنِبُوهُ، وَمَا أَمَرْتُكُمْ بِهِ فَأْتُوا مِنْهُ مَا اسْتَطَعْتُمْ، فَإِنَّمَا أَهْلَكَ الَّذِينَ مِنْ قَبْلِكُمْ كَثْرَةُ مَسَائِلِهِمْ وَاخْتِلَافُهُمْ عَلَى أَنْبِيَائِهِمْ ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٧٢٨٨]، وَمُسْلِمٌ [رقم:١٣٣٧].

Rəvayət edilir ki, Əbu Hureyra Abdurrəhman ibn Saxr ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Mən nəyi sizə qadağan edirəmsə, ondan çəkinin, nəyi də sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin. Həqiqətən də, sizdən əvvəlki ümmətləri, çoxlu suallar vermələri və öz peyğəmbərlərinə müxalif olmaları həlak etmişdir."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədisin tam rəvayətində, Rəsulullahın ﷺ nə üçün belə buyurduğu bildirilir. Hədisdə xəbər verilir ki, həcc ziyarəti əsnasında Rəsulullah ﷺ xütbə vermiş və oradakılara: "Ey insanlar, Allah sizə həcc ziyarətini vacib buyurmuşdur. Elə isə onu yerinə yetirin"– demiş, sonra bir nəfər ondan: "Ya Rəsulullah, bunu hər il yerinə yetirmək vacibdir?"– deyə soruşmuş və nəhayət, Rəsulullah ﷺ belə buyurmuşdur: "Əgər "bəli" desəm vacib buyurulacaq və siz bunu yerinə yetirə bilməyəcəksiniz. Odur ki, mənim bu-

[1] Səhih əl-Buxari, 7288; Səhih Muslim, 1337.

yurduğumla kifayətlənin. Həqiqətən də, sizdən əvvəlki ümmətləri, çoxlu suallar verməməri və öz peyğəmbərlərinə müxalif olmaları həlak etmişdir. Elə isə mən nəyi sizə qadağan edirəmsə, ondan çəkinin, nəyi də sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin."[1]

Şərh etdiyimiz hədisdə Rəsulullahın ﷺ: "Mən nəyi sizə qadağan edirəmsə, ondan çəkinin" sözündəki qadağa iki qismə bölünür. Birincisi Rəsulullahın ﷺ haram buyurduqlarıdır ki, bunlardan çəkinmək vacibdir. İkincisi isə onun məkruh buyurduqları, yəni bəyənmədiyi əməllərdir ki, bunlardan da çəkinmək müstəhəbdir, yəni bəyənilən əməllərdəndir. Rəsulullahın ﷺ: bu sözünü Quran ayəsi də təsdiqləyir. "əl-Həşr" surəsinin 7-ci ayəsində belə buyurulur: "Allahın rəsulu sizə nəyi əmr edirsə, onu yerinə yetirin, nəyi də qadağan edirsə, ondan çəkinin." Peyğəmbərin ﷺ "bacardığınız qədər" sözü isə digər ayələrdə öz təsdiqini tapıb. Məsələn: "ət-Təğabun" surəsinin 16-cı ayəsində belə buyurulur: "Allahdan bacardığınız qədər qorxun." Yəni Allahın və Onun rəsulunun ﷺ buyuruqlarını bacardığınız qədər yerinə yetirin. Həmçinin, "əl-Bəqərə" surəsinin 286-cı ayəsində deyilir: "Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər."

Bu ayələrdən və hədisdən aydın olur ki, əmrlərdən fərqli olaraq, qadağalarda heç bir istisna yoxdur. Yəni Rəsulullah ﷺ deməmişdir ki, qadağan etdiyimi bacardığınız qədər tərk edin. Demək, Allahın və Onun rəsulunun ﷺ qadağan etdiyi əməli dərhal tərk etmək lazımdır. Yeri gəlmişkən qeyd edək ki, qadağanı tərk

---

[1] Səhih Muslim, 1337.

etmək, vacibi yerinə yetirməkdən asandır. Məsələn: xəstə adam ayaq üstə namaz qıla bilmədiyinə görə oturulu vəziyyətdə onu yerinə yetirə bilər. Bu onun bacardığıdı. Lakin zinakar və ya şərab düşgünü olan adam, məsələn: deyə bilməz ki, bu yaramaz əməldən əl çəkə bilmirəm, hərdən onu edirəm. Çünki Allah insan üçün haramları tərk etməyə iradə yaradıb və günahkar insan onları tərk etmədiyinə görə heç bir üzr gətirə bilməz.

İbn Useymin ﷫ bu hədisi izah edərkən demişdir: "Qeyd etmək lazımdır ki, qadağan edilənlər onun çoxuna da, azına da şamil edilir. Bu qayda, Peyğəmbərin ﷺ: "Çoxu haram olanın azı da haramdır" hədisinə əsasən qoyulmuşdur. Əgər adam sual verib desə ki: "Axı Allah bizə, zərurət halında leş, yaxud donuz əti yeməyə icazə verir? Demək, zərurət olduqda, haramdan istifadə etmək olar." Ona belə cavab veririk: "Zərurət olduqda, artıq haram buyurulan bir şeyin haramlığı həmin vaxt aradan qalxır və həmin şey əslən haram sayılmır." Və əgər adam yenə sual verib desə ki: "Axı hədisdəki "çəkinin" sözü zərurət halında leş və ya donuz əti yeməyə də şamil edilir? Məgər zərurət halında haramdan istifadə etmək olar?" Ona belə cavab veririrk: "Bəli, buna Allahın Özü icazə verir. "əl-Ənam" surəsinin 119-cu ayəsində belə buyurulur: "Allah, məcburiyyət qarşısında yeyəcəyiniz şeylər istisna olmaqla – haram buyurulanları təfsilatı ilə sizə bildirmişdir?!" Bundan bir sual da meydana gəlir: "Əgər adam haram buyurulandan yeməyə məcbur qalarsa, ondan nə qədər yeyə bilər? Yəni ondan doyunca yeyə bilər, yoxsa ölməmək üçün bir neçə loxma ilə kifayətlənməlidir?" Sualın cavabı belədir ki, əgər o adam, yaxın vaxtda halal yemək tapıb yeyəcəyini böyük ehtimalla təxmin edərsə, o halda

bir neçə loxma ilə kifayətlənməlidir, yox, əgər uzun müddət yemək tapa bilməyəcəyini bilsə, o zaman ondan doyunca yeyə bilər. Yenə meydana bir sual çıxır: "Hansı halda haramdan istifadə etmək zərurət sayılır?" Sualın cavabı belədir ki, haramdan başqa yeməyin tapılmaması və bundan yeməyə ehtiyac duyulması, zərurət halı sayılır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, haramla müalicə etmək qadağandır və bu, iki səbəbə görə zərurət sayıla bilməz:

1-cisi ona görə ki, xəstə adam həmin haram tərkibli dərmandan istifadə etmədən sağala bilər. Bu halda artıq zərurət aradan qalxır.

2-ci səbəbi də budur ki, bir çox hallarda bu dərmanın heç bir faydası olmur, yəni bəzi xəstələr həmin dərmanı istifadə etsə də, şəfa tapmır. Demək o dərman sayəsində zərurət aradan qalxmır. Peyğəmbərin ﷺ: "nəyi sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin" sözü dəlildir ki, insanın bacarığı və qüdrəti var. Bu da, "cəbərilərin", yəni "insan etdiyi hər bir əməli öz istəyi ilə yox, məcburən yerinə yetirir" deyən bir firqənin batil etiqadda olduğunu sübut edən dəlildir.

Peyğəmbərin ﷺ: "nəyi sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin" sözündən sual meydana çıxır ki, adam, Allahın və ya Onun peyğəmbərinin ﷺ əmrini eşitdikdə, onu yerinə yetirmək üçün bu əmrin vacib və ya müstəhəb olduğunu araşdırmalıdırmı? Çünki istənilən əmr, müstəhəb də ola bilər." Sualın cavabı belədir ki, bu əmri araşdırmağa lüzum yoxdur, onu dərhal yerinə yetirmək lazımdır. Və əgər adam bu əmrə müxalif

olarsa, o zaman artıq bu əmrin vacib, yoxsa müstəhəb olduğunu araşdırmalıdır. Çünki əgər o, vacib əmri tərk etmişdirsə, buna görə tövbə etməlidir. Müstəhəb əməli tərk etdiyinə görə isə heç bir günah qazanmaz."

Peyğəmbərin ﷺ: "nəyi sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin" sözünü izah etmək üçün neçə-neçə hədisləri misal göstərmək olar. Məsələn: Peyğəmbər ﷺ, babasil xəstəliyinə tutulmuş və bu halda necə namaz qılacağı barədə ona sual vermiş səhabəsinə belə buyurmuşdur: "Namazı ayaq üstə qıl, bacarmırsansa oturulu halda qıl, bunu da bacarmırsansa uzanmış vəziyyətdə qıl." Uca Allah Öz qullarına belə üzürlü halları bağışlayır. İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, möminlər: "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"[1]- deyə dua etdikdə, hər dəfə: "Ey Rəbbimiz!"– deyəndə, Uca Allaha: "İstədiyinizi sizə verdim!"– deyə cavab verir.[2]

Sonra hədisdə xəbər verilir ki, əvvəlki ümmətlər çox sual verdiklərinə və öz peyğəmbərlərinə müxalif olduqlarına görə həlak olmuşlar. Digər bir hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ çox sual verməyi qadağan etmişdir.[3] Burada "çox sual" deyildikdə,

---

[1] əl-Bəqərə, 286.

[2] Səhih Muslim, 125.

[3] Səhih əl-Buxari, 1477; Səhih Muslim, 593.

heç bir zərurət olmadan yersiz sual vermək, yaxud istehza məqsədilə sual vermək nəzərdə tutulur. Haqqı öyrənmək məqsədilə sual verməkdə isə heç bir qəbahət yoxdur. Bu xüsusda "ən-Nəhl" surəsinin 43-cü ayəsində belə buyurulur: "Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun."

Yadınıza gəlirsə, 2-ci hədisin şərhində qeyd etmişdik ki, elm öyrənmək istəyən kəs onu bilənlərdən soruşmalıdır və kim öz dinini öyrənmək üçün sual verməzsə, xeyirdən məhrum olar. Elə buna görə də alimlər demişlər: "İki xislət vardır ki, bunlar kimdə olarsa, o kimsə elmdən məhrum olar: bu, həya və təkəbbürlükdür." Yəni, bir sual verməyə utanan kimsə, bir də təkəbbürlüyündən sual verməyən kimsə elm öyrənə bilməz. Elm öyrənmək istəyən kəs həm təvazökar olmalı, həm də bilmədiyini bilənlərdən soruşmalıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, sualı verən kimsənin niyyəti yaxşı olmalıdır. Məsələn: sualı dini öyrənmək və onu başqalarına öyrətmək, bunun sayəsində savab qazanmaq və s. gözəl məqsədlərlə vermək lazımdır. Biləsiniz ki, dini öyrənmək məqsədilə alimə sual verməyiniz ibadət sayılır.

Qeyd etmək lazımdır ki, sələflər, lazımsız, yaxud baş verməmiş və ya başqa şər məqsədlə suallar verən insanları pisləyərdilər. Gəlin, buna dair bir neçə misal çəkək.

Zeyd ibn Sabitdən رضي الله عنه hər hansı bir məsələ barədə soruşanda, soruşarmış: "Bu, dediyiniz olubmu?" Ona yox cavabı verildikdə, deyərmiş: "Elə isə olmayan bir şey haqda sual verməyin!"[1]

[1] Cami əl-Ulum vəl-Hikəm, 1/245.

Həmçinin, Həsən əl-Bəsri رحمه الله demişdir: "Allahın ən şər qulları, başqalarını çaşdırmaq və azdırmaq məqsədilə şər məsələləri araşdıran insanlardır."[1]

Əvzai رحمه الله demişdir: "Allah bir adamı elmin bərəkətindən məhrum etmək istədikdə, ona yanlış danışan dil nəsib edər. Mən belələrinin ən savadsız insanlar olduğunu görmüşəm."[2]

Malik ibn Ənəs deyərmiş: "Sünnə barədə mübahisə etmək yox, onu insanlara təbliğ etmək lazımdır. Sünnə barədə münaqişə və mübahisə etmək, adamın qəlbindəki nuru silib aparır və o qəlbi sərtləşdirir."[3]

Nafi ibn Yezid رحمه الله demişdir: "Elmdə qüvvətli olan kimsələr Allah rizası üçün təvazökar olar və Onun qarşısında boyun əyərlər. Üstəlik, özlərindən daha elmli insanlara paxıllıq etməz, özlərindən aşağı səviyyədə olanlara da, xor baxmazlar."[4]

Sonda, hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ انْفَعْنَا بِمَا عَلَّمْتَنَا، وَعَلِّمْنَا مَا يَنْفَعُنَا، وَزِدْنَا عِلْمًا ))

"Allahım, bizə öyrətdiyin elm sayəsində bizə fayda ver, fayda verəcək elmi bizə öyrət və bizim elmimizi artır!"[5]

---

[1] Cami əl-Ulum vəl-Hikəm, 1/247.

[2] Əvvəlki mənbə.

[3] Cami əl-Ulum vəl-Hikəm, 1/248.

[4] Əvvəlki mənbə, 1/250.

[5] Sunən İbn Macə, 251.

# Onuncu hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ "إِنَّ اللَّهَ طَيِّبٌ لَا يَقْبَلُ إلَّا طَيِّبًا، وَإِنَّ اللَّهَ أَمَرَ الْمُؤْمِنِينَ بِمَا أَمَرَ بِهِ الْمُرْسَلِينَ فَقَالَ تَعَالَى: "يَا أَيُّهَا الرُّسُلُ كُلُوا مِنْ الطَّيِّبَاتِ وَاعْمَلُوا صَالِحًا"، وَقَالَ تَعَالَى: "يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُلُوا مِنْ طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ" ثُمَّ ذَكَرَ الرَّجُلَ يُطِيلُ السَّفَرَ أَشْعَثَ أَغْبَرَ يَمُدُّ يَدَيْهِ إلَى السَّمَاءِ: يَا رَبِّ! يَا رَبِّ! وَمَطْعَمُهُ حَرَامٌ، وَمَشْرَبُهُ حَرَامٌ، وَمَلْبَسُهُ حَرَامٌ، وَغُذِّيَ بِالْحَرَامِ، فَأَنَّى يُسْتَجَابُ لَهُ؟".

رَوَاهُ مُسْلِمٌ [رقم:١٠١٥].

Əbu Hureyra ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: “Həqiqətən, Uca Allah pakdır və yalnız pak olanları qəbul edər. Həqiqətən, Allah peyğəmbərlərə nəyi əmr etmişdirsə, möminlərə də onu əmr edib buyurur: “Ey peyğəmbərlər, təmiz və halal nemətlərdən yeyin və yaxşı işlər görün!”[1] O, həmçinin, buyurur: “Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz təmiz və halal nemətlərdən yeyin!”[2]

Sonra Peyğəmbər ﷺ, uzun müddətli səfərə çıxmış, saçları dağınıq, üst-başı da toz-torpaq içində olan və bu halda əllərini göyə qaldırıb: “Ya Rəbb, ya Rəbb!”– deyə yalvaran birisini xatırlatdı.

---

[1] əl-Muminun, 51.

[2] əl-Bəqərə, 172.

*Peyğəmbər ﷺ davam edib dedi:* halbuki onun yediyi, haram, içdiyi haram, geydiyi haram – haramla böyümüşdür. Beləsinin duası necə qəbul ola bilər?!"

Bu hədisi imam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Bu hədis peyğəmbərlərin və möminlərin gözəl xislətlərindən birini – halal yolla dolanmağı və bunun duaya müsbət təsir etdiyini bəyan edir.

Burada Peyğəmbərin ﷺ ərəbcə "إِنَّ اللَّهَ طَيِّبٌ" – "Uca Allah pakdır" sözündən aydın başa düşülür ki, "Tayyib", Allahın adlarından biridir. Yəni Allahın zatı, isimləri və sifətləri pak və müqəddəsdir və O, bütün nöqsanlardan uzaqdır. Uca Allahın isimlərində heç bir naqislik yoxdur. Necə ki, "əl-Əraf" surəsinin 180-ci ayəsində buyurulur: "Ən gözəl adlar Allaha məxsusdur." Həmçinin, "əs-Saffat" surəsinin 180-ci ayəsində buyurulur: "Sənin pak və müqəddəs Rəbbin - qüdrət sahibi olan Rəbbin, müşriklərin Ona aid etdikləri sifətlərdən uzaqdır."

Uca Allahın yalnız pak olanları qəbul etməsi o deməkdir ki, bəndələrinin yaramaz və murdar əməllərini qəbul etmir. Odur ki, Allah həm peyğəmbərlərə – aleyhimussalətu vəssəlam – həm də möminlərə yalnız təmiz və halal olanlardan yeməyi və yaxşı işlər görməyi əmr edir. Əks halda Allah o əməli qəbul etmir. İmam Muslimin "Səhih"ində rəvayət edilmiş digər hədisdə xəbər verilir ki, Osmanın رضي الله عنه xilafəti dövründə Bəsrənin əmiri olmuş, İbn Amir xəstə ikən, Abdullah ibn Ömər رضي الله عنهما ona baş çəkdi və yanına

[1] Səhih Muslim, 1015.

daxil olduqda İbn Amir ona: "Ey Ömərin oğlu! Mənim üçün Allaha dua etməyəcəksənmi?"– deyə müraciət etdi. İbn Ömər də, ona belə cavab verdi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Nə dəstəmazsız namaz, nə də xəyanətlə əldə edilmiş maldan sədəqə qəbul olunar." Sən də ki, ey ibn Amir, Bəsrənin əmiri olmusan."[1]

İbn Ömər رضي الله عنه ona demək istəyir ki, dəstəmazsız namazın və xəyanətlə əldə edilmiş maldan verilən sədəqənin faydası olmadığı kimi, günaha batdıqdan sonra Allahdan bağışlanma diləməyən kimsə üçün dua etməyin də faydası yoxdur. İbn Ömər bunu ona, onun etdiyi günahlara görə Allahdan bağışlanma diləməyə sövq etmək üçün demişdir. Yoxsa ki, Peyğəmbər ﷺ və onun səhabələri, – müşriklər, kafirlər və münafiqlər istisna olmaqla, – günahkar adam üçün Allahdan bağışlanma diləmişlər.

Biləsiniz ki, insanın dediyi hər bir sözün, qəlbində olan etiqadın və hər bir əməlinin qəbul olması üçün, onun şəriətə müvafiq olması labüddür. Çünki nəyin pak, nəyin də murdar olduğunu təyin edən, məhz şəriətdir. İnsana murdar olan əməl xoş görünsə də, murdarla təmiz eyni ola bilməz. Məsələn: adam öz naqis ağlı ilə fikirləşir ki, falçılıq və baxıcılıqla məşğul olmaq pis əməl olsaydı insanların çoxu bununla məşğul olmazdı. Halbuki Peyğəmbər ﷺ səhih hədisdə buyurur: "Kim baxıcının və ya kahinin yanına gedib onun dediyinə inansa, Muhəmmədə nazil olana küfr etmiş sayılar."[2] Başqa bir rəvayətdə də buyurur ki: "Kim baxıcının və

[1] Səhih Muslim, 224.

[2] Musnəd İmam Əhməd, 15/331; Səhih əl-Cami, 5939.

ya kahinin yanına gedib ondan bir şey soruşsa, qırx gün onun namazı qəbul olmaz."[1] Demək, nəyin, təmiz, nəyin də murdar olması, insanın ağlı ilə ölçülmür. Necə ki, "əl-Maidə" surəsinin 100-cü ayəsində buyurulur: "De: "Murdar şeyin çox olması sənin xoşuna gəlsə belə, murdarla təmiz eyni ola bilməz." Ey ağıl sahibləri! Allahdan qorxun ki, bəlkə nicat tapasınız."

Şərh etdiyimiz hədisin davamında xəbər verilir ki, Uca Allah, peyğəmbərlərə, təmiz və halal nemətlərdən yeməyi və yaxşı işlər görməyi, eləcə də, möminlərə təmiz və halal nemətlərdən yeməyi buyurur. Bu dəlildir ki, mömin adam peyğəmbərlərin əməllərindən ibrət götürməli və onların yolunu tutub getməlidir. "əl-Ənam" surəsinin 90-cı ayəsində belə buyurulur: "Peyğəmbərlər Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl." Həmçinin, "əl-Mumtəhənə" surəsinin 4-cü ayəsində belə buyurulur: "İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl nümunə var." Həmçinin, "əl-Əhzab" surəsinin 21-ci ayəsində deyilir: "Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."

Peyğəmbərlər, o cümlədən də, Peyğəmbərimiz ﷺ Allahın əmri ilə insanlara pak şeyləri halal, murdar şeyləri isə haram buyurmuşdur. Bu xüsusda Uca Allah "əl-Əraf" surəsinin 156-cı və 157-ci ayələrində belə buyurur: "Mərhəmətim hər şeyi əhatə edir. Mən onu *Allahdan* qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. O kəslər ki, Tövrat və İncildə adı yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən pey-

[1] Səhih Muslim, 2230.

ğəmbərin, ardınca gedirlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurur, pis əməlləri isə qadağan edir, onlara pak şeyləri halal, murdar şeyləri isə haram buyurur."

Bu ayələrdən bizə aydın olur ki, halal yeyən və halal yolla qazanc əldə edən kimsələr peyğəmbərlərin yolunu tutub gedir. Murdar şeyləri isə insana şeytan buyurur. Məsələn: "əl-Bəqərə" surəsinin 268-ci ayəsində deyilir ki: "Şeytan sizi yoxsulluqla qorxudur və sizə yaramaz işlər görməyi əmr edir." Həmçinin, "əl-Maidə" surəsinin 90 və 91-ci ayələrində belə buyurulur: "Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istər. Artıq *bunlara* son qoyacaqsınızmı?!" Həmçinin, "əl-İsra" surəsinin 32-ci ayəsində belə buyurulur: "Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!" Həmçinin, hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ ayaqyoluna daxil olmaq istəyəndə, dua edib deyərmiş:

(( اللهمَّ إِني أعوذُ بكَ منَ الخُبثِ والخَبائِث ))

"Allahım, murdarlıqdan və murdar şeytanlardan sənə sığınıram!"[1]

Bu ayələrdən və hədisdən aydın başa düşülür ki, şeytan murdardır və insanları da murdar əməllərə dəvət edir.

[1] Səhih əl-Buxari, 142.

Hədisdə zikr edilən, möminlər barədə nazil olmuş ayənin sonunda belə buyurulur: “və əgər yalnız Allaha ibadət edirsinizsə, Ona şükür edin!” İbn Useymin رحمه الله bu hədisi izah edərkən deyir ki, Uca Allahın peyğəmbərlərə: “yaxşı işlər görün!”, möminlərə də “Allaha şükür edin!”– deyə buyurması o deməkdir ki, yaxşı əməl etmək, şükür etmək sayılır. Belə ki, dildə şükür edən hər kəs, həqiqətən də, Allaha şükür edən bəndə sayılmır. Mömin adam yaxşı əməl etməlidir ki, şükür edən bəndə sayılsın. Bu xüsusda varid olmuş hədislərin birində rəvayət edilir ki, bir gecə Rəsulullah ﷺ uzun-uzadı namaz qılmış və taqətdən düşmüş, nəhayət, ona: “Nə üçün özünü bu ağır yüklə yükləyirsən?! Axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır”– deyildikdə, o belə cavab vermişdir: “Allahın, şükür edən qulu olmayımmı?!”[1]

Demək, Allaha və Onun rəsuluna ﷺ iman gətirən, dili daim Allahı zikr edən və daim Allaha ibadət edən əməlisaleh mömin adam Allahın hörmətli qullarından sayılır. Belələri barədə Uca Allah buyurur:

﴿ٱلَّذِينَ تَتَوَفَّىٰهُمُ ٱلْمَلَٰٓئِكَةُ طَيِّبِينَ ۙ يَقُولُونَ سَلَٰمٌ عَلَيْكُمُ ٱدْخُلُوا۟ ٱلْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

“O müttəqilər ki, pak olduqları halda, mələklər onların canını alıb deyirlər: “Sizə salam olsun! Etdiyiniz əməllər sayəsində Cənnətə daxil olun!”[2] Ayədən aydın başa düşülür ki, Cənnətə yalnız pak insanlar girəcəklər. Bu xüsusda varid olmuş hədisdə Rəsulullah ﷺ demişdir: “Qiyamət günü möminlər, Cəhənnəmin üstünə

[1] Səhih əl-Buxari, 1130.

[2] əl-Nəhl, 32.

salınmış körpünün üstündən keçdikdən sonra körpünün o biri başında dayandırılacaq və dünyada bir-birilərinə qarşı etdikləri haqsızlıqlara görə bir-birlərinin haqqını ödəyəcəklər. Nəhayət, onlar təmizləndikdən və günahlardan azad olduqdan sonra onlara Cənnətə daxil olmağa izin veriləcək."[1]

Bu, dəlildir ki, Cənnətə yalnız pak adamlar girəcəklər. Müşriklərin, kafirlərin və münafiqlərin murdarlığı isə həmin gün heç bir şeylə təmizlənməyəcək. Müşriklərin və kafirlərin bağışlanmayacaqları barədə "əl-Maidə" surəsinin 36-cı ayəsində belə buyurulur: "Əgər yer üzündə olan hər şey, üstəlik, bir o qədəri də kafirlərə məxsus olsaydı və onlar bunu Qiyamət gününün əzabından qurtarmaq üçün fidyə versəydilər, onlardan qəbul olunmazdı. Onlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır." Münafiqlər barədə də, "əl-Hədid" surəsinin 15-ci ayəsində belə buyurulur: "Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Sığınacağınız yer də Oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!"

Bəzi günahkarlar isə günahlarına görə Cəhənnəmə girəcək və nəhayət, günahlardan təmizləndikdən sonra oradan çıxıb Cənnətə daxil olacaqlar. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cəhənnəm əhli olan cəhənnəmliklərə gəlincə, onlar orada nə ölüb *əzabdan qurtula biləcəklər*, nə də yaşayıb *həyatdan zövq ala biləcəklər*. Ancaq *orada* günahları *və ya xətaları* üzündən atəşə giriftar olmuş bir dəstə insan olacaq ki, Allah *bu insanlara bir müddət əzab verdikdən sonra* onları öldürəcək. Nəhayət, kömür kimi olduqları zaman *on-*

---

[1] Səhih əl-Buxari, 2240.

*lara* şəfaət edilməsinə izin veriləcək və onlar dəstə-dəstə Cənnət çaylarının başına gətiriləcəklər. Sonra belə buyurulacaq: "Ey Cənnət əhli! Bunların üstünə *su* tökün". Beləliklə, onlar selin gətirdiyi *çör-çöp* içində olan toxumların cücərib yetişdiyi kimi diriləcəklər."[1]

Allahın: "Ey peyğəmbərlər, təmiz və halal nemətlərdən yeyin və yaxşı işlər görün!" ayəsindən o da aydın olur ki, təmiz və halal nemətlə, yaxşı əməl arasında bağlılıq var. Yəni adamın qazancı halal və təmiz olarsa, onun əməlləri də yaxşı olar. Əks halda isə onun əməlləri batil ola bilər. Məsələn: əgər adam qəsb etdiyi yerdə namaz qılarsa, yaxud namazını dəstəmazsız və ya paltarında nəcasət olduğu halda və ya qəlbində riya olduğu halda qılarsa, onun namazı qəbul olmaz. Həmçinin, əgər adam haram yolla qazandığı maldan zəkat versə, yaxud o pulla həcc ziyarətinə getsə, onun əməli saleh əməl sayılmaz və Allah bu əməli qəbul etməz.

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ uzun müddətli səfərə çıxmış, saçları dağınıq, üst-başı da toz-torpaq içində olan və bu halda əllərini göyə qaldırıb: "Ya Rəbb, ya Rəbb!"– deyə yalvaran birisini xatırladır, üstəlik, onun yemək-içməyinin və geyiminin haram olduğunu və ümumiyyətlə, o adamın haramla böyüdüyünü xəbər verir, sonra da, onun duasının qəbul olmadığını bildirir. Bu da dəlildir ki, haramla dolanmaq, duanın qəbul olmasına mane olan bir səbəbdir. Hərçənd, bu adam duanın qəbul olunması üçün olan səbəblərdən dördünə söykənərək dua edir, yəni onun həm uzun müddətli səfərə çıxması, həm səfər əsnasında əziyyət çəkməsi, həm əllərini göyə qaldırması, həm də təkrar-təkrar "Ya

[1] Səhih Muslim, 477.

Rəbb!"– deyərək yalnız Allahdan istəməsi, duanın qəbul olunması üçün əsas səbəblərdəndir, lakin onun haram əməlləri, duasının qəbul olunmasına mane olur.

Müsafirin duasının qəbul olunması xüsusunda varid olmuş ayrıca hədisdə, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç növ dua var ki, onların qəbul olunmasına heç bir şəkk-şübhə yoxdur: məzlumun duası, müsafirin duası və valideynin öz övladının əleyhinə etdiyi dua."[1] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Ola bilsin ki, saçları dağınıq, üst-başı toz-torpaq içində olan, özünün də izar və ridasından, (yəni bədənin yuxarı və aşağı hissəsini örtən libasından) başqa bir geyimi olmayan, insanların dəyər vermədiyi bir kasıb, Allahın adı ilə Ona yalvarsın, Allah da ona istədiyini versin."[2] Həmçinin, əllərini göyə qaldırıb dua edənin duasının qəbul olunması barədə də, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizin Rəbbiniz Həyalı və Səxavətlidir. Əllərini Ona tərəf qaldırıb dua edən bəndəsinin əllərini boş qaytarmağa həya edir."[3] Dua etdikdə əlləri göyə qaldırmağın mənası böyükdür. Bu, Allahın hər şeyə qadir olduğunu iqrar etmək, Onun qarşısında aciz olduğunu etiraf etmək, Allahın səxavətli və duaları qəbul edən, habelə, hər şeyi görən, hər şeyi eşidən və hər şeyi bilən tək İlah olduğuna iman gətirmək, həmçinin, Onun göydə olduğunu, yəni Ərşin üzərində yüksəldiyini təsdiqləmək deməkdir.

---

[1] Musnəd İmam Əhməd, 2/258; Sunən Əbu Davud, 1536.

[2] Səhih Muslim, 2622.

[3] Sunən Əbu Davud, 1488; Səhih əl-Cami, 2070.

Allaha, "Ey Rəbbim!" deyə dua etmək barədə varid olmuş ibrətamiz bir rəvayətdə xəbər verilir ki,[1] bir gün Həsən əl-Bəsridən soruşdular: "Təkrar-təkrar "Ey Rəbbim!" deyə dua edən kimsənin duası qəbul olar. Bu doğrudurmu?" Həsən əl-Bəsri dedi: "Məgər siz Quran oxumursunuz?" Sonra da "Ali-İmran" surəsinin 191-ci ayəsindən 195-ci ayəsinədək oxudu. Həmin ayələrdə deyilir: "O kəslər ki, ayaq üstə olanda da, oturmuş vəziyyətdə də, uzanmış halda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər *və deyərlər:* "Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Sən Cəhənnəm oduna saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç bir köməkçisi olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşılarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!" Rəbbi də onların *dualarını qəbul edib* cavab verdi: "Mən, sizlərdən *yaxşı* işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm."

Əgər biz Qurana nəzər salsaq görərik ki, peyğəmbərlərin hamısı Allaha dua etdikdə, Onun Rəbb adı ilə Ona yalvarıblar. Bu da, Rububiyyət tovhidinə iman gətirmək deməkdir.

Yeri gəlmişkən qeyd edək ki, dua etdikdə əli göyə qaldırmağın üç növü var:

---

[1] Əbu Nueym, Hilyətul-Ovliya, 3/313.

1-cisi, xütbə verən adamın minbərdə ikən dua etməsidir. Belə ki, xətib yalnız şəhadət barmağını qaldırıb dua edə bilər. Necə ki, Peyğəmbər ﷺ vida həccində şəhadət barmağını göyə qaldırıb üç dəfə: "Allahım, şahid ol, Allahım şahid ol!"– demişdir. Yalnız istisqa namazının xütbəsində, yəni yağışın yağması üçün dua etdikdə əlləri göyə qaldırmaq caizdir.

2-cisi, dua etdikdə, qoltuğun altının ağlığı görünənədək əlləri göyə qaldırıb dua etməkdir. Qeyd etmək lazımdır ki, belə dua etdikdə ovucları göyə tərəf, əllərin üstünü isə yerə tərəf tutaraq, yaxud əksinə, ovucları yerə tərəf, əllərin üstünü isə göyə tərəf tutaraq, dua etmək olar. Hər ikisinə aid səhih hədislər varid olub. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allahdan istədiyiniz zaman əllərinizin üstü ilə yox, onların içi ilə istəyin!"[1] Digər bir hədisdə də, xəbər verilir ki, Peyğəmbər ﷺ istisqa namazı qılmış və əllərinin üstünü göyə tərəf tutaraq dua etmişdir.[2]

3-cüsü isə əlləri sinə bərabərinə qaldırıb, ovucları sinəyə tərəf yox, göyə tərəf açaraq dua etməkdir. Məsələn: Peyğəmbər ﷺ Ərəfatda belə dua etmişdir.

Əlləri göyə qaldırmaq dəlildir ki, Allah göydədir. Allahın göydə olması barədə Quranda neçə-neçə ayələr vardır (Bax: əl-Əraf, 54; Yunus, 3; ər-Rəd, 2; Ta ha, 5; əl-Furqan, 59; əs-Səcdə, 4-5; Fatir, 10; Ğafir, 2; əl-Hədid, 4; əl-Mulk, 16-17; əl-Məaric, 4; əl-Əla, 1).

Şərh etdiyimiz hədisin sonunda bildirilir ki, yemək-içməyi və geyimi haram olan və ümumiyyətlə, haramla böyüyən adamın

---

[1] Sunən Əbu Davud, 1486; Silsilətul-Əhadisis-Səhihə, 595-ci hədis.

[2] Səhih Muslim, 896.

duası qəbul olmur. Başqa bir hədisdə Peyğəmbər ﷺ beləsinin Cəhənnəmlik olacağını xəbər verir. Buyurur ki: "Haramla qidalanmış bədən, Cəhənnəm oduna girməyə daha layiqdir."[1]

Peyğəmbər ﷺ hər səhər dua edib deyərmiş:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نَافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلًا مُتَقَبَّلًا ))

"Allahım, səndən faydalı elm, təmiz və halal ruzi və qəbul olunan əməl diləyirəm!"[2]

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اكْفِنَا بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنَا بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ ))

"Allahım, halal nemətlərin sayəsində bizi haramdan uzaq et və Öz lütfün sayəsində bizi Özündən başqasına möhtac etmə!"[3]

---

[1] əl-Cami əs-Səğir, 44; Səhih əl-Cami, 4519.

[2] Sunən İbn Macə, 2426.

[3] Sunən ət-Tirmizi, 4/276; Musnəd İmam Əhməd, 1/153; Silsilə əl-Əhadis əs-Səhihə, 266.

# On birinci hədis

عَنْ أَبِي مُحَمَّدٍ الْحَسَنِ بْنِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ سِبْطِ رَسُولِ اللَّهِ ﷺ وَرَيْحَانَتِهِ رضي الله عنهما قَالَ: حَفِظْتُ مِنْ رَسُولِ اللَّهِ ﷺ "دَعْ مَا يُرِيبُكَ إِلَى مَا لَا يُرِيبُكَ".

رَوَاهُ التِّرْمِذِيُّ [رقم:٢٥١٨]، وَالنَّسَائِيّ [رقم: ٥٧١١]، وَقَالَ التِّرْمِذِيُّ: حَدِيثٌ حَسَنٌ صَحِيحٌ.

Rəvayət edilir ki, Rəsulullahın ﷺ reyhan qoxulu nəvəsi Əbu Muhəmməd Həsən ibn Əli ibn Əbu Talib رضي الله عنهما demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu yadda saxlamışam: "Səni şübhəyə salanı tərk et, səni şübhəyə salmayana bax."

Bu hədisi, imam Tirmizi və Nəsai "Sunən" əsərlərində rəvayət etmişlər.[1] İmam Tirmizi demişdir: "Bu, həsən-səhih hədisdir."

İmam Tirmizinin nəql etdiyi rəvayətin tamamında deyilir ki: "doğruluq qəlbi rahat edər, yalan isə onu şübhəyə salar."[2]

İmam Tirmizi, rəvayətinin sonunda: "Bu, həsən-səhih hədisdir"– deyir. "Həsən-səhih" nə deməkdir?

Demək, "həsən" dərəcə etibarı ilə "səhih"dən aşağı hesab olunur. Elə isə, fərqli mənaları olan bu iki istilahi terminləri necə cəm etmək olar? Alimlər Tirmizinin bu ifadəsində olan məqsədini müxtəlif cür izah etmişlər. Bu izahların ən gözəli isə ibn Həcərin izahıdır. Bunu da Suyuti təqdirəlayiq hesab etmişdir. Xülasəsi budur:

---

[1] Sunən ət-Tirmizi, 2518; Sunən ən-Nəsai, 5711.

[2] Sunən ət-Tirmizi, 2518.

– Əgər hədisin iki və daha çox isnadı varsa, bu kəlmə: "hədis bir isnadla "həsən", digər isnadla isə "səhih"dir" mənasını ifadə edir;

– Əgər hədisin yalnız bir isnadı varsa, o halda bu kəlmə: "hədis bir qrup alimin rəyinə görə "həsən", digərlərinə görə isə "səhih"dir" mənasını ifadə edir.

Bu hədisdə ravi, Həsən ibn Əli ibn Əbu Talibi ﷺ reyhan qoxulu nəvə adlandırır. Əslində bu söz Peyğəmbərin ﷺ sözüdür. Peyğəmbər ﷺ Həsən və Hüseyn barədə: "Onlar mənim dünyadakı reyhan qohulu nəvələrimdir!"- demişdir.[1] Rəsulullah ﷺ onları çox sevdiyinə görə belə demişdir. Rəvayət edilir ki, Bəra ibn Azib ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ Həsəni çiynində apararkən, belə dediyini eşitdim: "Allahım, mən onu sevirəm, Sən də onu sev!"[2] Digər rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ onu qucaqlayıb öpdü və dua edib dedi: "Allahım, onu sev və onu sevən kimsələri də sev!"[3]

Yeri gəlmişkən qeyd edək ki, Həsən ﷺ Peyğəmbərə ﷺ ən çox oxşayan səhabədir. Rəvayət edilir ki, Əbu Cuheyfə ﷺ demişdir: "Mən Peyğəmbəri ﷺ görmüşəm. Həsən ibn Əli ﷺ ona oxşayırdı."[4] Başqa bir rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərə ﷺ Həsən ibn Əli qədər çox oxşayan bir kimsə yox

---

[1] Səhih əl-Buxari, 3753.

[2] Səhih əl-Buxari, 3749.

[3] Səhih əl-Buxari, 2122.

[4] Səhih əl-Buxari, 3544.

idi."[1] Bir başqa rəvayətdə Uqbə ibn Haris ﷺ demişdir: "*Bir dəfə* Əbu Bəkr əsr namazını qıldıqdan sonra *məsciddən* bayıra çıxdı. *Bu vaxt* o, Həsənin uşaqlarla oynadığını gördü və onu çiyninə otuzdurub dedi: "Atam sənə qurban, sən Əlidən çox Peyğəmbərə ﷺ oxşayırsan." Əli bu sözü eşidəndə güldü."[2] Həsən ibn Əlinin ﷺ müsəlman ümməti üçün etdiyi ən böyük xeyirxahlıq onların arasında baş verə biləcək böyük bir qırğının qabağını almaq olmuşdur ki, bunun barəsində də Peyğəmbər ﷺ əvvəlcədən xəbər verib belə buyurmuşdur: "Mənim bu nəvəm çox hörmətli şəxsiyyətdir. *Vaxt gələcək,* o, müsəlmanlardan iki böyük dəstənin arasını düzəldəcəkdir."[3]

Şərh etdiyimiz hədis, əvvəldə şərh etdiyimiz, Nomən ibn Bəşirin ﷺ rəvayət etdiyi: "Hər kim şübhəli işlərdən uzaq durarsa, dinini və ismətini qorumuş olar. Kim də şübhəli işlərə dalarsa, harama dalmış olar" hədisinə bənzəyir. Burada Peyğəmbər ﷺ hər bir müsəlmana şübhəli işlərdən uzaq durub, halal və icazəli olduğunu yəqin bildiyi əməlləri yerinə yetirməyi əmr edir. Bu iki hədisdə bir incəlik var, diqqət edin, Peyğəmbər ﷺ Nomən ibn Bəşirə ﷺ və Həsən ibn Əbu Talibə ﷺ nəsihət edərkən onların yaşı az idi, Nomənin səkkiz yaşı var idi, Həsənin isə heç beş yaşı yox idi. Bundan aydın olur ki, səhabələr uşaq vaxtından xeyirli əməlləri öyrənməyə həris idilər. Bu da o deməkdir ki, saleh əməlləri uşaqlara, uşaq vaxtından öyrətmək lazımdır. Necə ki, Pey-

[1] Səhih əl-Buxari, 3752.
[2] Səhih əl-Buxari, 3542.
[3] Səhih əl-Buxari, 2704.

ğəmbər ﷺ uşaqlara yeddi yaşından namazı öyrətməyi və onlara namaz qılmağı buyurmağı əmr etmişdir. Yaxud qız uşaqlarının örtünməsi və abırlı geyinməsini misal çəkmək olar. Bəziləri öz uşaqlarına uşaq vaxtından saleh əməlləri öyrətmirlər ki, böyüyəndə öyrədərəm, böyüyəndə isə artıq gec olur və çox vaxt uşaqlar onların sözünə baxmır.

İbn Rəcəb bu hədisi izah edib demişdir: "Bu hədis dəlildir ki, şübhəli şeylər gördükdə, onlardan çəkinmək lazımdır. Çünki halallığı bəlli olan şeylər möminin qəlbinə şübhə salmır, yəni onu narahat edib təşvişə salmır, əksinə, möminin nəfsi ona meyl edir və qəlbi ondan rahatlıq tapır. Şübhəli şeylər isə adamın qəlbində narahatlıq yaradır və onu təşvişə salır."[1]

O, həmçinin, demişdir: "Bu hədisdə bir incəlik var, ona diqqət yetirmək lazımdır. Yalnız bütün işləri düz olan, əməllərinə görə Allahdan qorxan və zahid olan kəs şübhəli işlərdən çəkinə bilər. Amma kim aşkarda haram işlərə meyil edir, sonra da, şübhəli işlərdən çəkinməyə çalışırsa, beləsi heç vaxt şübhədən yaxa qurtara bilməz. Odur ki, beləsinə ancaq inkar etmək lazımdır. İmam Buxarinin "Səhih"ində nəql edilmiş rəvayətdə xəbər verilir ki, İbn Ömər رضي الله عنهما həcc ziyarətində ikən, bir nəfər ona yaxınlaşıb, ihramda ikən ağcaqanadı öldürməyin caiz olub-olmaması barədə soruşur. İbn Ömər ondan: "Sən kimlərdənsən?"– deyə soruşur. Adam: "Mən İraq əhlindənəm"– deyə cavab verir. Onda İbn Ömər yanındakılara deyir: "Buna bir baxın, məndən ağcaqanadın qanı barədə soruşur. Halbuki, onlar Peyğəmbərin ﷺ nəvəsi Hüseyni öl-

---

[1] Cami əl-Ulum vəl-Hikəm, 1/280.

dürmüşlər. Mən Peyğəmbərin ﷺ Həsən və Hüseyn barədə belə dediyini eşitmişəm: "Onlar mənim dünyadakı iki reyhanımdır!"[1]

Burada meydana sual çıxır ki, nə üçün İbn Ömər رضي الله عنهما ona birbaşa cavab vermədi, onun haralı olduğunu soruşdu? Cavabı budur ki, bəzən sualın məğzindən həmin məsələnin fitnələr yayılmış bir diyara aid olduğunu, habelə, sual verən adamın danışıq üslubundan təqribən onun nə məqsəd güddüyünü anlamaq olur. Belə olduğu təqdirdə sual verən adamın haradan və ya kimlərdən olduğunu soruşmaq caizdir. Burada da İbn Ömər رضي الله عنهما onun nəyə görə belə sual verdiyini təxmin edir deyə, ondan haralı olduğunu soruşur.

İndi gəlin sələflərin şübhə barədə dedikləri bir neçə ibrətamiz sözləri zikr edək:

Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Səni şübhəyə salan bir şeyi tərk et, səni şübhəyə salmayan minlərlə şeylərə bax."[2] İbn Məsudun رضي الله عنه sözü, həqiqətən də, ibrətamizdir. Şeytan adama necə vəsvəsə verirsə, ona uyan adam minlərlə halal yeməkləri və içkiləri qoyub, donuz ətinin və ya şərabın haram buyurulduğuna şübhə ilə yanaşır. Qurana iman gətirənlər isə bunların haramlığına şəkk-şübhə etmirlər.

Həmçinin, Əbu Abdurrəhman əz-Zahid رحمه الله demişdir: "Allahdan qorxan adam şübhə doğuran şeydən uzaq durub, şübhə doğurmayan şeyə baxar."[3]

---

[1] Səhih əl-Buxari, 3753.

[2] Cami əl-Ulum vəl-Hikəm, 1/280.

[3] Əvvəlki mənbə.

Həmçinin, Həssan ibn Əbu Sinan ﷺ demişdir: "Mənim üçün zahid olmaqdan daha asan bir şey yoxdur. Çünki şübhəli bir şey gördükdə, dərhal onu tərk edirəm."[1]

Sonda hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ. اهْدِنَا لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ ))

"Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda bizi Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən."[2]

---

[1] əl-Vərəu, İmam Əhməd, səh. 69; əl-Vərəu, İbn Əbud-Dunya, səh. 57.

[2] Səhih Muslim, 1/534.

# On ikinci hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ "مِنْ حُسْنِ إِسْلَامِ الْمَرْءِ تَرْكُهُ مَا لَا يَعْنِيهِ".

حَدِيثٌ حَسَنٌ، رَوَاهُ التِّرْمِذِيُّ [رقم: ٢٣١٧]، ابن ماجه [رقم:٣٩٧٦].

Əbu Hureyra ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin."

Bu hədis həsən hədisdir. Hədisi Tirmizi və başqaları bu ləfz ilə rəvayət etmişlər.[1]

Göründüyü kimi imam Nəvəvi bu hədisin həsən olduğunu deyir. Saleh Ali Şeyx bu hədisin şərhində deyir ki, bu hədis bir çox isnadlarla rəvayət edildiyinə və bu mənada olan digər hədislərin onu qüvvətləndirdiyinə görə, Nəvəvi onun həsən hədis olduğuna hökm vermişdir. Lakin mühəddislərin rəyinə əsasən, daha dəqiq hökm budur ki, bu, mursəl hədisdir. İmam Əhməd ibn Hənbəl, Yəhya ibn Məin və başqaları bu hədisin mursəl olduğunu demişlər. Lakin əvvəldə qeyd etdiyimiz kimi, bu mənada olan digər hədislərin onu qüvvətləndirdiyinə görə, Nəvəvi onun həsən hədis olduğuna hökm vermişdir. Əslində isə bu isnad, həsən liğeyrihi hökmündədir."[2]

---

[1] Sunən ət-Titmizi, 2317; Sunən İbn Macə, 3976; Səhih İbn Hibban, 229; əs-Səmt, İbn Əbud-Dunya, 108.

[2] Şərh əl-Ərbəin, səh. 182.

Yeri gəlmişkən qeyd edək ki, mursəl: ( مُرْسَلٌ ) ərəbcə "ərsələ" ( أَرْسَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Lüğəti mənada göndərilmiş, yollanmış və s. mənaları ifadə edir. İstilahi mənada isə – bu, o hədisdir ki, isnadının sonunda tabiindən sonra gələn, Peyğəmbərlə ﷺ tabiin arasında olan ravi buraxılmışdır.

"Həsən li-ğeyrihi" kəlməsinə gəlincə, biz artıq, bundan əvvəlki hədisin şərhində, hədis istilahına aid olan "həsən" kəlməsini izah etmişik. Qaldı ki, "li-ğeyrihi" termininə, bu, ərəbcə "li" ön qoşmasından, "ğeyrun" ismindən və "hu" bitişən əvəzliyindən əmələ gəlmiş sözdür. Ayrı-ayrılıqda "li" aidiyyət, mənsubiyyət bildirir. "Ğeyrun" kəlməsi özgə, başqa və qeyri mənalarını, "hu" əvəzliyi isə onun, ona və onu mənalarını ifadə edir. İstilahi mənada isə bu, bir çox isnadlarla rəvayət olunmuş zəif hədisdir ki, onun zəifliyinin səbəbi ravinin yalançı və ya fasiq olmasıyla əlaqəli deyildir. Bu növ hədis dərəcə etibarilə "həsən"dən aşağı hesab olunsa da, mötəbər hədislərdən sayılır.

Bu hədis dəlildir ki, müsəlmanlar öz müsəlmançılıqlarında, dərəcə baxımındın biri digərindən üstündür. Təbii ki, İslam əxlaqına tam şəkildə yiyələnmiş müsəlmanla, əxlaqı naqis olan və ya ümumiyyətlə, özündə İslam əxlaqı olmayan müsəlman eyni ola bilməz.

İbn Rəcəb رحمه الله demişdir: "Müsəlmanın islamının gözəlliyindəndir ki, özünə aid olmayan sözləri və əməlləri tərk etsin, özünə aid olan sözü danışsın və özünə aid olan işlərlə məşğul olsun. "Aid olan iş" deyildikdə, insanın qarşısına qoyduğu məqsədi, istəyi və bir işi görməyə can atması qəsd edilir. İnsan, özünə aid olmayan

işləri, öz nəfsinin istəyinə görə yox, məhz şəriətin və islamın tələbinə görə tərk etdiyi təqdirdə, bu əməl islamın gözəlliyindən sayılır. Demək, burada "özünə aid" deyildikdə, İslama aid qəsd edilir, yəni müsəlmanın islamının gözəlliyindəndir ki, İslama aid olmayan sözləri və əməlləri tərk etsin. İslam dini, vacibləri yerinə yetirməyi buyurur. Biz bunu, əvvəldə Cəbrailin عليه السلام hədisinin şərhində zikr etmişdik. Kamil, seçilmiş din olan islamda haramlardan da uzaq durmaq vacibdir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurur: "Müsəlman o kəsdir ki,[1] onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin."[2] Demək, islamın gözəlliyi ondadır ki, adam haramların, günahların, şübhəli işlərin, məkruhların hamısını, hətta ehtiyacı olmadığı mübah əməlləri də tərk etsin. Çünki İslamın kamilliyinə yüksəlmək və ehsan dərəcəsinə yetişmək istəyən müsəlman bunların hamısından uzaq durmalıdır. Yəni Uca Allaha, sanki Onu görürmüş kimi ibadət etməlidir. Allahı görməsə də, *bilməlidir ki,* Allah onu görür. Kim Allahın ona yaxın olduğunu dərk etdiyi və qəlbi ilə Onu gördüyü halda, yaxud Allahın ona yaxın olduğunu və onu gördüyünü düşündüyü halda Ona ibadət edərsə, İslamını gözəlləşdirmiş olar. Bunun üçün isə o, özünə aid olmayan, şəriətin çəkindirdiyi hər bir əməldən uzaq durmalı və özünə aid olan işlərlə məşğul olmalıdır."[3]

---

[1] Burada müsəlman deyildikdə kamil əxlaqlı müsəlman nəzərdə tutulur. Yoxsa, əli ilə və ya dili ilə müsəlman qardaşına əziyyət verən bir müsəlman, bu əməlinə görə kafir sayıla bilməz.

[2] Cami əl-Ulum vəl-Hikəm, 1/288-289.

[3] Səhih əl-Buxari, 10; Səhih Muslim, 41.

İbn Rəcəb ﷺ demək istəyir ki, insan öz ağlına və ya nəfsinin istəyinə görə yox, məhz şəriətin qoyduğu meyarla, özünə aid olmayan işləri tərk etməlidir. Məsələn: bəziləri bu hədisi yanlış başa düşdüyündən, deyirlər ki, həvəsin olmadıqda namazı tərk edə bilərsən, bu halda artıq namaz sənə aid olmayan işlərə aid olur. Bu da, batil fikirdir. Çünki insan nəfsinin istəyi müsəlman üçün meyar sayıla bilməz. Elə buna görə də, bu hədisdə "Müsəlmanın islamının gözəlliyindəndir" deyilir, əgər nəfsin istəyi meyar olsaydı, "nəfsin istəyinin gözəlliyindəndir" deyilərdi.

Bu hədis əxlaq xüsusunda rəvayət edilmiş ən möhtəşəm hədislərdən biridir. Qeyd etmək lazımdır ki, ən xeyirli müsəlmanlardan olmaq, habelə, bu dünyada və Axirətdə uğur qazanmaq və səadətə qovuşmaq üçün gözəl əxlaq sahibi olmaq lazımdır. Peyğəmbər ﷺ gözəl əxlaqın məziyyəti barədə belə buyurmuşdur: "Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanlarınızdır!"[1] Digər hədisdə o, demişdir: "Mömin adam öz gözəl əxlaqı ilə *gündüzləri* oruc tutub, *gecələri* namaz qılan kimsənin dərəcəsinə yüksəlir."[2] Başqa bir hədisdə o belə buyurmuşdur: "Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır."[3] Xüsusi olaraq qeyd etmək lazımdır ki, gözəl əxlaq insanı Cənnətə aparan əsas amillərdən biridir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanların Cənnətə girməyinə ən çox

---

[1] Səhih əl-Buxari, 3559.

[2] Səhih ət-Tərğib vət-Tərhib, 2643.

[3] Sunən ət-Tirmizi, 1/363; Silsilətul-Əhadisis-Səhihə, 791-ci hədis.

səbəb olan amil, Allah qorxusu və gözəl əxlaqdır..."[1] Hərçənd, əxlaq barədə bir çox hədislər varid olmuşdur, lakin bunların ən əsası dördüdür. Maliki məzhəbindən olmuş və "balaca Malik" kimi tanınmış imam İbn Əbu Zeyd əl-Qeyrəvani ﷺ demişdir: "Əxlaq ədəbləri və onun tutqacları dörd hədisə söykənir: *birincisi,* Peyğəmbərin ﷺ: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" hədisi, *ikincisi,* onun: "Müsəlmanın islamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" hədisi, *üçüncüsü,* ondan nəsihət istəyən kimsəyə: "Qəzəblənmə"– deyə nəsihət etməsi və *dördüncüsü,* onun: "Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz" hədisidir."[2] Xətib əl-Bəğdadi ﷺ Peyğəmbərin ﷺ yolunu gedən möminlərin əxlaqı barədə danışarkən demişdir: "Peyğəmbərin ﷺ hədislərini öyrənən kimsələrə vacibdir ki, insanların ən ədəblisi, ən təvazökarı, ən düzdanışanı və ən dindarı olsunlar, habelə, yüngüllük etməsinlər və hər şeyə görə qəzəblənməsinlər. Həmçinin, onlar Rəsulullahın ﷺ gözəl əxlaqını və ədəbini özündə cəm edən rəvayətləri, onun əhli-beytindən və səhabələrindən olmuş əməlisaleh sələflərin həyat yolunu özündə əks etdirən, habelə, mühəddislərin həyat tərzindən danışan xəbərləri, üstəlik, keçmiş nəslin əvəzsiz xidmətlərini davamlı araşdırıb öyrənməli-

---

[1] Sunən ət-Tirmizi, 1/361; Sunən İbn Macə, 4246; Musnəd Əhməd, 2/291, 392 və 442; Silsilətul-Əhadisis-Səhihə, 2/706.

[2] Şərhun-Nəvəvi, 67-ci hədisin şərhi və Camiul-Ulum vəl-Hikəm, 12-ci hədisin şərhi.

dirlər ki, ən gözəl və ən yaxşı əxlaqa əməl etsinlər, ən rəzil və ən pis əxlaqdan uzaq olsunlar."[1]

Xətib əl-Bəğdadinin ﷺ sözündən aydın başa düşülür ki, kamil islam əxlaqına yiyələnmək istəyən müsəlman Peyğəmbərin ﷺ yolunu tutub getməli və ondan nümunə götürməlidir.

Qeyd edək ki, müsəlmana aid olmayan işlər arasında, onun ən çox diqqət yetirəcəyi əməl, danışdığı sözlər olmalıdır. Yəni nə danışdığına diqqət yetirməli və bacardığı qədər dilini qorumalıdır. Çünki onun dediyi hər kəlməni mələklər yazır və Qiyamət günü hər sözünə görə cavab verməli olacaq. Bu xüsusda Uca Allah "Qaf" surəsinin 16-cı, 17-ci və 18-ci ayələrində belə buyurur:

﴿ وَلَقَدْ خَلَقْنَا ٱلْإِنسَٰنَ وَنَعْلَمُ مَا تُوَسْوِسُ بِهِۦ نَفْسُهُۥ ۖ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ ٱلْوَرِيدِ ﴿١٦﴾ إِذْ يَتَلَقَّى ٱلْمُتَلَقِّيَانِ عَنِ ٱلْيَمِينِ وَعَنِ ٱلشِّمَالِ قَعِيدٌ ﴿١٧﴾ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴿١٨﴾ ﴾

"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın." Bu ayənin izahında xəbər verilir ki, mələklər, hətta xəstə adamın iniltisini belə yazırlar. Bu xüsusda varid olmuş rəvayətdə xəbər verilir ki, Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Xəstə insanın hər kəlməsi, hətta iniltisi belə mələklər tərəfindən yazılır. Əgər xəstəliyin ağrısına səbir edərək inildəyərsə, iniltisinə görə ona savab yazılar,

---

[1] əl-Cami Liəxlaqir-Ravi və Ədabis-Sami, 1/6.

yox, əgər heyfsilənərək inildəyərsə, iniltisinə görə onun qorxaq olduğu yazılar və buna görə savab qazanmaz."[1]

Bu xüsusda, həmçinin, İmam Əhmədin rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlmanın islamının gözəlliyindəndir ki, özünə aid işlərdə az danışsın."[2] Bu mənada olan digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm."[3] Yenə bir hədisdə o, demişdir: "Kim sussa, nicat tapar."[4] Burada dili saxlamaq və susmaq deyildikdə, mütləq şəkildə susmaq nəzərdə tutulmur. Belə ki, yeri gələndə xeyir söyləmək müstəsnadır. Peyğəmbər ﷺ də belə edərdi, o, çox vaxt susar və ancaq lazım gəldikdə danışardı, həmçinin, səhabələrinə də belə etməyi nəsihət edib deyərdi: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun."[5]

Şərh etdiyimiz hədisdən aydın başa düşülür ki, müsəlman olan kəs özünə aid olmayan işləri tərk edib, özünə aid olan işlərlə məşğul olduqda islamını kamilləşdirmiş olur. Üstəlik, savabı da qat-qat artır. Belə müsəlmanın savabının artması xüsusunda ayrıca bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizdən hansı biriniz islamını gözəlləşdirərsə, etdiyi hər yaxşılığa görə ona bunun on mis-

---

[1] Tarix Əsbəhan, Əbu Nueym, 1/330; əl-Firdovs, Deyləmi, 5/537.

[2] Musnəd İmam Əhməd, 1732.

[3] Musnəd İmam Əhməd, 1/201; Mocəm əl-Kəbir, ət-Təbərani, 2886.

[4] Sunən ət-Tirmizi, 2/82; Musnəd İmam Əhməd, 2/159, 177; Silsilətul-Əhadisis-Səhihə, 536-cı hədis.

[5] Səhih əl-Buxari, 6018.

lindən yeddi yüz qatınadək savab yazılar. Etdiyi hər bir pis əməlinə görə isə cəmi bir günah yazılar. Bu, ta Allaha qovuşanadək beləcə davam edər."[1] Burada İslamını gözəlləşdirmək deyildikdə, əsl müsəlman əxlaqına yiyələnmək qəsd edilir. Bu hədisin əvvəlində Peyğəmbər ﷺ xəbər vermişdir ki, Uca Allah buyurur: "Əgər qulum bir yaxşılıq etmək qərarına gəlsə və bunu yerinə yetirməsə, Mən ona bir savab yazaram. Hərgah yerinə yetirərsə, Mən ona bunun on mislində savab yazaram. Əgər o, bir günah işlətmək qərarına gələr, sonra da bundan vaz keçərsə, Mən onun bu pis niyyətini bağışlayaram. Hərgah bunu həyata keçirərsə, etdiyinin misli qədər ona günah yazaram." Peyğəmbər ﷺ davam edib deyir: "Onda Mələklər deyir: "Ey Rəbbimiz! "Sənin bu qulun günah iş görmək istəyir." Allah onu hamıdan yaxşı gördüyü halda mələklərə belə buyurur: "Ona nəzarət edin! İşdi, bunu gerçəyə çevirərsə, ona bunun misli qədər günah yazın. Yox, əgər bundan vaz keçərsə, ona bir savab yazın. Çünki o, bunu Mənim xatirimə tərk etmişdir."

Hədisdən aydın başa düşülür ki, əsl müsəlmanın etdiyi əməllərinin savabı qat-qat artır. Bu xüsusda Quranda da neçə-neçə ayələr var. Məsələn: "əl-Ənam" surəsinin 160-cı ayəsində deyilir: "Kim yaxşı əməl edərsə, ona etdiyi əməlin on qat əvəzi verilər. Kim də pis əməl edərsə, ona ancaq etdiyinin misli qədər cəza verilər və onlara haqsızlıq edilməz." Həmçinin, "ən-Nisa" surəsinin 40-cı ayəsində deyilir: "Kim yaxşı iş görsə, Allah onun savabını qat-qat artırar və ona Öz tərəfindən böyük mükafat verər."

---

[1] Səhih Muslim, 129.

İndi gəlin, sələflərin bu mövzuya dair dedikləri bir neçə ibrətamiz sözləri ilə bu hədisin şərhinə son verək:

Rəvayət edilir ki, Əbu Bəkr əs-Siddiq رضي الله عنه dilini tutub deyərmiş: “Bu dil məni həlak edə bilər.”[1]

Həmçinin, Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: “Çox danışan adamın xətası çox olar. Xətası çox olan adamın günahları çoxalar. Günahları çoxalan adamın isə Cəhənnəm oduna düşmək ehtimalı daha çox olar.”[2]

Həmçinin, Abdullah ibn Məsud رضي الله عنه demişdir: “Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, yer üzündə uzun müddət zindanda qalmağa ən çox layiq olan şey dildir.”[3]

Ömər ibn Abduləziz رحمه الله demişdir: “Kim danışdığı sözün etdiyi əməllərə aid olduğunu hesab edərsə, ancaq özünə aid olan sözləri dilinə gətirər.”[4]

Həmçinin, Muhəmməd ibn İclan رحمه الله demişdir: “*Xeyirli* kəlam dörddür: Allahı zikr etmək, Quran oxumaq, *faydalı* elm öyrənmək və onu başqalarına öyrətmək və bir də ancaq özünə aid işlərdən danışmaq.”[5]

---

[1] Muvatta, 2825; əl-Hilyə, 1/33; Şoəbul-İman, 4947; Musənnəf İbn Əbu Şeybə, 26500.

[2] Rovdətul-Uqəla, İbn Hibban, səh: 36; Mocəmul-Ovsat, 6541.

[3] əz-Zuhd, İmam Əhməd, səh: 162; Musənnəf İbn Əbu Şeybə, 26499; Rovdətul-Uqəla, İbn Hibban, səh: 39; Mocəmul-Kəbir, 8744, 8745, 8746 və 8747; əl-Hilyə, 1/134.

[4] Tarix Dəməşq”, 48/117.

[5] ət-Təmhid, 9/202; əs-Samt, İbn Əbud-Dunya, səh: 44.

Həmçinin, Vəhb ibn Munəbbih رحمه الله demişdir: "Müdrik adamların hamısı, susmağı, müdrikliyin əsası hesab etmişlər."[1]

Həmçinin, Şumeyt ibn İclan رحمه الله demişdir: "Ey Adəm övladı! Nə qədər ki, susursan, salamat qalacaqsan. Elə ki, danışdın, bil ki, bu, sənin ya lehinə, ya da əleyhinə olacaq."[2]

Sonda hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اهْدِنَا لأَحْسَنِ ٱلأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنَّا سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنَّا سَيِّئَهَا إِلاَّ أَنْتَ ))

"Allahım, bizə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən bizi uzaq et! Bizi onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!"[3]

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقَنَا فَأَحْسِنْ خُلُقَنَا ))

"Allahım, Sən bizi gözəl biçimdə yaratdın, əxlaqımızı da gözəl et!"[4]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

"Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və fikirlərdən Sənə sığınırıq!"[5]

---

[1] əs-Samt, İbn Əbud-Dunya, 619.

[2] əl-Hilyə, 3/129; əs-Samt, İbn Əbud-Dunya, 623.

[3] Səhih Muslim, 1/534.

[4] Musnəd Əhməd, 1/403; Səhih Tərğib vət-Tərhib, 2657.

[5] Səhih Sunən ət-Tirmizi, 3/184.

# On üçüncü hədis

عَنْ أَبِي حَمْزَةَ أَنَسِ بْنِ مَالِكٍ ﵁ خَادِمِ رَسُولِ اللهِ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: "لَا يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى يُحِبَّ لِأَخِيهِ مَا يُحِبُّ لِنَفْسِهِ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:١٣]، وَمُسْلِمٌ [رقم:٤٥].

Peyğəmbərin ﷺ xadimi Əbu Həmzə Ənəs ibn Malik ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz özü üçün istədiyini qardaşı üçün istəmədikcə, iman etmiş olmaz."

Bu hədisi, imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Ənəs ibn Malik əl-Ənsari əl-Xəzrəci ﵁ Peyğəmbərin ﷺ həm xidmətçisi, həm qadın tərəfdən onun qohumu, həm də ən çox hədis rəvayət edən səhabələrindəndir. Hicrətdən on il əvvəl dünyaya gəlmiş, uşaq ikən islamı qəbul etmiş və düz on il Peyğəmbərə ﷺ xidmət etmişdir. Elə bu səbəbdən də səhabələr ona Peyğəmbərin ﷺ xadimi deyərdilər.[2]

Bu hədisdə "iman etmiş olmaz"– deyildikdə, kamil iman qəsd edilir. Yəni, özü üçün istədiyini müsəlman qardaşı üçün istəməyən kimsənin imanı kamil olmaz. İslam alimləri demişlər: "Hədisdə söhbət kamil imandan gedir. Yəni özü üçün istədiyini müsəlman qardaşı üçün istəməyən müsəlman kəs, kafir sayılmır, sadəcə imanı naqis olur. Və burada "qardaşı üçün istəmədikcə" deyil-

---

[1] Səhih əl-Buxari, 13; Səhih Muslim, 45.

[2] Siyər Əlam ən-Nubələ, 62-ci tərcümeyi-hal.

dikdə xeyirli və mübah şeylər nəzərdə tutulur. Buna da Nəsainin rəvayət etdiyi hədisi dəlil göstərmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz özü üçün istədiyi xeyri, müsəlman qardaşı üçün istəmədikcə iman etmiş olmaz."[1] İbn Həcər رحمه الله "Fəth əl-Bari" əsərində Kərmaninin belə dediyini nəql etmişdir: "Həmçinin, birinin özü üçün istəmədiyi şəri və ya pis şeyi müsəlman qardaşı üçün istəməməsi də imandandır. Hərçənd, Peyğəmbər ﷺ hədisdə bunu qeyd etməmişdir, lakin məlumdur ki, bir şeyi sevmək onun əksini sevməməyi tələb edir. Elə bu səbəbdən də Peyğəmbər ﷺ "istədiyi" sözü ilə kifayətlənmişdir."[2]

Hədisdə zikr edilən "iman" sözünə gəlincə, islam alimləri ona belə tərif vermişlər: "İman, qəlb ilə təsdiq etmək, dil ilə tələffüz etmək və bədən əzaları ilə əməl etmək deməkdir. Artır və azalır."[3] İmanın artıb-azalmasına dair Quranda bir çox ayələr var. Məsələn: "əl-Fəth" surəsinin 4-cü ayəsində deyilir: "Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Allahdır." Həmçinin, "ət-Tovbə" surəsinin 124-cü ayəsində deyilir: "İman gətirənlərə gəldikdə isə, *bu surə* onların imanını artırır." Həmçinin, "Ali-İmran" surəsinin 173-cü ayəsində deyilir: "*Bəzi* adamlar möminlərə: "Camaat sizə qarşı *ordu* toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı."

İmanın tərifindən bizə aydın oldu ki, imanın yeri həm qəlb, həm dil, həm də bədən əzalarıdır. Yəni, adam mömin olmaq üçün şəhadət kəlməsini dili ilə tələffüz etməli, qəlbi ilə Allahın tək ilah

---

[1] Sunən ən-Nəsai", 6/534.

[2] Fəth əl-Bari 1/20.

[3] Fəth əl-Bari 1/46.

olduğuna və Muhəmmədin ﷺ Onun qulu və rəsulu olduğuna etiqad etməli və bədən əzaları ilə də onların buyuruqlarını yerinə yetirməlidir. Bu üçünün imana aid edilməsinə dəlil Peyğəmbərin ﷺ bu hədisidir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. *Bunların* ən əfzəli "lə ilahə illəllah", ən aşağı dərəcədə olanı isə yoldan əziyyət verən şeyi götürməkdir. Həya da imanın şöbələrindəndir."[1] Hədisə diqqət yetirsək görərik ki, hədisdə zikr edilən "lə ilahə illəllah" dilə, yoldan əziyyət verən şeyi götürmək əmələ və nəhayət, həya qəlbə aiddir.

İbn Rəcəb demişdir: "Ənəsin hədisi dəlildir ki, mömin adam öz mömin qardaşının sevindiyinə sevinər və özü üçün istədiyi xeyirdən onun üçün də istəyər. Bütün bunlar qəlbin nifrətdən, yalandan və həsəddən salamat olmasının kamilliyindən irəli gəlir. Həqiqətən də, həsəd, paxıl insanı elə bir hala gətirib çıxarır ki, artıq başqa birisinin özündən üstün olmasına və ya öz səviyyəsinə çatmasına razı olmur. Çünki belə adam öz məziyyətləri ilə insanlardan üstün olmağı və bu üstünlüklərlə onlardan seçilməyi xoşlayır. İman isə insanı bunun tam əksinə təşviq edir. İmanlı adam möminlərin hamısının Allahın əta etdiyi xeyirə şərik olmasını, heç kəsin bundan məhrum olmamasını istəyir... Ümumiyyətlə, mömin adam özü üçün istədiyini möminlər üçün də istəməli, habelə, özü üçün istəmədiyini, onlar üçün də istəməməlidir. Və əgər müsəlman, qardaşında onun dininə aid nöqsan görərsə, onu islah etməyə çalışmalıdır."[2]

---

[1] Səhih əl-Buxari, 9; Səhih Muslim, 152.

[2] Cami əl-Ulum vəl-Hikəm, 1/306-308.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, müsəlmanın özü üçün istədiyini müsəlman qardaşı üçün istəməsi, onun Cənnətə daxil olmasına rəvac verən amillərdəndir. Bu xüsusda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Cəhənnəm odundan uzaqlaşıb Cənnətə daxil olmaq istəyirsə, qoy Allaha və axirət gününə iman gətirdiyi halda bu dünyadan köçsün. Üstəlik, insanların onunla necə davranmasını istəyirsə, özü də insanlarla elə davrasın."[1] Digər bir hədisdə rəvayət edilir ki, Yezid ibn Əsəd əl-Qasri demişdir: "Bir gün Rəsulullah ﷺ mənə dedi: "Cənnəti istəyirsənmi?" Dedim: "Bəli, ya Rəsulullah!" Rəsulullah ﷺ belə buyurdu: "Elə isə özün üçün istədiyini qardaşın üçün də istə!"[2]

Müsəlmanın özü üçün istədiyini müsəlman qardaşı üçün istəməsi, onların arasında olan bağlılığa və isti münasibətə dəlalət edir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, *bədənin* bir əzasına xəstəlik üz verdikdə bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir."[3] Bu hədisi dərk edən mömin öz mömin qardaşına əsla məzəmmət etməz. Lakin Allah rizasını qazanmaq və islah etmək məqsədi ilə möminin möminə nəsihət etməsi istisnadır və əksinə, bəyənilən əməllərdəndir.

---

[1] Səhih Muslim, 1844.

[2] Musnəd İmam Əhməd, 4/70; Silsilə əl-Əhadis əs-Səhihə, 72-ci hədis; Bu hədis, həsəndir.

[3] Səhih əl-Buxari, 6011.

Həmçinin, onu da qeyd etmək lazımdır ki, mömin möminə yalnız iki şeyə görə həsəd apara bilər, daha dəqiq desək, qibtə edə bilər. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Yalnız iki şəxsə həsəd aparmaq olar: O şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da, onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim." Bir də o şəxsə ki, Allah ona var-dövlət bəxş etmiş, o da, onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim."[1]

Bu deyilənlərdən bizə aydın olur ki, möminlər arasında sevgi yaradan və onları bir-birinə isinişdirən əsas amil imandır. Yəni bu sevgi Allah rizası üçün olmalıdır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "İmanın ən möhkəm ipi, Allah üçün dostluq etmək, Allah üçün düşmənçilik etmək, Allah üçün sevmək və Allah üçün nifrət etməkdir." Digər hədisdə o, demişdir: "Kim Allah rizası üçün sevər, Allah rizası üçün nifrət edər, Allah rizası üçün verər və Allah rizası üçün alarsa, imanını kamilləşdirmiş olar." Peyğəmbər ﷺ belə möminləri tərif edib demişdir: "Allahın qulları arasında elə kimsələr vardır ki, özləri peyğəmbər olmasalar da, peyğəmbərlər və şəhidlər onlara qibtə edəcəklər." Səhabələr dedilər: "Onların kim olduğunu bizə bildir ki, biz də onları sevək." Peyğəmbər ﷺ dedi: "Onlar bir-birini qohumluq xatirinə yox, məhz Allah rizası üçün sevən kimsələrdir. Qiyamət günü onların üzləri nur saçacaq, özləri də nurdan olan minbərlər üzərində duracaqlar. İnsan-

[1] Səhih əl-Buxari, 5026.

lar nədənsə qorxduqları zaman onlar heç nədən qorxmaz, insanlar kədərləndikləri zaman, onlar heç nəyə görə kədərlənməzlər." Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər." Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: Uca Allah buyurur: "Mənim xatirimə bir-birini sevənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-biri ilə əlaqə saxlayanlara Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə nəsihət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birini ziyarət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə yaxşılıq edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birini sevənlər Qiyamət günü nurdan olan minbərlər üzərində duracaqlar. Peyğəmbərlər, siddiqlər və şəhidlər onlara belə bir məqamda olduqlarına görə qibtə edəcəklər."

Gəlin bu mövzuda sələflərdən birini, "Turcumanul-Quran – Quranın tərcüməcisi" ləqəbi ilə tanınmış səhabəni Abdullah ibn Abbası رضي الله عنه misal çəkək. Rəvayət edilir ki, İbn Abbas رضي الله عنه demişdir: "Dörd sinif insan var ki, onların mənə etdiyi yaxşılığın əvəzini lazımınca verə bilmirəm: salamlaşdıqda məni qabaqlayan, birinci salam verən, məclisdə mənə yer verən və mənə yardım etmək üçün uzun-uzadı yol gedən kimsə. Dördüncüsünə gəlincə, onun əməlinin əvəzini ancaq Allah verə bilər." İbn Abbasın yanındakılar ondan: "Kimdir o?"– deyə soruşduqda, İbn Abbas dedi: "O adam ki, başına bir iş gəlmiş, sonra bütün gecəni o çətin vəziyyətdən çıxmaq üçün kimə müraciət edəcəyi barədə düşün-

müş, sonra da məhz məni, bu sıxıntını aradan qaldıracağıma layiq bilmiş və məhz mənə müraciət etmişdir.”

Allahu Əkbər! İbn Abbasın رضي الله عنه möminlərə olan sevgisinə bir baxın. Görün, mömin qardaşının xidmətində durmağı özü üçün nə dərəcədə fəzilətli bir əməl hesab edir. Yaxşılığı edən özüdür, lakin özünün savab qazanmasına səbəb olan adamın elədiyinin əcrini yalnız Allahdan umur.

Fudeyl ibn İyad رحمه الله demişdir: “Kim səhfsiz qardaş axtararsa, qardaşsız qalar!”

Həmçinin, İbn Mazin رحمه الله demişdir: “Mömin adam qardaşının buraxdığı səhfə bəraət qazandırmaq üçün üzrlər axtarar, münafiq isə qardaşında səhv axtarar.”

Yenə bir rəvayətdə deyilir ki, Əbu Ducanə رضي الله عنه ölüm yatağında ikən Zeyd ibn Əsləm رضي الله عنه ona baş çəkməyə gəldi və onun üzündə təbəssüm olduğunu, sanki nur saçdığını gördü və ondan: “Nə olub, üzün gülür?”– deyə soruşduqda, Əbu Ducanə dedi: “Ömrüm boyu əməllərim arasında mənim üçün iki əziz əməlim olmuşdur: birincisi, mən heç vaxt özümə aid olmayan işlərə qarışmamışam. İkincisi isə qəlbim müsəlmanların hamısına qarşı salamat olub.”

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ أَلِّفْ بَيْنَ قُلُوبِنَا، وَأَصْلِحْ ذَاتَ بَيْنِنَا، وَاهْدِنَا سُبُلَ السَّلَامِ، وَنَجِّنَا مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ، وَجَنِّبْنَا الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ، وَبَارِكْ لَنَا فِي أَسْمَاعِنَا،

وَأَبْصَارِنَا، وَقُلُوبِنَا، وَأَزْوَاجِنَا، وَذُرِّيَّاتِنَا، وَتُبْ عَلَيْنَا إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ، وَاجْعَلْنَا شَاكِرِينَ لِنِعَمِكَ، مُثْنِينَ بِهَا عَلَيْكَ، قَابِلِينَ لَهَا، وَأَتِمَّهَا عَلَيْنَا ))

"Allahım, bizim qəlbimiz arasında ülfət yarat, aramızdakı münasibəti düzəlt, bizi əmin-amanlıq yollarına yönəlt, bizi zülmətlərdən nura çıxart və bizi, həm aşkarda, həm də gizlində olan murdar əməllərdən uzaq et! Bizim eşitməyimizə bəsirətimizə, qəlbimizə, zövcələrimizə və övladlarımıza bərəkət ver! Bizim tövbəmizi qəbul et, həqiqətən, Sən tövbələri qəbul edənsən! Bizi, daim sənin nemətlərinə şükür edən, onların vasitəsilə Sənə təriflər deyən, onlardan məmnun qalan kimsələrdən et və o nemətlərini bizim üçün artır!"[1]

---

[1] Sunən Əbu Davud, 969.

# On dördüncü hədis

عَنْ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "لَا يَحِلُّ دَمُ امْرِئٍ مُسْلِمٍ إِلَّا بِإِحْدَى ثَلَاثٍ: الثَّيِّبُ الزَّانِي، وَالنَّفْسُ بِالنَّفْسِ، وَالتَّارِكُ لِدِينِهِ الْمُفَارِقُ لِلْجَمَاعَةِ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦٨٧٨]، وَمُسْلِمٌ [رقم:١٦٧٦].

İbn Məsud ﷺ rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Müsəlmanın qanı halal deyildir. Yalnız üç qism istisnadır: zinakar evli kişi və ya dul qadın, qəsdən adam öldürən kəs və bir də dinindən dönüb camaatdan uzaqlaşan kəs."

Bu hədisi imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədisdə "Müsəlmanın qanı halal deyildir"– deyildikdə, müsəlmanı qətlə yetirməyin haram olduğu qəsd edilir.

Yadınıza gəlirsə, biz, səkkizinci hədisin şərhində qeyd etmişdik ki, Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna şəhadət gətirən, namaz qılıb zəkat verən kimsələrin canına qəsd etmək və malına təcavüz etmək haramdır. Bu hədis isə üç sinif insanın bundan istisna olduğunu bəyan edir. Haqsız olaraq adam öldürmək, küfr əhlinə xas olan xislətlərdəndir. Beləlləri bir-birinə silah çəkdiyi təqdirdə, öldürən də, öldürülən də, cəhənnəmlik olur. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "İki müsəlman qılınclarını çəkib

---

[1] Səhih əl-Buxari, 6878; Səhih Muslim, 1676.

üz-üzə gələrsə, öldürən də, öldürülən də Cəhənnəmə girər." Səhabə soruşdu: "Ya Rəsulullah! Öldürən kəs aydındır. Bəs öldürülən kimsə niyə?" Peyğəmbər ﷺ dedi: "Çünki o, müsəlman qardaşını öldürməyə həris idi."[1] Bunu təsdiq edən, "ən-Nisa" surəsinin 93-cü ayəsində belə buyurulur: "Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm *olar.* Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar."

Şərh etdiyimiz hədisdəki: "Müsəlmanın qanı halal deyil" sözü, müsəlmanın canının Allah yanında olduqca dəyərli olduğunu bildirir. Müsəlman deyildikdə, şəhadət kəlməsinin mənasını başa düşdüyü halda onu tələffüz edən və qəlbən onu qəbul edən kimsə qəsd edilir.

Sonra Peyğəmbər ﷺ üç sinif müsəlmanı istisna edir. Bu istisna, bu günahı edən müsəlmanların cəzalandırılmasının halal olmasına dəlalət edir.

Bu hədisdə Peyğəmbər ﷺ, zina etmiş evli kişinin və ya dul qadının qanının halal olmasını bildirir. Yəni şəriətə görə, zina etmiş müsəlman cəzalandırılmalıdır, daha dəqiq desək, daşqalaq edilməlidir. İmam Buxari və Muslimin nəql etdiyi hədisdə rəvayət edilir ki, Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Uca Allah Muhəmmədi ﷺ haqq ilə göndərmiş və ona kitab nazil etmişdir. Ona nazil etdiyi ayələrdən biri də, daşqalaq barədə olan ayə idi. Biz onu oxuyub, ona etiqad etmişik. Rəsulullah ﷺ zinakarı daşqalaq etmiş, biz səhabələr də həmçinin, zinakarı daşqalaq etmişik. Qor-

---

[1] Səhih əl-Buxari, 31; Səhih Muslim, 2888.

xuram ki, zaman keçsin, insanlar: "Vallahi, biz Allahın kitabında daşqalaq ayəsi görmürük"– desinlər və nəhayət, Allahın buyurduğu vacibi tərk etməklə zəlalətə düşsünlər. Halbuki, zina etmiş evli kişi və ya dul qadının daşqalaq edilməsi barədə nazil olmuş ayə haqdır."[1]

İmam Nəsainin rəvayət etdiyi hədisdə də bu ayənin ləfzi zikr edilmişdir:

(( الشَّيْخُ وَالشَّيْخَةُ إِذَا زَنَيَا فَارْجُمُوهُمَا الْبَتَّةَ نَكَالاً مِنَ اللهِ وَاللَّهُ عَزِيزٌ حَكِيمٌ ))

"Evli kişi və dul qadın zina edərsə, etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq onları daşqalaq edin! Allah qüdrətlidir, hikmət sahibidir."[2] Yəni ayə bu ləfz ilə nazil edilmiş, sonra onun ləfzi nəsx edilmiş, hökmü isə sabit qalmışdır. Hökmünün sabit qalmasına dəlil, raşidi xəlifələrin, habelə, onlardan sonra gələnlərin xilafətləri dövrlərində bu ayənin hökmünü tətbiq etmələridir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu hökmü yalnız şəriət məhkəməsi verə bilər. Yəni, bir kimsənin özbaşına qərar verib, zina etmiş bir müsəlmanı öldürməyə haqqı çatmır və şəriət bunu qətiyyətlə qadağan edir. Həm də bu hökm yalnız şəriət qanunları tətbiq edilən ölkələrdə tətbiq edilir. Ölüm hökmü olmayan ölkələrdə bunu tətbiq etmək isə şəriətə ziddir. Üstəlik, xüsusilə qeyd etmək lazımdır ki, hətta şəriət ölkəsində belə, zina etmiş evli kişini və ya dul qadını daşqalaq etmək, habelə, subay kişi və ya qadını şallaqlamaq üçün dörd şahidin şahidlik etməsi və ya zinakarın

[1] Səhih əl-Buxari, 6829-6830; Səhih Muslim, 1691.

[2] Musnəd İmam Əhməd, 4/332; Sunən əl-Kubra, 4/271.

etiraf etməsi lazımdır. Bu xüsusda nazil olmuş ən-Nur surəsinin 4-cü ayəsində belə buyurulur: "İsmətli qadınları *zinada* günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqlərdir." Həmçinin, imam Buxarinin rəvayət etdiyi hədisdə xəbər verilir ki, müsəlmanlardan birinin qadını zina etmiş və əri bu haqda Peyğəmbərə ﷺ xəbər verdikdə, o, öz səhabəsi Ənəsə رضي الله عنه belə buyurmuşdur: "Ey Uneys, get o qadının yanına. Əgər o, zina etdiyini boynuna alsa, onu daşqalaq et!" Bundan sonra Ənəs qadının yanına getmiş, qadın zina etdiyini boynuna almış və onu Peyğəmbərin ﷺ əmri ilə daşqalaq etmişlər."[1] Bu hədisdə diqqət çəkən məqam budur ki, o kişi, zina etmiş qadını barədə özbaşına hökm vermədi, əmirə müraciət etdi. Deməli bu işdə əmirə və ya qazılar şurasına müraciət etmək vacibdir.

Yeri gəlmişkən qeyd edək ki, zina, cəmiyyəti korlayan ən böyük günahlardandır. Və əgər bu murdar əməl mübarək bir zamanda məsələn: ramazan ayında, yaxud mübarək yerdə, məsələn: məsciddə və s. edilərsə, o zaman bu murdar əməlin şəri və günahı bir qədər də artar. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Kişinin on qadınla zina etməsi, onun üçün günah baxımından, qonşusunun qadını ilə zina etməsindən daha yüngüldür. Həmçinin, kişinin on evdən oğurluq etməsi, onun üçün günah baxımından qonşusunun evindən oğurluq etməsindən daha yüngüldür."[2] Digər bir hədisdə də rəvayət edilir ki, Abdullah ibn

[1] Səhih əl-Buxari, 2724-2725.

[2] Musnəd İmam Əhməd, 6/8; əl-Ədəbul-Mufrad, 103.

Məsud ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərdən ﷺ soruşdum: "Hansı günah Allah yanında ən böyük günah sayılır?" O, buyurdu: "Səni yaradan Allaha *başqa birisini* tay tutmaq!" Mən: "Doğrudan da, bu böyük günahdır"– dedim, sonra *yenə* soruşdum: "Bəs sonra hansıdır?" O, dedi: "Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub onu öldürmək!" Mən soruşdum: "Sonra hansıdır?" O, dedi: "Qonşunun zövcəsi ilə zina etmək!"[1]

Bu hədisdə Peyğəmbər ﷺ qonşunun arvadı ilə zina etməyin və ya qonşudan oğurluq etməyin, başqa cür desək, qonşunun namusuna və malına toxunmağın nə dərəcədə ağır günah olduğunu bildirir. Başqa bir hədisdə Peyğəmbər ﷺ bu günahların müsəlmana haram buyrulduğunu xəbər verib demişdir: "Sizin qanınız, malınız və namusunuz, bu ayınızda və bu şəhərinizdə, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır."[2] Demək, əgər müsəlmanın namusuna toxunmaq və malını oğurlamaq günah sayılırsa, bu günahla yanaşı, həm də bunu qonşuya etmək – yəni qonşunun haqqına girmək, ona əziyyət vermək daha böyük günah hesab edilir. Bu xüsusda İbn Qeyyim ﷺ demişdir: "Ümumiyyətlə, murdar əməllər fəsad baxımından müxtəlif dərəcələrə bölünür. Aşna saxlamağın şəri, əlbəttə ki, zina etməyin şərindən daha azdır. Habelə, etidyi murdar əməli gizlədənin günahı, onu elan edənin günahından azdır. Həmçinin, əri olmayan qadınla zina etməyin günahı ərli qadınla zina etməkdən daha yüngüldür. Çünki evli qadınla zina etdikdə onun ərinə zülm etmiş və onun ailəsin-

[1] Səhih əl-Buxari, 4477.

[2] Səhih əl-Buxari, 67.

də fəsad törətmiş olur. Bunun isə günahı adi zinanın günahından daha böyükdür. Habelə, qonşunun həyat yoldaşı ilə zina etməyin günahı yad yerdəki qadınla zina etməyin günahından daha böyükdür. Çünki bu əməldə, qonşuya əziyyət vermək, üstəlik Allahın və Onun rəsulunun ﷺ qonşu haqları xüsusundakı əmrinə qarşı asilik vardır."[1]

Odur ki, Uca Allah nəinki bu murdar əməli etməyi, hətta ona yaxınlaşmağı belə qadağan edir. "əl-İsra" surəsinin 32-ci ayəsində belə buyurulur: "Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!" Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Allah zinadan Adəm övladının payına düşəni əzəldən yazmışdır və o, istər-istəməz buna mübtəla olacaqdır. Gözün zinası – baxmaq, qulaqların zinası – qulaq asmaq, dilin zinası – danışmaq, əlin zinası – toxunmaq, ayağın zinası – addım atmaqdır. Qəlb istəyir və təmənna edir, cinsiyyət üzvü isə ya bütün bunları təsdiqləyir, ya da təkzib edir."[2] Hədisdən aydın olur ki, şəhvətlə naməhrəm qadına baxmaq, onun səsini dinləmək, onunla danışmaq, ona toxunmaq, buna doğru addım atmaq zinaya açılan qapılardır. Ağıllı adam bu qapıları açmamalıdır.

İbn Qeyyim رحمه الله bu mövzuya dair gözəl açıqlama vermişdir. O demişdir: "Hər kim özünü dörd qapıdan qoruyarsa, dinini qorumuş olar. Bunlar: baxışlar, xatırlamalar, sözlər və addımlardır. Adam əksər hallarda məhz bu qapılardan günah işlərə qədəm qoyur. Baxışlara gəlincə, bu, şəhvətin yol göstəricisi və onun elçisi-

---

[1] İğasətul-Ləhfan, 2/143-144.

[2] Səhih əl-Buxari, 6243; Səhih Muslim, 2567.

dir. Onu qorumaq cinsiyyət üzvünü *zinadan* qorumaq deməkdir. Hər kim naməhrəmə nəzər salarsa, özünü həlaka uğratmış olar... Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Birinci baxışdan sonra bir də baxma. Çünki birincisi sənindir, ikincisi isə sənə məxsus deyil."[1] Yəni qarşına çıxan naməhrəmi gördükdə, birinci baxış ixtiyarsız olduğundan sənə günah qazandırmır, ikincisi isə ixtiyari olduğuna görə artıq günah sayılır. Xatırlamaya gəlincə, bu, daha qəlizdir. Belə ki, o, xeyirin və şərin başlanğıcıdır. İstəklər, arzular və məqsədlər məhz ondan başlayır. Sözlərə gəlincə, bunları qorumaq üçün boş sözlər danışmağa yol verilməməlidir. Əksinə, adam yalnız dinində ona fayda verəcək sözləri danışmalıdır. Addımlara gəldikdə isə, onu qorumaq üçün adamın yalnız ona savab qazandıracaq yerlərə getməsi lazımdır. Möminlərin danışdıqları sözlər və atdıqları addımlar xüsusunda doğru yol tutduqları, "əl-Furqan" surəsinin 63-cü ayəsində belə vəsf edilir: "Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara *xoşagəlməz* bir söz dedikdə: "Salam!"- deyərlər." Həmçinin, baxışlar və xatırlamalar xüsusunda, "Ğafir" sursənin, 19-cu ayəsində belə buyurulur: "*Allah,* gözlərin xaincəsinə baxışını və köksların *nələr* gizlətdiyini bilir." Bütün bunlardan aydın olur ki, naməhrəmə baxmaq adamın xatirində qalır; sonra bu haram xatirat güclənir və haram sayılan şəhvətə çevrilir; bu şəhvət getdikcə o qədər artır ki, axırda adam zina edəcəyinə qərar verir, sonra da buna doğru addımlamağa başlayır və nəhayət gedib özünü günaha batırır. Bütün bunlar "əl-Bə-

[1] Sunən Əbu Davud, 2149; Səhih əl-Cami, 7953.

qərə" surəsində, şeytanın addımları adlanır. 168-ci və 169-cu ayələrdə belə buyurulur: "Ey insanlar! Yer üzündə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. O, sizə pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir."[1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, zina, Cənnətə daxil olmağa mane olan əsas amillərdəndir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Altı şeyi yerinə yetirəcəyinizə dair mənə zəmanət verin, Cənnətə girəcəyinizə dair sizə zəmanət verim: danışdığınız zaman düz danışın, vəd verdikdə onu yerinə yetirin, sizə əmanət verilərsə, onu yiyəsinə qaytarın, ayıb yerlərinizi *zinadan* qoruyun, gözünüzü *haram buyurulanlardan* çəkin və bir də əlinizlə heç kəsə əziyyət verməyin."[2]

Şərh etdiyimiz hədisdə zikr edilmiş ikinci sinif cinayətkarlar isə bilərəkdən başqasının canına qəsd edən kimsələrdir. Peyğəmbərin ﷺ bu sözü Quranda da öz təsdiqini tapmışdır. "əl-Maidə" surəsinin 45-ci ayəsində belə buyurulur: "Biz *kitabda* onlara yazıb buyurduq ki, cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş, yaralara *da misli ilə* qisas alınmalıdır." Həmçinin, "əl-Bəqərə" surəsinin 178-ci ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Öldürülənlərə görə qisas almaq sizə vacib edildi."

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu hökm yalnız qəsdən adam öldürənə aiddir. Bilmədən cana qəsd edən kimsə isə sadəcə

---

[1] əl-Cəvab əl-Kafi, 1/348-375.

[2] Musnəd İmam Əhməd, 5/323; Səhih İbn Hibban, 107; Silsilətul-Əhadisis-Səhihə, 1470-ci hədis.

fidyə ödəməlidir. Bu xüsusda "ən-Nisa" surəsinin 92-ci ayəsində belə buyurulur: "Heç bir möminin *başqa* bir mömini öldürməyə haqqı yoxdur. Bunun səhvən baş verməsi isə müstəsnadır. Kim səhvən bir mömini öldürərsə, onda mömin bir kölə azad etməli və ölənin ailəsinə qanbahası verməlidir."

Şərh etdiyimiz hədisdə zikr edilmiş üçüncü sinif isə, dinini tərk etmiş mürtədlərdir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Dinini dəyişən kimsəni öldürün!"[1] Bunun da hökmü əvvəlki sinfin hökmü kimidir. Yəni beləsinin edam edilməsi barədə hökmü yalnız şəriət məhkəməsi verə bilər. Kimsənin özbaşına qərar verib, mürtəd olmuş bir kimsəni öldürməyə haqqı çatmır və şəriət bunu qətiyyətlə qadağan edir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu hədisdə "din" deyildikdə, İslam dini qəsd edilir. Camaat deyildikdə isə haqq yolda olan camaatdan uzaq olub onların xəlifəsinə qarşı çıxmaq qəsd edilir. İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Siz özünüzə xəlifə seçdikdən sonra hər kim gəlib sizin birliyinizi və camaatınızı parçalamaq istəsə, onu öldürün."[2] Həmçinin, xəvariclər barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcəklər. Onlar ən xeyirli sözləri danışacaqlar, lakin ox ovunu dəlib keçdiyi kimi islamdan çıxacaqlar. Onların imanı xirtdəklərindən o yana keçməyəcək. Odur ki, onları harada görsəniz, öldürün! Şübhəsiz ki, onları öldürən kimsələrə Qiyamət günü bu-

---

[1] Səhih əl-Buxari, 3017.

[2] Səhih əl-Buxari, 6829-6830; Səhih Muslim, 1691.

nun müqabilində mükafat veriləcək.”[1] Bundan aydın başa düşülür ki, rəhbərə qarşı üsyan edən kəsləri qətlə yetirmək icazəlidir. Lakin qeyd etmək lazımdır ki, bu hökmü yalnız rəhbərlik verə bilər. Yeri gəlmişkən qeyd edək ki, xavaric, ərəbcə xarəcə ( خَرَجَ ) felindən əmələ gəlmiş xarici sözünün cəmidir. Xarəcə: xaric olmaq, xarici isə xaric olan deməkdir. “Xarici” deyildikdə, müsəlman camaatından ayrılıb, özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, böyük günah sahibini kafir sayan firqə nəzərdə tutulur. Bu firqə – müsəlmanlar arasında meydana gəlmiş ilk firqələrdəndir. Xəvariclərı tanımaq istəyən kəs onların zahiri əlamətlərindən xəbərdar olmalıdır. Bunları bilən adam özünü onların şərindən qoruya bilər. Onları vəsf edən hədislərə baxsaq bizə aydın olar ki, onlar yersiz sərtlik nümayiş etdirən, özlərindən başqa heç kəsi bəyənməyən, üstəlik, müsəlman rəhbərlərdən narazı olan və camaatı onlara qarşı üsyan etməyə çağıran, habelə, böyük alimləri saymayan, onlara istehza edən və onları saray alimləri adlandıran kimsələrdir.

Bu hədisdə olan bir incə məsələyə diqqət etmək lazımdır. Hədisdə “dinindən dönüb camaatdan uzaqlaşan kəs” deyilir. Bu o demək deyil ki, qəlbən dinindən dönüb camaatdan uzaqlaşmayan kəs mürtəd sayılmır. Əlbəttə ki, hər bir münafiq, camaat arasında olub özünü müsəlman kimi göstərsə belə, Allah yanında o, mürtəd sayılır, sadəcə olaraq bu dünyada onun zahirinə hökm verilir.

---

[1] Səhih əl-Buxari, 3611.

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ فِتْنَةِ النَّارِ وَعَذَابِ النَّارِ وَفِتْنَةِ الْقَبْرِ وَعَذَابِ الْقَبْرِ وَشَرِّ فِتْنَةِ الْغِنَى وَشَرِّ فِتْنَةِ الْفَقْرِ اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ شَرِّ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ اللَّهُمَّ اغْسِلْ قُلُوبَنَا بِمَاءِ الثَّلْجِ وَالْبَرَدِ وَنَقِّ قُلُوبَنَا مِنَ الْخَطَايَا كَمَا نَقَّيْتَ الثَّوْبَ الأَبْيَضَ مِنْ الدَّنَسِ وَبَاعِدْ بَيْنَنَا وَبَيْنَ خَطَايَانَا كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ الْكَسَلِ وَالْمَأْثَمِ وَالْمَغْرَمِ ))

“Allahım, Cəhənnəm fitnəsindən, Cəhənnəm əzabından, qəbir fitnəsindən, qəbir əzabından, var-dövlət fitnəsinin şərindən və yoxsulluğun fitnəsinin şərindən Sənə sığınırıq. Allahım, Məsihid-dəccalın fitnəsinin şərindən Sənə sığınırıq. Allahım, bizim qəlbimizi qar və dolu suyu ilə yu, ağ paltarı kirdən təmizlədiyin kimi qəlbimizi də günahlardan təmizlə, məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi bizi də günahlarımızdan uzaqlaşdır. Allahım, tənbəllikdən, günahdan və borcdan Sənə sığınırıq.”[1]

---

[1] Səhih əl-Buxari, 6377.

## On beşinci hədis

عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ صلى الله عليه وسلم قَالَ: "مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ جَارَهُ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦٠١٨]، وَمُسْلِمٌ [رقم:٤٧].

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun. Kim Allaha və Axirət gününə inanırsa, qonşusuna yaxşılıq etsin. Kim Allaha və Axirət gününə inanırsa, qonağına yaxşı baxsın."

Bu hədisi imam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədisdə Peyğəmbərin ﷺ hər nəsihətinin əvvəlində "Kim Allaha və Axirət gününə inanırsa" deməsi, əməlin qəlbə bağlı olmasına dəlalət edir. Yəni səmimi-qəlbdən Allaha və Axirət gününə iman gətirən adamın qəlbi həqiqi mənada islah olur və xeyirxah işlər görməyə can atır. Beləsi daim düşünür ki, Haqq-hesab günü Allahın hüzurunda durub dediyi hər sözə və etdiyi hər bir əmələ görə cavab verəcək, yaxşılığın əvəzinə savab, pisliyin əvəzinə də cəza alacaq.

---

[1] Səhih əl-Buxari, 6018; Səhih Muslim, 47.

Peyğəmbərin ﷺ: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" deməsi dəlildir ki, mömin adam üçün xeyirli söz danışmaq, susmaqdan daha xeyirlidir. Demək, mömin adam daim xeyirli söz danışmalı, əks təqdirdə isə susmalıdır. Bu xüsusda "ən-Nisa" surəsinin 114-cü ayəsində belə buyurulur: "Onların gizli söhbətinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin *söhbəti isə istisnadır*."

İmam Şafii رحمه الله bu hədisi şərh edərkən demişdir: "Adam danışmamışdan əvvəl fikirləşməlidir. Əgər o, danışacağı sözün ona zərər verməyəcəyini təxmin etsə, qoy o sözü danışsın, yox, əgər onun zərər verəcəyini güman etsə, onda qoy sussun."

Hədisdə "susmaq" deyildikdə, dili yaramaz sözlərdən qorumaq qəsd edilir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Kim sussa, nicat tapar."[1] Başqa bir hədisdə o demişdir: "Kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm."[2] Yenə bir hədisdə rəvayət edilir ki, Muaz ibn Cəbəl رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ dilini göstərib mənə belə buyurdu: "Bunu qoru!" Mən dedim: "Ey Allahın peyğəmbəri, məgər insanlar danışdıqları sözlərə görə cəzalandırılacaqlar?" Peyğəmbər ﷺ buyurdu: "Vay sənin halına, ey Muaz! Məgər insanlar məhz danışdıqları sözlərə görə üzüstə Cəhənnəmə sürüklənməyəcəklərmi?"[3]

---

[1] Sunən ət-Tirmizi, 2/82; Musnəd İmam Əhməd, 2/159, 177; Silsilətul-Əhadisis-Səhihə, 536-cı hədis.

[2] Səhih əl-Buxari, 6474.

[3] Sunən ət-Tirmizi, 2616.

Dilin başa bəla olması barədə 12-ci hədisin şərhində daha ətraflı danışmışıq. Həqiqətən də, insanın dili digər əzalarının əziyyət çəkməsinə səbəb olur. İmam Tirmizinin Sunən əsərində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər səhər Adəm övladı yuxudan oyandığı zaman onun bütün əzaları dili qınayıb deyir: "Bizə olan münasibətində Allahdan qorx! Çünki biz səndən asılıyıq. Sən düz olsan, biz də düzələrik, yox, əgər büdrəsən, biz də büdrəyərik."[1]

Şərh etdiyimiz hədisdə "qonşusuna yaxşılıq etsin" deyilir. İmam Muslimin digər rəvayətində: "qonşusuna əziyyət verməsin"[2] deyilir. Bu iki rəvayətdən aydın olur ki, qonşu haqqına ümumən iki şey aiddir: qonşuya yaxşılıq etmək və ona əziyyət verməmək. Bu da, bütün yaxşılıqları və pislikləri özündə cəm edir.

Qonşu haqlarına dair neçə-neçə hədislər varid olub. Həmin hədislərdən birində Peyğəmbər ﷺ demişdir: "Cəbrail ﷺ qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, hətta qonşuya mirasdan pay düşəcəyini güman etdim."[3] Cəbrailin عليه السلام vaxtaşırı Peyğəmbərə ﷺ qonşuya yaxşılıq etmək barədə tövsiyə etməsi Cəbrailin عليه السلام bu hökmü qanuniləşdirməsi demək deyil. O, sadəcə vəhyi nazil edən mələkdir. Belə ki, şəriətdə nəyi etmək və nəyi etməmək barədə qərarı, yalnız Müdrik Allah verir. Cəbrailin عليه السلام, bu tövsiyəni Peyğəmbərə ﷺ təkrar-təkrar xatırlatması qonşu haqqının nə dərəcədə vacib olduğundan xəbər verir. Yenə bir hədisdə

---

[1] Sunən ət-Tirmizi, 2407; Səhih əl-Cami, 351

[2] Səhih Muslim, 174.

[3] Səhih əl-Buxari, 6014; Səhih Muslim, 6854.

rəvayət edilir ki, Peyğəmbər ﷺ: "Vallahi, mömin deyil, vallahi, mömin deyil, vallahi, mömin deyil!– demiş, nəhayət, səhabələr: "Kim, ya Rəsulullah?"– deyə soruşduqda, o belə buyurmuşdur: "Qonşusu, şərindən əmin olmayan kəs!"[1] digər rəvayətdə də o demişdir: "Qonşusu, şərindən əmin olmadığı kimsə Cənnətə girməz."[2]

İmam Nəvəvi demişdir: "Hədisdə keçən "Cənnətə girməz" sözü iki cür izah edilə bilər:

– birincisi budur ki, bu, qonşuya əziyyət verməyin haram olduğunu bilə-bilə bu yaramaz əməli halal sayan kimsəyə aiddir. Allahın və Onun peyğəmbərinin ﷺ haram buyurduğunu halal sayan adam isə kafir sayılır və beləsi Cənnətə əsla girməyəcək.

– ikincisi də budur ki, o, Cənnətin qapıları açıldığı zaman oraya ilk əvvəl daxil olacaq kimsələrlə birgə daxil olmayacaq, əksinə, bir müddət məhşərdə saxlanılacaq. Bundan sonra o, ya cəzalandırılacaq, ya da Allah ona rəhm edəcək və beləliklə də o, Cənnətə daxil olacaq."

Həqiqətən də, qonşuya əziyyət verən kəs böyük günah qazanır. Bu xüsusda ayrıca bir hədisdə rəvayət edilir ki, səhabələr Peyğəmbərə ﷺ dedilər: "Ya Rəsulullah, filan qadın gecəni namaz qılır, gündüzlər oruc tutur, yaxşı işlər görür, sədəqə paylayır, lakin qonşularına dili ilə əziyyət verir." Rəsulullah ﷺ buyurdu: "O qadında xeyir yoxdur. O, Cəhənnəm əhlindəndir." Onlar dedilər: "Filan qadın isə yalnız vacib namazları qılır, yağsız pendirdən sə-

---

[1] Səhih əl-Buxari, 6016.

[2] Səhih Muslim, 73.

dəqə verir, heç kəsə də əziyyət vermir." Peyğəmbər ﷺ buyurdu: "O, Cənnət əhlindəndir."[1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, qonşuluq haqqı nəinki müsəlmana, hətta qeyri-müsəlmana da aiddir. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Mucahid demişdir: "Mən Abdullah ibn Amrın رضي الله عنه yanında ikən onun xidmətçisi qurban kəsilmiş qoçun dərisini soyurdu. Abdullah dedi: "Ay uşaq, qoçu soyub qurtardıqdan sonra ətdən ilk əvvəl yəhudi qonşumuza verərsən?" Camaatın arasından bir nəfər dedi: "Yəhudiyə?! Allah səni islah eləsin!" Abdullah dedi: "Peyğəmbər ﷺ qonşu haqqında bizə o qədər tövsiyə etdi ki, güman etdik ki, ona mirasdan pay düşəcək."[2]

İslam alimləri qonşuların üç qismə bölündüyünü və hər birinin özünəməxsus haqları olduğunu demişlər: birincisi, həm müsəlman, həm də qohum olan qonşudur ki, qonşusu üzərində onun üç haqqı vardır: qohumluq haqqı, islam haqqı və bir də qonşuluq haqqı; ikincisi, qohum olmayan müsəlman qonşudur ki, qonşusu üzərində onun iki haqqı vardır: islam haqqı və bir də qonşuluq haqqı; üçüncüsü isə qohum olmayan kafir qonşudur ki, qonşusu üzərində onun bircə haqqı vardır: bu da qonşuluq haqqıdır. Uca Allah qeyri-müsəlmanlarla da ədalətlə davranmağı buyurur. "əl-Mumtəhənə" surəsinin 8-ci ayəsində belə buyurulur: "Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çı-

---

[1] Musnəd İmam Əhməd, 2/440; Səhih İbn Hibban, 2054, əl-Ədəbul-Mufrad, 119.

[2] Şoəbul-İman, Beyhəqi, 9117; əl-Ədəbul-Mufrad, 128.

xartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir.”

Qazı İyad ﷺ demişdir: “İslam ayinlərini yerinə yetirən hər kəs qonşusuna və qonağına yaxşılıq etməlidir. Qonşunun haqlarını ödəmək və bu hüquqları qorumaq müsəlmanın borcudur. Bu xüsusda “ən-Nisa” surəsinin 36-cı ayəsində belə buyurulur: “Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir.”

Şərh etdiyimiz hədisdə “Kim Allaha və Axirət gününə inanırsa, qonağına yaxşı baxsın”– deyilir. İmam Buxari və Muslimin digər rəvayətində xəbər verilir ki, Peyğəmbər ﷺ: “Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağının bəxşişini versin”– demiş, səhabəsi ondan: “Ya Rəsulullah! Qonağın bəxşişi nədir?”– deyə soruşduqda, o belə buyurmuşdur: “Bir gecə və bir gündüz. Qonaq saxlamağın müddəti üç gündür. Sonrakı günlər isə sədəqədir.”[1] Bu hədisdən aydın olur ki, evə qonaq gəlmiş adamı bir gün və bir gecə qonaq saxlamaq vacib, bundan çox saxlamaq isə müstəhəbdir. Qonağı üç gündən artıq saxlamaq isə ev yiyəsi üçün sədəqə sayılır. Qonaqpərvər olmaq İslam ədəb-ərkanına, peyğəmbərlərin və əməlisaleh insanların əxlaqına aid olan əməllərdəndir. Mömin adam evinə gəlmiş qonağa diqqət yetirməli, ona ehtiram

[1] Səhih əl-Buxari, 9019; Səhih Muslim, 4610.

göstərməli və bu əsnada onun xətrinə dəyəcək nalayiq sözlərdən və hərəkətlərdən uzaq olmalıdır. Qeyd etmək lazımdır ki, adam evinə gəlmiş qonağına yalnız öz imkanı daxilində ehtiram göstərməlidir. Belə etməlidir ki, həm özünə ziyan dəyməsin, həm də qonaq sıxılmasın. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Heç kəs imkanı çatmadığı bir şeylə qonağına ehtiram göstərməyi öz öhdəsinə götürməsin."[1] Həmçinin, qonaq da həyasızlıq edib, ev yiyəsini daşıya bilməyəcəyi yüklə yükləməməlidir. Rəvayət edilir ki, Şəqiq رحمه الله demişdir: "Bir dəfə mən dostumla birgə Salman əl-Farisinin evinə getdim. Salman süfrəyə çörək və duz qoyub dedi: "Əgər Peyğəmbər ﷺ gücümüz yetməyən bir işi öhdəmizə götürməyi bizə qadağan etmiş olmasaydı, mən sizə daha çox ehtiram göstərərdim." Dostum da ona: "Duzun içində kəkotu da olsaydı, yaxşı olardı"– dedi. Elə buna görə də Salman öz camını baqqala göndərdi ki, onu girov qoyub əvəzində kəkotu götürə bilsin. Salman kəkotunu gətirib duza qatdı. Biz yeməyimizi yedikdən sonra dostum dedi: "Bizə bəxş etdiyi ruzi ilə bizi razı salan Allaha həmd olsun!" Onda, Salman dedi: "Əgər sənə verilmiş ruziyə qane olsaydın, mənim camım baqqalın yanında girov qalmazdı."[2]

Qonağa ehtiram göstərmək peyğəmbərlərin və onlardan sonra haqq yolu tutub gedən möminlərin əxlaqındandır. İbrahimin عليه السلام qonaqpərvərliyi barədə "əz-Zariyat" surəsinin 24-cü ayəsindən 27-ci ayəsinədək belə buyurulur: "İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub:

[1] Silsilətul-Əhadisis-Səhihə, 2440-cı hədis.

[2] Mustədrəkul-Hakim, 4/123; Silsilətul-Əhadisis-Səhihə, 2392-ci hədis.

"*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!"– dedi. O, təşviş içində ailəsinin yanına getdi və kök bir buzov *qızardıb* gətirdi. Onu qabaqlarına qoyub: "Yemək yeməyəcəksinizmi?"– dedi." Ayədən aydın görünür ki, İbrahim ﷺ öz qonaqlarına - yəni möhtərəm mələklərə həm sözlə, həm də öz əməli ilə ehtiram göstərmişdir. Yəni onlara salam vermiş, sonra da gedib onlara yemək gətirməklə özü onların xidmətində durmuşdur. Həmçinin, Yusuf ﷺ barədə "Yusuf" surəsinin 59-cu ayəsində belə buyurulur: "*Yusuf* qardaşlarının ərzaq yüklərini hazırlayarkən dedi: "Atabir qardaşınızı yanıma gətirin! Məgər görmürsünüzmü ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?" Həmçinin, Peyğəmbərimiz Muhəmməd ﷺ nəinki islamda, hətta islamdan qabaq belə qonaqpərvər insan olmuşdur. O, mağarada başına gələnləri zövcəsi Xədicəyə رضي الله عنها xəbər verdiyi zaman zövcəsi ona demişdir: "Vallahi ki, Allah səni heç vaxt rüsvay etməz. Çünki sən qohumluq əlaqələrini möhkəm saxlayır, zəiflərin yükünü daşıyır, yoxsula pay verir, qonağa ehtiram göstərir və haqq yolunda insanlara yardım edirsən."[1]

Həmçinin, rəvayət edilir ki, Ləqit ibn Səbirə رضي الله عنه demişdir: "Mən Muntəfiq qəbiləsinin nümayəndələri ilə birgə Rəsulullahın ﷺ yanına getdim. Biz Rəsulullahın ﷺ evinə gəldikdə onu evdə tapmadıq və bizi möminlərin anası Aişə رضي الله عنها qarşıladı. O, *xidmətçilərə* bizə yemək hazırlamağı buyurdu. Sonra bizə bir qab xurma gətirdilər. Çox keçmədən Rəsulullah ﷺ gəldi və *bizdən*: "Sizə ye-

---

[1] Səhih əl-Buxari, 3.

mək verdilərmi?"– deyə soruşdu. Biz: "Bəli, ya Rəsulullah!"– deyə cavab verdik. Elə bu vaxt çoban Rəsulullahın ﷺ qoyunlarını tövləyə gətirdi. Onların arasında bir quzu mələyirdi. Rəsulullah ﷺ çobandan soruşdu: "Nə gətirmisən, ey filankəs?" O, dedi: "Dişi quzu balası." Onda Rəsulullah ﷺ buyurdu: "Elə isə bizim üçün bu quzunun yerinə bir qoyun kəs. Sonra Peyğəmbər ﷺ *mənə* dedi: "Elə güman etmə ki, bunu sənə görə kəsirik. Bizim yüz qoyunumuz var və biz istəmirik ki, onların sayı artsın. Elə ki çoban bir quzu gətirir, biz onun əvəzinə bir qoç kəsirik..."[1] Rəsulullahın ﷺ qoyunlarının sayı artan kimi o, hər quzunun yerinə bir qoyun kəsərdi ki, qoyunların sayı yüzdən artıq olmasın. Yəni belə etmək onun adəti idi. Burada da bu artım Ləqit ibn Səbirənin gəlişi ilə üst-üstə düşür. Üstəlik, möminlərin anası qonaqlara kifayət qədər xurma və yemək vermişdi. Rəsulullah ﷺ Ləqitə bunu deməklə bildirmək istəyir ki, bu qoyunu onların gəlişinə görə yox, sadəcə öz adətinə görə kəsdirir. Hərçənd, o, bu qoyunun ətindən qonaqlara da yemək verir, lakin bunu deyir ki, qonaqlar özlərini rahat hiss etsinlər, onlara görə qoyun kəsildiyini düşünüb sıxılmasınlar. Hədisə diqqət yetirsək, Rəsulullahın ﷺ necə böyük əxlaq sahibi olduğunu açıq-aydın görə bilərik. O, həm qonaqlar üçün qoyun kəsdirir, həm də elə edir ki, onlar özlərini onun evində rahat hiss etsinlər – səllallahu aleyhi və alə alihi və səlləm!

Həmçinin, onun iki əziz dostu da, qonaqpərvər olmuşlar. Əbu Bəkr رضي الله عنه Məkkə müşriklərinin təzyiqlərindən cana gəlib, öz yurdundan çıxıb getmək istədiyi zaman İbn Dəğinə onu öz himayəsi

[1] Sunən Əbu Davud, 142.

altına almış və qureyşlilərin zadəganlarına belə demişdir: "Əbu Bəkr kimi bir adam nə öz şəhərini tərk etməli, nə də buradan qovulmalıdır! Yoxsa, siz imkansızlara yardım göstərən, qohumları ilə əlaqə saxlayan, zəiflərə ağır yüklərini daşımaqda kömək edən, insanlara qonaqpərvərlik göstərən və onlara taleyin müsibətlərindən çıxmağa kömək edən bir insanımı qovursunuz?!"[1] Həmçinin, rəvayət edilir ki, bir zaman Ömər ibn əl-Xattab رضي الله عنه Əbu Hureyraya رضي الله عنه belə demişdir: "Vallahi, səni evimə dəvət edib, yemək-içməyə qonaq etməyim, mənim üçün qırmızı dəvələrdən daha sevimlidir."[2]

Həmçinin, rəvayət edilir ki, Əli ibn Əbu Talibin رضي الله عنه evinə qonaq gəldikdə, onların gəlişinə sevinər, qonağının xidmətində durar, evinə qonaq gəlmədikdə isə kədərlənərdi. Rəvayət edilir ki, bir gün Əli ibn Əbu Talib رضي الله عنه cəmi yeddi gün evinə qonaq gəlmədiyini görür və ah çəkib deyir: "Bir həftədir ki, evimə qonaq gəlmir, qorxuram, Allah məni bu xeyirxah işi görməkdən uzaq tutsun!"

Cəfər ibn Əbu Talibi رضي الله عنه da nümunə göstərmək olar. Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Biz Cəfəri, Əbul-Məsakin çağırardıq! O, bizləri – Suffə-əhlini tez-tez evinə dəvət edər və bizə yemək-içmək verərdi. Hətta, evində yeməyə bir şey tapmadıqda, dibində azacıq bal qalmış saxsı qabı bizə gətirər və biz də barmağımızla onun dibini sivirib yalayardıq."

---

[1] Səhih əl-Buxari, 3906.

[2] Səhih əl-Buxari, 5375.

Qardaşlar, bu rəvayətdəki xatırlanan ləqəbə bir baxın: Əbul-Məsakin – yəni miskinlər atası. Deməli, bu səhabə Suffə-əhlinə ata qədər əziz olmuşdur.

Sonuncu bir misal da çəkək bununla kifayətlənək.

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına qonaq gəldi. Peyğəmbər ﷺ səhabələrindən birini yemək-içmək gətirmək üçün zövcələrinin yanına göndərdi. Peyğəmbərin ﷺ zövcələri evdə sudan başqa heç nə olmadığını ona xəbər verdilər. Onda o, səhabələrinə müraciət edib dedi: "Kim mənim qonağımı evində qonaq saxlayar?" Ənsardan olan bir nəfər: "Mən!"– deyib, onu evinə apardı və zövcəsinə: "Rəsulullahın ﷺ qonağına layiqincə hörmət et!"– deyə buyurdu. Zövcəsi ona: "Uşaqlarımın yeməyindən başqa yemək yoxdur!"– deyə cavab verdi. Səhabə dedi: "Yeməyi hazırla, çırağı yandır, uşaqlar yemək istəsələr, onları yatızdır!" Zövcəsi yeməyi hazırladı, çırağı yandırdı və uşaqlarını yatızdırdı. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü. Sonra hər ikisi əllərini qaba uzadaraq özlərini guya yemək yeyirlərmiş kimi qonağa göstərdilər və o gecə onlar ac yatdılar. Səhər açıldıqda hər iki səhabə Peyğəmbərin ﷺ yanına getdi. Peyğəmbər ﷺ onlara: "Allah sizin dünənki əməlinizə güldü!"– dedi və "əl-Həşr" surəsinin 9-cu ayəsi nazil oldu: "*Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta

özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır."[1]

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الثَّبَاتَ فِي الْأَمْرِ، وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَنَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَنَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ، وَحُسْنَ عِبَادَتِكَ، وَنَسْأَلُكَ قَلْباً سَلِيماً، وَلِسَاناً صَادِقاً، وَنَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَنَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلاَّمُ الْغُيُوبِ ))

"Allahım, Səndən dində sabit qalmağımızı və doğruluğa can atmağımızı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyimizi, Sənin nemətlərinə şükür etməyimizi və Sənə gözəl şəkildə ibadət etməyimizi, habelə, salamat qəlb və düzdanışan dil diləyirik. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarımıza görə Səndən bağışlanma diləyirik. Heç şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən."[2]

---

[1] Səhih əl-Buxari, 3898.

[2] Musnəd İmam Əhməd, 4/125; Sunən ət-Tirmizi, 3407.

# On altıncı hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﵁ أَنْ رَجُلًا قَالَ لِلنَّبِيِّ ﷺ أَوْصِنِي. قَالَ: لَا تَغْضَبْ، فَرَدَّدَ مِرَارًا، قَالَ: لَا تَغْضَبْ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦١١٦].

Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: “Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Mənə nəsihət et!” Peyğəmbər ﷺ buyurdu: “Qəzəblənmə!” Adam bunu bir neçə dəfə təkrar etdi. Peyğəmbər ﷺ ona *yenə*: “Qəzəblənmə!”– deyə buyurdu.”

Bu hədisi İmam Buxari öz “Səhih”ində rəvayət etmişdir.[1]

İbn Həcər ﵀ bu hədisi izah edərkən demişdir: “Hədisdə “qəzəblənmə” deyildikdə, qəzəblənməyə səbəb olan əməllərdən çəkinmək və qəzəb oyadan amillərdən uzaq durmaq qəsd edilir. Qaldı ki, qəzəbin özünə, şəriət onu qadağan etmir, çünki qəzəblənmək, insan təbiətinə xas olan xislətlərdəndir.” İbn ət-Tin demişdir: “Peyğəmbərin ﷺ: “Qəzəblənmə!” sözü, həm dünyada, həm də axirətdə olan xeyirlərin hamısını cəm edir. Belə ki, qəzəb adamın başqaları ilə olan münasibətini korlayır və onu mülayim olmaqdan məhrum edir. Bəzən də onu qəzəbləndiyi adama əziyyət verməyə təhrik edir və bununla da öz müsəlmançılığına xələl gətirir.”[2]

Adam qəzəbləndikdə özünü idarə edə bilmir, çox vaxt dili topuq vurur, əlləri və ayaqları əsir, gözləri az qalır hədəqəsindən

---

[1] Səhih əl-Buxari, 6116.

[2] Fəth əl-Bari, 10/520.

çıxsın və başqa bu kimi artıq hərəkətlərə yol verir, sonra da elədiyinə peşman olur. Bəzi alimlər qəzəb hissini belə vəsf etmişlər: "Bu, əvvəli dəlilik, axırı isə peşmançılıq gətirən bir hisdir." Həqiqətən də, adam qəzəbləndikdə sanki ağlı başından çıxır və nə danışdığını, nə etdiyini bilmir. Qəzəblənmək insanı pis işlər görməyə təhrik edir. Qəzəbi boğmaq isə mömin adamı Cənnətə aparan bəyənilən əməllərdəndir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Əbu Dərda ﵁ demişdir: "Mən Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin!"– dedim. Peyğəmbər ﷺ buyurdu: "Qəzəblənmə, Cənnətə girəcəksən."[1] Peyğəmbərin ﷺ bu sözü açıq-aydın dəlildir ki, qəzəbi boğmaq, Cənnətə aparan əsas amillərdəndir. Bu xüsusda "Ali-İmran" surəsinin 133-cü, 134-cü və 135-ci ayələrində belə buyurulur: "Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. O müttəqilər ki, bolluqda da, qıtlıqda da, *mallarından Allah yolunda* xərcləyər, qəzəblərini boğar və insanları bağışlayarlar. Allah yaxşı iş görənləri sevir. O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər."

Həmçinin, hədislərin birində rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: "Hamını yıxmaq güclü olmaq demək deyil. Güclü o kəsdir ki, qəzəbləndikdə, özünü ələ ala bilsin."[2] Zikr etdiyimiz ayələr və bu hədis qəzəbini boğmağı bacaran mömini tərif edir.

---

[1] Mocəmul-Ovsat, 2374; Səhih ət-Tərğib vət-Tərhib, 2749.

[2] Səhih əl-Buxari (6114).

Yaxşı bəs nə edək ki, biz də o müttəqilər kimi qəzəbimizi boğmağa qadir olaq? Bunun üçün Peyğəmbərin ﷺ bu xüsusda ümmətinə etdiyi nəsihətlərinə əməl etmək lazımdır. Peyğəmbər ﷺ bizə, qəzəbləndikdə nəfsimizi cilovlamağın yolunu öyrətmişdir. Hədislərin birində o, belə buyurmuşdur: "Qoy sizlərdən biri qəzəbləndiyi zaman sussun!"[1] O, həmçinin, demişdir: "Qoy sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın."[2]

Həmçinin, qəzəbləndikdə, şeytandan Allaha sığınmaq da qəzəbi soyudan amillərdəndir. Hədislərin birində rəvayət edilir ki, bir gün iki nəfər Peyğəmbərin ﷺ yanında söyüşməyə başladı. Onlardan biri qəzəbləndi. Onun qəzəbi o qədər artdı ki, axırda o pörtdü və onun sifəti dəyişdi. Peyğəmbər ﷺ dedi: "Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər!" *Sonra də buyurdu:* "Əuzu billəhi minəş-şeytanir-racim!" Bir nəfər gedib o kişiyə dedi: "Bilirsən, Peyğəmbər ﷺ nə dedi? De: "Əuzu billəhi minəş-şeytanir-racim!" O isə, belə cavab verdi: "Yoxsa, məni dəli hesab edirsən?"[3]

Burada qəzəblənmək o adama haqqı qəbul etməyə mane olmuşdur. Çünki o, belə halda şeytandan Allaha sığınmağın ancaq dəliyə aid edildiyini güman etmiş və qəzəblənməyin şeytandan olduğunu anlamamışdır.

Bu hədislərdən bizə aydın olur ki, mömin adam qəzəbini soyutmaq üçün "Əuzu billəhi minəş-şeytanir-racim!"– deməli, son-

---

[1] Musnəd İmam Əhməd, 1/239.

[2] Səhih əl-Cami, 694.

[3] Səhih əl-Buxari, 6048.

ra susmalı və onu qəzəbləndirən adama baş qoşmamalıdır. Hətta mübahisə yerini tərk etməlidir. İmam Buxarinin bu xüsusda rəvayət etdiyi ibrətamiz bir hədisdə xəbər verilir ki, bir gün Əli ibn Əbu Talib رضي الله عنه Fatiməyə qəzəblənmiş, sonra evdən çıxıb məscidə getmiş və orada yerə uzanmışdır. Peyğəmbər ﷺ hadisədən xəbər tutduqda yanına gəlmiş və onun kürəyindəki torpağı silə-silə: "Qalx, ey Əbu Turab!" demişdir."[1]

Bundan aydın olur ki, ən ideal sayılan ailələrdə belə bəzən mübahisələrin baş verməsi qaçılmazdır və ərlə arvad arasında inciklik olduğu vaxt kişinin müvəqqəti olaraq – hər ikisinin qəzəbi soyuyanadək evdə qalmaması məsləhətdir. Belə etməlidir ki, şeytan bu fitnəni alovlandırıb, ailənin dağılmaq dərəcəsinə çatdırmasın. Bir qədər əvvəl zikr etdiyimiz hədisdə Peyğəmbər ﷺ "Qoy, sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın" – deyə buyurmuş, Əli ibn Əbu Talib رضي الله عنه də belə etmiş, gedib məsciddə uzanmışdır.

Qeyd edək ki, qəzəb insanın küfr söz danışmasına və beləliklə də cəhənnəmlik olmasına səbəb ola bilər. Necə ki, qadınlar barədə varid olmuş məşhur hədisdə xəbər verilir. Rəvayət edilir ki, bayram günü Peyğəmbər ﷺ qadınların yanından keçərkən belə buyurdu: "Ey qadınlar, sədəqə verin və Allahdan çoxlu-çoxlu bağışlanma diləyin! Çünki mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm." Qadınlardan biri soruşdu: "Nəyə görə Cəhənnəm əhlinin əksəriyyəti qadınlar olacaq, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Çünki siz qadınlar insanları tez-

---

[1] Səhih əl-Buxari, 441.

tez lənətləyir və ərlərinizə qarşı nankorluq edirsiniz." Biriniz ərinə qəzəbləndikdə, onun barəsində: "Vallahi ki, mən heç vaxt ondan xeyir görməmişəm"– deyir." Bu, Allahın nemətlərinə küfr etməkdir. Bu da, nankor olmaq deməkdir." [1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bütün bunlar Peyğəmbərin ﷺ qadağan etdiyi qəzəbə aiddir. Lakin bundan başqa qəzəblənməyin müstəhəb, hətta vacib olan növü də vardır ki, bu da Allah rizası üçün qəzəblənməkdir. Məsələn: Allahın dininə istehza edildikdə, yaxud Peyğəmbər ﷺ təhqir edildikdə və s. dini ayinlər lağa qoyulduqda qəzəblənmək.

Gəlin buna dair bir neçə misal çəkək:

Abdullah ibn Məsud رضي الله عنه demişdir: Huneyn döyüşündən sonra Peyğəmbər ﷺ qənimətləri bölüşdürərkən, bəzi adamlara üstünlük verdi. Belə ki, o, Əqra ibn Habisə yüz dəvə, Üyeynəyə də bir o qədərini, habelə, ərəblərin əyan-əşrəfinə çoxlu hədiyyələr verməklə, həmin gün onları digərlərindən üstün tutdu. Onda, ənsardan olan bir nəfər dedi: "Vallahi, bu, Allahın rizasını diləmək məqsədilə yerinə yetirilməyən bir bölgüdür." Mən: "Bunu mütləq Peyğəmbərə ﷺ söyləyəcəyəm"– dedim, sonra da Peyğəmbərin ﷺ yanına gəldim. O, səhabələri ilə birgə oturmuşdu. Mən deyilənləri onun qulağına pıçıldadım. Bu sözlər ona çox ağır gəldi, sifəti dəyişdi və qəzəbləndi. Sonra dedi: "Musaya bundan da artıq əziyyət verilmişdir, lakin o, səbir etmişdir."[2]

---

[1] Səhih əl-Buxari, 1052; Səhih Muslim, 241.

[2] Səhih əl-Buxari, 3150; Səhih Muslim, 1062.

Başqa bir rəvayətdə xəbər verilir ki, Aişə ﵂ demişdir: "Rəsulullahın ﷺ məruz qaldığı zülmdən dolayı, kimsədən öz nəfsinə görə intiqam aldığını görməmişəm. Yalnız Uca Allahın qoyduğu qanunların pozulması istisnadır. Allahın qanunları pozulduğu təqdirdə isə Rəsulullah ﷺ buna hamıdan çox qəzəblənərdi."[1]

Yenə bir rəvayətdə xəbər verilir ki, Əbu Məsud əl-Ənsari ﵁ demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib: "Ya Rəsulallah, filankəs bizə qıldırdığı namazı uzatdığına görə, mən çox vaxt namaza vaxtında gəlmirəm"– dedi. Mən Peyğəmbərin ﷺ moizə əsnasında, o günkü qədər, bu dərəcədə bərk qəzəbləndiyini görməmişdim. O, qəzəbli halda belə buyurdu: "Ey insanlar, siz, həqiqətən də nifrət oyadanlarsınız. Qoy camaata namaz qıldıran kəs bunu xəfif etsin. Çünki onların arasında xəstələr, zəiflər və təcili işi çıxmış kimsələr ola bilər."[2]

Bu hədislərdən aydın başa düşülür ki, Peyğəmbər ﷺ öz nəfsinə görə yox, yalnız Allahın rizasını qazanmaq üçün qəzəblənərdi.

Səhabələri də, həmçinin, yalnız Allahın rizasını qazanmaq üçün qəzəblənərdilər.

Rəvayət edilir ki, Əbu Sələmə ibn Abdurrəhman demişdir: "Rəsulullahın ﷺ səhabələri nə özünüçəkən, nə də aciz idilər. Birisinin, Allahın əmrinə qarşı çıxdığını gördükdə hiddətlərindən göz bəbəkləri çevrilərdi."[3] Bu, dəlildir ki, səhabələr yalnız Allah xatirinə qəzəblənərmişlər.

---

[1] Səhih əl-Buxari, 3367; Səhih Muslim, 2327.

[2] Səhih əl-Buxari, 90.

[3] əl-Ədəbul-Mufrad.

Məsruq rəvayət edir ki, bir nəfər Kində qəbiləsindən olan adamlarla söhbət edərkən dedi: "Qiyamət günü elə bir tüstü əmələ gələcək ki, o, münafiqlərin qulaqlarını kar, gözlərini kor edəcək. Möminlər isə sadəcə zökəm xəstəliyinə tutulacaqlar." Biz təşvişə düşdük. Mən İbn Məsudun yanına gəlib bu haqda ona xəbər verdim. İbn Məsud qəzəbləndi, sonra da söykəndiyi yerdən qalxıb oturdu və dedi: "Qoy bilənlər danışsın, bilməyənlər isə: "Doğrusunu Allah bilir!"– desinlər."[1]

Qəzəb xüsusunda Ömər ibn Abdüləziz ﷺ demişdir: "Hər kim özünü üç şeydən qorusa, nicat tapar: nəfsin istəyinə uymaq, qəzəblənmək və bir də tamahkarlıq."[2]

Həmçinin, Həsən əl-Bəsri ﷺ demişdir: "Kim bu dörd xisləti özündə cəm etsə, Allah onu şeytandan qoruyar və Cəhənnəmi ona haram edər: istək, qorxu, şəhvət və qəzəb anlarında özünü ələ almaq."[3]

Həmçinin, Cəfər ibn Muhəmməd ﷺ demişdir: "Qəzəblənmək, hər bir şər qapısının açarıdır."

Həmçinin, Abdullah ibn əl-Mubarəkə: "Gözəl əxlaqın nə olduğunu bir kəlmə ilə bizə başa sal"– deyildikdə, o, belə cavab verərmiş: "Qəzəblənməmək!"

İbn Əbu Zeyd əl-Qeyrəvani ﷺ demişdir: "Əxlaq ədəbləri və onun tutqacları dörd hədisə söykənir: *birincisi,* Peyğəmbərin ﷺ: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da

---

[1] Səhih əl-Buxari 1752.

[2] əl-Hilyə, 5/290.

[3] əl-Hilyə, 5/144.

sussun" hədisi, *ikincisi,* onun: "Müsəlmanın islamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" hədisi, *üçüncüsü,* ondan nəsihət istəyən kimsəyə: "Qəzəblənmə"– deyə nəsihət etməsi və *dördüncüsü,* onun: "Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz" hədisidir."[1]

İndi gəlin, bir ibrətamiz rəvayətlə bu hədisin şərhinə son verək. Rəvayət edilir ki, Zeynulabidin ləqəbi ilə tanınmış Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibin ﵁ bir cariyəsi var imiş. Bir gün bu cariyə ona bir qab su gətirir ki, o, dəstəmaz alsın. Birdən su qabı onun əlindən sürüşüb Zeynulabidinin başına dəyir və onun başını yaralayır. Zeynulabidinin qəzəbləndiyini görən cariyə dərhal bu ayəni ona oxuyur:

وَٱلْكَـٰظِمِينَ ٱلْغَيْظَ

"*müttəqilər* qəzəblərini boğurlar", bunu deyəndə, Zeynulabidin: "qəzəbimi boğdum"– deyir. Cariyə ayənin ardını oxuyur:

وَٱلْعَافِينَ عَنِ ٱلنَّاسِ

"və insanları əfv edirlər", bunu deyəndə, Zeynulabidin: "səni əfv etdim"– deyir. Onda cariyə ayənin tamamını oxuyur:

وَٱللَّهُ يُحِبُّ ٱلْمُحْسِنِينَ

"Allah yaxşılıq edənləri sevir", bunu deyəndə, Zeynulabidin deyir: "Allah rizası üçün səni azad edirəm."

---

[1] Şərhun-Nəvəvi, 67-ci hədisin şərhi və Camiul-Ulum vəl-Hikəm, 12-ci hədisin şərhi.

Budur, sələfin əxlaqı!

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللهم إنَّا نَسألك كَلِمَةَ الحقِّ في الغضبِ والرِّضا ))

“Allahım, həm qəzəbli olduğumuz, həm də razı qaldığımız halda haqq söz deməyi Səndən diləyirik!”[1]

[1] Sunən ən-Nəsai, 1305; Səhih İbn Hibban, 1971; Səhih əl-Cami, 1301.

## On yeddinci hədis

عَنْ أَبِي يَعْلَى شَدَّادِ بْنِ أَوْسٍ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: "إِنَّ اللَّهَ كَتَبَ الْإِحْسَانَ عَلَى كُلِّ شَيْءٍ، فَإِذَا قَتَلْتُمْ فَأَحْسِنُوا الْقِتْلَةَ، وَإِذَا ذَبَحْتُمْ فَأَحْسِنُوا الذِّبْحَةَ، وَلْيُحِدَّ أَحَدُكُمْ شَفْرَتَهُ، وَلْيُرِحْ ذَبِيحَتَهُ".

رَوَاهُ مُسْلِمٌ [رقم:١٩٥٥].

Əbu Yələ Şəddad ibn Ovs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Allah hər bir şeylə gözəl davranmağı əmr etmişdir. Elə isə birisini öldürdükdə, onu gözəl tərzdə öldürün. Habelə, heyvan kəsdikdə, onu gözəl tərzdə kəsin. Sizdən biriniz bıçağını itiləsin və kəsəcəyi heyvanı rahatlasın."

Bu hədisi İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Gəlin bu hədisin ərəbcəsində işlənən bir feilə nəzər salaq.

Bu, (كَتَبَ) yəni "yazmaq" feilidir. Demək, Peyğəmbərin ﷺ dediyi (إِنَّ الله كَتَبَ) sözünün hərfi tərcüməsi belədir: "Allah hər bir şeylə gözəl davranmağı yazmışdır." Yaxşı, bəs nə üçün biz bu feili "əmr etmişdir" kimi tərcümə etmişik? Çünki bu feil üsul qaydasına görə, yəni istilahi mənada "əmr" mənasını ifadə edir. Buna dair Quranda neçə-neçə ayələr var. Məsələn: "əl-Bəqərə" surəsinin 183-cü ayəsində Uca Allah buyurur:

﴿كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

[1] Səhih Muslim, 1955.

"Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız." Yaxud "ən-Nisa" surəsinin 24-cü ayəsində buyurur:

﴿ كِتَٰبَ ٱللَّهِ عَلَيۡكُمۡ ﴾

"Allahın sizə əmr etdiyi hökm belədir." Yaxud "ən-Nisa" surəsinin 103-cü ayəsində Uca Allah buyurur:

﴿ إِنَّ ٱلصَّلَوٰةَ كَانَتۡ عَلَى ٱلۡمُؤۡمِنِينَ كِتَٰبٗا مَّوۡقُوتٗا ﴾

"Həqiqətən, namaz möminlərə vaxtları müəyyən edilmiş bir vacibdir." Və ya "əl-Maidə" surəsinin 45-ci ayəsində buyurur:

﴿ وَكَتَبۡنَا عَلَيۡهِمۡ فِيهَآ أَنَّ ٱلنَّفۡسَ بِٱلنَّفۡسِ وَٱلۡعَيۡنَ بِٱلۡعَيۡنِ وَٱلۡأَنفَ بِٱلۡأَنفِ وَٱلۡأُذُنَ بِٱلۡأُذُنِ وَٱلسِّنَّ بِٱلسِّنِّ وَٱلۡجُرُوحَ قِصَاصٞ ﴾

"Biz *kitabda* onlara əmr etdik ki, cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş, yaralara *da misli ilə* qisas alınmalıdır." Göründüyü kimi, bu ayələrdə işlənən "yazı" sözü "əmr" mənasında işlənir.

İbn Rəcəb bu hədisi izah edib demişdir: "Hərçənd ki, bu hədis, hər bir işdə gözəl davranmağın vacib olduğuna dəlalət edir, lakin hər işin özünəuyğun davranışı vardır. Belə ki, həm aşkarda, həm də gizlində olan vacib əməllərin hamısını gözəl şəkildə yerinə yetirmək üçün, onları kamil şəkildə yerinə yetirmək vacibdir. Gözəl davranışın bu hissəsi vacib sayılır. O ki qaldı müstəhəb – yəni bəyənilən gözəl davranışlara, onları kamil şəkildə yerinə yetirmək

vacib yox, müstəhəb sayılır. Haramları tərk etmək xüsusundakı davranışa gəlincə, bunların da, həm aşkarda, həm də gizlində olanını tərk etmək vacibdir. Necə ki, Uca Allah "əl-Ənam" surəsinin 120-ci ayəsində buyurur:

﴿وَذَرُوا۟ ظَٰهِرَ ٱلْإِثْمِ وَبَاطِنَهُۥٓ﴾

"Günahın aşkarından da, gizlisindən də əl çəkin!" Yəni haramları tərk etmək vacibdir. Qəzavü-qədərə səbir etmək xüsusunda olan gözəl davranışa gəlincə, buna qəzəblənmədən və gileylənmədən səbir etmək vacibdir. Yaradılanlarla gözəl davranmaq üçün isə Allahın onların haqlarına aid buyurduğu vacibləri yetirmək lazımdır. Himayədarlıq etmək xüsusundakı gözəl davranışa və bu istiqamətdə olan siyasətə gəlincə, onlara aid olan haqları yerinə yetirmək vacib, bundan artığını etmək isə müstəhəbdir. İnsanlardan və ya heyvanlardan öldürülməsi icazəli olanını öldürməyə gəlincə, ona əzab vermədən onun canını tez və rahat şəkildə almaq vacibdir. Çünki bu halda ona əziyyət verməyə lüzum yoxdur. Şərh etdiyimiz hədisdə Peyğəmbərin ﷺ qəsd etdiyi gözəl davranış da məhz buna aiddir. Olsun ki, Peyğəmbər ﷺ bunu sadəcə bir misal olaraq göstərmiş, yaxud belə halda necə davranmağı bəyan etmək üçün: "Öldürdükdə, onu gözəl şəkildə öldürün. Heyvan kəsdikdə, onu gözəl şəkildə kəsin"– demişdir."

Bundan aydın olur ki, mömin adam hər bir işdə gözəl davranmalı və yaxşılıq etməlidir. Hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "Hökm verdikdə, ədalətlə hökm verin, öldürdük-

də də gözəl şəkildə öldürün. Həqiqətən, Allah yaxşılıq edəndir və yaxşılıq edənləri sevir!”[1]

Qeyd etmək lazımdır ki, şərh etdiyimiz hədisdə öldürmək deyildikdə, yalnız döyüş əsnasında düşməni öldürdükdə və bir də cinayətkarı edam etdikdə, gözəl şəkildə öldürmək və ona əzab verməmək qəsd edilir. Necə ki, “əl-Bəqərə” surəsinin 190-cı ayəsində Uca Allah buyurur:

﴿ وَقَٰتِلُوا۟ فِى سَبِيلِ ٱللَّهِ ٱلَّذِينَ يُقَٰتِلُونَكُمْ وَلَا تَعْتَدُوٓا۟ ۚ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ ٱلْمُعْتَدِينَ ﴾

“Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir.”

Burada “hədd” deyildikdə, qadağan edilmiş bütün hədlər, o cümlədən də, düşməni əzabla – burnunu, qulağını və s. kəsmək, yaxud yandırmaq və ya başqa buna bənzər vəhşiliklə öldürmək qəsd edilir. Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Allah yolunda Allahın adı ilə cihad edin və Allaha qarşı küfr edənlərlə vuruşun. Cihad edin, lakin həddi aşmayın, xəyanət etməyin, öldürdüklərinizi eybəcər hala salmayın və uşaqları öldürməyin!”[2] Burada: “öldürdüklərinizi eybəcər hala salmayın” deyildikdə, onların əzalarını kəsmək, yandırmaq və s. nəzərdə tutulur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, yandırmaqla əzab verməyi Peyğəmbər ﷺ qətiyyətlə qadağan etmişdir. İmam Buxarinin rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: “Allahın

[1] İbn Əbu Asim, əd-Diyat, səh: 56; İbn Adiy, əl-Kamil, 2/328; Silsilətul-Əhadisis-Səhihə, 469-cu hədis.

[2] Səhih Muslim, 1731.

əzabı ilə əzab verməyin!"[1] Başqa bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ səhabələri ilə birlikdə yol gedərkən, qarışqa yuvasının yandırıldığını görmüş və bərk qəzəblənib demişdir: "Bəşər övladına, Allahın verdiyi əzabla əzab vermək yaraşmaz."[2]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, əgər qatil qətlə yetirdiyi adama əzab veribsə, şəriətə görə ona eyni cəza verilir. Buna dəlil, İmam Buxarinin rəvayət etdiyi hədisdir. Həmin hədisdə Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Ureyn qəbiləsindən olan bir dəstə adam Peyğəmbərin ﷺ yanına gəldi. Xəstə olduqları üçün Mədinədə qalmaq istəmədilər. Peyğəmbər ﷺ onlara sağmal dəvələrin olduğu yerə gedib, onların sidiyindən və südündən içməyi əmr etdi. Onlar Peyğəmbərin ﷺ dediyi yerə gedib o dəvələrin sidiyindən və südündən içdilər. Nəhayət, sağaldıqdan sonra Peyğəmbərin ﷺ çobanını öldürüb, dəvələri sürüb apardılar. Peyğəmbər ﷺ bundan xəbər tutduqda onların ardınca bir dəstə adam göndərdi. Beləliklə, səhabələr onları tutub Mədinəyə gətirdilər. Peyğəmbərin ﷺ əmri ilə onların əllərini və ayaqlarını kəsdilər, gözlərini çıxartdılar, özlərini də Mədinə yaxınlığında yerləşən, qaralmış daş-kəsəklərlə dolu bir sahəyə atdılar və ölənədək onlara su vermədilər."[3]

Şərh etdiyimiz hədisdə Rəsulullah ﷺ heyvana əzab verməyi qadağan edir. Başqa bir hədisdə rəvayət edilir ki, ibn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ heyvanın diri-diri hər hansı bir əzasını

---

[1] Səhih əl-Buxari, 3017.

[2] Səhih Muslim, 1731.

[3] Səhih əl-Buxari, 233.

kəsən adamı lənətləmişdir."[1] Yenə bir hədisdə rəvayət edilir ki, bir dəfə İbn Ömər ﵄ bir dəstə adamın yanından keçdikdə, onların toyuğu diri-diri asıb oxla vurduğunu görmüş və demişdir: "Peyğəmbər ﷺ belə hərəkət edən kimsəni lənətləmişdir."[2] Digər bir hədisdə rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ bir nəfərin yanından keçərkən, onun, bir qoçu yerə uzadıb, ayağını onun üstünə qoyduğunu və əlindəki bıçağı itilədiyini, heyvanın da, ona baxdığını görüb dedi: "Sən bu qoçu iki kərə öldürmək istəyirsən?! Bıçağını qabaqcadan itiləyə bilməzdin?!"[3]

Bu hədislərdən aydın olur ki, heyvanı kəsmək istədikdə, onu iti bıçaqla kəsmək və ya bıçağı qabaqcadan itiləmək, habelə, heyvanı kəsərkən ona əziyyət verməmək, heyvana rəhm etmək vacibdir. Heyvanı rahat kəsmək istəyən adam onu sol böyrü üstə yerə uzatmalı, sonra ayağını heyvanın boynu üstə qoymalı, əllərini və ayaqlarını isə sərbəst buraxmalı, sonra da sol əl ilə onun başından tutub sağ əl ilə onu boğazlamalıdır. Bəzi avamların heyvan kəsərkən, onun əllərini və ayaqlarını tutaraq, ona əziyyət verməsi isə Peyğəmbərin ﷺ Sünnəsinə ziddir. Yeri gəlmişkən qeyd edək ki, kim heyvanı kəsərkən ona rəhm etsə, Allah da ona rəhm edər. Bu xüsusda rəvayət edilmiş ayrıca hədisdə rəvayət edilir ki, bir gün səhabələrdən biri Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah, mən qoç kəsdikdə, ona rəhmim gəlir." Peyğəmbər ﷺ dedi: "Sən

---

[1] Səhih əl-Buxari, 5515.

[2] Əvvəlki mənbə.

[3] Sunən əl-Beyhəqi, 9/280; Silsilətul-Əhadisis-Səhihə, 24-cü hədis.

qoça rəhm etsən, Allah da sənə rəhm edər."[1] Digər bir rəvayətdə Rəsulullah ﷺ demişdir: "Kim qurbanlıq heyvanına rəhm etsə, Qiyamət günü Allah ona rəhm edər."[2]

Şərh etdiyimiz hədisdə: "Heyvan kəsdikdə, onu gözəl tərzdə kəsin"– deyilir. Qeyd edək ki, heyvanın gözəl tərzdə kəsilməsi üçün, onu şəriətin qoyduğu şərtlərə uyğun şəkildə kəsmək lazımdır. Həmin şərtlər isə bunlardır:

1-cisi, heyvanı kəsən adam müsəlman və ya kitab əhlindən olmalıdır. Və əgər heyvanı bütpərəst – yəni şirk və ya küfr əhli kəsərsə, o heyvanın əti halal sayılmaz. Kitab əhlinin kəsdiyi heyvanın halal olmasına dəlil, "əl-Maidə" surəsinin 5-ci ayəsidir. Həmin ayədə belə buyurulur: "Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır." İbn Abbas demişdir: "Bu ayədə: "Kitab əhlinin yeməyi" deyildikdə, yəhudilərin və nəsranilərin kəsdiyi heyvanlar qəsd edilir.

2-ci şərt, heyvanı kəsmək üçün istifadə edilən bıçaq və s. buna bənzər alətlər kəsici olmalıdır ki, heyvanın qanını axıtmaq mümkün olsun. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Heyvanın qanı axıdılsa və onun üstündə Allahın adı çəkilsə, ondan yeyə bilərsiniz. Lakin diş və dırnaqla onu kəsmək olmaz. Sizə bunun niyə qadağan olduğunu deyim: diş sümükdür, dırnaq isə həbəşilərin bıçağıdır."[3] Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, kəsilən heyvanın halal sayılması üçün onun qanı-

---

[1] Musnəd İmam Əhməd, 3/436; əl-Ədəbul-Mufrad, 373.

[2] əl-Ədəbul-Mufrad, 381.

[3] Səhih əl-Buxari, 2488.

nın axıdılması vacibdir. Yəni kəsmək üçün istifadə edilən alət iti olmalıdır ki, heyvanın qanını axıtmaq mümkün olsun. Hətta bıçaq tapılmadıqda daşı, yaxud qamışı və ya başqa bir şeyi itiləyib bıçaq əvəzinə istifadə etmək olar. Diş və ya dırnaqla heyvanı kəsmək isə qadağandır. Çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Xüsusi olaraq qeyd edək ki, burada diş deyildikdə, ümumiyyətlə sümük qəsd edilir, yəni sümüklə heyvanı boğazlamaq olmaz. Bunun da hikməti budur ki, əgər həmin sümük murdar heyvanın sümüyü olarsa, murdar şeylə heyvanı kəsib onu murdarlamaq olmaz. Yox, əgər əti yeyilən və şəriət qaydası ilə kəsilmiş heyvanın sümüyü olarsa, o halda bu pak sümüyü axıdılan murdar qana bulaşdırmaq olmaz, çünki belə sümük mömin cinlərin yeməyidir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Peyğəmbərin ﷺ səhabəsi ondan, nəyə görə ayaqyolunda təmizlənmək üçün təzəkdən və ya sümükdən istifadə etməyin icazəli olmadığını soruşduqda, o belə cavab vermişdir: "Çünki bunlar cinlərin yeməyidir. Bir dəfə Nəsibin şəhərindən mənim yanıma bir dəstə cin gəldi, – nə gözəl cinlər idi onlar, – onlar məndən yemək istədilər. Mən Allaha dua etdim ki, onlar harada sümük və təzək tapsalar, bu onların yeməyi olsun."[1]

3-cü şərt heyvanın boyun damarlarını kəsməklə onun qanının axıdılmasıdır. Buna da dəlil, bir qədər əvvəl zikr etdiyimiz: "Heyvanın qanı axıdılsa və onun üstündə Allahın adı çəkilsə, ondan yeyə bilərsiniz" hədisdir. Qeyd edək ki, bu iki əsas damarı kəsməklə kifayətlənmək caizdir. Lakin, bununla yanaşı heyvanın

---

[1] Səhih əl-Buxari, 3860.

həm hülqumunu, həm də qida borusunu kəsilsə daha gözəl sayılar. Bundan aydın olur ki, heyvanı kəsdikdə bu dörd əzanı – boyun damarlarını, hülqumu və qida borusunu kəsmək ən gözəl kəsim qaydası sayılır. Sadəcə boyun damarlarını kəsmək isə heyvanın ətinin halal sayılması üçün kifayət edir. Boyun damarlarını kəsmədən, onun yalnız hülqumunu və qida borusunu kəsmək isə halal sayılması üçün kifayət deyil.

4-cü şərt heyvanı kəsdikdə Allahın adının çəkilməsidir, yəni "bismilləh" deyilməsidir. Buna da dəlil bir qədər əvvəl zikr etdiyimiz: "Heyvanın qanı axıdılsa və onun üstündə Allahın adı çəkilsə, ondan yeyə bilərsiniz" hədisdir. Həmçinin, "əl-Ənam" surəsinin 121-ci ayəsidir. Həmin ayədə belə buyurulur: "Üstündə Allahın adı çəkilməmiş – *"bismilləh" deyilib kəsilməmiş heyvanlardan* yeməyin. Çünki bu, günahdır."

Sonda hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اهْدِنَا لأَحْسَنِ ٱلأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنَّا سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنَّا سَيِّئَهَا إِلاَّ أَنْتَ ))

"Allahım, bizə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən bizi uzaq et! Bizi onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!"[1]

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقَنَا فَأَحْسِنْ خُلُقَنَا ))

---

[1] Səhih Muslim, 1/534.

“Allahım, Sən bizi gözəl biçimdə yaratdın, əxlaqımızı da gözəl et!”[1]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

“Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və fikirlərdən Sənə sığınırıq!”[2]

---

[1] Musnəd Əhməd, 1/403; Səhih Tərğib vət-Tərhib, 2657.

[2] Səhih Sunən ət-Tirmizi, 3/184.

## On səkkizinci hədis

عَنْ أَبِي ذَرٍّ جُنْدَبِ بْنِ جُنَادَةَ، وَأَبِي عَبْدِ الرَّحْمَنِ مُعَاذِ بْنِ جَبَلٍ رضي الله عنهما، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: "اتَّقِ اللَّهَ حَيْثُمَا كُنْت، وَأَتْبِعْ السَّيِّئَةَ الْحَسَنَةَ تَمْحُهَا، وَخَالِقْ النَّاسَ بِخُلُقٍ حَسَنٍ".

رَوَاهُ التِّرْمِذِيُّ [رقم:١٩٨٧] وَقَالَ: حَدِيثٌ حَسَنٌ، وَفِي بَعْضِ النُّسَخِ: حَسَنٌ صَحِيحٌ.

Əbu Zər Cundəb ibn Cunadə və Əbu Abdurrəhman Muaz ibn Cəbəl رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Harada olursan, ol Allahdan qorx! Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran!”

Bu hədisi İmam Tirmizi “Sunən” əsərində rəvayət etmiş və demişdir: “Bu, “həsən-səhih” hədisdir.”[1]

Bu hədisdə “Harada olursan, ol” deyildikdə, həm məkan, həm də zaman qəsd edilir. Yəni hər yerdə və hər zaman insanın qəlbində Allah qorxusu olmalıdır. Allahdan qorxmaq vacibdir. Və bu əmr nəinki sıravi möminlərə, hətta peyğəmbərlərə də aiddir. Bu xüsusda neçə-neçə ayələr nazil olmuşdur. Məsələn: “əl-Əhzab” surəsinin 1-ci ayəsində Rəsulullaha ﷺ belə buyurulur: “Ey peyğəmbər, Allahdan qorx!” Həmçinin, “ən-Nisa” surəsinin 131-

[1] Sunən ət-Tirmizi, 1987.

ci ayəsində deyilir: “Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də: “Allahdan qorxun!”– deyə buyurduq.” Həmçinin, “Ali-İmran” surəsinin 102-ci ayəsində möminlərə belə xitab edilir: “Ey iman gətirənlər, Allahdan layiqincə qorxun!” Həmçinin, “əl-Əhzab” surəsinin 70-ci ayəsində belə buyurulur: “ Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz danışın!” Həmçinin, “əl-Həşr” surəsinin 18-ci ayəsində belə buyurulur: “Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır.” Bu ayələrdən aydın görünür ki, peyğəmbərlərə və onların ardıcıllarına Allahdan qorxmaq əmr edilmişdir.

Bu hədisdə Peyğəmbər ﷺ səhabələrinə Allahdan qorxmağı, yəni təqvalı olmağı əmr edir. Çünki təqva xeyirxah işlərin hamısının başı hesab edilir. Bir zaman Əbu Səid əl-Xudri رضي الله عنه Peyğəmbərə ﷺ: “Mənə nəsihət et!”– demiş, Peyğəmbər ﷺ də ona belə buyurmuşdur: “Sənə Allahdan qorxmağı tövsiyə edirəm, çünki təqva, hər bir xeyirin başıdır.”

Xüsusi olaraq qeyd etmək lazımdır ki, təqvasız yerinə yetirilmiş əməl qəbul olmur, yəni Allahdan qorxmayan kafirin əməli yaxşı olsa belə qəbul olmur. Bu xüsusda “əl-Maidə” surəsinin 27-ci ayəsində belə buyurulur: “Allah *yaxşı əməlləri* ancaq müttəqilərdən qəbul edər!”

Gəlin, baxaq görək islam alimləri təqva kəlməsini necə izah etmişlər. Təqva: İnsanın özü ilə Allahın əzabı və cəzası arasına çəkdiyi səddir ki, əzab ona toxunmasın.

Abdullah ibn Məsud ﷺ təqva kəlməsini izah edib demişdir: "Təqva: Allaha itaət etmək və Ona asi olmamaq, Allahı zikr etmək və Onu unutmamaq, Allaha şükür etmək və Ona qarşı nankor olmamaqdır."

Həmçinin, Əli ibn Əbu Talib ﷺ demişdir: "Təqva: Onun nazil etdiyi Kitab və Sünnəyə əməl etmək, aza qane olmaq və Onunla qarşılaşacağı günə hazırlıq görməkdir."

Ömər ibn Abdüləziz ﷺ bu kəlməni belə izah etmişdir: "Təqva: Allahın haram buyurduqlarından çəkinmək və vacib buyurduqlarını yerinə yetirməkdir."

Təqvaya dair ən müfəssəl təriflərdən biri Talq ibn Həbib əl-Bəsri ﷺ verdiyi tərifdir. O, demişdir: "Təqva: Allahın nuru üzərində, yəni Quran və Sünnəyə uyğun olaraq, savabını da Allahdan umaraq Allaha itaət etmək, eləcə də, Allahın nuru üzərində, yəni Quran və Sünnəyə uyğun şəkildə Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinməkdir."[1]

Yeri gəlmişkən qeyd edək ki, təqvanın yeri qəlbdir. Necə ki, İmam Muslimin nəql etdiyi rəvayətdə Peyğəmbər ﷺ qəlbinə işarə edərək üç kərə: "Təqva, bax buradadır"– deyə təkrar etmişdir."[2]

İbn Rəcəb ﷺ "Camiul-Ulum vəl-Hikəm" əsərində təqva barədə sələflərdən bir neçə ibrətamiz sözlər nəql etmişdir. Gəlin bunlardan bir neçəsini zikr edək:

Əbu Dərda ﷺ demişdir: "İnsanın təqvasının kamilliyi ondadır ki, ən xırda günahdan belə çəkinsin, hətta özünə halal görün-

---

[1] Musənnəf ibn Əbu Şeybə, 30993.

[2] Səhih Muslim, 6706.

düyü, lakin haramlığına ehtiyat etdiyi işlərdən də çəkinməlidir ki, özü ilə haram işlər arasına bir sədd çəksin."[1]

Həmçinin, İbn Ömər ﷺ demişdir: "Mən özümlə haramlar arasına, halal işləri sədd çəkirəm ki, harama dalmayım."[2]

Həmçinin, Həsən əl-Bəsri ﷺ demişdir: "Müttəqilər, haramlığına dair şübhə etdikləri bir çox halal şeyləri tərk etdiklərinə görə, təqvaya yiyələnmişlər."[3]

Həmçinin, Süfyan ibn Uyeynə ﷺ demişdir: "Müttəqilər, çəkinilməsi vacib olmayan işlərdən çəkindiklərinə görə müttəqi adlanmışlar."[4]

Şərh etdiyimiz hədisin davamında deyilir ki, pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Xüsusi olaraq qeyd etmək lazımdır ki, yaxşı əməllər yalnız kiçik günahları silir. Böyük günahların silinməsi üçün isə yalnız tövbə etmək lazımdır. Bu xüsusda "ən-Nisa" surəsinin 17-ci ayəsində belə buyurulur: "Allah ancaq o kəslərin tövbəsini qəbul edər ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra dərhal tövbə edərlər. Allah onların tövbəsini qəbul edər." Həmçinin, bu surənin 110-cu ayəsində belə buyurulur: "Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhimli olduğunu görər." Həmçinin, "ən-Nəhl" surəsinin 119-ci ayəsində belə buyurulur: "Şübhəsiz ki, Rəbbin, avamlıqları üzün-

---

[1] Cami əl-Ulum vəl-Hikəm, 1/209.

[2] Əvvəlki mənbə.

[3] Əvvəlki mənbə.

[4] əl-Hilyə, Əbu Nueym, 7/284.

dən pis iş görən, ondan sonra tövbə edib *özlərini* islah edənləri, əlbəttə ki, Rəbbin bağışlayacaq və rəhm edəcək." Həmçinin, "Ali-İmran" surəsinin 135-ci ayəsində belə buyurulur: "O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər?!"

Bu xüsusda Quranda kifayət qədər çox ayə zikr edilir. O ki qaldı yaxşı əməllərin kiçik günahları silib aparmasına, buna "Hud" surəsinin 114-cü ayəsini dəlil göstərmək olar. Həmin ayədə belə buyurulur: "Gündüzün iki başında – *əvvəlində və axırında* və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır." Həmçinin, bu mənanı təsdiqləyən neçə-neçə hədislər də varid olmuşdur. Məsələn: hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Bir deyin görüm, əgər sizdən birinizin qapısının önündən çay axsaydı, o da hər gün bu çayda beş dəfə yuyunsaydı, onun bədənində olan çirkabdan bir şey qalardımı?" Səhabələr: "Onun bədənindəki çirkabdan heç nə qalmazdı"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ demişdir: "Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Belə ki, Allah bununla günahları silir!"[1] O, həmçinin, demişdir: "Kim Ramazan gecələrində imanla, mükafatını yalnız Allahdan umaraq nafilə namazları qılsa, keçmiş günahları bağışlanar."[2] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Ramazan ayını imanla, mükafatını yalnız Allahdan umaraq oruc tutar-

---

[1] Səhih əl-Buxari, 528.

[2] Səhih əl-Buxari, 37.

sa, keçmiş günahları bağışlanar."[1] Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan *kiçik günahlar üçün* kəffarədir."[2] Hədisdə kəffarə deyildikdə, günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada verilən cəza yaxud deyilən söz, yaxud əməl və ya verilən sədəqə qəsd edilir.

Sual verilə bilər ki, nəyə əsasən siz günahları iki qismə - böyük və kiçik qismlərə bölürsünüz? Sualın cavabı çox asandır. Quran ayəsinə əsasən. Belə ki, "əl-Kəhf" surəsinin 49-cu ayəsində belə buyurulur: "*Hər kəsin* kitabı *qarşısına* qoyulacaq və sən günahkarların orada *yazılmış* olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!"

İbn Abbas رضي الله عنهما böyük günahı belə izah etmişdir: "Böyük günah deyildikdə, o günahlar qəsd edilir ki, Allah onları edənlərin Cəhənnəmə düşəcəyini xəbər vermiş, yaxud onlara qəzəbi tutmuş, yaxud onları lənətləmiş, yaxud da onlara əzab vermişdir."[3] İbn Teymiyyə رحمه الله İbn Abbasın رضي الله عنهما bu sözünü əsas götürərək böyük günaha belə tərif vermişdir: "*Bəndəni* Allahın lənətinə məruz qoyan, yaxud Onun qəzəbinə düçar edən, yaxud Cəhənnəm oduna sürükləyən, yaxud da dünyada ikən cəzaya məhkum edilməsinə səbəb olan hər bir günah, böyük günah adlanır."[4]

İslam alimləri bu günahları beş qismə bölmüşlər:

---

[1] Səhih əl-Buxari, 38.

[2] Səhih əl-Buxari, 1773.

[3] Təfsir ət-Təbəri, 5/27; Təfsir əl-Qurtubi, 5/159.

[4] Məcmuə Fətavə, 11/650-651.

- o gühah ki, Peyğəmbər ﷺ onu edənə lənət oxumuşdur. Məsələn: müsəlmanın malını mənimsəmək, ölü üçün vay-şivən salıb ağlamaq, rüşvət vermək, rüşvət almaq və s;

- və ya o günah ki, şəriət tərəfindən onu edənə bu dünyada cəza təyin edilmişdir. Məsələn: zina etmək, şərab içmək, oğurluq etmək və s;

- və ya o günah ki, onu edənə axirət günü şiddətli cəza veriləcəkdir. Məsələn: faiz yemək, zəkat verməmək və s;

- və ya o günah ki, imanın aradan qalxmasına gətirib çıxarır. Məsələn: "biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, iman etmiş olmaz" kimi və s;

- ya da o günah ki, onu edən Cənnətə girməyəcəkdir. Məsələn: "dedi-qodu yayan Cənnətə girməz!" kimi və s."[1]

İbn Rəcəb رحمه الله "Camiul-Ulum vəl Hikəm" əsərində, pisliyin ardınca yaxşılıq etmək barədə ibrətamiz bir rəvayət nəql etmişdir. Həmin rəvayətdə xəbər verilir ki, Əbu Cəfər əs-Saih demişdir: "Həbib Əbu Muhəmməd adlı bir şəxs ticarətlə məşğul olar və camaata faizlə pul verərdi. Günlərin bir günü o, bir yerə toplaşıb oynayan uşaqların yanına gəldi. Uşaqlar onu görəndə bir-birilərinə: "Faiz yeyən gəldi"– dedilər. Həbib bu sözü eşidəndə, başını aşağı salıb dedi: "Ey Rəbbim, Sən mənim bu gizlin işimi uşaqlara belə ifşa etmisən." Sonra o, evinə qayıtdı və pullarının hamısını bir yerə yığıb dedi: "Ey Rəbbim, mən Sənin əsirinəm. Canımı bu əsirlikdən qurtarmaq üçün malımın hamısını Sənin yolunda fəda edirəm ki, məni azad edəsən!" Nəhayət, səhər açıldıqda o kişi

[1] Məcmuə Fətavə, 11/657.

malının hamısını ehtiyacı olanlara payladı və bundan sonra Allaha ibadət etməyə başladı. Bir müddət sonra o, yenə həmin uşaqların oynadığı yerə gəldi. Uşaqlar onu görəndə bir-birilərinə dedilər: "Sakit olun! Abid Həbib gəlir." Həbib onların sözünü eşidəndə ağlamağa başladı və ağlaya-ağlaya dedi: "Ey Rəbbim, Sən dilədiyin kimsəni istəsən alçaldar, istəsən ucaldarsan. Alçaltmaq da, ucaltmaq da, Sənin ixtiyarındadı!"

Şərh etdiyimiz hədisin sonunda Peyğəmbər ﷺ: "insanlarla gözəl əxlaqla davran"– deyə buyurur.

Əxlaq deyildikdə, insanın mənəvi keyfiyyətini müəyyən edən, yaşadığı cəmiyyət və onu təşkil edən üzvləri ilə rəftarı və özünü aparma qaydası nəzərdə tutulur. Bu da, öz-özlüyündə iki qismə bölünür: gözəl əxlaq və pis əxlaq. Peyğəmbərimiz ﷺ Rəbbinə belə dua edərmiş: "Allahumməhdini li əhsənil-əxlaqi lə yəhdi li əhsənihə illə ənt, vəsrif anni seyyiəhə lə yəsrifu anni seyyiəhə illə ənt/Allahım, mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!"[1]

Həqiqətən də, insan başqa insanlarla daim gözəl rəftar etməli və insanların onunla necə davranmalarını istəyirsə, özü də onlarla elə davranmalıdır. Əxlaq xüsusunda hər bir müsəlman üçün meyar, Allahın rəsulu Muhəmməddir ﷺ. Rəsulullah ﷺ Allahın ən sevimli dostu, Onun sonuncu peyğəmbəri və bütün bəşəriyyətə göndərdiyi elçisi, habelə, ən abid, ən əxlaqlı, ən həlim, Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan bir insan olmuşdur.

---

[1] Səhih Muslim, 1/534.

Allah sübhanəhu və təalə onu ən gözəl əxlaq sahibi etmişdir. Uca Allah buyurur:

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ﴾

"Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."[1]

Digər ayədə Allah sübhanəhu və təalə onun böyük əxlaq sahibi olduğunu xəbər verir:

﴿ وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٖ ﴾

"Həqiqətən, sən böyük əxlaq sahibisən!"[2]

Aişədən رضي الله عنها Rəsulullahın ﷺ əxlaqı barədə soruşulduqda o, demişdir: "Onun əxlaqı Quran idi."[3]

Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mən ancaq gözəl əxlaqi dəyərləri kamilləşdirmək üçün göndərilmişəm."[4]

Muhəmməd ﷺ peyğəmbər göndərildiyi zaman ərəb cəmiyyətində həm gözəl, həm də pis əxlaq var idi. Peyğəmbər ﷺ bunlardan gözəl olanını təsdiqləmiş, pis olanını isə qadağan etmişdir. Həmçinin, Muhəmməd ﷺ əvvəlki peyğəmbərlərin gətirdiyi gözəl əxlaqı tamamlamışdır. Odur ki, hər kim gözəl əxlaq sahibi olmaq istəyirsə, Peyğəmbərin ﷺ həyat tərzinə nəzər salmalı, onun

---

[1] əl-Əhzab, 21.

[2] əl-Qələm, 4.

[3] Musnəd İmam Əhməd, 25855.

[4] Musnəd Əhməd, 2/318; Silsilətul-Əhadisis-Səhihə, 45.

necə insan olduğunu oxuyub-öyrənməli və öyrəndiklərinə əməl etməlidir.

Gəlin iki böyük alimin bu xüsusda dediklərinə nəzər salaq:

Sufyan ibn Uyeynə demişdir: "Rəsulullah ﷺ *bəşəriyyət üçün* ən böyük meyardır. Bütün işlər onunla – onun əxlaqı, həyat tərzi və tutduğu yolla müqayisə edilir. Bu meyara müvafiq olan işlər haqq, ona müxalif olanlar isə batil sayılır."[1]

Həmçinin, İbn Qeyyim öz kitabında peyğəmbərlər haqqında danışarkən demişdir: "Onlar ən düzgün meyardırlar. O meyar ki, deyilən sözlər, görülən işlər və hər cür əxlaq, onların dedikləri sözlərlə, etdikləri əməllərlə və əxlaqları ilə müqayisə edilməlidir. Onların yolunu tutub getdikdə, doğru yolda olanlarla zəlalətə düşənləri ayırd etmək olur. *Hər bir kəsin* onlardan olan asılılığı, bədənin öz ruhuna, gözün öz nuruna və ruhun öz həyatına olan asılılığından daha böyükdür. Odur ki, asılılıq və ehtiyac hər nə cür olursa olsun, insanın peyğəmbərlərdən asılılığı və onlara olan ehtiyacı daha çoxdur... Və madam ki, insanın bu dünyada və Axirətdəki səadəti, Peyğəmbərin ﷺ yolunu tutub getməkdən asılıdır, onda, özünə yazığı gələn, habelə, uğur qazanmaq və səadətə qovuşmaq istəyən hər kəs Peyğəmbərin ﷺ tutduğu yolu, yaşadığı həyat tərzini və digər işlərini araşdırıb öyrənməlidir ki, bunun sayəsində cahillərdən uzaq olsun, Peyğəmbərin ﷺ ardıcıllarının, onun tərəfdarlarının və onun firqəsinin cərgəsinə qoşulsun."[2]

---

[1] əl-Cami li Əxlaqir-Ravi və Ədab əs-Sami, 1/9.

[2] Zadul-Məad, 1/69.

Burada firqə deyildikdə, haqq yolda olan firqə nəzərdə tutulur. Bu xüsusda "əl-Maidə" surəsinin 56-cı ayəsində deyilir: "Kim Allahı, Onun rəsulunu və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar da məhz Allahın firqəsidir."

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ hər bir müsəlmana insanlarla gözəl əxlaqla davranmağı əmr edir. Məgər bu o deməkdir ki, müsəlman daim mülayim olmalı və heç vaxt sərtlik göstərməməlidir? Əlbəttə ki, yox. Müsəlman lazım gəldikdə sərtlik göstərə bilər. Necə ki, Rəsulullah ﷺ Allahın haqqının tapdalandığını gördükdə, başqa cür desək, bir kimsənin şirk və ya küfr etdiyini görəndə qəzəblənər və sərtlik göstərərdi. Lakin bununla yanaşı o, daim mülayim olar və səhabələrinə də mülayim olmağı nəsihət edərdi. Hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "Allah mülayimdir və mülayimliyi sevir."[1] Digər bir hədisdə o demişdir: "Allah, kobudluq edən və təhqiramiz sözlər danışan adama nifrət edir."[2]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, gözəl əxlaqı olan mömin adam möminlərin ən xeyirlilərindən sayılır və beləsi Qiyamət günü Peyğəmbərin ﷺ hovuzunun yanında həşr olunan və onlarla birlikdə Cənnətə girən kimsələrdən olacaq. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanlarınızdır!"[3] Digər hədisdə o, demişdir: "Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə mənə ən yaxın

---

[1] Səhih Muslim, 2593.

[2] Sunən Tirmizi, 1/362; əl-Ədəb əl-Mufrad, 464.

[3] "Səhih əl-Buxari", 3559.

olanınız, əxlaqı ən gözəl olanlarınızdır."[1] Başqa bir hədisdə o demişdir: "Heç bilirsiniz *adamın* Cənnətə girməyinə ən çox səbəb olan *amil* nədir? Allah qorxusu və gözəl əxlaq!"[2]

Sonda hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اهْدِنَا لأَحْسَنِ الأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنَّا سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنَّا سَيِّئَهَا إِلاَّ أَنْتَ ))

"Allahım, bizə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən bizi uzaq et! Bizi onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!"[3]

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقَنَا فَأَحْسِنْ خُلُقَنَا ))

"Allahım, Sən bizi gözəl biçimdə yaratdın, əxlaqımızı da gözəl et!"[4]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

"Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və fikirlərdən Sənə sığınırıq!"[5]

---

[1] "Sunən ət-Tirmizi", 1/363; "Silsilətul-Əhadisis-Səhihə", 791.

[2] Musnəd İmam Əhməd, 2/291; əl-Ədəb əl-Mufrad, 289.

[3] Səhih Muslim, 1/534.

[4] Musnəd Əhməd, 1/403; Səhih Tərğib vət-Tərhib, 2657.

[5] Səhih Sunən ət-Tirmizi, 3/184.

# On doqquzuncu hədis

عَنْ عَبْدِ اللَّهِ بْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: "كُنْت خَلْفَ رَسُولِ اللَّهِ ﷺ يَوْمًا، فَقَالَ: يَا غُلَامِ! إنِّي أُعَلِّمُك كَلِمَاتٍ: احْفَظْ اللَّهَ يَحْفَظْك، احْفَظْ اللَّهَ تَجِدْهُ تُجَاهَك، إذَا سَأَلْت فَاسْأَلْ اللَّهَ، وَإِذَا اسْتَعَنْت فَاسْتَعِنْ بِاَللَّهِ، وَاعْلَمْ أَنَّ الْأُمَّةَ لَوْ اجْتَمَعَتْ عَلَى أَنْ يَنْفَعُوك بِشَيْءٍ لَمْ يَنْفَعُوك إلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللَّهُ لَك، وَإِنْ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوك بِشَيْءٍ لَمْ يَضُرُّوك إلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللَّهُ عَلَيْك؛ رُفِعَتْ الْأَقْلَامُ، وَجَفَّتْ الصُّحُفُ" .

رَوَاهُ التِّرْمِذِيُّ [رقم:٢٥١٦] وَقَالَ: حَدِيثٌ حَسَنٌ صَحِيحٌ.

وَفِي رِوَايَةِ غَيْرِ التِّرْمِذِيِّ: "احْفَظْ اللَّهَ تَجِدْهُ أمامك، تَعَرَّفْ إلَى اللَّهِ فِي الرَّخَاءِ يَعْرِفْك فِي الشِّدَّةِ، وَاعْلَمْ أَنَّ مَا أَخْطَأَك لَمْ يَكُنْ لِيُصِيبَك، وَمَا أَصَابَك لَمْ يَكُنْ لِيُخْطِئَك، وَاعْلَمْ أَنَّ النَّصْرَ مَعَ الصَّبْرِ، وَأَنْ الْفَرَجَ مَعَ الْكَرْبِ، وَأَنَّ مَعَ الْعُسْرِ يُسْرًا".

Rəvayət edilir ki, Əbul-Abbas Abdullah ibn Abbas رضي الله عنهما demişdir: "Bir gün mən Peyğəmbərin ﷺ arxa tərəfində ikən, o mənə belə buyurdu: "Oğul bala, gəl sənə bəzi şeylər öyrədim: "Allahın *qoyduğu hüdudları* qoru ki, Allah da səni qorusun. Allahın *qoyduğu hüdudları* qoru ki, Allahı qarşında görəsən. İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin, onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə,

Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur."

Bu hədisi İmam Tirmizi ﷺ Sünən əsərində rəvayət etmiş və: "hədis həsən-səhih"dir"– demişdir.[1]

Tirmizidən başqalarının rəvayət etdiyi hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Allahın *qoyduğu hüdudları* qoru ki, Allahı qarşında görəsən. Xoş gündə Allahı tanı ki, dar gündə, O da səni tanısın. Bil ki, sənin qədərinə yazılmamış bir şey, sənin başına gələ bilməz, həmçinin, qədərinə yazılmış bir şey də səndən yan keçməz. Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir."[2]

Peyğəmbərin ﷺ azyaşlı uşaqla bu cür ehtiramla rəftar etməsi və ona belə gözəl nəsihət etməsi onun böyük əxlaq sahibi olduğundan xəbər verir.

Bu hədisdə "Allahın *qoyduğu hüdudları* qoru ki, Allah da səni qorusun" deyilir, yəni Allahın əmrlərini yerinə yetirib qadağan etdiyi əməllərdən çəkinməklə o hüdudları keçmə ki, Allah da səni həm bu həyatda, həm də axirət həyatında qorusun, bədəninə salamatlıq bəxş etsin, özünü də dində sabit etsin və sənə layiq olan mükafatı versin. Necə ki, "Muhəmməd" surəsinin 17-ci ayəsində belə buyurulur: "Doğru yolla gedənlərə gəldikdə isə, *Allah* onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər." Ayədən aydın başa düşülür ki, Allah, Onun əmrlərini yerinə yetirib qadağan etdiyi əməllərdən çəkinən kimsələrin imanını və təqvası-

[1] Sunən ət-Tirmizi, 2516.

[2] Musnəd İmam Əhməd, 1/307; əl-Mocəm əl-Kəbir, Təbərani, 11243.

nı artırır. Burada əmr və qadağa deyildikdə, vaciblər və müstəhəblər, habelə, haramlar və məkruhlar qəsd edilir. Yəni, kim Allahın buyurduğu vacibləri və müstəhəbləri yerinə yetirsə, üstəlik, haramlardan və məkruhlardan uzaq durarsa, Allah onu Özünə dost qəbul edər, onu günah işlərdən uzaq edər, ona istədiyini verər və onu hər cür şərdən qoruyar. Bu xüsusda varid olmuş qüdsi hədisdə Uca Allah buyurur: "Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Habelə, qulum nafilə ibadətlərini yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm." Yəni, mömin adam Allaha itaət etməklə – vacibləri yerinə yetirib qadağalardan çəkinməklə, Allaha yaxınlaşır, üstəlik nafilə ibadətlərini yerinə yetirməklə Allahın sevimli bəndəsinə çevrilir, beləliklə də, Allah onu qoruyur, ona yardım edir, habelə, onun gözlərini, qulaqlarını, əllərini və ayaqlarını xeyirxah işlər görməyə və bunun sayəsində savab qazanmağa müvəffəq edir.

Sonra hədisdə deyilir ki, Allahın *qoyduğu hüdudları* qoru ki, Allahı qarşında görəsən. Yəni Allah daim sənə yaxın olsun, sənin həm dini, həm də dünyəvi işlərini yoluna qoysun, sənə doğru yol göstərsin, sənə hər cür xeyir nəsib etsin və səni hər bir şərdən qorusun. Məsələn: hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağı-

na zəmanət versə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm."[1] Yəni kim dilini pis söz danışmaqdan, cinsiyyət orqanını da zinadan qoruyarsa, Cənnətə girər.

Peyğəmbər ﷺ bəzən dua edib deyərmiş:

(( اللَّهُمَّ احْفَظْنِي بِالإِسْلامِ قَائِماً وَاحْفَظْنِي بِالإِسْلامِ قَاعِداً وَاحْفَظْنِي بِالإِسْلامِ رَاقِداً وَلاَ تُشْمِتْ بِي عَدُوًّا وَلاَ حَاسِداً اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خَزَائِنُهُ بِيَدِكَ وَأَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ ))

"Allahım, məni həm ayaq üstə olduğum zaman, həm oturduğum, həm də uzandığım vəziyyətdə İslam dini ilə mühafizə et. Düşməni və paxılı mənə qarşı sevindirmə. Allahım, xəzinəsi Sənin Əlində olan hər bir xeyri Səndən istəyir və xəzinəsi Sənin Əlində olan hər bir şərdən Sənə sığınıram!"[2]

Xüsusi olaraq qeyd edək ki, mömin adamın, Allahın *qoyduğu hüdudları* qorumasına müvəffəq olması üçün, Allahdan layiqincə qorxması lazımdır. Diqqət edin! Uca Allah "ən-Nəhl" surəsinin 128-ci ayəsində buyurur:

﴿ إِنَّ ٱللَّهَ مَعَ ٱلَّذِينَ ٱتَّقَواْ وَّٱلَّذِينَ هُم مُّحْسِنُونَ ﴾

"Həqiqətən, Allah *Ondan* qorxanların və yaxşı işlər görənlərin yanındadır." Qətadə ﷺ bu ayəni izah edib deyir ki: "Kim Allahdan qorxarsa, Allah onun yanında olar. Allah da kimin yanında olarsa, onun yanında məğlubedilməz dəstə, yatmayan mühafizəkar və doğru yol göstərən bir hami olar." İndi oxuyacağımız ayə-

[1] Səhih əl-Buxari, 6474.

[2] Mustədrək əl-Hakim, 1/525; Silsilə əl-Əhadis əs-Səhihə, 1540-cı hədis.

yə diqqət edin və baxın görün Allah Öz təqvalı qullarına nə buyurur. Uca Allah Musa عليه السلام və Haruna عليه السلام belə buyurur:

﴿لَا تَخَافَآ إِنَّنِى مَعَكُمَآ أَسۡمَعُ وَأَرَىٰ﴾

“Qorxmayın, Mən sizinləyəm, eşidirəm və görürəm!”[1] Uca Allah Öz peyğəmbərlərinə, onları Fironun zülmündən qoruyacağını vəd edir və vədini də yerinə yetirir. Şərh etdiyimiz hədisdə Peyğəmbərin ﷺ: “Allahın *qoyduğu hüdudları* qoru ki, Allah da səni qorusun” sözünün əks anlamından aydın olur ki, o hüdudları qorumayan kimsəni Allah qorumaz. Necə ki, “ət-Tovbə” surəsinin 67-ci ayəsində münafiqlər barədə deyilir: “Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar.” Deməkl, mükafat və ya cəza, insanın əməlinə uyğun olur.

Sonra şərh etdiyimiz hədisdə: “İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə”– deyilir. Peyğəmbərin ﷺ bu sözü, “əl-Fatihə” surəsinin 5-ci ayəsinə uyğundur. Həmin ayədə deyilir: “Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.” Allahdan istəmək, yəni dua etmək ibadətdir, ibadəti isə Allahdan başqasına yönəltmək olmaz. Yeri gəlmişkən qeyd edək ki, islam alimləri istəməyi və kömək diləməyi iki qismə bölmüşlər:

1-cisi yalnız Allahın qadir olduğu işlərdə, ancaq Allahdan istəmək və ancaq Ondan kömək diləmək. İstəməyin və kömək diləməyin bu qismi ibadət sayılır, bunu Allahdan qeyrisinə yönəltmək, yəni belə işlərdə Allahdan başqasından istəmək və ya kö-

---

[1] Ta ha, 46.

mək diləmək isə şirk sayılır. Bu xüsusda "əl-Cinn" surəsinin 18-ci ayəsində belə buurulur: "Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!" Həmçinin, "əl-İsra" surəsinin 39-cu ayəsində belə buyurulur: "Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan."

2-ci qismi isə insanlardan, onların qadir olduğu işlərdə bir şey istəmək və ya  kömək diləməkdir ki, bunu da etmək icazəlidir. Lakin sələflər imkan daxilində bunu da etməzdilər. Məsələn: İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, Auf ibn Malik əl-Əşcəi رضي الله عنه demişdir: "Mən səhabələrdən bir çoxunun qamçısı yerə düşərkən heç kəsə ağız açmadığını və özünün atdan düşüb o qamçını götürdüyünü görmüşəm."[1] Bu xüsusda varid olmuş bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İffətli olmaq istəyəni Allah iffətli edər. *İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz."[2] Digər bir hədisdə o, demişdir: "Birinizin ip götürüb bir şələ odun yığaraq belində *bazara* aparıb satması və bu səbəbdən Allahın köməyi ilə heç kəsə möhtac olmaması, onun üçün insanlara ağız açmaqdan daha xeyirlidir. Bir də ki, bilmək olmaz, *o adamlar* ona istədiyini verəcəklər, yoxsa imtina edəcəklər."[3] Yenə bir hədisdə o, demişdir: "Uca əl alçaq əldən daha xeyirlidir. Uca əl *sədəqə* verən əldir; alçaq əl isə dilənən əldir."[4]

---

[1] Səhih Muslim, 1043.

[2] Səhih əl-Buxari, 1469.

[3] Səhih əl-Buxari, 1471.

[4] Səhih əl-Buxari, 1429.

Şərh etdiyimiz hədisin tamamında deyilir ki, "əgər bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin, onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur."

Burada ümmət deyildikdə, yer üzündə olan bütün insanlar qəsd edilir.

Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, heç kəs Allahın yazdığı qədəri dəyişdirə bilməz. Və kim Allaha layiqincə təvəkkül edərsə, yaradılanlar ona heç bir zərər yetirə bilməz, hətta bunun üçün əlbir olsalar belə. Necə ki, Uca Allah Öz Peyğəmbərinə ﷺ: "Allah səni insanlardan qoruyacaq" demiş və onu kafirlərin bütün hiylələrindən qorumuşdur. Peyğəmbər ﷺ gündəlik olaraq hər hər fərz namazından sonra dua edib deyərmiş:

(( اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ))

"Allahım, Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək bir kəs yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz"[1]

Həqiqətən də, hər bir müsəlman gündə beş kərə bu zikri etməklə yalnız Allaha təvəkkül etdiyini etiraf edir. "Ali-İmran" surəsinin 26-cı ayəsi də bunu təsdiqləyir. Ayədə Uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurur: "De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkündən verir və istədiyindən də onu geri

---

[1] Səhih əl-Buxari, 1/255; Səhih Muslim, 1/414.

alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən." Bu ayə və hədis hər bir müsəlmanı yalnız Allaha təvəkkül etməyə təşviq edir. İbn Rəcəb təvəkkül kəlməsini belə izah etmişdir: "Təvəkkül: dünyaya və Axirətə aid hər bir işdə xeyir əldə etmək və ya zərəri dəf etmək üçün səmimi-qəlbdən Allaha etimad etmək və Ondan başqasının nə ruzi verməyə, nə verdiyinin qarşısını almağa, nə xeyir verməyə, nə də zərər vurmağa qadir olduğuna iman etməkdir."[1] Qeyd edək ki, Allaha təvəkkül etmək ibadət sayılır. Allahdan qeyrisinə edilən təvəkkül isə üç qismdir: birincisi, Allahdan qeyrisinə, onun qadir olmadığı bir işdə ona təvəkkül etmək. Bu, böyük şirk sayılır. İkincisi, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad edərək ona təvəkkül etmək. Bu da, kiçik şirk sayılır. Üçüncüsü isə, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad etmədən ona təvəkkül etmək. Bunu etmək isə günah sayılmır.[2]

İmam Şafii ﷺ təvəkkülə aid gözəl şeir parçasında deyir ki:

Öz əzəli elminlə qullarını xəlq etdin,
Qocanı və cavanı qədərinə yönəltdin.
Kiminə lütf eylədin, kimini rəzil etdin,
Kiminə kömək etdin, kimini də tərk etdin.
Kimisi bədbəxt oldu, kimisi isə xoşbəxt,

[1] Camiul-Ulum vəl-Hikəm, 49-cu hədisin şərhi.
[2] Cədid fi Şərh Kitab ət-Tövhid, 1/302.

Kimisi mənfur oldu, kimisi də xoştinət.[1]

Bu deyilənlərdən bizə aydın olur ki, mömin adam qədərə iman gətirməklə yanaşı öz işində əlindən gələni etməli, həm də bu işdə yalnız Allaha təvəkkül etməli, Ona yalvarmalı və öz işində Ondan müvəffəqiyyət diləməlidir. Belə olduğu təqdirdə Allah onu, onun üçün müyəssər olana yönəldəcək. Hədislərin birində rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ səhabələrinə: "Hər kəsin Cənnətdə və ya Cəhənnəmdə tutacağı yer əzəldən qədərə yazılmışdır"– demiş, səhabələr ondan: "Ya Rəsulullah, qədərimizə yazılana arxayın olub, əməli tərk edəkmi?"– deyə sual verdikdə, Peyğəmbər ﷺ belə cavab vermişdir: "Etmək istədiyiniz işləri edin! Çünki hər kəsə yaradılmış olduğu işi görmək müyəssər olacaq. Xoşbəxt olanlara xoşbəxt insanların əməli, bədbəxt olanlara isə bədbəxt insanların əməli müyəssər olacaq."[2]

Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, insanın görəcəyi işdə seçimi və istəyi vardır, lakin bu istək də Allahın istəyinə bağlıdır. Bu xüsusda, ət-Təkvir, surəsində belə buyurulur: "Bu *Quran,* aləmlərə yalnız bir nəsihətdir – sizlərdən doğru *yolda* olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"

Şərh etdiyimiz hədisin sonunda: "Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur"– deyilir. Burada "səhifələr" deyildikdə, göylər və yer yaradılmamışdan əlli min il öncə, məxluqatın hamısının qədəri yazılmış Lövhi-Məhfuz qəsd edilir. Belə ki, həmin vaxt

---

[1] Divan 1/107. Xoştinət: xoştəbiətli, gözəl xasiyyətli.

[2] Səhih əl-Buxari, 1362.

Uca Allah qələm yaratmış və ona bütün məxluqatın qədərini yazmağı əmr etmişdir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah ilk əvvəl qələmi yaratmış, sonra da ona sonsuza qədər olacaq hər bir şeyi yazmağı əmr etmişdir."[1]

Şərh etdiyimiz bu kitabda İmam Nəvəvinin nəql etdiyi ikinci rəvayətdə: "Xoş gündə Allahı tanı ki, dar gündə, O da səni tanısın" deyilir. Bu o deməkdir ki, hər kim xoş günündə ixlasla Allaha ibadət etsə, sıxıntı anında Allah ona yardım edər. Necə ki, "ət-Talaq" surəsinin 2-ci və 3-cü ayəsində belə buyurulur: "Kim Allahdan qorxarsa, *Allah* ona *hər sıxıntıdan* bir çıxış yolu nəsib edər və ona gözləmədiyi yerdən ruzi bəxş edər." İbn Abbas رضي الله عنه bu ayəni şərh edərkən demişdir: "Kim Allahdan qorxarsa, Allah onun dünya və axirət sıxıntılarını aradan qaldırar." Həmçinin, "əs-Saffat" surəsinin 143-cü və 144-cü ayələrində Yunus عليه السلام barədə belə deyilir: "Əgər o, Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı." Yəni xoş günündə Allaha ibadət edənlərdən olmasaydı, Allah onu bu sıxıntıdan qurtarmazdı. Həmçinin, mağaraya daldalanmış üç nəfərin hekayəsini də buna misal göstərmək olar. Onlardan biri xoş günündə ata-anasının qayğısına qalmış, o birisi Allahdan qorxub əmisi qızının namusuna toxunmamış, üçüncüsü də mal yiyəsinin haqqını artıqlaması ilə yiyəsinə qaytarmışdı. Nəhayət, dar ayaqda onların hər biri xoş günlərində etdikləri bu yaxşı əməllər vasitəsilə Allaha təvəssül etmiş, Allah da onları sıxıntıdan qurtarmış və onlara mağaradan çıxmaqda kömək etmişdir.

---

[1] Sunən Əbu Davud, 4700; Silsilətul-Əhadisis-Səhihə, 133.

Bunun əks anlamı da doğrudur. Yəni hər kim xoş günündə Allahı unudarsa, Ona ibadət etməzsə, sıxıntı anında da Allah onu unudar və ona yardım etməz. Bu xüsusda Uca Allah "ət-Tovbə" surəsinin 67-ci ayəsində belə buyurur: "Onlar Allahı unutdular. Allah da onları unutdu." Həmçinin buna Fironun əhvalatını da misal çəkmək olar. O xoş günündə Allahı inkar etdiyi üçün sıxıntı anında Allah ona yardım etməmişdir. Uca Allah "Yunus" surəsinin 90-cı, 91-ci və 92-ci ayələrində belə buyurur: "Nəhayət *Firon dənizdə* batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!" *Firona deyildi:* "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir."

Şərh etdiyimiz hədisdə deyilir ki, sənin qədərinə yazılmamış bir şey, sənin başına gələ bilməz, həmçinin, qədərinə yazılmış bir şey də səndən yan keçməz. Yəni sən, nə başına gələcək bir işin qarşısını ala bilər, nə də sənin qismətinə yazılmayan bir şeyə nail ola bilərsən, dolayısıyla, başımıza nə gəlirsə, hamısı Allahın izni ilə olur. Bu xüsusda "ət-Tovbə" surəsinin 51-ci ayəsində belə buyurulur: "De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!" Həmçinin, "əl-Hədid" surəsinin 22-ci ayəsində buyurulur: "Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, yazıda *müəyyən edilmiş* olmasın." Bu ayələrdən aydın başa dü-

şülür ki, kainatda baş verən hər bir hadisə Allahın izni ilə baş verir. Odur ki, mömin adam daim yaxşı işlər görməyə çalışmalı və qədərinə yazılanlardan razı qalmalıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sənə fayda verən işlərlə məşğul ol, Allahdan kömək dilə və aciz olma. Və əgər başına bir müsibət gələrsə, demə ki: "Əgər belə etsəydim, belə olardı", əksinə, de: "Allah qədərə yazmış və istədiyini etmişdir." Çünki sənin: "Əgər..." deməyin, şeytanın əməlinə qapı açır."[1]

Sonra şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ buyurur: "Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da, asanlıq gəlir." Peyğəmbər ﷺ bu sözlə müsəlmanları səbir etməyə təşviq edir və bildirir ki, əgər müsibətə səbir etsələr, Allah onlara həm zahiri, həm də batini düşmənə - yəni həm kafirlərə, həm də şeytana və nəfsə qalib gəlməkdə yardım edər, kədərin ardından onlara sevinc bəxş edər və bu çətinlikdən sonra onların işlərini asanlaşdırar. Xüsusi olaraq qeyd etmək lazımdır ki, insan həm dili, həm qəlbi, həm də əməli ilə səbir etməlidir. Yəni müsibət gəldikdə adam dili ilə narazılığını bildirib şikayətlənməməli, əksinə:

(( إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْرًا مِنْهَا ))

"Biz, Allah üçün yaşayırıq və Onun hüzuruna qayıdacağıq! Allahım, başıma gəlmiş bu müsibətə görə mənə savab yaz və mənə bundan xeyirlisini nəsib et!" deyə dua etməli, həmçinin:

---

[1] Səhih Muslim, 2664.

(( حَسْبُنَا اللَّهُ وَنِعْمَ الْوَكِيلُ ))

"Allah bizə yetər, O, nə gözə Qoruyandır!" deməli, habelə:

(( الْحَمْدُ لِلَّهِ عَلَى كُلِّ حَالٍ ))

"Hər bir hala görə Allaha həmd olsun!" deyərək şükür etməlidir. Həmçinin, müsibət gəldikdə adam qəlbindən Allaha qarşı pis fikirlər keçirməməli, əksinə, düşünməldir ki, Allah onu sevir deyə imtahana çəkir, həmçinin, o, getdikcə Peyğəmbərə ﷺ oxşayır deyə imtahanı artır, çünki insanlar arasında ən çox sınağa çəkilən kəslər peyğəmbərlər, sonra onlara oxşarlar və oxşarlardır. Üstəlik, hər bir müsibət onun günahlarının silinməsi üçün kəffarə və savabının artması üçün bir səbəbdir. Və əgər bu müsibətə səbir edərsə, Allah ona qələbə bəxş edər.

Və nahəyət, adam öz əməli ilə səbirli olduğunu göstərməli, müsibət gəldikdə saç yolmaq, yaxa cırmaq və s. bu kimi hərəkətlərlə Allaha qarşı üsyan etməməlidir, əksinə, iki rükət namaz qılıb Allahdan kömək diləməli və bu müsibəti daha ağırı ilə müqayisə etməlidir. Bu xüsusda rəvayət edilmiş ibrətamiz bir hədisdə xəbər verilir ki, Xəbbab ibn əl-Ərat رضي الله عنه demişdir: "Rəsulullah ﷺ libasına bürünüb Kəbənin kölgəsində dincələrkən biz onun yanına gəldik və ona şikayət edib dedik: "Bizim üçün *Allahdan* kömək diləməyəcəksənmi? Bizim üçün Allaha dua etməyəcəksənmi?" O buyurdu: "Sizdən əvvəl yaşamış *möminlərdən* birisini tutub torpağa basdırardılar, sonra da mişar gətirib onun başının tən ortasına qoyar və onu iki hissəyə bölərdilər, lakin bu *işgəncə* onu dinindən

döndərməzdi. Kimisini də, dəmir daraqlarla başını ta sümüyədək və ya sinirinədək darayardılar, lakin bu *əzab* onu dinindən döndərməzdi. Vallahi ki, Allah bu dini tamamlayacaq, hətta iş o yerə gəlib çatacaq ki, atlı Sənadan Hədrəmovtə təkbaşına səfər edəcək və *yolda* Allahdan başqa heç kəsdən qorxmayacaqdır. Lakin siz tələsirsiniz."[1]

Bu mövzuya dair Qazı Şureyhin də gözəl sözü var. O demişdir: "Mənim başıma müsibət gəldikdə, buna görə mən dörd dəfə Allaha həmd edirəm: həmd edirəm ki, başıma bundan daha böyük müsibət gətirmədi; həmd edirəm ki, bu müsibətə səbir etməyi mənə nəsib etdi; həmd edirəm ki, bu müsibət gəldikdə məni: "İnnə lillahi və innə iləyhi raciun!" deməyə müvəffəq etdi; və bir də həmd edirəm ki, bu müsibəti mənim dinimə yox, dünyama aid etdi."

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ احْفَظْنَا بِالإِسْلامِ قَائِماً وَاحْفَظْنَا بِالإِسْلامِ قَاعِداً وَاحْفَظْنَا بِالإِسْلامِ رَاقِداً وَلاَ تُشْمِتْ بِنَا عَدُوًّا وَلاَ حَاسِداً اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خَزَائِنُهُ بِيَدِكَ وَنَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ ))

"Allahım, bizi həm ayaq üstə olduğum zaman, həm oturduğumuz, həm də uzandığımız vəziyyətdə İslam dini ilə mühafizə et. Düşməni və paxılı bizə qarşı sevindirmə. Allahım, xəzinəsi Sənin

[1] Səhih əl-Buxari, 3612.

Əlində olan hər bir xeyri Səndən istəyir və xəzinəsi Sənin Əlində olan hər bir şərdən Sənə sığınırıq!”[1]

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِنَا، وَدُنْيَانَا وَأَهْلِنَا، وَمَالِنَا، اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِنَا، وَآمِنْ رَوْعَاتِنَا، اللَّهُمَّ احْفَظْنَا مِنْ بَيْنِ يَدَيْنَا، وَمِنْ خَلْفِنَا، وَعَنْ يَمِينِنَا، وَعَنْ شِمَالِنَا، وَمِنْ فَوْقِنَ، وَنَعُوذُ بِعَظَمَتِكَ أَنْ نُغْتَالَ مِنْ تَحْتِنَا ))

“Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirik! Allahım, dinimiz, dünyamız, ailəmiz və malımız üçün Səndən əfv və salamatlıq diləyirik! Allahım, eyiblərimizi ört və qorxularımızdan bizi xatircəm et! Allahım, bizi önümüzdən, arxamızdan, sağımızdan, solumuzdan və başımızın üstündən qoru. Ayağımızın altının qazılmasından Sənin əzəmətinə sığınırıq!”[2]

---

[1] Mustədrək əl-Hakim, 1/525; Silsilə əl-Əhadis əs-Səhihə, 1540-cı hədis.

[2] Sunən Əbu Davud, 5074; Səhih ət-Tərğib vət-Tərhib, 659.

# İyirminci hədis

عَنْ ابْنِ مَسْعُودٍ عُقْبَةَ بْنِ عَمْرٍو الْأَنْصَارِيِّ الْبَدْرِيِّ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ "إنَّ مِمَّا أَدْرَكَ النَّاسُ مِنْ كَلَامِ النُّبُوَّةِ الْأُولَى: إذَا لَمْ تَسْتَحِ فَاصْنَعْ مَا شِئْتَ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٣٤٨٣].

Əbu Məsud Uqbə ibn Amr əl-Ənsari əl-Bədri ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "İlk peyğəmbərlik kəlamından insanların yadında qalan söz *belədir*: "Utanmırsansa, istədiyini et."

Bu hədisi İmam Buxari öz "Səhih"hində rəvayət etmişdir.[1]

Bu hədis imanın şöbələrindən biri haqda – yəni həyadan bəhs edir. Həyanın imanın şöbələrindən olması barədə Peyğəmbər ﷺ demişdir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü "Lə ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyi yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir."[2] Digər bir hədisdə rəvayət edilir ki, Rəsulullah ﷺ, *ənsardan olan* səhabəsinin yanından keçərkən onun digər səhabəyə *həddən ziyadə* həyalı olmamağı nəsihət etdiyini görüb demişdir: "Onunla işin olmasın! Həqiqətən, həya imandandır."[3]

Bu hədislərdən aydın başa düşülür ki, həya, tərifəlayiq xislətlərdəndir. Belə ki, bu xislət həm islam şəriətinin, həm də əvvəlki

[1] Səhih əl-Buxari, 3483.

[2] Səhih Muslim, 153.

[3] Səhih əl-Buxari, 24; Səhih Muslim, 154.

şəriətlərin buyurduğu gözəl xislətdir. Bu da, o deməkdir ki, peyğəmbərlərin hamısının şəriətində həya tərifəlayiq gözəl xislət hesab edilmişdir və onların – aleyhimussalətu vəssəlam – hamısı həyalı olmuşdur. Həya: abır, ar, ismət, utanma hissidir. Həya insanı yaxşı işlər görməyə təşviq edən və pis əməllərdən çəkindirən əxlaqdır. Həyanın yeri qəlbdir və o, imandandır. Həya adamda ya əvvəlcədən xəlq edilir, yəni insan xislətcə həyalı olur, ya da o, bu gözəl xislətə təcrübə ilə yiyələnir. Rəvayət edilir ki, Munzir ibn Aiz ﵁ demişdir: "Bir gün Peyğəmbər ﷺ mənə dedi: "Səndə iki əxlaqi cəhət var ki, Allah onları sevir. Bu, həlim və bir də həyalı olmaqdır." Mən soruşdum: "*Bunlar məndə* əvvəlcədən var, yoxsa sonradan olub?" Peyğəmbər ﷺ dedi: "Əvvəlcədən var!" Onda mən dedim: "Allahın sevdiyi bu iki əxlaqi cəhəti məndə yaradan Allaha həmd olsun!"[1]

Həyanın fəzilətinə dair neçə-neçə hədislər rəvayət edilmişdir. Həmin hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Həya insana ancaq xeyir gətirər" - "Həya bütövlükdə xeyirdir."[2]

Ən əzəmətli, ən vacib və ən əhəmiyyətli həya isə, aləmlərin Rəbbi olan, bütün məxluqatı və kainatı yaradan, hər şeyi eşidən, hər şeyi görən və hər şeyi bilən, xain gözlərin və köksərin gizlətdiklərindən xəbəri olan əzəmətli Allahdan utanmaqdır. Bu xüsusda rəvayət edilmiş hədisdə Abdullah ibn Məsud ﵁ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizə: "Allahdan layiqincə həya edin!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah! Allaha həmd olsun ki,

---

[1] Sunən ən-Nəsai, 8248. əl-Ədəbul-Mufrad, 584.

[2] Səhih Muslim, 156 və 157.

biz Ondan həya edirik." O, dedi: "Mən bunu qəsd etmirəm. Lakin Allahdan layiqincə həya etmək budur ki, başını və başında olanları – *dilini, gözünü, qulağını, saqqalını, hicabını və s.* qoruyasan, habelə, bətnini və onun ətrafındakıları – *qəlbini, əlini, ayağını, cinsiyyət üzvlərini və s. haramlardan* qoruyasan. Üstəlik, öləcəyini və *qəbirdə* çürüyəcəyini xatırlayasan. Axirətdə uğur *qazanmaq* istəyən adam dünyanın bər-bəzəyini tərk edər. Bunları edən kimsə Allahdan layiqincə həya etmiş olar."[1]

Peyğəmbər ﷺ demək istəyir ki, kim özünü haramlardan qoruyar, üstəlik, etdiyi hər bir əməlinə görə cavab verəcəyini düşünər və axirətini qazanmağa səy göstərərsə, Allahdan layiqincə həya etmiş sayılar. Bir çox insanlar özlərinin pis əməllərini insanlar yanında etməkdən həya edir, lakin xəlvətdə onu edərkən Allahdan utanmırlar. Bu xüsusda "ən-Nisa" surəsinin 108-ci ayəsində Uca Allah belə buyurur:

﴿ يَسْتَخْفُونَ مِنَ ٱلنَّاسِ وَلَا يَسْتَخْفُونَ مِنَ ٱللَّهِ وَهُوَ مَعَهُمْ إِذْ يُبَيِّتُونَ مَا لَا يَرْضَىٰ مِنَ ٱلْقَوْلِ ﴾

"Onlar gecələr xəlvətdə *Allahın* razı qalmadığı sözləri danışdıqda *onu* insanlardan gizlədir – həya edir, lakin öz yanlarında olan Allahdan isə onu gizlətmirlər – həya etmirlər."

Rəvayət edilir ki, bir gün bir kişi səhrada ikən bir qadına yaxınlaşır və ona müəyyən pul müqabilində zina etməyi təklif edir, qadın isə bundan imtina edir. Kişi israrla ona: "Gəl, heç kəs bizi görməyəcək. Bu səhrada göydəki ulduzlardan başqa bir şey yox-

[1] Sunən ət-Tirmizi, 2458; Musnəd Əhməd, 1/387; Səhih əl-Cami, 937.

dur" deyir, qadın da ona belə cavab verir: "Bəs ulduzları yaradan Allah haradadı?" Beləliklə, Allahdan qorxan həmin qadın o kişini murdar əməldən çəkindirir.

Başqa bir rəvayətdə də xəbər verilir ki, bir gün bir kişi bir qadını evinə salıb qapıları bağlayır və onunla zina etmək istəyir. Qadının təşviş içində olduğunu görən kişi ona: "Qapıların hamısı bağlı deyilmi?"– deyə ürək-dirək verir, qadın isə ona belə cavab verir: "Bir qapıdan başqa, qapıların hamısı bağlıdır." Kişi təəccüblə soruşur: "Hansı qapı açıq qalıb ki?" Qadın deyir: "Bizimlə Allahın arasında olan qapı." Beləcə, bu qadın o kişini murdar əməldən çəkindirir.

İbn Rəcəb bu hədisi izah edərkən demişdir: "Peyğəmbərin ﷺ: "İlk peyğəmbərlik kəlamından insanların yadında qalan söz *belədir*: "Utanmırsansa, istədiyini et" sözü dəlildir ki, bu söz, əvvəlki peyğəmbərlərin zamanından ta indiyədək insanlar arasından dillər əzbəri olmuş və günümüzə gəlib yetişmişdir. "Utanmırsansa, istədiyini et" sözü isə iki cür izah edilə bilər:

1-cisi budur ki, bu kəlmə zahirində olduğu kimi əmr mənasında yox, sadəcə beləsini qınamaq və bu əməli qadağan etmək üçün əmr mənasında işlənir. Bu rəyi deyənlər də, bu sözü iki cür izah etmişlər:

– birincisi budur ki, bu, təhdid mənasını ifadə edən əmrdir, mənası da budur ki, əgər həya ediləsi işdə həya etmirsənsə, istədiyini et. Şübhəsiz ki, buna görə Allah səni cəzalandıracaq. Necə ki, "Fussilət" surəsinin 40-cı ayəsində buyurulur: "İstədiyinizi edin! Həqiqətən, Allah nə etdiklərinizi görür." Həmçinin, "əz-Zu-

mər" surəsnin 15-ci ayəsində kafirlərə belə buyurur: "Siz də Allahdan başqa istədiyinizə ibadət edin!" Bu ayədə "istədiyinizi edin" əmri təhdid mənasında işlənir. Bu, Əbul-Abbas Sələbin rəyidir.

– ikincisi də budur ki, burada əmr, xəbər mənasında işlənir. Yəni, həyası olmayan adam istədiyini edər. Çünki həya insanı pis işlərdən çəkindirən amillərdəndir. Həyası olmayan adam isə hər cür murdar və yaramaz iş görə bilər. Peyğəmbərin ﷺ buna bənzər, yəni əmri xəbər formasında işlətdiyi başqa bir hədisi də var. Həmin hədisdə buyurur ki: "Kim mənim adımdan bilərəkdən bir yalan söyləyərsə, atəşdən olan yerini hazırlasın."[1] yəni kim özündən hədis uydurarsa, cəhənnəmlik olar. Bu da, Əbu Ubeyd əl-Qasim ibn Səllamın, İbn Quteybənin, Muhəmməd ibn Nəsr əl-Mərvəzinin və başqalarının rəyidir. Həmçinin, Əbu Davud İmam Əhməddən buna bənzər bir rəy nəql etmişdir.

"Utanmırsansa, istədiyini et" sözünün 2-ci izahı da belədir ki, bu, olduğu kimi əmr mənasını ifadə edir. Yəni Allahdan və insanlardan həya edilməsi vacib olmayan işlərdə - məsələn: ibadət və itaət etmək, gözəl əxlaq nümayiş etdirmək, ədəb-ərkanla davranmaq və s. bu kimi işlərdə, istədiyini elə. Bu da, Əbu İshaq əl-Mərvəzinin, Şafiinin və Əhmədin rəyidir."[2]

Bu hədis dəlildir ki, mömin adam peyğəmbərlərin əməllərindən ibrət götürməli və onların yolunu tutub getməlidir. "əl-Ənam" surəsinin 90-cı ayəsində belə buyurulur: "Peyğəmbərlər Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yo-

---

[1] Səhih əl-Buxari, 106; Səhih Muslim, 3.

[2] Camiul-Ulum vəl-Hikəm, 1/497-498.

luna yönəl." Lakin qeyd etmək lazımdır ki, bizdən əvvəlkilər barədə varid olmuş xəbərlər üç qismə bölünür:

1-cisi o xəbərlərdir ki, Quran və Sünnə onların doğruluğunu təsdiq etmişdir. Bunlara əməl etmək vacib və ya müstəhəbdir.

2-ci qismi o xəbərlərdir ki, Quran və Sünnə onların batil olduğunu demişdir. Bunları da inkar etmək lazımdır.

3-cü qismi də o xəbərlərdir ki, Quran və Sünnə onların nə səhih, nə də batil olduğunu demişdir. Bunları da etməmək lazımdır. Lakin bununla yanaşı, bu xəbərləri sadəcə məsləhət olduqda danışmaq caizdir.

Rəvayət edilir ki, Abdullah ibn Məsləmə əl-Qanabi vaxtaşırı öz fasiq dostlarını evinə dəvət edib onlarla bərabər şərab içərmiş. Yenə bir gün onları evinə dəvət etdi və onlar gələnədək qapının ağzında oturdu. Elə bu vaxt Şobə ibn əl-Həccac gəlib oradan keçdi. O, uzunqulağın üstündə idi, yanınca da bir toplum adam gəlirdi. Qanabi bu mənzərəni görüb heyrətə gəldi və: "Bu kimdir?"– deyə soruşdu. Dedilər: "Bu, Şobədir." Yenə soruşdu: "Şobə kimdir?" Dedilər: "Hədis alimidir." Qanabi qalxıb ona yaxınlaşdı və: "Mənə hədis danış"– dedi. Şobə ona belə cavab verdi: "Sən hədis əhlindən deyilsən ki, mən sənə hədis danışım." Onda Qanabi xəncərini çıxardıb dedi: "Sənə dedim mənə hədis danış, yoxsa vuraram səni." Şobə dedi: "Peyğəmbər ﷺ belə buyurmuşdur: "Utanmırsansa, istədiyini et!"

Qanabi bu hədisi eşidəndə xəncərini yerə atdı və evinə qayıdıb evdəki şərabın hamısını zibilliyə boşaltdı.

Bundan sonra o, Mədinəyə gedib Malik ibn Ənəsin yanında dərs aldı və böyük mühəddislərdən birinə çevrildi. Buxari, Muslim, Əbu Davud, Əbu Hatim ər-Razi, Əbu Zura və başqa neçə-neçə tanınmış mühəddislər ondan bir çox hədislər rəvayət etmişlər.

Sonda, hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( رَبِّ اغْفِرْ لَنَا خَطِيئَتَنَا وَجَهْلَنَا وَإِسْرَافَنَا فِي أَمْرِنَا كُلِّهِ وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنَّا، اللَّهُمَّ اغْفِرْ لَنَا هَزْلَنَا وَ جِدَّنَا وَ خَطَايَانَا وَعَمْدَنَا وَكُلُّ ذَلِكَ عِنْدَنَا، اللَّهُمَّ اغْفِرْ لَنَا مَا قَدَّمْنَا وَمَا أَخَّرْنَا وَمَا أَسْرَرْنَا وَمَا أَعْلَنَّا أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

“Ey Rəbbim, bizim günahımızı, bilmədiklərimizi, bütün işlərimizdə israfa yol verməyimizi və bizdən daha yaxşı bildiyin şeyləri bağışla. Allahım, bizim zarafatla və ya ciddi olaraq, səhvən və ya bilərəkdən etdiyimiz xətalarımızı bağışla! Bunların hamısının bizdə olması mümkündür. Allahım, bizim əvvəl etdiyimiz, sonra edəcəyimiz, gizlin saxladığımız və aşkara çıxardığımız pis əməllərimizi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən və Sən hər şeyə qadirsən.”[1]

---

[1] Səhih əl-Buxari, 6399.

# İyirmi birinci hədis

عَنْ أَبِي عَمْرٍو وَقِيلَ: أَبِي عَمْرَةَ سُفْيَانَ بْنِ عَبْدِ اللَّهِ ﷺ قَالَ: "قُلْت: يَا رَسُولَ اللَّهِ! قُلْ لِي فِي الْإِسْلَامِ قَوْلًا لَا أَسْأَلُ عَنْهُ أَحَدًا غَيْرَك؛ قَالَ: قُلْ: آمَنْت بِاَللَّهِ ثُمَّ اسْتَقِمْ".

رَوَاهُ مُسْلِمٌ [رقم:٣٨].

Rəvayət edilir ki, Əbu Amr, yaxud Əbu Amrə, Süfyan ibn Abdullah ﷺ demişdir: "Bir dəfə mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! İslam haqqında mənə elə bir söz de ki, səndən başqa heç kəsdən bu haqda soruşmayım. Peyğəmbər ﷺ buyurdu: "Allaha iman gətirdim" de, sonra da düz yol tut!"

Bu hədisi, İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Səhabənin Peyğəmbərə ﷺ belə sual verməsi onun yaxşı işlər görməyə həris olduğundan xəbər verir. Səhabələrin hamısı belə olub. Onlar daim Peyğəmbərdən ﷺ nəsihət istəyərdilər ki, o nəsihətlərə əməl edib öndə gedən nümunəvi müsəlmanlardan olsunlar. "əl-Muminun" surəsində onlar belə vəsf edilirlər: "Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinin hüzuruna qayıdacaqlar deyə yerinə yetirməli olduqları əməlləri qəlbləri qorxu içində yerinə yetirənlər – Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər."[2]

---

[1] Səhih Muslim, 38.

[2] əl-Muminun, 57-61.

Şərh etdiyimiz hədisdə Peyğəmbərin ﷺ öz səhabəsinə dediyi söz, həqiqətən də yığcam və genişmənalı bir sözdür. Peyğəmbərin ﷺ: "Allaha iman gətirdim" de" sözü, həm rububiyyət, həm uluhiyyət, həm də isim və sifətlər tovhidini əhatə edir. Yəni adam həm dili, həm qəlbi, həm də əməlləri ilə Allahın tək İlah olduğunu təsdiq etməli və Ona heç kəsi şərik qoşmamalıdır. Peyğəmbərin ﷺ bu sözü, Quranda da öz təsdiqini tapıb. "Fussilət" surəsinin 30-cu ayəsində belə buyurulur: "Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra *əməllərində* düz olan kəslərə mələklər nazil olub *deyərlər:* "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətə sevinin!" Həmçinin, "əl-Əhqaf" surəsinin 13-cü ayəsində buyurulur: "Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər." Ayələrlə bu hədis arasında olan bağlılığa diqqət edin! "Rəbbim Allahdır" demək, "Allaha iman gətirdim" deməkdir. Belə ki, məhz Rəbbinin Allah olduğunu qəbul edən və Ona heç nəyi şərik qoşmayan kimsə, Allaha iman etmiş sayılır. Məhz belə kimsədən qəbirdə: "Rəbbin kimdir" – deyə soruşulduqda, o: "Rəbbim Allahdır" deyə cavab verməyə müvəffəq ediləcək. Allaha səmimi-qəlbdən iman gətirməyən kimsələr isə bu dünyada "Rəbbim Allahdır" desələr də, düz yol tutmadıqlarına görə, yəni Allaha şərik qoşduqlarına və küfr etdiklərinə görə qəbirdə verilən bu sadə suala cavab verə bilmirlər, daha dəqiq desək, Allah onları buna müvəffəq etmir. Bu xüsusda "İbrahim" surəsinin 27-ci ayəsində belə buyurulur: "Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Zalımları isə Allah sapdı-

rar." Bu ayələrdən və hədisdən aydın olur ki, "Rəbbimiz Allahdır" deyib sonra saleh əməllər edən kimsələr həm bu dünyada, həm də axirətdə səadətə qovuşar və uğur qazanarlar.

Şərh etdiyimiz hədisdə "düz yol tut" deyildikdə, Allahın və Onun rəsulunun ﷺ buyurduqlarını yerinə yetirib qadağan etdiyi şeylərdən çəkinmək, başqa cür desək, ölənədək dində sabit qalmaq qəsd edilir. İndi gəlin baxaq görək sələflər bu xüsusda nə demişlər:

Bir zaman Əli ibn Əbu Talib رضي الله عنه Peyğəmbərdən ﷺ ona bir dua öyrətməyi xahiş etmiş, Peyğəmbər ﷺ də ona belə buyurmuşdur: De:

(( اللَّهُمَّ اهْدِنِي وَسَدِّدْنِي ))

"Allahım, məni hidayətə və düz yol tutmağa yönəlt!" Sonra o, bu duanı izah edib dedi: "Hidayət deyəndə, doğru yolla getməyi, düzgünlük deyəndə də oxla hədəfi vurmağı düşün!" Peyğəmbər ﷺ ona demək istəyir ki, əgər gördüyün işlərdə, doğru yolla getməkyə və oxu hədəfə vurmağa çalışdığın kimi çalışsan, hidayət və düzgünlüyə nail olarsan.

Əbu Bəkr əs-Siddiq رضي الله عنه demişdir: "Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutanlar", Allaha heç bir şeyi şərik qoşmayan kimsələrdir."

Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Onlar tülkü kimi dolayı yolla getməyən kimsələrdir."

İbn Abbas رضي الله عنه demişdir: "Bunlar "Lə ilahə illəllah" şəhadəti üzərində möhkəm duran və Allahın buyuruqlarını doğru-düzgün yerinə yetirən kimsələrdir."

Həmçinin, Əbul-Aliyə demişdir: “Onlar “Rəbbimiz Allahdır!”– deyib sonra dini və əməlləri ixlasla Allaha yönəldənlərdir.”

Qətadə demişdir: “Bunlar Allaha itaət xüsusunda düz yol tutan kimsələrdir.”

Bu izahlardan bizə aydın olur ki, ayədəki “istiqamət, yəni düz yol tutmaq” kəlməsi bütün dini əhatə edir. Həqiqətən də, “düz yola yönəlmək”, qəlbin düz olması ilə bağlıdır; Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: “Qulun qəlbi düzəlməyincə, imanı düzəlməz. Dili də düzəlməyincə, qəlbi düzəlməz.” İbn Rəcəb bu mövzuda danışarkən demişdir: “Qəlbin düzəlməsindən sonra düzəlməsinə ən çox diqqət yetiriləsi əza, dildir. Çünki dil, qəlbdən keçənləri ifadə edən bir əzadır.” Bundan aydın olur ki, bütün bədən əzaları qəlbə, sonra da, dilə tabedir. Demək, düz yolda sabit qalmaq üçün, qəlbin düzəlməsi labüddür. Əgər adamın qəlbi düzələrsə, onun bütün əzaları düzələr. İbn Rəcəb bu mövzudan danışarkən demişdir: “İnsanın qəlbi yalnız tovhidlə düzələ bilər.” Biləsiniz, Qiyamət günü məhz belə qəlbi olanlar nicat tapacaqlar. Bu xüsusda Uca Allah buyurur:

﴿يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ ﴿٨٨﴾ إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ ﴿٨٩﴾﴾

“O gün ki, nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək. Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələnlərdən başqa!” [1] Xüsusi olaraq qeyd etmək lazımdır ki, insan nə qədər çalışsa da, işində nöqsanlar olur. Odur ki, Uca Allah buyurur:

---

[1] əş-Şuəra, 88-89.

﴿فَٱسۡتَقِيمُوٓاْ إِلَيۡهِ وَٱسۡتَغۡفِرُوهُ﴾

"Allaha tərəf doğru yol tutun və Ondan bağışlanmağınızı diləyin." [1] Diqqət edin, Uca Allah Öz bəndələrinə doğru yol tutmağı, sonra da Ondan bağışlanma diləməyi buyurur. Bu da o deməkdir ki, insan nə qədər düz olsa da işində nöqsan tapılır. Odur ki, bu nöqsanlara görə tövbə etməsi lazım gəlir. Demək, hər bir möminin boynuna düşən, ancaq düz olmağa çalışmaqdır. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Düz yol tutun. Siz nə qədər çalışsanız da nöqsanlarınız olacaqdır. Bilin ki, əməllərinizin ən xeyirlisi namazdır. Yalnız mömin adam davamlı olaraq dəstəmazlı olmağa çalışar."

Şübhələr və şəhvətlər, düz yol tutmağa əngəl törədən maneələrdir. Rəvayət edilir ki, İbn Məsud رضي الله عنه demişdir: "Bir gün Peyğəmbər ﷺ bizim üçün yerdə bir düz xətt çəkib: "Bu, Allahın yoludur!"– dedi. Sonra bu xəttin sağ və sol tərəflərindən çoxlu xətlər çəkib dedi: "Bu da başqa yollardır. Bu yollardan hər birinin üstündə bir şeytan oturub, həmin yola dəvət edir." Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz." Nəvvas ibn Səmanın رضي الله عنه rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah doğru yola aid bir məsəl çəkdi; bu yolun hər tərəfində bir divar, həmin divarlarda açıq qapılar və bu qapıların üstündə sallanmış pərdələr vardır. Yolun ba-

---

[1] Fussilət, 6.

şında dayanmış bir nəfər insanları çağırıb: "Ey insanlar! Hamınız bu yolla gedin və firqələrə bölünməyin!"– deyir. Digər dəvətçi də yolun üstündə dayanıb nəzarət edir. Kimsə o qapılardan birini açmaq istəyəndə ona: "Vay sənin halına! O qapını açma. Əgər sən onu açsan, mütləq ora girəcəksən"– deyir. Peyğəmbər ﷺ davam edib dedi: "Burada yol – İslam dinidir; divarlar – Allahın qoyduğu hüdudlar və qayda-qanunlardır, açıq qapılar – Allahın haram buyurduqlarıdır, yolun başında dayanan çağırışçı – Allahın Kitabıdır və nəhayət, yolun üstündə duran nəzarətçi – Allahın hər bir müsəlmanın qəlbində təyin etdiyi nəsihətçidir."

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dualarla Allaha yalvarıb deyirik:

(( يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قُلُوبَنَا عَلَى دِينِكَ ))

"Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!"[1]

(( يَا مُصَرِّفَ الْقُلُوبِ، صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ ))

"Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt!"[2]

---

[1] Sunən ət-Tirmizi, 3517; Silsilə əl-Əhadis əs-Səhihə, 2091.

[2] Səhih Muslim, 2654.

## İyirmi ikinci hədis

عَنْ أَبِي عَبْدِ اللَّهِ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ الْأَنْصَارِيِّ رضي الله عنهما: "أَنَّ رَجُلًا سَأَلَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ: أَرَأَيْت إذَا صَلَّيْت الْمَكْتُوبَاتِ، وَصُمْت رَمَضَانَ، وَأَحْلَلْت الْحَلَالَ، وَحَرَّمْت الْحَرَامَ، وَلَمْ أَزِدْ عَلَى ذَلِكَ شَيْئًا؛ أَأَدْخُلُ الْجَنَّةَ؟ قَالَ: نَعَمْ".

رَوَاهُ مُسْلِمٌ [رقم:١٥].

Rəvayət edilir ki, Əbu Abdullah Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Bir nəfər Rəsulullahdan ﷺ soruşdu: "De görüm, əgər mən vacib buyurulmuş namazları qılsam, ramazan ayını oruc tutsam, halalı halal, haramı da haram qəbul etsəm və buna heç nə artırmasam, Cənnətə daxil olarammı?" Peyğəmbər ﷺ: "Bəli!"– deyə cavab verdi."

Bu hədisi İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

İmam Nəvəvi bu hədisin sonundakı cümləyə izah verib demişdir: "Haramı haram qəbul etsəm", yəni ondan uzaq dursam, "halalı halal qəbul etsəm", yəni halal oduğuna etiqad edərək ona əməl etsəm.

İmam Muslimin digər rəvayətində sual verən o bədəvinin Noman ibn Qovqal رضي الله عنه olduğu xəbər verilir.[2]

Səhabələrin belə suallar verməsi, onların ali məqsədlərinin nə olduğundan xəbər verir. Belə ki, səhabələrin hamısının əsas qayəsi Cənnəti qazanmaq olmuşdur.

---

[1] Səhih Muslim, 15.

[2] Əvvəlki mənbə.

Bu hədisin ərəbcəsində “məktubat” deyilir. Məktubat sözünün hərfi tərcüməsi yazılmış namazlar, vacib buyurulmuş namazlar deməkdir. Yadınıza gəlirsə, 17-ci hədisin şərhində biz kətəbə sözünün şəri mənası barədə danışmışıq. Bu kəlməni izah edərkən demişdik ki, “ən-Nisa” surəsinin 103-cü ayəsində Uca Allah buyurur:

﴿إِنَّ ٱلصَّلَوٰةَ كَانَتۡ عَلَى ٱلۡمُؤۡمِنِينَ كِتَٰبٗا مَّوۡقُوتٗا﴾

“Həqiqətən, namaz möminlərə vaxtları müəyyən edilmiş bir vacibdir.” Demək, yalnız gündəlik qılınan beş namaz vacib buyurulmuşdur. Onların vacib olmasına dəlalət edən digər bir ayədə Uca Allah buyurur:

﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ﴾

“Namazları, *xüsisilə* orta namazı qoruyun.” Bu ayədə orta namaz deyildikdə əsr namazı qəsd edilir.

Bu hədisdə ibadətlərin bir neçəsi zikr edilir: namaz, oruc, halal və haramlar. Lakin başqa bir hədisdə bu, daha müfəssəl rəvayət edilib və ola bilsin ki, o rəvayət bu hədisin əsli olsun. İmam Buxarinin rəvayətində xəbər verilir ki, bir gün bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, onu yerinə yetirəcəyim təqdirdə Cənnətə daxil olum.” Peyğəmbər ﷺ buyurdu: “Allaha ibadət et və Ona heç kəsi şərik qoşma, fərz buyurulmuş namazları qıl, vacib buyurulmuş zəkatı ver və Ramazan ayını oruc tut!” Bədəvi dedi: “Canım əlində olan *Allaha* and olsun ki, mən buna heç nə artırmayacağam və bundan heç nə

əskiltməyəcəyəm." O gedəndən sonra Peyğəmbər ﷺ dedi: "Kim Cənnət əhlindən olan bir adamı görmək istəyirsə, qoy buna baxsın."[1] İmam Buxarinin digər rəvayətində deyilir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər doğru deyirsə, Cənnətə daxil olacaq."[2]

Bu hədislərdən aydın başa düşülür ki, kim Allahın tək ilah olduğuna iman gətirib, Ona heç kəsi şərik qoşmasa, habelə, Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna iman gətirsə, üstəlik, İslamın ərkanlarını Allah üçün və Peyğəmbərin ﷺ öyrətdiyi kimi yerinə yetirsə, namaz qılsa, oruc tutsa, imkan daxilində zəkat versə və həcc ziyarətini yerinə yetirsə, Cənnətə daxil olar.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Tək Allaha ibadət etmək və Ona heç kəsi şərik qoşmamaq, Cənnətə girmək üçün ən əsas amildir. Belə ki, tovhidsiz Cənnətə girmək mümkün deyil. Bu xüsusda Quranda yüzlərlə ayə var. Məsələn: "əz-Zumər" surəsinin 65-ci və 66-cı ayələrində Peyğəmbərə ﷺ belə buyurulur: "Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!" Ayədən aydın başa düşülür ki, hətta peyğəmbərlər belə, Allaha şərik qoşmuş olsalar, onların əməllərinin hamısı puç olar. Həmçinin, "ən-Nisa" surəsinin 116-cı ayəsində belə buyurulur: "Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz. Bundan başqa *günahları* isə istədiyi kimsəyə bağışlayar."

---

[1] Səhih əl-Buxari, 1397.

[2] Səhih əl-Buxari, 1891.

Hədisdə də Peyğəmbər ﷺ belə buyurmuşdur: "Lə ilahə illəllah" deyən və qəlbən bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcək." Digər bir hədisdə o demişdir: "Kim Allaha şərik qoşmadığı halda Onun hüzuruna çıxarsa, Cənnətə girər. Kim də Allaha şərik qoşduğu halda Onun hüzuruna çıxarsa, Cəhənnəmə girər."

Şərh etdiyimiz hədisdə "vacib buyurulmuş namazları qılsam, ramazan ayını oruc tutsam," digər rəvayətdə də "vacib buyurulmuş zəkat versəm"– deyilir. Bundan elə başa düşülə bilər ki, sanki müstəhəbləri, yəni sünnələri və nafilə ibadətlərini yerinə yetirməsək də, olar, onlarsız da Cənnətə girmək mümkündür. Bəli, bu hədisə əsasən demək olar ki, yalnız vacibləri yerinə yetirməklə Cənnətə daxil olmaq olar, lakin qeyd etmək lazımdır ki, Cənnətin yüz mərtəbəsi var və ən uca mərtəbəsi Firdovsdur. Peyğəmbər ﷺ hədislərin birində buyurur ki: "Allahdan *nə isə* dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir."[1] Həmçinin, mömin adam məhz nafilələri yerinə yetirməklə Allahın sevimli dostu sayıla bilər. Necə ki, qüdsi hədisdə Uca Allah buyurur: "Qulum nafilə ibadətlərini yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm." Qeyd edək ki, möminlər dərəcə baxımdan bir-birlərindən fərqlənirlər. Kimisi sadəcə öhdəsinə düşən vacibləri yerinə yetirməklə kifayətlənir, kimisi də hər bir sünnəni yerinə yetirməklə öndə gedənlərdən olmağa çalışır. Necə ki, Fatir surəsinin 32-ci ayəsində buyurulur: "Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tu-

---

[1] Səhih əl-Buxari, 2790.

tar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur." Ayədən aydın başa düşülür ki, möminlərdən kimisi günah işlər görməklə özünə zülm edir, kimisi sadəcə vacibləri yerinə yetirib haramları tərk etməklə kifayətlənir, kimisi də vacibləri yerinə yetirməkdən əlavə nafilə ibadətlərini də yerinə yetirməklə, habelə, haramları tərk etməkdən əlavə məkruhları da tərk etməklə öndə gedənlərdən olmağa çalışır. Düzdür, yalnız vacibləri yerinə yetirmək və haramları tərk etmək Cənnətə daxil olmaq üçün səbəbdir, lakin nafilələri yerinə yetirmək, vacibləri yerinə yetirdikdə buraxılan nöqsanları tamamlayır. Səhih hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanın Qiyamət günü ilk soruşulacağı əməl namaz olacaq. Əgər bu sorğu-sualdan keçsə, uğur qazanar və nicat tapar, əks halda isə bədbəxt olar və ziyana uğrayar. Və əgər namazında hər hansı bir naqislik olarsa, Rəbb təbarəkə və təalə mələklərə buyurar: "Baxın görün, qulumun nafilə ibadətləri olubmu? Nəhayət, onun nafilə ibadətləri sayəsində, vaciblərində olan naqislik tamamlanar. Sonra digər vacib buyurulan əmllərinin də naqisliyi beləcə tamamlanar."[1] Peyğəmbər ﷺ demək istəyir ki, əgər onun zəkatında, orucunda, həccində və digər vacib buyurulan əməllərində naqisliyi olarsa, nafilələr bu nöqsanları tamamlayar.

Şərh etdiyimiz hədis dəlildir ki, əməllər sadəcə Cənnətə girmək üçün səbəbdir. Belə ki, Cənnətə girəcək mömin adam əməlləri sayəsində yox, yalnız Allahın mərhəməti sayəsində Cənnətə girəcək. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, bir gün

---

[1] Sunən Əbu Davud, 864; Sunən ət-Tirmizi, 413; Mişkatul-Məsabih, 1330.

Peyğəmbər ﷺ səhabələrinə dedi: "Sizlərdən heç kəsin əməli onu Cənnətə daxil etməyəcək." *Səhabələr* soruşdular: "Səni də, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "*Bəli,* məni də. Yalnız, Allahın mənə mərhəmət göstərməsi istisnadır."[1]

Hədisdən aydın başa düşülür ki, Cənnətə girmək üçün təkcə əməlisaleh olmaq kifayət etmir. Əməllər, Cənnətə girmək üçün sadəcə səbəbdir. Demək, mömin adam öz əməllərinə arxayın olmamalı və yalnız Allahın mərhəmətinə ümid bəsləməlidir. Səhih hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "İsrail oğulları arasında, işində səy göstərən iki nəfər var idi. Onlardan biri günah işlər görür, digəri isə çoxlu ibadət edirdi. Abid adam hər dəfə o birisinin günah işlətdiyini görəndə, *ona*: "Əl çək, bu günahdan!"– deyərdi. Bir gün onun günah işlətdiyini görüb yenə ona: "Əl çək, bu günahdan!"– dedi. O da belə cavab verdi: "Rəbbimlə məni yalnız burax. Olmaya, mənim üstümə nəzarətçi qoyulmusan?" Onda abid dedi: "Vallahi, Allah səni bağışlamayacaq, Allah səni Cənnətə salmayacaq." Nəhayət, ölüm mələyi onların canını aldıqdan sonra hər ikisi aləmlərin Rəbbi *Allahın* hüzuruna gətirildi və Allah abidə dedi: "Sən Mənim nə qərar verəcəyimi bilirdinmi?! Yoxsa, Mənə mane ola biləcəyini düşünürdün?!" Günahkara isə belə buyurdu: "Get, Mənim mərhəmətim sayəsində Cənnətə daxil ol!" Sonra abid barədə belə buyurdu: "Aparın bunu Cəhənnəmə!"[2]

---

[1] Səhih Muslim, 2816.

[2] Sunən Əbu Davud, 4901; Musnəd Əhməd, 2/323; Səhih əl-Cami, 4455.

Şərh etdiyimiz hədisin əks anlamından aydın başa düşülür ki, namazı, zəkatı və s. bu kimi vacib buyurulmuş əməllərdən birini tərk edən adam, Cəhənnəmlik olacaq. "əl-Muddəssir" surəsinin 42-ci və 43-cü ayələrində xəbər verilir ki, günahkarlardan: "Sizi Səqərə yəni Cəhənnəm salan nədir?"– deyə soruşulduqda, onlar belə cavab verəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik."

Şərh etdiyimiz hədisdə "halalı halal, haramı da haram qəbul etsəm" deyilir. Yəni halalın halal olduğuna, haramın da haram olduğuna etiqad edərək, onu qəbul etmək qəsd edilir. Çünki əgər adam halalı, onun halal olduğuna etiqad etmədən, sadəcə onun sağlamlığa fayda verdiyinə, yaxud xoşagələn olduğuna görə və s. bu kimi səbəblərdən dolayı qəbul edərsə, eləcə də haramı, onun haram olduğuna etiqad etmədən, sadəcə sağlamlığa zərər yetirdiyinə, yaxud ondan xoşu gəlmədiyinə görə və s. bu kimi səbəblərdən dolayı tərk edərsə, bu, Allah üçün yerinə yetirilmiş ibadət sayıla bilməz. Məsələn: əgər bir adam arıqlamaq üçün oruc tutarsa, bu oruc qəbul olmaz. Yaxud adam şərabı haram buyurulduğuna görə yox, xoşlamadığından dolayı, yaxud sağlamlığına zərər yetirdiyinə görə tərk edərsə, buna görə savab qazanmaz.

Bu mövzuya dair xüsusi olaraq qeyd etmək lazımdır ki, vacibləri yerinə yetirən və qadağalardan çəkinən mömin adam, Cənnətlik olacaq. Lakin, əgər adam bu vacibləri yerinə yetirməklə yanaşı günah işlər görərsə, bir başa Cənnətə girməyə bilər. Çünki böyük günahlar Cənnətə daxil olmağa mane olan əngəllərdir. Məsələn: Peyğəmbər ﷺ demişdir: "Sözgəzdirən adam Cənnətə

girməz!"[1] O həmçinin demişdir: "Qohumluq əlaqələrini kəsən adam Cənnətə girməz."[2] Digər bir hədisdə o demişdir: "Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz."[3] Başqa bir hədisdə o demişdir: "Canım Əlində olan Allaha and olsun ki, əgər borclu olan adam Allah yolunda şəhid olsa, sonra dirilib yenə vuruşub şəhid olsa, sonra dirilib bir daha vuruşub şəhid olsa belə, borcu qaytarılmayınca, Cənnətə girməz!"[4] Yenə bir rəvayətdə xəbər verilir ki, bir dəfə bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mən Allahdan başqa haqq məbudun olmadığına və sənin Allahın rəsulu olduğuna şəhadət gətirmişəm. Həmçinin gündəlik olaraq beş vaxt namazlarımı qılıram, malımın zəkatını verirəm, ramazan ayını oruc tuturam." Peyğəmbər ﷺ dedi: "Bu əməlləri yerinə yetirmiş olduğu halda dünyadan köçən kimsə, Qiyamət günü peyğəmbərlərlə, siddiqlərlə və şəhidlərlə bir yerdə həşr olunar. Yalnız ata-anasının üzünə ağ olması istisnadır."[5] Peyğəmbər ﷺ demək istəyir ki, ata-ananın üzünə ağ olan adam, vacib buyurulanları yerinə yetirsə belə, cəhənnəmlik ola bilər. Hədislərin birində rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ dedi: "Zəlil olsun, zəlil olsun, zəlil olsun!" Səhabələr soruşdular: "Kim, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "Valideyninin hər ikisi, yaxud biri qocalanadək, onların yanında yaşayan, sonra da

---

[1] Səhih əl-Buxari 7/86; Səhih Muslim 1/71.

[2] Səhih əl-Buxari, 5984.

[3] Səhih Muslim, 267.

[4] Sunən ən-Nəsai, 6237; Musnəd Əhməd 5/289; Səhih əl-Cami, 3600.

[5] Musnəd Əhməd 5/466; Səhih ət-Tərğib vət Tərhib, 2515.

Cənnətə girməyən kəs."[1] Hədisdən aydın olur ki, valideyninin üzünə ağ olan və ona qarşı nankorluq edən kimsə Cəhənnəmlik olacaq.

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ، وَنَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ. اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ خَيْرِ مَا سَأَلَكَ عَبْدُكَ وَنَبِيُّكَ ﷺ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا اسْتَعَاذَ بِكَ مِنْهُ عَبْدُكَ وَنَبِيُّكَ ﷺ، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الْجَنَّةَ، وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَنَعُوذُ بِكَ مِنَ النَّارِ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَنَسْأَلُكَ أَنْ تَجْعَلَ كُلَّ قَضَاءٍ قَضَيْتَهُ لَنا خَيْرًا ))

"Allahım, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün xeyirləri Səndən diləyir, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün şər əməllərdən də Sənə sığınırıq. Allahım, qulun və peyğəmbərinin ﷺ Səndən istədiklərini Səndən istəyir və onun sığındığı şər əməllərdən Sənə sığınırıq. Allahım, Cənnəti və ona yaxınlaşdıran hər bir söz və əməli Səndən istəyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir söz və əməldən Sənə sığınırıq. Səndən bizim üçün yazdığın hər bir hökmün xeyirli olmasını istəyirik."[2]

[1] Səhih Muslim, 6675.

[2] Səhih ibn Macə, 2/327.

## İyirmi üçüncü hədis

عَنْ أَبِي مَالِكٍ الْحَارِثِ بْنِ عَاصِمٍ الْأَشْعَرِيِّ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ صلى الله عليه وسلم "الطُّهُورُ شَطْرُ الْإِيمَانِ، وَالْحَمْدُ لِلَّهِ تَمْلَأُ الْمِيزَانَ، وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ تَمْلَآنِ -أَوْ: تَمْلَأُ- مَا بَيْنَ السَّمَاءِ وَالْأَرْضِ، وَالصَّلَاةُ نُورٌ، وَالصَّدَقَةُ بُرْهَانٌ، وَالصَّبْرُ ضِيَاءٌ، وَالْقُرْآنُ حُجَّةٌ لَكَ أَوْ عَلَيْكَ، كُلُّ النَّاسِ يَغْدُو، فَبَائِعٌ نَفْسَهُ فَمُعْتِقُهَا أَوْ مُوبِقُهَا".

رَوَاهُ مُسْلِمٌ [رقم:٢٢٣].

Rəvayət edilir ki, Əbu Malik əl-Haris ibn Asim əl-Əşari رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Təmizlik imanın yarısıdır. Əlhəmdulillah tərəzini doldurur. Subhanəllah vəlhəmdulillah göylə yer arasını doldurur. Namaz nurdur. Sədəqə dəlildir. Səbir işıqdır. Quran isə sənin ya lehinə, ya da əleyhinə hüccətdir. Hər bir insan səhər *evindən çıxıb iş dalınca gedər və* nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər."

Bu hədisi İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Hədisdə ərəbcə "ət-tuhuru şətrul-iman/təmizlik imanın yarısıdır" cümləsi, imanı təmizləyən və kənarlaşdıran mənasını ifadə edir. Belə ki, pak olmaq, qəlbi şirkdən, küfrdən, asilikdən və s. günahlardan təmizləyir. Müşriklərin mənəviyyatı təmiz olmadığı üçün, Allah onları "ət-Tovbə" surəsinin 28-ci ayəsində murdar adlandırır. Həmçinin, bu hədisdə "təmizlik" deyildikdə, kəlmə-

[1] Səhih Muslim, 223.

nin zahiri mənası, yəni dəstəmaz almaq da qəsd edilir. Necə ki, İmam Tirmizinin rəvayətində "təmizlik" sözü, dəstəmaz sözü ilə əvəz edilmişdir.[1] Yəni, dəstəmaz, insanın kiçik günahlardan təmizlənməsi üçün bir vasitədir. İmam Muslimin rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Mömin adam dəstəmaz alarkən üzünü yuduqda, gözləri ilə etdiyi hər bir günah, su ilə bərabər onun üzündən çıxar, əllərini yuduqda, əlləri ilə etdiyi hər bir günah, su ilə bərabər onun əllərindən çıxar, ayaqlarını yuduqda ayaqları ilə etdiyi hər bir günah, su ilə bərabər onun ayaqlarından çıxar. Nəhayət, o adam günahlardan təmizlənmiş olar."[2] Qeyd etmək lazımdır ki, hədisdə "iman" deyildikdə, namaz mənası da qəsd edilə bilər. Belə ki, Uca Allah "əl-Bəqərə" surəsinin 143-cü ayəsində namazı – iman adlandırır. Deməк, "təmizlik imanın yarısıdır" deyildikdə, "dəstəmaz namazın yarısıdır" mənasını da ifadə edir. İmam Muslimin "Səhih"indəki rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Nə dəstəmazsız namaz, nə də xəyanətlə əldə edilmiş maldan sədəqə qəbul olunar."[3]

Sonra hədisdə deyilir: "Əlhəmdulillah tərəzini doldurur." Əlhəmdulilləh – "həmd Allaha məxsusdur!" deməkdir. Bu zikr, dörd əzəmətli zikrdən biridir. Yeri gəlmişkən qeyd edək ki, qəsd etdiyimiz o dörd zikr bunlardır: Lə ilahə illəllah, subhanəllah, əlhəmdulilləh və Allahu əkbər. Hədisdə "tərəzi" deyildikdə, Qiyamət günü əməllərin çəkiləcəyi ədalət tərəzisi nəzərdə tutulur. Ne-

---

[1] Sunən ət-Tirmizi, 3517.

[2] Səhih Muslim, 244.

[3] Səhih Muslim, 224.

cə ki, əl-Ənbiya" surəsinin 47-ci ayəsində buyurulur: "Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kəsə hər hansı bir şeydə ədalətsizlik edilməyəcək. *Görülmüş iş* bir xardal dənəsi mislində olsa belə, onu gətirib *tərəziyə* qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik." Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə *var ki, bunlar*: "Subhanəllahi və bihəmdihi, subhanəllahil-əzim!" *kəlmələridir*."[1]

Sonra şərh etdiyimiz hədisdə deyilir: "Subhanəllah vəlhəmdulillah göylə yer arasını doldurur." Subhanəllah: Allah pak və müqəddəsdir, deməkdir. Bu kəlmə Allahın bütün nöqsanlardan uzaq olduğunu təsdiqləyir. Yeri gəlmişkən qeyd edək ki, nöqsanlar üç qismə bölünür.

1-cisi naqis sifətlərdir. Allaha naqis sifət isnad etmək olmaz. Məsələn: yatmaq, yaxud mürgüləmək, yaxud ölmək və s. bu kimi naqis sifətləri Allaha isnad etmək olmaz. Bu xüsusda "əl-Bəqərə" surəsinin 255-ci ayəsində belə buyurulur: "Allahı nə mürgü, nə də yuxu tutar." Həmçinin, "əl-Furqan" surəsinin 58-ci ayəsində buyurulur: "Ölməz, *əbədi* Yaşayan Allaha təvəkkül et."

2-ci növ naqislik, sifətlərin kamilliyindəki naqislikdir. Məsələn: insanın görməyində, eşitməyində, bilməyində naqislik var, yəni insan məhdud yerləri görür, məhdud şeyləri eşidir və müəyyən şeyləri bilir, Allah isə hər şeyi görən, hər şeyi eşidən və hər şeyi biləndir. "əş-Şura" surəsinin 11-ci ayəsində belə buyurulur: "Allahın heç bir bənzəri yoxdur. O, hər şeyi eşidəndir, hər şeyi

---

[1] Səhih Muslim, 224.

görəndir." Həmçinin, "Loğman" surəsinin 34-cü ayəsində belə buyurulur: "Həqiqətən, *Qiyamət* saatı haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə şübhəsiz ki, *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır."

3-cü növ naqislik isə Allahı zahirən məxluqata bənzətməkdir. Bu da böyük nöqsandır. Buna da "əl-İxlas" surəsini dəlil göstərmək olar. Həmin surədə belə buyurulur: "De: "O Allah Təkdir! Allah heç kəsə Möhtac deyil. O, nə doğub, nə də doğulub. Onun heç bir bənzəri də yoxdur."

Hədisdə bu iki möhtəşəm zikrin göylə yer arasını doldurduğu xəbər verilir. Həqiqətən, bu iki zikrin savabı olduqca böyükdür. Səhih hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ, öz zövcəsi Cuveyriyanın sübh namazından sonra gün çıxanadək zikr etdiyini görüb belə demişdir: "Mən üç dəfə, elə dörd kəlmə dedim ki, əgər onlar tərəzidə çəkilsə, sənin dediklərindən ağır gələr:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ، وَرِضَا نَفْسِهِ، وَزِنَةَ عَرْشِهِ، وَمِدَادَ كَلِمَاتِهِ ))

"Yaratdıqlarının sayı, Özündən razı olduğu, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!"[1] Hədisə diqqət edin. Allahın yaratdığı məxluqların sayı qədər, habelə, Onun Özündən razı qaldığı, ərşinin ağırlığı və nəhayət, kəlmələrinin çoxluğu qədər Allaha həmd-sənalar deyib təriflədikdən sonra qazanılan savabın miqdarı, həqiqətən, təsəvvür-olunmazdır.

---

[1] Səhih Muslim, 8/83.

Sonra şərh etdiyimiz hədisdə: "Namaz nurdur" deyilir. Burada namaz deyildikdə, həm fərz, həm də nafilə namazlar qəsd edilir. Və onun nuru həm bu dünyaya, həm də axirətə aiddir. Yəni, namaz mömininin qəlbinə nur saçır və elə ki, qəlbi nurlandı, bu nur onun üzündə də özünü büruzə verir. Üstəlik, Qiyamət günü mömininin yoluna nur saçacaq. Bu xüsusda "əl-Hədid" surəsinin 12-ci ayəsində belə buyurulur: "O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən."

Sonra şərh etdiyimiz hədisdə: "Sədəqə dəlildir" deyilir. Yəni sədəqə, sahibinin səmimi olmasına dəlildir. Çünki mömin adam sədəqə verməklə Allaha yaxınlaşmaq və bunun sayəsində də savab qazanmaq istəyir. Beləliklə də, o, özünə əziz olan bir şeyi, ona daha əziz olan Allahın yolunda sərf edir. Bu da onun imanında səmimi olduğuna dəlalət edir. Çünki nəfs dünya malına meyillidir. Kim nəfsinin tamahını saxlaya bilirsə, bu onun imanında sadiq olmasına dəlalət edir. Belə ki, münafiq adam zahirən namaz qılıb özünü mömin kimi göstərsə də, malından Allah yolunda xərcləməyə əli gəlmir. Bu da onun qeyri-səmimi olduğundan xəbər verir.

Sonra şərh etdiyimiz hədisdə: "Səbir işıqdır" deyilir. Qeyd edək ki, şəriətin buyurduğu səbir üç növdür: Allaha və Onun rəsuluna ﷺ itaət etməkdə səbir etmək; Allahın və Onun rəsulunun ﷺ qadağan etdiyi əməllərdən çəkinməkdə səbir etmək; bir də müsibətlərə səbir etmək. Diqqət edin! Burada Peyğəmbər ﷺ "səbir nurdur" demir, işıqdır deyir. Çünki işıqda hərarət də olur. Bu

xüsusda "Yunus" surəsinin 5-ci ayəsində belə buyurulur: "Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər - *səfhələr* müəyyən edən Allahdır." Necə ki, günəş həm işıq saçır, həm də istilik verir, eləcə də, səbir, sahibinin qəlbinə və bədəninə istilik verir. Səbir kəlməsi barədə on doqquzuncu hədisin şərhində ətraflı danışmışıq. Yeri gəlmişkən qeyd edək ki, səbirdən daha üstün sayılan dərəcə, Allahın yazdığı qədərə razı qalmaqdır. Allahın yazdığı qədərə razı qalmaqla, müsibətə səbir etmək arasındakı fərq budur ki, müsibətə səbir edən adam, bu müsibətə görə Allaha qarşı nankorluq etməsə də, qəlbi ağrıyır, o müsibətə görə kədərlənir, lakin Allahın yazdığı qədərə razı qalan kimsə isə o müsibəti qəlbinə salmır, əksinə, "hər bir hala görə Allaha həmd olsun deyir" və bundan razı qaldığını bildirir. Peyğəmbər ﷺ dua edib deyərmiş:

(( اللَّهُمَّ أَسْأَلُكَ الرِّضَا بَعْدَ الْقَضَاءِ ))

"Allahım, Səndən, başıma gələn qəzavü-qədərdən sonra ondan razı qalmağımı diləyirəm."

Sonra şərh etdiyimiz hədisdə deyilir: "Quran sənin ya lehinə, ya da əleyhinə hüccətdir." Quran: Allahın, Cəbrail عليه السلام vasitəsilə Muhəmmədə ﷺ nazil etdiyi, hər bir nöqsandan uzaq kəlamıdır. Yəni əgər mömin adam Quranın buyurduqlarına əməl edib qadağan etdiklərindən çəkinərsə, Qiyamət günü Quran onun lehinə, əks halda isə əleyhinə şahidlik edər. Bu xüsusda neçə-neçə hədislər varid olub. Hədislərin birində Rəsulullah ﷺ demişdir: "Quran oxuyun! Çünki Qiyamət günü o gəlib, onu oxuyub əməl edənlə-

rin tərəfini saxlayacaq. Çiçəklənən iki surəni – "əl-Bəqərə" və "Ali İmran" surələrini oxuyun! Çünki Qiyamət günü onlar iki bulud və ya cərgələrə düzülmüş iki qatar quş kimi gəlib, onu oxuyub əməl edənlərin tərəfini saxlayacaq..."[1] Digər hədisdə Rəsulullah ﷺ demişdir: "Qiyamət günü Quran gəlib *onu oxuyan adam üçün*: "Ey Rəbbim, ona bəzək ver!"– deyəcək və dərhal həmin adamın başına kəramət tacı qoyulacaq. Sonra o: "Ey Rəbbim, onun bəzəyini artır!"– deyəcək. Onda ona kəramət əbası geyindiriləcək. Sonra o: "Ey Rəbbim, ondan razı qal!"– deyəcək və Rəbbi ondan razı qalacaq. Sonra ona belə buyurulacaq: "Oxu, yüksəl! Hər bir ayəyə görə sənin gözəlliyin artacaq!"[2] Başqa bir hədisdə Rəsulullah ﷺ demişdir: "Allah, bu Kitab sayəsində insanların bir qismini ucaldar, digərlərini isə alçaldar."[3] Yenə bir hədisdə Rəsulullah ﷺ demişdir: "Quran, *Qiyamət günü* havadarlığı qəbul olunacaq şəfaətçi, həm də çatdırdığı xəbərləri təsdiqlənəcək xəbərçidir. Kim onu önünə alarsa, o onu Cənnətə aparar. Kim də onu arxasına atarsa, o onu Cəhənnəmə sürükləyər."[4]

Rəvayət edilir ki, sələflərdən biri: "Quran oxuyan elə bir kimsə yoxdur ki, bu Quran ona ya xeyir qazandırmış, ya da onu ziyana uğratmış olmasın"– demiş, sonra da "əl-İsra" surəsinin 82-ci ayəsini oxumuşdur: "Biz Quranda möminlər üçün şəfa və mərhəmət *olan ayələr* nazil edirik. *Bu ayələr* zalımların ancaq ziyanını artırır."

---

[1] Səhih Muslim, 1910.

[2] Sunən ət-Tirmizi, 2915; Səhih əl-Cami, 8030.

[3] Səhih Muslim, 1934.

[4] Səhih İbn Hibban, 1793; Silsilətul-Əhadisis-Səhihə, 2019.

Şərh etdiyimiz hədisin sonunda deyilir ki, "hər bir insan səhər *evindən çıxıb iş dalınca gedər və* nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər." Bu sözdən bizə aydın olur ki, hər bir əməl sahibi etdiyi əməllər sayəsində ya nəfsini azad etmiş, ya da onu məhv etmiş olur. Allaha və Onun rəsuluna ﷺ itaət etməklə nəfsini azad etmiş və şeytandan uzaqlaşmış olur, əks halda isə nəfsini həlaka uğratmış olur. Diqqət edin! Hər bir müsəlman səhər yuxudan oyandıqda əvvəlcə, yuxudan oyananda edilən zikrləri edir, sonra qalxıb "Bismillah"– deyib dəstəmaz alır, sonra da "Allahu Əkbər"– deyib namaza başlayır və beləliklə də səhərini xeyir-bərəkətlə açır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: "Gecə uzundur, yat!"– deyir. Əgər o kimsə oyanıb Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhərini gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda açar. Əks halda isə onun həmin gün əhvali-ruhiyyəsi çox pis olar."[1] Nəfsini azad etmiş kimsələr barədə Quran belə xəbər verir: "İnsanlardan elələri də var ki, Allahın razılığını qazanmaq üçün canını verər." Həmçinin, "əş-Şəms" surəsinin 7-ci ayəsindən 10-cu ayəsinədək deyilir: "And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və *Allahdan* qorxmağı təlqin edənə! Nəfsini *günahdan* təmizləyən kimsə uğur qazanmış, onu *günaha* batıran kimsə isə ziyana uğramışdır." Başqa bir ayədə də belə buyurulur: "Həqiqətən, Allah möminlərdən, Cənnət müqabilində, onların

---

[1] Səhih əl-Buxari", 1142.

canlarını və mallarını satın almışdır." Yəni mömin adam Cənnət müqabilində canından da, malından da keçməyə hazırdır. İmam Buxari və Muslimin "Səhih"lərində rəvayət edilmiş hədisdə xəbər verilir ki, Uca Allah: "Ən yaxın qohumlarını qorxut!"[1] ayəsini nazil etdikdə, Peyğəmbər ﷺ qohum-əqrəbasını çağırıb dedi: "Ey quyerşlilər, mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Abduмənaf oğulları, mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Abbas ibn Abdulmuttəlib, mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Peyğəmbərin bibisi Safiyyə, mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Muhəmmədin qızı Fatimə, malımdan nə istəyirsənsə, istə. Mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm." Bu hədisdə "canınızı satın alın" deyilir, yəni canınız və malınız müqabilində, Cənnəti qazanın və Cəhənnəm əzabından qorunun.

Şərh etdiyimiz hədisdəki: "Hər bir insan səhər *evindən çıxıb iş dalınca gedər və* nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər" sözünə diqqət yetirəndə aydın olur ki, hər bir insanın gün ərzində ya xeyir, ya da şər əməllərlə məşğul olması labüddür.

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ بِعِلْمِكَ الْغَيْبَ، وَقُدْرَتِكَ عَلَى الْخَلْقِ، أَحْيِنَا مَا عَلِمْتَ الْحَيَاةَ خَيْرًا لَنَا، وَتَوَفَّنَا إِذَا عَلِمْتَ الْوَفَاةَ خَيْرًا لَنَا، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ خَشْيَتَكَ فِي الْغَيْبِ وَالشَّهَادَةِ،

---

[1] əş-Şuəra, 214.

وَنَسْأَلُكَ كَلِمَةَ الْحَقِّ فِي الرِّضَا وَالْغَضَبِ، وَنَسْأَلُكَ الْقَصْدَ فِي الْغِنَى وَالْفَقْرِ، وَنَسْأَلُكَ نَعِيمَاً لاَ يَنْفَدُ، ونَسْأَلُكَ قُرَّةَ عَيْنٍ لاَ تَنْقَطِعْ، وَنَسْأَلُكَ الرِّضَا بَعَدَ الْقَضَاءِ، وَنَسْأَلُكَ بَرْدَ الْعَيْشِ بَعْدَ الْمَوْتِ، وَنَسْأْلُكَ لَذَّةَ النَّظَرِ إِلَى وَجْهِكَ، وَالشَّوْقَ إِلَى لِقَائِكَ، فِي غَيْرِ ضَرَّاءَ مُضِرَّةٍ، وَلاَ فِتْنَةٍ مُضِلَّةٍ، اللَّهُمَّ زَيِّنَّا بِزِينَةِ الإِيمَانِ، وَاجْعَلْنَا هُدَاةً مُهْتَدِينَ ))

“Allahım, qeybi bilməyin və yaratma qüdrətin sayəsində, yaşamağımızın bizim üçün xeyirli olduğunu bildiyin qədər bizi yaşat, ölümümüzün bizim üçün daha xeyirli olduğunu məsləhət bildikdə isə bizim canımızı al. Allahım, gizlində də, aşkarda da Səndən layiqincə qorxmağımızı diləyirik. Səndən razılıq və qəzəb anında haqq söz söyləməyimizi diləyirik. Zənginlikdə də, kasıblıqda da Səndən nə israf, nə də xəsislik etməyimizi, bu ikisinin arasında orta yol tutmağımızı diləyirik. Səndən tükənməz axirət nemətlərini və ardı kəsilməyən göz aydınlığı diləyirik. Səndən, başımıza gələn qəzavü-qədərdən sonra ondan razı qalmağımızı, ölümdən sonra da rahat və gözəl həyat diləyirik. Sənin Üzünə baxmağın ləzzətini, habelə, zərər verən xəstəliyə və azğınlığa aparan fitnəyə uğramadıqca, Səninlə qarşılaşmaq həsrətini Səndən diləyirik. Allahım, bizi imanın gözəlliyi ilə gözəlləşdir, üstəlik, bizi doğru yolda gedən, başqalarını da bu yola dəvət edən imamlardan et!”[1]

[1] Sunən ən-Nəsai, 1305; Səhih İbn Hibban, 1971; Səhih əl-Cami, 1301.

## İyirmi dördüncü hədis

عَنْ أَبِي ذَرٍّ الْغِفَارِيِّ ﵁ عَنْ النَّبِيِّ ﷺ فِيمَا يَرْوِيهِ عَنْ رَبِّهِ تَبَارَكَ وَتَعَالَى، أَنَّهُ قَالَ: "يَا عِبَادِي: إنِّي حَرَّمْت الظُّلْمَ عَلَى نَفْسِي، وَجَعَلْته بَيْنَكُمْ مُحَرَّمًا؛ فَلَا تَظَالَمُوا. يَا عِبَادِي! كُلُّكُمْ ضَالٌّ إلَّا مَنْ هَدَيْته، فَاسْتَهْدُونِي أَهْدِكُمْ. يَا عِبَادِي! كُلُّكُمْ جَائِعٌ إلَّا مَنْ أَطْعَمْته، فَاسْتَطْعِمُونِي أُطْعِمْكُمْ. يَا عِبَادِي! كُلُّكُمْ عَارٍ إلَّا مَنْ كَسَوْته، فَاسْتَكْسُونِي أَكْسُكُمْ. يَا عِبَادِي! إنَّكُمْ تُخْطِئُونَ بِاللَّيْلِ وَالنَّهَارِ، وَأَنَا أَغْفِرُ الذُّنُوبَ جَمِيعًا؛ فَاسْتَغْفِرُونِي أَغْفِرْ لَكُمْ. يَا عِبَادِي! إنَّكُمْ لَنْ تَبْلُغُوا ضُرِّي فَتَضُرُّونِي، وَلَنْ تَبْلُغُوا نَفْعِي فَتَنْفَعُونِي. يَا عِبَادِي! لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَتْقَى قَلْبِ رَجُلٍ وَاحِدٍ مِنْكُمْ، مَا زَادَ ذَلِكَ فِي مُلْكِي شَيْئًا. يَا عِبَادِي! لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَفْجَرِ قَلْبِ رَجُلٍ وَاحِدٍ مِنْكُمْ، مَا نَقَصَ ذَلِكَ مِنْ مُلْكِي شَيْئًا. يَا عِبَادِي! لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ قَامُوا فِي صَعِيدٍ وَاحِدٍ، فَسَأَلُونِي، فَأَعْطَيْت كُلَّ وَاحِدٍ مَسْأَلَته، مَا نَقَصَ ذَلِكَ مِمَّا عِنْدِي إلَّا كَمَا يَنْقُصُ الْمِخْيَطُ إذَا أُدْخِلَ الْبَحْرَ. يَا عِبَادِي! إنَّمَا هِيَ أَعْمَالُكُمْ أُحْصِيهَا لَكُمْ، ثُمَّ أُوَفِّيكُمْ إيَّاهَا؛ فَمَنْ وَجَدَ خَيْرًا فَلْيَحْمَدْ اللَّهَ، وَمَنْ وَجَدَ غَيْرَ ذَلِكَ فَلَا يَلُومَن إلَّا نَفْسَهُ".

رَوَاهُ مُسْلِمٌ [رقم:٢٥٧٧].

Əbu Zərr əl-Ğifari ﵁ rəvayət edir ki, Peyğəmbərin ﷺ öz Rəbbindən belə rəvayət etdiyini xəbər vermişdir: “Allah buyurur:

– Ey qullarım, Mən zülm etməyi, Özümə haram etdim və sizin aranızda da onu haram buyurdum. Elə isə bir-birinizə zülm etməyin!

– Ey qullarım, Mən hidayət verdiyim kimsələrdən başqa hamınız zəlalətdəsiniz. Elə isə Məndən hidayət diləyin, sizə hidayət bəxş edim!

– Ey qullarım, Mən yedirdiyim kəslərdən başqa hamınız acsınız. Elə isə Məndən yemək istəyin, sizi yedirdim!

– Ey qullarım, Mən geydirdiyim kəslərdən başqa hamınız çılpaqsınız. Elə isə Məndən geyim istəyin, sizi geyindirim!

– Ey qullarım, siz gecə-gündüz günah işlər görürsünüz. Mən də bütün günahları bağışlayıram. Elə isə Məndən bağışlanma diləyin, sizi bağışlayım!

– Ey qullarım, siz Mənə zərər yetirməyə qadir deyilsiniz ki, zərər yetirəsiniz. Eləcə də Mənə fayda verməyə qadir deyilsiniz ki, fayda verəsiniz.

– Ey qullarım, əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz, aranızdakı ən təqvalı insan kimi olsalar belə bu, Mənim mülkümdə heç bir şey artırmaz.

– Ey qullarım, əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz, aranızdakı ən günahkar bir kimsə kimi olsalar belə bu, Mənim mülkümdən heç bir şey əksiltməz.

– Ey qullarım, əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz bir yerə toplanıb Məndən istəsələr, Mən də hər kəsə istədiyini versəm, bu, Mənim mülkümdən heç bir şey əksiltməz. Yalnız dənizə batırılan iynənin *dənizdən* əksiltdiyi kimi əksildər.

– Ey qullarım, bu sizin əməllərinizdir. Mən onları sizin üçün hesaba alacaq, sonra da sizə onların əvəzini verəcəyəm. Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, qoy özündən başqa heç kəsi qınamasın."

Bu hədisi İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Bu və buna bənzər hədislər "qüdsi hədis" yaxud "ilahi hədis" adlanır. İbn Teymiyyə ﷬ bu hədis barədə demişdir: "Bilmək lazımdır ki, bu hədis olduqca dəyərli, dərəcəsi də çox yüksək olan bir hədisdir. Odur ki, İmam Əhməd deyərmiş: "Bu, şamlılar üçün ən şərəfli hədis hesab edilir." Əbu İdris əl-Xovlani hər dəfə bu hədisi danışarkən diz çökərmiş. Bu hədisi, səma altında və yer üzündə ən doğru danışan kimsələrdən olmuş Əbu Zərr ﷺ rəvayət etmişdir. Bu, Rəsulullahın ﷺ Öz Rəbbindən rəvayət etdiyi ilahi hədislərdəndir. Bu hədis Quran ayəsi sayılmasa da, Peyğəmbər ﷺ onun Uca Allahın Kəlamı olduğunu xəbər vermişdir... Bu hədis İslam dininin, ayrı-ayrı elmlərə, əməllərə, əsaslara və ikincidərəcəli işlərə aid əzəmətli qaydalarını özündə cəm etmişdir."[2]

Həmçinin, İbn Useymin ﷬ bu hədisi izah edərkən demişdir: "Qüdsi hədis deyildikdə, mənası Allah tərəfindən nazil olmuş və Peyğəmbərin ﷺ dili ilə ifadə edilmiş kəlam qəsd edilir. Bu fikri iki yöndən isbat etmək olar:

Birincisi budur ki, əgər qüdsi hədis, həm mənaca, həm də ləfz ilə Allah tərəfindən nazil olmuş olsaydı, isnad baxımından Qurandan üstün sayılardı. Çünki hədisin zahirindən aydın olur ki,

---

[1] Səhih Muslim, 2577.

[2] Məcmu əl-Fətavə, 18/157.

Peyğəmbər ﷺ qüdsi hədisi Uca Allahdan bilavasitə, Quranı isə Cəbrail عليه السلام vasitəsi ilə rəvayət etmişdir. Necə ki, "ən-Nəhl" surəsinin 102-ci ayəsində buyurulur: "De: "Müqəddəs Ruh *Cəbrail* onu sənin Rəbbindən nazil etmişdir." Həmçinin, "əş-Şuəra" surəsinin 193-cü ayəsindən 195-ci ayəsinədək belə buyurulur: "Quranı sadiq ruh *Cəbrail* sənin qəlbinə endirdi ki, sən xəbərdar edənlərdən olasan. *Bu Quran* açıq-aydın ərəb dilində *nazil edildi*."

İkincisi də budur ki, əgər qüdsi hədisin ləfzi Allah tərəfindən nazil olmuş olsaydı, Quranla onun arasında fərq olmazdı. Belə olduğu təqdirdə hər ikisi Allahın kəlamı sayılardı. Lakin məlumdur ki, Quranla qüdsi hədis arasında bir çox fərqlər var. O fərqlərin bəzisi bunlardır:

1-cisi, qüdsi hədis, nə ibadət məqsədilə oxunur, nə də onu oxuyan adama, oxuduğu hər bir hərfə görə on savab yazılır. Quran isə ibadət məqsədilə oxunur və onu oxuyan adama, oxuduğu hər bir hərfə görə on savab yazılır.

2-cisi, Uca Allah insanlardan, Qurana bənzər bir kitab və ya onun ayələrindən birinə bənzər bir ayə gətirmələrini tələb etmiş, lakin qüdsi hədis barədə bunu tələb etməmişdir.

3-cüsü, Uca Allah Quranı qoruyacağına vəd vermişdir. Necə ki, "əl-Hicr" surəsnin 9-cu ayəsində buyurulur: "Şübhəsiz ki, Quranı Biz nazil etdik, sözsüz ki, Biz də onu qoruyacağıq." Qüdsi hədislər arasında isə səhih və həsən, hətta zəif və qondarma isnadı olan mətnlər rəvayət edilmişdir. Həmçinin, bəzisində əlavələr və əksiltmələr də mövcuddur.

4-cüsü, müsəlmanların yekdil rəyinə görə, Quranı məna ilə rəvayət etmək olmaz, qüdsi hədisləri isə əksər alimlərin rəyinə əsasən, məna ilə rəvayət etmək icazəlidir.

5-cisi, İslam şəriəti namazda Qurandan müyəssər olanı oxumağı buyurmuş, hətta "əl-Fatihə" surəsini oxumadan qılınan namazın səhih olmadığını vurğulamışdır. Qüdsi hədisləri isə namazda oxumağı buyurmamışdır.

6-cısı, Qurana yalnız dəstəmazlı halda toxunmaq olar, qüdsi hədislərə isə dəstəmazsız da toxunmaq caizdir.

7-cisi, daha doğru rəyə əsasən, cənabət halında olan adam Quran oxumamalıdır, qüdsi hədisi isə cənabət halında oxumaq olar.

8-cisi, Quran, səhihliyinə şübhə olmayan mütəvatir isnadla rəvayət edilmişdir. Belə ki, onun bir hərfini belə inkar edən kəs kafir sayılır. Lakin qüdsi hədisin isnadının və ya mətninin zəif olduğunu iddia edən mühəddis kafir sayılmaz..."

Şərh etdiyimiz hədisdə Uca Allah Öz qullarına on kərə: "Ey qullarım!"– deyə xitab edir. Bu xitab insanların hamısına mömininə də, kafirinə də şamil edilir.

Birinci xitabında Uca Allah Öz qullarına bir-birilərinə zülm etməyi haram buyurur.

Zülm: bir şeyi öz yerinə qoymamaqdır. Allahın, zülmü Özünə haram etməsi, Onun adilliyinin kamilliyinə dəlalət edir. Elm əhlinin qoyduğu qaydaya əsasən Kitab və Sünnədə varid olmuş, Allaha aid edilməyən hər bir naqis sifət, onun əksinin kamilliyini isbat edir. Bu xüsusda, Uca Allah "Qaf" surəsinin 29-cu ayəsində belə buyurur: "Mən bəndələrə zülm edən deyiləm!" Həmçinin,

“Ali İmran” surəsinin 108-ci ayəsində buyurur: “Allah aləmlərə zülm etmək istəmir.” Həmçinin, “ən-Nisa” surəsinin 40-cı ayəsində buyurur: “Həqiqətən, Allah zərrə qədər də olsa, zülm etməz.”

Qeyd edək ki, insanların etdiyi zülm iki qismə bölünür: Allahın haqlarına aid olan və bir də insan haqlarına aid olan zülm. Zülmlərin ən böyüyü isə Allahın hüdudlarını aşmaq və Ona şərik qoşmaqdır. Bundan sonra zülm xüsusunda dərəcə etibarilə əvvəlcə böyük günahlar, sonra da kiçik günahlar gəlir. Allahın buyurduğu haqlar xüsusunda zülm, əsas üç şeyi əhatə edir. Bunları Peyğəmbər ﷺ vida həccindəki xütbəsində bəyan edib demişdir: “Sizin qanınız, malınız və namusunuz, bu ayınızda və bu şəhərinizdə, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır.” Demək, əgər bir müsəlman başqa birisinin haqqına girsə, Qiyamət günü həmin haqq onun boynuna keçər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Kim *başqasının* torpağını haqsızlıqla zəbt etsə, *Qiyamət günü* torpağın yeddi qatı onun boynuna keçər.”[1] Ağıllı adam əcəli yetişməmişdən öncə zülm etdiyi adamların haqqını qaytarar və onlardan halallıq alar. Əks halda, Qiyamət günü peşman olar. Peyğəmbər ﷺ öz ümmətinə belə nəsihət etmişdir: “Qoy birisinin namusuna toxunmaqla və ya ona başqa bir pislik etməklə zülm etmiş adam, dinar və dirhəmin *fayda verməyəcəyi gün* gəlməmişdən əvvəl, bu gün ondan halallıq diləsin. Yoxsa, əgər *Qiyamət günü* onun savabı olarsa, etdiyi zülm qədər savabından götürülər *və zülm etdiyi adama verilər*; yox, əgər savabı olmazsa, onda zülm etdiyi adamın günahlarından götürülüb

[1] Səhih əl-Buxari, 2452.

onun boynuna qoyular."[1] Digər hədisdə o, demişdir: "Zülm üç növdür: Allahın sərbəst buraxmadığı zülm, bağışladığı zülm və bir də bağışlamadığı zülm. Allahın bağışlamadığı zülmə gəlincə, bu, Allaha şərik qoşmaqdır. Allahın bağışladığı zülm isə bəndənin özü ilə öz Rəbbi arasında olan zülmləridir. Allahın sərbəst buraxmadığı zülm isə Onun qullarına edilən zülmdür. Buna görə onlar bir-birindən qisas alacaqlar."[2] Allaha şərik qoşanların əzabı xüsusunda Quranda keçən ən şiddətli ayələrdən birində, "ən-Nəbə" surəsinin 30-cu ayəsində belə buyurulur: "Elə isə, dadın *əzabı!* Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!" Sərbəst buraxılmayan zülmə isə "əl-Ənbiya" surəsinin 47-ci ayəsini dəlil göstərmək olar. Həmin ayədə belə buyurulur: "Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcək. *Görülmüş iş* bir xardal dənəsi mislində olsa belə, onu gətirib *tərəziyə* qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik." Üçüncü növ zülmü isə Allah dilədiyinə bağışlayacaq, dilədiyini də cəzalandıracaq, lakin cəzalandırdığı bəndəsini, müşriklər tək əbədi olaraq Cəhənnəmə giriftar etməyəcək.

Şərh etdiyimiz hədisin davamında Uca Allah Öz qullarına, onlardan hidayət verdiyi kimsələr istisna olmaqla, hamısının zəlalətdə olduğunu və elə buna görə də, Ondan hidayət diləmələrini buyurur. İbn Rəcəb ﷺ bu cümləni belə izah etmişdir: "Bəziləri elə güman edirlər ki, bu hədis, İyad ibn Himarın رضي الله عنه Peyğəmbərdən ﷺ rəvayət etdiyi hədisə ziddir. Həmin qüdsi hədisdə xəbər veri-

---

[1] Səhih əl-Buxari, 2449.

[2] Musnəd ət-Təyalisi, 2/60-61; Silsilətul-Əhadisis-Səhihə, 1927.

lir ki, Uca Allah demişdir: "Mən Öz qullarımı hənif – müsəlman olduqları halda xəlq etmişəm. Sonra şeytanlar onları haqq yoldan sapdırmışlar."[1] Bu məsələdə doğru rəy budur ki, Allah Adəm övladlarını fitrət üzərində - İslamı qəbul etməyə meyilli, buna hazır olduqları halda xəlq etmiş, lakin İslamı öyrənməyi onların öhdəsinə buraxmışdır. Belə ki, onlar belə olduqları halda, heç nədən xəbərləri olmayan cahil adamlar hesab olunmuşlar. Necə ki, "ən-Nəhl" surəsinin 78-ci ayəsində buyurulur: "Allah sizi analarınızın bətnindən, heç nə bilmədiyiniz halda çıxartdı." Həmçinin, "əd-Duha" surəsinin 7-ci ayəsində Uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurur:

﴿ وَوَجَدَكَ ضَآلًّا فَهَدَىٰ ﴾

"Allah səni çaşqın olduğun halda tapıb, doğru yola yönəltmədimi?!" Yəni kitab və sünnədən xəbərin olmadığı halda. Həmçinin, "əş-Şura" surəsinin 52-ci ayəsində Uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurur:

﴿ وَكَذَٰلِكَ أَوْحَيْنَآ إِلَيْكَ رُوحًا مِّنْ أَمْرِنَا ۚ مَا كُنتَ تَدْرِى مَا ٱلْكِتَٰبُ وَلَا ٱلْإِيمَٰنُ ﴾

"Biz sənə Öz əmrimizdən olan Quranı vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin." *Yəni Qurandan və İslam dinindən xəbərin yox idi.* Demək, insan haqqı qəbul etməyə meyilli olduğu halda doğulur. Və əgər Allah ona hidayət vermək istəsə, onu haqq yola yönəldən kimsəni ona tərəf yönəldər, o da onu haqq

[1] Səhih Muslim, 2865.

yola yönəldər. Yox, əgər onu rüsvay etmək istərsə, onu haqq yoldan sapdıran kimsəni ona tərəf yönəldər, o da onu haqq yoldan döndərər."[1]

Sonra şərh etdiyimiz hədisdə Uca Allah Öz qullarına, Ona möhtac olduqlarını və yalnız Ondan ruzi diləmələrini buyurur. Bundan aydın olur ki, yaradılanların hamısı özlərinin dünya və din işlərində xeyir əldə etmək və zərəri dəf etmək xüsusunda Allaha möhtacdırlar. Bu haqda Quranda neçə-neçə ayələr var. Məsələn: "əz-Zariyat" surəsinin 58-ci ayəsində belə buyurulur: "Həqiqətən, Allah ruzi verəndir, Qüvvət sahibidir, Mətindir." Həmçinin, "əl-Ənkəbut" surəsinin 17-ci ayəsində buyurulur: "Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə, ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin." Həmçinin, "Hud" surəsinin 6-cı ayəsində buyurulur: "Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin." Həmçinin, "Fatir" surəsinin 2-ci ayəsində buyurulur: "Allah insanlara Öz mərhəmətindən nəyi nəsib edərsə, heç kəs onun qarşısını ala bilməz. Onun göndərmədiyi bir şeyi də Ondan başqa heç kəs verə bilməz." Yeri gəlmişkən qeyd etmək lazımdır ki, pak və halal ruzi qazanmaq istəyən kəs, Allahın layiqli mömin qulu olmalı – Allahdan qorxmalı, yalnız Ona ibadət etməli, yalnız Ondan mədəd diləməli, üstəlik, bu yolda səbəblərdən də tutmalıdır.

Sonra şərh etdiyimiz hədisdə Uca Allah Öz qullarına çılpaq olduqlarını, yəni hər zaman geyimə möhtac olduqlarını və bu ne-

---

[1] Camiul-Ulum vəl-Hikəm, 2/39-40.

məti də yalnız Allahdan diləmələrini buyurur. Bu rəvayətə diqqətlə nəzər salsaq görərik ki, burada Uca Allah Öz qullarına öncə hidayət, sonra yemək, sonra da geyim diləməyi buyurur. Bu da o deməkdir ki, insanın hər şeydən çox hidayətə ehtiyacı var. Sonra yemək-içməyə, ondan sonra da geyimə.

Sonra şərh etdiyimiz hədisdə Uca Allah buyurur: "Ey qullarım, siz gecə-gündüz günah işlər görürsünüz. Mən də bütün günahları bağışlayıram. Elə isə Məndən bağışlanma diləyin, sizi bağışlayım!" Bu sözdən aydın başa düşülür ki, insan xəta etməyə məhkumdur. Başqa bir hədisdə Peyğəmbər ﷺ bu mənanı təsdiqləyib demişdir: "Adəm övladlarının hamısı xəta edir. Xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir."[1] Sonra Uca Allah Öz qullarına bütün günahları bağışlamağa qadir olduğunu bildirir. Hətta başqa bir qüdsi hədisdə Uca Allah buyurur: "Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edirsən və Mənim mərhəmətimə ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayıram və günahın çoxluğuna və böyüklüyünə əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər sənin günahların yerdən göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram və günahın çoxluğuna və böyüklüyünə əhəmiyyət verməRəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan, Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm."[2] Diqqət edin, Uca Allah günahları bağışlamağa qadir olduğunu bildirdikdən sonra Öz qullarına Ondan ba-

---

[1] Sunən ət-Tirmizi, 2499; Səhih Tərğib vət-Tərhib, 3139.

[2] Sunən ət-Tirmizi, 2/270; Silsilətul-Əhadisis-Səhihə, 127.

ğışlama istəmələrini buyurur ki, onların günahlarını bağışlasın. Allahu əkbər, mərhəmətə bir baxın! Allahdan ən çox qorxan və Ondan ən çox məğfirət diləyən peyğəmbərlər olub, o cümlədən də Peyğəmbərimiz ﷺ. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Vallahi, mən hər gün yetmiş dəfədən çox Allahdan həm bağışlanma diləyir, həm də Ona tövbə edirəm."[1] Diqqət edin, günahı olmayan, məsum peyğəmbər bu əməli ilə ümmətə nümunə göstərir. Bu hədislər Allahın, tövbələri qəbul edən, günahları bağışlayan və əfv edən, Rəhimli və Mərhəmətli Rəbb olduğunu bildirir.

Sonra bu hədisdə Uca Allah Öz qullarının Ona, nə zərər yetirməyə, nə də fayda verməyə qadir olduqlarını bildirir. İbn Rəcəb رحمه الله bu cümləni belə izah etmişdir: "İnsanlar nə fayda verməyə, nə də zərər yetirməyə qadirdirlər. Uca Allah, həqiqətən də zəngindir, tərifəlayiqdir, heç kəsin Ona itaət və ibadət etməsinə möhtac deyil. Məxluqatın itaət və ibadətinin ona heç bir faydası yoxdur. Bunun faydası yalnız yaradılanların özlərinə aiddir. Onlardır, öz əməlləri müqabilində mükafat qazananlar. Eləcə də onların asiliklərinin Allaha heç bir zərəri yoxdur. Asilik edənlərin özləri öz əməllərindən zərər çəkərlər. Necə ki, "Ali-İmran" surəsinin 144-cü ayəsində buyurulur: "Kim *dinindən* geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz." Həmçinin bu surənin 176-cı ayəsində buyurulur: "Küfr etməyə can atanlar səni kədərləndirməsin. Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər."[2]

---

[1] Səhih əl-Buxari, 6307.

[2] Camiul-Ulum vəl-Hikəm, 2/43.

Bu qüdsi hədisdə Uca Allah Öz qullarına möhtac olmadığını, insanların və cinlərin hamısının ən təqvalı insan kimi olduqları təqdirdə, Onun mülkünə heç bir şey artırmayacağını, həmçinin də insanların və cinlərin hamısının ən pis insan kimi olduqları təqdirdə, Onun mülkündən heç bir şey əksiltməyəcəyini bildirir. Yəni nə itaətkar bəndənin itaətinin Allaha bir faydası ola bilər, nə də asi adamın asiliyinin Allaha bir zərəri dəyə bilər. Hər kəsin etdiyi yaxşılıq və pislik ancaq onun özünə qayıdır. Bu xüsusda "Yunus" surəsinin 108-ci ayəsində belə buyurulur: "Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar" Həmçinin, "ər-Rum" surəsinin 44-cü ayəsində belə buyurulur: "Kim küfr edərsə, küfrü öz əleyhinə olar. Yaxşı iş görənlər isə özləri üçün *Cənnətdə yer* hazırlamış olarlar." Bəndənin ibadətinin və ya asiliyinin Allaha aidiyyəti olmasa da, Allahın mərhəmətindəndir ki, O, Öz bəndələrinin tövbə etməsinə sevinir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Allah Öz qulunun tövbəsinə, üstündə yemək-içməyi yüklənmiş dəvəsi ilə birgə təhlükəli bir yerdə dayanan və başını yerə qoyub yatan, oyandıqda dəvəsinin qaçdığını görən, özü də bərk istiyə və susuzluğa məruz qaldıqdan sonra: "Yerimə qayıdım"– deyərək geri qayıdıb, bir qədər də yatan və nəhayət, oyanıb başını qaldırdıqda, dəvəsini yanında görən kimsədən, daha çox sevinir."[1]

Şərh etdiyimiz hədisdə Uca Allah sadəcə misal olaraq, insanlar başa düşsünlər deyə, buyurur ki, Öz mülkündən yalnız dənizə batırılan iynənin *dənizdən* əksiltdiyi kimi əksildər. Bu sadəcə mi-

---

[1] Səhih əl-Buxari, 6308.

saldır, yoxsa ki, Allahın mülkü heç bir vəchlə tükənməz. Necə ki, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Allahın əli doludur. *Bu nemətlərin* səhər-axşam ardı-arası kəsilmədən xərclənməsi, Onun əlini boş qoya bilməz. Məgər Allahın göyü və yeri yaratdığı gündən bəri nə qədər xərclədiyini görmürsünüz?! Bu, Onun əlindəkilərin azalmasına *zərrə qədər* təsir göstərməmişdir."[1] Allahın nemətlərinin tükənməz olduğu barədə Quranda – "ən-Nəhl" surəsinin 96-cı ayəsində belə buyurulur: "Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə əbədi qalacaq."

Sonra bu qüdsi hədisdə Uca Allah insanların və cinlərin əməllərini hesaba aldığını, sonra da bunun əvəzini verəcəyini xəbər verir. Burada bir incə məqam var, bu da Allahın olduqca ədalətli olmasıdır. Belə ki, ədalətli Allah möminlərə də, kafirlərə də etdikləri yaxşılıqların əvəzini verir. Sadəcə olaraq möminlərə etdikləri yaxşılıqların əvəzini həm bu dünyada, həm də axirətdə verir, kafirlərə isə etdikləri yaxşılıqların əvəzini yalnız bu dünyada verir.

Və nəhayət, hədisin sonunda buyurur ki, kim Qiyamət günü xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, özündən başqa heç kəsi qınamasın. "əl-Əraf" surəsinin 43-cü ayəsində xəbər verilir ki, Cənnət əhli Cənnətə daxil olduqda deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik." Günahkarlar isə Qiyamət günü həm özlərini, həm də öz böyüklərini qınayacaqlar. "əl-Əhzab" surəsinin 64-cü ayəsindən 68-ci ayəsinədək belə buyurulur: "Həqiqətən, Allah kafirləri lə-

---

[1] Səhih əl-Buxari, 4684.

nətləmiş və onlar üçün *yandırıb-yaxan* Od hazırlamışdır. Onlar orada əbədi qalacaq, *özlərinə* nə bir himayəçi, nə də bir yardımçı tapa biləcəklər. Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha ibadət edəydik, Onun rəsuluna itaətkar olaydıq!" Sonra deyəcəklər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onları ikiqat əziyyətə sal və onları müdhiş bir lənətə məruz qoy!" Həmçinin, "əl-Furqan" surəsinin 27-ci ayəsindən 29-cu ayəsinədək belə buyurulur: "Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcək: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı." Bu xüsusda Əli ibn Əbu Talibin ﵁ ibrətamiz bir nəsihəti var. O, demişdir: "Ey insanlar, bu dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz övladları, *yəni ona könül bağlayanları* var. Siz ey müsəlmanlar, dünya övladlarından yox, axirət övladlarından olun! Bu gün bir iş görürsünüz, lakin sorğu-sual olunmursunuz. Sabah isə sorğu-sual olunacaq və tövbə edə bilməyəcəksiniz."[1]

Məlumat üçün qeyd edək ki, bu hədisi Əbu Zərdən ﵁, Əbu İdris əl-Xovlani ﵀ rəvayət etmişdir. Şeyx Albani ﵀ bu hədisi izah edərkən demişdir: "Əbu İdris əl-Xovlani bu hədisin möhtəşəmliyini təsdiq etmək üçün diz çökərmiş. Çünki bu, aləmlərin Rəbbinin kəlamından olan qüdsi hədisdir. Bu hədis şamlıların rə-

[1] Səhih əl-Buxari, "*Qəlbi* yumşaldan *əməllər* kitabı", 3-cü fəsil: "Arzuların çox olması haqqında."

vayətlərindəndir. *Yəni hədisin isnadında keçən ravilərin hamısı Şam əhlindəndir.* İbn Əsakir, Əbu Mushirin belə dediyini rəvayət etmişdir: “Şam əhli üçün Əbu Zərrin ﵁ bu hədisindən daha şərəfli hədis yoxdur.”

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ لَكَ الْحَمْدُ كُلُّهُ، اللَّهُمَّ لاَ قَابِضَ لِمَا بَسَطْتَ، وَلاَ مُقَرِّبَ لِمَا بَاعَدْتَ، وَلاَ مُبَاعِدَ لِمَا قَرَّبْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ مَانِعَ لِمَا أَعْطَيْتَ. اللَّهُمَّ ابْسُطْ عَلَيْنَا مِنْ بَرَكَاتِكَ وَرَحْمَتِكَ وَفَضْلِكَ وَرِزْقِكَ، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ النَّعِيمَ الْمُقِيمَ الَّذِي لاَ يَحُولُ وَلاَ يَزُولُ. اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ النَّعِيمَ يَوْمَ الْعَيْلَةِ، وَالأَمْنَ يَوْمَ الْحَرْبِ، اللَّهُمَّ عَائِذِينَ بِكَ مِنْ سُوءِ مَا أَعْطَيْتَنَا، وَشَرِّ مَا مَنَعْتَ مِنَّا. اللَّهُمَّ حَبِّبْ إِلَيْنَا الإِيمَانَ وَزَيِّنْهُ فِي قُلُوبِنَا، وَكَرِّهْ إِلَيْنَا الْكُفْرَ وَالْفُسُوقَ وَالْعِصْيَانَ، وَاجْعَلْنَا مِنَ الرَّاشِدِينَ. اللَّهُمَّ تَوَفَّنَا مُسْلِمِينَ، وَأَحْيِنَا مُسْلِمِينَ، وَأَلْحِقْنَا بِالصَّالِحِينَ، غَيْرَ خَزَايَا وَلاَ مَفْتُونِينَ. اللَّهُمَّ قَاتِلِ الْكَفَرَةَ الَّذِينَ يَصُدُّونَ عَنْ سَبِيلِكَ، وَيُكَذِّبُونَ رُسُلَكَ، وَاجْعَلْ عَلَيْهِمْ رِجْزَكَ وَعَذَابَكَ. اللَّهُمَّ قَاتِلِ الْكَفَرَةَ الَّذِينَ أُوتُوا الْكِتَابَ، إِلَهَ الْحَقِّ ))

“Allahım, bütün həmdlər Sənə məxsusdur. Allahım, Sənin *Öz nemətlərindən* verdiyini alan, uzaqlaşdırdığını yaxınlaşdıran, yaxınlaşdırdığını uzaqlaşdıran, mane olduğunu verən, verdiyinə də mane olan bir kimsə yoxdur. Allahım, bizə verdiyin bərəkətlərini, rəhmətini, lütfünü və ruzini artır. Allahım, Səndən dəyişməyən və yox olmayan tükənməz nemətlər diləyirik. Allahım, Səndən çətin

gündə nemət və döyüş günündə əmniyyət diləyirik. Allahım, bizə verdiyin şeylərin pisliyindən və vermədiyin şeylərin şərindən Sənə sığınırıq. Allahım, bizə imanı sevdir və qəlbimizdə onu gözəlləşdir, bizdə küfrə, günaha və asiliyə qarşı nifrət oyat və bizi doğru yolda gedənlərdən et. Allahım, bizim canımızı müsəlman olduğumuz halda al, bizi müsəlman olduğumuz halda dirilt və bizi rüsvay etmədən və fitnəyə məruz qoymadan əməlisalehlərə qovuşdur. Allahım, *insanları* Sənin yolundan döndərən və Sənin elçilərini yalançı sayan kafirləri öldür, onları cəzalandır və onlara əzab ver. Allahım, özlərinə Kitab verilmiş kafirləri öldür. Ey haqq İlah!”[1]

[1] əl-Ədəb əl-Mufrad, 699.

## **İyirmi beşinci hədis**

عَنْ أَبِي ذَرٍّ رضي الله عنه أَيْضًا، "أَنَّ نَاسًا مِنْ أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ قَالُوا لِلنَّبِيِّ ﷺ يَا رَسُولَ اللَّهِ ذَهَبَ أَهْلُ الدُّثُورِ بِالْأُجُورِ؛ يُصَلُّونَ كَمَا نُصَلِّي، وَيَصُومُونَ كَمَا نَصُومُ، وَيَتَصَدَّقُونَ بِفُضُولِ أَمْوَالِهِمْ. قَالَ: أَوَلَيْسَ قَدْ جَعَلَ اللَّهُ لَكُمْ مَا تَصَّدَّقُونَ؟ إنَّ بِكُلِّ تَسْبِيحَةٍ صَدَقَةً، وَكُلِّ تَكْبِيرَةٍ صَدَقَةً، وَكُلِّ تَحْمِيدَةٍ صَدَقَةً، وَكُلِّ تَهْلِيلَةٍ صَدَقَةً، وَأَمْرٌ بِمَعْرُوفٍ صَدَقَةٌ، وَنَهْيٌ عَنْ مُنْكَرٍ صَدَقَةٌ، وَفِي بُضْعِ أَحَدِكُمْ صَدَقَةٌ. قَالُوا: يَا رَسُولَ اللَّهِ أَيَأْتِي أَحَدُنَا شَهْوَتَهُ وَيَكُونُ لَهُ فِيهَا أَجْرٌ؟ قَالَ: أَرَأَيْتُمْ لَوْ وَضَعَهَا فِي حَرَامٍ أَكَانَ عَلَيْهِ وِزْرٌ؟ فَكَذَلِكَ إذَا وَضَعَهَا فِي الْحَلَالِ، كَانَ لَهُ أَجْرٌ".

رَوَاهُ مُسْلِمٌ [رقم:١٠٠٦].

Yenə Əbu Zərr رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbərin ﷺ səhabələrindən bir dəstə adam onun yanına gəlib dedi: "Ya Rəsulullah, var-dövlət sahibləri *bizdən çox* savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur, üstəlik, ən gözəl mallarını *Allah yolunda* sədəqə verirlər." Peyğəmbər ﷺ dedi: "Məgər Allah sizin üçün sədəqə verəcəyiniz şeylər hazırlamayıb?! Həqiqətən, hər bir təsbih sədəqədir, hər bir təkbir sədəqədir, hər bir təhmid sədəqədir, hər bir təhlil sədəqədir, yaxşı əməlləri buyurmaq sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir, habelə, sizdən birinizin *öz həyat yoldaşı ilə* yaxınlıq etməsi də sədəqədir." Səhabələr soruşdular: "Ya Rəsulullah, birimiz öz zövcəsi ilə yaxınlıq

edir və buna görə savab qazanır?" O, dedi: "Məgər haram yolla yaxınlıq etdikdə, buna görə günah qazanmır?! Eləcə də, halalı ilə yaxınlıq etdikdə, savab qazanır."

Bu hədisi İmam Muslim ﷺ öz "Səhih"ində rəvayət etmişdir.[1]

Kasıb səhabələrin: "varlılar *bizdən çox* savab qazanır" sözü, onların xeyirxah işlərə can atmasına və savab qazanmağa həris olmalarına dəlalət edir. Kasıb səhabələr varlı səhabələrə, onların çoxlu savab qazandıqlarına görə sadəcə qibtə edirdilər. Buna da şəriət icazə verir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Yalnız iki şəxsə həsəd aparmaq olar: bir o şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da, onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim." Bir də o şəxsə ki, Allah ona var-dövlət bəxş etmiş, o da onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim."[2]

Şərh etdiyimiz hədisdə səhabələrin "Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur" sözü dəlildir ki, namaz və oruc kimi, bədənə aid olan ibadətlərdə varlı ilə kasıb arasında fərq yoxdur. Hər ikisi eyni savabı qazana bilər. Lakin varlıların öz mallarından sədəqə verməsi onları savab qazanmaq etibari ilə kasıblardan üstün edir və bu da Allahın onlara bəxş etdiyi lütfüdür. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "*Ya*

---

[1] Bu hədisi Muslim, 1006.

[2] Səhih əl-Buxari, 5026.

*Rəsulullah,* varlılar ən yüksək məqamlara və tükənməz nemətlərə nail oldular. Onlar bizim kimi namaz qılır və bizim kimi oruc tuturlar. Üstəlik sədəqə verir və kölə azad edirlər, biz isə bunları edə bilmirik." Peyğəmbər ﷺ buyurdu: "Sizə elə bir şey öyrədimmi ki, onu yerinə yetirməklə sizi ötüb keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xeyirlisi siz olasınız?" Onlar: "Bəli, ya Rəsulullah!"– dedikdə, o belə buyurdu: "Hər vacib namazdan sonra otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "əlhəmdulilləh" və otuz üç dəfə "Allahu Əkbər" deyin!" *Bir müddətdən* sonra kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "*Ya Rəsulullah,* varlı qardaşlarımız bizim dediklərimizi eşitdilər və onlar da bu zikrləri etməyə başladılar. Onda Peyğəmbər ﷺ dedi: "Bu, Allahın lütfüdür, onu istədiyinə verər."[1]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ səhabələrinə bildirmək istəyir ki, sədəqə təkcə mal-dövlət xərcləməyə aid deyil, Allah rizasını qazanmaq məqsədilə xərclənən mal, sadəcə sədəqənin növlərindən biridir. Yoxsa ki, Allah rizasını qazanmaq üçün edilən hər bir yaxşı əməl sədəqə sayılır. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər bir yaxşılıq sədəqədir."[2] Başqa bir hədisdə rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ dedi: "Hər bir müsəlman sədəqə verməlidir." *Səhabələr* soruşdular: "Sədəqə verməyə bir şey tapmasa necə?" Peyğəmbər ﷺ buyurdu: "Öz əlləri ilə işləyib qazansın və *bu qazancından* həm özü faydalansın, həm

---

[1] Səhih əl-Buxari, 843 və 6329; Səhih Muslim, 595.

[2] Səhih əl-Buxari, 6021; Səhih Muslim, 2375.

də *ehtiyacı olanlara* sədəqə versin." *Səhabələr* soruşdular: "*Buna* imkanı olmasa, yaxud *bunu* bacarmasa necə?" Peyğəmbər ﷺ buyurdu: "Ehtiyacı olan çarəsiz adama kömək etsin." *Səhabələr* soruşdular: "*Bunu da* edə bilməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Qoy xeyirxah işlər görməyi yaxud yaxşılıq etməyi əmr etsin." *Səhabələr* soruşdular: "*Bunu da* edə bilməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Qoy yaramaz işlərdən əl çəksin. Həqiqətən, bu onun üçün sədəqə sayılır."[1]

Hədisdən aydın başa düşülür ki, hər bir yaxşı əməl sədəqə sayılır. Həqiqətən də, Uca Allah möminlərin savab qazanması üçün neçə-neçə qapılar açmışdır. Demək, bu əməlləri Öz qulları üçün sədəqə edən, Allahdır. İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, səhabələr Peyğəmbərdən ﷺ səfərdə namazı qısaltmaq barədə soruşub dedilər: "Yə Rəsulullah, Uca Allah "ən-Nisa" surəsində buyurur ki: "Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxsanız, namazı qısaltmanızda sizə günah olmaz." İndi biz artıq əmin-amanlıqdayıq, namazı tam qılaqmı?" Peyğəmbər ﷺ buyurdu: "*Səfərdə namazı qısaltmaq* Allahın sizə veridiyi sədəqədir. Bu sədəqəni qəbul edin!"[2]

Şərh etdiyimiz hədisdə hər bir təsbihin, hər bir təkbirin, hər bir təhmidin və hər bir təhlilin sədəqə olduğu xəbər verilir. Təsbih: "subhanəllah" demək, təkbir: "Allahu əkbər" demək, təhmid: "əlhəmdulilləh" demək və təhlil: "lə ilahə illəllah" deməkdir.

---

[1] Səhih əl-Buxari 1445.

[2] Səhih Muslim, 686.

Qeyd etmək lazımdır ki, bu zikrləri etmək bəzən vacib, bəzən isə müstəhəb olur. Məsələn: namaza başlayanda “Allahu əkbər” demək, vacibdir və onsuz namaz batil olur. Namazdan sonra isə 33 kərə “Allahu əkbər” demək müstəhəbdir. Yaxud, İslamı qəbul etmək üçün “lə ilahə illəllah” demək vacibdir, onsuz adam müsəlman sayıla bilməz. Lakin gündəlik olaraq 100 kərə “lə ilahə illəllah” demək müstəhəbdir.

Bu dörd zikr, həqiqətən də, ən fəzilətli zikrlər və sahibinə ən çox savab qazandıran kəlmələrdir. Gəlin bu dörd zikrin fəzilətinə dair bir neçə hədisi zikr edək:

– Peyğəmbər ﷺ demişdir: “Allah üçün ən sevimli kəlam dörddür, hansından başlasan, sənə zərər verməz: “Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər.”[1]

– digər bir hədisdə o, demişdir: “Mənim üçün “subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllahu, vəllahu əkbər”– demək, dünya və onun içindəkilərdən daha əzizdir.”[2]

– yenə bir hədisdə xəbər verilir ki, Əli ibn Əbu Talibin رضي الله عنه bacısı Ummu Hani رضي الله عنها demişdir: “Bir dəfə Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi və mən ona dedim: “Mən artıq yaşa dolmuşam, qocalıq məni əldən salıb. Mənə elə bir əməl öyrət ki, mən oturduğum yerdə ona əməl edim *və savab qazanım*.” Peyğəmbər ﷺ buyurdu: “Yüz dəfə “subhanəllah” de, bu, sənin üçün İsmayıl عليه السلام nəslindən yüz kölə azad etməyə bərabər olacaq. “Yüz dəfə “əlhəmdulilləh” de, bu, sənin üçün Allah yolunda vuruşan müca-

---

[1] Səhih Muslim, 2137.

[2] Səhih Muslim, 2695.

hidlərin mindiyi, yəhərlənmiş və yüyənlənmiş yüz ata bərabər olacaq. Yüz dəfə "Allahu əkbər" de, bu, sənin üçün qurban kəsilmiş və Allah tərəfindən qəbul edilmiş yüz dəvəyə bərabər olacaq. Yüz dəfə "Lə ilahə illəllah" de, bu, sənin üçün yerlə göy arasını savabla dolduracaq. Və bu zikri etdiyin gün – həmin zikri edən kimsə istisna olmaqla – heç kəsin savabı səninkindən çox olmayacaq."[1]

– başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Yer üzündə: "Lə ilahə illəllahu, vəllahu əkbəru, və subhanəllahi, vəl-həmdulilləhi, və lə hovlə və lə quvvətə illə billəh"– deyən elə bir mömin yoxdur ki, onun günahları – dənizdəki köpüklərdən çox olsa belə bağışlanmasın."[2]

– digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Merac gecəsində mən İbrahim aleyhissəlamı gördüm. O, dedi: "Ey Muhəmməd! Məndən ümmətinə salam söylə və onlara bildir ki, Cənnətin torpağı ətirli, suyu da olduqca şirindir. Yeri dümdüzdür, üzərinə əkilənlər isə: "Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər" kəlmələridir."[3]

– başqa bir hədisdə xəbər verilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Bir gün Peyğəmbər ﷺ bizə: "Qalxanınızı götürün!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah! Üstümüzə düşmənmi gəlir?" O, buyurdu: "Yox, əksinə, sizi Oddan qoruyacaq qalxanınızı götürün: Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu

[1] Musnəd Əhməd, 6/344; Silsilətul-Əhadisis-Səhihə, 1316.
[2] Musnəd Əhməd, 2/211; Sunən ət-Tirmizi, 3460; Səhih əl-Cami, 5636.
[3] Sunən ət-Tirmizi, 3462; Silsilətul-Əhadisis-Səhihə, 105.

əkbər. Bu kəlmələr, sahibini Cəhənnəm odundan qoruyan və onu öndə aparan, habelə, savabı əbədi qalacaq yaxşı əməllərdəndir."[1]

– yenə bir rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Tərəzidə ən ağır gələn kəlmələr necə də gözəldir: Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər."[2]

Qeyd edək ki, bu zikrlər insanın özünə fayda verən sədəqə sayılır. Peyğəmbər ﷺ bu dörd zikrin sədəqə olduğunu bildirdikdən sonra insanlara yaxşı əməlləri buyurmağın və onları pis işlərdən çəkindirməyin sədəqə olduğunu xəbər verir. Sədəqənin bu növü, insanın həm özünə, həm də başqasına fayda verir. Hədislərin birində, Peyğəmbər ﷺ insanlara yaxşı işlər görməyi əmr edən və onları pis işlərdən çəkindirən kimsənin cənnətlik olacağını xəbər verir.[3] Lakin xüsusi ilə qeyd etmək lazımdır ki, bu əməl yalnız, o möminə fayda verər ki, o, özü yaxşı işlər görüb pis işlərdən çəkinməklə yanaşı, başqalarına da yaxşı işlər görüb pis işlərdən çəkinməyi buyursun. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qiyamət günü bir nəfər gətirilib Cəhənnəm oduna atılacaq. Onun bağırsaqları atəşin içinə töküləcək və o, dəyirmanın ətrafında fırlanan uzunqulaq kimi fırlanacaq. Cəhənnəm sakinləri onun başına yığışıb deyəcəklər: "Ey filankəs, niyə bu kökə düşmüsən? Məgər sən bizə yaxşı işlər görməyi buyurub, pis əməlləri qadağan etmirdinmi?!" O deyəcək: "Mən sizə yaxşı işlər görməyi buyurur-

---

[1] Mustədrək, 1/541; Səhih əl-Cami, 3214.

[2] Səhih İbn Hibban, 2328; Silsilətul-Əhadisis-Səhihə, 1204.

[3] Musnəd İmam Əhməd, 4/299.

dum, lakin özüm buna əməl etmirdim, sizə pis əməlləri qadağan edirdim, amma özüm o işləri görürdüm."[1]

Bir qədər əvvəl qeyd etdik ki, zikrlərdən bəzisi vacib, bəzisi də müstəhəbdir. Eləcə də mömin adamın insanlara yaxşı əməlləri buyurması və onları pis işlərdən çəkindirməsi, ona bəzən vacib, bəzən də müstəhəb olur. Yeri gəlmişkən qeyd edək ki, yaxşı əməlləri buyurmağın iki şərti var:

Birincisi, insanlara yaxşılığı əmr edən adam, əmr etdiyi əməlin şəriətə aid olduğunu bilməlidir. Və əgər o, dini məsələlərdən başı çıxmayan savadsız adamdırsa, o zaman onun dindən danışması qətiyyətlə qadağandır. Çünki əgər o, insanlara özünün bilmədiyi bir işi görməyi əmr edərsə, Allahın və Onun rəsulunun ﷺ adından, bilmədiyini danışmış sayılar.

İkinci şərt isə budur ki, bir adama yaxşılığı əmr edən adam, onun həmin əməli tərk etdiyini bilməlidir. Və əgər bilmirsə, bunu araşdırıb öyrənməlidir.

Həmçinin, insanları pis işlərdən çəkindirməyin də, özünə aid şərtləri var:

Birincisi budur ki, birisinə hər hansı bir əməli inkar edən adam, həmin əməlin şəriət tərəfindən inkar edildiyini bilməlidir, başqa cür desək, buna dair əlində dəlil-sübutu olmalıdır. Bu inkar və çəkindirmə, onun nəfsinə, yaxud adətə və ya başqa bu kimi səbəblərə görə olmamalıdır.

İkinci şərt budur ki, pis əməli inkar edən adam, o əməli edən kimsənin həmin o pis əməli etdiyini yəqin bilməlidir, yəni zənnə

---

[1] Səhih əl-Buxari, 3267.

və ya dedi-qoduya əsasən hökm verməməlidir. Və əgər bilmirsə, bunu araşdırıb öyrənməlidir.

Üçüncü şərt isə budur ki, əgər adamı pis əməlindən çəkindirəcəyi təqdirdə, onun daha pis əməl edəcəyini ehtimal edərsə, o zaman onu, o pis əməldən çəkindirməməlidir. Bu məsələ də özü-özlüyündə dörd mərhələdən ibarətdir:

1-cisi, münkəri – yəni pis əməli bütövlüklə aradan qaldırmaqdır ki, bu halda adamı həmin pis əməldən çəkindirmək vacibdir.

2-cisi, pis əməli azaltmaqdır ki, bu halda da adamı həmin pis əməldən çəkindirmək vacibdir.

3-cüsü, pis əməldən çəkindirdiyi təqdirdə, onun bənzərinin meydana gəlməsi ehtimaldır ki, bu halda adamı bəzən həmin pis əməldən çəkindirmək, bəzən isə çəkindirməmək məsləhətdir. Belə etmək lazımdır ki, bəlkə adam özünü islah edə.

4-cüsü də, pis əməldən çəkindirdiyi təqdirdə, ondan daha pisinin meydana gəlməsi ehtimaldır ki, bu halda adamı pis əməldən çəkindirmək qadağandır.

Sonra şərh etdiyimiz hədisdə: "sizdən birinizin *öz həyat yoldaşı ilə* yaxınlıq etməsi də sədəqədir" deyilir. Bu sədəqə də həmçinin, bəzən vacib, bəzən isə müstəhəb olur. Əgər adam zina edəcəyindən qorxduğu üçün öz halalı ilə yaxınlıq edirsə, bu onun üçün vacib sədəqə sayılır. Yox, əgər sadəcə şəhvətini soyutmaq üçün bunu edirsə, bu onun üçün müstəhəb sədəqə sayılır.

Sonra hədisdə xəbər verilir ki, səhabələr soruşdular: "Ya Rəsulullah, birimiz öz zövcəsi ilə yaxınlıq edir və buna görə savab qazanır?" Bu, dəlildir ki, səhabələr başa düşmədikləri məsələləri

Peyğəmbərdən ﷺ soruşardılar. Demək, onların soruşmadığını soruşmaq bidətdir. Məsələn: səhabələr Allahın ərşə necə istiva etdiyi barədə soruşmamışlar. Demək, bu məsələni araşdırmaq bidətdir. Kim deyə bilər ki, o, Allahı tanımağa səhabələrdən daha çox hərisdir. Əgər səhabələr bu haqda Rəsulullaha ﷺ sual verməmişlərsə, biz də həmçinin bu haqda soruşmamalıyıq. Bir nəfər İmam Malikdən ﷺ: "Ər-Rəhman Ərşin üzərinə necə istiva etmişdir, *yəni necə yüksəlmişdir*?"– deyə soruşduqda, o, demişdir: "İstiva məlumdur, necəliyi məchuldur, buna iman gətirmək vacibdir, onun necəliyi barədə soruşmaq isə bidətdir." Bu hədisdə isə səhabələrin: "Ya Rəsulullah, birimiz öz zövcəsi ilə yaxınlıq edir və buna görə savab qazanır?" – deməsi dəlildir ki, belə sual vermək və bilmədiyini alimdən soruşmaq caizdir. Peyğəmbər ﷺ də onlara: "Məgər haram yolla yaxınlıq etdikdə buna görə günah qazanmır?!"– deyə cavab verir. Diqqət edin, Peyğəmbər ﷺ onları başa salmaq üçün, verdikləri sualın əksini soruşur. Bu da, üsulul-fiqh istilahında "qiyasul-aks/əksini qiyas etmək" adlanır. Yəni soruşduğunuz əməlin əksi haramdırsa, demək, soruşduğunuz əməl halaldır. Hədisdə "halalı ilə yaxınlıq etmək" deyildikdə, kəbinli zövcə, yaxud cariyə nəzərdə tutulur. "əl-Muminun" surəsinin 5-ci və 6-cı ayələrində möminlər belə vəsf edilir: "O kəslər ki, ayıb yerlərini qoruyurlar. Yalnız zövcələri və sahib olduqları cariyələrdən başqa. Onlar *buna görə heç* qınanmazlar." Ayədən aydın başa düşülür ki, kəbinli həyat yoldaşından və bir də cariyədən başqa, başqa yolla qadınla yaxınlıq etmək haram sayılır.

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik."[1]

---

[1] Musnəd imam Əhməd, 5/243.

# İyirmi altıncı hədis

عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ "كُلُّ سُلَامَى مِنْ النَّاسِ عَلَيْهِ صَدَقَةٌ، كُلَّ يَوْمٍ تَطْلُعُ فِيهِ الشَّمْسُ تَعْدِلُ بَيْنَ اثْنَيْنِ صَدَقَةٌ، وَتُعِينُ الرَّجُلَ فِي دَابَّتِهِ فَتَحْمِلُهُ عَلَيْهَا أَوْ تَرْفَعُ لَهُ عَلَيْهَا مَتَاعَهُ صَدَقَةٌ، وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ، وَبِكُلِّ خُطْوَةٍ تَمْشِيهَا إِلَى الصَّلَاةِ صَدَقَةٌ، وَتُمِيطُ الْأَذَى عَنْ الطَّرِيقِ صَدَقَةٌ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٢٩٨٩]، وَمُسْلِمٌ [رقم:١٠٠٩].

Əbu Hureyra رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanın oynaqlarından hər biri üçün hər gün bir sədəqə vardır: iki nəfər arasında ədalətlə hökm verməyin sədəqədir; bir adama öz miniyinə minməkdə yardım etməyin və ya onun əşyasını qaldırıb miniyinin üzərinə qoymağın sədəqədir; gözəl söz deməyin sədəqədir; namaz qılmağa getdikdə atdığın hər bir addımın sədəqədir; əziyyət verən şeyi yoldan kənar etməyin sədəqədir."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

İmam Buxarinin "əl-Ədəbul-Mufrad" əsərində rəvayət etdiyi hədisdə İbn Abbas رضي الله عنهما insan bədənindəki oynaqların, yaxud sümüklərin və ya əzaların üç yüz altmış olduğunu xəbər vermişdir.[2] Bu o deməkdir ki, adam hər gün bu əzalar sayəsində kifayət qə-

---

[1] Səhih əl-Buxari, 2989; Səhih Muslim, 1009.

[2] əl-Ədəbul-Mufrad, 422.

dər savab qazana bilər. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Sizlərdən hər biriniz hər gün, öz əzaları sayəsində sədəqə verə bilər. Hər "Subhanəllah" demək sədəqədir, hər "Əlhəmdulillah" demək sədəqədir, hər "Lə ilahə illəllah" demək sədəqədir, hər "Allahu əkbər" demək sədəqədir, yaxşı işlər görməyi əmr etmək sədəqədir, pis əməllərdən çəkindirmək sədəqədir. Duha çağında qılınan iki rükət namaz isə bunların hamısını əvəz edir."[1] Duha namazının üç yüz altmış oynağın qazandığı savabı əvəz etməsinin hikməti bundadır ki, namaz qılanda bütün oynaqlar hərəkət edir.

Diqqət edin, bu hədisdə Peyğəmbər ﷺ iki rükət duha namazının o əzalarla verilən sədəqəni, yəni üç yüz altmış sədəqəni əvəz etdiyini bildirir. Bu rəvayətdən aydın olur, mömin adamın davamlı olaraq duha namazı qılması müstəhəb əməllərdəndir. Bu namazı iki və daha çox rükət qılmaq caizdir. Vaxtı da, günəş üfüqdən bir nizə hündürlüyündə yüksəldiyi andan ta zenitə yüksəlməsinə on dəqiqə qalmışa qədərdir. Bu namazın fəziləti barədə varid olmuş hədislərin birində rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Ən əziz dostum Rəsulullah ﷺ mənə üç şeyi nəsihət etmişdir ki, mən ölənədək onları tərk edən deyiləm: hər ayın üç gününü oruc tutmaq, duha namazını qılmaq və bir də vitr namazını qılmaq."[2]

Bu hədislərdən belə nəticə çıxır ki, insanın Allahın rizasını qazanmaq məqsədilə danışdığı hər bir söz və etdiyi hər bir əməl sə-

---

[1] Səhih Muslim, 720.

[2] Səhih əl-Buxari, 1178.

dəqə sayılır. Peyğəmbərin ﷺ bu hədislərdə zikr etdiyi sözlər və əməllər, sadəcə misal göstərmək üçündür. Belə ki, səhih hədislərin birində Peyğəmbər ﷺ hər bir yaxşılığın sədəqə olduğunu bildirmişdir. Buna, digər rəvayətlərdə Peyğəmbərin ﷺ sədəqəyə aid başqa sözləri və əməlləri də zikr etməsini misal göstərmək olar. Məsələn: Peyğəmbər ﷺ demişdir: "Öz qabından qardaşının qabına yemək qoymağın sədəqədir. Yaxşılığı əmr etməyin və pis əməllərdən çəkindirməyin sədəqədir. Qardaşının üzünə gülümsəməyin sədəqədir. İnsanların yolundan daşı, tikanı və sümüyü kənara atmağın sədəqədir. Yolu bəlli olmayan bir yerdə bir adama yol göstərməyin sədəqədir."[1]

Sonra şərh etdiyimiz hədisdə: "İki nəfər arasında ədalətlə hökm verməyin sədəqədir" deyilir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, iki nəfər arasında ədalətlə hökm vermək üçün hər iki tərəfi dinləmək vacibdir. Başda Peyğəmbərimiz ﷺ olmaqla, raşidi xəlifələr və digər səhabələr, habelə, onların yolunu gedən İslam alimlərinin hamısı bir məsələdə qərar vermək üçün hər iki tərəfi dinləyərdilər. Məsələn: Əşəs ibn Qeys رضي الله عنه Peyğəmbərin ﷺ yanına gəlib bir yəhudinin onun əleyhinə torpaq iddiası etdiyini xəbər verdiyi zaman, Peyğəmbər ﷺ yəhudini çağırtdırır, onu da dinləyir və nəhayət, yəhudiyə and içdirdikdən sonra həmin məsələdə yəhudinin lehinə qərar çıxarır. Həmçinin, rəvayət edilir ki, Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ məni Yəmənə, qazılıq etməyə göndərmək istədikdə, mən dedim: "Ya Rəsulullah, sən mənim qazılıq etməyimi istəyirsən, halbuki mənim yaşım az-

---

[1] Şuəbul-İman, Beyhəqi, 3056; əl-Ədəbul-Mufrad, 891.

dır, özümün də qazılıqda təcrübəm yoxdur." Peyğəmbər ﷺ dedi: "Narahat olma, Allah sənin qəlbini haqqa tərəf yönəldəcək və sənin dilini haqq söz deməyə müvəffəq edəcək. Bir şərtlə ki, gərək sən hər iki tərəfi dinləyib sonra hökm verəsən, birinci mübahisəçiyə qulaq asdığın kimi, ikincisinə də qulaq asasan. Belə olduğu təqdirdə, sən onların arasında ədalətlə hökm verəcəksən." Bu rəvayətdən aydın başa düşülür ki, iki nəfərin arasında ədalətlə hökm vermək üçün hər iki tərəfi dinləmək vacibdir. Qeyd etmək lazımdır ki, iki nəfərin arasında hökm vermək deyildikdə, həmçinin iki küsülünün arasını barışdırmaq və buna bənzər yaxşılıqları etmək də, qəsd edilir. Bu xüsusda "əl-Hucurat" surəsinin 10-cu ayəsində belə buyurulur: "Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın."

Sonra şərh etdiyimiz hədisdə: "bir adama öz miniyinə minməkdə yardım etməyin və ya onun əşyasını qaldırıb miniyinin üzərinə qoymağın sədəqədir" deyilir. Bu, sadəcə bir misaldır. Yoxsa ki, mömin adamın Allah rizasını qazanmaq üçün insanlara etdiyi hər bir yaxşılığı onun üçün sədəqə sayılır.

Sonra hədisdə: "gözəl söz deməyin sədəqədir" deyilir. Əvvəlki hədisdə biz ən gözəl sözlərin "Lə ilahə illəllah, subhanəllah, əlhəmdulilləh və Allahu əkbər" olduğundan danışdıq. Həmçinin, "lə hovlə və lə quvvətə illə billah", "əstəğfirullahə və ətubu ileyh" və s. zikrləri də buna əlavə etmək olar. Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, sözlərin ən gözəli və ən əzəmətlisi Allahın kəlamıdır – yəni Qurani Kərim. Bu xüsusda "əz-Zumər" surəsinin 55-ci ayəsində belə buyurulur: "Rəbbinizdən sizə nazil edilən ən

gözəl *sözə* tabe olun!" Yeri gəlmişkən qeyd edək ki, mömin adam Quran oxuduqda, hətta onun mənasını başa düşməsə belə, hər bir hərfə görə savab qazanır. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Kim Allahın Kitabından bir hərf oxusa, buna görə savab qazanar və bu savab on savaba bərabər olar. Mən demirəm ki, əlif, ləm, mim bir hərfdir. Lakin əlif bir hərf, ləm bir hərf, mim də bir hərfdir."[1] Başqa bir hədisdə o demişdir: "Niyə sizdən biriniz məscidə gedib Allahın Kitabından iki ayə öyrənmir və ya iki ayə oxumur ki, bu onun üçün iki dəvə sədəqə verməkdən daha xeyirli olsun. Üç *ayə* onun üçün üç *dəvədən*, dörd *ayə* də onun üçün dörd *dəvədən* daha xeyirlidir. Bunların sayını artırdıqca, savabı da artmış olar."[2] Digər bir rəvayətdə o demişdir: "Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanır."[3] Yenə bir hədisdə o demişdir: "Hər kim gecə namazında on ayə oxuyarsa, qafillərdən sayılmaz, yüz ayə oxuyarsa itaətkarlardan hesab olunar və nəhayət, min ayə oxuyarsa, olduqca çoxlu savab qazanar."[4]

Sonra şərh etdiyimiz hədisdə: "namaz qılmağa getdikdə atdığın hər bir addımın sədəqədir" deyilir. Qeyd edək ki, mömin adam məscidə gedəndə də, məsciddən qayıdanda da hər atdığı addımına görə bir savab qazanır. Bu xüsusda rəvayət edilmiş hə-

---

[1] Sunən Tirmizi, 2910; Səhih əl-Cami, 6469.

[2] Səhih Muslim, 2/197.

[3] Səhih əl-Buxari, 4937; Səhih Muslim, 797.

[4] Sunən Əbu Davud, 1/221; Silsilətul-Əhadisis-Səhihə, 642.

disdə Ubey ibn Kəb ﷺ demişdir: “Səhabələrdən biri məsciddən çox uzaqda yaşayırdı. Bir gün ona dedilər: “Bəlkə özün üçün bir uzunqulaq alasan ki, gecənin qaranlığında və isti qum üzərində, məscidə rahat gedə biləsən.” O isə belə cavab verdi: “Mən istəyirəm ki, məscidə gedib-gələrkən atdığım addımlara görə mənə savab yazılsın.” Rəsulullah ﷺ bunu eşitdikdə, o kişiyə dedi: “Allah sənin üçün bunların hamısını cəm etmişdir.”[1] Rəsulullah ﷺ ona, atdığı addımlara görə savab qazandığını xəbər verir. Həmçinin, onu da qeyd edək ki, məscidə gedən mömin adamın atdığı addımlar ona nəinki savab qazandırır, hətta kiçik günahlarını da silir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: “İnsanın camaatla qıldığı namazın savabı öz evində və ya bazarda fərdi şəkildə qıldığı namazın savabından iyirmi beş dəfə artıqdır. Belə ki, sizdən biriniz lazımı qaydada dəstəmaz alıb, ancaq namaz qılmaq məqsədilə məscidə getsə, məscidə daxil olanadək atdığı hər addıma görə, Allah onu bir dərəcə yüksəldər və onun bir günahını silər. Məscidə daxil olduqdan sonra orada qaldığı vaxt ərzində namazda olduğu kimi sayılar. Namazını qılacağı yerdə gözlədiyi vaxt ərzində, dəstəmazı pozulanadək mələklər: “Allahım, onu bağışla! Allahım, ona rəhm et!”– deyə onun üçün dua edirlər.”[2]

Sonra şərh etdiyimiz hədisdə: “əziyyət verən şeyi yoldan kənar etməyin sədəqədir”– deyilir. Qeyd edək ki, bu əməl, sahibini Cənnətə daxil edən amillərdəndir. Bu xüsusda rəvayət edilmiş

[1] Səhih Muslim, 663.

[2] əl-Buxari, 477.

hədisdə Əbu Bərzə Nədlə ibn Ubeyd əl-Əsləmi ﷺ demişdir: "Bir dəfə mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! Mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin." O, buyurdu: "Əziyyət verən şeyi insanların yolundan kənar et!"[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ bu əməlin imandan olduğunu bildirib demişdir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü "Lə ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir."[2] Qeyd etmək lazımdır ki, əziyyət verən şeyləri yoldan kənarlaşdırıb-kənarlaşdırmamaq xüsusunda insanlar üç sinifə bölünürlər: əziyyət verən şeyləri yola atan insanlar, bu şeyləri görüb onları yoldan kənarlaşdırmayan insanlar və bir də bunları yoldan kənarlaşdıran insanlar. Birinci və ikinci sinifə, qəlbində mərhəmət olmayan kimsələr aiddir. Çünki qəlbində mərhəmət olan kimsə insanlara əziyyət verən şeylərə biganə qala bilməz. Üçüncü sinif insanlara gəlincə, onlar da iki qismə bölünürlər: birincisi, bunu Allah rizasını qazanmaq üçün edənlərdir ki, onlar bu əmələ görə savab qazanırlar və onların kiçik günahları bağışlanır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir müsəlman yol üstündəki tikanın yanından keçərkən *öz-özünə*: "Mən bu tikanı kənar edim ki, heç bir müsəlmana əziyyət verməsin"– dedi və *buna görə* onun *günahları* bağışlandı."[3] Yəni bu adamın ixlaslı olması – o tikanı məhz Allahın rizasını qazanmaq üçün yoldan

[1] Musnəd İmam Əhməd, 4/423-424.

[2] Səhih Muslim, 153.

[3] Musnəd İmam Əhməd, 2/341.

kənar etməsi, onun günahlarının bağışlanmasına səbəb olmuşdur. İkinci qisim isə bunu özünü göstərmək məqsədilə edənlərdir ki, onlar riyakarlıqlarına görə savab qazanmazlar.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا عِبَادُكَ أَبْنَاءُ عَبْدِكَ أَبْنَاءُ أَمَتِكَ، نَاصِيَتُنَا بِيَدِكَ، مَاضٍ فِينَا حُكْمُكَ، عَدْلٌ فِينَا قَضَاؤُكَ، نَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قُلُوبِنَا، وَنُورَ صُدُورِنَا، وَجَلَاءَ حُزْنِنَا، وَذَهَابَ هَمِّنَا ))

“Allahım, biz Sənin qullarınıq, atalarımız və analarımız da Sənin qullarındır! Bizi idarə etmək Sənin əlindədir. Barəmizdə verdiyin hökm yerinə yetəndir. Bizə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarırıq ki, Quranı qəlbimizin baharı və köksümüzün nuru et, üzüntümüzün aradan qalxması və kədərimizün getməsi üçün səbəb et!”[1]

[1] Musnəd İmam Əhməd, 1/391.

# İyirmi yeddinci hədis

عَنْ النَّوَّاسِ بْنِ سَمْعَانَ رضي الله عنه عَنْ النَّبِيِّ صلى الله عليه وسلم قَالَ: "الْبِرُّ حُسْنُ الْخُلُقِ، وَالْإِثْمُ مَا حَاكَ فِي صَدْرِك، وَكَرِهْت أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ" رَوَاهُ مُسْلِمٌ [رقم:٢٥٥٣].

وَعَنْ وَابِصَةَ بْنِ مَعْبَدٍ رضي الله عنه قَالَ: أَتَيْت رَسُولَ اللَّهِ صلى الله عليه وسلم فَقَالَ: "جِئْتَ تَسْأَلُ عَنْ الْبِرِّ؟ قُلْت: نَعَمْ. فقَالَ: استفت قلبك، الْبِرُّ مَا اطْمَأَنَّتْ إلَيْهِ النَّفْسُ، وَاطْمَأَنَّ إلَيْهِ الْقَلْبُ، وَالْإِثْمُ مَا حَاكَ فِي النَّفْسِ وَتَرَدَّدَ فِي الصَّدْرِ، وَإِنْ أَفْتَاك النَّاسُ وَأَفْتَوْك" .

حَدِيثٌ حَسَنٌ، رَوَيْنَاهُ فِي مُسْنَدَي الْإِمَامَيْنِ أَحْمَدَ بْنِ حَنْبَلٍ [رقم:٤/٢٢٧]، وَالدَّارِمِيّ [٢/٢٤٦] بِإِسْنَادٍ حَسَنٍ.

Nəvvas ibn Səman əl-Ənsari ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Yaxşılıq gözəl əxlaqdır. Günah isə o xislətdir ki, o, sənin içini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun."

Bu hədisi İmam Muslim öz "Səhih"ində rəvayət etmişdir.[1]

Həmçinin, rəvayət edilir ki, Vabisə ibn Məbəd ﷺ demişdir: "Bir gün mən Rəsulullahın ﷺ yanına gəldim və o, məndən soruşdu: "Gəlmisən yaxşılıq barəsində soruşasan?" Mən: "Bəli!"– deyə cavab verdikdə, Rəsulullah ﷺ buyurdu: "Sən öz qəlbinə bax! Yaxşılıq o xislətdir ki, sənin içini rahat edir, qəlbin də ondan arxayın olur. Günah isə o xislətdir ki, o, sənin içini narahat edir, qəlbinə də şübhə salır, hətta insanlar sənə *təkrar-təkrar* fitva versələr belə."

---

[1] Səhih Muslim, 2553.

Bu, həsən hədisdir. Bu hədis bizə İmam Əhməd ibn Hənbəlin və İmam Dariminin "Musnəd"lərindən, "həsən" isnadla rəvayət edilmişdir.[1]

Birinci hədisdə "yaxşılıq" deyildikdə, gözəl əxlaqın, yaxşılıqların hamısını yox, çoxunu özündə ehtiva etdiyi qəsd edilir. Peyğəmbərin ﷺ "Həcc Ərəfatdır" sözünü buna misal çəkmək olar. Yəni zilhiccə ayının 9-u Ərəfatda durmaq həccin rüknlərindən biridir.

"Yaxşılıq", həm batini, həm də zahiri əməllərə, yəni həm qəlbə, həm dilə, həm də digər bədən əzalarına şamil edilən, çox mənaları özündə cəm edən bir kəlmədir. Bu xüsusda "əl-Bəqərə" surəsinin 177-ci ayəsində belə buyurulur: "Yaxşılıq, üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyil. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə xərcləyən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüş zamanı səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da, məhz onlardır." Ayəyə diqqət yetirsək, başa düşərik ki, yaxşılıq həm qəlbə, həm dilə, həm də digər bədən əzalarına aid olan əməlləri əhatə edir. Bəzən hədislərdə "əl-birr/yaxşılıq" deyildikdə, xüsusilə valideynə edilən yaxşılıq qəsd edilir. İslam alimləri "birrul-valideyn/valideynə yaxşılıq etmək" adlı neçə-neçə kitablar yazmışlar. Valideynə yaxşılıq etmək, Quranda da xü-

[1] Musnəd İmam Əhməd, 4/227; Musnəd İmam əd-Darimi, 2/246.

susi yer turur. “əl-İsra” surəsinin 23-cü və 24-cü ayələrində belə buyurulur: “Rəbbin yalnız Ona ibadət etməyi və ata-anaya yaxşılıq etməyi buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de.” Həmçinin, “Məryəm” surəsinin 13-cü və 14-cü ayələrində deyilir ki: “Yəhya, Allahdan qorxan bəndə, həm də ata-anasına yaxşılıq edən birisi idi, lovğa və asi deyildi.”

Bəzən də yaxşılıq kəlməsi təqva kəlməsi ilə bir yerdə işlənir. Məsələn: “əl-Maidə” surəsinin 2-ci ayəsində belə buyurulur: “Yaxşılıq etməkdə və *Allahdan qorxub pis əməllərdən* çəkinməkdə bir-birinizə kömək edin.” Bu ayədə “yaxşılıq” deyildikdə, hər bir yaxşılıq, “pis əməl” deyildikdə də hər bir pislik nəzərdə tutulur.

Hədisdə: “Yaxşılıq gözəl əxlaqdır” deyilir. İslam alimləri “gözəl əxlaqı” üç qismə bölmüşlər:

1-cisi, bəndənin Allaha göstərdiyi əxlaqıdır. Əxlaqın ən əzəmətli qismi də məhz bu qismidir. Bu əxlaq, Allaha iman gətirməyi, üstəlik, Onun buyuruqlarını yerinə yetirməyi və qadağan etdiklərindən çəkinməyi əhatə edir. Bir qədər əvvəl oxuduğumuz “əl-Bəqərə” surəsinin 177-ci ayəsi buna dəlildir. Deməli, insanın Allah yanında əxlaq sahibi olması üçün tövhid əhli olması labüddür. Bu da o deməkdir ki, müşriklər, kafirlər, münafiqlər və zalımlar Allah yanında həqiqi əxlaq sahibi sayılmırlar. Belə ki, əxlaqlı olmaq üçün Allahın buyuruqlarını yerinə yetirmək lazımdır.

Və bu əxlaq peyğəmbərlərin, xüsusilə də Muhəmməd peyğəmbərin ﷺ əxlaqına uyğun olmalıdır. Çünki Peyğəmbərin ﷺ əxlaqı Qurana müvafiq olmuşdur. Belə ki, Uca Allah Quranda onun böyük əxlaq sahibi olduğunu təsdiqləmişdir.

Gözəl əxlaqın 2-ci qismi, müsəlmanın, Allahın rəsulu ﷺ ilə əxlaqla davranmasıdır. Bu da, Peyğəmbərə ﷺ iman gətirməyi, üstəlik onun buyuruqlarını yerinə yetirməyi və qadağan etdiklərindən çəkinməyi əhatə edir. Bu xüsusda Sufyan ibn Uyeynə demişdir: "Rəsulullah ﷺ *bəşəriyyət üçün* ən böyük meyardır. Bütün işlər onunla – onun əxlaqı, həyat tərzi və tutduğu yolla müqayisə edilir. Bu meyara müvafiq olan işlər haqq, ona müxalif olanlar isə batil sayılır."[1]

Gözəl əxlaqın 3-cü qismi isə insanın digər insanlarla əxlaqla davranmasıdır. Bu da, insanın digər insanlara etdiyi hər bir yaxşılığı əhatə edir. Peyğəmbər ﷺ gözəl əxlaqın məziyyəti barədə belə buyurmuşdur: "Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanlarınızdır!"[2] Digər hədisdə o, demişdir: "Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır."[3] Bundan əvvəlki hədislərin, yəni iyirmi beşinci və iyirmi altıncı hədisin şərhlərində bu haqda ətraflı danışmışıq.

Sonra şərh etdiyimiz hədisdə: "Günah o xislətdir ki, o, sənin içini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun" deyilir.

---

[1] əl-Cami li Əxlaqir-Ravi və Ədab əs-Sami, 1/9.

[2] Səhih əl-Buxari, 3559.

[3] Sunən ət-Tirmizi, 1/363; Silsilətul-Əhadisis-Səhihə, 791-ci hədis.

Bu cümlə, günahın tərifidir. Bu sözdən aydın başa düşülür ki, bu iki əlamət, əməlin günah olduğuna dəlalət edir. Müsəlman olan adam günah iş görmək istədikdə, qəlbindəki nəsihətçi bu əməlin günah olduğunu onun yadına salır. Altıncı hədisin şərhində biz, hər bir müsəlmanın qəlbində olan və o, günah qapısını açmaq istədikdə ona: "Vay sənin halına! O qapını açma. Əgər sən onu açsan, mütləq ora girəcəksən"– deyən o nəsihətçi barədə danışmışıq. Bu hədisdə "günah" deyildikdə, yaxşılığın tam əksi qəsd edilir. Necə ki, "əl-Maidə" surəsinin 2-ci ayəsində buyurulur: "Yaxşılıq etməkdə və *Allahdan qorxub pis əməllərdən* çəkinməkdə bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə yardım etməyin." Diqqət edin, görün Peyğəmbər ﷺ günaha necə dəqiq tərif verir: "Günah isə o xislətdir ki, o, sənin içini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun." Bu sözdən aydın başa düşülür ki, bir çox mömin insanlar günah iş gördükdə, məsələn: zina etdikdə, etdikləri əməllərindən utandıqlarına və kimlərdənsə, çəkindiklərinə görə qəlbləri daim təşviş içində olur və istəmirlər ki, kimsə bundan xəbər tutsun. Lakin bəzi insanlar o qədər pis əməllər edir, artıq bu əməllər onun üçün adiləşir və o dərəcədə həyasızlaşırlar ki, etdikləri əməllərə görə narahat olmur, əksinə, etdikləri əməlləri fəxrlə danışırlar. Beləlləri, müsəlman olsalar belə, Allah onların günahlarını bağışlamayacaq. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimin hamısı əfv ediləcək. Yalnız açıq-aşkar günah işlədənlərdən başqa. Məsələn: birisi gecə bir qələt edir və səhəri gün Allah onun bu qələtini ört-basdır etdiyi halda, dost-aş-

nasına: "Ey filankəs, mən bu gecə filan, filan işləri görmüşəm"– deyir. Gecə Rəbbi onun günahının üstünə örtük çəkir, səhər isə o, Allahın bu örtüyünü açır."[1] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, belələri, tövbə etməsələr, günahları bağışlanmayacaq. Bu hədis, əvvəldə şərh etdiyimiz üç hədisə: "Hər kim şübhəli işlərdən uzaq durarsa, dinini və ismətini qorumuş olar" hədisinə, "Səni şübhəyə salanı tərk et, səni şübhəyə salmayana bax" hədisinə, və "İlk peyğəmbərlik kəlamından insanların yadında qalan söz *belədir*: "Utanmırsansa, istədiyini et" hədisinə bənzəyir.

İmam Nəvəvinin nəql etdiyi o biri hədisdə, Peyğəmbər ﷺ Vabisəyə رضي الله عنه: "Yaxşılıq o xislətdir ki, sənin içini rahat edir, qəlbin də ondan arxayındır" deyir. Yəni daxili hislər və qəlb nəyi yəqin qəbul edir və nədən razı qalırsa, yaxşılıq sayılır. Lakin qeyd etmək lazımdır ki, bu, qəlbi salamat və niyyəti səmimi olan möminlərə aiddir. Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, mömin adamın hər hansı bir əməldən içinin rahat, qəlbinin də arxayın olması, o əməlin yaxşı əməl olmasına dəlalət edir. Bu xüsusda İbn Məsud رضي الله عنه demişdir: "Allah Öz qullarının qəlbinə nəzər saldı və onların qəlbi arasında Muhəmmədin ﷺ qəlbinin ən xeyirli qəlb olduğuna qərar verdi, sonra da onu seçib bütün bəşəriyyətə peyğəmbər göndərdi. Sonra yenə qullarının qəlbinə nəzər saldı və onların qəlbi arasında Peyğəmbərin ﷺ səhabələrinin qəlbinin xeyirli qəlb olduğuna qərar verdi, sonra onları Öz Peyğəmbərinin ﷺ dostu və sirdaşı seçdi. Onlar din uğrunda Allahın Peyğəmbəri ﷺ ilə birgə vuruşdular. Odur ki, səhabələr nəyi yaxşı hesab et-

---

[1] əl-Buxari, 6069.

mişlərsə, yaxşı, nəyi də pis hesab etmişlərsə, pis hesab olunur."[1] İbn Məsudun ﷺ sözündən aydın başa düşülür ki, imanlı və savadlı mömin yaxşılıq etdikdə, o əməldən qəlbi arxayın olur və rahatlıq tapır, günah iş üçün isə onun qəlbi narahat olur.

İkinci hədisdə Peyğəmbərin ﷺ Vabisəyə ﷺ: "Sən öz qəlbinə bax!" deyə buyurması və axırda da: "hətta insanlar sənə *təkrar-təkrar* fitva versələr belə"– deməsi, dəlildir ki, hansı bir söz və ya hansı bir əməl qəlbi narahat edər və onu şübhəyə salarsa, salaməti, onu tərk etməkdir, hətta insanlar onun yaxşı olduğunu desələr belə. Qeyd edək ki, adama yanlış fitvanı verən və qəlbini şübhəyə salan adam, savadsız, dırnaqarası elm əhli ola bilər. Odur ki, mömin adam bilmədiyini bilənlərdən – rəbbani alimlərdən öyrənməlidir. O biriləri haqqında isə Peyğəmbər ﷺ belə demişdir: "Allah, elmi sizə bəxş etdikdən sonra onu *qəlbinizdən* silib götürməz. Lakin elmi aradan qaldırmaq istədikdə insanlar arasındakı alimləri onların elmi ilə bərabər aradan götürər, axıra isə cahil adamlar qalar. Sonra c*amaat onlardan* fitva soruşar və onlar öz fikirlərini yürüdərək fitva verərlər, beləliklə də, həm özləri zəlalətə düşər, həm də *camaatı* zəlalətə salarlar."[2] Belə "alimlər" çox vaxt insanları dünya mənfəəti xatirinə, öz xeyirləri üçün haqq yoldan sapdırırlar. Bəzən də, adam sual verən adamı vəziyyətdən çıxarmaq üçün və ya həmin adam ona yaxın adam olduğundan yaxud başqa bu kimi səbəblərdən dolayı ona ağlına gələn fitvanı verir. Halbuki, "əl-Əraf" surəsinin 33-cü ayəsində belə buyurulur: "De:

---

[1] Musnəd İmam Əhməd, 1/379; Mustədrək əl-Hakim, 3/78-79.

[2] Səhih əl-Buxari, 7307.

"Rəbbim həm aşkar, həm də gizli *törədilən* yaramaz əməlləri, *hər cür* günahı, haqsızlıqla zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur." Həmçinin, "əl-İsra" surəsinin 36-cı ayəsində belə buyurulur: "Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaq."

Bu xüsusda Abdullah ibn Məsudun رضي الله عنه da gözəl sözü var. O demişdir: "Verilən hər bir suala cavab verən kimsə məcnundur."[1] Səhabə demək istəyir ki, insan nə qədər savadlı olursa olsun, hər şeyi bilə bilməz. Hər şeyi bilən yalnız Allahdır.

Belə fitva verən kimsələrin axırzamanda meydana gələcəkləri barədə Peyğəmbər ﷺ demişdir: "Axırzamanda ümmətim içində bəzi insanlar ortaya çıxacaq ki, onlar sizə nə sizin, nə də atalarınızın eşitmədiyi *münkər* hədisləri danışacaqlar. Onlardan uzaq olun, uzaq!"[2]

Şərh etdiyimiz hədislə bağlı bir məsələyə də diqqət yetirmək lazımdır. Bu da Peyğəmbərin ﷺ: "Sən öz qəlbinə bax!" sözüdür. Xüsusi olaraq vurğulamaq lazımdır ki, bu, Allaha iman gətirən və Ondan qorxan insanlara aiddir. Yoxsa ki, Allahdan qorxmayan bir çox insanların qəlbi, günah işlərdən ötrü heç narahat olmur.

Bu məsələyə dair ortaya bir sual çıxır: "Adam alimə və ya elm əhlinə sual verdikdən sonra qəlbi narahat olarsa, eyni sualı başqa

---

[1] Mocəmul-Kəbir, 8/106/8831.

[2] Səhih Muslim, 6.

alimə verə bilərmi?" Sualın cavabı belədir ki, bəli sual verə bilər, hətta başqalarına sual verməsi vacibdir. Çünki şəriət, şəxsiyyətlərə deyil, dəlilə - yəni Quran və hədislərə, üstəlik, səhabələrin yekdil rəyinə söykənir. Bu xüsusda Əli ibn Əbu Talibin ﵁ gözəl bir sözü var. O demişdir: "Haqq, kişilərə görə tanınmır, əksinə, kişilər haqqa görə tanınır. Haqqı bil, ona əməl edənləri tanıyacaqsan."

Sonda hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اهْدِنَا لأَحْسَنِ ٱلأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنَّا سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنَّا سَيِّئَهَا إِلاَّ أَنْتَ ))

"Allahım, bizə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən bizi uzaq et! Bizi onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!"[1]

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقَنَا فَأَحْسِنْ خُلُقَنَا ))

"Allahım, Sən bizi gözəl biçimdə yaratdın, əxlaqımızı da gözəl et!"[2]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

"Allahım, pis əxlaqlardan, yaramaz əməllərdən və fikirlərdən Sənə sığınırıq!"[3]

---

[1] Səhih Muslim, 1/534.

[2] Musnəd Əhməd, 1/403; Səhih Tərğib vət-Tərhib, 2657.

[3] Səhih Sunən ət-Tirmizi, 3/184.

## İyirmi səkkizinci hədis

عَنْ أَبِي نَجِيحٍ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ ﷺ قَالَ: "وَعَظَنَا رَسُولُ اللَّهِ ﷺ مَوْعِظَةً وَجِلَتْ مِنْهَا الْقُلُوبُ، وَذَرَفَتْ مِنْهَا الْعُيُونُ، فَقُلْنَا: يَا رَسُولَ اللَّهِ! كَأَنَّهَا مَوْعِظَةُ مُوَدِّعٍ فَأَوْصِنَا، قَالَ: أُوصِيكُمْ بِتَقْوَى اللَّهِ، وَالسَّمْعِ وَالطَّاعَةِ وَإِنْ تَأَمَّرَ عَلَيْكُمْ عَبْدٌ، فَإِنَّهُ مَنْ يَعِشْ مِنْكُمْ فَسَيَرَى اخْتِلَافًا كَثِيرًا، فَعَلَيْكُمْ بِسُنَّتِي وَسُنَّةِ الْخُلَفَاءِ الرَّاشِدِينَ الْمَهْدِيِّينَ، عَضُّوا عَلَيْهَا بِالنَّوَاجِذِ، وَإِيَّاكُمْ وَمُحْدَثَاتِ الْأُمُورِ؛ فَإِنَّ كُلَّ بِدْعَةٍ ضَلَالَةٌ".

رَوَاهُ أَبُو دَاوُدَ [رقم:٤٦٠٧]، وَالتِّرْمِذِيُّ [رقم:٢٦٦] وَقَالَ: حَدِيثٌ حَسَنٌ صَحِيحٌ.

Rəvayət edilir ki, Əbu Nəcih İrbad ibn Sariyə ﷺ demişdir: "Rəsulullah ﷺ bizə elə bəlağətli bir moizə etdi ki, bundan qəlblər titrədi və gözlər yaşla doldu. Biz dedik: "Ya Rəsulullah, bu, sanki, vida moizəsidir. Elə isə bizə tövsiyə et." Peyğəmbər ﷺ buyurdu: "Sizə Allahdan qorxmağı, üstəlik, *əmiriniz,* bir qul olsa belə, onu eşidib itaət etmənizi tövsiyə edirəm. Məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə siz mənim sünnəmə və doğru yolda olan raşidi xəlifələrimin sünnəsinə tabe olun. Bundan arxa dişlərinizlə möhkəm tutun. *Sonradan dinə əlavə edilmiş* yeniliklərdən çəkinin, çünki hər bir yenilik zəlalətdir."

Bu hədisi, İmam Əbu Davud və Tirmizi "Sunən" əsərlərində rəvayət etmiş və İmam Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

---

[1] Sunən Əbu Davud, 4607; Sunən ət-Tirmizi, 266.

Hədisdə "moizə" deyildikdə, əqidə və şəriət ilə bağlı hər bir söz və əməl, insanlara yaxşı işlər görməyi əmr etmək və onları pis işlərdən çəkindirmək qəsd edilir. Uca Allah Quranın bütövlükdə moizə olduğunu bildirmişdir. "Yunus" surəsinin 57-ci ayəsində belə buyurulur: "Ey insanlar! Rəbbinizdən sizə bir moizə, kökslərdə olana şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir."

Hədisdə İrbad ibn Sariyə رضي الله عنه Peyğəmbərin ﷺ moizəsinin üstünlüyünü xüsusilə vurğulayır. O moizənin bəlağətli olmasını, qəlbləri titrətdiyini və bir də səhabələri ağlatdığını bildirir.

İbn Rəcəb رحمه الله bu hədisi izah edərkən demişdir: "Moizənin bəlağətli olması, gözəl üslubdur. Çünki belə olduğu təqdirdə o, qəlblərə yeriyir və onları ələ alır. Bəlağət: fikrini gözəl, aydın, düzgün və inandırıcı sözlərlə ifadə etmək və onu insanların qəlbinə gözəl şəkildə çatdırmaq qabiliyyətidir."[1]

Ən bəlağətli kəlam isə Allahın kəlamıdır. O kəlam ki, həqiqi möminlər onu eşitdikdə onların qəlbi titrəyir və gözləri yaşla dolur. Bu xüsusda "əl-Ənfal" surəsinin 2-ci, 3-cü və 4-cü ayələrində belə deyilir: "Möminlər o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir." Həmçinin, "əl-Maidə" surəsinin 83-cü ayəsində nəsranilər barədə deyilir: "Onlar *Allahın* rəsuluna nazil edilən ayələri dinlədikləri zaman haqqı bildiklərinə görə, onların gözlərinin yaşla dolduğunu görərsən."

---

[1] Camiəl-Ulum vəl-Hikəm, 2/111.

Sonra şərh etdiyimiz hədisdə İrbad ibn Sariyə ﵁ xəbər verir ki, səhabələr Peyğəmbərdən ﷺ onlara tövsiyə etməyi istəmişlər. Bu da səhabələrin, xeyirli işləri öyrənməyə nə dərəcədə həris olduqlarını bir daha sübuta yetirir. Peyğəmbər ﷺ onlara hər şeydən əvvəl Allahdan qorxmağı buyurur. Çünki bu tövsiyə Allahın Öz peyğəmbərlərinə, yəni bütün bəşəriyyətə etdiyi tövsiyəsidir. "ən-Nisa" surəsinin 131-ci ayəsində deyilir: "Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də: "Allahdan qorxun!"– deyə buyurduq." Həmçinin, "əl-Əhzab" surəsinin 1-ci ayəsində Rəsulullaha ﷺ belə buyurulur: "Ey peyğəmbər, Allahdan qorx!" Həmçinin, "Ali-İmran" surəsinin 102-ci ayəsində möminlərə belə xitab edilir: "Ey iman gətirənlər, Allahdan layiqincə qorxun!" Həmçinin, "əl-Həşr" surəsinin 18-ci ayəsində belə buyurulur: "Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır." Bu ayələrdən aydın başa düşülür ki, peyğəmbərlərə və onların ardıcıllarına Allahdan qorxmaq – təqvalı olmaq əmr edilmişdir.

Təqva barədə artıq danışmışıq, sadəcə olaraq onun təriflərindən ən müfəssəl olanı bir daha xatırladaq: Bu, Talq ibn Həbib əl-Bəsrinin ﵀ verdiyi tərifdir. O, demişdir: "Təqva: Allahın nuru üzərində, yəni Quran və Sünnəyə uyğun olaraq savabını da Allahdan umaraq Allaha itaət etmək, eləcə də, Allahın nuru üzərində, yəni Quran və Sünnəyə uyğun şəkildə Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinməkdir."[1]

---

[1] Musənnəf ibn Əbu Şeybə, 30993.

Peyğəmbərin ﷺ səhabələrinə etdiyi tövsiyələrdən biri də bu idi ki, onlar öz aralarından seçilmiş xəlifənin buyuruqlarını eşidib ona itaət etsinlər. Necə ki, "ən-Nisa" surəsinin 59-cu ayəsində buyurulur: "Ey iman gətirənlər! Allaha və Onun rəsuluna itaət edin, habelə, aranızdan seçilmiş rəhbərlərə də itaət edin." Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Allahdan qorxun, beş vaxt namazlarınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və müsəlman rəhbərinizə itaət edin, beləliklə də, Rəbbinizin Cənnətinə daxil olarsınız."[1] Xüsusi olaraq qeyd etmək lazımdır ki, əgər xəlifə Allahın və Onun rəsulunun ﷺ əmrinə müxalif bir əmr verərsə, o zaman bu əmrə itaət etmək olmaz. Məsələn: əgər əmir insanları yandırmağı əmr edərsə, bu əmrə itaət etmək olmaz. Çünki səhih hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allaha asi olaraq məxluqa itaət etmək olmaz."[2] Digər bir hədisdə o demişdir: "Allaha və Onun rəsuluna asilik etmək əmr olunmayınca, əmiri eşidib ona itaət etmək vacibdir. Allaha və Onun rəsuluna asilik etmək əmr olunduqda isə nə eşitmək, nə də itaət etmək olar."[3] Yenə bir rəvayətdə xəbər verilir ki, bir gün Rəsulullah ﷺ ordu hazırlayıb ənsardan olan birisini onlara əmir təyin etdi və onlara, əmiri eşidib ona itaət etmələrini əmr etdi. Səfər əsnasında onlar əmiri qəzəbləndirdilər və əmir onlara: "Mənim üçün odun yığın!"– deyə buyurdu, sonra da, onlara o odunları yandırmağı əmr etdi. Nəhayət, onlar od qaladıqda, əmir onlara dedi: "Məgər Rəsulullah sizə ﷺ mənim əmrimi eşidib mə-

---

[1] Sunən ət-Tirmizi, 2/516; Silsilətul-Əhadisis-Səhihə, 867-ci hədis.

[2] Musnəd İmam Əhməd, 5/66; Silsilətul-Əhadisis-Səhihə, 179.

[3] Səhih əl-Buxari, 2955.

nə itaət etməyi buyurmayıbmı?" Onlar: "Bəli!"– deyə cavab verdikdə, əmir dedi: "Elə isə atəşin içinə girin!" Bunu deyəndə, onlar bir-birilərinin üzünə baxıb dedilər: "Biz Cəhənnəm odundan qorunmaq üçün Rəsulullahın ﷺ dinini qəbul etmişik. Biz atəşə girən deyilik." Bir müddət sonra əmirin qəzəbi soyudu. Nəhayət, onlar Rəsulullahın ﷺ yanına qayıtdılar və səfərdə baş verən hadisəni ona danışdılar. Onda Rəsulullah ﷺ belə buyurdu: "Əgər oda girsəydiniz, heç vaxt oradan çıxmayacaqdınız. Əmirə, yalnız Allahın və Onun rəsulunun buyuruqlarına müvafiq olan işlərdə itaət edilir."[1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, əmirə itaət etmək, İslam dininin əsas tələblərindəndir. Əbu Muhəmməd əl-Bərbəhari demişdir: "Bir adamın ixtiyar sahiblərinə bəddua etdiyini görsən, bil ki, o, nəfsinin istəklərinə uymuş kimsələrdəndir. Habelə, bir kimsənin Allahdan ixtiyar sahiblərinin islah olunmasını dilədiyini görsən, bil ki, o, Sünnə əhlindəndir inşaAllah." Həmçinin, rəvayət edilir ki, Fudeyl ibn İyad demişdir: "Bilsəydim ki, mənim bir duam qəbul olacaq, onu ixtiyar sahibinin islah olunmasına yönəldərdim."[2]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ səhabələrinə tövsiyə edir ki, xəlifə qul olsa belə, ona itaət etsinlər. Halbuki hədislərə və İslam alimlərinin yekdil rəyinə əsasən kölə, xəlifə seçilə bilməz. Bu hədisdə "qul" sözü, sadəcə mübaliğə üçün, yəni deyilən sözün təsirini və əhəmiyyətini artırmaq üçün işlənmişdir.

---

[1] Səhih Muslim, 1840.

[2] Şərhus-Sünnə, 116.

Bundan aydın olur ki, şəriət ixtiyar sahiblərinə qarşı çıxmağı qadağan edir. İbn Səd "Təbəqatul-Kubra" əsərində rəvayət edir ki, İbnul-Əşəs Həccac ibn Yusufa qarşı çıxdığı zaman, Uqbə ibn Abdulğafir, Əbul-Covza, Abdullah ibn Ğalib və onlarla həmrəy olan bir neçə nəfər Həsən əl-Bəsriin ﷺ yanına gəlib dedilər: "Ey Əbu Səid, haqsız yerə camaatın qanını axıdan, onların mallarını qəsb edən, namazı buraxan və neçə-neçə haram işlər görən bu tağuta qarşı vuruşmaq barədə nə deyirsən?" Həsən əl-Bəsri onlara belə cavab verdi: "Mən sizə ona qarşı vuruşmağı məsləhət görmürəm. Çünki əgər bu, Allahın göndərdiyi bir bəladırsa, siz öz qılınclarınızla bu bəlanın qarşısını ala bilməyəcəksiniz. Yox, əgər bu, bir sınaqdırsa, onda Allah Öz hökmünü verənədək, *zalımları cəzalandırıncayadək* səbir edin! Allah hökm verənlərin ən yaxşısıdır!"

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ öz səhabələrinə, gələcəkdə çoxlu ixtilaflar görəcəklərini xəbər verir. Bu da, Peyğəmbərin ﷺ peyğəmbərliyini bir daha sübuta yetirir. Belə ki, yalnız peyğəmbərlər, Allahdan nazil olmuş vəhy əsasında, gələcəkdə nələr baş verəcəyini xəbər verə bilərlər. Həqiqətən də, Peyğəmbərin ﷺ vəfatından sonra əvvəlcə mürtədlər, daha sonra da xəvariclər və başqa firqələr meydana gəlmişdir. Bu xüsusda rəvayət edilmiş səhih hədisdə Huzeyfə ibn əl-Yəmən رضي الله عنه demişdir: "Bir gün mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah, biz, həqiqətən də cahillik və şər içində yaşayırdıq. Allah bizə belə bir xeyir nəsib etdi. Bu xeyirdən sonra şər gələ bilərmi?" Peyğəmbər ﷺ: "Bəli!"- deyə cavab verdi. Mən soruşdum: "Bəs bu şərdən sonra yenə xe-

yir gələcəkmi?" Peyğəmbər ﷺ dedi: "Bəli, lakin bu xeyirə şər ləkəsi bulaşacaq." Mən soruşdum: "O nə ləkədir, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "Mənim sünnəmə tabe olmayan kimsələr olacaq..." Burada Peyğəmbər ﷺ bidətlərin və firqələrin meydana gələcəyini qəsd edir.

Sonra Peyğəmbər ﷺ səhabələrinə və ümumiyyətlə gələcək müsəlman nəsilə öz sünnəsinə və raşidi xəlifələrin sünnəsinə tabe olmağı tövsiyə edir. Burada raşidi xəlifələr deyildikdə, Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xattab, Osman ibn Affan və Əli ibn Əbu Talib رضي الله عنهم qəsd edilir. Bu xüsusda ayrıca bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlik xilafəti otuz il olacaq. Sonra Allah dilədiyinə hakimiyyət bəxş edəcək."[1] Demək, bu otuz il, dörd raşidi xəlifənin xilafətdə olduqları dövrlərə aiddir. Yeri gəlmişkən qeyd edək ki, Əbu Bəkr əs-Siddiq رضي الله عنه 2 il 3 ay 10 gün, Ömər ibn əl-Xattab رضي الله عنه 10 il 6 ay 8 gün, Osman ibn Affan رضي الله عنه 11 il 11 ay 9 gün və nəhayət, Əli ibn Əbu Talib رضي الله عنه 4 il 9 ay 7 gün xəlifə olmuşdur. Bu dörd xəlifənin xəlifə seçilməsi fərqli olmuşdur. Əbu Bəkri رضي الله عنه səhabələrin icması xəlifə seçmiş, sonra Əbu Bəkr رضي الله عنه Ömərі رضي الله عنه özündən sonra xəlifə təyin etmiş, sonra Ömər رضي الله عنه xəlifə seçimini altı nəfərdən ibarət şuranın ixtiyarına vermiş, həmin şura da, Osmanı رضي الله عنه xəlifə seçmiş və nəhayət, Osman şəhid olduqdan sonra Mədinə əhli Əliyə رضي الله عنه beyət edərək onu xəlifə seçmişlər.

Artıq Osmanın رضي الله عنه xilafəti dövründə əvvəlcə xəvariclər meydana gəlmiş, sonra da tarix boyu müxtəlif firqələr meydana gəl-

---

[1] Sunən Əbu Davud, 4646; Silsilətul-Əhadisis-Səhihə, 459.

mişdir. Bu firqələr barədə əvvəlcədən Peyğəmbər ﷺ demişdir: “Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onlardan birindən başqa hamısı Cəhənnəmə girəcək.” Səhabələr soruşdular kimlərdir cənnətlik olanlar, ya Rəsulullah?” O dedi: “Bu, camaatdır.”[1] digər rəvayətdə o demişdir: “Bunlar, mənim və səhabələrimin yolunu gedənlərdir.”[2] Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Mənim ümmətimdən bir toplum, Qiyamət qopanadək Allahın dini üzərində sabit qalacaq və belələrini alçaltmaq istəyənlər və onlara müxalif olanlar onlara heç bir zərər yetirə bilməyəcəklər.”[3]

İbn Rəcəb رحمه الله bu hədisi izah edərkən demişdir: “Sünnə: yol deməkdir. Raşidi xəlifələrin sünnəsi deyildikdə, onların ibadətə aid həm etiqadı, həm etdikləri əməllər, həm də danışdığı sözlər qəsd edilir. Bu isə kamil sünnə sayılır. Odur ki, keçmişdə sələflər, bu sadalananları sünnə hesab edərdilər.”[4]

İmam Nəvəvinin nəql etdiyi hədisin axırında: “*dinə əlavə edilmiş* yeniliklərdən çəkinin, çünki hər bir yenilik zəlalətdir” deyilir. İmam Əbu Davudun digər rəvayətində isə daha müfəssəl şəkildə buyurulur ki: “*Sonradan dinə əlavə edilmiş* yeniliklərdən çəkinin, çünki hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir.”[5]

Bilmək lazımdır ki, kim İslamda əsli olmayan bir əməli din adı ilə dinə əlavə edərsə, yaxud özü hər hansı bir bidəti edərsə, onun əməli rədd edilər, özü də böyük günah qazanar. Bu xüsusda Pey-

---

[1] Səhih Sunən Əbu Davud, 3/63.

[2] Səhih Sunən Əbu Davud, 5/26.

[3] Səhih Muslim, 6/52-53.

[4] Camiəl-Ulum vəl-Hikəm, 2/120.

[5] Sunən Əbu Davud, 4607.

ğəmbər ﷺ demişdir: "Dində bidətə yol verənə və bidətçiyə dəstək verənə, Allah lənət eləsin!"[1] Və əgər adam özü bidət etməklə yanaşı başqalarını da o bidətə dəvət edərsə, onların qazandıqları günah qədər günah qazanar. Bu xüsusda "ən-Nəhl" surəsinin 25-ci ayəsində belə buyurulur: "Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!" Həmçinin, bu xüsusda ayrıca bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim İslam dininə yenilik gətirsə *insanları buna təhrik etsə,* ona bunun günahı və ona əməl edənlərin günahı qədər günah yazılar."[2]

Hazırki dövrdə bir çoxları dinə aid olmayan ayinləri dindən hesab edir və bunu gözəl bidət adlandırırlar. Əslində, Peyğəmbərin ﷺ demədiyi sözü deyir və istisna etmədiyi bir hökmü istisna edirlər. Halbuki Peyğəmbər ﷺ heç bir hədisdə "gözəl bidət" deyilən bir əməl olduğunu bildirməmiş, əksinə, səhih hədisdə: "hər bir bidət zəlalətdir" – demiş və heç bir istisna etməmişdir. Yəni deməmişdir ki, filan gözəl bidətdən başqa bütün bidətlər zəlalətdir.

İndi gəlin baxaq görək sələflərdən bəzisi bidət haqqında nə demişdir:

Abdullah İbn Ömər رضي الله عنه demişdir: "İnsanlar bidətləri, *dinə əlavə edilmiş yenilikləri* yaxşı əməl hesab etsələr belə, hər bir bidət zəlalətdir."[3]

---

[1] Səhih əl-Buxari, 1870; Səhih Muslim, 1366.

[2] Səhih Muslim, 6975.

[3] Şərh əl-İtiqad, əl-Lalakai, 126; Silsilətul-Əhadisis-Səhihə, 6/526.

Abdullah ibn Məsud ﷺ belə demişdir: “*Sunnəyə* tabe olun, bidət etməyin. Bu sizə yetər.”[1] O, həmçinin, demişdir: “Sünnə sayılan əməllərdə orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir.”[2]

Ömər ibn Abdüləziz ﷺ demişdir: “Sizlərə Allahdan qorxmağı və Onun əmrləri ilə kifayətlənməyi tövsiyə edirəm. Həmçinin, Peyğəmbərin ﷺ əmrlərinə tabe olmağı və ondan sonra insanların etdiyi yenilikləri tərk etməyi tövsiyə edirəm.”[3]

İbn Sirin ﷺ demişdir: “*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Ara qarışdıqdan sonra isə onlar: “Ravilərinizin adlarını bizə söyləyin”– deməyə başladılar. Beləcə, sünnə əhlinə diqqət yetirilər və onların hədisləri qəbul edilər, habelə, bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi.”[4]

Həmçinin, İmam Malik ibn Ənəs ﷺ demişdir: “Kim desə ki, İslam dinində gözəl bidət var, artıq o, Muhəmmədin ﷺ Allahın dininə xəyanət etdiyini iddia etmiş sayılar. Çünki Uca Allah buyurur:

﴿ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ ٱلْإِسْلَٰمَ دِينًا﴾

“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim.” [5]

---

[1] Sunən əd-Darimi, 205; Şoəbul-İman, 2024; Şərhus-Sunnə, 1/214; əl-İbanətul-Kubra, 174; Mənasikul-Həcc vəl-Umrə (əl-Albani), səh: 44.

[2] Mustədrək, 352; Sunən əl-Beyhəqi əl-Kubra, 4522; Silslətul-Əhadisis-Səhihə, 5/11.

[3] Hilyətul-Ovliya, 5/338; əl-İbanətul-Kubra, 163.

[4] Muslimin müqəddiməsi, 27.

[5] əl-Maidə, 3.

İmam Malik davam edib deyir: Həmin gün hansı əməl dindən sayılırdısa, bu gün də, yalnız o əməl dindən sayılır."[1]

İmam Malik demək istəyir ki, Allah bu dini kamil şəkildə tamamladıqdan sonra kim bu kamil dində naqislik olduğunu iddia edərsə, Peyğəmbərin ﷺ dini tam şəkildə insanlara təbliğ etmədiyini iddia etmiş sayılar.

Həmçinin, Əbu Osman ən-Nisaburi demişdir: "Kim sünnəyə aid hər bir sözü və hər bir əməli yerinə yetirərsə, danışanda hikmətlə danışar. Kim də nəfsinin istəklərinə uyarsa, danışanda bidətə yol verər."[2]

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dualarla Allaha yalvarıb deyirik:

(( يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قُلُوبَنَا عَلَى دِيْنِكَ ))

"Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!"[3]

(( يَا مُصَرِّفَ الْقُلُوبِ، صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ ))

"Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt!"[4]

---

[1] əl-İtisam, əş-Şatibi, 1/49.

[2] Hilyətul-Ovliya, 10/244.

[3] Sunən ət-Tirmizi, 3517; Silsilə əl-Əhadis əs-Səhihə, 2091.

[4] Səhih Muslim, 2654.

# İyirmi doqquzuncu hədis

عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ قَالَ: قُلْت يَا رَسُولَ اللَّهِ! أَخْبِرْنِي بِعَمَلٍ يُدْخِلُنِي الْجَنَّةَ وَيُبَاعِدْنِي مِنْ النَّارِ، قَالَ: "لَقَدْ سَأَلْت عَنْ عَظِيمٍ، وَإِنَّهُ لَيَسِيرٌ عَلَى مَنْ يَسَّرَهُ اللَّهُ عَلَيْهِ: تَعْبُدُ اللَّهَ لَا تُشْرِكْ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلَاةَ، وَتُؤْتِي الزَّكَاةَ، وَتَصُومُ رَمَضَانَ، وَتَحُجُّ الْبَيْتَ، ثُمَّ قَالَ: أَلَا أَدُلُّك عَلَى أَبْوَابِ الْخَيْرِ؟ الصَّوْمُ جُنَّةٌ، وَالصَّدَقَةُ تُطْفِئُ الْخَطِيئَةَ كَمَا يُطْفِئُ الْمَاءُ النَّارَ، وَصَلَاةُ الرَّجُلِ فِي جَوْفِ اللَّيْلِ، ثُمَّ تَلَا: ﴿ تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ ٱلْمَضَاجِعِ ﴾ حَتَّى بَلَغَ ﴿يَعْمَلُونَ ﴾، ثُمَّ قَالَ: أَلَا أُخْبِرُك بِرَأْسِ الْأَمْرِ وَعَمُودِهِ وَذُرْوَةِ سَنَامِهِ؟ قُلْت: بَلَى يَا رَسُولَ اللَّهِ. قَالَ: رَأْسُ الْأَمْرِ الْإِسْلَامُ، وَعَمُودُهُ الصَّلَاةُ، وَذُرْوَةُ سَنَامِهِ الْجِهَادُ، ثُمَّ قَالَ: أَلَا أُخْبِرُك بِمَلَاكِ ذَلِكَ كُلِّهِ؟ فقُلْت: بَلَى يَا رَسُولَ اللَّهِ! فَأَخَذَ بِلِسَانِهِ وَقَالَ: كُفَّ عَلَيْك هَذَا. قُلْت: يَا نَبِيَّ اللَّهِ وَإِنَّا لَمُؤَاخَذُونَ بِمَا نَتَكَلَّمُ بِهِ؟ فَقَالَ: ثَكِلَتْك أُمُّك وَهَلْ يَكُبُّ النَّاسَ عَلَى وُجُوهِهِمْ -أَوْ قَالَ عَلَى مَنَاخِرِهِمْ- إلَّا حَصَائِدُ أَلْسِنَتِهِمْ؟!" .

رَوَاهُ التِّرْمِذِيُّ [رقم:٢٦١٦] وَقَالَ: حَدِيثٌ حَسَنٌ صَحِيحٌ.

Rəvayət edilir ki, Muaz ibn Cəbəl ﷺ demişdir: "Bir gün mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah, məni Cənnətə daxil edəcək və Cəhənnəmdən uzaqlaşdıracaq əməl barədə mənə xəbər ver!" Peyğəmbər ﷺ buyurdu: "Sən əzəmətli bir əməl barədə soruşdun. Lakin o, Allahın asanlaşdırdığı kimsələr üçün asandır.

*Gərək,* Allaha ibadət edəsən və Ona heç bir şeyi şərik qoşmayasan, namazı doğru-düzgün qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və Kəbəni ziyarət edəsən." Sonra Peyğəmbər ﷺ dedi: "Sənə xeyir qapılarını göstərimmi? Oruc, qalxandır. Sədəqə su odu söndürdüyü kimi günahları silir. Adamın gecənin bir aləmində qıldığı namazı da, habelə." Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir."[1] Sonra Peyğəmbər ﷺ dedi: "Sənə dinin başı, onun dirəyi və ən uca zirvəsi barədə xəbər verimmi?" Mən dedim: "Söylə, ya Rəsulullah." O buyurdu: "Dinin başı İslam, dirəyi namaz, ən uca zirvəsi də cihaddır." Sonra Peyğəmbər ﷺ dedi: "Sənə bunların hamısını özündə cəm edən *xislət* barədə xəbər verimmi?" Mən dedim: "Söylə, ya Rəsulullah." O, əli ilə öz dilini tutub dedi: "Bunu, saxla!" Mən dedim: "Ey Allahın Peyğəmbəri! Məgər biz, danışdığımız sözlərə görə hesaba çəkiləcəyik?!" Peyğəmbər ﷺ dedi: "Anan vayına otursun, ey Muaz! Məgər insanları üzüstə, yaxud burunları üzərində Cəhənnəmə sürükləyən, yalnız dilləri ilə əkdiklərinin bəhrəsi deyilmi?!"

Bu hədisi, İmam Tirmizi رحمه الله rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir" – demişdir.[2]

---

[1] əs-Səcdə, 16-17.

[2] Sunən ət-Tirmizi, 2616.

Burada səhabə Peyğəmbərdən ﷺ dünya malı yox, məhz axirət nemətini qazanmağın yolunu öyrənmək istəyir. Səhabələrin hamısı belə olub, onların ali məqsədi Cənnəti qazanmaq olmuşdur. Peyğəmbər ﷺ də ona bu əməlin, həqiqətən də, ali məqsəd olduğunu bildirir. Həqiqətən də, kim Cəhənnəmdən uzaqlışdırılıb Cənnətə daxil edilərsə, uğur qazanmış olar. Bu xüsusda Uca Allah "Ali İmran" surəsinin 185-ci ayəsində buyurur: "Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar." Bu da Allah üçün çox asandır. Allah kimin Cənnətə gedən yolunu asanlaşdırarsa, o kimsə üçün həmin yolda olan maneələri keçmək çox asan olar. Belə ki, buna müvəffəq olmaq onun istəyinə bağlıdır. Bu xüsusda "əl-Leyl" surəsinin 5-ci ayəsindən 10-cu ayəsinədək belə buyurulur: "Kim *Allah yolunda malından* verər, *Allahdan* qorxar və ən gözəl olan *"lə ilahə illəllah" kəlməsini* təsdiq edərsə, Biz onu ən asan olana nail edərik. Kim də xəsislik edər, *Rəbbinə* ehtiyacı olmadığını güman edər və ən gözəl olan *"lə ilahə illəllah" kəlməsini* yalan hesab edərsə, Biz onun üstünə ən çətin olanı yükləyərik." Həmçinin, "əl-Bəqərə" surəsnin 185-ci ayəsində belə buyurulur: "Allah sizin üçün çətinlik istəmir, *əksinə,* asanlıq istəyir." Həmçinin, "ət-Talaq" surəsinin 5-ci ayəsində deyilir ki: "Kim Allahdan qorxarsa, *Allah* onun işini asanlaşdırar." Hədislərdə də, həmçinin, Peyğəmbər ﷺ İslam dininin asan bir din olduğunu xəbər verib demişdir: "Həqiqətən, bu din asandır. Dini çətinləşdirən elə bir kimsə yoxdur ki, *din* onu üstələməsin."[1] Başqa bir hədisdə o demişdir: "Asanlaşdırın, çətinləşdirməyin.

[1] Səhih əl-Buxari, 39.

Müjdələyin, nifrət oyatmayın."[1] Digər bir hədisdə rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Peyğəmbərə ﷺ iki şeydən birini seçmək təklif edildikdə – günah işlər istisna olmaqla – həmişə daha asan olanını seçərdi. Günah iş görmək təklif olunduqda isə o, bundan hamıdan çox çəkinərdi."[2]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ öz səhabəsinə, onu Cəhənnəmdən uzaqlaşdırıb Cənnətə daxil edəcək əməllər barədə xəbər verib buyurur: "*Gərək,* Allaha ibadət edəsən və Ona heç bir şeyi şərik qoşmayasan, namazı doğru-düzgün qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və Kəbəni ziyarət edəsən." Biz 2-ci və 3-cü hədisləri şərh edərkən bu beş dayaq barədə ətraflı danışmışıq.

Sonra, şərh etdiyimiz hədisdə: "Oruc, qalxandır" deyilir. Yəni bu dünyada oruc adamı günah işlərdən qoruyur, axirətdə də, onu Cəhənnəm odundan qoruyacaq. Orucun insanı günah işlərdən qorunmasına dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "Ey cavanlar, qoy evlənməyə imkanı olan hər kəs evlənsin. Çünki evlilik, gözləri və cinsiyyət üzvünü zinadan qoruyan ən yaxşı səbəbdir. İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc insanın şəhvətini soyudur."[3] Oruc tutan adamın axirətdə uğur qazanacağı barədə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Allah yolunda bir gün oruc tutarsa, Allah onun üzünü Cəhənnəm odundan yetmiş illik *məsafəyədək* uzaqlaşdırar."[4] Başqa bir hədisdə Peyğəmbər ﷺ de-

---

[1] Səhih əl-Buxari, 69.

[2] Səhih əl-Buxari, 3560.

[3] Səhih əl-Buxari, 1905; Səhih Muslim, 1400.

[4] Səhih əl-Buxari, 2840.

mişdir: “Cənnətdə Rəyyan adlı bir qapı var, Qiyamət günü bu qapıdan oruc tutanlar daxil olacaq və onlardan başqa heç kəs bu qapıdan keçə bilməyəcək. O gün: “Oruc tutanlar haradadır?”– deyiləcək və oruc tutanlar ayağa qalxacaqlar, onlardan başqa heç kəs bu qapıdan keçə bilməyəcək, onlar içəri daxil olduqdan sonra *qapılar* bağlanacaq və *bundan sonra* heç kəs o qapıdan *Cənnətə* daxil ola bilməyəcək.”[1]

Oruc: niyyət edərək dan yeri sökülən vaxtdan gün batanadək yeməkdən, içməkdən və orucu batil edən digər amillərdən çəkinməkdir.

Sonra hədisdə: “Sədəqə, su odu söndürdüyü kimi günahları silir” deyilir. Peyğəmbərin ﷺ sədəqənin günahları silməsini, suyun odu söndürməsinə bənzətməsi dəlildir ki, su odu tam şəkildə söndürdüyü kimi, sədəqə də, kiçik günahların hamısını silib aparır. Peyğəmbər ﷺ bu sözü ilə müsəlmanları sədəqə verməyə təşviq edir. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Qiyamət günü hər kəs verdiyi sədəqənin kölgəsi altında olacaq.”[2] Başqa bir hədisdə isə Peyğəmbər ﷺ yeddi sinif insanın Qiyamət günü Allahın yaratdığı kölgə altında olacağını xəbər vermiş, onlardan birinin də: “sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən kimsə”[3] olduğunu bildirmişdir.

Sonra şərh etdiyimiz hədisdə: “Adamın gecənin bir aləmində qıldığı namazı da, habelə”– deyilir. Yəni, bu əməl də həmçinin,

---

[1] Səhih əl-Buxari, 1896.

[2] Musnəd İmam Əhməd, 4/147; Səhih əl-Cami, 4510.

[3] Səhih əl-Buxari, 1896.

adamın günahlarını silir. Burada da, həmçinin, qeyd etmək lazımdır ki, namaz, yalnız kiçik günahları silir, böyük günahların silinməsi üçün isə Allaha tövbət etmək lazımdır.

Hədisdə deyilir ki, sonra Peyğəmbər ﷺ "əs-Səcdə" surəsinin iki ayəsini oxudu. Bu ayə gecə namazı qılan möminləri vəsf edir. O möminləri ki, gecənin bir hissəsini yatmayıb, qorxu və ümidlə Allaha yalvarırlar. Onlar "əz-Zariyat" surəsində belə vəsf edilirlər: "Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və bulaqlar başında olacaqlar, öz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşlar. Onlar gecələr *ibadət edib* az yatardılar. Sübh çağı isə bağışlanma diləyərdilər." Gecə namazının fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Gəlin bunlardan bir neçəsini zikr edək. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Fərz namazından sonra ən fəzilətli namaz gecə namazıdır."[1] O, həmçinin, demişdir: "Gecə namazını qılın! Həqiqətən, o, sizdən əvvəlki saleh insanların adətlərindən, Allaha yaxınlaşdıran vasitələrdən, pis əməllərdən çəkindirən, kiçik günahları silən və bədən xəstəliklərini aradan qaldıran amillərdəndir." O, həmçinin, demişdir: "Ey insanlar, salamı yayın, kasıbları yedirdin və insanlar yatdığı zaman namaz qılın, beləliklə də, Cənnətə daxil olun!"

Şərh etdiyimiz hədisin bu hissəsində incə bir məqam var. Sual verilə bilər ki: nə üçün bu hədisdə Peyğəmbər ﷺ ayəni oxuduqda "Əuzu billəhi minəş-şeytanir-racim" deməmişdir. Axı "ən-Nəhl" surəsinin 98-ci ayəsində buyurulur ki, "Quran oxuduqda

---

[1] Səhih Muslim, 1163.

qovulmuş şeytandan Allaha sığın!" Sualın cavabı belədir ki, bu ayə tilavət məqsədilə yox, sadəcə əsaslandırmaq üçün oxunmuşdur. Necə ki, namazın səcdəsində, yaxud qəbirstanlıqda Quran oxumaq olmaz, lakin Quran ayəsini dua kimi oxumaq olar. Məsələn: "əl-Həşr" surəsinin 10-cu ayəsini: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə!" ayəsini dua kimi oxumaq olar.

Sonra şərh etdiyimiz hədisdə: "Dinin başı İslam, dirəyi namaz, ən uca zirvəsi də cihaddır"– deyilir. Əvvəla, burada dinin başı deyildikdə, insanın bu həyatda yaşamasının qayəsi qəsd edilir. Yəni insan məhz Allaha ibadət etmək üçün yaradılmışdır. Bu xüsusda "əz-Zariyat" surəsinin 56-cı ayəsində belə buyurulur: "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım."

Hədisdə: "Dinin dirəyi namazdır" deyildikdə, gündəlik beş vaxt qılınan namazlar qəsd edilir. Həqiqətən də, namaz dinin dirəyidir, yəni onsuz, dindar adam sabit qala bilməz. Biz artıq 3-cü hədisin şərhində bu haqda danışıb, hədislərə əsaslanaraq qeyd etmişdik ki, namaz əməllərin ən fəzilətlisi, üstəlik, Qiyamət günü insanın ilk soruşulacağı əməl sayılır. Və əgər bu sorğu-sualdan keçsə, uğur qazanar və nicat tapar, əks halda isə bədbəxt olar və ziyana uğrayar və beləsinin, o gün nə bir nuru, nə bir dəlili, nə də ki nicat tapmaq üçün bir qurtuluş yolu olar, üstəlik, o, Qarunla, Fironla, Hamanla və Umeyyə ibn Xələf ilə bir yerdə həşr olunar.

Sonra hədisdə cihadın, dinin ən uca zirvəsi olduğu xəbər verilir. Həqiqətən də, Allah yolunda olan cihad mömin adamı digər-

lərindən üstün edən şərəfli əməldir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, burada cihad deyildikdə, sırf "lə ilahə illəllah" kəlməsini ucaltmaq uğrunda aparılan cihad qəsd edilir. Bu xüsusda rəvayət edilmiş hədisdə Əbu Musa رضي الله عنه demişdir: "Bir dəfə bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "*İnsanlardan* kimisi qənimət əldə etmək üçün, kimisi ad-san qazanmaq üçün, kimisi də özünü göstərmək üçün vuruşur. Bunlardan hansı biri Allah yolunda cihad etmiş sayılır?" Peyğəmbər ﷺ buyurdu: "Kim Allahın kəlməsi *hər şeydən* uca olsun deyə vuruşursa, o, Allah yolunda cihad etmiş sayılar."[1]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ Muaz ibn Cəbələ رضي الله عنه bu xeyirlərin hamısını özündə cəm edən əməl barədə xəbər verib buyurur ki, dilini qorusun. Həqiqətən də, dil, başa bəladır. Bir kəlmə söz, adamı cənnətlik və ya cəhənnəmlik edə bilər. Odur ki, Peyğəmbər ﷺ öz səhabəsinə, dilini qorumayan kimsənin bütün xeyirlərdən məhrum olacağını xəbər verdikdə səhabə buna təəccüb edir və Peyğəmbər ﷺ ona belə buyurur: "Anan vayına otursun, ey Muaz! Məgər insanları üzüstə, yaxud burunları üzərində Cəhənnəmə sürükləyən, yalnız dilləri ilə qazandıqları deyilmi?!"

Burada Peyğəmbərin ﷺ: "Anan vayına otursun!" kəliməsi əslində bədduadır. Lakin Peyğəmbər ﷺ bu sözlə öz səhabəsinə bəddua etmir, əksinə, Allahdan onun üçün mərhəmət diləyir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən də Adəm övladıyam! Hər kəs qəzəbləndiyi kimi mən də qəzəblənirəm. *Allahım,* haqsız yerə ümmətimdən kimə bəddua etmişəm-

---

[1] Səhih əl-Buxari, 2810.

sə, bunu onun üçün *xeyirli* dua et!"[1] İmam Muslimin "Səhih"ində: "Bunu onun üçün mərhəmət et!",[2] "həm kəffarə, həm də Qiyamət günü onu Allaha yaxınlaşdıracaq bir vasitə et!"[3] deyilir. Bu məsələni daha geniş izah edən ibrətamiz bir hədisdə rəvayət edilir ki, Ummu Suleym ﷺ bir yetim qızı öz himayəsinə götürmüşdü. Bu qız həddi-büluğa çatdıqda, Rəsulullah ﷺ onu görüb dedi: "Sən həmin o qızcığazsan? Nə böyük qız olmusan! Görüm səni, bundan artıq böyüməyəsən!" Qız ağlaya-ağlaya Ummu Suleymin yanına gəldi. Ummu Suleym ondan: "Qızım, niyə ağlıyırsan?"– deyə soruşduqda, qız dedi: "Allahın Peyğəmbəri ﷺ mənə bəddua etdi ki, mən böyüməyim. Deməli, mən böyüməyəcəyəm." Ummu Suleym hicabını geyib, tələsik Rəsulullahın ﷺ yanına gəldi. Rəsulullah ﷺ onun təngənəfəs gəldiyini görüb dedi: "Sənə nə olub, ey Ummu Suleym?" Ummu Suleym dedi: "Ey Allahın Peyğəmbəri, niyə mənim yetimimə bəddua etmisən?" Rəsulullah ﷺ dedi: "Nə demişəm ki, ey Ummu Suleym?" Ummu Suleym dedi: "Sən ona: "Görüm səni böyüməyəsən!"– deyə bəddua etmisən. Rəsulullah ﷺ Ummu Suleymin bu sözünə güldü, sonra dedi: "Ey Ummu Suleym, məgər sən bilmirsən ki, mən öz Rəbbimə yalvarıb demişəm ki: "Mən də bir bəşərəm. Bəşər övladı razı qaldığı kimi mən də razı qalır, qəzəbləndiyi kimi mən də qəzəblənirəm. *Allahım,* ümmətimdən kimin əleyhinə nahaq yerə dua etsəm, bunu onun üçün kəffarə, xeyir-bərəkət və Qiyamət günü onu Allaha

[1] Sunən Əbu Davud, 4659; Silsilətul-Əhadisis-Səhihə, 1758.

[2] Səhih Muslim, 6781.

[3] Səhih Muslim, 6787.

yaxınlaşdıracaq bir vasitə et!"[1] Hədisdən aydın başa düşülür ki, Rəsulullahın ﷺ hər hansı bir səhabəsinə etdiyi bəddua, onun üçün bir kəffarə, xeyir-bərəkət, mərhəmət və Qiyamət günü onu Allaha yaxınlaşdıracaq bir vasitədir. Odur ki, bir çox İslam alimləri bu bədduaları səhabələrin fəzilətinə aid etmişlər. İmam Muslim öz "Səhih"ində, "Peyğəmbər ﷺ kimə lənət oxumuşsa, kimi söymüşsə, kimə bəddua etmişsə, əgər həmin adam buna layiq deyilsə, bu onun üçün bir xeyir, savab və rəhmət hesab edilmişdir" adlı fəsildə, Ummu Suleymin yetimi barədə rəvayət edilmiş hədisin ardından, Muaviyə ibn Əbu Sufyan رضي الله عنه barədə varid olmuş hədisi nəql etmişdir. Həmin hədisdə Rəsulullah ﷺ demişdir: "Allah onun qarnını doydurmasın!"[2] İmam Muslimin hər iki hədisi eyni fəsildə, üstəlik, dalbadal varid etməsi, Muaviyənin رضي الله عنه də həmçinin, bu qəbil insanlardan olduğuna dəlalət edir. İmam Nəvəvi bu hədisi izah edərkən demişdir: "İmam Muslim bu hədisdən Muaviyənin رضي الله عنه bu bədduaya layiq olmadığını başa düşmüşdür. Odur ki, həmin hədisi bu fəsildə varid etmişdir. Həmçinin, neçə-neçə İslam alimləri bu hədisi Muaviyənin رضي الله عنه üstünlüklərinə aid etmişlər. Çünki, əslində bu bəddua onun üçün xeyirli bir dua hesab olunur."[3] Bu fikri təsdiq edən hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ Muaviyə üçün dua etmişdir: "Allahım, Muaviyəyə Kitabı və hesabı öyrət, onu əzabdan qoru!"[4]

---

[1] Səhih Muslim, 6792.

[2] Səhih Muslim, 6793.

[3] Şərh alə Muslim, 2/325.

[4] Musnəd İmam Əhməd, 4/127; Silsilətul-Əhadisis-Səhihə, 3227.

Başqa bir hədisdə Peyğəmbər ﷺ yenə onun üçün dua edib demişdir: "Allahım, onu doğru yol göstərən kimsələrdən et, onu doğru yolla getməyə və *başqalarını da* doğru yola yönəltməyə müvəffəq et!"[1] Bu hədislərdən belə nəticə çıxır ki, hər bir müsəlman səhabələr barədə gözəl zəndə olmalı, onlar barədə yalnız xeyir söyləməli, onlar barədə pis fikirləşməməli, onların xətaları barədə susmalı, əksinə, həmişə Allahdan səhabələr və onlardan sonra gəlib-getmiş möminlər üçün məğfirət diləməlidir. Əks halda böyük günah qazanar və cəhənnəmlik olar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Mənim səhabələrimi söyənə Allahın, mələklərin və bütün insanların lənəti olsun!"[2] Digər bir hədisdə o demişdir: "Mənim səhabələrimi söyməyin! Hərgah sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz."[3]

Bütün bunlardan bizə aydın olur ki, əsl müsəlman dilini qorumalı və heç kəsə əziyyət verməməlidir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin."[4]

İbn Rəcəb رحمه الله bu hədisi izah edərkən demişdir: "Peyğəmbərin ﷺ Muaza رضي الله عنه dilini qorumasını əmr etməsi dəlildir ki, dili pis sözlərdən saxlamaq, bütün xeyirlərin təməli sayılır. Və kim dilini yaramaz sözlərdən saxlayarsa, işlərini sahmana salıb istədiyinə

---

[1] Sunən ət-Tirmizi, 2/316; Silsilətul-Əhadisis-Səhihə, 1969.

[2] Silsilətul-Əhadisis-Səhihə, 2340; Səhih əl-Cami, 6285.

[3] Səhih əl-Buxari, 3673; Səhih Muslim, 2540 və 2541.

[4] Səhih əl-Buxari, 10; Səhih Muslim, 162.

nail ola bilər. Bu hədisdə: "dilləri ilə əkdiklərinin bəhrəsi" deyildikdə, insanın danışdığı haram və günah sözlərin cəzası qəsd edilir. Belə ki, insan danışdığı sözləri və etdikləri əməlləri ilə özü üçün ya savab, ya da günah əkir, sonra da Qiyamət günü əkdiklərini yığacaq. Kim xeyirli söz və ya yaxşı əməl əkmişdirsə, xeyirli məhsul götürər, kim də, şər söz və ya pis əməl əkmişdirsə, peşman olar. Muazın ﵁ rəvayət etdiyi bu hədisin zahirindən o da başa düşülür ki, insanların Cəhənnəmə düşmələrinə ən çox səbəb olan əməl, onların danışdığı sözlərdir. Günah söz deyildikdə, günahların ən böyüyü – Allaha şərik qoşmaq, yaxud küfr söz danışmaq habelə, Allahın adından yalan danışmaq, yalandan şahidlik etmək, sehr etmək üçün ovsun oxumaq, təmiz adama böhtan atmaq və şər yaxmaq, qeybət etmək, dedi-qodu yaymaq və başqa bu kimi günahlar qəsd edilir."[1]

Sonda, hamımızın adından Allaha dua edib deyirik:

(( يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قُلُوبَنَا عَلَى دِيْنِكَ ))

"Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!"[2]

(( يَا مُصَرِّفَ الْقُلُوبِ، صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ ))

"Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt!"[3]

---

[1] Camiul-Ulum vəl-Hikəm, 2/146-147.

[2] Sunən ət-Tirmizi, 3517; Silsilə əl-Əhadis əs-Səhihə, 2091.

[3] Səhih Muslim, 2654.

# Otuzuncu hədis

عَنْ أَبِي ثَعْلَبَةَ الْخُشَنِيِّ جُرْثُومِ بن نَاشِرٍ ﵁ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: "إِنَّ اللَّهَ تَعَالَى فَرَضَ فَرَائِضَ فَلَا تُضَيِّعُوهَا، وَحَدَّ حُدُودًا فَلَا تَعْتَدُوهَا، وَحَرَّمَ أَشْيَاءَ فَلَا تَنْتَهِكُوهَا، وَسَكَتَ عَنْ أَشْيَاءَ رَحْمَةً لَكُمْ غَيْرَ نِسْيَانٍ فَلَا تَبْحَثُوا عَنْهَا".

حَدِيثٌ حسَنٌ، رَوَاهُ الدَّارَقُطْنِيّ "في سننه" [١٨٤/٤]، وَغَيْرُهُ.

Əbu Sələbə əl-Xuşəni Cursum ibn Naşir ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Uca Allah bir çox əməlləri fərz buyurmuşdur, onları puç etməyin. Hüdudlar qoymuşdur, onları aşmayın. Bəzi şeyləri haram buyurmuşdur, onlara əl uzatmayın. Bəzi şeylər barədə də unutduğuna görə yox, sizə mərhəmət etsin deyə heç nə deməmişdir, onları araşdırmayın.”

Bu, “həsən” hədisdir. Bu hədisi İmam əd-Daraqutni ﵀ və digərləri rəvayət etmişlər.[1]

Hərçənd, İmam Nəvəvi bu hədisin həsən olduğunu zikr etmişdir, lakin bəzi mühəddislər bu hədisin isnadının “munqəti” olduğunu demişlər.[2] Ərəbcə [ مُنْقَطِعٌ ] “munqəti” [ انْقَطَعَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir, kəsilmiş, ayrılmış və s. mənaları ifadə edir. İstilahi mənada isə isnadının hər hansı bir yerin-

---

[1] Sunən əd-Daraqutni, 4/183-184; Mocəm əl-Kəbir, ət-Təbərani, 589; Musnəd əş-Şamiyyin, ət-Təbərani, 4/338; Mustədrək əl-Hakim, 4/129; Hilyə, Əbu Nueym, 9/17; Sunən əl-Kubra, əl-Beyhəqi, 10/12.

[2] Bax: Təhqiq Riyadus-Salihin, Albani, 1/621; Daif əl-Cami, Albani, 1597; Ğayatul-Məram fi Təxrici Əhadisil-Həlal vəl-Həram, 4.

də – ya əvvəlində, ya ortasında, ya da sonunda bağlılıq olmayan sənəd "munqəti" adlanır. Düzdür, bu hədis "munqəti" isnadla rəvayət edilmişdir, lakin İbn Rəcəb "Camiul-Ulum vəl-Hikəm" əsərində onun mətninin səhih olduğunu təsdiqləyən digər hədisləri zikr edib demişdir: "Bu hədis "mərfu" isnadlarla da rəvayət edilmişdir. Bu mənada olan hədisi, Bəzzar "Musnəd" əsərində, Hakim də "Mustədrək" əsərində, Əbu Dərdanın ﷺ Peyğəmbərdən ﷺ belə rəvayət etdiyini nəql etmişlər: "Allah Öz kitabında nəyi halal buyurmuşdursa, halal, nəyi də haram buyurmuşdursa, haram sayılır. Hökmünü bildirmədiyi şeylər isə sizin rifahınız üçündür, Allahın bəxş etdiyi bu rifahı qəbul edin. Şübhəsiz ki, Allah heç nəyi unutmur." Sonra Peyğəmbər ﷺ bu ayəni[1] oxudu: "Rəbbin unudan deyildir."[2]

Hakim, Bəzzar, İbnul-Arabi,[3] Əbu Bəkr əs-Səmani,[4] Albani[5] və bir çox başqa mühəddislər bu hədisin "səhih" olduğunu demişlər.

Yeri gəlmişkən qeyd edək ki, əgər mühəddislərin bir qismi hər hansı bir hədisi "zəif" hesab edirsə, dərhal o hədisin "zəif" olduğunu demək olmaz. Çünki ola bilər ki, həmin hədis isnad baxımından zəif olsun, lakin başqa "səhih" və ya "həsən" isnadla həmin hədisin ləfzi ya olduğu kimi, ya da mənası rəvayət edilmiş olsun. Bundan da aydın olur ki, mühəddislər hədis zəifdir deyən-

---

[1] Məryəm, 64.

[2] Sunən əd-Daraqutni; 2/137/12; Mustədrək əl-Hakim, 2/375; Sunən əl-Beyhəqi, 10/12; Musnəd əl-Bəzzar, 1/78/123.

[3] Aridul-Əhvəzi, 4/185.

[4] Camiul-Ulum vəl-Hikəm, 2/153.

[5] Silsilətul-Əhadisis-Səhihə, 2256.

də, onun yalnız isnadının zəif olduğunu qəsd edə bilərlər. Bəzən görürük ki, bir mühəddis öz kitabında hədisin "zəif" olduğunu yazmış, başqa bir kitabında da həmin hədisin "səhih" olduğunu demişdir. İlk baxışdan bu, adama ziddiyyət kimi görünsə də, araşdırdıqda aydın olur ki, hədisin mətni səhihdir.

İbn Rəcəb ﷺ bu hədisi izah edərkən demişdir: "Əbu Sələbənin rəvayət etdiyi hədisdə, Allahın hökmləri dörd qismə bölünür: fərzlər, haramlar, hüdudlar və hökmü bildirilməmiş əməllər. Bu hədis, dinə aid hökmlərin hamısını özündə cəm edir. Əbu Bəkr əs-Səmani demişdir: "Bu hədis, dinin böyük dayaqlarından birini təşkil edir." Sələflərdən bir çoxları demişlər ki, Peyğəmbərin ﷺ hədisləri arasında Əbu Sələbənin hədisi kimi İslam elminin əsaslarını və ikincidərəcəli hökmlərini özündə cəm edən başqa bir hədis yoxdur. Rəvayət edilir ki, Vasilə əl-Muzəni: "Rəsulullah ﷺ İslam dinini dörd kəlmə ilə ifadə etmişdir"– demiş, sonra da, Əbu Sələbənin hədisini zikr etmişdir. İbn əs-Səmani demişdir: "Kim bu hədisdə deyilənləri yerinə yetirərsə, böyük savab qazanar və canını əzabdan qurtarar. Çünki, hər kim fərzləri yerinə yetirsə, haramlardan uzaq dursa, hüdüdları aşmasa və haqqında məlumat olmayan məsələləri araşdırmasa, fəzilətlərin hamısına nail olmuş və dinin bütün tələblərini yerinə yetirmiş olar. Çünki şəriət hökmləri, bu hədisdə zikr edilən bu dörd hökmdən kənara çıxmır."[1]

Şərh etdiyimiz hədisdə: "Uca Allah bir çox əməlləri fərz buyurmuşdur, onları puç etməyin" deyilir. Yəni, beş vaxt qılınan

---

[1] Camiul-Ulum vəl-Hikəm, 2/152-153.

namaz, zəkat, ramazan orucu və ömürdə bir dəfə yerinə yetirilən həcc, valideynlərin qayğısına qalmaq, qohumlarla əlaqə saxlamaq və başqa bu kimi bir çox əməlləri fərz buyurmuşdur. Odur ki, hər bir müsəlmana, onları Allahın və Onun rəsulunun ﷺ buyurduğu kimi yerinə yetirmək fərzdir. "əl-Həşr" surəsinin 7-ci ayəsində belə buyurulur: "Allahın rəsulu sizə nəyi əmr edirsə, onu yerinə yetirin." Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mənə Quran və onun bənzəri verilmişdir... Həqiqətən də, Peyğəmbərin ﷺ haram buyurduqları, Allahın haram buyurduqları kimidir."[1] Ayə və hədisdən aydın olur ki, hər bir müsəlmana, Allahın və Onun rəsulunun ﷺ əmrlərini yerinə yetirmək vacibdir.

Bu məsələ ilə bağlı ortaya bir sual çıxır. Fərz və vacib eyni mənanı ifadə edirmi? Yoxsa, fərs bir mənanı, vacib isə başqa mənanı bildirir. Sualın cavabı belədir: onlardan birini tərk etdikdə, günah qazanmaq baxımından hər ikisi eyni mənanı bildirir. Vəsf baxımından, yəni hansı əməlin fərz, hansının da vacib olması baxımından isə bunların mənasının eyni, yoxsa, fərqli olması barədə İslam alimləri ixtilaf etmişlər. Daha doğru rəy budur ki, fərz və vacib kəlmələri eyni mənada işlənir. Lakin, əgər fərz kəlməsi xüsusiləşdirilərsə, fərqli məna verə bilər, yoxsa elə vacib mənasında işlənir.

Şərh etdiyimiz hədisdə: "hüdudlar qoymuşdur, onları aşmayın"– deyilir. Buna, miras ayələrini misal çəkmək olar. "ən-Nisa" surəsinin 11-ci və 12-ci ayələrində, mirasdan varislərə nə qədər

---

[1] Sunən Əbu Davud, 4604; Tirmizi, 2664.

pay çatdığı açıqlandıqdan sonra 13-cü və 14-cü ayələrdə belə buyurulur: "Bunlar Allahın *qoyduğu* hüdudlardır. Kim Allaha və Onun rəsuluna itaət edərsə, *Allah* onu altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər. Bu, böyük uğurdur. Kim Allaha və Onun rəsuluna asi olub Onun hüdudlarını aşarsa, *Allah* onu, içində əbədi qalacağı *Cəhənnəm* oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır." Həmçinin, Nəvvas ibn Səmanın ﷺ rəvayət etdiyi hədisi də buna misal çəkmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah doğru yola aid bir məsəl çəkdi; bu yolun hər tərəfində bir divar, həmin divarlarda açıq qapılar və bu qapıların üstündə sallanmış pərdələr vardır. Yolun başında dayanmış bir nəfər insanları çağırıb: "Ey insanlar! Hamınız bu yolla gedin və firqələrə bölünməyin!"– deyir. Digər dəvətçi də yolun üstündə dayanıb nəzarət edir. Kimsə o qapılardan birini açmaq istəyəndə ona: "Vay sənin halına! O qapını açma. Əgər sən onu açsan, mütləq ora girəcəksən"– deyir. Peyğəmbər ﷺ davam edib dedi: "Burada yol – İslam dinidir; divarlar – Allahın qoyduğu hüdudlar və qayda-qanunlardır, açıq qapılar – Allahın haram buyurduqlarıdır, yolun başında dayanan çağırışçı – Allahın Kitabıdır və nəhayət, yolun üstündə duran nəzarətçi – Allahın hər bir müsəlmanın qəlbində təyin etdiyi nəsihətçidir." Bu ayə və hədisdən bizə aydın olur ki, vacib əməllər üçün qoyulmuş hüdudları keçmək, haramlar üçün qoyulmuş hüdudlara isə yaxınlaşmaq qadağandır. Diqqət edin, Uca Allah "əl-Bəqərə" surəsinin 229-cu ayəsində: "Bunlar Allahın *qoyduğu* hüdudlardır, onları aşmayın!"– deyə buyurur, həmin surənin, 187-ci ayəsində isə: "Bunlar

Allahın *qoyduğu* hüdudlardır, onlara yaxınlaşmayın!"– deyə buyurur. Bu ayələrdən birincisi vacib buyurulanlara, ikincisi isə haram buyurulanlara aiddir.

Sonra şərh etdiyimiz hədisdə: "Bəzi şeyləri haram buyurmuşdur, onlara əl uzatmayın!" deyilir. Yəni Allahın və Onun rəsulunun ﷺ haram buyurduqlarından – Allaha şərik qoşmaq, zina etmək, şərab içmək, oğurluq etmək, ismətli qadını zinada ittiham etmək və başqa bu kimi haramlardan çəkinmək. Bu xüsusda "əl-Həşr" surəsinin 7-ci ayəsində belə buyurulur: "*Allahın rəsulu* sizə nəyi qadağan edirsə, ondan çəkinin." Həmçinin, "əl-Əhzab" surəsinin 36-cı ayəsində belə buyurulur: "Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür."

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Allahın rəsulu ﷺ heç bir şeyi öz istəyi ilə haram buyurmamışdır. O, yalnız Allahın ona nazil etdiyi vəhyə əsasən nəyin halal, nəyin da haram olduğunu bildirmişdir. Bu xüsusda "ən-Nəcm" surəsinin 3-cü və 4-cü ayələrində Uca Allah belə buyurur:

﴿ وَمَا يَنطِقُ عَنِ ٱلْهَوَىٰٓ إِنْ هُوَ إِلَّا وَحْىٌ يُوحَىٰ ﴾

"Peyğəmbər öz istəyi ilə danışmır. Bu, yalnız ona təlqin edilən bir vəhydir."

Şərh etdiyimiz hədisin axırında deyilir ki, bəzi şeylər barədə unutduğuna görə deyil, sizə mərhəmət etsin deyə, heç nə deməmişdir, onları araşdırmayın. Bu da o deməkdir ki, bəzi işlər barə-

də Quranda və Sünnədə heç bir hökm verilməyib. Odur ki, bu işləri araşdırmaq və ya onun barəsində sual vermək olmaz. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ səhabələrinə həcc ziyarətinin vacib buyurulmuş bir ibadət olduğunu demiş, sonra onlardan biri: "Bu ziyarəti hər il yerinə yetirmək bizə vacibdirmi?"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Əgər "bəli"– desəm, vacib buyurula bilər, sonra da, sizin onun yerinə yetirməyə gücünüz çatmaz. Elə isə mən sizə nəyi əmr edirəmsə, onu yerinə yetirin! Sizdən əvvəlki ümmətləri, çox *lazımsız* suallar verməleri və peyğəmbərlərinə müxalif olmaları məhv etmişdir."[1] Bu hədislərin mənasını təsdiqləyən Quran ayəsində – "əl-Maidə" surəsinin 101-ci və 102-ci ayələrində belə buyurulur: "Ey iman gətirənlər! Sizə agah olunca xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın. Əgər Quran nazil edildiyi zaman onlar haqqında soruşsanız, sizə agah olar. Allah bunları – *indiyə qədər verdiyiniz bu cür sualları* əfv etdi. Allah bağışlayandır, həlimdir. Sizdən əvvəl bir toplum onları soruşmuş, sonra da onları *inkar edib* kafir olmuşdu."

İbn Rəcəb رحمه الله bu hədisi izah edərkən demişdir: "Barəsində heç bir hökm verilməmiş əməllərə gəlincə, bu, o əməllərdir ki, *Quranda və Sünnədə* onların halal və ya haram olması zikr edilməmişdir. Bu da, Allahın insanlara olan mərhəmətidir və bunları edən adama günah yazılmaz."[2]

---

[1] Səhih Muslim, 1337.

[2] Camiul-Ulum vəl-Hikəm, 2/163.

Bu hədisdən bir sual da ortaya çıxar ki, onu da qeyd etmək yerinə düşərdi. Sual belədir ki, hökmü bəyan edilməmiş məsələlər barədə sual verməyin qadağan edilməsi yalnız Peyğəmbərin ﷺ dövrünə aiddir, yoxsa hər zamana?

İslam alimlərinin bəzisi bu qadağanın yalnız Peyğəmbərin ﷺ dövrünə, yəni vəhyin nazil olduğu zamana aid olduğunu demişlər. Çünki nəyin vacib, nəyin də haram buyurulması məhz həmin dövrdə müəyyən edilmişdir. Peyğəmbərlik missiyası başa çatdıqdan sonra isə artıq insanın, hökmü bəlli olmayan məsələ ilə bağlı sual verməsi icazəlidir. Lakin əksər alimlərin rəyinə görə, yəni doğru rəy budur ki, bu qadağa ta Qiyamətədək qüvvəsində qalır.

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ Allahın heç nəyi unutmadığını xəbər verir. Peyğəmbərin ﷺ bu sözü, Quranda da öz təsdiqini tapmışdır. "Məryəm" surəsinin 64-cü ayəsində belə buyurulur: "Rəbbin unudan deyildir." Həmçinin, "Ta ha" surəsinin 52-ci ayəsində xəbər verilir ki, Musa عليه السلام Firona belə demişdir: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"

Bu ayələrdən bizə aydın olur ki, Allah heç nəyi unutmur. Yaxşı əgər Qurandan başı çıxmayan birisi sual versə ki, siz deyirsiniz, Allah heç nəyi unutmur, lakin "ət-Tovbə" surəsinin 67-ci ayəsində Uca Allah buyurur:

﴿نَسُوا۟ ٱللَّهَ فَنَسِيَهُمْ﴾

"Onlar Allahı unutdular, Allah da onları unutdu."

Bu sualın cavabı belədir ki, ərəb dilində olan kəlmələr bir neçə mənanı ifadə edə bilər. Bu ayədə unutmaq deyildikdə, tərk etmək qəsd edilir. Belə ki, onlar Allahın dinini tərk etdilər, Ondan üz çevirdilər, Allah da onları tərk etdi. Bu deyilənlərdən bizə aydın oldu ki, məxluqa layiq olan unutqanlıq sifətini Allaha istinad etmək olmaz. Allah belə sifətlərdən uzaqdı və ucadır.

Sonda, Allahdan istəyimiz budur ki, haqqı haqq olaraq bizə, göstərsin və bizi haqqa yönəltsin, habelə, batili batil olaraq bizə, göstərsin və bizi ondan uzaq etsin!

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik."[1]

---

[1] Musnəd imam Əhməd, 5/243; .

# Otuz birinci hədis

عَنْ أَبِي الْعَبَّاسِ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رضي الله عنه قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللهِ! دُلَّنِي عَلَى عَمَلٍ إِذَا عَمِلْتُهُ أَحَبَّنِي اللهُ وَأَحَبَّنِي النَّاسُ؛ فَقَالَ: "ازْهَدْ فِي الدُّنْيَا يُحِبَّكَ اللهُ، وَازْهَدْ فِيمَا عِنْدَ النَّاسِ يُحِبُّكَ النَّاسُ".

حديث حسن، رَوَاهُ ابْنُ مَاجَهْ [رقم:٤١٠٢]، وَغَيْرُهُ بِأَسَانِيدَ حَسَنَةٍ.

Rəvayət edilir ki, Əbul-Abbas Səhl ibn Səd əs-Saidi رضي الله عنه demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, mən onu yerinə yetirəcəyim təqdirdə, məni həm Allah sevsin, həm də insanlar." Peyğəmbər ﷺ buyurdu: "Dünyaya könül bağlama, Allah səni sevsin, insanların əlindəkinə də göz dikmə, insanlar səni sevsin."

Bu, həsən hədisdir. Bu hədisi İmam İbn Macə رحمه الله və digərləri həsən isnadla rəvayət etmişlər.[1]

Səhabənin bu sualı, onun məqsədinin aliliyinə dəlalət edir. Belə ki, Allahın sevgisini qazanmaq mömin adamın ən ali məqsədi sayılır. Allah kimi sevərsə, o adam dünyada da, axirətdə də xoşbəxt olar. Allah kimi sevərsə, onu mələklərə də sevdirər, hətta bir çox insanların qəlbində ona qarşı məhəbbət yaradar. "Məryəm" surəsinin 96-cı ayəsində Uca Allah belə buyurur:

---

[1] Sunən İbn Macə, 4102; Mustədrək əl-Hakim, 4/313; Mocəm əl-Kəbir, ət-Təbərani, 5972; Hilyə, Əbu Nueym, 3/253; Şoəb əl-İman, əl-Beyhəqi, 7/344; əl-Kamil, İbn Adiy; 2/117; Silsilətul-Əhadisis-Səhihə, 944.

﴿ إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ سَيَجۡعَلُ لَهُمُ ٱلرَّحۡمَٰنُ وُدّٗا ﴾

"İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli *Allah qəlblərdə* bir sevgi yaradar."

Həmçinin, hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah bir qulunu sevdiyi zaman Cəbrailə: "Allah filankəsi sevir, sən də onu sev!"– deyə buyurur, Cəbrail də həmin adamı sevir. Sonra Cəbrail göy əhlinə xitab edib: "Allah filankəsi sevir, siz də onu sevin!"– deyir, göy əhli də onu sevir. Daha sonra yer üzündəkilər də ona rəğbət bəsləməyə başlayırlar."

İnsanların sevgisini qazanmaq üçün isə onların haqlarını ödəmək lazımdır. Ümumiyyətlə, haqlar iki qismə bölünür: Allahın və insanların haqları. Allahın haqqını ödədikdə Allahın sevgisini, insanların haqlarını ödədikdə isə insanların sevgisini qazanmaq olur. Qeyd etmək lazımdır ki, sevmək yox, sevilmək daha əhəmiyyətlidir. Dolayısıyla, Allahı sevdiyini iddia edənlər çoxdur, lakin Allahın sevimlisi olanlar çox azdır. Odur ki, Uca Allah buyurur: "Qullarımdan şükr edən azdır."[1] Sələflərin gözəl bir sözü var, deyərlərmiş: "Sənin kimsəni sevməyin elə də əhəmiyyətli deyil, əhəmiyyətli olan budur ki, sən özün seviləsən."[2] Diqqət edin, qeyri-müsəlmanlar da Allahı sevdiklərini iddia edirlər, lakin onlar Allahın göndərdiyi Peyğəmbərinə ﷺ iman gətirmədiklərinə və onun yolunu tutub getmədiklərinə görə Allah onları sevmir. Bu xüsusda "Ali-İmran" surəsinin 103-cü ayəsində belə buyuru-

[1] Səba, 13.

[2] Təfsir İbn Kəsir, 1/359.

lur: “De: “Əgər siz Allahı sevirsinizsə, mənim yolumu gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir.” Ayədən aydın başa düşülür ki, Allahın sevgisini qazanmaq üçün təkcə Allahı sevmək bəs eləmir. Allahı sevməklə yanaşı, Muhəmmədin ﷺ, Allahın rəsulu olduğuna şəhadət gətirmək, onun dediklərini təsdiqləmək, onun buyuruqlarını yerinə yetirmək və onun yolunu tutub getmək lazımdır. Əgər, təkcə Allahı sevmək kifayət etmiş olsaydı, Allah Öz müqəddəs Kitabında qeyri-müsəlmanları da sevdiyini, onların günahlarını bağışlayacağını bildirərdi. Lakin Muhəmmədi ﷺ qəbul etmədiklərinə görə, Allah onları kafir sayır. Uca Allah “ən-Nisa” surəsinin 150-ci və 151-ci ayələrində belə buyurur:

﴿ إِنَّ ٱلَّذِينَ يَكۡفُرُونَ بِٱللَّهِ وَرُسُلِهِۦ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيۡنَ ٱللَّهِ وَرُسُلِهِۦ
وَيَقُولُونَ نُؤۡمِنُ بِبَعۡضٖ وَنَكۡفُرُ بِبَعۡضٖ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيۡنَ ذَٰلِكَ سَبِيلًا
أُوْلَٰٓئِكَ هُمُ ٱلۡكَٰفِرُونَ حَقّٗاۚ ﴾

“Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: “Biz *o elçilərin* bəzisinə inanır, bəzilərinə isə inanmırıq!”– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər – məhz onlar əsl kafirlərdir.”

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Allahın məhəbbətini qazanmaq istəyən kəs istədiyinə yalnız dini elmləri öyrənməklə, başqa cür desək, Allahı tanımaqla nail ola bilər. Yəni, adam bilməlidir ki, hansı əməli etsə Allah onu sevər. Başqa cür desək, “Nə edək ki, Allah bizi sevsin?” Bu xüsusda Quranda bir çox ayələr

var, gəlin bunlardan bir neçəsini zikr edək. Məsələn: "əl-Bəqərə" surəsinin 195-ci ayəsində belə buyurulur: "Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir." Yaxud, həmin surənin 222-ci ayəsində deyilir: "Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da." Yaxud "ət-Tovbə" surəsinin 4-cü ayəsində deyilir: "Həqiqətən, Allah müttəqiləri sevir." Yaxud "Ali-İmran" surəsinin 146-cı ayəsində deyilir: "Allah səbir edənləri sevir." Həmçinin, həmin surənin 159-cu ayəsində belə buyurulur: "Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir." Və ya "əl-Maidə" surəsinin 42-ci ayəsində belə buyurulur: "Əgər onların arasında hökm versən, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir." Ayələrdən aydın başa düşülür ki, Allah, yaxşılıq edənləri, Ona tövbə edib günahlardan təmizlənənləri, Allahdan qorxanları, səbirli olanları, Allaha təvəkkül edənləri və ədalətlə hökm verənləri sevir. Məhz belələri, dünyaya könül bağlamayan kimsələrdir. İbn Rəcəb ﷺ bu hədisi belə izah etmişdir: "Peyğəmbər ﷺ: "Dünyaya könül bağlama, Allah səni sevsin"– deməklə bildirmək istəyir ki, Allahın sevgisini qazanmaq üçün zahid olmaq lazımdır. Yəni adam onu Allahdan yayındıran hər bir şeydən uzaq olmalıdır."[1] Yeri gəlmişkən qeyd edək ki, dünya – "dənə" feilindən əmələ gəlmiş isimdir, yaxın və aşağı olmaq, mənalarını ifadə edir. Dünya iki səbəbdən dolayı dünya adlandırılmışdır.

Birincisi, zaman baxımından. Belə ki, o, bizə axirətdən daha yaxındır.

---

[1] Cami əl-Ulum vəl-Hikəm, 2/186.

İkincisi də, mərtəbə baxımından. Belə ki, o, axirətdən çox-çox aşağı mərtəbədədir. "əl-Əla" surəsinin 16-cı və 17-ci ayələrində belə buyurulur: "Xeyr, siz dünya həyatını *olduqca* üstün tutursunuz. Halbuki, Axirət daha xeyirli və daha sürəklidir." Həmçinin, "ən-Nisa" surəsnin 77-ci ayəsində belə buyurulur: "De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz." Həmçinin, "Yunus" surəsinin 7-ci və 8-ci ayələrində belə buyurulur: "Şübhəsiz ki, Bizim hüzurumuza qayıdacaqlarına ümid etməyənlərin, dünya həyatından razı qalıb onunla rahatlıq tapanların və ayələrimizdən xəbərsiz olanların – məhz onların qazandıqları *günahlara* görə gedəcəkləri yer Oddur." Həmçinin, "ər-Rəd" surəsinin 26-cı ayəsində deyilir: "Onlar dünya həyatına sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür." Axirətlə dünyanın müqayisəsi xüsusunda bir çox hədislər varid olmuşdur. Məsələn: hədislərin birində xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Dünyanın axirətlə müqayisəsi, birinizin barmağını dənizə salıb çıxarmasına bənzəyir. Qoy baxsın, görsün barmağında bir şey qalırmı."[1] O, həmçinin, demişdir: "Birinizin Cənnətdəki qamçısını qoyduğu yer, dünya və onun içindəkilərdən xeyirlidir."[2] Digər bir hədisdə o demişdir: "Sübh namazının iki rükəti, dünya və onun içindəkilərdən xeyirlidir."[3] Bu hədislərdən aydın olur ki, dünyanın heç bir dəyəri yoxdur və ona könül bağlamaq

---

[1] Səhih Muslim, 2858.

[2] Səhih əl-Buxari, 2796.

[3] Səhih Muslim, 725.

ağılsızlıqdı. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Əgər bu dünyanın Allah yanında ağcaqanadın qanadı qədər dəyəri olsaydı, orada kafirə bir içim su belə verilməzdi."[1] Başqa bir hədisdə o demişdir: "Bu dünya mömінin zindanı, kafirin isə cənnətidir."[2] Bu hədislər, dünyanın fani olduğunu və Allah yanında heç bir dəyəri olmadığını bildirir.

Bu hədisdə: "dünyaya könül bağlama" – yəni zahid ol deyilir. İbn Teymiyyə ﵀ zahidlik kəlməsinə belə tərif vermişdir: "Zahidlik: axirətdə fayda verməyən hər bir əməli tərk etməkdir."[3] Şeyxulislamın bu tərifindəki qəsd edilən faydasız əməllər dörd qisimdir: haramlar, məkruhlar, şübhəli şeylər və bir də ehtiyacdan artıq mübah işlərlə məşğul olmaq. Əbu Muslim əl-Xovlani ﵀ demişdir: "Zahidlik təkcə haramları və israf sayılan əməlləri tərk etmək deyil. Dünyadakı əsl zahidlik odur ki, sən öz əlində olanlara yox, Allahın əlində olanlara ümid bağlayasan, üstəlik, başına bir müsibət gəldiyi zaman Allahdan onun savabını umasan və onun Qiyamət günü əvəzini alacağına ümid bəsləyəsən."[4] İmam Əhməddən ﵀: "Min dinarı olan adam zahid sayıla bilərmi?" soruşduqda, o demişdir: "Bəli, sayıla bilər. Bir şərtlə ki, bu pul artdıqda sevinməsin, azaldıqda da, kədərlənməsin." İmam Əhmədin bu sözündən aydın başa düşülür ki, zahid olmaq üçün dünya malından imtina etmək, nimdaş paltar geymək, çox kasıb görünmək və

[1] Sunən ət-Tirmizi, 2/52; Silsilətul-Əhadisis-Səhihə, 686.
[2] Səhih Muslim, 8/210.
[3] Məcmu əl-Fətavə, 10/615.
[4] əz-Zuhd, İmam Əhməd, səh: 18.

s. bu kimi işləri etmək şəriətə ziddir. İnsanın qəlbində zahidlik olmalıdır. Zahirən isə gözəl görünmək, bəyənilən əməllərdəndir. Gözəl görünmək möminə yaraşan xislətlərdəndir. Necə ki, hədislərin birində səhabə Peyğəmbərdən ﷺ: "Adam libasının və ayaqqabısının gözəl olmasını xoşlayır. *Bu, təkəbbürlükdürmü?*"– deyə soruşduqda, o belə cavab vermişdir: "Allah gözəldir və gözəlliyi sevər. Təkəbbürlük isə haqqı danmaq və insanlara xor baxmaqdır."[1] Peyğəmbər ﷺ bu sözü ilə səhabələrinə gözəl geyinməyi və yaraşıqlı görünməyi məsləhət görür. Bu, dəlildir ki, adamın libası, ayaqqabısı və ümumiyyətlə, geyimə aid hər bir şeyi gözəl olmalıdır. Lakin bütün bunlar onu israf etməyə, təkəbbürlük göstərməyə, özünü dartmağa, ələlxüsus da ibadətdən yayındırmağa səbəb olmamalıdır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "İsrafa yol vermədən və təkəbbürlük göstərmədən yeyin, için, sədəqə verin və *istədiyiniz geyimi* geyinin."[2] Peyğəmbərimiz ﷺ gözəl və təmiz libaslar geyinər, həmişə saçlarını darayar, dişlərini misvakla təmizləyər, beləcə gözəl görünməyi xoşlayardı, lakin bütün bunlarla yanaşı qəlbini o gözəlliyə bağlamazdı. Rəsulullah ﷺ dünyaya könül bağlayan kimsələrdən olmamışdır. Hədislərin birində İbn Məsud رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ həsirin üstündə uzanıb yatdı *və həsir onun böyrünə iz saldı*. Oyandıqda mən əlimi onun böyrünə sürtə-sürtə dedim: "Ya Rəsulullah, izin ver, sənin *rahatlığın* üçün bu həsirin üstünə *yumşaq* bir şey sərək. Onda, Rəsulullah ﷺ belə buyurdu: "Mənimlə dünyanın məsəli, ağa-

---

[1] Səhih Muslim, 265.

[2] Sunən İbn Macə, 23; Səhih əl-Cami, 8634.

cın kölgəsi altında dincini aldıqdan sonra o kölgəliyi tərk edən atlının məsəlinə bənzəyir."[1] başqa bir hədisdə Aişə ﵂ demişdir: "Bir dəfə ənsardan olan bir qadın mənim hücrəmə daxil oldu və Peyğəmbərin ﷺ döşəyinin sadəcə qalın bir parça olduğunu gördü. Sonra qadın *evinə* gedib, Peyğəmbərə ﷺ içi yunla doldurulmuş bir döşək göndərdi. Peyğəmbər ﷺ gəlib o döşəyi görəndə mənə dedi: "Onu *yiyəsinə* qaytar! Ey Aişə, vallahi, əgər mən diləsəydim, Allah dağları mənim üçün qızıla və gümüşə çevirərdi."[2] Yenə bir hədisdə rəvayət edilir ki, Ömər ibn əl-Xattab ﵁ demişdir: "Bir gün mən Peyğəmbərin ﷺ yanına daxil oldum. Həmin vaxt o, həsirin üstündə uzanmışdı, əynində də izardan başqa bir şey yox idi. Sonra o, qalxıb oturdu. Həsir onun çiyninə və böyrünə iz salmışdı. Mən onun otağına nəzər salıb dörd ovuc arpa, bir o qədər akasiya ağacının qabığı və bir də aşılanmış dəridən başqa bir şey görmədim. Onun bu halını görəndə mənim gözlərim yaşla doldu." Peyğəmbər ﷺ dedi: "Niyə ağlayırsan, ey Xattabın oğlu?" Mən dedim: "Niyə də ağlamayım, ya Rəsulullah! Gör həsir sənin bədənini nə hala salıb, otağında da bu gördüklərimdən başqa bir şey yoxdur. Qeysər və Xosrov cah-cəlal içində yaşayır. Sən isə Allahın seçdiyi bir rəsul olduğun halda belə şəraitdə yaşayırsan." Peyğəmbər ﷺ dedi: "Ey Xattabın oğlu! İstəmirsən ki, dünya onların, Axirət isə bizim olsun?"[3]

---

[1] Sunən ət-Tirmizi, 2/60; Silsilətul-Əhadisis-Səhihə, 438.
[2] Təbəqat İbn Səd, 1/465; Silsilətul-Əhadisis-Səhihə, 2484.
[3] Səhih Muslim, 1479.

Burada bir haşiyə çıxaq, sonra mövzumuzu davam edərik. Qeyd etmək lazımdır ki, bu dünyada haram buyurulanlar, insana gözəl görünsə də, zahid olmaq, başqa cür desək, Allahın sevgisini qazanmaq üçün onlardan uzaq durmaq vacibdir. Məsələn: kişilərin ipəkdən libas geyinməsi barədə Peyğəmbər ﷺ demişdir: "Bu dünyada ipək geyinən kəs, axirətdə onu geyə bilməyəcək."[1] Digər bir hədisdə o demişdir: "İpək və zərxara geyinməyin, qızıl və gümüş qablarda su içməyin, belə qablarda yemək də yeməyin. Çünki bütün bunlar kafirlərə dünyada, sizə isə axirətdə nəsib olacaq."[2] Yenə bir hədisdə o demişdir: "Kim bu dünyada şərab içər və tövbə etməzsə, axirətdə, *içənlərə ləzzət verən* şərabdan[3] məhrum olar."[4]

Mövzuya dair bir incə məqama da toxunsaq, yerinə düşər. Burada Allahın sevgisini qazanmaq üçün dünyaya könül bağlamamaq sünnəyə riayət edən adama aiddir. Lakin, əgər adam bidət əhlidirsə və Allahın sevgisini qazanmaq istəyirsə, o zaman ona dünyaya könül bağlamamağı nəsihət etməklə yanaşı bidəti də tərk etməyi buyurmaq lazımdır. Necə ki, Ali-İmran surəsinin 31-ci ayəsində buyurulur: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumu gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir."

---

[1] Səhih əl-Buxari, 5834.

[2] Səhih əl-Buxari, 5426.

[3] "Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir: orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır." "Muhəmməd" surəsi, 15.

[4] Səhih əl-Buxari, 5575.

Şərh etdiyimiz hədisin davamında deyilir ki, "insanların əlindəkinə də göz dikmə, insanlar səni sevsin." Yəni onların əlində olana ümid bağlama və onlara yalvarma. Bu xüsusda varid olmuş bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İffətli olmaq istəyəni Allah iffətli edər. *İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz."[1] Digər bir hədisdə o, demişdir: "Birinizin ip götürüb bir şələ odun yığaraq belində *bazara* aparıb satması və bu səbəbdən Allahın köməyi ilə heç kəsə möhtac olmaması, onun üçün insanlara ağız açmaqdan daha xeyirlidir. Bir də ki, bilmək olmaz, *o adamlar* ona istədiyini verəcəklər, yoxsa imtina edəcəklər."[2] Yenə bir hədisdə o, demişdir: "Uca əl alçaq əldən daha xeyirlidir. Uca əl *sədəqə* verən əldir; alçaq əl isə dilənən əldir."[3] Bu hədislərdən aydın başa düşülür ki, insan başqalarının əlinə baxmamalıdır. Lakin, əgər adam ehtimal etsə ki, onun dostundan bir şey istəməsi dostunu sevindirəcək, o zaman öz ehtiyacı ilə bağlı ona müraciət edə bilər. Nə çox səhabə olub ki, öz ehtiyacını Peyğəmbərə ﷺ və ya raşidi xəlifələrə deyib, onlar da ona köməklik göstəriblər. Hətta Peyğəmbərin ﷺ özü bəzən səhabələrinə müraciət edər və beləliklə də, bu əməlin icazəli olduğunu bildirərmiş. Məsələn: rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ gəlib odun üstündə qazan qaynadığını görüb dedi: "O yeməkdən mənə də verəcəksinizmi?" Ev əhli ona: "Bu ət, Bəriraəyə sədəqə olaraq veril-

---

[1] Səhih əl-Buxari, 1469.

[2] Səhih əl-Buxari, 1471.

[3] Səhih əl-Buxari, 1429.

mişdir"– deyildikdə, Peyğəmbər ﷺ dedi: "Bu, onun üçün sədəqə, bizim üçün isə hədiyyədir."[1]

Sonda gəlin bu mövzuya dair sələflərdən bir neçəsini misal çəkək:

Rəvayət edilir ki, Əbu Bəkrin رضي الله عنه xilafəti dövründə Mədinə əhalisinə qıtlıq üz vermişdi. Bu ərəfədə Osmana məxsus qafilə – ərzaqla dolu karvan Mədinəyə gəldi. Tacirlər bundan xəbər tutduqda, onun yanına gəldilər. Osman büründəyini çiyninə atıb onların qabağına çıxdı. Tacirlər ondan gətirdiyi ərzaq mallarını onlara satmağı xahiş etdilər. Osman soruşdu: "Mənə nə qədər xeyir vermək istəyirsiniz?" Dedilər: "On dirhəmlik mala on iki dirhəm." Osman dedi: "Mənə daha çox xeyir verən var." Tacirlər dedilər: "Yaxşı, on dirhəmlik mala on beş dirhəm veririk." Osman yenə eyni cavabı verdi: "Mənə daha çox xeyir verən var." Tacirlər təəccüblə dedilər: "Biz Mədinə tacirlərinin hamısını tanıyırıq, bir de görək, kimdir sənə daha çox xeyir verən?!" Osman dedi: "Bu, Allahdır! O, mənə hər bir mala on qat əvəz verir. Siz bundan çox verə biləcəksinizmi?" Bunu eşidəndə tacirlər dönüb getdilər. Onda Osman əllərini göyə qaldırıb dedi: "Allahım, mən malımın hamısını, əvəzsiz və təmənnasız Mədinədəki kasıblara verirəm."

Yenə bir hədisdə rəvayət edilir ki, bir gün Talhə ibn Ubeydullaha رضي الله عنه Hədrəmovtdən yeddi yüz min dirhəm gətirdilər. Həmin gecə o bərk narahat olduğundan, yata bilmirdi. Zövcəsi soruşdu: "Nə olub sənə?" Talhə dedi: "Bayaqdan düşünürəm ki, görəsən, Rəbbinin hüzurunda haqq-hesaba çəkiləcəyini yəqin bilən adam,

[1] Səhih əl-Buxari, 2577.

evində bu qədər pulu ola-ola necə rahat yata bilər?" Zövcəsi dedi: "Axı niyə sən mömin qardaşlarından geri qalmalısan?! Səhər açılan kimi, çoxlu camlar və sinilər gətizdirib, bu dirhəmləri kasıblara payla!" Talhə zövcəsindən bu cavabı eşidəndə, dedi: "Allah sənə rəhm eləsin! Sən, həqiqətən də, muvəffəqin qızı muvəffəqasan."

Ərəbcə (مُوَفَّقَةٌ بِنْتُ مُوَفَّقٍ), yəni, xeyirxah işlər görməyə müvəffəq edilmiş kişinin, xeyirxah işlər görməyə müvəffəq edilmiş qızı, deməkdir. Bu, Əbu Bəkr əs-Siddiqin qızı Ummu Kulsum idi.

Qadının zahidliyinə diqqət edin, görün nə deyir: "Axı niyə sən mömin qardaşlarından geri qalmalısan?! Səhər açılan kimi, çoxlu camlar və sinilər gətizdirib, bu dirhəmləri kasıblara payla!" Nəhayət, səhər açıldıqda, Talhə رضي الله عنه çoxlu sinilər gətizdirib bu dirhəmləri mühacirlərin və ənsarın arasında paylaşdırdı.

Bir zaman Abdullah ibn Məsud رضي الله عنه öz tələbələrinə: "Muhəmməd peyğəmbərin ﷺ səhabələri sizdən az iş görər, lakin sizdən çox savab qazanardılar"– demiş, onlar da, ondan: "Niyə belə?"– deyə soruşduqda, o belə cavab vermişdir: "Onlar axirətə sizdən çox can atar, dünyaya isə sizdən az könül bağlayardılar."

Həmçinin, rəvayət edilir ki, Əbu Hazimdən رحمه الله: "Nə qədər mal-dövlətin var"– deyə soruşulduqda, o, deyərmiş: "Məndə iki nemət var ki, bunlar məndə olduğu müddətcə heç vaxt kasıb olmaqdan qorxmaram. Bunlar: Allaha tam arxayın olmaq və bir də insanların əlində olana göz dikməməkdir."[1]

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

---

[1] Hilyə, Əbu Nueym, 3/232.

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik."[1]

[1] Musnəd imam Əhməd, 5/243; .

## Otuz ikinci hədis

عَنْ أَبِي سَعِيدٍ سَعْدِ بْنِ مَالِكِ بْنِ سِنَانٍ الْخُدْرِيِّ ﷺ أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: " لَا ضَرَرَ وَلَا ضِرَارَ".

حَدِيثٌ حَسَنٌ، رَوَاهُ ابْنُ مَاجَهْ [راجع رقم:٢٣٤١]، وَالدَّارَقُطْنِيّ [رقم:٤/٢٢٨]، وَغَيْرُهُمَا مُسْنَدًا. وَرَوَاهُ مَالِكٌ [٧٤٦/٢] فِي "الْمُوَطَّإِ" عَنْ عَمْرِو بْنِ يَحْيَى عَنْ أَبِيهِ عَنْ النَّبِيِّ ﷺ مُرْسَلًا، فَأَسْقَطَ أَبَا سَعِيدٍ، وَلَهُ طُرُقٌ يُقَوِّي بَعْضُهَا بَعْضًا.

Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Zərər vermək də olmaz, zərərin qarşılığını vermək də olmaz.”

Bu həsən hədisdir. Bu hədisi İbn Macə, həmçinin, Daraqutni istinad edərək və bir də Malik mursəl isnadla, Amrdan, o da Yəhyadan, o da atasından, o da Peyğəmbərdən ﷺ, Əbu Səidi ﷺ zikr etmədən rəvayət etmişdir. Bu hədisin, bir-birini qüvvətləndirən bir neçə isnadı mövcuddur.[1]

Bu hədis, şəriətin qoyduğu əzəmətli qaydalardan biri hesab edilir. Bu, yığcam və əhatəli bir qaydadır. O qayda ki, İslam dini-

[1] Bu hədisi, İbn Macə “Sunən”ində 2341, Əhməd “Musnəd”ində 1/313, Əbu Yəla “Musnəd”ində 4/397 və Təbərani “Mocəm əl-Kəbir”ində, 11806 – hamısı İbn Abbasa ﷺ istinad edərək rəvayət etmişdir. Həmçinin, bu hədisi Hakim öz “Mustədrək”ində 2/66, Daraqutni “Sunən”ində, 3/77 və Beyhəqi “Sunən əl-Kubra”da, 6/69 – hamısı Əbu Səid əl-Xudriyə ﷺ istinad edərək rəvayət etmişdir. Və bir də Malik bu hədisi öz “Muvatta”sında 2/745 “mursəl” isnadla rəvayət etmişdir.

nin gözəlliyini, kamilliyini və adilliyini göstərir. Peyğəmbərin ﷺ "Zərər vermək də olmaz, zərərin qarşılığını vermək də olmaz" sözü xəbər mənasında işlənən qadağadır. Mənası da budur ki, nə qəsd etmədən zərər vermək, nə də qəsd edərək zərər vermək olar. Gəlin, bunlardan hər birinə bir misal çəkək ki, bu qaydalarda qəsd edilənlər bizə aydın olsun.

Məsələn: bir nəfər öz bağındakı ağacları sulayır və özünün xəbəri olmadan qonşusunun bağını su basır və beləliklə də, ona əziyyət vermiş olar. Bu, birinci qaydaya, yəni qəsd etmədən zərər verməyə aid olan misaldır.

İkincinə misal, adam öz qonşusu ilə arasında olan ədavətə görə, bilərəkdən ona zərər verməyi qəsd edir, qapısının ağzına zibil tökür, evinin yanında səs-küy salır, gecələr müsiqi oxudur və s. yollarla ona əziyyət verir. Bu zərəri isə artıq aradan qaldırmaq yox, dəyən ziyanın cəzası verilməlidir.

Bu hədis, şəriətin bir çox bölmələrini, ələlxüsus da ticarət, alış-veriş, borc almaq və borc vermək, girov almaq və girov qoymaq, nikaha girmək, vəsiyyət etmək və s. əhatə edir.

Cahiliyyət dövründə kişi qadınına bilərəkdən əziyyət vermək üçün onu boşayar, sonra iddə müddəti başa çatmağa az qalmış onu geri qaytarar, sonra yenidən onu boşayar və yenə iddə müddəti başa çatmağa az qalmış onu geri qaytarar və beləcə, ömrünün sonunadək ona əziyyət verərdi. Nəhayət, İslam şəriəti gəldikdən sonra bunu qadağan etdi. Bu xüsusda "əl-Bəqərə" surəsinin 229-cu ayəsində belə buyurulur: "Boşama iki dəfədir. Bundan sonra *qadını şəriətə* müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq lazımdır."

Bilərəkdən zərər yetirməyə, ölən adamın varislərə zərər yetirmək məqsədilə malının çox hissəsini vəsiyyət etməsini də misal çəkmək olar. Belə olduğu təqdirdə onun vəsiyyəti yerinə yetirilməməlidir. Şəriət bunu da qadağan edir. Bu xüsusda “əl-Bəqərə” surəsinin 229-cu ayəsində belə buyurulur: “Kim vəsiyyət edənin haqsızlıq etməsindən və ya günah işlətməsindən ehtiyat edib *tərəflərin* arasını düzəldərsə, ona heç bir günah olmaz.” Həmçinin, hədislərin birində xəbər verilir ki, Səd ibn Əbu Vəqqas رضي الله عنه malının hamısını sədəqə olaraq vəsiyyət etmək istəmiş, lakin Peyğəmbər ﷺ bunu ona qadağan etmiş, sonra üçdə birini vəsiyyət edəcəyəni demiş, Peyğəmbər ﷺ buna rüxsət vermiş, lakin “üçdə biri də, çoxdur” demişdir. Diqqət edin, Səd ibn Əbu Vəqqasın رضي الله عنه varislərə zərər vermək məqsədi olmasa da, şəriət bunu ona qadağan edir.

Ticarət xüsusunda da Peyğəmbər ﷺ belə buyurmuşdur: “Bir-birinizə kələk gəlmək məqsədilə malın qiymətini qaldırmayın”[1] İbn Useymin رحمه الله bu cümləni belə izah etmişdir: “Müştəriyə zərər vermək, yaxud mal satan adama xeyir vermək və ya hər ikisini etmək məqsədilə malın qiymətini qaldırmaq. Məsələn: adam bazarda öz malını satır, yanındakı dostu isə o malı almaq istəyən müştərinin yanında həmin mala daha çox pul təklif edir, məqsədi də o malı almaq yox, sadəcə malın qiymətini qaldırmaq və dostunun qazancını artırmaq olur. Beləliklə də, o, satıcı ilə əlbir olub müştəriyə zərər yetirmiş olur. Yaxud müştəri ilə arasında olan ədavətə görə mala daha çox pul təklif edir ki, onu ziyana salsın. Və ya mala daha çox pul təklif etməklə özündə olan eyni malın qiymətini

[1] Səhih əl-Buxari, 6066; Səhih Muslim, 3563.

qaldırmaq istəyir. Ya da malın qiymətini qaldırmaqda məqsədi bu olur ki, insanlar onun barəsində: "Filankəs malının qiymətini qaldırır, filankəs sərvət sahibidir, əsl tacirdir"– desinlər."[1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, şəriət bu iki növ zərərin qarşısını almağı buyurur. Lakin bilməyərəkdən zərər verən kimsə cəzalandırılmır və heç qınanmır da. Bilərəkdən başqasına zərər verən kimsənin isə həm vurduğu zərər aradan qaldırılmalı, həm də özü cəzalandırılmalı, yaxud qınanmalıdır.

İbn Rəcəb bu hədisi belə izah etmişdir: "İslam alimləri bu hədisdə zikr edilən iki ləfz, yəni "zərər vermək də olmaz, zərərin qarşılığını vermək də olmaz" sözlərinin mənası barədə ixtilaf etmişlər. Bəziləri bu iki ləfzin eyni mənada olduğunu demiş, sadəcə olaraq ikincisinin, birincisini təkid etdiyini bildirmişlər. Lakin məşhur rəy budur ki, bu iki ləfz arasında fərq var. Belə ki, ərəbcə "darar/zərər vermək" isimdir, "dirar/zərərin qarşılığını vermək" isə feildir. Şəriət bunların hər ikisini qadağan etmişdir. "Darar" adamın öz mənfəəti üçün başqasına zərər verməsidir, "dirar" isə adamın öz mənfəəti olmasa da, başqasına zərər yetirməsidir. Bu rəy İbn Abdulbərrin, İbnus-Salahın və başqalarının rəyidir. Bir çox alimlər də bu iki ləfzi belə izah etmişlər ki, "darar" adamın ona zərər vermədiyi bir kimsəyə zərər yetirməsidir, "dirar" isə adamın şəriətə müxalif şəkildə ona zərər vermiş kimsəyə zərər yetirməsidir. Hər bir halda Peyğəmbər ﷺ zərər verməyi də, haqsız olaraq zərərin qarşılığını verməyi də qadağan etmişdir. Lakin birisinin haqlı olduğu halda, özünə dəymiş zərərin qarşılığını

---

[1] Şərhul-Mumti alə Zadil-Mustəqnə, 8/299.

verməsi caizdir. Və əgər adam Allahın hüdudlarını keçməklə zərər yetirmişdirsə, vurduğu zərər qədər cərimə ödəməli, yox, əgər birisi özünə zülm etmişdirsə, məsələn: bədəninə xəsarət yetirmişdirsə, ədalətli şəkildə cəzalandırılmalıdır. Yəni, bu hədisdə zərərin qarşılığını vermək deyildikdə, haqsız olaraq ona qarşılıq vermək qəsd edilir. Bu da özü-özlüyündə iki qismə bölünür:

Birincisi budur ki, adamın başqasına zərər yetirməkdə məqsədi ancaq zərər yetirmək olsun. Bunun isə murdar və haram bir iş olmasında heç bir şübhə yoxdur. Quranda neçə-neçə ayədə bu növ zərər yetirmək qadağan edilir. Məsələn: "ən-Nisa" surəsinin 12-ci ayəsində vəsiyyətlə bağlı belə buyurulur: "*Bu bölgü, varislərə* zərər yetirməmək şərti ilə, vəsiyyətin yerinə yetirilməsindən və borcun ödənilməsindən sonra *aparılır*."

Haqsız olaraq zərərin qarşılığını verməyin ikinci qismi də budur ki, zərər yetirən adamın doğru və haqlı səbəbi olsun. Məsələn: adam öz xeyri üçün, sahib olduğu mülkünü qorumaq məqsədilə başqasına zərər yetirir, yaxud başqasının ona zərər yetirməsinin qarşısını alır."[1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, kim bilərəkdən və haqsızlıqla başqasına zərər yetirərsə, Allah ona bunun qarşılığını verər. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim başqasına zərər yetirərsə, Allah da ona zərər yetirər. Habelə, kim başqasını sıxıntıya salarsa, Allah da onu sıxıntıya salar."[2]

Bu hədislərdən bizə aydın olur ki, başqalarına zərər yetirməmək üçün, hər bir haqqı olan kimsənin haqqını layiqincə ödəmək

---

[1] Cami əl-Ulum vəl-Hikəm, 2/212-217.

[2] Mustədrək əl-Hakim, 2/57-58; Səhih əl-Cami, 6372.

lazımdır. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Salman əl-Farisi ؓ mömin qardaşı – Əbu Dərdaya ؓ belə nəsihət etmişdir: “Rəbbinin sənin üzərində haqqı vardır, nəfsinin sənin üzərində haqqı vardır, ailənin sənin üzərində haqqı vardır. Elə isə hər bir haqq sahibinin haqqını ödə.” Peyğəmbər ﷺ səhabəsinin bu sözünü eşitdikdə, onun sözünü təsdiqləyib demişdir: “Salman doğru söylədi.”[1] Demək, hər bir müsəlman, öz öhdəsinə düşən vəzifələri yerinə yetirməklə ilk əvvəl Allahın və Onun rəsulunun ﷺ, sonra da daha haqlı olanların haqqını ödəməlidir.

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

“Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik.”[2]

---

[1] “Səhih əl-Buxari”, 1968.

[2] Musnəd imam Əhməd, 5/243.

## Otuz üçüncü hədis

عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: "لَوْ يُعْطَى النَّاسُ بِدَعْوَاهُمْ لَادَّعَى رِجَالٌ أَمْوَالَ قَوْمٍ وَدِمَاءَهُمْ، لَكِنَّ الْبَيِّنَةَ عَلَى الْمُدَّعِي، وَالْيَمِينَ عَلَى مَنْ أَنْكَرَ".

حَدِيثٌ حَسَنٌ، رَوَاهُ الْبَيْهَقِيّ [في"السنن" ١٠/٢٥٢]، وَغَيْرُهُ هَكَذَا، وَبَعْضُهُ فِي "الصَّحِيحَيْنِ".

İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ buyurmuşdur: "Əgər insanların *istədikləri* onlara iddialarına görə verilmiş olsaydı, onda onların bir qismi digərlərinin qanını və malını iddia etmiş olardı. Lakin iddia edən şəxs dəlil-sübut gətirməli, bu iddianı inkar edən şəxs isə and içməlidir."

Bu, həsən hədisdir. Bu hədisi Beyhəqi[1] və başqaları bu ləfz ilə rəvayət etmiş. Hədisin bir hissəsi də Buxari və Muslimin "Səhih"lərində rəvayət edilmişdir.[2]

Bu hədis qərar vermək, hökm çıxarmaq və mübahisəli məsələləri həll etmək xüsusunda təməl sayılan hədislərdəndir.

Hədisdə deyilir ki, əgər insanların *istədikləri* onlara iddialarına görə verilmiş olsaydı, onda onların bir qismi digərlərinin qanını və malını iddia etmiş olardı. Yəni bu məsələdə hökm çıxarmaq sadəcə iddiaya bağlı olsaydı, o zaman cəmiyyətdə hərcmərclik

---

[1] Sunən əl-Beyhəqi, 10/252.

[2] Səhih əl-Buxari, 4552.

yaranar və Allahdan qorxmayan insanlar öz nəfslərinə uyaraq digərlərinin haqlarını tapdalayardılar. Belə ki, xəbis nəfs, nəyin bahasına olursa, olsun öz xeyrini əldən verməməyə və bu yolda başqasına zülm etməyə meyillidir.

Yaxşı bəs hədisdə: "qanını və malını iddia etmiş olardı" deyildikdə, nə qəsd edilir? Gəlin, buna dair misal çəkək ki, bu cümlə bizə aydın olsun. Məsələn: adam dəlil-sübutsuz: "Filankəs mənim atamı öldürüb, yaxud qardaşımı öldürüb" və başqa bu kimi sözlər deyərək qazıya şikayət edib, barəsində şikayət etdiyi adamdan qisas alınmasını, yəni onun qanının axıdılmasını tələb edir. Bir başqası da dəlil-sübutsuz iddia edir ki, filan torpaq sahəsi onundur və həmin torpaq sahəsinin ona qaytarılmasını tələb edir. Hər iki halda iddia edən tərəfdən dəlil-sübut tələb edilməli, dəlil-sübut olmadığı təqdirdə isə ittiham olunan şəxs bu iddianın yalan olmasına dair and içməlidir. Çünki Peyğəmbər ﷺ buyurmuşdur ki: "İddia edən şəxs dəlil-sübut gətirməli, bu iddianı inkar edən şəxs isə and içməlidir."

Qeyd etmək lazımdır ki, bu hədisdə, dəlil-sübutsuz qanın və malın iddia edilməsi sadəcə misal olaraq göstərilir. Yoxsa ki, qan və maldan başqa, başqa haqlar da var ki, onlar barədə olan iddialar da həmçinin, dəlil-sübuta söykənməlidir. Məsələn: əgər qadın ərinin onun haqqını ödəmədiyini iddia edərsə, iddiasını isbat etmək üçün dəlil-sübut gətirməlidir. Bu hədis dəlildir ki, İslam şəriəti insanların bütün haqlarını qoruyur.

Hədisdə Peyğəmbər ﷺ: "İddia edən şəxs dəlil-sübut gətirməlidir" deyir. Qeyd edək ki, hər hansı bir iddianı isbat etmək üçün

gətirilən əsas dəlillərdən biri şahidlərdir. Necə ki, borc vermək xüsusunda, "əl-Bəqərə" surəsinin 282-ci ayəsində buyurulur: "Aranızdakı kişilərdən iki nəfəri şahid tutun. Əgər iki kişi tapılmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını *şahid tutun* ki, *qadınlardan* biri unutduqda, o birisi onun yadına salsın." Həmçinin, "əl-Maidə" surəsinin 106-cı ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Sizlərdən birinə ölüm gəldiyi zaman, vəsiyyət əsnasında içinizdən iki ədalətli kişi aranızda şahidlik etsin. Səfərdə ikən başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən olmayan başqa iki kişini *şahid tutun*. Əgər *onlar barədə* şübhəyə düşsəniz, namazdan sonra hər ikisini saxlayın və qoy onlar: "Yaxın qohumların lehinə olsa belə, bu andı heç bir qiymətə satmarıq və Allahın şahidliyini gizlətmərik. Əks halda biz, şübhəsiz ki, günahkarlardan olarıq"– *deyə* and içsinlər." Həmçinin, Əşəs ibn Qeysin ﵁ rəvayət etdiyi hədisi də buna dəlil göstərmək olar. Əşəs ibn Qeys ﵁ demişdir: "Əmim oğlunun torpaq sahəsində mənə məxsus bir su quyusu var idi. Aramızda mübahisə düşdükdə Peyğəmbər ﷺ mənə: "Şahidlərini gətir!"– dedi. Mən: "Şahidim yoxdur"– dedim. Peyğəmbər ﷺ əmim oğlundan and içməyi tələb etdikdə, mən dedim: "Ya Rəsulullah, onun üçün heç bir təfavütü yoxdur. O, and içə bilər." Onda Peyğəmbər ﷺ dedi: "Kim bir müsəlmanı malından məhrum etmək üçün and içsə, Allahın hüzurunda olduğu zaman Allahın ona qəzəbi tutar." Uca Allah da Peyğəmbərin ﷺ dediyini təsdiq etmək üçün bu ayəni nazil etdi:[1] "Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan

[1] Səhih əl-Buxari, 4250.

kimsələrə gəlincə, onlara axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır."[1] Bu, "Ali-İmran" surəsinin 77-ci ayəsidir. Bu ayə yalandan Allaha and içməyin nə dərəcədə böyük günah olduğuna dəlalət edir. İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, Əbu Zərr رضي الله عنه demişdir: "Bir gün Peyğəmbər ﷺ dedi: "Üç qisim insan var ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaq. Üstəlik, onları üzücü əzab gözləyir." Sonra Peyğəmbər ﷺ "Ali-İmran" surəsinin 77-ci ayəsini oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxmış, özləri də ziyana uğramışlar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "*Libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını satan *kimsələr.*"[2] Bu hədisdən aydın başa düşülür ki, yalandan and içməklə dünya mənfəəti əldə etmək istəyən hər kəs, Qiyamət günü əzaba düçar olacaq."

İbn Rəcəb رحمه الله bu hədisi izah edərkən demişdir: "İddia edən kəsdən dəlil-sübut tələb edilməsinin səbəbi budur ki, bu adam zahirdə görünənin əksini iddia edir. İddia edilən məsələnin əsli isə olduğu kimi öz zahirində qalır."[3]

Bu hədisdə qəsd edilən budur ki, şəriət, haqq-ədaləti bərpa etmək üçün gəlmişdir. Bu isə yalnız dəlil-sübutlara baxıldıqdan və hakim hər iki tərəfi dinlədikdən sonra qərar verdikdə öz yerini

---

[1] Ali-İmran, 77.

[2] Səhih Muslim, 293.

[3] Cami əl-Ulum vəl-Hikəm, 2/230.

tapa bilər. Allahdan qorxan hakim öz rəyi və öz nəfsinin istəyi ilə yox, məhz dəlil sübuta əsaslanaraq hökm çıxarmalıdır. Əks halda beləsinin yeri Cəhənnəm olacaq. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qazılar üç qismdir: bunlardan ikisi cəhənnəmlik, biri isə cənnətlikdir. Nəfsinin istəyinə uyub hökm çıxaran qazı cəhənnəmə vasil olacaq. Həmçinin, dəlil-sübutsuz olaraq hökm çıxaran qazı da, cəhənnəmlik olacaq. Haqqı əsas tutaraq hökm çıxaran qazı isə cənnətlik olacaq."[1] Bu hədis, zalım qazıları və hakimləri Allahın əzabı ilə xəbərdar edən ən möhtəşəm hədislərdən biridir. Lakin qeyd etmək lazımdır ki, bəzən hakim hər iki tərəfi dinlədikdən və dəlil-sübutlara baxdıqdan sonra istəmədən yanlış qərar da verə bilər. Bu da, mübahisəçilərdən birinin dilli olduğuna və haqqa batil donu geyindirə bildiyinə görə, ya da ortadakı dəlil-sübutun saxta olduğuna görə baş verə bilər. Bu halda artıq hakim məsuliyyət daşımır, günah haqqa batil donu geyindirən tərəfin boynuna düşür. Bu xüsusda da Peyğəmbər ﷺ belə demişdir: "Mən sadəcə bir insanam. Hərçənd, mübahisələri düşmüş insanlar *öz mübahisələrini çözmək üçün* mənim yanıma gəlirlər, lakin olur ki, biriniz digərinizdən daha bəlağətlə danışır və mən də onun doğru danışdığını hesab edirəm. Bu səbəbdən də hökmü onun lehinə çıxarıram. Əgər mən *səhvən* bir müsəlmanın haqqını başqa birisinə verirəmsə, əslində, mən ona Cəhənnəm odundan bir parça vermiş oluram. *Bundan sonra isə özü bilər,* istər o od parçasını götürsün, istərsə də, onu tərk etsin."[2]

---

[1] Mustədrək əl-Hakim, 4/101-102; Səhih əl-Cami, 4447.

[2] Səhih əl-Buxari, 2458; 2680; Səhih Muslim, 1713.

Bu hədisdən aydın başa düşülür ki, hakimin yanlış qərar verməsi, haqlı olan tərəfin haqsız olduğunu isbat etmir. Haqlı olan tərəf elə haqlı olaraq da qalır və o, Qiyamət günü öz haqqını alacaq. Haqsız tərəf isə öz haqsızlığına və qarşı tərəfə zülm etdiyinə görə Cəhənnəm əzabına düçar olacaq. Çünki hədisdə Peyğəmbər ﷺ, beləsinə Cəhənnəm odundan bir parça verildiyini bildirir.

Bu hədislər hakimləri və qazıları, yalnız dəlil-sübut əsasında hökm çıxarmağa çağırır. Belə ki, hakim öz nəfsinin istəyinə görə yox, yalnız dəlil-sübuta asaslanaraq qərar çıxarmalıdır. Məsələn: əgər insanlar arasında tanınmış və nüfuzu olan bir adam əlində heç bir dəlil-sübutu olmadan qazıya desə ki, filan iş filan cürdü və qazı da sadəcə onun insanlar arasında etibarlı birisi olduğuna görə qərar verərsə, özünü yandırmış olar. Deməк, ədalətli hakim hər iki tərəfi dinləyib dəlil-sübutları araşdırdıqdan sonra qərar verməlidir. Bu xüsusda rəvayət edilmiş hədisdə Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ məni Yəmənə, qazılıq etməyə göndərmək istədikdə, mən dedim: "Ya Rəsulullah, sən mənim qazılıq etməyimi istəyirsən, halbuki mənim yaşım azdır, özümün də, qazılıqda təcrübəm yoxdur." Peyğəmbər ﷺ dedi: "Narahat olma, Allah sənin qəlbini haqqa tərəf yönəldəcək və sənin dilini haqq söz deməyə müvəffəq edəcək. Bir şərtlə ki, gərək sən hər iki tərəfi dinləyib sonra hökm verəsən, birinci mübahisəçiyə qulaq asdığın kimi, ikincisinə də qulaq asasan. Belə olduğu təqdirdə, sən onların arasında ədalətlə hökm verəcəksən." Bu rəvayətdən aydın başa düşülür ki, iki nəfərin arasında ədalətlə hökm vermək üçün, hər iki tərəfi dinləmək vacibdir.

Bu mövzuya dair bir incə məqama da toxunmaq lazımdır. Bu da, müsəlmanın Allahı və Onun rəsulunu ﷺ sevdiyini isbat etmək üçün dəlil-sübut gətirməsidir. Belə ki, əgər adam Allaha və Onun rəsuluna ﷺ olan sevgisində səmimi olduğunu isbat etmək istəyirsə, Rəsulullahın ﷺ yolunu tutub getməlidir Bu xüsusda "Ali-İmran" surəsinin 103-cü ayəsində belə buyurulur: "De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumu gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın." İbn Kəsir bu ayəni belə izah etmişdir: "Bu möhtəşəm ayə, Allahı sevdiyini iddia edən, lakin Muhəmmədin ﷺ yolunu tutub getməyən və onun sünnəsinə tabe olmayan hər kəsin iddiasının yalan olduğunu göstərir. Adam həm sözündə, həm də əməlində yalnız Muhəmmədin ﷺ şəriətinə və onun təbliğ etdiyi dinə tabe olmaqla, Allaha və Onun rəsuluna olan sevgisinin doğru olduğunu isbat edə bilər. Necə ki, İmam Buxari və Muslimin "Səhih"lərindəki rəvayətdə, Peyğəmbər ﷺ buyurur: "Hər kim bizim dinimizə zidd olan bir əməl edərsə, bu əməl rədd edilər."[1] Odur ki, Uca Allah buyurur: "De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumu gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın." Yəni belə etsəniz, sizin nail olmaq istədiyiniz sevgidən daha üstün və daha əzəmətli olanına, Allahın sizi sevməsinə nail olarsınız. Bəzi müdrik alimlər deyərlərmiş ki: "Sənin kimsəni sevməyin elə də əhəmiyyətli deyil, əhəmiyyətli olan budur ki, sən özün seviləsən."[2] Həmçinin, Həsən əl-Bəsri və digər sələflər demişlər: "Bir toplum insan Allahı

[1] Səhih Muslim, 1718.

[2] Təfsir İbn Kəsir, 1/359.

sevdiyini iddia etmiş, Allah da onları bu ayə ilə sınağa çəkmişdir.”

Sonda, Allahdan istəyimiz budur ki, haqqı haqq olaraq bizə göstərsin və bizi haqqa yönəltsin, habelə, batili batil olaraq bizə göstərsin və bizi ondan uzaq etsin!

Hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللهم إنَّا نَسألك كَلِمَةَ الحقّ في الغضبِ والرِّضا ))

“Allahım, həm qəzəbli olduğumuz, həm də razı qaldığımız halda haqq söz deməyi Səndən diləyirik!”[1]

(( اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ. اهْدِنَا لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ ))

“Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda bizi Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən.”[2]

---

[1] Sunən ən-Nəsai, 1305; Səhih İbn Hibban, 1971; Səhih əl-Cami, 1301.

[2] Səhih Muslim, 1/534.

## Otuz dördüncü hədis

عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "مَنْ رَأَى مِنْكُمْ مُنْكَرًا فَلْيُغَيِّرْهُ بِيَدِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِلِسَانِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِقَلْبِهِ، وَذَلِكَ أَضْعَفُ الْإِيمَانِ".

رَوَاهُ مُسْلِمٌ [رقم:٤٩].

Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Sizdən biriniz bir münkər görərsə, bunu əli ilə düzəltsin, bacarmazsa, dili ilə *düzəltsin*, bunu da bacarmasa, qəlbi ilə *buna nifrət etsin*, bu da imanın ən zəifidir."

Bu hədisi, İmam Muslim ﷺ öz "Səhih"ində rəvayət etmişdir.[1]

Bu hədisdə "münkər" deyildikdə, Allahın və Onun rəsulunun ﷺ qadağan etdiyi hər bir söz və ya əməl qəsd edilir. Qadağanın "münkər", yəni inkar edilən adlanmasının səbəbi budur ki, hər hansı bir qadağaya məhəl qoymayıb onu edən kimsəyə etdiyi əməl inkar edilir. Bu hədis, münkəri inkar etməyin mərhələlərini, üstəlik, münkəri inkar edən möminlərin dərəcələrini açıqlayır. Belə ki, onların bir qisminin imanda qüvvətli, bir qisminin zəif, bir qisminin də çox zəif olduğunu bildirir. Münkəri əl ilə dəyişmək ixtiyar sahiblərinə, onlarınköməkçilərinə və ümumiyyətlə buna qüdrəti çatan hər kəsə, hətta ailə başçısına belə aiddir.

---

[1] Səhih Muslim, 49.

Hədisdə “münkər görərsə” deyilir. Bundan aydın olur ki, münkəri inkar edəcək adam hər hansı bir qadağan edilmiş əməlin yerinə yetirildiyini gözü ilə görməli, yaxud hadisə barədə əlində doğru məlumat olmalıdır. Belə ki, dedi-qoduya və zənnə əsaslanaraq hər hansı bir əməli münkər hesab etmək olmaz. Və əgər adam bu münkəri əli ilə düzəltməyə qadir deyilsə, o zaman o günahı işlədən adama dili ilə nəsihət etməlidir. Bunu da edə bilməsə, qəlbi ilə o günaha nifrət etməlidir. Və əgər belə edərsə, artıq buna görə məsuliyyət daşımaz. Bu xüsusda “əl-Maidə” surəsinin 105-ci ayəsində belə buyururlur: “Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, *haqq yoldan* sapmış kimsələr sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allahadır. Və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir.”

Bu hədis dəlildir ki, insanları pis işlərdən çəkindirmək vacibdir və bu əməl İslam ümmətinin üstünlüklərindən sayılır. Necə ki, “Ali-İmran” surəsinin 110-cu ayəsində buyurulur: “Siz insanlar arasına çıxarılmış ən xeyirli ümmətsiniz; *onlara* yaxşı işlər görməyi əmr edir, onlara pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz.”

Bu hədisin möhtəşəmliyi həm də ondadır ki, ona əməl edən cəmiyyət və cəmiyyətdə yaşayanlar tez bir zamanda islah ola bilərlər.

Xüsusi ilə qeyd etmək lazımdır ki, münkər – yəni qadağan edilmiş bir əməl deyildikdə, açıq-aydın dəlilə əsasən, yəni Quran və Sünnədə qadağan edilən bir əməl olmalıdır. Yoxsa ki, bir əməli “filankəs onu münkər sayır” deyə münkər saymaq olmaz. Xüsu-

silə də barəsində qəti bir dəlil olmayan ictihadi məsələlərdə bir müctəhidin fitvası ilə hər hansı bir əməli münkər saymaq olmaz.

Hədisdə "Sizdən biriniz bir münkər görərsə, bunu əli ilə düzəltsin" deyilir. Vacib deyil ki, ixtiyar sahibi münkəri gördüyü zaman onu öz əli ilə düzəltsin. Əgər onun əmri ilə münkər aradan qaldırılarsa, o bunu öz əli ilə dəyişdirmiş sayılar.

Sonra hədisdə: "bacarmasa, dili ilə *düzəltsin*" deyilir. Yəni günah işlədən kimsəni qınamalı və o əməli ona qadağan etməlidir. Qeyd etmək lazımdır ki, münkəri dili ilə inkar edən adam bunu hikmətlə etməlidir. Necə ki, "ən-Nəhl" surəsinin 125-ci ayəsində buyurulur: "*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et." Belə etmək lazımdır ki, cahil insanlar haqqı qəbul etsinlər. Əks təqdirdə, yəni hikmətsizlik etdikdə onlar nəinki haqqı qəbul edər, hətta haqqı təhqir də edə bilərlər. Bu xüsusda "əl-Ənam" surəsinin 108-ci ayəsində belə buyurulur: "*Müşriklərin* Allahdan başqa tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq düşmənliklə Allahı söyərlər."

Hədisin bu cümləsindən ortaya belə bir sual çıxır: "Münkəri inkar etmək üçün məktub və ya kitab yazmaq da münkəri dillə dəyişməyə aiddirmi?"

Sualın cavabı budur ki, bəli, aiddir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Şam əhlindən olan əməlisaleh bir nəfər tez-tez Ömər ibn əl-Xattabın رضي الله عنه məclisinə gələrdi. Bir müddət sonra Ömər onun məclisdə iştirak etmədiyini görüb: "Filankəsin oğlu filankəs gözə dəymir?"– deyə soruşdu. Məclisdəkilər

ona: "Ey möminlərin əmiri, o, şərab içənlərə qoşulub"– dedilər. Onda Ömər ibn əl-Xattab ﷺ öz katibini çağırtdırıb ona belə bir məktub yazdırdı: "Ömər ibn əl-Xattabdan filankəsin oğlu filankəsə. Sənə salam olsun! Bundan sonra bil ki, mən səninlə birlikdə Allaha həmd edirəm. O Allah ki, Özündən başqa ibadətə layiq olan bir məbud yoxdur. O, günahları Bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan, lütf sahibidir! Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. Dönüş də Onadır." Sonra Ömər məclisdəkilərə dedi: "Qardaşınız üçün dua edin ki, onun qəlbi hidayətə yönəlsin və Allah onun tövbəsini qəbul etsin." Nəhayət, Ömərin məktubu həmin adama yetişdikdə, o bu məktubu oxuyub, "Ğafir" surəsinin 3-cü ayəsindəki sözləri təkrar-təkrar dedi: "Allah günahları Bağışlayan, tövbələri qəbul edən və cəzası şiddətli olandır! O, həm Öz əzabı ilə məni qorxudur, həm də günahımı bağışlayacağını mənə vəd edir." O, bu sözləri öz-özünə o qədər təkrar etdi ki, axırda ağlamağa başladı və etdiyi günahdan birdəfəlik əl çəkdi. Bu xəbər Ömərə ﷺ gəlib çatdıqda o dedi: "Həmişə belə edin! Qardaşınızın xətaya yol verdiyini gördüyünüz zaman onu islah etməyə çalışın, onu düz yola yönəldin, üstəlik, Allaha dua edin ki, onun tövbəsini qəbul etsin. Qardaşınıza qarşı çıxıb, şeytanın köməkçiləri olmayın!"[1]

Sonra şərh etdiyimiz hədisdə: "bunu da bacarmasa, qəlbi ilə *münkərə nifrət etsin*, bu da imanın ən zəifidir"– deyilir. Yəni həm nifrət etsin, həm onun aradan qalxmasını təmənna etsin.

---

[1] Təfsir ət-Təbəri, 24/27; Təfsir İbn Kəsir, 7/128; Hilyətul-Ovliya, 4/97.

Bu hədisdə ardıcıl olaraq filan şeyi bacarmasa filan şeyi etsin deyilməsi dəlildir ki, şəriət insana ancaq bacardığı işləri yerinə yetirməyi buyurur. Bu xüsusda "ət-Təğabun" surəsinin 16-cı ayəsində belə buyurulur: "Allahdan bacardığınız qədər qorxun!" Həmçinin, "əl-Bəqərə" surəsinin 286-cı ayəsində deyilir ki: "Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər." Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mən sizə nəyi qadağan edirəmsə, ondan çəkinin. Nəyi də əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin."[1] Bu dəlildir ki, hər bir mömin gördüyü münkəri əli ilə düzəltməli, bunu bacarmasa, onu dili ilə düzəltməli, onu da bacarmasa ona qəlbi ilə nifrət etməlidir. Hədisdə: "qəlbi ilə *münkərə nifrət etsin*" deyildikdə, meydana belə bir sual çıxır: "Adam, münkəri edən insanların yanında oturub, onların günah işlətdiklərini müşahidə etdiyi halda, qəlbi ilə bu münkərə nifrət edib, lakin həmin yeri tərk etməməsi, münkəri qəlb ilə inkar etməyə aiddirmi?" Sualın cavabı belədir ki, xeyir aid deyil. Belə ki, qəlbi ilə nifrət edən adam, günah işlənən yeri də tərk etməlidir. Yoxsa onların tayı hesab ediləcək və əgər bu halda ölərsə, onlarla bərabər həşr oluna bilər. Bu xüsusda "ən-Nisa" surəsinin 140-cı ayəsində belə buyurulur: "*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman, *kafirlər* başqa bir söhbətə keçməyincə, onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız." Həmçinin, "əl-Ənam" surəsinin 68-ci ayəsində belə buyurulur: "Ayələrimizi məsxərəyə qoyanları gördüyün za-

[1] Musnəd İmam Əhməd, 2/482.

man, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan *bunu* sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə bir yerdə oturma."

Bu məsələ ilə bağlı yenə bir sual yaranır: "Hər kəs öz ağlına və nəfsinin istəyinə görə, hər hansı bir əməlin münkər olduğunu deyib onu inkar edə bilərmi?" Sualın cavabı belədir ki, "Əlbəttə ki, yox!" Xüsusilə qeyd edək ki, bu xislət xəvariclərə xas olan xislətdir. Məhz onlar rəhbərləri və alimləri saymadan özbaşına qərar verib münkəri inkar etmək adı ilə özlərinin xoşuna gəlməyən əməlləri münkər adlandırır, münkəri edən adamlar barəsində öz başına hökm çıxarır və hətta bəzən cəza da tətbiq edirlər ki, bununla da cəmiyyətdə hərcmərclik yaradırlar.

Şərh etdiyimiz hədisdəki "münkəri qəlb ilə inkar etmək" dəlildir ki, imanın dərəcələri var və bu, onun ən zəifidir. İmam Muslimin "Səhih"indəki rəvayətdə xəbər verilir ki, bu, imanın ən aşağı şöbəsidir. Həmin rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Allahın məndən əvvəlki ümmətlərə göndərdiyi hər bir peyğəmbərin öz ümmətindən onun sünnəsinə sarılan və əmrlərinə tabe olan ən yaxın sirdaşları və səhabələri olmuşdur. Onların ardından isə etməyəcəkləri şeyləri danışan və əmr olunmadıqları işləri görən xələflər gəlmişdir *və gələcək də*. Kim bunlarla əli ilə mübarizə apararsa, *bilsin ki,* o, mömindir. Kim onlarla dili ilə mübarizə apararsa, o da mömindir. Kim onlara qəlbi ilə nifrət edərsə, o da mömindir. Ancaq bundan o yana imandan bir xardal dənəsi belə yoxdur."[1]

---

[1] Səhih Muslim, 50.

İbn Qeyyim əl-Covzi münkəri inkar etmək xüsusunda belə demişdir: "Münkəri inkar etməyin dörd yolu vardır:

Birincisi, münkərin aradan qaldırılması və yerinə sünnənin bərpa edilməsidir;

İkincisi, münkər tamamilə aradan qaldırılmasa da, onun qismən də olsa azalmasıdır;

Üçüncüsü, münkərin yerini, onun bənzərinin tutmasıdır;

Dördüncüsü də münkərin yerinə, ondan da pis münkərin gəlməsidir.

Bunlardan əvvəlki ikisini yerinə yetirmək vacib, üçüncüsü ictihadi məsələ, dördüncüsünü etmək isə haramdır."

İnsanlara yaxşı işləri əmr etmək və onları pis işlərdən çəkindirmək hamıya vacib deyildir. Və əgər bəzi adamlar alimlər, ziyalılar, ixtiyar sahibləri və s. bunu yerinə yetirsələr, yerdə qalanların üzərindən məsuliyyət götürülər. Yox əgər heç kəs buna qol qoymasa, Allahın qayda-qanunlarını yer üzündə tətbiq etməyə çalışmasa, əlində ixtiyar olan hər kəs günah qazanar və onlardan heç bir üzr qəbul edilməz. Demək, adam ərki çatdığı birisinin günah etdiyini gördüyü zaman bunu ona qadağan etməlidir. Məsələn: adam öz zövcəsinin, yaxud övladının, yaxud xidmətçisinin düz hərəkət eləmədiyini görsə, onu başa salmalı və bunun qarşısını almalıdır...

Alimlər demişlər ki: "Yaxşı işləri əmr edən və pis işlərdən çəkindirən adamın kamil insan olması, habelə əmr etdiyi şeyə özünün də əməl etməsi və qadağan etdiyi şeydən özünün də çəkinməsi şərt deyil, əksinə, ixtiyar sahibi yaxşı işləri əmr etməli və pis

işlərdən çəkindirməlidir.... Biləsiniz ki, yaxşı işləri əmr etmək və pis işlərdən çəkindirmək təkcə ixtiyar sahiblərinə aid deyildir, əksinə, bu, hər bir müsəlmanın öhdəsinə düşən bir işdir. Həmçinin qeyd etmək lazımdır ki, bu işi yalnız savadı olan şəxslər yerinə yetirməlidir. Namaz, oruc və başqa bu kimi vacibliyi hamıya bəlli olan, habelə zina etmək, içki içmək və başqa bu kimi haramlığı hamıya bəlli olan işlərdə xüsusi savadın olmasına lüzum yoxdur və hər bir müsəlman bu cür məsələlərdə alim sayılır. İncə və qəliz məsələlərə avam adamların münasibət bildirməsi və münkəri inkar etməsi isə yersizdir. Əksinə bunu etmək alimlərin öhdəsinə düşür...

Günah işlər və yaramaz əməllər çoxaldığı zaman ağıllı adamlar zalımları pis əməllərdən çəkindirməsələr, Allahın göndərdiyi bəla hamını bürüyər. Bu xüsusda "əl-Ənfal" surəsinin 25-ci ayəsində belə buyurulur: "Elə bir bəladan qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz *hamınızı bürüyər*. Bilin ki, Allah şiddətli cəza verəndir."

Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Allahın qoyduğu hüdudları qoruyanların və onu aşanların halı, gəmiyə minmək üçün püşk atdıqdan sonra bir qismi gəminin göyərtəsinə, digərləri də gəminin aşağı mərtəbəsinə yerləşmiş bir toplumun halına bənzəyir. *Onlar dənizdə olduqları zaman* aşağıdakılar su istədikdə gəminin göyərtəsinə qalxıb yuxarıdakıların arasından keçir *və onları narahat edirlər.* Onda aşağıdakılar deyirlər: "Gəlin, gəmini deşib buradan su götürək və yuxarıdakılara əziyyət verməyək." Əgər yuxarıdakılar onların özbaşınalıq etməsinə göz yumsalar, *gəmi ba-*

*tacaq və* hamısı həlak olacaq; yox əgər bunun qarşısını alsalar, onda həm özləri, həm də aşağıdakılar xilas olacaqlar."[1]

Şərh etdiyimiz hədis dəlildir ki, iman artır və azalır. İmanın artıb azalması barədə on üçüncü hədisin şərhində ətraflı danışmışıq. Xüsusi olaraq qeyd etmək lazımdır ki, qəlbi ilə inkar etməyən kimsə, imandan kənara çıxmır, yəni kafir olmur, sadəcə imanı olduqca zəifləyir.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ احْفَظنَا بالإِسْلاَمِ قائِماً، واحْفَظنَا بالإِسْلاَمِ قاعِداً، واحْفَظنَا بالإِسْلاَمِ راقِداً، ولا تُشْمِتْ بِنَا عَدُوّاً ولا حاسِداً، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خزائِنُهُ بِيَدِكَ، ونَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ ))

"Allahım, bizi həm ayaq üstə olduğum zaman, həm oturduğumuz, həm də uzandığım vəziyyətdə İslam dini ilə mühafizə et. Düşməni və paxılı bizə qarşı sevindirmə. Allahım, xəzinəsi Sənin Əlində olan hər bir xeyri Səndən istəyir və xəzinəsi Sənin Əlində olan hər bir şərdən Sənə sığınırıq!"[2]

---

[1] Səhih əl-Buxari, 2493.

[2] Mustədrək əl-Hakim, 1/525; Silsilə əl-Əhadis əs-Səhihə, 1540-cı hədis.

## Otuz beşinci hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ "لَا تَحَاسَدُوا، وَلَا تَنَاجَشُوا، وَلَا تَبَاغَضُوا، وَلَا تَدَابَرُوا، وَلَا يَبِعْ بَعْضُكُمْ عَلَى بَيْعِ بَعْضٍ، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا، الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ، لَا يَظْلِمُهُ، وَلَا يَخْذُلُهُ، وَلَا يَكْذِبُهُ، وَلَا يَحْقِرُهُ، التَّقْوَى هَاهُنَا، وَيُشِيرُ إِلَى صَدْرِهِ ثَلَاثَ مَرَّاتٍ، بِحَسْبِ امْرِئٍ مِنْ الشَّرِّ أَنْ يَحْقِرَ أَخَاهُ الْمُسْلِمَ، كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرَامٌ: دَمُهُ وَمَالُهُ وَعِرْضُهُ".

رَوَاهُ مُسْلِمٌ [رقم: ٢٥٦٤].

Əbu Hureyra ﷺ rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Bir-birinizə həsəd aparmayın, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin, biriniz digərinizin alveri üstündən alver etməsin. Ey Allahın qulları, qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz qoymaz, (ona yalan danışmaz) və onu alçaltmaz.” Peyğəmbər ﷺ qəlbinə işarə edərək üç kərə: “Təqva, bax buradadır”– deyə təkrar etdi. Sonra o, *davam edib* dedi: “Adamın şər əməl sahibi olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər. Müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır.”

Bu hədisi, İmam Muslim öz “Səhih”ində rəvayət etmişdir.[1]

---

[1] Səhih Muslim, 2564.

Qeyd etmək lazımdır ki, İmam Muslimin "Səhih"ində, yəni bu hədisin orijinalında (( لا يَكْذِبُهُ )) "ona yalan danışmaz" sözü rəvayət edilməyib. Bu söz, İmam Nəvəvinin 40 hədisini nəql etmiş ravilərin xətasıdır. Lakin bu söz İmam Tirmizinin rəvayət etdiyi hədisdə öz təsdiqini tapıb. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlman müsəlmanın qardaşıdır, ona xəyanət etməz, ona yalan danışmaz və onuköməksiz qoymaz. Müsəlmanın hər şeyi – namusu, malı və qanı digər müsəlmana haramdır." Peyğəmbər ﷺ *qəlbinə işarə edərək*: "Təqva, bax buradadır"– dedi. Sonra o, *davam edib* dedi: "Adamın şər əməl sahibi olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər."[1]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ müsəlmanlara beş şeyi qadağan edir.

Birincisi, müsəlmana həsəd aparmaqdır. İbn Teymiyyə رحمه الله həsədə belə tərif vermişdir: həsəd: Allahın birisinə nemət verməsinə hirslənməkdir. Şeyxulislam həmçinin, demişdir: "Həsədsiz insan olmur, lakin alicənab və əxlaqlı olan onu gizlədir, alçaq və əxlaqsız isə onu büruzə verir."[2] İbn Teymiyyə demək istəyir ki, həsəd, nəcib müsəlmanı nanəcib müsəlmandan fərqləndirir. Həsəd insanın qəlbini sərtləşdirərək onu insafsız edir ki, nəticədə o xeyirxah işlər görməkdən çəkinir.

Həsədin üç növü var:

Birincisi budur ki, adam başqasının ondan üstün olduğunu qəbul etməklə onun kimi olmağı təmənna edir. Bu cür həsəd etmək cazidir. Buna, həmçinin, qibtə də deyilir.

---

[1] Sunən ət-Tirmizi, 1927; bu, səhih hədisdir. Bax: İrvaul-Ğəlil, 2450.

[2] Məcmu Fətavə, 10/124-125

İkincisi növü budur ki, adam başqasına nemət verilməsini xoşlamır, lakin bu nemətin onun əlindən alınmasını da təmənna etmir və həsədini boğmağa çalışır. Bu xislət, öz sahibinə zərər yetirməsə də, digəri ondan üstün sayılır.

Üçüncü növü də budur ki, adam başqasına nemət verilməsini istəməməklə yanaşı, bu nemətin onun əlindən alınmasını da təmənna edir. Həsədin bu növü haram sayılır və bunu edən böyük günah qazanır. Həqiqətən də, həsəd insanı günaha batıran xəbis bir xislətdir. Məhz həsəd üzündən İblis Adəmə عليه السلام səcdə etməyə təkəbbürlük göstərmiş və buna görə də kafir olmuşdur. Yer üzündə ilk qətl hadisəsi həsəd üzündən baş vermişdir. Adəmin عليه السلام oğlanlarından biri digərini məhz həsədi üzündən öldürmüşdür. Məhz həsədləri üzündən Yusufun عليه السلام qardaşları onu quyuya atmışlar. Kitab əhli də məhz həsədləri üzündən müsəlmanlara pislik etmək istəyirlər. Bu xüsusda "əl-Bəqərə" surəsinin 109-cu ayəsində xəbər verilir ki: "Kitab əhlindən bir çoxu haqq özlərinə bəlli olduqdan sonra içlərindəki həsəd üzündən sizi, imanınızdan sonra kafirliyə qaytarmaq istərlər."

Hədisdə qadağan edilən ikinci əməl müsəlmanla rəqabət aparmaqdır. Kələk gəlmək, hiylə qurmaq və aldatma yolu ilə ticarət etmək. Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir-birinizə kələk gəlmək məqsədilə malın qiymətini qaldırmayın"[1] İbn Useymin رحمه الله bu cümləni belə izah etmişdir: "Müştəriyə zərər vermək, yaxud mal satan adama xeyir vermək və ya hər ikisini etmək məqsədilə malın qiymətini qaldırmaq. Məsələn: adam bazar-

[1] Səhih əl-Buxari, 6066; Səhih Muslim, 3563.

da öz malını satır, yanındakı dostu isə o malı almaq istəyən müştərinin yanında həmin mala daha çox pul təklif edir, məqsədi də o malı almaq yox, sadəcə malın qiymətini qaldırmaq və dostunun qazancını artırmaq olur. Beləliklə də o, satıcı ilə əlbir olub müştəriyə zərər yetirmiş olur. Yaxud müştəri ilə arasında olan ədavətə görə mala daha çox pul təklif edir ki, onu ziyana salsın. Və ya mala daha çox pul təklif etməklə özündə olan eyni malın qiymətini qaldırmaq istəyir. Ya da malın qiymətini qaldırmaqda məqsədi bu olur ki, insanlar onun barəsində: "Filankəs malının qiymətini qaldırır, filankəs sərvət sahibidir, əsl tacirdir"– desinlər."[1]

Hədisdə qadağan edilən üçüncü əməl müsəlmana nifrət etməkdir. Əslində müsəlman müsəlmanın özünə yox, əgər onun günahı varsa, sadəcə o günaha nifrət etməlidir. Peyğəmbərin ﷺ müsəlmanlara bir-birinə nifrət etməyi qadağan etməsi, həm nifrətə, həm də qəlbdə nifrət oyadan hər bir səbəbə aiddir. Yəni özünü müsəlman sayan kəs müsəlman qardaşına nifrət oyadan hər bir səbəbdən çəkinməlidir. Bəzi şərhçilər bu hədisi izah edərkən demişlər ki, Peyğəmbərin ﷺ "bir-birinizə nifrət etməyin!" sözü bidət etməyin qadağan edilməsinə dəlalət edir. Belə ki, adam bidət etdikdə digərləri ona nifrət edir. Demək, Sünnəyə riayət etmək müsəlmanlar arasında sevgi yaradır, onları bir-birinə qardaş edir, bidət etmək isə onları parçalayır və bir-birinə düşmən edir. Odur ki, Peyğəmbərin ﷺ sünnəsinə riayət edənlər "Əhlus-Sünnəti vəl-Cəmaə", yəni Sünnəyə riayət edib camaat olanlar, Peyğəmbərə

---

[1] Şərhul-Mumti alə Zadil-Mustəqnə, 8/299.

ﷺ müxalif olanlar isə "Əhlul-Bidəti vəl-Furqa", yəni bidət edib firqələrə bölünənlər adlanırlar.

Hədisdə qadağan edilən dördüncü əməl müsəlmana arxa çevirməkdir. Burada arxa çevirmək deyildikdə, müsəlmandan əlaqəni kəsmək, ona salam verməmək və onu tərk etmək qəsd edilir. Başqa bir hədisdə Rəsulullah ﷺ bu əməlin haram olduğunu bildirib demişdir: "Heç bir müsəlmana üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalması, qarşı-qarşıya gəldikdə, bunun *ondan* üz çevirməsi, onun da *bundan* üz çevirməsi halal deyildir. Onların ən xeyirlisi salamı birinci verib *sözə* başlayanıdır."[1] Digər bir hədisdə isə Rəsulullah ﷺ, müsəlman qardaşı ilə barışmaq istəməyən və bu cür küsülü halda öləcək müsəlmanları təhdid edib demişdir: "Əgər küsülü olduqları halda ölsələr, Cənnətdə əsla bir yerdə olmazlar."[2] Yenə bir hədisdə o, demişdir: "Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqələri kəsmək halal olmaz. Hər kim üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalar və belə halda ölərsə, Cəhənnəm oduna girər."[3]

Hədisdə qadağan edilən beşinci əməl müsəlmanın alveri üstündən alver etməkdir. Gəlin, buna dair bir misal çəkək ki, bu qadağa bizə aydın olsun. İki müsəlman, satıcı və müştəri öz aralarında bir malın qiymətini razılaşdırarkən, hələ razılığa gəlməmişdən əvvəl, başqa birisi kənardan müdaxilə edib müştəriyə eyni malı daha ucuz qiymətə satdığını deməklə, həmin malı ondan almamağı təklif edir.

---

[1] Səhih əl-Buxari, 6077, Səhih Muslim, 2560.

[2] Musnəd İmam Əhməd 4/20; Səhih Tərğib vət-Tərhib, 2759.

[3] Sunən Əbu Davud, 4914; Səhih əl-Cami, 7659.

Sonra hədisin davamında Peyğəmbər ﷺ buyurur: Ey Allahın qulları, qardaş olun!" Bu cümlə iki mənadan birini ifadə edə bilər.

Birincisi budur ki, bu, əmr yox, xəbər mənasında işlənib. Yəni, ey Allahın qulları, əgər bir-birinizə həsəd etməsəniz, bir-birinizlə rəqabət aparmasanız, bir-birinizə nifrət etməsəniz, bir-birinizə arxa çevirməsəniz və biriniz digərinizin alveri üstündən alver etməsə, qardaş olacaqsınız.

İkinci mənası da budur ki, bu yaramaz əməllərdən uzaq durun ki, qardaş olasınız.

Bu mənaların hər ikisi səhih sayılır.

Sonra hədisdə Peyğəmbər ﷺ: "Müsəlman müsəlmanın qardaşıdır"– deyir. Peyğəmbərin ﷺ bu sözündən aydın başa düşülür ki, qardaş olmaq üçün mömin olmaq lazımdır. Əlbəttə ki, yalnız möminlər bir-birilərinə qardaşdırlar. Bu xüsusda "əl-Hucurat" surəsinin 10-cu ayəsində deyilir: "Möminlər, həqiqətən də, qardaşdırlar." Həmçinin, "ən-Nisa" surəsinin 144-cü ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Möminləri qoyub kafirləri *özünüzə* dost tutmayın." Həmçinin, "əl-Furqan" surəsinin 27-ci, 28-ci və 29-cu ayələrində belə buyurulur: "Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcək: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı." Həmçinin, "əl-Muminun" surəsinin 101-ci ayəsində deyilir: "Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar." "əl-Mucadilə" surəsnin 22-ci ayəsində belə buyurulur: "Allaha və Axirət

gününə iman gətirən elə bir toplum görə bilməzsən ki, onlar Allaha və Onun Rəsuluna düşmən olanlarla dostluq etsinlər. Bunlar onların ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə.” Bu ayələrdən aydın başa düşülür ki, qardaşlıq, yalnız iman qardaşlığıdır.

Burada “qardaşlıq” deyildikdə, Allah rizasını qazanmaq üçün qurulan qardaşlıq qəsd edilir. Qeyd edək ki, bu qardaşlıq ən əzəmətli qardaşlıq hesab edilir. Nə çox özlərini mömin sayanlar var ki, mömin qardaşlarının haqlarını layiqincə ödəmirlər. Beləlləri necə əsl mömin sayıla bilərlər?! Halbuki Peyğəmbər ﷺ demişdir: “Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, *bədənin* bir əzasına xəstəlik üz verdikdə bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir.”[1] Başqa bir hədisdə isə Peyğəmbər ﷺ: “Möminlər bir bina kimidirlər, bir-birini dəstəkləyirlər”– dedi, sonra da barmaqlarını bir-birinə keçirtdi.”[2]

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ müsəlmanın müsəlman üzərində olan haqlarından bəzilərini sadalayır. Peyğəmbərin ﷺ bu hədisdə sadaladığı haqlar, həqiqətən də, əzəmətli haqlardır. Müsəlman müsəlmana zülm etməməli, onu köməksiz qoymamalı, ona yalan danışmamalı və onu alçaltmamalıdır. Zülm haqqında 24-cü hədisin şərhində ətraflı danışmışıq. Müsəlmanı köməksiz qoymaq isə o deməkdir ki, müsəlmana kömək etmək vacib oldu-

[1] Səhih əl-Buxari, 6011.

[2] Səhih əl-Buxari, 6027.

ğu məqamda, üstəlik, buna imkan olduğu halda ona kömək etmək onun haqqıdır. Xüsusilə də məzluma kömək etmək müsəlmanın öhdəsinə düşən haqlardandır. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ *səhabələrinə:* "İstər zalım, istərsə məzlum olsun *din* qardaşına kömək et!"– deyə buyurmuş. Səhabələri ondan: "Ya Rəsulullah, məzluma kömək etməyi başa düşdük. Bəs, zalıma necə kömək etməliyik?"– deyə soruşduqda, Peyğəmbər ﷺ onlara belə cavab vermişdir: "Əlindən tutub saxlamaqla!"[1]

Sonra şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ yalan danışmağı qadağan edir. Yalan danışmaq, həqiqətən də, böyük günahdır. Bu haqda əvvəlki hədislərin şərhində ətraflı danışmışıq.

Bu hədisdə Peyğəmbərin ﷺ qəlbinə işarə edərək: "Təqva, bax buradadır" deməsi dəlildir ki, təqvanın yeri qəlbdir. Bu xüsusda "əl-Həcc" surəsinin 32-ci ayəsində belə buyurulur: "Hər kim Allahın ayinlərinə hörmət etsə, *bilsin ki,* bu, qəlblərin təqvasındandır." Təqvanın mənası, onun tərifi və fəziləti barədə, on səkkizinci hədisi şərh edərkən ətraflı danışmışıq. Peyğəmbər ﷺ müsəlmanlara təqvalı olmağı, yəni Allahdan qorxmağı xatırladır ki, onlar sadaladığı yaramaz xislətlərdən uzaq dursunlar. Çünki insanlar məhz təqva sayəsində bir-birindən üstün sayılırlar. Bu xüsusda da "əl-Hucurat" surəsinin 13-cü ayəsində belə buyurulur: "Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Allahdan* ən çox qorxanınızdır." Peyğəmbərin ﷺ bu sözündən bizə o da aydın olur ki, əgər qəlb düzələrsə, əməllər də düzələr. Peyğəmbərin ﷺ əli ilə qəlbi-

---

[1] Səhih əl-Buxari, 2444.

nə işarə etməsində də, hikmət var. Belə ki, bəzən adamın əli ilə işarə edərək dediyi söz daha çox təsirli olur. Hərçənd, Peyğəmbər ﷺ: "Təqva, qəlbdədir" deyə bilərdi, lakin o, qəlbinə işarə edir ki, dediyi söz daha təsirli olsun. Burada Peyğəmbər ﷺ demək istəyir ki, əgər adamın qəlbində Allah qorzusu olarsa, onun zahiri əməlləri də düzələr və heç bir müsəlmana pislik etməz, xüsusən də onun canına, malına və namusuna toxunmaz. Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, insanın zahiri əməli, onun qəlbinin necəliyindən xəbər verir. Bu söz, günah işlər görən və "qəlbim təmizdir" deyən adamların yanlış fikirdə olduqlarını göstərir. Onların yanlış fikirdə olduqlarını isbat etmək çox asandır. Deyirsən ki, əgər qəlbində Allah qorxusu olsa, əməllərin də təmiz olar. Heç eşitmisinizmi ki, haram işlər görən adama: "Filankəs təmiz adamdır"- desinlər. Əlbəttə ki, yox! Deməli, haram işlər görən və asilik edən adam qəlbinin təmiz olduğunu iddia etsə də, onun zahiri əməlləri, qəlbinin xarab olduğunu bildirir.

Sonra Peyğəmbər ﷺ davam edib buyurur ki, adamın şər əməl sahibi olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər. Yəni, günah qazanması üçün ona həqarət etməsi yetər. Bir müsəlmanın kasıb və ya savadsız olduğuna görə ona həqarət etmək, həqiqətən də böyük günahdır. Və ola bilsin ki, həqarət edilən kimsə həqarət edən kimsədən üstün sayılsın. Necə ki, "əl-Hucurat" surəsinin 11-ci ayəsində buyurulur: "Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar*. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar." Həmçinin, hə-

disdə Peyğəmbər ﷺ demişdir: “Ola bilsin ki, saçları dağınıq, üst-başı toz-torpaq içində olan, özünün də izar və ridasından, (yəni bədənin yuxarı və aşağı hissəsini örtən libasından) başqa bir geyimi olmayan, insanların dəyər vermədiyi bir kasıb, Allahın adı ilə Ona yalvarsın, Allah da ona istədiyini versin.”[1]

Sonra şərh etdiyimiz hədisdə deyilir ki, müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır. Bu da Peyğəmbərin ﷺ İslam ümmətinə olan ən mühüm vəsiyyətlərindəndir. Peyğəmbər ﷺ vida həccində müsəlmanlara belə buyurmuşdur: “Həqiqətən, sizin qanınız, malınız və namusunuz, bu ayınızda və bu şəhərinizdə, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır.” Peyğəmbər ﷺ demək istəyir ki, müsəlmanın digər müsəlmanın qanını tökməsi, malına və ya namusuna təcavüz etməsi haramdır.

Sonda Allahdan istəyimiz budur ki, haqqı haqq olaraq bizə, göstərsin və bizi haqqa yönəltsin, habelə, batili batil olaraq bizə göstərsin və bizi ondan uzaq etsin!

Hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللهم إنَّا نَسألك كَلِمَةَ الحقّ في الغضبِ والرِّضا ))

“Allahım, həm qəzəbli olduğumuz, həm də razı qaldığımız halda haqq söz deməyi Səndən diləyirik!”[2]

---

[1] Səhih Muslim, 2622.

[2] Sunən ən-Nəsai, 1305; Səhih İbn Hibban, 1971; Səhih əl-Cami, 1301.

# Otuz altıncı hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: "مَنْ نَفَّسَ عَنْ مُؤْمِنٍ كُرْبَةً مِنْ كُرَبِ الدُّنْيَا نَفَّسَ اللَّهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَامَةِ، وَمَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ، يَسَّرَ اللَّهُ عَلَيْهِ فِي الدُّنْيَا وَالْآخِرَةِ، وَمَنْ سَتَرَ مُسْلِما سَتَرَهُ اللهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ ، وَاللَّهُ فِي عَوْنِ الْعَبْدِ مَا كَانَ الْعَبْدُ فِي عَوْنِ أَخِيهِ، وَمَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللَّهُ لَهُ بِهِ طَرِيقًا إلَى الْجَنَّةِ، وَمَا اجْتَمَعَ قَوْمٌ فِي بَيْتٍ مِنْ بُيُوتِ اللَّهِ يَتْلُونَ كِتَابَ اللَّهِ، وَيَتَدَارَسُونَهُ فِيمَا بَيْنَهُمْ؛ إلَّا نَزَلَتْ عَلَيْهِمْ السَّكِينَةُ، وَغَشِيَتْهُمْ الرَّحْمَةُ، وحَفَّتهُمُ الملائِكة، وَذَكَرَهُمْ اللَّهُ فِيمَنْ عِنْدَهُ، وَمَنْ أَبَطَأَ بِهِ عَمَلُهُ لَمْ يُسْرِعْ بِهِ نَسَبُهُ".

رَوَاهُ مُسْلِمٌ [رقم:٢٦٩٩] بهذا اللفظ.

Əbu Hureyra ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim bir mömini dünya sıxıntılarından birindən qurtararsa, Allah onu Qiyamət gününün sıxıntılarından birindən qurtarar. Kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah onun dünya və axirətdəki işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyblərini örtərsə, Allah, həm bu dünyada, həm də axirətdə onun eyblərini örtər. Adam mömin qardaşının köməyində durduqca, Allah da ona kömək edər. Kim elm öyrənmək üçün yola düşərsə, Allah onun sayəsində onun Cənnətə gedən yolunu asanlaşdırar. *Hər hansı* bir camaat Allahın evlərindən birində yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzəri-

nə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər. Kimin də əməli onu alçaldarsa, nəsəbi onu ucalda bilməz."

Bu hədisi İmam Mislim ﷺ öz "Səhih"ində rəvayət etmişdir.[1]

Bu hədisdə Peyğəmbər ﷺ mömin adamın yerinə yetirəcəyi beş möhtəşəm əməli və onun həm bu dünyada, həm də axirətdə əməllərinin əvəzini alacağını vurğulayır. Məgər yaxşılığın əvəzi ancaq yaxşılıq deyilmi? Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Rəhm edənlərə, Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki *Allah* sizə rəhm etsin."[2]

Şərh etdiyimiz hədis dəlildir ki, əməlin mükafatı və ya cəzası, həmin əməlin cinsindən olur. Yəni yaxşı əməlin, əvəzi yaxşı, pis əməlin əvəzi isə pis olur. Belə ki, kim bir möminin sıxıntısını aradan qaldırsa, onun eyblərini gizlətsə və ona kömək etsə, Allah da onun bütün sıxıntılarını aradan qaldırar, onun eyiblərini örtər və ona daim kömək göstərər. Kim də əksinə, bir mömini sıxıntıya salar, onun eyblərini hər tərəfə yayar və ona ehtiyacı olduğu işlərdə kömək etməzsə, Allah da onu sıxıntıya salar, onun eyiblərini aşkara çıxarar və ona kömək etməz. Bu hədisdə Peyğəmbər ﷺ beş xeyirli əməl barədə xəbər verir.

Bu əməllərin birincisi budur ki, kim bir möminin dünya həyatındakı bir sıxıntısını aradan qaldırarsa, Allah da onun Qiyamət

---

[1] Səhih Muslim, 2699.

[2] Sunən Əbu Davud, 4941; Sunən ət-Tirmizi, 1/350; Musnəd İmam Əhməd, 2/160; Silsilətul-Əhadisis-Səhihə, 925.

günü çəkəcəyi sıxıntılarından birini aradan qaldırar. Bu da o deməkdir ki, mükafat və ya cəza, əməlin cinsindən olur. Yəni adam etdiyi əməlin əvəzini alacaq. Hərçənd, hədisdə zikr edilən dünya sıxıntısı ilə axirət sıxıntısı kəlmələri mənaca eynidir, lakin onların dərəcəsi fərqlidir. Əlbəttə ki, axirət sıxıntısı daha şiddətli olacaq. Demək, mömin adamın dünyada etdiyi bu yaxşılığa görə axirətdə qazanacağı savabı daha böyük olacaq. Xüsusi olaraq qeyd edək ki, hədisdə dünya sıxıntıları deyildikdə təkcə dünyəvi işlər yox, həm də dinə aid işlərdəki sıxıntılar da nəzərdə tutulur. Yəni mömin adam, həm dünyaya, həm də dinə aid işlərdə mömin qardaşının sıxıntılarını aradan qaldırmağa səy göstərməlidir.

Bu hədisdə insanların haqq-hesaba çəkilmək üçün məhşərə toplanacaqları gün – Qiyamət günü zikr edilir. Qiyamət kəlməsi ərəbcə "qamə-yəqumu/qalxmaq" feilindən əməl gəlmiş isimdir. Həmin günün Qiyamət adlandırılmasının üç səbəbi var:

Birincisi budur ki, həmin gün insanlar qəbirlərindən qalxıb Allahın hüzuruna toplanacaqlar. Bu xüsusda "əl-Mutaffifin" surəsinin 6-cı ayəsində belə buyurulur: "O gün ki, insanlar qalxıb aləmlərin Rəbbinin qarşısında duracaqlar."

Həmin günün Qiyamət adlandırılmasının ikinci səbəbi budur ki, o gün şahidlər şahidlik etmək üçün ayağa qalxacaqlar. Bu xüsusda da "Ğafir" surəsinin 51-ci ayəsində belə buyurulur: "Heç şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik."

O günün Qiyamət adlandırılmasının üçüncü səbəbi də budur ki, həmin gün ədalət tərəziləri qurulacaq. Bu xüsusda da "əl-Ənbiya" surəsiin 47-ci ayəsində belə buyurulur: "Biz Qiyamət günü ədalət tərəzilərini qoyacaq və heç kesə heç bir şeydə zülm edilməyəcək."

Sonra hədisdə deyilir ki, kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah da onun dünya və axirətdəki işlərini asanlaşdırar. Burada borclu adamın işini asanlaşdırmaq deyildikdə, ona borcunu qaytarmaqda kömək etmək qəsd edilir. Bu köməyin özü də iki qismə bölünür: Kömək etmək istəyən adam ya borcu olan adama müəyyən qədər pul verməklə ona borcunu qaytarmağa kömək edir, ya da əgər adam onun özünə borcludursa, o zaman ona möhlət verməklə və ya bu borcu ona keçməklə ona kömək edir. Necə ki, "əl-Bəqərə" surəsinin 280-ci ayəsində buyurulur: "Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin. Bilsəniz *borcu* sədəqə olaraq ona bağışlamağınız sizin üçün nə qədər xeyirlidir!"

Hədislərin birində Rəsulullah ﷺ demişdir: "Sizdən əvvəl yaşamış insanlardan birisi haqq-hesaba çəkildi, lakin xeyirli bir iş gördüyü aşkar olunmadı. O, sadəcə insanlarla ünsiyyətdə olan zəngin bir adam olmuşdu. Bu adam öz xidmətçilərinə, borcunu qaytara bilməyən kimsəni bağışlamağı buyurarmış. Allah ﷻ da: "Biz bu adamı bağışlamağa ondan daha çox layiqik"– deyə buyurmuş və onu bağışlamışdır."[1]

[1] Səhih Muslim, 1561.

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ borclu olan adama kömək edən kimsənin işlərinin həm bu dünyada, həm də axirətdə asanlaşdırılacağını xəbər verir. Hədisə diqqət yetirsək görərik ki, bir mömінin dünya sıxıntısını aradan qaldıran adam öz mükafatını yalnız axirətdə alacaq, borclu olan adama köməklik göstərən mömin isə öz mükafatını həm bu dünyada, həm də axirətdə alacaq.

Bu mövzudan danışarkən belə bir sual yaranır: "Bu günkü gün nə çox dələduz var ki, mömінin safürəkliliyindən istifadə edib, yalandan çətin vaziyyətdə olduğunu və aldığı borcu qaytara bilmədiyini deyir, mömin adam da ona inanır. Halbuki, adam borcu qaytarmamaq üçün hiylə işlədir. Belə olduğu halda nə etmək lazımdır?" Sualın cavabı belədir ki, bu günkü gün belə dələduzlar borcu qaytarmamaq üçün yalan da danışa bilər, yalançı şahidlər də gətirə bilərlər. Lakin mömin adam gözüaçıq və tədbirli olmalıdır. Əvvəla borc verdikdə, kimə borc verdiyini götür-qoy etməlidir. İkincisi, borclu olan adamın vəziyyətini dəqiqləşdirməli və əgər doğrudan da adam çətin vəziyyətdədirsə, ona möhlət verməli, yox, əgər borcu qaytarmağa imkanı varsa, o halda ondan borcunu tələb etməlidir.

Sonra hədisdə deyilir ki, kim bir müsəlmanın eyiblərini örtərsə, Allah, həm bu dünyada, həm də axirətdə onun eyblərini örtər. Qeyd etmək lazımdır ki, bu xüsusda insanlar iki qismə bölünür:

Birinci qism o kəslərdir ki, onların fasiq əməllər etdiyi məlum deyil, əksinə hamı onları əməlisaleh insan kimi tanıyır. Beləlәri

günah iş gördükdə onların eyiblərini gizlətmək vacib, onu ifşa etmək isə haramdır.

İkinci qism isə o kəslərdir ki, onlar hər hansı bir günahı aşkarda edir və bundan utanmırlar. Belələrinin barəsində tədbir görmək və şərinin qarşısını almaq üçün, ixtiyar sahiblərinə şikayət etmək lazımdır. Necə ki, səhabələr Peyğəmbərə ﷺ şikayət edər, o da həmin cinayətkarlar barədə tədbir görər və onları cəzalandırardı. İslam alimləri belələrinin qeybətini etməyi caiz hesab edirlər. Lakin qeyd etmək lazımdır ki, aşkarda günah edən müsəlmanın eybini ifşa etdikdə belə, həddi aşmaq və ona zülm etmək olmaz. Məsələn: bir müsəlmanın hər hansı bir günahı etdiyini görürsən və onun törətdiyi fəsadın qarşısını almaq üçün onun böyüklərinə, yaxud bölgənin ağsaqqalına və s. onu tənbeh edə biləcək kimsələrə xəbər verirsən. Burada məqsəd o müsəlmanı islah etməkdir deyə, şəriət onun eybini, müəyyən hədd çərçivəsində ifşa etməyə izn verir. Və əgər adam onun eyibini hamıya ifşa etsə, məsələn: gizlincə onun səsini yazıb, yaxud kənardan videoya çəkib sonra onu sosial şəbəkələrdə kütləvi şəkildə yaysa, haram iş görmüş və böyük günah qazanmış olacaq.

Bu mövzuya dair meydana bir sual çıxır ki, əgər adam günah işlədən kimsənin günahını ört-basdır edəcəyinin, yoxsa onu ifşa edəcəyinin daha xeyirli olduğunu bilmirsə, onda nə etməlidir? Sualın cavabı belədir ki, bu məsələ əslinə qayıdır, yəni o günahı ört-basdır etmək daha xeyirlidir. Rəvayət edilir ki, sələflərdən biri deyərmiş: “Mənim üçün birisini bağışlamaqda səhv etməyim, onu günahlandırmaqda səhf etməkdən daha sevimlidir.”

Bu xüsusda İbn Useymin ﷺ demişdir: "Yalnız, məsləhət bildikdə müsəlmanın eyibini ört-basdır etmək bəyənilən əməllərdən sayılır. Və əgər bu eyibi gizlətmək cəmiyyət arasında fəsada gətirib çıxaracaqsa, onu gizlətmək qadağandır. Məsələn: şər işlər görmək və fəsad törətməklə tanınan bir cinayətkar cinayət etmişdirsə, bunu ört-basdır etmək olmaz. Lakin əməlisaleh mömin adam, qəsdi olmadan bir qələt iş tutmuşsa, onun eyibini ört-basdır etmək lazımdır." Qeyd edək ki, belə günahkara nəsihət etmək, nəsihəti qəbul etməzsə, onu Allahın əzabı ilə təhdid etmək, bunun da nəticəsi olmazsa, onun barəsində ixtiyar sahiblərinə xəbər vermək lazımdır. Mömin adamın eyibini axtarıb onu ifşa etmək və beləliklə, onu rüsvay etmək istəyən kimsəni isə Allah alçaldar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ey dili ilə iman gətirmiş, lakin qəlbinə iman daxil olmamış kimsələr, müsəlmanların qeybətini qırmayın və onların eyiblərini arayıb axtarmayın! Hər kim müsəlman qardaşının eyibini arayıb axtararsa, Allah da onun eyibini arayar. Allah da kimin eyibini arayarsa, bu eyib onun evinin içində olsa belə onu ifşa edər."[1]

Allahın rəhmətindəndir ki, O, bir çox müsəlmanların gizlində etdikləri günahlarının üstünə örtük çəkib və onlar bir-birilərinin günahlarını görmürlər. Əgər görsələr, bir-birilə oturub-durmaz, bir-birinə nifrət edərlər. Günahlarının üstünə örtük çəkilmiş mömin adamlar Allahın hüzurunda günahlarını etiraf edəcək, sonra da Allah onları bağışlayacaq. Allah bu dünyada onların günahlarının üstünə örtük çəkdiyi kimi, Qiyamət günü də onların günah-

---

[1] Sunən Əbu Davud, 4880; Səhih əl-Cami, 7984.

larının üstünə örtük çəkəcək. Bu örtük bu dünyada onlar üçün bir rəhmət olduğu kimi, axirətdə də onlar üçün rəhmət olacaq. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Allah bu dünyada bir qulunun günahının üstünə örtük çəkərsə, Qiyamət günü də onun günahının üstünə mütləq örtük çəkəcək." Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Məhşər günü Allah mömini Özünə tərəf yaxınlaşdıracaq, sonra onun günahlarının üstünə örtük çəkəcək və ona buyuracaq: "Filan günahı etdiyini bilirsənmi? Filan günahı etdiyini bilirsənmi?" Mömin: "Bəli, ey Rəbbim!"– deyə cavab verəcək. Beləcə, Allah ona günahlarının hamısını etiraf etdirəcək və o, həlak olduğunu güman edəcək. Onda Allah buyuracaq: "Dünyada sənin günahlarının üstünə örtük çəkdim, bu gün də Mən sənin günahlarını bağışlayıram."

Sonra şərh etdiyimiz hədisdə deyilir ki, adam mömin qardaşının köməyində durduqca, Allah da ona kömək edər. Peyğəmbər ﷺ bu sözü ilə möminləri bir-birilərinə kömək etməyə təşviq edir. Bu xüsusda "əl-Maidə" surəsinin 2-ci ayəsində belə buyurulur: "Yaxşılıq etməkdə və *Allahdan qorxub pis əməllərdən* çəkinməkdə bir-birinizə kömək edin." Burada kömək deyildikdə hər bir xeyirli işdə köməklik göstərmək qəsd edilir. Həqiqətən də, əgər adam düşünsə ki, o, mömin qardaşına kömək etdikcə, Allah da ona kömək edəcək, heç vaxt öz köməyini mömin qardaşından əsirgəməz. Allah kimə kömək edərsə, bu ona kifayət edər.

Sonra şərh etdiyimiz hədisdə deyilir ki, kim elm öyrənmək üçün yola düşərsə, Allah bunun sayəsində onun Cənnətə gedən yolunu asanlaşdırar. Burada elm deyildikdə, əlbəttə ki, İslam şəri-

əti qəsd edilir. Bu hədis mömin adamı islam elmlərini öyrənməyə və bunun sayəsində cənnətlik olmağa təşviq edir. Bu hədisdə yola düşərsə, deyildikdə elm öyrənməyə səbəb olan hər bir vasitə qəsd edilir. Təhsil almaq üçün səfərə çıxmaq, faydalı kitablar oxumaq, alimlərin yanında olub onları dinləmək və s. Həqiqətən də, hər kim bu vasitələrin hamısından və ya bəzisində istifadə edərək, ixlasla elm öyrənməyə doğru addımlayar və öyrəndiyi elmə əməl edərsə, Allah onun Cənnətə gedən yolunu asanlaşdırar. Bu da, faydalı elmin deyilən sözdən və yerinə yetirilən əməldən üstün olduğunu bildirir. Yəni, adam əvvəlcə elm öyrənməli, sonra ona uyğun danışmalı və ya əməl etməlidir. Elmsiz olaraq dindən danışanların və ya din adı ilə ibadət edənlərin yolu isə Cəhənnəmədir. Bu xüsusda "əl-Ənam" surəsinin 144-cü ayəsində belə buyurulur: "Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz." Həmçinin, "əl-Əraf" surəsinin 33-cü ayəsində belə buyurulur: "De: "Rəbbim həm aşkar, həm də gizli *törədilən* yaramaz əməlləri, *hər cür* günahı, haqsızlıqla zülm etməyi, Allahın haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur."

Sonra şərh etdiyimiz hədisdə deyilir ki, *hər hansı* bir camaat Allahın evlərindən birində yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər."

Burada Allahın evi deyildikdə, Allahın rizasını qazanmaq üçün tikilmiş məscidlər qəsd edilir. Məscidlər Allahın ən çox sevdiyi yerlərdir. Bu xüsusda rəvayət edilmiş hədislərin birində Rəsulullah ﷺ demişdir: "Şəhərlərin Allaha ən sevimli yeri məscidləridir. Şəhərlərin Allahın ən nifrət etdiyi yeri isə bazarlarıdır."[1] İçərisində namaz qılındığına, Quran oxunduğuna və başqa ibadətlər edildiyinə görə məscidlər Allahın ən çox sevdiyi yerlər sayılır. Bazarlarda isə insanlar bir-birini aldatdığına, sələm alıb-verməklə məşğul olduqlarına, malı satmaq üçün dəfələrlə yalandan Allaha and içdiklərinə, çox vaxt vədlərinə xilaf çıxdıqlarına, ələlxüsus da Allahı zikr etməkdən yayındıqlarına və başqa bu kimi günahlar etdiklərinə görə bu yerlər Allahın ən nifrət etdiyi yer sayılır.

Burada Rəsulullah ﷺ, Allahın kitabını oxuyan və onu bir-birinə öyrədən insanların dörd fəzilətini zikr edir. Həqiqətən də, Quranı oxuyan və onu başqalarına öyrədən müsəlmanlar, müsəlmanların ən xeyirlisi sayılırlar. Qurani Kərim Uca Allahın, Öz peyğəmbərinə - Muhəmmədə ﷺ, mələk Cəbrailin عليه السلام vasitəsilə vəhy etdiyi kəlamıdır. Bu, doğru yol göstərən, nur saçan və şəfa verən bir kitabdır. O kitab ki, məhz onun sayəsində qəlblər rahatlıq tapır. Bu kitab xüsusunda Rəsulullah ﷺ demişdir: "Bu Quran, bir ipdir. Onun bir ucu Allahın Əlində, digəri də sizin əlinizdədir. Ondan möhkəm yapışın! Siz ondan möhkəm tutduqca, heç vaxt zəlalətə düşməz və əsla həlak olmazsınız!" İslam ümmətinin əvvəlinciləri və axırıncıları bu kitaba xüsusi diqqət yetirmiş, Allahın izni ilə onu həm hafizələrində, həm də yazıda qoruyub saxlamış-

---

[1] Səhih Muslim, 671.

lar. Səhabələr onu Peyğəmbərdən ﷺ ayəbəayə öyrənib yadda saxlamış, onun tələblərini yerinə yetirmiş və onu başqalarına öyrətmişlər. Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Biz Peyğəmbərdən ﷺ on ayə öyrənib onu əzbərləməyincə və onun tələblərini yerinə yetirməyincə, digər on ayəni öyrənməzdik." Səhabələrdən sonra gələnlər də həmçinin, hazırki dövrümüzədək bu mübarək kitaba xidmət etmişlər. Quranın təfsiri və onun məziyyətləri xüsusunda, habelə nəsx və mənsux, ayələrin nazil olma səbəbləri, muhkəm və mutəşabih ayələr barədə yüzlərlə kitab yazılmışdır.

Bir qədər əvvəl qeyd etdik ki, Allahın evinə toplaşıb Onun kitabını oxuyan camaatın dörd üstünlüyü vardır:

Birincisi, onların üzərinə sükunət nazil olar, yəni qəlbləri arxayın olar və rahatlıq tapar. Bu xüsusda "ər-Rəd" surəsinin 28-ci ayəsində belə buyurulur: "Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır."

Allahı zikr edən camaatın ikinci və üçüncü üstünlüyü budur ki, onları rəhmət bürüyər və mələklər öz qanadları ilə onları əhatəyə alar. İmam Buxari və Muslimin nəql etdiyi başqa bir hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Allahın yollarda dolaşıb, *Allahı* zikr edən insanları axtaran mələkləri vardır. Onlar Allahı zikr edən bir camaat gördükləri zaman bir-birilərini çağırıb: "Axtardığınızın yanına gəlin!"– deyirlər. Sonra onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar. Elə həmin vaxt Rəbbi mələklərdən – *hər şeyi* onlardan daha yaxşı bildiyi halda soruşur: "Qullarım nə deyirlər?" *Mələklər*: "Onlar Sənin şəninə təriflər deyir, Səni uca tutur, Səni həmd-səna ilə təqdis edir

və Səni olduqca çox tərifləyirlər"– deyə cavab verirlər. *Allah* soruşur: "Məgər, onlar Məni görüblərmi?" *Mələklər*: "Xeyr, vallahi ki, onlar Səni görməyiblər"– deyirlər. *Allah* soruşur: "Bəs, Məni görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onlar Səni görsəydilər, bundan da çox Sənə ibadət edər, Səni tərifləyər, Səni həmd-səna ilə təqdis edər və Sənin şənini uca tutardılar." *Allah* soruşur: "Onlar Məndən nə istəyirlər?" *Mələklər* deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər." *Allah* soruşur: "Məgər, onlar Cənnəti görüblərmi?" *Mələklər* deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, onlar Cənnəti görməyiblər." *Allah* soruşur: "Bəs, onu görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onu görsəydilər, ona daha əzmlə can atar, onu daha inadla diləyər və onu daha çox rəğbətlə arzulayardılar." *Allah* soruşur: "Onlar nədən *Mənə* sığınırlar?" *Mələklər* deyirlər: "Cəhənnəm odundan." *Allah* soruşur: "Məgər, onlar Cəhənnəmi görüblərmi?" *Mələklər* deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, onlar Cəhənnəmi görməyiblər." *Allah* soruşur: "Bəs, onu görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onu görsəydilər, ondan daha uzağa qaçmağa çalışar və ondan daha çox çəkinərdilər." *Allah* buyurur: "Şahid olun ki, Mən onları bağışladım!" Bu vaxt mələklərdən biri deyir: "Bu camaatın arasında olan filankəs onlarla *yoldaşlıq edən kimsələrdən* deyildir, sadəcə olaraq öz ehtiyacı üzündən ora gəlmişdir." *Onda, Allah* buyurur: "Bunlar elə insanlardır ki, onlarla oturan adam bədbəxt olmaz."[1]

---

[1] Səhih əl-Buxari, 6408; Səhih Muslim, 8/68.

Mövzuya dair bir incə məqama da toxunsaq, yerinə düşər. Bu da məscidə daxil olduqda edilən duadır. Peyğəmbər ﷺ müsəlmanlara məscidə daxil olarkən belə dua etməyi buyurmuşdur:

(( اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ ))

"Allahım, Öz rəhmət qapılarını mənim üçün aç."[1] Bu dəlildir ki, məsciddə Allahın rəhmət qapıları var və məsciddə edilən zikr və ibadətlər sayəsində bu rəhmətə qovuşmaq mümkündür. Həmin zikrlərin və ibadətlərin ən əzəmətlisi isə fərz namazını camaatla birlikdə qılmaqdır.

Və nəhayət, hədisdə zikr edilmiş dördüncü fəzilət, Allahın o toplumdakı möminləri zikr etməsidir. Bu xüsusda Uca Allah "əl-Bəqərə" surəsinin 152-ci ayəsində belə buyurur:

﴿ فَاذْكُرُونِي أَذْكُرْكُمْ ﴾

"Məni yad edin ki, Mən də sizi yad edim!" Həmçinin, qüdsi hədislərin birində Uca Allah buyurur: "Mən qulumun barəmdəki zənni yanındayam. Məni zikr etdikcə onunlayam. O Məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O Məni camaatın yanında yad etsə, Mən onu onlardan daha xeyirli toplumun, mələklərin yanında yad edərəm."[2]

Sonra şərh etdiyimiz hədisdə deyilir ki, kimin əməli onu alçaldarsa, nəsəbi onu ucalda bilməz. Yəni, kimin əməli onun Cənnətə girməsinə mane olarsa, onun nəsəbi bu işdə ona fayda verməz.

[1] Səhih Muslim, 713.

[2] Səhih əl-Buxari, 7455; Səhih Muslim, 2675.

Çünki Allah yanında fayda verəcək əməl imanlı və təqvalı olmaqdır. Bu xüsusda "əl-Hucurat" surəsinin 13-cü ayəsində belə buyurulur: "Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Allahdan* ən çox qorxanınızdır."

İbn Rəcəb ﷺ demişdir: "Bu o deməkdir ki, əməl insanı axirətdəki dərəcələrə ucaldır. Bu xüsusda Uca Allah belə buyurur: "Hər kəsin etdiyi əməllərə görə dərəcələri var."[1] Odur ki, kimin əməli onu Uca Allahın yanında olan dərəcələrə ucaltmazsa, nəsəbi onu o dərəcələrə ucalda bilməz. Çünki Allah mükafatı nəsəbə görə yox, əmələ görə verir. Bu xüsusda Uca Allah belə buyurur: "Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar."[2]

Odur ki, bir çox alimlər belə demişlər: "Vallahi ki, insanın dinsiz heç bir dəyəri yoxdur. Odur ki, heç kəs öz nəsəbini arxayın olub təqvanı əldən verməməlidir. İslam dini Salman Farisi kimilərini ucaltmış, Allaha şərik qoşmaq isə Əbu Ləhəb kimilərini alçaltmışdır."[3]

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ، وَنَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ. اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ

---

[1] əl-Əhqaf, 19.

[2] əl-Muminun, 101.

[3] Cami əl-Ulum vəl-Hikəm, 2/308.

مِنْ خَيْرِ مَا سَأَلَكَ عَبْدُكَ وَنَبِيُّكَ ﷺ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا اسْتَعَاذَ بِكَ مِنْهُ عَبْدُكَ وَنَبِيُّكَ ﷺ، اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الْجَنَّةَ، وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَنَعُوذُ بِكَ مِنَ النَّارِ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَنَسْأَلُكَ أَنْ تَجْعَلَ كُلَّ قَضَاءٍ قَضَيْتَهُ لَنَا خَيْرًا ))

"Allahım, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün xeyirləri Səndən diləyir, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün şər əməllərdən də Sənə sığınırıq. Allahım, qulun və peyğəmbərinin ﷺ Səndən istədiklərini Səndən istəyir və qulun və peyğəmbərinin ﷺ sığındığı şər əməllərdən Sənə sığınırıq. Allahım, Cənnəti və ona yaxınlaşdıran hər bir söz və əməli Səndən istəyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir söz və əməldən Sənə sığınırıq. Səndən bizim üçün yazdığın hər bir hökmün xeyirli olmasını istəyirik."[1]

[1] Səhih ibn Macə, 2/327.

# Otuz yeddinci hədis

عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما عَنْ رَسُولِ اللَّهِ ﷺ فِيمَا يَرْوِيهِ عَنْ رَبِّهِ تَبَارَكَ وَتَعَالَى، قَالَ: "إِنَّ اللَّهَ كَتَبَ الْحَسَنَاتِ وَالسَّيِّئَاتِ، ثُمَّ بَيَّنَ ذَلِكَ، فَمَنْ هَمَّ بِحَسَنَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللَّهُ عِنْدَهُ حَسَنَةً كَامِلَةً، وَإِنْ هَمَّ بِهَا فَعَمِلَهَا كَتَبَهَا اللَّهُ عِنْدَهُ عَشْرَ حَسَنَاتٍ إِلَى سَبْعِمِائَةِ ضِعْفٍ إِلَى أَضْعَافٍ كَثِيرَةٍ، وَإِنْ هَمَّ بِسَيِّئَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللَّهُ عِنْدَهُ حَسَنَةً كَامِلَةً، وَإِنْ هَمَّ بِهَا فَعَمِلَهَا كَتَبَهَا اللَّهُ سَيِّئَةً وَاحِدَةً".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦٤٩١]، وَمُسْلِمٌ [رقم:١٣١]، في "صحيحيهما" بهذه الحروف.

İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ uca və ulu Rəbbindən belə rəvayət etmişdir: “Allah savab və günah işləri yazmış, sonra da bunları bəyan etmişdir. Kim bir savab iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Əgər o savab iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah onun üçün Öz yanında on mislindən yeddi yüzədək, hətta bundan qat-qat artıq savab yazar. Kim bir günah iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Əgər o günah iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah ona cəmi bir günah yazar”.

Bu hədisi, imam Buxari və Muslim rahiməhuməllah öz “Səhih”lərində bu ləfz ilə rəvayət etmişlər.[1]

[1] Səhih əl-Buxari, 6491; Səhih Muslim, 131.

İmam Nəvəvi ﷫ bu hədisi nəql etdikdən sonra demişdir: "Qardaşım, – Allah bizi də, səni də xeyirli işlər görməyə müvəffəq etsin! – Uca Allahın lütfünün əzəmətinə bir bax və bu hədisdə deyilən sözlər barədə bir düşün. Peyğəmbərin ﷺ: "Öz yanında" sözü, Allahın Öz bəndəsinin gözəl niyyətinə diqqət yetirməsinə və ona dəyər verməsinə dəlalət edir." Peyğəmbərin ﷺ: "tam bir savab yazar" sözü, əvvəlki cümlənin mənasını bir daha təsdiqləyir və Allahın, öz bəndəsinin gözəl niyyətinə olduqca çox dəyər verdiyini bildirir. Adamın yerinə yetirmək istədiyi, sonra isə tərk etdiyi günah barədə isə: "Allah onun üçün tam bir savab yazar" deyir və onun kamil savab qazandığını təsdiqləyir. Sonra: "Əgər o günah iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah ona cəmi bir günah yazar" deyir və onun tam günah qazandığını yox, sadəcə az – yəni cəmi bir günah qazandığını təsdiqləyir. Həqiqətən də, həmdlər və təriflər pak və müqəddəs Allaha məxsusdur. Və biz Onu layiqincə təriflәyə bilməliyik. Müvəffəqiyyət Allahın istəyi altındadır."

İmam Nəvəvi bildirmək istəyir ki, Allahın Öz quluna, onun etdiyi bir yaxşılığın əvəzinə on savab və bundan da artıq savab yazması, Onun lütfünün kamilliyinə, onun etdiyi pis bir əməlin əvəzinə yalnız bir günah yazması isə Allahın adilliyinin kamil olmasına dəlalət edir.

Bu hədisdə: "Allah savab və günah işləri yazmış" deyildikdə, lövhi-məhfuzda yazılmış qədər qəsd edilir. Lövhi-məhfuzda yazılmış bu qədər iki şeyi əhatə edir: məxluqatın etdikləri əməllərin yazılmasını və bir də onların əməllərinin savablarının yazılmasını. Hərçənd, bu hədisdə Allahın bütün bu deyilənləri əzəldən löv-

hi-məhfuza yazdığı başa düşülür, lakin, mələklərin də Allahın əmri ilə insanların əməllərini və onların savabını yazması istisna edilmir. Bu xüsusda Uca Allah “Qaf” surəsinin 16-cı, 17-ci və 18-ci ayələrində belə buyurur:

﴿ وَلَقَدْ خَلَقْنَا ٱلْإِنسَٰنَ وَنَعْلَمُ مَا تُوَسْوِسُ بِهِۦ نَفْسُهُۥ ۖ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ ٱلْوَرِيدِ ﴿١٦﴾ إِذْ يَتَلَقَّى
ٱلْمُتَلَقِّيَانِ عَنِ ٱلْيَمِينِ وَعَنِ ٱلشِّمَالِ قَعِيدٌ ﴿١٧﴾ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴿١٨﴾ ﴾

“İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yox-dur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın.” Həmçinin, hədisdə Peyğəmbər ﷺ demişdir: “Allah *mələklərə* buyurur: “Qulum günah iş görmək istəsə, o günahı edənədək bunu onun əleyhinə yazmayın. Əgər o günah etsə, ancaq onun mislində günah yazın, yox, əgər Məndən qorxaraq bu işdən əl çəksə, ona bir savab yazın. Və əgər bir yaxşılıq etmək istəsə və onu yerinə yetirməsə, buna görə ona bir savab yazın, əgər onu yerinə yetirsə, ona bunun on mislindən yeddi yüz qatınadək savab yazın.”[1]

Bu ayə və hədislər dəlildir ki, insanın əməllərini yazan o iki mələk də insanın qəlbindən nələr keçdiyini bilir. Lakin xüsusi ilə qeyd etmək lazımdır ki, onlar bunu yalnız Allahın istəyi və Onun izni ilə edirlər. Hətta peyğəmbərlərə, o cümlədən də Peyğəmbərimiz Muhəmmədə ﷺ bir kimsənin qəlbindən nə keçdiyi bildirilərdi. Məsələn: bu kitabda nəql edilmiş iyirmi yeddinci hədisdə rəvayət edilir ki, Vabisə ibn Məbəd رضي الله عنه demişdir: “Mən Rəsululla-

[1] Səhih əl-Buxari, 7501.

hın ﷺ yanına gəldim və o, mənə dedi: "Gəlmisən yaxşılıq barəsində soruşasan?" Bu, Allahın Öz qullarından istədiyinə bildirdiyi qeyb xəbərlərindəndir. Necə ki, "əl-Cinn" surəsinin 26-cı və 27-ci ayələrində buyurulur: "Allah qeybi biləndir və O, Öz qeybini razı qaldığı elçilərdən başqa heç kəsə bildirməz." Bu ayədə elçi deyildikdə, həm mələklər, həm də peyğəmbərlər qəsd edilir.

Bəzi avamlar şərh etdiyimiz bu hədisi oxuduqda elə başa düşürlər ki, yaxşı əməli yerinə yetirmək üçün sadəcə niyyət etmək, əməl etməkdən daha xeyirlidir və hətta bu yanlış fikri: "Möminin niyyəti, əməlindən daha xeyirlidir" hədisi ilə əsaslandırırlar. Qeyd etmək lazımdır ki, bu, zəif hədisdir və belə hədisə əsaslanmaq olmaz. İbn Həcər, Albani və digərləri – rahiməhumullah – bu hədisin zəif olduğunu demişlər.[1]

Hədisdə deyilir ki, kim bir savab iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Burada, insanın bir savab işi sadəcə qəlbindən keçirməsi qəsd edilmir. Çünki insan qəlbindən keçirdiyi fikirlərə görə nə savab, nə də günah qazanır. Məsələn: bir adam fikrindən başqa birisinə bir yaxşılıq etməyi keçirsə, buna görə savab qazanmaz, lakin, əgər ona yaxşılıq edəcəyini qəsd edərsə, hətta o yaxşılığı etməyə imkanı çatmasa belə, niyyətinə görə savab qazanar. Çünki bu istək, özü-özlüyündə itaət hesab edilir, Allaha itaət isə ibadət sayılır və buna görə də Allah onun əvəzini verir.

Qeyd etmək lazımdır ki, savab iş görməyə niyyət edən, lakin ona əməl etməyən kimsələr üç qismə bölünür:

---

[1] Fəth əl-Bari, 4/219; Silsilətul-Əhadisid-Daifə, 2789.

Birinci qism o kəslərdir ki, onlar savab iş görməyə niyyət edir və istəklərinə nail olmaq üçün bütün vasitələrdən istifadə edir, lakin istəklərinə nail ola bilmirlər. Belələri, niyyət etdikləri əməlin savabını kamil şəkildə qazanırlar. Bu xüsusda "ən-Nisa" surəsinin 100-cü ayəsində belə buyurulur: "Kim Allaha və Onun rəsuluna doğru hicrət etmək məqsədilə evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah verər."

İkinci qism o kəslərdir ki, onlar savab iş görməyə niyyət edir, lakin sonradan daha xeyirli iş üçün bu işi tərk edir. Belələri, daha xeyirli işin savabını qazanmaqla yanaşı, əvvəlcə niyyət etdikləri xeyirli işin də savabını qazanırlar.

Üçüncü qism də o kəslərdir ki, onlar savab iş görməyə niyyət edir, lakin sonradan hər hansı mübah bir səbəbdən dolayı onu tərk edirlər. Məsələn: adam iki rükət duha namazını qılmağa niyyət edir və elə bu vaxt qapısı döyülür və ya telefonu zəng çalır və dostları onu məclisə dəvət edir, bu səbəbdən də o namazı qılmayıb çıxıb gedir. Belə olduğu halda o sadəcə niyyətinə görə bir savab qazanır.

Sonra hədisdə xəbər verilir ki, əgər adam savab iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah onun üçün Öz yanında on mislindən yeddi yüzədək, hətta bundan qat-qat artıq savab yazar. Allah üçün yerinə yetirilmiş əməlin müqabilində qazanılan savabın ən azının on olmasına dəlil, "əl-Ənam" surəsinin 160-cı ayəsidir. Ayədə deyilir ki: "Kim bir savab iş görərsə, ona gördüyü işin on qat əvəzi verilər." Bu ayə dəlildir ki, Allah bir yaxşılıq edən kimsəyə on qat əvəzini verir. Bundan artıq ona yeddi yüz savaba qədər və hətta ondan da artığını verməsi isə Onun istəyi altındadır, istərsə artırar, istərsə də artırmaz. Qeyd etmək lazım-

dır ki, savab zamana, yaxud məkana, yaxud yerinə yetirilən əmələ, yaxud da əməl edən kimsənin imanına və təqvasına görə arta bilər. Məsələn: qədr gecəsində başqa gecələrə nisbətdə qat-qat çox savab qazanmaq olar, həmçinin, Məscidulhəramda başqa məscidlərlə müqayisədə daha çox savab qazanmaq olar, habelə, hər gün yüz kərə "lə ilahə illəllah" zikrini etməklə ağılagəlməz dərəcədə olduqca çox savab qazanmaq olar. Həmçinin, insanın imanı, təqvası və savadı da onun savabının artmasında böyük rol oynayır. Necə ki, bu ümmətin ən xeyirliləri – Peyğəmbərin ﷺ səhabələri, digər müsəlmanlarda çox savab qazanmışlar. Peyğəmbər ﷺ onları tərif edib demişdir: "Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, səhabələrdən birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz."[1]

Sonra hədisdə xəbər verilir ki, kim bir günah iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Əgər o günah iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah ona cəmi bir günah yazar. Hədisdə deyilir ki, kim bir günah iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Burada həmçinin, insanın bir günah işi sadəcə qəlbindən keçirməsi qəsd edilmir. Çünki insan qəlbindən keçirdiyi fikirlərə görə nə savab, nə də günah qazanır. Məsələn: oruc tutmuş adamın fikrindən yemək-içmək keçsə, buna görə onun orucu pozulmaz, lakin, əgər yemək-içməyə qəsd edər və buna səy göstərərsə, hətta yemək-içmək tapmasa belə, onun orucu pozulmuş sayılar və buna görə günah qazanar. Yox əgər Allah üçün pis fikirdən əl çəksə, bir sa-

[1] Səhih əl-Buxari, 3673; Səhih Muslim, 2540 və 2541.

vab qazanar. İbn Kəsir ﷺ "əl-Ənam" surəsinin 160-cı ayəsini: "Kim pis iş görərsə, ona ancaq gördüyü işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz" ayəsini belə izah etmişdir: "Bil ki, pis niyyəti tərk etməyin bir neçə halı var: bəzən adam pis niyyətindən, Allahdan qorxduğuna görə çəkinir, beləcə, Allah üçün o əməli tərk etdiyinə görə savab qazanır. Əslində bu, əməl və niyyət sayılır. Elə buna görə də hədisdə beləsinin savab qazandığı xəbər verilir. Muslimin digər rəvayətində deyilir ki, Peyğəmbər ﷺ demişdir: "Çünki o, bunu Məndən qorxduğu üçün tərk etmişdir."[1] Bəzən də adam qəsd etdiyi pis niyyətini unutduğuna və ya başqa işlə məşğul olduğuna görə tərk edir. Belə olduğu təqdirdə o, nə savab, nə də günah qazanır. Çünki o, nə yaxşı bir iş, nə də pis bir iş görməyə qəsd etmişdir. Bəzən də adam pis bir əməl etmək üçün əlindən gələni edir, lakin acizlikdən və ya tənbəllikdən dolayı pis niyyətini həyata keçirə bilmir. Beləsi qəsd etdiyi əməli yerinə yetirmiş sayılır. Bu xüsusda səhih hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "İki müsəlman qılınclarını çəkib üz-üzə gələrsə, öldürən də, öldürülən də Cəhənnəmə girər." Səhabə soruşdu: "Ya Rəsulullah! Öldürən kəs aydındır. Bəs öldürülən kimsə niyə?" Peyğəmbər ﷺ dedi: "Çünki o, müsəlman qardaşını öldürməyə həris idi."[2]

Bu hədis Allahın mərhəmətinin əzabından daha geniş olduğunu və onu üstələdiyini bildirir. Qüdsi hədislərin birində Uca Allah buyurur: "Həqiqətən də, Mənim rəhmətim qəzəbimi üstələyir!"[3]

---

[1] Səhih Muslim, 129.

[2] Səhih əl-Buxari, 31; Səhih Muslim, 2888.

[3] Səhih əl-Buxari, 7404.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ، وَنَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْنَا مِنْهُ وَمَا لَمْ نَعْلَمْ ))

"Allahım, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün xeyirləri Səndən diləyir, bildiyimiz və bilmədiyimiz, tez və gec olan bütün şər əməllərdən də Sənə sığınırıq."[1]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ شَرِّ مَا عَمِلْنَا وَمِنْ شَرِّ مَا لَمْ نَعْمَلْ ))

"Allahım, etdiyimiz və etmədiyimiz əməllərin şərindən Sənə sığınıram!"[2]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

"Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və fikirlərdən Sənə sığınırıq!"[3]

( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خزائِنُهُ بِيَدِكَ، ونَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ ))

"Allahım, xəzinəsi Sənin Əlində olan hər bir xeyri Səndən istəyir və xəzinəsi Sənin Əlində olan hər bir şərdən Sənə sığınırıq!"[4]

---

1 Səhih ibn Macə, 2/327.

2 Səhih Muslim, 6879.

3 Səhih Sunən ət-Tirmizi, 3/184.

4 Mustədrək əl-Hakim, 1/525; Silsilə əl-Əhadis əs-Səhihə, 1540-cı hədis.

## Otuz səkkizinci hədis

عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ إِنَّ اللَّهَ تَعَالَى قَالَ: "مَنْ عَادَى لِي وَلِيًّا فَقَدْ آذَنْتُهُ بِالْحَرْبِ، وَمَا تَقَرَّبَ إِلَيَّ عَبْدِي بِشَيْءٍ أَحَبَّ إِلَيَّ مِمَّا افْتَرَضْتُهُ عَلَيْهِ، وَلَا يَزَالُ عَبْدِي يَتَقَرَّبُ إِلَيَّ بِالنَّوَافِلِ حَتَّى أُحِبَّهُ، فَإِذَا أَحْبَبْتُهُ كُنْت سَمْعَهُ الَّذِي يَسْمَعُ بِهِ، وَبَصَرَهُ الَّذِي يُبْصِرُ بِهِ، وَيَدَهُ الَّتِي يَبْطِشُ بِهَا، وَرِجْلَهُ الَّتِي يَمْشِي بِهَا، وَلَئِنْ سَأَلَنِي لَأُعْطِيَنَّهُ، وَلَئِنْ اسْتَعَاذَنِي لَأُعِيذَنَّهُ".

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦٥٠٢].

Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Uca Allah buyurur: “Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm.”

Bu hədisi, İmam Buxari ﵀ öz “Səhih”ində rəvayət etmişdir.[1]

Hədisin tam rəvayətində, axırda Uca Allah buyurur: “Mən görəcəyim heç bir işdə tərəddüd etmirəm. Yalnız, ölümdən həzər edən mömin bəndəmin canını aldıqda tərəddüd etməyim müstəs-

[1] Səhih əl-Buxari, 6502.

nadır. Hərçənd, Mən onun xoşlamadığını xoşlamıram, lakin onun ölməsi labüddür."[1]

Bu və buna bənzər hədislər "qüdsi hədis" adlanır. İyirmi dördüncü hədisi şərh edərkən bu haqda ətraflı danışmışıq. Bu hədis, həqiqətən də, möhtəşəm bir hədisdir. İmam Şovkani ﷺ bu hədisi 524 səhifəlik, "Qatrul-vəli alə hədisil-vəli" adlı kitabında şərh etmişdir.

Bu hədisdə Uca Allah buyurur ki, kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm." Bu o deməkdir ki, mömin adamla düşmənçilik etmək böyük günahlardan sayılır. Allahın kiməsə hərb elan etməsi isə o kimsə üçün olduqca qorxuludur. İslam alimləri bu hədisdə qəsd edilən ədavət xüsusunda belə demişlər: "Əgər kimsə mömin adama onun dindar olduğuna və ya hər hansı bir dini ayini yerinə yetirdiyinə görə nifrət edirsə, o kimsə Allahın düşməni sayılır. Yox əgər adam mömin adama dünyəvi işlərdə nifrət edir və bu işlərdə onunla ədavət aparırsa, o halda alimlər belə insanları iki qismə ayırırlar:[2]

Birinci qism o kəslərdir ki, onlar dünyəvi işlərdə ədavət aparmaqla yanaşı, həm də adama mömin olduğuna görə nifrət edirlər. Belələri, bu hədisdə qəsd edilən düşmən qisminə aid edilə bilər.

İkinci qism də o kəslərdir ki, onlar adamın dininə nifrət etmədən sadəcə dünyəvi bir işdə mübahisə edir və çəkişirlər. Belələri bu hədisdə qəsd edilən düşmən qisminə aid edilmir, yəni Allah onlara hərb elan etmir.

---

[1] Əvvəlki mənbə.

[2] Fəth əl-Bari, 11/342.

Belə ki, bir çox müsəlmanlar arasında, hətta bu ümmətin ən xeyirliləri arasında belə çəkişmələr olmuş və onlar öz mübahisələrini həll etmək üçün Peyğəmbərə ﷺ müraciət etmişlər. Demək, müsəlman qardaşına nifrət etmədən, sadəcə hər hansı bir dünyəvi məsələdə çəkişmək, Allahın düşməni olmaq anlamına gəlmir. Bu hədisdən aydın başa düşülür ki, Peyğəmbərə ﷺ və onun səhabələrinə, habelə, onların ardıcıllarına nifrət edən kimsələrə Allah hərb elan edir. Çünki onlar Allahın dostlarıdır. Bu xüsusda "Ali-İmran" surəsinin 68-ci ayəsində belə buyurulur: "Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və *ona* iman gətirənlərdir. Allah möminlərin dostudur."

Ərəbcə "vəli" deyildikdə, lüğəti mənada sevimli və kömək edən dost qəsd edilir.[1] Necə ki, "əl-Maidə" surəsinin 55-ci və 56-cı ayələrində buyurulur: "Sizin dostunuz yalnız Allah, Onun rəsulu və iman gətirənlərdir. O kəslər ki, *Allaha* boyun əyərək namaz qılır və zəkat verirlər. Kim Allahı, Onun rəsulunu və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar məhz Allahın firqəsidir."

İstilahi mənada "vəli/dost" deyildikdə isə peyğəmbərlər istisna olmaqla, Allahdan qorxan hər bir mömin qəsd edilir. Qeyd edək ki, peyğəmbərlər də Allahın sevdiyi kimsələrdir, sadəcə olaraq onlara övliya yox, peyğəmbər deyilir.[2] Allaha iman gətirən və Allahdan qorxan hər kəsin, Allahın dostu sayılması barədə isə "Yunus" surəsinin 62-ci və 63-cü ayələrində belə buyurulur: "Bi-

---

[1] Lisan əl-Arab, 15/409.

[2] Məcmu əl-Fətavə, 2/224.

lin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və *Allahdan* qorxmuşlar."

Sonra şərh etdiyimiz hədisdə Uca Allah buyurur ki: "Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm." Bu dəlildir ki, insan Allahın ona buyurduğu vacib və nafilə ibadətlərini yerinə yetirməklə Onun sevgisini qazanır və Ona dost olur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, haramları və məkruhları tərk etmək də bu qəbildəndir. Hər iki növ ibadət – yəni həm vaciblər, həm də nafilələr, Allahın buyurduğu ibadətlərdir. Sadəcə olaraq nafilələr vaciblərə əlavə edilmiş, başqa cür desək, onları tamamlayan ibadətlərdir. Səhih hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanın Qiyamət günü ilk soruşulacağı əməl namaz olacaq. Əgər bu sorğu-sualdan keçsə, uğur qazanar və nicat tapar, əks halda isə bədbəxt olar və ziyana uğrayar. Və əgər namazında hər hansı bir naqislik olarsa, Rəbb təbarəkə və təalə mələklərə buyurar: "Baxın görün, qulumun nafilə ibadətləri olubmu?" Nəhayət, onun nafilə ibadətləri sayəsində, vaciblərində olan naqislik tamamlanar. Sonra digər vacib buyurulan əməllərinin də naqisliyi beləcə tamamlanar."[1]

Bu hədislərdən aydın başa düşülür ki, ibadətlər həm cinsi, həm də növü baxımından bir-birindən fərqlənirlər. Cins baxımından, əlbəttə ki, vaciblər, Allaha nafilələrdən daha sevimli sayılır. Növ baxımından da namaz, Allaha digər ibadətlərdən daha sevimli

---

[1] Sunən Əbu Davud, 864; Sunən ət-Tirmizi, 413; Mişkatul-Məsabih, 1330.

sayılır. Odur ki, İbn Məsud ﷺ Peyğəmbərdən ﷺ: "Allahın ən çox sevdiyi *əməl* hansı əməldir?"– deyə soruşduqda, Peyğəmbər ﷺ ona: "Namazı öz vaxtında qılmaqdır"– deyə cavab vermişdir.[1]

Qurani Kərimdə neçə-neçə ayələrdə xəbər verilir ki, Allah, Ona tövbə edib günahlardan təmizlənənləri, Ona ibadət edənləri, Ondan qorxub pis əməllərdən çəkinənləri, yaxşılıq edənləri, səbirli olanları, Allaha təvəkkül edənləri, ədalətlə hökm verənləri və s. bu kimi vacibləri və nafilələri yerinə yetirənləri, haramlardan və məkruhlardan çəkinənləri sevir.

Həmçinin, nafilələr də Allahın sevgisini qazanmağa səbəb olan əsas amillərdəndir. Bu hədis, nafilələri yerinə yetirən hər bir mömin üçün, Allahın onu sevməsinə dair bir müjdədir. Lakin qeyd etmək lazımdır ki, fərzləri və nafilələri yerinə yetirən hər kəs Allahın dostu sayılmır. Yalnız şəriətə uyğun şəkildə, başqa cür desək, ixlasla və sünnəyə müvafiq olaraq bu ibadətləri yerinə yetirən kimsələr Allahın dostu və sevimlisi sayıla bilər.

Sonra şərh etdiyimiz qüdsi hədisdə Uca Allah bildirir ki, Öz qulunu sevdiyi təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olar. Əlbəttə ki, bu sözlər hədisin zahirində olduğu kimi qəbul edilə bilməz. Çünki insanın qulağı, gözü, əli, ayağı məxluqdur və bütün bunları öz mənasında Allaha istinad etmək olmaz. Bəzi sufilər, daha dəqiq desək, hülulilər, bu hədisi dəlil gətirərək, "hülul" yəni Allahın övliyaların daxilində olduğunu və onların fövqəl-bəşər xüsusiyyətlərə malik olduqlarını iddia edirlər. Əlbəttə ki, bu, xəbis bir etiqad və batil bir iddiadır. O za-

[1] Səhih əl-Buxari, 5970; Səhih Muslim, 139.

man bu hədisin mənası nədir? Əhli-Sünnə vəl-Cəmanın izahına görə hədisin mənası budur ki, Allah, vacibləri və nafilələri yerinə yetirən və qadağalardan çəkinən sevimli qulunun gözlərini, qulaqlarını, əllərini və ayaqlarını xeyirxah işlər görməyə və bunun sayəsində savab qazanmağa, habelə, günah işlərdən çəkinməyə müvəffəq edər. Yəni, yalnız Allahı razı salacaq sözləri dinləyər, yalnız Onu razı salacaq şeylərə baxar, yalnız Onu razı salacaq işlərə əl uzadar və yalnız Onu razı salacaq yerlərə gedər.[1]

Sonra hədisin davamında Uca Allah buyurur ki, Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm. Hədisin ərəbcəsində "verərəm" feilinin əvvəlində ləm hərfi durur. Ərəbcə bu hərf "ləmul-qasəm" adlanır. Yəni and mənasını ifadə edən hərif. Belə olduğu təqdirdə, bu cümlə belə and mənasını verir, yəni and olsun ki, ona dilədiyini verərəm və and olsun ki, ona sığınacaq verərəm. Burada, ortaya belə bir sual çıxır: "Məgər bu o deməkdir ki, belə möminin duası mütləq şəkildə qəbul olur və ona istədiyi hər şey verilir?" Əlbəttə ki, yox. Çünki, əgər adam Allahdan kiməsə zülm etməyi, qohumlarla əlaqəni kəsməyi və s. bu kimi günah sayılan şeyləri istəsə, Allah ona istədiyini verməz. Demək, dua etdikdə həddi aşmaq olmaz. Bu xüsusda "əl-Əraf" surəsinin 55-ci ayəsində belə buyurulur: "Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, Allah, həddi aşanları sevmir." Həmçinin, hədisdə Peyğəmbər ﷺ demişdir: "*Vaxt gələcək,* bu ümmətdən, duada həddi aşan kimsələr olacaq."[2] Qeyd et-

---

[1] Mədaric əs-Salikin, 3\319; Təfsir İbn Kəsir, 2/580.

[2] Sunən Əbu Davud, 1480; Musnəd Əhməd, 1/172; Səhih əl-Cami, 2396.

mək lazımdır ki, duada həddi aşan adam ancaq ziyana uğrayar. Əvvəla, duası qəbul olmaz, ikincisi də buna görə o, günah qazanar. Yenə bir hədisdə o demişdir: "Hər hansı bir müsəlman, ibarəsində günaha və qohumluq əlaqələrinin kəsilməsinə aid olmayan bir dua edərsə, *Allah* ona üç şeydən birini verər: ya onun istədiyini ona *bu dünyada* verər, ya ona verəcəyini Axirət gününə saxlayar, ya da onun mislində başına gələcək bir müsibəti ondan uzaq edər." Bu sözün əks anlamından aydın olur ki, günah iş görmək və ya qohumluq əlaqələrini kəsmək üçün dua edən kimsənin duası qəbul olunmur.

Şərh etdiyimiz qüdsi hədisin sonunda Uca Allah buyurur: "Mən görəcəyim heç bir işdə tərəddüd etmirəm. Yalnız, ölümdən həzər edən mömin bəndəmin canını aldıqda tərəddüd etməyim müstəsnadır. Hərçənd, Mən onun xoşlamadığını xoşlamıram, lakin onun ölməsi labüddür." Burada Allahın tərəddüd etməsi, insanın tərəddüd etməsinə bənzəmir. Çünki insana yaraşan tərəddüd, elmsizlikdən, yaxud cahillikdən, yaxud bacarıqsızlıqdan, yaxud zəiflikdən və ya başqa bu kimi naqis sifətlərdən irəli gəlir. Bu naqis sifətləri Allaha isnad etmək olmaz. Əhli-Sünnə vəl-Cəmaə alimləri bu hədisin zahirinə istinad edərək, Allahın tərəddüd etdiyini qəbul edir və bunun haqq olduğunu söyləyirlər. Lakin burada zikr edilən tərəddüdün elmsizlik, cahillik, bacarıqsızlıq və zəiflik kimi naqis sifətlərdən irəli gəldiyini yox, sadəcə Allahın Öz qulunu sevdiyinə görə, onun üçün həyatda qalmağın, yoxsa dünyadan köçməyin daha yaxşı və daha məqsədəuyğun olduğuna seçim edir. Alimlər bunu "iradə tərəddüdlüyü" adlandırırlar.

Belə olduğu təqdirdə bu tərəddüd, Allaha layiq olan kamil sifətlərdən sayılır.

İbn Teymiyyə رحمه الله bu kəlməni belə izah etmişdir: "Bir çox firqələr hədisdəki bu kəlməni qəbul etməmiş və demişlər ki: "Allaha tərəddüd etmək yaraşmaz. Tərəddüdü işlərin aqibətini bilməyən kimsələr edər. Allah isə hər bir işin aqibətini yaxşı bilir." Bəziləri də: "Allah bu mənaya yaxın bir vəsflə vəsf edilə bilər"– demişlər. Lakin doğru rəy budur ki, Allah rəsulunun ﷺ hər bir kəlməsi haqdır və heç kəs nə Allahı onun qədər tanıya bilər, nə İslam ümmətinə onun qədər nəsihət edə bilər, nə də onun kimi bəlağətli və fəsahətli danışa bilər. Belə olduğu təqdirdə, özünü alim sayan və hədisdə deyilən haqqı inkar edən hər kəs, insanların ən azğını, ən cahili və ən ədəbsizi sayılır. Beləsini tərbiyələndirmək və tənbeh etmək lazımdır. Odur ki, Rəsulullahın ﷺ sözünü olduğu kimi qorumaq vacibdir."[1] İbn Teymiyyə رحمه الله həmçinin, demişdir: "Tərəddüd etmək, iki istəkdən birinə seçim etməkdir. Belə ki, izzətli və qüdrətli Allah sevimli qulunun istədiyini istəyir, xoşlamadığını da, xoşlamır. İnsan, xislətcə ölməyi xoşlamır, Allah da onun xoşlamadığını xoşlamır. Necə ki, hədisdə Uca Allah bir tərəfdən: "Mən onun xoşlamadığını xoşlamıram" deyir, digər tərəfdən də onun ömrünün başa çatmasını, ölməyini istəyir və bunu tərəddüd adlandırır, sonra da onun öləcəyinin qaçılmaz olduğunu bildirir."[2]

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

---

[1] Məcmu əl-Fətavə, 18/129.

[2] Məcmu əl-Fətavə, 10/58.

(( اللَّهُمَّ اهْدِنَا فِيمَنْ هَدَيْتَ، وَعَافِنَا فِيمَنْ عَافَيْتَ، وَتَوَلَّنَا فِيمَنْ تَوَلَّيْتَ، وَبَارِكْ لَنا فِيمَا أَعْطَيْتَ، وَقِنَا شَرَّ مَا قَضَيْتَ، فَإِنَّكَ تَقْضِي وَلاَ يُقْضَى عَلَيْكَ، إِنَّهُ لاَ يَذِلُّ مَنْ وَالَيْتَ، وَلاَ يَعِزُّ مَنْ عَادَيْتَ، تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ ))

"Allahım, hidayət verdiyin kimsələr arasında bizə də hidayət ver! Salamatlıq bəxş etdiyin kimsələr arasında bizə də salamatlıq bəxş et! Dost qəbul etdiyin kimsələr arasında bizi də Özünə dost qəbul et! Bizə verdiyin nemətləri bərəkətli et! Qərar verdiyin şeylərin şərindən bizi qoru! Hər şeyə Sən qərar verirsən, Sənin üçün isə qərar verilməz. Dost qəbul etdiyin kimsə zəlil olmaz. Ədavət apardığın kəs isə qüdrətli olmaz. Ey Rəbbimiz, Sən xeyirxahsan və ucasan!"[1]

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik."[2]

---

[1] Səhih İbn Hibban, 2/499

[2] Musnəd imam Əhməd, 5/243; .

## Otuz doqquzuncu hədis

عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: "إِنَّ اللَّهَ تَجَاوَزَ لِي عَنْ أُمَّتِي الْخَطَأَ وَالنِّسْيَانَ وَمَا اسْتُكْرِهُوا عَلَيْهِ".

حَدِيثٌ حَسَنٌ، رَوَاهُ ابْنُ مَاجَهْ [رقم:٢٠٤٥]، وَالْبَيْهَقِيّ ["السنن" ٧/٣٥٦].

İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Allah mənə görə, ümmətimə, onların xəta edərək, unudaraq və bir də məcburiyyət altında etdikləri günahları bağışlamışdır."

Bu, həsən hədisdir. Bu hədisi, İbn Macə, Beyhəqi və başqaları rəvayət etmişlər.[1]

İbn Useymin رحمه الله bu hədisi izah edərkən demişdir: "Nəvəvi bu kitabda bəzi hədislərin hökmündə çox səhlənkarlıq edir və bəzən görürüsən ki, zəif hədisi həsən adlandırır. İbn Rəcəb رحمه الله isə "Camiul-ulum vəl-hikəm" kitabında onun bu hökmlərini qınayır. Bizim öhdəmizə düşən isə budur ki, hədisin mətninin səhih olub-olmadığını bildirmək üçün onun dərəcəsini bəyan edək. Lakin qeyd etmək lazımdır ki, Nəvəvinin bu kitabda nəlq etdiyi zəif hədisləri qüvvətləndirən başqa hədislər də vardır. Elə buna görə də həmin zəif hədislər həsən dərəcəsinə qalxır."

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu xüsusiyyət – yəni müsəlmanın xəta edərək, unudaraq və bir də məcburiyyət altında

---

[1] Sunən İbn Macə, 2045; Sunən əl-Kubra, Beyhəqi, 7/356; Səhih İbn Hibban, 16/202; Mocəm əl-Kəbir, Təbərani, 11274; Mustədrək əl-Hakim, 2/216; Sunən əd-Daraqutni, 4/170.

edilən günahlarının bağışlanması, Allahın bu ümmətə göstərdiyi mərhəməti və lütfü, üstəlik, yalnız onlara məxsus etdiyi üstünlüklərdəndir.

Bu hədisdə Peyğəmbər ﷺ: "Allah mənə görə, ümmətimə"– deyir. Peyğəmbərin ﷺ bu sözü, onun Allah yanında necə hörmət sahibi olduğuna, ona və onun ümmətinə necə lütf göstərdiyinə, habelə, digər insanlardan üstün olduğuna dəlalət edir.

Qeyd etmək lazımdır ki, bu hədisdə ümmət deyildikdə, müsəlman ümməti, yəni Peyğəmbərin ﷺ dəvətini qəbul edib Allaha təslim olmuş insanlar qəsd edilir. Yəni, Allah yalnız müsəlmanların xəta edərək, unudaraq və bir də məcburiyyət altında etdikləri günahları bağışlayır. Muhəmməd ﷺ peyğəmbər göndərildiyi gündən ta Qiyamətədək yer üzündə yaşamış və yaşayacaq insanların hamısı Peyğəmbərin ﷺ ümməti sayılır. Belə ki, hər bir peyğəmbər öz ümmətinə peyğəmbər göndərilmişdir, Peyğəmbərimiz ﷺ isə bütün insanlara və cinlərə peyğəmbər göndərilmişdir. Bu xüsusda "əl-Ənbiya" surəsinin 107-ci ayəsində belə buyurulur: "Biz səni aləmlərə ancaq bir rəhmət olaraq elçi göndərdik." Həmçinin, hədisdə Peyğəmbər ﷺ demişdir: "Muhəmmədin canı əlində olan *Allaha* and olsun ki, bu ümmətdən olan yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndərilənə iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar."[1]

Sonra hədisdə xəbər verilir ki, Uca Allah hər bir müsəlmana onun xəta edərək, unudaraq və bir də məcburiyyət altında etdiyi günahları bağışlayır. Müsəlmanın xəta edərək, unudaraq və bir

---

[1] Səhih Muslim, 153.

də məcburiyyət altında etdiyi günahının bağışlanması, Quranda da öz təsdiqini tapmışdır. "əl-Bəqərə" surəsinin 286-cı ayəsində belə buyurulur: "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma!" İmam Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, möminlər: "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma!"– deyə dua etdikdə, hər dəfə: "Ey Rəbbimiz!"– deyəndə, Uca Allaha: "İstədiyinizi sizə verdim!"– deyə cavab verir.[1] Məcburiyyət haqqında isə "ən-Nəhl" surəsinin 106-cı ayəsində belə buyurulur: "Qəlbi imanla sabit qaldığı halda *haqqı danmağa* məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır." Bu ayələrdən aydın başa düşülür ki, Allah bu ümmətə xəta edərək, unudaraq və bir də məcburiyyət altında etdikləri günahları, hətta məcburiyyət altında küfr söz danışmalarını belə bağışlayır. Bu hədis Allahın Öz mömin qullarına olan rəhmətinin və lütfünün olduqca geniş olduğunu bildirir. Və hədis həm də ona dəlalət edir ki, Allahın haqlarına aid olan hər bir işdə, müsəlmanın istər ibadətlərdə, istərsə də dünyəvi işlərdə xəta edərək, yaxud unudaraq, ya da məcburiyyət altında etdiyi günahlarını Allah ona bağışlayır. Lakin, əgər adam başqa bir adamın haqqına girərsə, o zaman Allah onun günahını bağışlasa da, haqq sahibinin haqqı onun boynunda qalır və bu haqq ona bağışlanılmır. Yəni Qiyamət günü haqq sahibinə onun əvəzini ödəməli olacaq. Və əgər adam vacib buyurulmuş ibadəti xəta edib doğru yerinə yetirməyibsə, yaxud unudub onu

[1] Səhih Muslim, 125.

tərk edibsə və ya məcburiyyət altında onu yerinə yetirməyibsə, sonradan onu yerinə yetirməlidir. Məsələn: adam xəta edib namazı düzgün qılmasa, onun necə qılınmasını öyrənən kimi onu yenidən qılmalıdır. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gün Peyğəmbər ﷺ məscidə daxil oldu, arxasınca da bir nəfər ora daxil olub namaz qıldı və *namazı bitirdikdən* sonra Peyğəmbərə ﷺ salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və ona: "Qayıt namazını qıl, çünki sən namaz qılmadın"– deyə buyurdu. Adam əvvəlki kimi namaz qıldı, sonra da Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdi. Peyğəmbər ﷺ *yenə ona* buyurdu: "Qayıt namazını qıl, çünki sən namaz qılmadın." Bu hal üç dəfə təkrar oldu. Nəhayət, o adam dedi: "Səni haqq din ilə göndərən Allaha and olsun ki, mən bundan daha düzgün olanını qıla bilmirəm. Mənə *düzgün namaz qılmağı* öyrət!" Peyğəmbər ﷺ buyurdu: "Namaza duranda: "Allahu əkbər" de, sonra Qurandan sənə asan gələni oxu, sonra rükuya get və bunu rahat şəkildə yerinə yetir – əllərini dizinə qoy, sərbəst ol və belini düz saxla, sonra *başını* qaldırıb qamətini dümdüz tut, sonra səcdəyə get *və bunu* rahatlıqla yerinə yetir – sərbəst ol və belini düz saxla, sonra qalx otur və tam rahat ol və namazının qalan rükətlərində də belə et."[1]

Yaxud unudub namazı buraxan adam, yadına düşən kimi onu yerinə yetirməlidir. İmam Muslimin rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim namazı unutsa, xatırladığı zaman o namazı qılsın!" Çünki Allah buyurur:[2] "Məni xatır-

---

[1] Səhih əl-Buxari, 757.

[2] Ta ha, 14.

lamaq üçün namaz qıl!”[1] İmam Muslimin digər rəvayətində xəbər verilir ki, Peyğəmbər ﷺ davam edib demişdir: “Onun bundan başqa kəffarəsi yoxdur.”[2] Peyğəmbər ﷺ demək istəyir ki, namazı unudan adam günah qazanmır.

Günah iş görməyə məcbur edilən kimsələrə gəlincə, bunlar iki qismə bölünür:

Birincisi, ixtiyarı öz əlində olmayan və məcbur edildiyi işdən imtina etməyə qüdrəti çatmayan kimsələrdir. Məsələn: o kimsə ki, onun əllərini bağlayıb ona şərab içirdiblər, yaxud onunla zina ediblər və s. İslam alimlərinin yekdil rəyinə əsasən beləsi, etdiyi əməlinə görə günah qazanmır.

İkinci qisim isə o kəslərdir ki, onlara işgəncə verməklə günah işlər gördürürlər. Bu növ məcburiyyətdə insan ixtiyar sahibidir. İşgəncəyə dözüb o günahı etməyə də bilər, əksinə, canını qurtarmaq üçün onu edə də bilər. Lakin o günahı edəcəyi təqdirdə niyyəti günahı etmək yox, zərəri dəf etmək olmalıdır. Ammar ibn Yasiri رضي الله عنه və onun ata-anasını buna misal çəkmək olar. Onun atası Yasir رضي الله عنه və anası Sumeyyə رضي الله عنها Allaha şərik qoşmaqdan imtina etmiş və Allah yolunda şəhid olmağı seçmişlər, Ammar رضي الله عنه isə işgəncələrə dözməyib, sadəcə dili ilə küfr söz danışmış, sonra da Allah onu bağışlamışdır. Həmçinin, zinaya məcbur edilən kənizləri də buna misal çəkmək olar. Bu xüsusda “ən-Nur” surəsinin 33-cü ayəsində belə buyurulur: “Əgər kənizləriniz ismətlərini qorumaq istəsələr, fani dünya malı əldə edəcəksiniz de-

---

[1] Səhih Muslim, 680.

[2] Səhih Muslim, 684.

yə onları zinakarlığa məcbur etməyin. Kim onları *bu işə* məcbur etsə, *bilsin ki*, onlar məcbur edildikdən sonra Allah *onları* bağışlayar və *onlara* rəhm edər." Qeyd edək ki, bu ayə öz kənizlərini zina etməyə məcbur etmiş, münafiq Abdullah ibn Ubey ibn Səlul barədə nazil olmuşdur.

Sonda, hamımızın adından Allaha dua edib deyirik:

﴿رَبَّنَا لَا تُؤَاخِذْنَا إِن نَّسِينَا أَوْ أَخْطَأْنَا ۚ رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى
الَّذِينَ مِن قَبْلِنَا ۚ رَبَّنَا وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِ ۖ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا ۚ أَنتَ
مَوْلَانَا فَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ﴾

"Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!"[1]

﴿رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ (١٩١) رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ
أَخْزَيْتَهُ ۖ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ (١٩٢) رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلْإِيمَانِ أَنْ آمِنُوا
بِرَبِّكُمْ فَآمَنَّا ۚ رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الْأَبْرَارِ (١٩٣) رَبَّنَا
وَآتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ ۗ إِنَّكَ لَا تُخْلِفُ الْمِيعَادَ (١٩٤)﴾

[1] əl-Bəqərə, 286.

“Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi atəşin əzabından qoru! Ey Rəbbimiz! Sən atəşə saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç birköməkçisi olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!”– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşı insanlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!”[1]

---

[1] Ali-İmran, 191-194.

# **Qırxıncı hədis**

عَنْ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ: أَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِمَنْكِبِي، وَقَالَ: "كُنْ فِي الدُّنْيَا كَأَنَّك غَرِيبٌ أَوْ عَابِرُ سَبِيلٍ". وَكَانَ ابْنُ عُمَرَ رضي الله عنهما يَقُولُ: إذَا أَمْسَيْت فَلَا تَنْتَظِرْ الصَّبَاحَ، وَإِذَا أَصْبَحْت فَلَا تَنْتَظِرْ الْمَسَاءَ، وَخُذْ مِنْ صِحَّتِك لِمَرَضِك، وَمِنْ حَيَاتِك لِمَوْتِك.

رَوَاهُ الْبُخَارِيُّ [رقم:٦٤١٦].

Rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما demişdir: “*Bir dəfə* Peyğəmbər ﷺ mənim çiynimdən tutub dedi: “Dünyada bir qərib, yaxud bir müsafir kimi ol!”

İbn Ömər رضي الله عنهما (bu hədisi danışandan sonra) deyərdi: “Axşama çıxdığın zaman səhərə sağ qalacağına, səhərə çıxdığın zaman da axşama sağ qalacağına arxayın olma! Xəstələnənədək sağlamlığından və ölənədək həyatından istifadə et!”

Bu hədisi, İmam Buxari öz “Səhih”ində rəvayət etmişdir.[1]

Burada Peyğəmbərin ﷺ öz səhabəsinin çiynindən tutması, ona diqqət yetirməsi deməkdir. Belə ki, həmin vaxt İbn Ömərin cəmi on iki yaşı var idi. Baxın görüm, Peyğəmbər ﷺ on iki yaşındakı uşağa nə öyrədir. Peyğəmbər ﷺ ona bu dünyada zahid olmağı və dünyaya könül bağlamamağı, yəni axirət həyatı üçün çalışmağı nəsihət edir. Çünki, insan nə qədər yaşasa da, axırda bir

[1] Səhih əl-Buxari, 6416.

gün bu dünyadan köçəcək. Bu xüsusda "Ali-İmran" surəsinin 185-ci ayəsində belə buyurulur: "Hər kəs ölümü dadacaq." Həmçinin, "əl-Cumuə" surəsinin 8-ci ayəsində belə buyurulur: "De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaq. Sonra siz qeybi və aşkarı bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə etdiyiniz əməllər barədə xəbər verəcək." Həmçinin, hədislərin birində xəbər verilir ki, bir gün bir dəfə Cəbrail عليه السلام Peyğəmbərin ﷺ yanına gəlib ona belə demişdir: "Ey Muhəmməd! Nə qədər yaşayırsan yaşa, axırda öləcəksən."[1] Başqa bir hədisdə də xəbər verilir ki, Rəsulullah ﷺ demişdir: "Mənimlə dünyanın məsəli, ağacın kölgəsi altında dincini aldıqdan sonra o kölgəliyi tərk edən atlının məsəlinə bənzəyir."[2]

Bu hədis dünyanın fani olduğunu xəbər verir. Həqiqətən, bu dünya, insanın əbədi qərar tutmayacağı bir yerdir. Odur ki, insan bu dünyada özünü qərib və müsafir hesab etməli, üstəlik bilməlidir ki, onun bu qısa müddətli səfəri hər an başa çata bilər. Rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Bir dəfə Peyğəmbər ﷺ yerdə bir neçə xətt cızdı, sonra dedi: "Bu, insanın arzularıdır, bu da onun əcəlidir. İnsan arzularla yaşadığı bir vaxtda yaxın olan əcəli onu haqlayar."[3]

Hərçənd, bu hədislər insana dünyaya könül bağlamamağı tövsiyə edir, lakin bu o demək deyil ki, insan tərkidünya olmalı və dünyanın naz-nemətlərindən istifadə etməməlidir. Əksinə, yer

---

[1] Mustədrək əl-Hakim, 4/324; Silsilətul-Əhadisis-Səhihə, 831.

[2] Sunən ət-Tirmizi, 2377; Silsilətul-Əhadisis-Səhihə, 438.

[3] Səhih əl-Buxari, 6418.

üzündə olan halal nemətlərdən yemək və gözəl geyinmək, habelə, halal və gözəl şeylərdən istifadə etmək möminə səadət bəxş edir. "əl-Bəqərə" surəsinin 172-ci ayəsində Uca Allah buyurur: "Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz təmiz və halal nemətlərdən yeyin!" Həmçinin, hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah gözəldir və gözəlliyi sevir. O, Öz bəndəsinə verdiyi nemətləri onun üzərində görməyi sevir, bəndəsinin acınacaqlı görkəmdə görünməsini və ya onun özünü bu cür göstərməsini xoşlamır."[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Dörd şey səadətdəndir: əməlisaleh zövcə, geniş ev, əməlisaleh qonşu və rahat minik."[2] Hədislərdən aydın başa düşülür ki, mömin adamın bu həyatda xoşbəxt olması və səadətə qovuşması üçün geniş evinin və rahat miniyinin, habelə, əməlisaleh həyat yoldaşının və əməlisaleh qonşusunun olması lazımdır.

Sonra hədisin davamında İbn Ömər رضي الله عنهما deyir ki, axşama çıxdığın zaman səhərə sağ qalacağına, səhərə çıxdığın zaman da axşama sağ qalacağına arxayın olma! Yəni vaxtının qədrini bil və bu günün işini sabaha qoyma. Həqiətən də, vaxt böyük nemətdir, lakin insanların çox onun dəyərini bilmir və onu layiqincə dəyərləndirmir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "İki nemət vardır ki, insanların çoxu onları layiqincə dəyərləndirmir. Bunlar sağlamlıq və boş vaxtdır!"[3] Bu hədisin əks anlamından aydın başa

---

[1] Şoəbul-İman, əl-Beyhəqi, 2/231/1; Silsilətul-Əhadisis-Səhihə, 1320 və 1626.

[2] Səhih İbn Hibban, 1232; Silsilətul-Əhadisis-Səhihə, 282.

[3] Səhih əl-Buxari, 6412.

düşülür ki, insanların çox azı öz vaxtlarından səmərəli istifadə edir. Ağıllı mömin isə yəqin bilir ki, Qiyamət günü bu nemət barədə sorğu-sual ediləcək. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Adəm övladı dörd şey barədə soruşulmayınca, addımını kənara qoya bilməyəcək: ömrünü nəyə sərf etdiyi, nə əməllər etdiyi, malını haradan qazandığı və nəyə xərclədiyi və bir də sağlamlığını nəyə sərf etdiyi barədə."[1] Demək, vaxtını boşuna keçirən insanlar Qiyamət günü peşman olacaqlar. Həmin gün peşman olmasını istəməyən mömin adam Peyğəmbərin ﷺ tövsiyəsini yerinə yetirər. Bir zaman Peyğəmbər ﷺ səhabələrinə belə tövsiyə etmişdir: "Beş şey gələnədək beş şeydən istifadə et: ölənədək həyatından, xəstələnənədək sağlamlığından, məşğul olanadək boş vaxtından, qocalanadək cavanlığından və bir də kasıblayanadək var-dövlətindən."[2]

İbn Ömər رضي الله عنه də, Peyğəmbərin ﷺ bu tövsiyəsiyə əsasən deyərmiş ki, xəstələnənədək sağlamlığından və ölənədək həyatından istifadə et!"

Ümumiyyətlə haqq yolda olan sələflərin hamısı vaxta dəyər vermiş və bu nemət barədə gözəl nəsihətlər etmişlər. Gəlin bunlardan bir neçəsini zikr edək:

Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Ey insanlar, bu dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz övladları, *yəni ona könül bağlayanları* var. Siz ey müsəlmanlar, dünya övladlarından yox, Axirət övlad-

---

[1] Sunən ət-Tirmizi, 2417; Səhih əl-Cami, 7300.

[2] Səhih əl-Cami, 1077.

larından olun! Bu gün bir iş görürsünüz, lakin sorğu-sual olunmursunuz. Sabah isə sorğu-sual olunacaq və tövbə edə bilməyəcəksiniz."[1]

Həmçinin, İbn Məsud ﷺ demişdir: "Mən, daha çox yaxşı işlər görmək üçün fürsət tapa bilmədiyim hər günümə görə heyfsiləndiyim qədər, heç bir şeyə heyfsilənməmişəm."[2]

Həmçinin, Yəhya ibn Muaz ﷺ demişdir: "Gecə uzundur, elə isə yatmaqla onu qısaltma. Gündüz də təmizdir, elə isə öz günahlarınla onu çirkləndirmə."[3]

Həmçinin, Vəhb ibn əl-Vərd ﷺ demişdir: "Çalış, heç kəs səni Allahı zikr etməkdən yayındırmasın."[4]

Sələflər ölüm yatağında belə, vaxtdan səmərəli istifadə etməyə çalışardılar.

Rəvayət edilir ki, Əbu Musa əl-Əşari ﷺ ölüm yatağında ikən əziyyət çəkə-çəkə Quran oxumağa başlayır. Nəhayət, taqətdən düşdükdə yanındakılar ona: "Bəlkə bir az dincələsən"– deyir, Əbu Musa da ﷺ onlara belə cavab verir: "Əcəlimin yetişməsinə az vaxt qalıb."

Həmçinin rəvayət edilir ki, Cuneyd ölüm ayağında ikən çətinlik çəkərək Quran oxuyurmuş. Dostu Əbu Muhəmməd əl-Həriri ona: "Bəlkə bir az dincələsən"– deyəndə, o, belə cavab verir: "Ey Əbu Muhəmməd, bu saatda, Quran oxumağa məndən daha çox

---

[1] Səhih əl-Buxari, "*Qəlbi* yumşaldan *əməllər* kitabı", 3-cü fəsil: "Arzuların çox olması haqqında."

[2] Bəyan əhəmmiyyətul-vəqt, səh: 6.

[3] Safvətus-Safvə, 4/94.

[4] Bəyan əhəmmiyyətul-vəqt, səh: 22.

möhtac olan bir kimsə varmı? Axı bir azdan mənim əməl dəftərim büküləcək.”

Həmçinin, rəvayət edilir ki, Abdullah ibn İbrahim Quranı köçürməklə məşğul olar, onu kitab halına salıb müsəlmanlara hədiyyə edərmiş. Yenə bir gün Quranı köçürərkən birdən ürəyi tutdu və o, əlindəki kağız-qələmi bir kənara qoyub dedi: “Əgər bu mənim ölümümdürsə, necə gözəl ölümdür bu!” Sonra vəfat etdi.

Həmçinin, rəvayət edilir ki, Sufyan ölüm ayağında ikən yanındakılardan biri ona hədis danışdı. Onda Sufyan taxtın altından kağız-qələm çıxardıb həmin hədisi yazmağa başladı. Məclisdəkilər təəccüblə dedilər: “Bu halda da hədis yazırsan?!” Sufyan dedi: “Bəli, əgər həyatda qalsam, gözəl söz eşitmiş olaram, yox, əgər dünyadan köçsəm, gözəl söz qoyub getmiş olaram.”

Həmçinin, rəvayət edilir ki, Yəhya ibn Məin ölüm ayağında ikən tələbələri onun başına toplaşır, ona “Lə ilahə illəllah”ı dedirtməyə çalışır, lakin o, ölüm bihuşluğunun ağırlığından şəhadət kəlməsini deyə bilmir. Elə bu vaxt tələbələrindən biri, təəssüf hissi ilə deyir: “Sübhanəllah, o bizə rəvayət etmişdir ki, filankəs, filankəsdən, o da filankəsdən, o da filankəsdən o da Peyğəmbərdən ﷺ demişdir: “Kim bu dünyadan köçərkən axır kəlməsi “Lə ilahə illəllah” olarsa, Cənnətə daxil olar.” İbn Məin رحمه الله bunu eşidir. Diqqət edin qardaşlar, adam necə yaşamışdırsa, ona uyğun da ona sonluq nəsib olur. Bu böyük mühəddis, ömrü boyu Peyğəmbərin ﷺ hədislərini qorumuş, onun adından danışılan yalanları ondan uzaq etmişdir. Allah da ona bu çətin anda kömək edir! İbn Məin, tələbəsinin sözünü eşidir və deyir: “Dayan, sən səhv elədin.

Filankəs filankəsdən yox, filankəs, filankəsdən, o da filankəsdən, o da filankəsdən o da Peyğəmbərdən ﷺ demişdir: "Kim bu dünyadan köçərkən axır kəlməsi "Lə ilahə illəllah"... Bunu deyir və vəfat edir. Allah ona, son nəfəsində həm hədisin isnadının səhihliyini qorumağı, həm də "Lə ilahə illəllah" deməyi nəsib edir.

Həmçinin, rəvayət edilir ki, İbrahim ibn əl-Cərrah demişdir: "Əbu Yusuf ölüm yatağında ikən mən ona baş çəkdim. O, ölüm bihuşluğundan bayılmışdı. Nəhayət, özünə gəldikdə, mənə dedi: "Ey İbrahim, həcc ziyarətində şeytana daş atmaq barədə nə deyə bilərsən? Ayaq üstə atılır yoxsa minik üzərində?" Dedim: "Minik üzərində." Dedi: "Səhv edirsən." Dedim: "Ayaq üstə." Dedi: "Yenə səhv etdin." Dedim: "De görək, doğru olan nədir." Dedi ki: "Əgər daş atdıqdan sonra dayanıb dua edəcəksənsə, ayaq üstə atmaq daha əfzəl, yox, əgər dayanmayacaqsansa, onda minik üzərində atmaq daha əfzəldir." Sonra mən qalxıb getdim və qapıya çatdıqda ailəsinin ağlamaq səsinə geri dönüb baxdım ki, artıq vəfat edib. Allah ona rəhmət eləsin!

İmam əş-Şafiinin də bu xüsusda gözəl bir şeir parçası var. Deyir ki:

Ağlayırdın ey insan sən dünyaya gələndə,
Sevinib gülürdülər, insanlar yan-yörəndə.
Özün üçün gün ağla, elə işlər gör ki sən,
Onlar ağlayan zaman, sevinəsən güləsən.[1]

---

[1] Bəyan əhəmmiyyətul-vəqt, səh: 22.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اقْسِمْ لَنَا مِنْ خَشْيَتِكَ مَا تَحُولُ بِهِ بَيْنَنَا وَبَيْنَ مَعَاصِيكَ، وَمِنْ طَاعَتِكَ مَا تُبَلِّغُنَا بِهِ جَنَّتَكَ، وَمِنَ الْيَقِينِ مَا تُهَوِّنُ بِهِ عَلَيْنَا مَصَائِبَ الدُّنْيَا، وَمَتِّعْنَا بِأَسْمَاعِنَا، وَأَبْصَارِنَا، وَقُوَّاتِنَا مَا أَحْيَيْتَنَا، وَاجْعَلْهُ الْوَارِثَ مِنَّا، وَاجْعَلْ ثَأْرَنَا عَلَى مَنْ ظَلَمَنَا، وَانْصُرْنَا عَلَى مَنْ عَادَانَا، وَلَا تَجْعَلْ مُصِيبَتَنَا فِي دِينِنَا، وَلَا تَجْعَلِ الدُّنْيَا أَكْبَرَ هَمِّنَا، وَلَا مَبْلَغَ عِلْمِنَا، وَلَا تُسَلِّطْ عَلَيْنَا مَنْ لَا يَرْحَمُنَا ))

“Allahım, bizə Öz tərəfindən elə təqva bəxş et ki, o, bizimlə günahlar arasına sədd çəksin, Sənə itaət etmək üçün bizə elə qüdrət bəxş et ki, o, bizi Sənin Cənnətinə yetişdirsin və bizə elə yəqinlik bəxş ki, o, dünyadakı müsibətlərə səbir etməyi bizim üçün asanlaşdırsın! Habelə, bizi yaşatdıqca, qulağımızdan, gözümüzdən və gücümüzdən səmərəli istifadə etməyi bizə nəsib et və bunların hamısını bizim üçün qoyub gedəcəyimiz miras et! Bizə zülm edən kimsədən intiqam almağımız, habelə, bizimlə düşmənçilik edən kimsəyə qalib gəlməyimiz üçün bizə yardım et! Bizə göndərəcəyin müsibəti dinimizə aid etmə! Dünya malını da, bizim ən böyük arzumuz və ən ali qayəmiz etmə! Habelə, bizə rəhm etməyən kimsələri bizim üzərimizdə hökmran etmə!”[1]

[1] Sunən ət-Tirmizi, 3502; Səhih əl-Cami, 1268.

# Qırx birinci hədis

عَنْ أَبِي مُحَمَّدٍ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ:

"لَا يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى يَكُونَ هَوَاهُ تَبَعًا لِمَا جِئْتُ بِهِ".

حَدِيثٌ حَسَنٌ صَحِيحٌ، رَوَيْنَاهُ فِي كِتَابِ "الْحُجَّةِ" بِإِسْنَادٍ صَحِيحٍ.

Əbu Muhəmməd Abdullah ibn Amr ibn əl-As رضي الله عنهما rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən birinizin nəfsinin istəyi mənim gətirdiyimə tabe olmadıqca, *tam şəkildə* iman etmiş olmaz."[1]

Bu, həsən-səhih hədisdir. Biz bu hədisi "əl-Huccə" kitabından səhih isnadla rəvayət etmişik.[2]

Hərçənd, mühəddislərin bir qismi, İbn Rəcəb, Albani və digərləri bu hədisin isnadının zəif olduğuna görə onu "zəif" hesab etmişlər,[3] lakin bir çox mühəddislər bu hədisin mətninin mötəbər olduğunu bildirmişlər. İbn Həcər əl-Əsqqlani رحمه الله demişdir: "Beyhəqi "Sunən əl-Kubra" kitabının müqəddiməsində və İbn Abdulbərr "Bəyanul-İlm" əsərində mötəbər isnadlarla tabiinlərdən – Həsən əl-Bəsrinin, İbn Sirinin, Şureyhin, Şəbinin və Nəxəinin fikirlərini nəql etmişdir ki, nəfsin istəyinə uyub verilmiş qərar qəbulolunmaz bir hökmdür. Bunların hamısını isə, Əbu Hureyranın

---

[1] əs-Sunən əl-Kubra, əl-Beyhəqi, 1/188; Şərh əs-Sunnə, əl-Bəğəvi, 1/212; əs-Sunnə, ibn Əbu Asim, 1/12.

[2] İmam Nəvəvinin sözüdür.

[3] Camiul-Ulum vəl-Hikəm, 2/393.

ﷺ rəvayət etdiyi hədis cəm edir. Hədisdə Rəsulullah ﷺ demişdir: "Sizdən birinizin nəfsinin istəyi mənim gətirdiyimə tabe olmadıqca, *tam şəkildə* iman etmiş olmaz." Bu hədisi Həsən ibn Sufyan və başqaları rəvayət etmişlər. Hədisin isnadındakı ravilərin hamısı etibarlı ravilərdir."[1] Qeyd edək ki, bu hədisi, həmçinin, Bəğəvi "Şərh əs-Sunnə" əsərində, İbn Əbu Asim "Sunnə" əsərində və Beyhəqi "Sunən əl-Kubra" əsərində rəvayət etmişdir.

Şeyx İbn Useymin, Abdulmuhsin əl-Abbad, Abdurrəzzaq əl-Abbad, Saleh Ali Şeyx və başqa bir çox alimlər bu hədisin mənasının mötəbər olduğunu bildirmişlər. İslam alimlərinin bir qismi bu hədisin mənasının Quran ayəsində öz təsdiqini tapdığını demişlər. Bu xüsusda "ən-Nisa" surəsinin 65-ci ayəsində belə buyurulur: "Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar." Həmçinin, "əl-Əhzab" surəsnin 36-cı ayəsində buyurulur: "Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür." Həmçinin, "əl-Qəsəs" surəsinin 50-ci ayəsində Peyğəmbərə ﷺ belə buyurulur: "Əgər onlar sənə tabe olmasalar, bil ki, onlar nəfslərinin istəklərinə uymuşlar. Allahdan bir doğru yol göstəricisi gəlməyincə öz nəfsinin istəyinə uyandan daha çox azmış kim ola bilər?! Şübhəsiz ki, Allah zalım adamları doğru yola yönəltməz." Həm-

[1] Fəth əl-Bari, 13/289.

çinin, “ən-Nəcm” surəsinin 23-cü ayəsində belə buyurulur: “Onlar sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyil. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Onlar yalnız zənnə və nəfslərinin istəklərinə uyarlar. Halbuki Rəbbindən onlara doğru yolu göstərən rəhbər gəlmişdir.”

Şərh etdiyimiz hədisdə deyilir ki, sizdən birinizin nəfsinin istəyi mənim gətirdiyimə tabe olmadıqca, *tam şəkildə* iman etmiş olmaz. İbn Həcər ﷺ bu hədisi izah edərkən demişdir: “Adam Rəsulullahın ﷺ təbliğ etdiklərini sevməyincə, əmrlərini yerinə yetirib qadağan etdiyi işlərdən çəkinməyincə kamil imanlı mömin sayılmaz.”[1] “Hədisdə ərəbcə “həva/nəfsin istəyi” deyilir. Məlumdur ki, mütləq şəkildə “həva”– deyildikdə, haqqın əksinə meyl etmək nəzərdə tutulur. Necə ki, “Sad” surəsnin 26-cı ayəsində Uca Allah buyurur: “Nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar.” Həmçinin, “ən-Naziat” surəsnin 40-cı və 41-ci ayələrində Uca Allah buyurur: “Kim Rəbbinin hüzuruna gələcəyindən qorxmuş və nəfsinə ehtirası yasaq etmişsə, həqiqətən, *onun* gedəcəyi yer Cənnətdir.” Bəzən də, “həva” deyildikdə, sevmək və ümumiyyətlə meyl etmək, o cümlədən də haqqa meyl etmək qəsd edilir. Hətta bəzən “həva”– deyildikdə, xüsusi olaraq haqqı sevmək və ona tabe olmaq qəsd edilir. Səfvan ibn Əssaldan رضي الله عنه: “Sən Peyğəmbərdən ﷺ “həva/yəni sevmək” barədə bir söz eşitmisənmi?”– deyə soruşulduqda, o demişdir: “Bədəvilərdən biri Peyğəmbərdən ﷺ: “Adam bir kimsəni sevir, lakin onu görmək ona müvəffəq olmur”– deyə soruşmuş, Peyğəmbər ﷺ də ona be-

[1] Camiul-Ulum vəl-Hikəm, 2/395.

lə cavab vermişdir: "Kişi sevdiyi kimsə ilə bir yerdə olacaq."[1] Həmçinin, rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Uca Allah: "Onlardan dilədiyinin *səninlə gecələmək* növbəsini təxirə sala bilərsən, dilədiyini də öz yanına ala bilərsən..."– ayəsini nazil etdikdə mən Peyğəmbərə ﷺ dedim:

(( مَا أُرَى رَبَّكَ إِلاَّ يُسَارِعُ فِي هَوَاكَ ))

"Görürəm, Rəbbin yalnız sənin istəyini tez yerinə yetirir."[2] Həmçinin, Ömər ﵁ Bədr döyüşündə əsir götürülənlər haqqındakı məşvərət barədə danışarkən demişdir: "Rəsulullah ﷺ mənim dediyimə yox, Əbu Bəkrin dediyinə meyl etdi."[3] Ömərin ﵁ bu hədisdə işlətdiyi "həva" kəlməsi, istəmək, meyl etmək mənasını ifadə edir."[4]

İbn Rəcəbin bu izahından bizə aydın olur ki, mömin adam kamil iman sahibi olması üçün Peyğəmbərin ﷺ yolunu tutub getməli və onun Sünnəsinə tam şəkildə tabe olmalıdır. Bu xüsusda "Ali-İmran" surəsinin 103-cü ayəsində belə buyurulur: "De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumu gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın." Ayədən aydın başa düşülür ki, Peyğəmbərin ﷺ buyuruqlarını yerinə yetirməyən adam Allahın sevgisindən məhrum ola bilər. O insanlar ki, həm namaz

---

[1] Səhih İbn Hibban, 562; "Təliqat əl-Hisan alə Səhih İbn Hibban", Əbu Hatim əd-Darimi əl-Busti, 1318. Şeyx Albani bu kitabın təhqiqində bu hədisin "həsən-səhih" olduğunu bildirmişdir.

[2] Səhih əl-Buxari, 4788.

[3] Musnəd İmam Əhməd, 1/31; Səhih Muslim, 1763.

[4] Camiul-Ulum vəl-Hikəm, 2/398-399.

qılır, oruc tutur, həm də davamlı şəkildə zina edir, şərab içir, oğurluq edir və başqa bu kimi günah işlər görür, onların zahiri müsəlman olsa da, qəlbindəki iman tamamilə azalıb yox ola bilər. Necə ki, "əl-Hucurat" surəsinin 14-cü ayəsində buyurulur: "Bədəvilər: "Biz iman gətirdik!"– dedilər. De: "Siz *qəlbən* iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!"– deyin. İman sizin qəlbinizə hələ daxil olmamışdır." Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Zina edən adam zina etdiyi vaxt mömin sayıla bilməz. Şərab içən adam şərab içdiyi vaxt mömin sayıla bilməz. Oğurluq edən adam oğurluq etdiyi vaxt mömin sayıla bilməz."[1] Burada söhbət mömininin imanının kamilliyindən gedir. Belə ki, mömin bəndə hər dəfə günah işlətdikdə, imanı bir qədər azalır. Lakin qeyd etmək lazımdır ki, mömin böyük günah etdiyi zaman iman onu tərk edir, bu günahdan əl çəkdikdən sonra imanı yenidən özünə qayıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mömin zina etdiyi zaman iman ondan xaric olar və sanki bir bulud olar. Günahdan əl çəkdikdə isə yenidən özünə qayıdar."[2] Bu da dəlildir ki, iman mömini birdəfəlik tərk etmir. Yalnız açıq-aydın küfr edənlər – yəni bu günahları halal sayan kimsələr istisnadır. Belə ki, Allahın və Peyğəmbərinin ﷺ qadağan etidiyi bir şeyi halal sayan hər kəs kafir sayılır.

Bu deyilənlərdən bizə aydın olur ki, əgər adamın nəfsinin istəyi Peyğəmbərin ﷺ təbliğ etdiyinə tabe olmazsa, iman etmiş olmaz. Burada iman etmiş olmaz deyildikdə ümumən, kamil ima-

---

[1] Səhih əh-Buxari, 6782; Səhih Muslim, 57.

[2] Silsilətul-Əhadis əs-Səhihə, 509.

nın olmaması qəsd edilsə də, bəzi etiqadi məsələlərdə imanın əslinin aradan qalxması qəsd edilə bilər. Məsələn: əgər adam mömin olduğu halda, zina edir, şərab içir, oğurliq edir və başqa bu kimi günah işlər görürsə, bu günahlar onu iman dairəsindən çıxarmır, yəni adam kafir sayılmır. Lakin, əgər etiqad etsə ki, bu günahları etmək halaldır, dolayısıyla Quran və Sünnədə varid olanları inkar edib, nəfsinin istəyini önə çəkər və onu ilahiləşdirərsə, o zaman kafir sayılar. Bu xüsusda "əl-Casiyə" surəsinin 23-cü ayəsində belə buyurulur: "Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Allah *Öz əzəli* elmi sayəsində onu zəlalətə salmış, qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir. Allahdan başqa kim onu doğru yola yönəldə bilər?! Məgər düşünüb anlamırsınız?!"

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قُلُوبَنَا عَلَى دِينِكَ ))

"Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!"[1]

(( يَا مُصَرِّفَ الْقُلُوبِ، صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ ))

"Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt!"[2]

---

[1] Sunən ət-Tirmizi, 3517; Silsilə əl-Əhadis əs-Səhihə, 2091.

[2] Səhih Muslim, 2654.

# Qırx ikinci hədis

عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﵁ قَالَ: سَمِعْت رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: قَالَ اللَّهُ تَعَالَى: "يَا ابْنَ آدَمَ! إنَّكَ مَا دَعَوْتنِي وَرَجَوْتنِي غَفَرْتُ لَك عَلَى مَا كَانَ مِنْك وَلَا أُبَالِي، يَا ابْنَ آدَمَ! لَوْ بَلَغَتْ ذُنُوبُك عَنَانَ السَّمَاءِ ثُمَّ اسْتَغْفَرْتنِي غَفَرْتُ لَك، يَا ابْنَ آدَمَ! إنَّك لَوْ أَتَيْتنِي بِقُرَابِ الْأَرْضِ خَطَايَا ثُمَّ لَقِيتنِي لَا تُشْرِكُ بِي شَيْئًا لَأَتَيْتُك بِقُرَابِهَا مَغْفِرَةً".

رَوَاهُ التِّرْمِذِيُّ [رقم:٣٥٤٠]، وَقَالَ: حَدِيثٌ حَسَنٌ صَحِيحٌ.

Ənəs ibn Malik ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Uca Allah buyurur: "Ey Adəm övladı! Sən Mənə dua etdikcə və Mənə ümid bağladıqca, Mən sənin etdiyin günahları bağışlayar və *ona* əhəmiyyət verməRəm. Ey Adəm övladı! Əgər sənin günahların yerdən göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən, sonra da heç bir şeyi Mənə şərik qoşmadan Mənim hüzuruma çıxsan, Mən sənə tərəf yer dolusu məğfirət ilə gələrəm."

Bu hədisi İmam Tirmizi ﵀ rəvəyat etmiş və: "hədis həsən-səhih"dir demişdir.[1]

Bu hədisdə "Ey Adəm övladı"– deyildikdə, Allaha və Onun rəsuluna ﷺ iman gətirib tövbə edən kimsələr qəsd edilir. Belə ki, müşrik və kafir nə qədər Allaha yalvarsa, Allah onu bağışlamayacaq. Bu xüsusda "ən-Nisa" surəsinin 48-ci ayəsində belə buyuru-

---

[1] Sunən ət-Tirmizi, 3540; Silsilətul-Əhadisis-Səhihə, 127.

lur: "Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz." Həmçinin, bu surənin 168-ci ayəsində deyilir ki: "Kafirləri və zalımları Allah əsla bağışlamaz və *doğru* yola yönəltməz." Demək, bağışlanmasını istəyən müşrik və ya kafir olan kəs, etdiyi şirk və küfrə görə tövbə etməlidir. Necə ki, bu hədisin sonunda Uca Allah: "heç bir şeyi Mənə şərik qoşmadan Mənim hüzuruma çıxsan"– deyə buyurur. Demək, əgər adam tovhid əhlidirsə, yəni Allahın təkliyini qəbul edir və Ona heç kəsi şərik qoşmursa, bu halda etdiyi günahlara görə Allahdan bağışlanma diləsə və Onun mərhəmətinə ümid etsə, Allah onun günahlarının hamısını bağışlayar və günahın çoxluğuna və böyüklüyünə əhəmiyyət verməz. Necə ki, "əz-Zumər" surəsinin 53-cü ayəsində buyurulur: "*Qullarıma mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"

Demək, əgər günahkar adam Allaha dua etsə və Onun məğfirətinə ümid bağlasa, Allah onun bütün günahlarını, hətta şirki və küfrü belə bağışlayar. Lakin qeyd etmək lazımdır ki, böyük günah etmiş adamın sadəcə dili ilə: "Allahuməğ-firli, yaxud əstəğfirullah" yəni Allahım məni bağışla deməsi kifayət etmir. Duasının qəbul olunmasını istəyən adam, dua etməklə yanaşı, günahına görə Allaha tövbə də etməlidir ki, onun duası qəbul olsun. Tövbənin də beş şərti var ki, əgər bunlar yerinə yetirilsə, Allah Öz bəndəsinin günahını bağışlayar:

Birinci şərt, ixlasdır. Yəni, adam öz tövbəsini səmimi-qəlbdən Allah üçün etməlidir. Və əgər o, özünü insanlara göstərmək üçün

və ya kimdənsə qorxaraq tövbə edərsə, onun tövbəsi qəbul edilməz. Çünki ixlas, əməlin qəbul olunması üçün şərtdir. Bu haqda birinci hədisin şərhində ətraflı danışmışıq.

Tövbənin ikinci şərti, insanın etdiyi günahına görə qəlbən peşman olmasıdır.

Tövbənin üçüncü şərti budur ki, adam tövbə etdiyi əmələ bir daha qayıtmayacağına niyyət etməlidir.

Tövbənin dördüncü şərti budur ki, adam etdiyi günahı bir daha etməsin. Bu xüsusda "Ali-İmran" surəsinin 235-ci ayəsində belə buyurulur: "O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri *pis* işlərdə bilə-bilə israr etməzlər."

Tövbənin beşinci şərti də budur ki, tövbəni onun qəbul olunduğu vaxt etmək lazımdır. Tövbə isə, iki zamandan başqa hər zaman qəbul olur. O iki zaman bunlardır: ölüm bihuşluğu gəldiyi zaman və bir də Qiyamət günü – günəş batdığı yerdən doğduğu zaman. Ölüm bihuşluğu gəldiyi zaman tövbənin qəbul olunmaması barədə "ən-Nisa" surəsinin 18-ci ayəsində belə buyurulur: "Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!"– deyənlərlə, kafir kimi ölənlərin tövbəsi qəbul deyil." Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Bəndənin canı boğazına yetişənədək Allah onun tövbəsini qəbul edər."[1] Tövbənin qəbul olmadığı ikinci zaman isə Qiyamət günü – günəş

[1] Sunən ət-Tirmizi, 3880; Musnəd İmam Əhməd, 2/132; Səhih əl-Cami, 1903.

batdığı yerdən doğduğu zamandır. Bu xüsusda da, "əl-Ənam" surəsinin 158-ci ayəsində belə buyurulur: "Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcək." Ayədə zikr edilən əlamət barədə Peyğəmbər ﷺ demişdir: "Günəş batdığı yerdən doğmayınca Qiyamət qopmayacaq. Günəş *məğribdən* doğduğu zaman insanlar onu görəcək, yəni hamısı *bu haqiqətə* inanacaq, *lakin artıq iş işdən keçmiş olacaq*."[1] Yəni o vaxt artıq tövbə qəbul olunmayacaq.

Bu deyilənlərdən bizə aydın oldu ki, tövbəsinin qəbul olunmasını istəyən günahkar adam, tövbəni Allah üçün etməli, günah iş gördüyünə görə peşman olmalı, o günaha bir daha qayıtmayacağına niyyət etməli, sonra da o günahı bir daha etməməli və bir də tövbəni onun qəbul olunduğu vaxt etməlidir. Qeyd edək ki, tövbənin bu növü, bəndənin Öz Rəbbinin haqqına aid edilən günahlara aiddir. Lakin, əgər adam insan haqqına girib onlardan bir kimsəyə zülm etməklə günah iş görmüşdürsə, o zaman bu beş şərtlə yanaşı, zülm etdiyi adamın haqqını ödəməlidir ki, tövbəsi tam şəkildə qəbul olsun. Əks halda Allah onun günahını bağışlasa da, haqq sahibinin haqqı onun boynunda qalacaq və buna görə Qiyamət günü həmin haqqı öz savabları ilə ödəməli olacaq.

Tövbə ilə bağlı bir məsələyə də toxunmaq yerinə düşərdi. Bu da, tövbənin sonraya saxlanılmaması, dərhal yerinə yetirilməsi lazımdır. Bu xüsusda Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Tövbə et-

---

[1] Səhih əl-Buxari, 7121.

məyən kimsənin tövbəsi qəbul olunmaz."[1] İbn əl-Qeyyim bu məsələni belə izah etmişdir: "Görülən günaha görə dərhal tövbə etmək vacibdir. Bu tövbəni sonraya saxlamaq olmaz. Belə ki, adamın öz günahına görə edəcəyi tövbəni təxirə salması özü də bir günahdır. Belə olduğu təqdirdə, həmin adam öz günahına görə tövbə etməsindən əlavə, onu təxirə saldığına görə də tövbə etməlidir. Çoxları isə bu həqiqətdən qafildirlər."[2]

Sonra şərh etdiyimiz hədisdə deyilir ki: "Ey Adəm övladı! Əgər sənin günahların yerdən göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm." Bu dəlildir ki, Allaha şərik qoşmadan dünyadan köçmüş mömin adamın günahları bağışlanacaq. Lakin qeyd etmək lazımdır ki, onun günahlarının bağışlanması Allahın istəyinə bağlıdır, istərsə onu bağışlar, istərsə bağışlamaz. Necə ki, "ən-Nisa" surəsinin 48-ci ayəsində belə buyurulur: "Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar."

Şərh etdiyimiz hədis tövhidin – yəni Allahın tək ilah olduğunu qəbul etməyin əzəmətini bildirir. Belə ki, Allah tövhid xatirinə bütün günahları bağışlaya bilər. Bu xüsusda rəvayət edilmiş başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona *içində*

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[2] Mədaricus-Salikin, 1/272.

*günahları yazılmış* doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın həçmi gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına, içində "Lə iləhə illəllah, Muhəmmədən rəsulullah" yazılmış bir kağız parçası qoyulacaq. O, deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq."[1] Bu hədis dəlildir ki, kim yer dolusu günahla, Allaha şərik qoşmadığı halda Onun hüzuruna gələrsə, Allah istəsə onun günahlarını bağışlayar. Bu hədis həm də ona dəlalət edir ki, insan etdiyi əməllərə görə haqq-hesab çəkilmək üçün Allahın hüzuruna çıxacaq. Bu xüsusda "əl-Kəhf" surəsinin 110-ci ayəsində belə buyurulur: "Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!" Bu ayə və hədisdən aydın başa düşülür ki, Allah mömin bəndələrindən dilədiyi kimsələrin günahlarını bağışlayır. Odur ki, ağıllı mömin hər gün Allahdan bağışlanmağını diləyər. Necə ki, Peyğəmbər ﷺ, onun səhabələri və onların ardıcılları hər gün Allahdan bağışlanma diləyərdilər.

---

[1] Sunən ət-Tirmizi, 2850; Səhih Tərğib vət-Tərhib, 1533.

Hədislərin birində Peyğəmbər ﷺ öz ümmətinə gündəlik olaraq istiğfar etməyi buyurub demişdir: “Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Həqiqətən də, mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm!” Peyğəmbər ﷺ hər gün yüz dəfə “Əstəğfirullahə və ətubu ileyh” deyərmiş.

Aişə ؓ demişdir: “Rəsulullahın ﷺ duha namazını qıldıqdan sonra yüz dəfə:

(( اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

“Allahım, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!”– dediyini eşitmişəm.”

İbn Ömər ؓ demişdir: “Biz Peyğəmbərin ﷺ məclisində olanda onun yüz dəfə:

(( رَبِ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

“Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən də, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!”– dediyini sayardıq.”

Əbu Hureyra ؓ demişdir: “Mən Rəsulullahdan ﷺ daha çox: “Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!”– deyən bir kimsə görməmişəm.”

Rəvayət edilir ki, Möminlərin anası Aişə ؓ demişdir: “Peyğəmbər ﷺ mənim evimdə və başı mənim sinəmin üstündə ikən vəfat etdi. O, əllərini suyun içinə salır, sonra *yaş əllərini* üzünə sürtüb deyirdi: “Lə ilahə illəllah! Həqiqətən də, ölümün bihuşluğu vardır.” Sonra o, əllərini qaldırıb:

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

"Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!"– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əlləri yanına düşdü."

Bu hədislərdən bizə aydın olur ki, Peyğəmbərin ﷺ bizə öyrətdiyi istiğfarlardan istənilən biri ilə Allahdan bağışlanma diləmək olar. Allahdan bağışlanma diləməyə dair cürbəcür ləfzlərlə neçə-neçə "səhih" hədislər varid olmuşdur. Məsələn: "əstəğfirullah", yaxud "əstəğfirullah və ətubu ileyh", yaxud "Rabbiğ-firli", yaxud "Allahumməğ-firli və tub aleyyə innəkə əntət-təvvabur-rahim " və s. Lakin bunların ən möhtəşəmi, ən kamili və ən fəzilətlisi səhər-axşam edilən istiğfardır. Peyğəmbər ﷺ bunu "seyyidul-istiğfar/istiğfarların ən hörmətlisi" adlandırmışdır. Səbəbi də budur ki, onun ləfzi olduqca möhtəşəm mənaları özündə əks etdirir. Adam bu zikri etməklə Allahın Tək İlah olduğunu təsdiqləyir, Allah qarşısında qul olduğunu etiraf edir, Ona itaət edəcəyinə söz verir, Onun ruzi verən və günahları bağışlayan Rəbb olduğunu iqrar edir və nəhayət, Ona sığınır. Peyğəmbər ﷺ demişdir: "Ən fəzilətli istiğfar *budur*:

(( اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلاَّ أَنْتَ خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ وَأَبُوءُ لَكَ بِذَنْبِي فَاغْفِرْ لِي فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ ))

“Allahım, Sən mənim Rəbbimsən! Səndən başqa *haqq* məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan.”

Sonra Peyğəmbər ﷺ davam edib demişdir: “Hər kim bunu axşam çağı oxuduqdan sonra ölərsə, Cənnətə girər, yaxud Cənnət əhlindən olar. Həmçinin, səhər oxuduqdan sonra ölərsə, Cənnətə girər, yaxud Cənnət əhlindən olar.”[1]

Allah bizə hər gün Allahdan bağışlanma diləməyi nəsib etsin! Beləliklə, biz, Allahın izni ilə İmam Nəvəvinin رحمه الله topladığı qırx iki hədisin şərhini başa çatdırdıq. Bundan sonrakı dərslərimizdə, İbn Rəcəbin رحمه الله bu hədislərə əlavə etdiyi səkkiz hədisi də, şərh edəcək və bununla da, əlli hədisin şərhini tamamlayacağıq, in şaa Allah.

Sonda, hamımızın adından Allaha dua edib deyirik:

﴿رَبَّنَا لَا تُؤَاخِذْنَآ إِن نَّسِينَآ أَوْ أَخْطَأْنَاۚ رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَآ إِصْرًا كَمَا حَمَلْتَهُۥ عَلَى
ٱلَّذِينَ مِن قَبْلِنَاۚ رَبَّنَا وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعْفُ عَنَّا وَٱغْفِرْ لَنَا وَٱرْحَمْنَآۚ أَنتَ
مَوْلَىٰنَا فَٱنصُرْنَا عَلَى ٱلْقَوْمِ ٱلْكَٰفِرِينَ﴾

“Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə

[1] Səhih əl-Buxari, 6306.

yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!"[1]

(( رَبِّ اغْفِرْ لَنَا خَطِيئَتَنَا وَجَهْلَنَا وَإِسْرَافَنَا فِي أَمْرِنَا كُلِّهِ وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنَّا، اللَّهُمَّ اغْفِرْ لَنَا هَزْلَنَا وَ جِدَّنَا وَ خَطَايَانَا وَعَمْدَنَا وَكُلُّ ذَلِكَ عِنْدَنَا، اللَّهُمَّ اغْفِرْ لَنَا مَا قَدَّمْنَا وَمَا أَخَّرْنَا وَمَا أَسْرَرْنَا وَمَا أَعْلَنَّا أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

"Ey Rəbbim, bizim günahımızı, bilmədiklərimizi, bütün işlərimizdə israfa yol verməyimizi və bizdən daha yaxşı bildiyin şeyləri bağışla. Allahım, bizim zarafatla və ya ciddi olaraq, səhvən və ya bilərəkdən etdiyimiz xətalarımızı bağışla! Bunların hamısının bizdə olması mümkündür. Allahım, bizim əvvəl etdiyimiz, sonra edəcəyimiz, gizlin saxladığımız və aşkara çıxardığımız pis əməllərimizi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən və Sən hər şeyə qadirsən."[2]

---

[1] əl-Bəqərə, 286.

[2] Səhih əl-Buxari, 6399.

# Qırx üçüncü hədis

عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ قَالَ: "أَلْحِقُوا الْفَرَائِضَ بِأَهْلِهَا، فَمَا أَبْقَتَ الْفَرَائِضُ فَلِأَوْلَى رَجُلٍ ذَكَرٍ".

رواه البخاري [رقم: ٦٧٣٢]، ومسلم [رقم: ١٦١٥].

İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Fərz buyurulmuş miras paylarını sahiblərinə verin. Yerdə qalanı isə *ata tərəfdən* ən yaxın olan kişilərə verilir."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədis, mirası bölmək mövzusunda rəvayət edilmiş təməl hədislərdən sayılır. Bu hədisdə "fərz buyurulmuş miras" deyildikdə, Allahın kitabında, daha dəqiq desək, "ən-Nisa" surəsinin 11-ci , 12-ci və bir də 176-cı ayələrində zikr edilən bölgü qəsd edilir. Bunlar da altı növdür: mirasın üşdə ikisi, üçdə biri, altıda biri, yarısı, dörddə biri və səkkizdə biri. Müxtəsər olaraq isə belə deyilir: üçdə ikisi, üçdə ikisinin yarısı, üçdə ikisinin yarısının yarısı, yarısı, yarısının yarısı, yarısının yarısının yarısı. Yaxud belə deyilir: səkkizdə biri, səkkizdə birin iki misli, səkkizdə birin iki mislinin iki misli, altıda biri, altıda birin iki misli, altıda birin iki mislinin iki misli. Yaxud da belə deyilir: üçdə biri, üçdə birinin iki misli, üçdə birinin yarısı, dörddə biri, dörddə birinin iki misli və dörddə birinin yarısı.

---

[1] Səhih əl-Buxari, 6732; Səhih Muslim, 1615.

Qurani Kərimdə şərtsiz olaraq miras payı düşən adamlar bunlardır: Ölənin övladları və ata tərəfdən bacı və qardaşları eyni zamanda mövcud olsalar. Bu zaman əgər övladlar həm oğlan, həm də qızlardan ibarətdirsə, kişiyə iki qadının payı qədər pay düşür. Yox, əgər övladlar yalnız qızdırsa və birdən çoxdursa, onda *vəfat edənin* qoyub getdiyi *malın* üçdə iki hissəsi onlara çatır. Övlad bir qız olduğu təqdirdə isə, *mirasın* yarısı ona çatır. Bu bölgü qızlar eyni rütbədən olduğu təqdirdə keçərlidir. Məsələn: Qız övladları ölənin yalnız qızlarıdır və ya yalnız oğlundan olan qız nəvələridir.

Yox, əgər qızlar müxtəlif rütbələrdən olarlarsa, onda vəfat edənin öz qızları birdən çox olduğu təqdirdə oğlunun qızlarına heç bir pay düşmür. Çünki *malın* üçdə iki hissəsinin hamısı vəfat edənin öz qızlarına düşür.

Əgər qızlar müxtəlif rütbədən olarlarsa və vəfat edənin yalnız bir qızı və bir də oğlunun qızları qalarsa, onda öz qızına malın yarısı, oğlunun qızlarına isə bir və ya bir neçə qız olmasından asılı olmayaraq malın üçdə ikisinin digər yarısı, yəni malın altıda biri çatır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mirasın yarısı qıza, altıda biri də oğulun qızına çatır ki, bu da miras payının üçdə ikisinin digər yarısıdır. Yerdə qalanı isə bacıya çatır."[1]

Əgər vəfat edənin sağ qalan övladları yalnız kişilərdən ibarətdirsə və sayları birdən çoxdursa, onda istər vəfat edənin yalnız öz oğlanları qalsın, istər də öz oğlanları sağ olmadığı təqdirdə yalnız oğlunun oğlanları qalsın, fərq etmir, miras onların arasında bərabər səviyyədə bölünür.

[1] Səhih əl-Buxari, 6736.

Əgər vəfat edənin yalnız bir oğlu və ya yalnız oğlunun bir oğlu qalıbsa, onda mirasın hamısı həmin şəxsə çatır.

Vəfat edənin doğma qardaşlarının və ata qardaşlarının miras bölgüsü də övladların miras bölgüsü kimi aparılır. Yəni, doğma qardaş atabir qardaşdan bir pillə önə çəkilir. Belə ki, varislər yalnız doğma qardaşlardırsa, yaxud yalnız atabir qardaşlardırsa və sayları da birdən çoxdursa, onda miras onların arasında bərabər miqdarda bölünür.

Əgər varislər həm qardaşdan, həm də bacıdan ibarətdirsə, onda kişiyə iki qadının payı qədər pay düşür.

Əgər varis yalnız bir bacıdırsa, onda ona mirasın yarısı düşür. Yox, əgər varislər yalnız bacılardırsa və birdən çoxdurlarsa onda onlara mirasın üçdə ikisi çatır.

Vəfat edənin doğma qardaşları sağ qalmadığı təqdirdə atabir qardaşlarına düşən miras payı doğma qardaşlarında olduğu kimi bölünür.

Əgər vəfat edənin yalnız bir doğma bacısı qalarsa, onda o mirasın yarısını götürür. Əgər doğma bacı ilə bərabər vəfat edənin bir və ya bir neçə atabir bacıları da qalarsa onda saylarından asılı olmayaraq atabir bacılara mirasın üçdə ikisinin digər yarısı, yəni altıda biri çatır.

Əgər vəfat edənin bir övladı və hər iki valideyni qalıbsa onda valideynlərin hər birinə mirasın altıda biri düşür. Əgər bu halda sağ qalan övlad qız olarsa, onda təyin olunan bölgülər aparıldıqdan sonra vəfat edənin atasına yerdə qalan miras payı da düşür.

Əgər vəfat edənin heç bir övladı qalmazsa, onda mirasın üçdə biri anaya, yerdə qalanı isə ataya düşür. Əgər bu halda valideyn-

lərlə yanaşı vəfat edənin həyat yoldaşı da qalarsa, onda həyat yoldaşı öz miras payını götürdükdən sonra yerdə qalanın üçdə biri anaya çatır. Bu iki bölgüyə Ömərin bölgüləri deyilir. Çünki möminlərin əmiri Ömər ibn əl-Xattab bu cür bölgü aparmışdır.

Əgər vəfat edənin istər doğma qardaşları, istər atabir qardaşları, istərsə də anabir qardaşları qalıbsa, onda anaya mirasın altıda biri, ata olmadığı təqdirdə atanın atasına, yəni ata babasına isə ataya düşən miras payı düşür. Bu halda ana olmadıqda mirasın altıda birini nənə götürür. Nənənin ata tərəfdən və ya ana tərəfdən olması fərq etmir. Həm ata tərəfdən, həm də ana tərəfdən nənə olduqda, onda nənələr altıda birə şərik olurlar.

Əgər vəfat edənin valideyni və övladı olmadığı halda ana tərəfdən yalnız bir bacısı və ya bir qardaşı qalarsa, onda həmin şəxsə mirasın altıda biri düşür. Əgər onun ana tərəfdən bir neçə qardaşları, və ya bir neçə bacıları, yaxud da həm qardaşları, həm də bacıları qalarsa, onda onlar mirasın üçdə birinə şərikdirlər. Bu bölgüdə kişi ilə qadın arasında heç bir fərq yoxdur.

Ər və arvadın mirasına gəlincə bu bölgü aşağıdakı kimidir: Əgər vəfat edən qadındırsa və onun övladları yoxdursa, onda kişiyə mirasın yarısı çatır. Övladları olduğu təqdirdə isə kişiyə mirasın dörddə biri çatır. Əgər vəfat edən kişidirsə və onun övladları yoxdursa, onda qadına mirasın dörddə biri çatır. Övladları olduğu təqdirdə isə qadına mirasın səkkizdə biri çatır. Əgər vəfat etmiş kişinin bir neçə zövcəsi qalarsa, onda *kişinin övladlarının olub olmamasına uyğun olaraq* onlar ya dörddə birə, ya da səkkizdə birə şərik olurlar.

Uca Allah miras paylarını Öz Kitabında üç ayədə zikr etmişdir. Birincisi, "ən-Nisa" surəsinin 11-ci ayəsidir. Həmin ayədə belə buyurulur: "Allah sizə övladlarınız haqqında, kişiyə iki qadının payı qədər *pay verilməsini* buyurur. Əgər *övladlar* ikidən artıq sayda qadındırsa, *vəfat edənin* qoyub getdiyi *malın* üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, *mirasın* yarısı ona çatır. *Ölənin* övladı olduğu təqdirdə, onun valideynlərindən hər birinə, qoyub getdiyi *malın* altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də *ancaq* valideynləridirsə, onun anasına *mirasının* üçdə bir hissəsi düşür. Əgər *ölənin* qardaşları *və ya bacıları* varsa, onun anasına *mirasın* altıda bir hissəsi düşür. *Bu bölgü* ölənin vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra *aparılır*. Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilməzsiniz. *Bunlar* Allah tərəfindən fərz buyurulmuş *paylardır*. Həqiqətən, Allah *hər şeyi* biləndir, hikmət sahibidir." Bu ayə, nəsəbin iki təməlinin, yəni valideynlərin və övladların miras payları barəsindədir.

Miras barədə nazil olmuş ikinci ayə isə "ən-Nisa" surənin 12-ci ayəsidir. Bu ayədə belə buyurulur: "Əgər *vəfat etmiş* zövcələrinizin övladı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra qoyub getdikləri *malın* yarısı sizindir. Onların övladı olduğu təqdirdə isə qoyub getdiklərinin dörddə bir hissəsi sizə çatır. Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və borcunuz ödənildikdən sonra qoyub getdiyiniz *malın* dörddə bir hissəsi zövcələrinizindir. Övladınız olduğu təqdirdə isə qoyub getdiyiniz *malın* səkkizdə bir hissəsi zövcələrinizə çatır. *Vəfat etmiş* kişinin və ya qadının valideyni və övladı ol-

madığı halda malı varislərə qalarsa *və eyni anadan* bir qardaşı yaxud bir bacısı varsa, onda onların hər birinə *mirasın* altıda bir hissəsi düşür. Əgər onlar *sayca* bundan artıq olsalar, *mirasın* üçdə birinə şərikdirlər. *Bu bölgü, varislərə* zərər yetirməmək şərti ilə vəsiyyətin yerinə yetirilməsindən və borcun ödənilməsindən sonra *aparılır*. *Bunlar* Allah tərəfindən bir buyruqdur. Allah *hər şeyi* biləndir, həlimdir." Bu ayə də ər arvadın və ana tərəfdən olan qardaşların miras payları barəsindədir.

Miras barədə nazil olmuş üçüncü ayə isə "ən-Nisa" surəsinin 176-cı ayəsidir. Həmin ayədə belə buyurulur: "Səndən fitva istəyirlər. De: "Valideyni və övladı olmayan kəsin *mirası* barəsində fitvanı sizə Allah verir: "Övladı olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır. Əgər *ölmüş bacının* övladı yoxdursa, qardaşı ona varis olur. Əgər *varislər* iki bacıdırsa, *ölən qardaşın* qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır. Əgər *varislər* qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər *pay* düşür." Allah bunu sizə bəyan edir ki, *haqq* yoldan sapmayasınız. Allah hər şeyi bilir." Bu ayə isə doğma qardaşların və atabir qardaşların miras payları barəsindədir.

Əvvəldə zikr etdiklərimizdən ümumi olaraq belə aydın olur ki, vəfat edənin oğlanları, oğlanlarının oğlanları, hətta bundan da aşağı rütbədə olan oğlan uşaqları ilə yanaşı qız övladları da olarsa, onda onlar miras payında şərikdirlər və kişiyə iki qadının payı qədər pay düşür.

Doğma qardaşlar və atabir qardaşlarla da bacıları mirasda şərik olurlar və kişiyə iki qadının payı qədər pay düşür. Anabir qardaşın oğlanlarına isə mirasdan heç bir pay düşmür.

Doğma və atabir qardaşın oğlanlarına, habelə əmilərə və onlardan yuxarı rütbədə olanlara, əmioğullarına və ondan aşağı rütbədə olanlara gəldikdə, bu kişilər ayrı ayrılıqda öz bacılarına nisbətən müstəqil miras payına sahibdirlər. Çünki həmin qadınlara *(yəni, əvvəlki cümlədə adları çəkilən kişilərin ayrı ayrılıqda bacılarına)* tək qalsalar belə miras payı düşmür. Həmçinin, bu qadınların, kişilərlə birlikdə də miras payları yoxdur. Mirasdan yalnız həmin kişilərə pay düşür. Bu xüsusda varid olan hədisdə belə deyilir: "Fərz buyurulmuş miras paylarını sahiblərinə verin. Yerdə qalanı isə *ata tərəfdən* ən yaxın olan kişilərə verilir."

Əgər vəfat edənin bir qızı, və ya bir neçə qızı və qoğma bacısı, yaxud da doğma bacıları ilə yanaşı atabir qardaşları da qalıbsa, onda atabir qardaşlara heç bir miras payı düşmür. Qızların fərz buyurulmuş miras payları verildikdən sonra yerdə qalan miras payı doğma bacı və ya doğma bacılara verilir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mirasın yarısı qıza, altıda biri də oğulun qızına çatır ki, bu da miras payının üçdə ikisinin digər yarısıdır. Yerdə qalanı isə bacıya çatır."[1]

Belə olduğu təqdirdə doğma bacılar Peyğəmbərin ﷺ "Fərz buyurulmuş miras paylarını sahiblərinə verin. Yerdə qalanı isə *ata tərəfdən* ən yaxın olan kişilərə verilir" hədisindən istisna olurlar. Çünki doğma bacılar atabir qardaşa nisbətən vəfat edənə daha yaxındır.

Hədisdə kişi sözündən sonra erkək, yəni kişi cinsi sözünün zikr olunmasının faydası budur ki, bu məsələdə kişi böyük sayı-

---

[1] Səhih əl-Buxari, 6736.

lır. Habelə mərdlik və güc kişi cinsində olur. Bu səbəbdən də kişi sözünə kişi cinsi sözü də əlavə edildi ki, mirasın kişiliyə və gücə deyil, məhz kişi cinsinə bağlı olduğu bəyan olunsun. Demək, bu məsələdə yaşının böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq kişilər eyni səviyyədədir.

Bu hədis şəriətin kamilliyinə və onun özündə ümumi qaydaları şamil etməsinə dəlalət edir. Həmçinin, miras verilməsi fərz buyurulmuş adamların önə çəkilməsini, onların payları verildikdən sonra isə yerdə qalan mirasın şərtsiz olaraq miras payı alan şəxslərə verilməsini bildirir.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ. اهْدِنَا لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ ))

“Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda bizi Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən.”[1]

---

[1] Səhih Muslim, 1/534.

## Qırx dördüncü hədis

عَنْ عَائِشَةَ رضي الله عنها عَنِ النَّبِيِّ ﷺ قَالَ: " الرَّضَاعَةُ تُحَرِّمُ مَا تُحَرِّمُ الْوِلَادَةُ".

رواه البخاري [رقم:٢٦٤٦]، ومسلم [رقم:١٤٤٤].

Aişə رضي الله عنها rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qan qohumlarına haram buyrulan şeylər, süd qohumlarına da haram buyrulmuşdur."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədis dəlildir ki, oğlan uşaqlarına süd vermiş qadınlar və onların qızları onlara məhrəm sayılır. "ən-Nisa" surəsinin 23-cü ayəsi də buna dəlildir. Həmin ayədə Uca Allah kişilərə süd anaları və süd bacıları ilə evlənməyi haram buyurur. Deməк, əgər bir qadın oğlan uşağına süd vermişdirsə, o qadın onun süd anası, qadının atası və babası onun süd babası, anası və nənəsi də onun süd nənəsi sayılırlar. Habelə, qadının qardaşları onun süd dayıları, bacıları da onun süd xalaları sayılırlar. Həmçinin, o qadının uşaqları, istər bir kişidən, istər ayrı-ayrı kişilərdən olan ana bir ata ayrı övladlar olsun, onlar da bu uşağın süd qardaş-bacıları sayılır. Uşağa süd vermiş qadının əri də, o uşağın süd atası, bu kişinin atası və babası o uşağın süd babası, anası və nənəsi də, onun süd nənəsi sayılırlar. Həmçinin, o kişinin qardaşları uşağın süd əmiləri, bacıları da onun süd bibiləri sayılırlar. Həmçinin, o kişinin di-

[1] Səhih əl-Buxari, 2646, 3105 və 5099; Səhih Muslim, 1444.

gər həyat yoldaşları o uşağa məhrəm sayılır və o kişinin həmin qadınlardan olan övladları da, bu uşağın süd qardaş və bacıları sayılırlar.

Uşağa süd vermiş qadına qohum olan kişilərin də uşağa məhrəm sayılmasına dair dəlil, İmam Buxarinin rəvayət etdiyi hədisdir. Həmin hədisdə xəbər verilir ki, Aişə ﵂ demişdir: "Hicab ayəsi nazil olduqdan sonra bir gün Əbul Queysin qardaşı Əfləh içəri girmək üçün izn istədi. Mən öz-özümə dedim: "Mən Peyğəmbərdən ﷺ izn istəməyincə onu evə buraxmayacağam. Çünki mənə Əbul Queysin qardaşı yox, onun zövcəsi süd verib." Peyğəmbər ﷺ mənim yanıma gəldikdə dedim: "Ya Rəsulullah, Əbul Queysin qardaşı Əfləh içəri girmək üçün izn istədi, lakin mən sənin iznin olmadan onun içəri daxil olmasına razılıq vermədim." Peyğəmbər ﷺ dedi: "Niyə ona izn vermədin?! O ki sənin əmindir!" Mən dedim: "Ya Rəsulullah, axı mənə Əbul Queysin qardaşı yox, onun zövcəsi süd verib." Peyğəmbər ﷺ buyurdu: "Burax onu gəlsin, o, sənin əmindir, ay yazıq."[1]

Qeyd etmək lazımdır ki, qadın əmizdirdiyi uşağı iki yaşınadək, beş dəfə və daha artıq əmizdirməlidir ki, o uşaq ona məhrəm sayılsın. Belə ki, körpəni beş dəfədən az əmizdirmək və bir də iki yaşdan yuxarı uşağı əmizdirmək bu hökmə aid edilmir. O ki qaldı İmam Muslimin "Səhih"ində, rəvayət edilmiş Əbu Huzeyfənin azad etdiyi köləsi Salimin əhvalatına,[2] bu hökm yalnız Salimə məxsusdur və başqasına tətbiq edilmir. Əgər başqasına da aid

[1] Səhih əl-Buxari, 4796.

[2] Səhih Muslim, 1453.

edilməsi caiz olmuş olsaydı, sonralar səhabələr bu hökmü tətbiq edərdilər.

Yeri gəlmişkən qeyd edək ki, islam şəriətinə görə məhrəmlər iki qismə bölünür:

1) Ömürlük məhrəm olanlar;

2) Və bir də müəyyən vaxtadək məhrəm sayılanlar.

Ömürlük məhrəm sayılanların özləri də üç sinfə bölünür:

1-cisi, nəsəbcə məhrəm sayılanlardır. Bunların da sayı yeddidir. "ən-Nisa" surəsinin 23-cü ayəsində deyilir: "Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş qızları, bacı qızları haram edildi."

Burada analarınız deyildikdə, həmçinin, kişinin həm ata nənəsi, həm də ana nənəsi aid edilir. Yəni, şəriət insana anası və ya nənələri ilə evlənməyi haram etmişdir.

Həmçinin, qızlarınız deyildikdə, bura qız və ya oğul nəvələri də aid edilir. Yəni, kişiyə öz qızı ilə, habelə, qızının və ya oğlunun qızları, yaxud onların nəvələri ilə evlənmək haram sayılır.

Həmçinin, bacılarınız deyildikdə, buna həm doğma bacılar, həm də ögey bacılar aid edilir. Yəni kişiyə atabir və ya anabir bacıları ilə də evlənmək haramdır.

Həmçinin, bibiləriniz deyildikdə, kişiyə nəinki öz bibisi ilə, hətta öz atasının yaxud öz babasının bibisi ilə, eləcə də anasının və ya nənəsinin bibisi ilə evlənmək haram edilmişdir.

Xalalarınız deyildikdə də həmçinin, kişiyə öz atasının yaxud babasının xalası ilə, eləcə də anasının və ya nənəsinin xalası ilə evlənmək haram buyurulmuşdur.

Həmçinin, qardaş qızları deyildikdə, buna həm doğma qardaşın, həm də ögey qardaşın qızları aid edilir. Üstəlik, bu qızların qızları da aid edilir. Yəni kişiyə qardaşının qızları və ya onun qız nəvələri, hətta qız nəticələri ilə evlənmək haram sayılır.

Eləcə də bacı qızları deyildikdə, buna həm doğma bacının, həm də ögey bacının qızları aid edilir. Üstəlik, bu qızların qızları da aid edilir. Yəni kişiyə bacısının qızları və ya onun qız nəvələri, hətta qız nəticələri ilə evlənmək haram sayılır.

Bir məsələni xüsusi olaraq qeyd edək, bayaq sadaladığımız məhrəmlər arasında nənələrin, hətta nənələrin bibilərinin və nənələrin xalalarının olması sizi təəccübləndirməsin. İndikilərə bu qəribə gələ bilər, lakin qədimdə insanlar qoca yaşında ikinci dəfə ailə qurduqda, kişinin birinci həyat yoldaşından olan oğlunun oğlu ilə ikinci həyat yoldaşından olan qızı həmyaşıd ola bilərdilər, halbuki, qız həmin oğlanın bibisi hesab edilirdi. Cahilliyyə dövründə belə evliliklərə rast gəlinirdi deyə, İslam dini bunu haram buyurdu.

Ömürlük məhrəm sayılan 2-ci sinif, şərh etdiyimiz hədisdə qeyd edilən, əmizdirmə yolu ilə məhrəm olanlardır. Yəni, əgər qadın körpəyə beş dəfədən artıq süd vermişdirsə, artıq həmin uşaq bu qadına məhrəm sayılır və artıq həmin oğlan uşağına, bayaq sadaladığımız yeddi sinif qadınların hamısı məhrəm sayılır, yəni onlarla evlənmək ömürlük olaraq ona haram sayılır.

Ömürlük məhrəm sayılan 3-ci sinifə gəlincə, bunlar izdivacdan dolayı məhrəm sayılan qadınlardır. İndi sadalayacaqlarımız buna aiddir.

1-cisi, atanın yaxud babanın zövcələridir. Yəni kişiyə öz atasının və ya istər ata, istər ana babasının boşadığı zövcəsi ilə evlənmək haram sayılır. Bu xüsusda "ən-Nisa" surəsinin 22-ci ayəsində deyilir: "Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin."

2-cisi, oğulun, həmçinin, istər oğul istərsə qız nəvəsinin və ya nəticəsinin zövcələridir. Bu xüsusda "ən-Nisa" surəsinin 23-cü ayəsində deyilir: "Sizə öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək haram buyurulmuşdur." Xüsusi ilə qeyd etmək lazımdır ki, kişi qadınla kəbin kəsdikdən sonra aralarında yaxınlıq olmasa belə, onu boşayarsa, o kişinin atasına və ya babasına həmin qadınla evlənmək ömürlük haram sayılır.

3-cüsünə gəlincə, buna zövcənin anası yəni qaynana, habelə, onun anası və hətta ata və ya ana nənəsi də aiddir. Bu xüsusda "ən-Nisa" surəsinin 23-cü ayəsində deyilir: "Sizə arvadlarınızın anaları ilə evlənmək haram edilmişdir." Burada da xüsusi ilə qeyd etmək lazımdır ki, kişi qadınla kəbin kəsdikdən sonra aralarında yaxınlıq olmasa belə, onu boşayarsa, o qadının anası və nənələri həmin kişiyə ömürlük məhrəm sayılır.

4-cüsü ögey qızlar, habelə, ögey oğulların və ya ögey qızların qızları, hətta onların qız nəvələri də buna aiddir. Bu xüsusda "ən-Nisa" surəsinin 23-cü ayəsində deyilir: "Sizə yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınızla evlənmək haram buyurulmuşdur. Yox, əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda onların qızları ilə evlənməyiniz sizə günah deyildir." Ayədən aydın başa düşülür ki, kişinin kəbini altına aldığı, lakin yaxınlıq etmədən boşadığı qadının qızı və ya qız nəvələri ilə evlənmək haram sayılmır. Yəni artıq o qızlar ona naməhrəm sayılırlar.

Bütün bu sadaladıqlarımız, birinci qism, yəni ömürlük məhrəm sayılanlara aid idi.

İkinci qism məhrəmlərə gəlincə, bunlar, müəyyən vaxtadək məhrəm sayılan qadınlardır.

Bunlara, zövcənin bacısı, xalası və bibisi aiddir. Müvəqqəti məhrəm sayılmaları o deməkdir ki, kişi zövcəsini boşayanadək yaxud ölüm onları ayıranadək həmin qadının bacısı, xalası və bibisi ona məhrəm sayılır. Zövcəsini boşadığı və ya zövcəsi vəfat etdiyi təqdirdə isə həmin qadınlardan istədiyi birisini ala bilər. Bu xüsusda "ən-Nisa" surəsinin 23-cü ayəsində deyilir: "Sizə iki bacını birlikdə almaq haram edildi." Həmçinin, İmam Buxarinin "Səhih"ində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Qadını onun xalası və ya onun bibisi ilə birlikdə almaq qadağandır."

Həmçinin, əri tərəfindən boşanmış və iddə müddətini gözləyən qadınları da bu qismə aid etmək olar. Belə olduğu halda qadının iddəsi bitənədək onunla nikaha girmək və ya ona elçi göndərmək qadağandır.

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ انْفَعْنَا بِمَا عَلَّمْتَنَا، وَعَلِّمْنَا مَا يَنْفَعُنَا، وَزِدْنَا عِلْمًا ))

"Allahım! Bizə öyrətdiklərin sayəsində bizə fayda ver, fayda verəcək şeyləri bizə öyrət və bizim elmimizi artır!"[1]

[1] Səhih İbn Macə, 1/47.

# Qırx beşinci hədis

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنهما أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ عَامَ الْفَتْحِ وَهُوَ بِمَكَّةَ يَقُولُ: "إِنَّ اللَّهَ وَرَسُولَهُ حَرَّمَ بَيْعَ الْخَمْرِ وَالْمَيْتَةِ وَالْخِنْزِيرِ وَالْأَصْنَامِ، فَقِيلَ: يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ شُحُومَ الْمَيْتَةِ فَإِنَّهَا يُطْلَى بِهَا السُّفُنُ، وَيُدْهَنُ بِهَا الْجُلُودُ، وَيَسْتَصْبِحُ بِهَا النَّاسُ؟ فَقَالَ: لَا، هُوَ حَرَامٌ، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ عِنْدَ ذَلِكَ: قَاتَلَ اللَّهُ الْيَهُودَ، إِنَّ اللَّهَ حَرَّمَ عَلَيْهِمِ الشُّحُومَ، فَأَجْمَلُوهُ، ثُمَّ بَاعُوهُ، فَأَكَلُوا ثَمَنَهُ".

رواه البخاري [رقم: ٢٢٣٦]، ومسلم [رقم:١٥٨١].

Rəvayət edilir ki, Cabir ibn Abdullah رضي الله عنهما Məkkənin fəth edildiyi il Peyğəmbərin ﷺ Məkkədə ikən belə dediyini eşitmişdir: "Allah və Onun rəsulu şərabın, ölü heyvanın, donuzun və bütlərin satılmasını haram etmişdir." *Səhabələr* dedilər: "Ya Rəsulullah, ölü heyvanın piyi haqqında nə deyə bilərsən? Belə ki, onunla gəmilər cilalanır, dərilər yağlanır və insanlar onun vasitəsilə *olduqları yeri* işıqlandırır." Peyğəmbər ﷺ: "Xeyr, bu haramdır!"– deyə buyurdu, sonra da əlavə edib dedi: "Allah yəhudiləri məhv etsin! Allah onlara heyvanın piyini haram buyurduqda, onlar onu əridib satdılar və pulunu yedilər."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədisdə Cabir رضي الله عنه Peyğəmbərin ﷺ bu şeyləri Məkkənin fəthi zamanı haram buyurduğunu xəbər verir. Sadəcə həmin vaxt-

[1] Səhih əl-Buxari, 2236 və 4633; Səhih Muslim, 1581.

da və həmin yerdə, islamı qəbul edən kafirlərə bəyan etmək üçün bu şeylərin haram olduğu onlara bildirilmişdir. Yoxsa ki, bu şeylərin hamısının bundan əvvəl artıq haram buyurulduğu istisna edilmir.

Bu hədisdə Peyğəmbər ﷺ dörd şeyin satılmasını haram buyurur. Şəriətin qoyduğu qaydaya əsasən, Allah nəyin yeyilməsini haram buyurmuşdursa, onu satmaq və qazanc əldə etmək də, haram sayılır. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah bir qövmə bir şeyi yeməyi haram buyurduqda, ondan qazanc əldə etməyi də haram buyurar."[1]

Hədisdə haram buyurulan dörd şeyin birincisi şərabdır. Hədislərin birində Peyğəmbər ﷺ şərab satan və onu satdıran kimsənin lənətə məruz qaldığını bildirib demişdir: "Allah sərxoşedici içkiyə, onu düzəldənə və düzəltdirənə, onu içənə, onu daşıyana və daşıtdırana, onu satana və alana, onu süzənə və süzdürənə lənət eləsin!"[2] Həqiqətən də, şərab murdar əməllərin anası sayılır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Şərab içmək murdar əməllərin anası, həm də böyük günahlardan biridir. Onu içən adam *sərxoş olduqdan sonra* anası ilə də, xalası ilə də, bibisi ilə də zina edər."[3] Bu xüsusda varid olmuş ibrətamiz bir rəvayətdə Osman ibn Əffan رضي الله عنه demişdir: "Şərabdan uzaq olun, çünki şərab içmək murdar əməllərin anası sayılır. Bir zaman pozğun bir qadın öz kənizini könlünə yatan bir kişinin yanına göndərir ki, gəlib onlara

---

[1] Musnəd İmam Əhməd, 4/416; Səhih əl-Cami, 5107.

[2] Musnəd İmam Əhməd, 1/316; Mustədrək, 4/145; Silsilətul-Əhadisis-Səhihə, 839.

[3] Mocəmul-Kəbir, 11372; Sunən əd-Daraqutni, 4671; Silsilətul-Əhadisis-Səhihə, 1853; Səhih əl-Cami, 3345.

şahidlik etsin. Kişi kənizlə birgə o qadının yanına gəlir. Nəhayət o, evə daxil olduqdan sonra kəniz bütün qapıları kilidləyir. Həmin qadının yanında bir uşaq və bir badya şərab olur. Qadın ona: "Səni bura şahidlik etmək üçün çağırmamışam. Çağırmışam ki, mənimlə yaxınlıq edəsən və ya bu şərabdan içəsən, ya da bu uşağı öldürəsən. Dediyimi eləməsən, hay-küy salıb səni biabır edərəm. Kişi ona: "Bu şərabdan mənim üçün bir bardaq süz"– dedi. Qadın ona bir bardaq şərab süzdü. Kişi *onu içdikdən sonra*: "Yenə süz"– dedi. Kişi şərabdan o qədər içdi ki, axırda həm o qadınla zina etdi, həm də həmin uşağı öldürdü. Odur ki, şərabdan uzaq olun!..."[1]

Şərh etdiyimiz hədisdə haram buyurulan ikinci şey ölmüş heyvandır. Ölü heyvanı yalnız zəruri halda yemək caizdir. Bu xüsusda "əl-Bəqərə" surəsinin 173-cü ayəsində belə buyurulur: "Allah sizə ancaq ölmüş heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir. Hər kim təcavüz etmədən və həddi aşmadan *bunlardan yeməyə* məcbur olarsa, bu ona günah sayılmaz." Ölü heyvanın yalnız dərisindən, o da, aşılandıqdan sonra istifadə etməyə icazə verilir. Buna da dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: "*Ölmüş heyvanın* dərisi aşılandığı zaman artıq pak olar!"[2]

Şərh etdiyimiz hədisdə haram buyurulan üçüncü şey, donuzdur. Donuzu nə yemək, nə də satmaq olar. Donuzun haram olmasına dair Quranda neçə-neə ayələr var. Bir qədər əvvəl zikr etdiyimiz "əl-Bəqərə" surəsinin 173-cü ayəsində, habelə, "əl-Maidə"

---

[1] Sunən ən-Nəsai, 5666; Əhadis əl-Muxtara, 320.

[2] Səhih əl-Buxari, 2221; Səhih Muslim, 366.

surəsinin 3-cü ayəsində, "əl-Ənam " surəsinin 145-ci ayəsində və bir də "ən-Nəhl" surəsinin 115-ci ayəsində donuz əti yemək qadağan edilmişdir.

Şərh etdiyimiz hədisdə haram buyurulan dördüncü şey, bütlərdir. Büt satmaq qətiyyətlə haramdır. Çünki o, yalnız ona ibadət etmək üçün düzəldilir. Odur ki, onu sındırıb yox etmək vacibdir. Bütlər də həmçinin, şərab kimi murdar əməllərdən sayılır. Bu xüsusda "əl-Maidə" surəsinin 90-cı ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız."

İbn Rəcəb bu hədisi şərh edərkən demişdir: "Büt satmaq ən böyük günahlardan sayılır. Çünki ondan əldə edilən mənfəət, Allaha şərik qoşmaqdır. Bu da, mütləq şəkildə günahların ən böyüyüdür. Mənfəəti haram olan digər şeylər də buna qiyas edilir. İçində şirk, sehr, bidət, azğın şeylər və pozğun şəkillər olan kitablar, habelə, musiqi alətləri də buna aiddir."[1] İbn Rəcəb bildirmək istəyir ki, bütlər kimi bu sadaladıqlarının da satışı haramdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu dörd şeyin satılması haramdır deyildikdə, ümumiyyətlə onlardan istifadə etməyin haram olduğu qəsd edilir.

Hədisdə səhabələr Peyğəmbərdən ﷺ ölü heyvanın piyi haqqında soruşur və onunla gəmilərin cilalandığını, dərilərin yağlandığını və insanların onun vasitəsilə *olduqları yeri* işıqlandırdığını vurğulayırlar. Peyğəmbər ﷺ də onlara ölmüş heyvandan, ümumiyyətlə istifadə etməyin haram olduğunu bildirir. Deməli, şəriə-

[1] Camiul-Ulum vəl-Hikəm, 2/447.

tin istisna etdiyi – yəni yalnız aşılanmış dəri müstəsna olmaqla, ölmüş heyvandan istifadə etmək haramdır.[1]

Sonra Peyğəmbər ﷺ səhabələrinə xəbər verir ki, Allah yəhudilərə heyvanın piyini haram buyurduqda, onlar onu əridib satdılar və pulunu yedilər.

Bu, haramı halallaşdırmaq üçün qurulan bir hiylədir. Peyğəmbər ﷺ bu sözü ilə İslam ümmətinə belə hallarda hiylə qurub haramdan halal adı ilə istifadə etməyi qadağan edir. Gəlin, buna dair bir neçə misal çəkək. Məsələn: üç müsəlmanın hər birinin qırx qoyunu var və bu adamlardan hər biri qırx qoyuna bir qoyun zəkat verməlidir. Məlumdur ki, şəriətə görə qırx qoyundan yüz iyirmi qoyunadək bir qoyun zəkat verilir. Nəhayət, zəkat vermək vaxtı gəldikdə, bu üç nəfər qoyunlarını onlardan birinin yanında cəm edir və zəkatı yığan adama bir nəfərin yüz iyirmi qoyunu olduğunu göstərir və beləliklə də yüz iyirmi qoyuna bir qoyun zəkat verirlər, yerdə qalan iki qoyunu da sonradan öz aralarında bölüşdürürlər. Halbuki onlar ayrı-ayrılıqda hər bir bir qoyun verməklə cəmi üç qoyun zəkat verməlidir. Yaxud əksinə, zəkat yığan adam bir adamın yüz iyirmi qoyununu üç hissəyə ayırıb, sonra hər qırx qoyundan bir qoyun götürməklə ona zülm edir və beləliklə də, hiylə qurub yüz iyirmi qoyuna üç qoyun götürmüş olur ki, bu da şəriətə görə haram sayılır. Bu xüsusda İmam Buxarinin "Səhih"ində Əbu Bəkrdən رضي الله عنه rəvayət edilmiş hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: "Zəkat verməmək üçün *zəkat verilməsi vacib buyurulmuş* cəm olunan malı ayırmaq, ayrı-ayrı olan malı da cəm etmək olmaz."[2]

---

[1] Bax: Fəth əl-Bari, 4/425.

[2] Səhih əl-Buxari, 1450.

Həmçinin, faizə pul almaq üçün ticarət malını bəhanə gətirməyi də buna misal çəkmək olar. Məsələn: adama 100 min pul lazımdır və bilir ki, 100 min alıb 120 min qaytarmaq riba sayılır. Bu halda o belə bir hiylə işlədir. Mal satan adamın yanına gəlib, əvvəlcə müəyyən bir malı ondan nisyə olaraq 120 minə alır, sonra da, nisyə aldığı həmin malı ona nağd olaraq yüz minə satır və beləliklə də, Allahın haram buyurduğu ribaya halal donu geyindirməyə çalışır. Yaxud hər hansı bir malı almaq istəyən adam pula görə başqa birisinə müraciət edir ki, o malı nağd alıb ona nisyə olaraq baha qiymətə satsın. Pulunu artırmaq istəyən adam mal alıb müştəri axtarmır, əksinə pula ehtiyacı olan müştəri axtarıb, sonra ona mal alır. Məqsəd isə pulu vaxta görə artırmaqdır. Bu da öz növbəsində faiz sayılır ki, onu da Uca Allah haram etmişdir. Bunu edən şəxs faizə başqa don geyindirməklə onu halallaşdırmağa çalışır. Lakin onun etdiyi bu əməl hiylə hesab olunur. İbn Useymin رحمه الله deyir ki: "Kimdənsə pul alıb artıq pul qaytarmaqla, ona mal aldırıb, sonra artıq pul ödəməkdə heç bir fərq yoxdur."

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اكْفِنَا بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنَا بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ ))

"Allahım, halal nemətlərinin sayəsində bizi haramdan uzaq et və Öz lütfün sayəsində bizi Özündən başqasına möhtac etmə!"[1]

[1] Sunən ət-Tirmizi, 4/276; Musnəd İmam Əhməd, 1/153; Silsilə əl-Əhadis əs-Səhihə, 266.

# Qırx altıncı hədis

عَنْ أَبِي بُرْدَةَ عَنْ أَبِيهِ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ بَعَثَهُ إِلَى الْيَمَنِ، فَسَأَلَهُ عَنْ أَشْرِبَةٍ تُصْنَعُ بِهَا، فَقَالَ: وَمَا هِيَ؟ قَالَ: الْبِتْعُ وَالْمِزْرُ، فَقِيلَ لِأَبِي بُرْدَةَ: مَا الْبِتْعُ؟ قَالَ: نَبِيذُ الْعَسَلِ، وَالْمِزْرُ نَبِيذُ الشَّعِيرِ، فَقَالَ: كُلُّ مُسْكِرٍ حَرَامٌ".

رواه البخاري [رقم:٤٣٤٣].

Əbu Burdə öz atasından, o da Əbu Musa əl-Əşaridən ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ onu Yəmənə göndərdikdə o, Peyğəmbərdən ﷺ orada düzəldilən içkilər barədə soruşdu. Peyğəmbər ﷺ soruşdu: "Nədir o?" Əbu Musa dedi: "Bit və mizrdir."

Əbu Burdədən soruşdular: "Bit nədir?" Dedi: "Bal şərabıdır." Soruşdular: "Bəs mizr nədir?" Dedi: "Arpa şərabıdır."

Sonra Əbu Burdə *davam edib* dedi: "Peyğəmbər ﷺ buyurdu: "Sərxoşedici hər bir şey haramdır."

Bu hədisi İmam Buxari və Muslim rahiməhuməllah öz "Səhih"lərində rəvayət etmişlər.[1]

Bu hədis, sərxoşedici içkilərin, yeməklərin və s. maddələrin hamısına aid edilir. Bütün bunları Allah və Onun rəsulu ﷺ haram buyurmuşdur. Allah və Onun rəsulu ﷺ isə insanlara yalnız onlara zərər verən və onları fəsada uğradan şeyləri onlara qadağan etmişlər. Keçən hədisin şərhində qeyd etdik ki, Peyğəmbər ﷺ şərabı, murdar əməllərin anası adlandırmış və onu içən kim-

[1] Səhih əl-Buxari, 4343 və 6214; Səhih Muslim, 1733.

sənin *sərxoş olduqdan sonra* murdar əməllər etdiyini, hətta öz anası, yaxud xalası, yaxud bibisi ilə zina edə biləcəyini bildirmişdir. Uca Allah "əl-Maidə" surəsinin 90-cı və 91-ci ayələrində sərxoşedici içkini haram buyurmuşdur. Həmin ayələrdə belə buyurulur: "Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı?" Diqqət edin, bu ayədə sərxoşedici içki ilə bütlərə ibadət etmək eyni cümlədə zikr edilir. Bu, onların hər ikisinin murdar əməl olduğu və böyük günah sayıldığı deməkdir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Şərab içən adam bütə ibadət edən kimsəyə bənzəyir. Şərab içən kəs Lat və Uzzaya tapınan kimsəyə bənzəyir."[1]

Bəzi alimlər bu iki ayənin yeddi yöndən şərabın haramlığına dəlalət etdiyi bildirmişlər.

1-ci budur ki, ayədə onun murdar şey olduğu xəbər verilir.

2-cisi, şərab içməyin şeytan əməlindən olduğu vəsf edilir. Məlumdur ki, şeytan əməlindən olan hər bir əməl batil və haram sayılır.

3-cüsü, ondan çəkinmək və uzaq durmaq əmr edilir. Bu da həmçinin, sərxoşedici içkinin haram olduğuna dəlalət edir.

4-cüsü, ayədəki: "bəlkə nicat tapasınız" sözüdür. Bu sözdən aydın başa düşülür ki, adam sərxoşedici içkini tərk edəcəyi təqdirdə nicat tapar, əks halda isə ziyana uğrayar və bədbəxt olar.

---

[1] Musnəd əl-Bəzzar, 2382; Səhih əl-Cami, 3701.

5-cisi budur ki, sərxoşedici içki insanlar arasına ədavət və kin salır, onları bir-birinə düşmən edir.

6-cısı budur ki, sərxoşedici içki adamı Allahı zikr etməkdən və namazdan ayırır.

7-cisi də ayənin sonunda zikr edilən: "Siz buna son qoyacaqsınızmı?" sözüdür.

Uca Allah bu ayələrdə sərxoşedici içkinin şeytan əməlindən olan murdar bir şey olduğunu, Peyğəmbər ﷺ də hədisdə onun murdar əməllərin anası olduğunu xəbər vermişdir. Həqiqətən də, belədir. İnsanı yaradan Allah onun yaşayışı və cəmiyyəti üçün nəyin xeyirli olduğunu daha yaxşı bilir. Əgər biz bu haqda tarixi kitablarda yazılanlara və günümüzdə baş verənlərə nəzər salsaq, sərxoşedici içkinin həqiqətən də, murdar əməllərin anası olduğunu görərik. Tarixi kitabları oxuduqda görürük ki, sərxoşedici içki içən insanlar sərxoş olduqdan sonra əcaib işlər görmüş və insana yaraşmayan hərəkətlər etmişlər. Kimisi öz valideynini, yaxud, həyat yoldaşını, yaxud övladını, yaxud dostunu və ya başqa bir yaxınını öldürmüş, kimisi camaatın gözü önündə özünü batırmış, yaxud camaat arasında heyvana yaraşan hərəkətlər etmişdir. İbn Əbud-Dunya öz kitabında rəvayət edir ki, bir nəfər şərab içdikdən sonra yolda oturub camaatın gözü önündə kiçik ehtiyacını rəf edirmiş. Nəhayət, bu adam öz sidiyindən götürüb onunla dəstəmaz alır və deyir: "İslam dinini bizim üçün nur, suyu da bizim üçün pak nemət edən Allaha həmd olsun!" Diqqət edin, adamın ağlı başından çıxdıqdan sonra öz sidiyini su zənn edir. Həmçinin, İbn Rəcəb رحمه الله şərabın murdar bir şey olduğu barədə yazdığı kitab-

da rəvayət edir ki, bir nəfər sərxoş halda evə gəlir, həmin vaxt anası təndirə çörək yapırmış. Anası onun sərxoş olduğunu görəndə, ona bu zəhirmarı tərgitməyi nəsihət edir və içkinin haram olduğunu ona bildirir. Bu yaramaz adam anasının sözünə qəzəblənir və onu təndirə atıb yandırır.

Təsəvvür edin, uşaq məktəbi qızıl medalla, sonra universiteti qırmızı diplomla bitirir. Nəhayət, buraxılış gecəsində dostları ilə bir yerə yığışıb yeyib-içir və ağlı başından çıxdıqdan sonra elə bir cinayət edir ki, uzunmüddətlik həbsə düşür və beləliklə də, həyatı altı-üst olur. Təsəvvür edirsinizmi, on altı illik əziyyət bir gündə məhv olur. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında bildirilir ki, hər il sərxoşedici içkilərdən ölənlərin sayı, malyariya və vərəm xəstəliklərindən ölənlərin hamısının sayından, habelə, həmin ildə baş vermiş bütün müharibələrdə və terror hadisələrində ölənlərin sayından təqribən üç dəfə çoxdur. Hesabatlara görə hər il spirtli içkilərdən və sərxoşluqdan iki milyon yarımdan çox insan ölür. Onların üç yüz iyirmi mini ancaq 15-29 yaş arasında olan gənclərdir. Yer üzərində baş verən cinayət hadisələrinin, zorlamaların və yol qəzalarının dörddə birinin məhz spirtli içkilər səbəbindən törədildiyi bildirilir. Odur ki, Rəsulullah ﷺ sərxoşedici içkini hər bir şər əməlin açarı adlandırmışdır. Bir zaman o, səhabələrindən birinə belə buyurmuşdur: "Şərab içmə. Çünki o, hər bir şər əməlin açarıdır."[1]

Şərh etdiyimiz hədisdə xəbər verilir ki, Rəsulullah ﷺ Əbu Musa əl-Əşarini رضي الله عنه Yəmənə göndərdiyi zaman Yəmən əhli bal

---

[1] əl-Ədəbul-Mufrad, əl-Buxari, 18.

və arpa nəbizlərindən içirdilər. Nəbiz: xurmanı, üzümü, buğdanı, arpanı və s. yumşalanadək suda saxladıqdan sonra onu sıxmaqla hazırlanan içkidir.[1] Səhabə Peyğəmbərdən ﷺ bu içkilərin hökmü barədə soruşduqda, o, yığcam və genişmənalı cavab verib demişdir: "Sərxoşedici hər bir şey haramdır." Peyğəmbərin ﷺ bu cavabı, təkcə baldan və arpadan düzəldilən şəraba yox, bunlara bənzər hər bir şəraba – xurmadan, üzümdən, buğdadan və s. düzəldilən şərablara, üstəlik, insanın ağlını başından çıxaran hər növ sərxoşedici maddəyə də aiddir. İbn Həcər رحمه الله bu hədisi şərh edərkən demişdir ki, Peyğəmbərin ﷺ bu cavabından aydın başa düşülür ki, nəinki sərxoşedici şərablar, hətta buna bənzər həşiş və s. sərxoş edici şeylər də haram sayılır.

Qeyd etmək lazımdır ki, meyvələrdən çəkilmiş şirələr yalnız qıcqırdıldığı təqdirdə haram sayılır. Yəni əgər meyvədən düzəldilmiş içki onu içən adamı sərxoş etmirsə, o içki halal sayılır. İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ üçün gecənin əvvəlində *meyvədən və s.* Şirə çəkərdilər. Sonra o, bu şirəni ya ertəsi gün səhər, ya həmin günün axşamı, ya növbəti gün günortaüstü və ya axşamı, ya da o biri gün əsr vaxtınadək içərdi. Sonra yerdə qalanını xidmətçisinə verərdi. *Bu içki qıcqırdığı təqdirdə isə* onun əmri ilə bu içkini *zibilliyə* boşaldardılar."[2] Bu hədisdən belə nəticə çıxır ki, istənilən nəbizi üç gün ərzində - yəni, şirinliyi qaldığı müddətcə onu içmək olar.

[1] Tohfətul-Əhvəzi, 5/86.

[2] Səhih Muslim, 3739.

Üç gündən sonra isə bu nəbiz qıcqırıb sərxoşedici içkiyə çevrilir. Bunu da içmək haramdır.

İslamın əvvəlində Peyğəmbər ﷺ bu içkiləri müəyyən qablarda saxlamağı qadağan etmişdi. İmam Buxari və Muslimin "Səhih"lərində xəbər verilir ki, Peyğəmbər ﷺ Abdul-Qeys qəbiləsinin nümayəndələrinə dubbanı, həntəmi, nəqiri və muqəyyəri qadağan etmişdir.[1]

Dubba: qurudulmuş boranıdan düzəldilmiş qabdır.

Həntəm: tərkibinə yun və qan qatılmış gildən düzəldilmiş yaşıl rəngli cürdəkdir.

Nəqir: İçi oyulmuş xurma kötüyündən düzəldilmiş qabdır.

Muqəyyər də: Yanları qatranla malalanmış qabdır.

Hərçənd, Peyğəmbər ﷺ bu qablarda içki şirəsi saxlamağı qadağan etmişdir, lakin bir müddət sonra bu hökmü ləğv etmişdir. İmam Muslimin "Səhih"ində, Bureydə ibn əl-Huseybdən رضي الله عنه rəvayət edilmiş hədisdə Rəsulullah ﷺ demişdir: "Mən sizə nəbizi ancaq müəyyən qablarda içməyə izn vermişdim. İndi isə onu istənilən qabda içməyə rüsxət verirəm. Lakin qıcqırdıqdan sonra onu içməyin."[2]

Peyğəmbərin ﷺ: "Sərxoşediçi hər bir şey haramdır" sözü dəlildir ki, sərxoşedici hər bir şey – istər içki olsun, istərsə yemək və ümumiyyətlə, bədənə daxil edilən hər bir sərxoşedici haram sayılır.

---

[1] Səhih əl-Buxari, 53; Səhih Muslim, 17.

[2] Səhih Muslim, 977.

Bu hədisi düz başa düşməyən bəzi müsəlmanlar sərxoşedici şeylərdən az miqdarda istifadə etməyin icazəli olduğunu iddia edir və deyir ki, əgər həmin şeylərdən az miqdarda istifadə etmək adamı sərxoş etmirsə, demək ondan az miqdarda istifadə etmək olar. Bu, yanlış fikirdir. Çünki başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Çox miqdarda istifadə edildikə sərxoş edən şeyin az miqdarı da haramdır."[1]

Hamımızın adından Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اكْفِنَا بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنَا بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ ))

"Allahım, halal nemətlərinin sayəsində bizi haramdan uzaq et və Öz lütfün sayəsində bizi Özündən başqasına möhtac etmə!"[2]

---

[1] Sunən Əbu Davud, 3681; Sunən ət-Tirmizi, 1865.

[2] Sunən ət-Tirmizi, 4/276; Musnəd İmam Əhməd, 1/153; Silsilə əl-Əhadis əs-Səhihə, 266.

# Qırx yeddinci hədis

عَنْ الْمِقْدَامِ بْنِ مَعْدِيكَرْبَ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: "مَا مَلَأَ آدَمِيٌّ وِعَاءً شَرًّا مِنْ بَطْنٍ، بِحَسْبِ ابْنِ آدَمَ أُكُلَاتٌ يُقِمْنَ صُلْبَهُ، فَإِنْ كَانَ لَا مَحَالَةَ، فَثُلُثٌ لِطَعَامِهِ، وَثُلُثٌ لِشَرَابِهِ، وَثُلُثٌ لِنَفَسِهِ".

رَوَاهُ أَحْمَدُ [رقم: ٤/١٣٢]، والتِّرْمِذِيُّ [رقم: ٢٣٨٠]، وابْنُ مَاجَهْ [رقم: ٣٣٤٩]، وَقَالَ التِّرْمِذِيُّ: حَدِيثٌ حَسَنٌ.

Rəvayət edilir ki, Miqdam ibn Mə'dikərib ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "İnsanın ən çox şər doldurduğu tuluq – onun qarnıdır. Adəm övladına belini dik tutacaq qədər *az miqdarda* loxmalar *yemək* bəs edər. Və əgər daha çox yemək istəyərsə, onda *mədəsinin* üçdə birini yemək üçün, üçdə birini su üçün, üçdə birini də hava üçün ayırsın."

Bu hədisi İmam Əhməd, Tirmizi, Nəsai və İbn Macə rəvayət etmişlər.[1] Tirmizi: "Bu, həsən hədisdir"– demidir.

İbn Rəcəb ﷺ bundan əvvəlki iki hədisdə, Rəsulullahın ﷺ haram buyurduğu yemək-içməkləri zikr etdikdən sonra halal və təmiz yemək-içməklərə aid olan bu hədisi nəql edir və bununla bildirir ki, müsəlman israfa yol vermədən və həddi aşmadan, halal və təmiz nemətlərdən istədiyi qədər yeyib-içə bilər.

---

[1] Musnəd İmam Əhməd 4/132; Sunən ət-Tirmizi, 2380; Sunən əl-Kubra, Nəsai, 6769 və 6770; Sunən İbn Macə, 3349; Silsilətul-Əhadisis-Səhihə, 2265.

İbn Rəcəb demişdir: "Bu hədis, tibbin bütün əsaslarını özündə cəm edən bir bünövrədir. Rəvayət edilir ki, *hicrətin 243-cü ilində vəfat etmiş, nəsrani* həkim İbn Əbu Masiveyh, Əbu Xeysəmənin kitabında bu hədisi oxuduqdan sonra demişdir: "Əgər insanlar bu hədisdə deyilənə əməl etsəydilər, sağlam olardılar beləliklə də, nə bir xəstəxana, nə də bir əzcaxana qalardı." Demək, bütün xəstəliklərin səbəbi həddən ziyadə yeməkdir."[1]

Həqiqətən də, həddən ziyadə yemək, insanın mədəsində xəstəliklərin əmələ gəlməsinə səbəb olur, habelə, insanda tənbəllik, halsızlıq və başqa bu kimi xoşagəlməz hislər əmələ gətirir. Normasında yemək yeyən insan isə daim sağlam və gümrah olur. Bu hədisdə Peyğəmbər ﷺ insanın qarnını tuluğa bənzədir və həddən ziyadə yemək doldurulduqda, o yeməyin xeyirsiz olduğunu bildirir. "əl-Əraf" surəsinin 31-ci ayəsində belə buyurulur: "Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, *Allah* israf edənləri sevmir." Ayədən aydın başa düşülür ki, insan nə tamamilə ac qalmaqla özünü məhv etməli, nə də ki, həddən ziyadə yeməklə canına zülm etməlidir. Bəs nə etməlidir ki, yediyinin ona faydası olsun? Bu sualın cavabı şərh etdiyimiz hədisdə zikr edilir. Peyğəmbər ﷺ buyurur ki, Adəm övladına belini dik tutacaq qədər *az miqdarda* loxmalar *yemək* bəs edər. Demək, insanın sağlam və gümrah olması üçün az yeməsi məsləhətdir. Bu, birinci mərhələdir, yəni ən yaxşısı adamın az yemək yeməsidir. Lakin, əgər adamın iştahası çəksə və daha çox yemək istəyərsə, o zaman mədəsinin üçdə biri qədər yemək yeməlidir.

---

[1] Camiul-Ulum vəl-Hikəm, 2/467.

Peyğəmbər ﷺ və onun səhabələri daim az yeyərdilər. Nafi رحمه الله rəvayət edir ki, *bir dəfə* bir nəfər İbn Ömərə رضي الله عنهما "cəvariş" deyilən bir dərman gətirdi. İbn Ömər ondan: "Bu nədir?"– deyə soruşduqda, adam: "Bu, yeməyi həzm edən bir dərmandır"– deyə cavab verdi. Onda İbn Ömər dedi: "Bu dərman mənim nəyimə lazımdır?! Elə bir ay olmayıb ki, həmin ayda mən doyunca yemək yeyim. Mən elə insanlar görmüşəm ki, onlar az yeyər və çox vaxt ac qalardılar."[1] Burada İbn Ömər Peyğəmbəri ﷺ və onun səhabələrini qəsd edir. Onların hamısı az yeyərdi. Nafi رحمه الله rəvayət edir ki, ibn Ömər رضي الله عنهما süfrə arxasına əyləşdikdə yanına bir kasıb dəvət etməyincə yemək yeməzdi. Bir dəfə mən yenə onun yanına bir nəfər gətirdim. Adam olduqca çox yemək yedi. *Onda ibn Ömər mənə* dedi: "Bir də bunu mənim yanıma gətirmə. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Mömin bir qarına yemək yeyir, kafir isə yeddi qarına."[2] Həqiqətən də, möminin yeməyində bərəkət olur. Bu xüsusda ayrıca bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi dörd nəfərə, dörd nəfərin yeməyi də səkkiz nəfərə bəs edər."[3] Peyğəmbər ﷺ çox vaxt səhabələri ilə birlikdə yemək yeyər və heç vaxt qarnını yeməklə doldurmazdı. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Muhəmmədin ﷺ ailəsi Mədinəyə gəldiyi gündən onun vəfat etdiyi günədək, *heç vaxt* üç gün dalbadal buğda çörəyindən doyunca yeməmişdir."[4] Həmçinin, rəvayət edilir ki, bir

---

[1] Hilyətul-Övliya, Əbu Nueym, 1/300.

[2] Səhih əl-Buxari, 5393.

[3] Səhih Muslim, 2059.

[4] Səhih əl-Buxari, 5416.

dəfə Əbu Hureyra ﷺ qarşılarına qızardılmış qoyun qoyulmuş bir dəstə adamın yanından keçərkən onlar onu yeməyə dəvət etdi. O isə bundan imtina etdi və dedi: "Peyğəmbər ﷺ arpa çörəyindən doyunca yemədiyi halda dünyadan köçüb getdi."[1] Doyunca yemək deyildikdə, mədənin üçdə bir hissəsini yeməklə doldurmaq qəsd edilir. Peyğəmbər ﷺ çox nadir hallarda doyunca yemək yeyib. Bu xüsusda varid olmuş hədisdə xəbər verilir ki, Malik ibn Dinar demişdir: "Rəsulullah ﷺ nadir hallar istisna olmaqla, çörəkdən və ətdən doyunca yeməmişdir." Malik ibn Dinar dedi: "Mən bədəvilərdən birindən: "Nadir hal nədir?"– deyə soruşdum. O dedi: "Camaatla bir yerdə yemək yeməsidir"– deyə cavab verdi." Başqa bir hədisdə "nadir hal" sözü, "yeməyə uzanan əllərin çox olması" kimi izah edilmişdir. Bu da, o deməkdir ki, Peyğəmbər ﷺ yalnız qonaqlıqlarda doyunca yeyərdi. Burada "doyunca yeyərdi" deyildikdə, qarnını yeməklə doldurmaq qəsd edilmir, ancaq onun üçdə biri qədər yemək nəzərdə tutulur. Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ vəfat edənədək iki gün dalbadal arpa çörəyindən doyunca yeməmişdir." Bu hədis ona dəlalət edir ki, Peyğəmbər ﷺ çox vaxt yeməyə adi çörək belə tapa bilmirdi. Günlərlə ac qalar, yaxud evində su və xurmadan başqa bir şey olmazdı. Rəvayət edilir ki, bir dəfə Nomən ibn Bəşir ﷺ yanındakılara dedi: "Məgər, siz istədiyiniz nemətlərdən yeyib içmirsiniz?! Halbuki, mən Peyğəmbərinizin ﷺ evində qarnını doyuracaq qədər köhnə xurması belə olmadığını görmüşəm."[2] Peyğəmbərin ﷺ dolanışığının olduqca ağır olduğunu açıqlayan başqa

---

[1] Səhih əl-Buxari, 5414.

[2] Səhih Muslim, 2977.

bir hədisdə Ənəs ibn Malik ﷺ rəvayət edir ki, *bir gün* bir qadın Aişənin yanına gəldi. Aişə ona üç ədəd xurma verdi. Qadın körpələrinin hərəsinə bir xurma verdi. Birini də özünə saxladı. Körpələr xurmaları yedikdən sonra analarının üzünə baxdılar. Anaları *özü üçün saxladığı* o bir xurmanı iki yerə bölüb hər birinə xurmanın bir yarısını verdi."[1] Bu hədisdən aydın başa düşülür ki, Allahın peyğəmbərinin ﷺ evində yeməyə cəmi üç xurması var idi. Başqa bir hədisdə Aişə ﷺ demişdir: "Olurdu ki, biz bir hilal görür, sonra yenə bir hilal görür, hətta iki ayda üç hilal görürdük, *lakin bu müddət ərzində* Peyğəmbərin ﷺ evlərində od qalanmırdı."[2] Digər rəvayətdə: "Evimizdə ancaq xurma və su olardı"– deyilir. Bu hədislərdən aydın olur ki, Peyğəmbərin ﷺ evində nəinki bir, hətta aylarla isti yemək bişirilməzdi. Başqa bir rəvayətdə Aişə ﷺ demişdir: "Biz artıq xurma və sudan doyunca yeyib içməyə *imkanımız olduğu* zaman Peyğəmbər ﷺ vəfat etdi."[3] Xüsusilə qeyd etmək lazımdır ki, ən xeyirli insanlar həmin dövrdə yaşayan, az yeyib çox yaxşı işlər görən insanlar olub. Peyğəmbər ﷺ onları tərifləyib demişdir: "Ən xeyirli insanlar mənim dövrümdə yaşayanlar, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir. Sonra elə bir nəsil gələcək ki, onlardan şahidlik etmək tələb olunmadığı təqdirdə yalandan şahidlik edəcək, nəzir deyəcəklər, lakin nəzirlərini yerinə yetirməyəcəklər və bir də onların arasında kök adamlar üzə çıxacaq."[4]

---

[1] Ədəbul-Mufrəd, 89.

[2] Səhih əl-Buxari, 2567.

[3] Səhih əl-Buxari, 5383.

[4] Səhih Muslim, 7/186.

Bütün bu deyilənlərdən bizə aydın oldu ki, çox yeməyin heç bir faydası yoxdur.

İndi gəlin, sələflərin bu mövzuya dair dedikləri ibrətamiz sözlərdən bir neçəsini zikr edək:

Amr ibn Qeys رحمه الله demişdir: "Qarnınızı yeməklə doldurmaqdan çəkinin. Çünki qarını yeməklə doldurmaq, insanın qəlbini sərtləşdirir."

Sələm ibn Zeyd رحمه الله demişdir: "Əgər adam günahlarına görə qınandığı kimi, qarnına görə qınanmış olsa, az yeyər."

Əbu Suleyman əd-Darani رحمه الله demişdir: "Əgər dünya və axirət nemətlərindən istədiyinə nail olmaq istəyirsənsə, çox yemə. Çünki çox yemək insanın ağlını dəyişdirir."

Malik ibn Dinar رحمه الله demişdir: "Möminin əsas qayəsi, öz qarnını doldurmaq və şəhvətini soyutmaq olmamalıdır."

Abduləziz ibn Əbu Rəvvad رحمه الله demişdir: "Az yemək, insanı xeyirli işlər görməyə təşviq edən amillərdəndir."

Qasm əl-Abid رحمه الله demişdir: "Az yeyən adamın qəlbi yumşaq, özü də kövrək olar."

Əbu İmran əl-Covni رحمه الله demişdir: "Kim qəlbinin nurlu olmasını istəyirsə, qoy az yesin."

Süfyan əs-Sovri رحمه الله demişdir: "Canının sağlam olmağını istəyirsənsə, az yat və az ye."

İbrahim ibn Ədhəm رحمه الله demişdir: "Kim qarnını qoruyarsa, dinini də qoruyar, əxlaqını da düzəldər. Belə ki, asiliklər ac adamlardan uzaq, tox adamlara yaxındır. Qarını yeməklə doldurmaq, qəlbi öldürər."

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ اغْفِرْ لَنَا ذُنُبَنَا وَوَسِّعْ لَنَا فِي دَارِنَا وَبَارِكْ لَنَا فِيمَا رَزَقْتَنَا ))

"Allahım, günahlarımızı bağışla, yaşadığımız yeri genişlət və bizə verdiyin ruzini bərəkətli et!"[1]

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُك عِلْمًا نَافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلًا مُتَقَبَّلًا ))

"Allahım, Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirik!"[2]

[1] Musnəd İmam Əhməd, 4/63.

[2] Səhih İbn Macə 1/52.

# Qırx səkkizinci hədis

عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﵄ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: "أَرْبَعٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقًا، وَإِنْ كَانَتْ خَصْلَةٌ مِنْهُنَّ فِيهِ كَانَتْ فِيهِ خَصْلَةٌ مِنَ النِّفَاقِ حَتَّى يَدَعَهَا: مَنْ إِذَا حَدَّثَ كَذَبَ، وإِذَا وَعَدَ أَخْلَفَ، وإِذَا خَاصَمَ فَجَرَ، وَإِذَا عَاهَدَ غَدَرَ".

رواه البخاري [رقم:٣٤]، ومسلم [رقم:٥٨].

Abdullah ibn Amr ﵄ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Dörd *xislət* var ki, bunlar kimdə olsa, əsl münafiq sayılar və hər kimdə bunlardan biri olsa belə, onu tərk edincəyə qədər özündə münafiqlik xisləti qalmış sayılar: danışdığı zaman yalan danışar; vəd verdiyi zaman vədinə xilaf çıxar; mübahisə etdiyi zaman haqsızlıq edər; əhd bağladığı zaman *əhdini* pozar.”

Bu hədisi, İmam Buxari və Muslim rahiməhuməllah öz “Səhih”lərində rəvayət etmişlər.[1]

Hədisdə Peyğəmbər ﷺ: “Dörd *xislət* var ki, bunlar kimdə olsa, münafiq sayılar...”– deyir. Yəni kim bu dörd xisləti özündə cəm edərsə, əməl baxımından münafiqlərə oxşayar. Burada münafiqlik deyildikdə, etiqada yox, əmələ aid edilən nifaq qəsd edilir. Belə ki, etiqada aid olan nifaq – zahirən müsəlman kimi görsənib, qəlbən kafir olmaqdır və bu etiqad insanı İslamdan çıxarır. Əmələ aid nifaq isə adamı İslamdan çıxarmır. Demək, kimdə bu xislətlərdən biri olarsa, onu tərk edənədək özündə münafiqlik xisləti qalmış sayılar.

---

[1] Səhih əl-Buxari, 34; Səhih Muslim, 58.

Bu hədis bəzilərini şübhəyə salmış və onlar elə güman etmişlər ki, hədisdə keçən əlamətlər mömini İslamdan çıxarır və onu kafir edir. Lakin bu, heç də belə deyildir. Çünki İslam alimləri ittifaq etmişlər ki, qəlbi və dili ilə iman gətirmiş hər kəs bu əməllərdən hər hansı birini etsə, nə kafir sayılar, nə də Cəhənnəmin alt təbəqəsinə düşəcək münafiqlərdən hesab edilər. Baxın, Yusuf peyğəməbərin عليه السلام qardaşları bu xislətləri özlərində cəm etdilər, həm yalan danışdılar, həm əmanətə xəyanət etdilər, həm də verdikləri vədə xilaf çıxdılar, lakin Allah onları münafiq saymadı. Allaha həmd olsun ki, bu hədisdə heç bir şəkk-şübhə yoxdur. Hədisdə qəsd edilən budur ki, bu xislətlər münafiqlik əlamətlərindəndir və buna yiyələnmiş hər kəs münafiqə bənzəmiş olur. Əslində nifaq, içində olanın əksini üzə çıxartmaq deməkdir. Təbii ki, yalan danışan, əhdini pozan, vədinə xilaf çıxan, əmanətə xəyanət edən və haqsız olaraq mübahisə edən adam, öz içində olanın əksini üzə çıxardır və beləliklə də, zahirən, yəni əməllərində münafiqlərə bənzəyir. Bu da heç də həmin adamın münafiq olması – özünü müsəlman kimi göstərib küfrünü gizlətməsi demək deyil. Peyğəmbər ﷺ belələrinin etiqadda münafiq olduqlarını və əbədi olaraq Cəhənnəmin dibində qalacaqlarını söyləməmişdir.

Bu hədisdə münafiqə aid olan xislətlərin birincisi, yalan danışmaqdır. Ümumiyyətlə, yalan danışmaq böyük günahlardan sayılır. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gün Peyğəmbər ﷺ səhabələrinə dedi: “Sizə böyük günahların ən böyüyü barədə xəbər verimmi?” Səhabələr: “Bəli, ya Rəsulullah!”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: “Allaha şərik qoş-

maq və valideynlərin üzünə ağ olmaqdır." Bunu deyəndə o, söykənmişdi, sonra qalxıb oturdu və: "Yalan söz danışmaqdır"– dedi. O bunu dalbadal o qədər təkrar etdi ki, biz *bir-birimizə*: "Nə olaydı, susaydı!"– dedik."[1]

İbn Abbas ﵄ demişdir: "Böyük günah deyildikdə, o günahlar qəsd edilir ki, Allah onları edənlərin Cəhənnəmə düşəcəyini xəbər vermiş, yaxud onlara qəzəbi tutmuş, yaxud onları lənətləmiş, yaxud da onlara əzab vermişdir."[2] Yalan danışanların Cəhənnəmə giriftar olacaqları barədə isə Peyğəmbər ﷺ belə demişdir: "Yalan danışmaqdan çəkinin! Çünki yalan *adamı* günah işlərə yönəldir. Günah işlər isə *adamı* Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, nəhayət, Allah yanında yalançı sayılır."[3] Yalançılar barədə "əl-Casiyə" surəsinin 27-ci ayəsində belə buyurulur: "Göylərin və yerin hökmranlığı ancaq Allaha məxsusdur. Qiyamət saatının gələcəyi gün – məhz o gün yalan danışanlar ziyana uğrayacaqlar."

Yeri gəlmişkən qeyd edək ki, ən böyük yalan Allahın və Onun rəsulunun ﷺ adından danışılan yalandır. Bu xüsusda "Hud" surəsinin 18-ci və 19-cu ayələrində belə buyurulur: "Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər?! Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: "Bunlar Rəbbinə iftira yaxanlardır"– deyəcəklər. Allahın lənəti olsun zalımlara! O kəslər ki, *insanları* Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axi-

---

[1] Səhih əl-Buxari, 6521, Səhih Muslim, 87 və 259.

[2] Təfsir ət-Təbəri, 5/27; Təfsir əl-Qurtubi, 5/159; Şərh Nəvəvi, 2/271.

[3] Səhih əl-Buxari, 6094; Səhih Muslim, 2607.

rəti inkar edirlər." Peyğəmbərin ﷺ adından yalan danışmaq barədə isə Allah rəsulu ﷺ belə demişdir: "Mənim adımdan danışılan yalan başqa birisinin adından danışılan yalan kimi deyildir. Hər kim bilərəkdən mənim adımdan yalan danışarsa, Cəhənnəm odundan olan yerini hazırlasın."[1]

Şərh etdiyimiz hədisdə münafiqə aid olan ikinci xislət, adamın vəd verdiyi zaman vədinə xilaf çıxmasıdır. Yəni, vəd verdikdə, artıq vədinə xilaf çıxacağına və onu yerinə yetirməyəcəyinə niyyət edir və ya vəd verir, lakin bir müddət sonra heç bir üzrü olmadan vədini yerinə yetirmir. Bu xüsusda rəvayət edilmiş hədisdə Abdullah ibn Amir ibn Rəbiə رضي الله عنه demişdir: "Mən uşaq ikən Rəsulullah ﷺ evimizə qonaq gəldi. Həmin vaxt mən *uşaqlarla* oynamaq üçün bayıra çıxmaq istədim. Anam isə *mənə*: "Ey Abdullah, gəl gör, sənə nə verirəm"– dedi. Rəsulullah ﷺ *anamdan*: "Sən ona nə vermək istəyirsən?"– deyə soruşdu. Anam: "Xurma verəcəm"– dedi. Onda, Rəsulullah ﷺ ona belə buyurdu: "Əgər ona heç nə verməsən, bu əməlin *günah olaraq* sənin əleyhinə yazılacaq."[2] Bu dəlildir ki, nəinki, böyük adamlara, hətta uşağa belə vəd verdikdə, verilən vədi yerinə yetirmək vacibdir. Nəinki insanı, hətta, heyvanı belə aldatmaqdan çəkinmək lazımdır. Bəzi hədis alimləri heyvanı aldadan adama pis baxar və ondan hədis götürməzdilər. Vəd verdikdə onu yerinə yetirmək imanın əlamətlərindən və insanlar arasında mehribançılıq yaradan əsas səbəblərdəndir. Ələlxüsus da mömini Cənnətə aparan amillərdəndir. Bu xü-

[1] Səhih Muslim, 4.

[2] Sunən Əbu Davud, 4491; Silsilətul-Əhadisis-Səhihə, 748.

susda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Altı şeyi *yerinə yetirəcəyinizə dair* mənə zəmanət verin, Cənnətə girəcəyinizə dair sizə zəmanət verim: danışdığınız zaman düz danışın, vəd verdikdə onu yerinə yetirin, sizə əmanət verilərsə, onu yiyəsinə qaytarın, ayıb yerlərinizi *zinadan* qoruyun, gözünüzü *haram buyurulanlardan* çevirin və bir də əlinizlə heç kəsə əziyyət verməyin."[1]

Şərh etdiyimiz hədisdə münafiqə aid olan üçüncü xislət, adamın mübahisə etdiyi zaman haqsızlıq etməsidir. Yəni mübahisə etdiyi zaman qəzəblənib, mübahisə etdiyi adama zülm etməsidir. Bu xüsusda "əl-Maidə" surəsinin 8-ci ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Allah üçün *haqqı* qoruyan, ədalətlə şahidlik edən kimsələr olun. Bir qövmə qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır." İbn Rəcəb ﵀ hədisdəki bu cümləni izah edərkən demişdir: "Adam mübahisə etdiyi zaman, – mübahisəsi istər dini məsələdə, istərsə də dünyəvi bir işdə olsun, – əgər haqqa batil donu geyindirməyə qadir olsa, onu dinləyənlərə öz batil fikrinin haqq olduğunu sübut etsə, dolayısıyla, batili haqq donunda ortaya qoysa, bu, ən iyrənc işlərdən biri və münafiqliyin ən pis xislətlərindən biri sayılar."[2] Həmçinin, İbn Useymin ﵀ bu cümləni şərh edərkən demişdir: "Mübahisə zamanı haqsızlıq etmək iki növdür: birincisi, öz əleyhinə olan bir ittihamı inkar etmək. İkincisi isə özünə aid olmayan bir şeyi iddia etmək. Birincisinə misal, məsələn: bir adam başqa birisinə min riyal borcludur, borc yiyəsi də ondan pulunu

---

[1] Səhih Muslim, 4.

[2] Camiul-ulum vəl-hikəm, 2/486.

tələb edir, lakin borclu olan adam bu iddianı inkar edir. Borc verən adam isə ona inanıb, şahidsiz olaraq bu pulu ona verdiyinə görə, dediyini isbat edə bilmir, borclu olan adam da yalandan Allah and içib borclu olmadığını qazıya bildirməklə mübahisədə qalib gəlir. Bu da, mübahisə etdikdə zülm etmək deməkdir. İkinci növə aid misal isə belədir, məsələn: özünə məxsus olmayan bir şeyin ona məxsus olduğunu iddia edib qazının yanında: "Filankəs mənə yüz riyal verməlidir"– deyir. Qarşı tərəf bu iddianı inkar etdikdə isə, iddia edən adam: "Mənim dediyimə dair şahidim var"– deyib, sonra da, yalançı şahidlərini çağırır. Bu yalançı şahidlər də, qazının yanında onun lehinə şahidlik edirlər. Qazı da yalançı şahidlərin dediyinə əsasən hökmü iddia edən adamın lehinə çıxarır. Bu da mübahisə zamanı zülm etmək hesab edilir. Odur ki, mübahisə zamanı yalan danışmaqdan və yalandan şahidlik etməkdən çəkinmək lazımdır."[1] İmam Zəhəbi ﷺ "Böyük günahlar" kitabında bu günahı açıqlayarkən demişdir: "Yalan sözdən çəkinmək xüsusunda "əl-Həcc" surəsinin 30-cu ayəsində belə buyurulur: "Murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin." (Sonra İmam Zəhəbi davam edib deyir ki:) Yalan yerə şahidlik edən şəxs böyük günahlar etmiş olur: birincisi, yalan danışır və iftira yaxır. Bu xüsusda Uca Allah buyurur: "Həqiqətən, Allah həddi aşanı, yalançını doğru yola yönəltməz."[2] İkincisi, yalandan şahidlik etdiyi şəxsə qarşı zülm etmiş olur; üçüncüsü, yalandan lehinə şahidlik etdiyi şəxsə haram mal verməklə Cəhən-

---

[1] Şərh Riyadus-Salihin, 1543-cü hədisin şərhi.

[2] Ğafir, 28.

nəmə getməsini təmin edir; dördüncüsü də, Allahın haram buyurduğu əməli mübah saymaqla, əleyhinə şahidlik etdiyi adamı malından, yaxud qanından və ya namusundan məhrum etmiş olur."[1] Qeyd edək ki, Quranda və hədisdə belələri, qatı mübahisəçi adlanırlar. "əl-Bəqərə" surəsinin 204-cü ayəsində Uca Allah buyurur: "İnsanlardan eləsi var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Halbuki, o, ən qatı mübahisəçidir." Hədisdə də Peyğəmbər ﷺ demişdir: "*İnsanlar arasında* Allahın ən nifrət etdiyi adam ən qatı mübahisəçidir."[2]

Şərh etdiyimiz hədisdə münafiqə aid olan dördüncü xislət, adamın əhd bağladığı zaman əhdini pozmasıdır. Əhdə vəfa etməyin vacib olması barədə "əl-İsra" surəsinin 34-cü ayəsində belə buyurulur: "Əhdə vəfa edin. Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq." Həmçinin, "ən-Nəhl" surəsinin 91-ci ayəsində belə buyurulur: "Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz." Həmçinin, "Ali-İmran" surəsinin 77-ci ayəsində belə buyurulur: "Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kimsələrə gəlincə, onlara axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır." İbn Rəcəb رحمه الله bu cümləni izah edərkən demişdir: "Müsəlmanın başqa birisi ilə əhd bağladıqdan son-

[1] Böyük günahlar, 16-cı günah.

[2] Səhih əl-Buxari, 2457.

ra əhdini pozması haram sayılır. Hətta əhd bağlanılan tərəf kafir olsa belə. Odur ki, Abdullah ibn Amrın ﵄ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim əhd bağlamış bir kimsəni öldürərsə, Cənnətin iyini duymaz. Halbuki onun iyi qırx illik məsafədən duyulur."[1] Allah Öz kitabında, müsəlmanlara əmr edir ki, müşriklərlə əhd bağladıqda, – onlar əhdlərini yerinə yetirib onu pozmadıqları müddətcə bu əhdi yerinə yetirsinlər. O ki qaldı müsəlmanların öz aralarında bağladıqları əhdə, ona vəfa etmək daha vacib, onu pozmaq isə böyük günahdır. Əhdi pozmaq xüsusunda ən böyük günahlardan biri də əmirlə əhd bağlayıb sonra onu pozmaqdır. İmam Buxari və Muslimin "Səhih"lərində rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik onları üzücü bir əzab gözləyir." O üç nəfərdən biri o kimsədir ki, əmirə yalnız dünya xatirinə beyət edir, sonra əmir dünya malından ona verdikdə əhdinə sadiq qalır, heç nə vermədikdə isə əhdinə vəfa etmir."[2] Müsəlmanların öz aralarında razılığa gəldikdən sonra ticarət, nikah və başqa bu kimi bağladıqları müqavilələrdə əhdə vəfa etmələri vacib, onu pozmaları isə haramdır."[3]

İbn Useymin bu cümləni izah edərkən demişdir: "Müşriklər və kafirlərlə bağlanılan əhdin üç halı vardır:

---

[1] Səhih əl-Buxari, 3166.

[2] Camiul-ulum vəl-hikəm, 2/487-488.

[3] Səhih əl-Buxari, 2672; Səhih Muslim, 108.

Birincisi, əgər onlar əhdi pozarsa, o zaman müsəlmanlar da bu əhdi pozmalıdırlar. Necə ki, "ət-Tovbə" surəsnin 12-ci ayəsində buyurulur: "Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, *küfrdən* əl çəkələr..."

İkinci hal isə kafirlərin əhdlərinə vəfa etmələridir ki, bu halda müsəlmanların onlarla bağladıqları əhdə vəfa etməsi vacibdir. Bu xüsusda da, "ət-Tovbə" surəsnin 9-cu ayəsində belə buyurulur: "Nə qədər ki, onlar sizinlə düzgün davranıb əhdə vəfa edir, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir."

Üçüncü hal isə müsəlmanların kafirlərin əhdə vəfa qılmayacaqlarından ehtiyat etməsidir ki, bu halda müsəlmanlar, kafirlərə onlarla əhdi pozduqlarını bildirməlidirlər. Bu xüsusda "əl-Ənfal" surəsinin 58-ci ayəsində belə buyurulur: "Əgər bir qövmün *əhdi pozacağı ilə* xəyanət etməsindən qorxsan, sən də onlara onu pozduğunu bildir. Şübhəsiz ki, Allah xainləri sevmir."

Sonda hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( رَبِّ أَعِنَّا وَلَا تُعِنْ عَلَيْنَا، وَانْصُرْنَا وَلَا تَنْصُرْ عَلَيْنَا، وَامْكُرْ لنَا وَلَا تَمْكُرْ عَلَيْنَا، وَاهْدِنَا وَيَسِّرِ الهُدَى إِلَيْنَا، وَانْصُرْنَا عَلَى مَنْ بَغَى عَلَيْنَا، رَبِّ اجْعَلْنَا لَكَ شَكَّارِينَ، لَكَ ذَكَّارِينَ، لَكَ رَهَّابِينَ، لَكَ مِطْوَاعِينَ، إِلَيْكَ مُخْبِتِينَ أَوَّاهِينَ مُنِيبِينَ، رَبِّ تَقَبَّلْ تَوْبَتَنَا، وَاغْسِلْ حَوْبَتَنَا، وَأَجِبْ دَعْوَتَنا، وَثَبِّتْ حُجَّتَنَا، وَاهْدِ قَلُوبَنَا، وَسَدِّدْ أَلْسِنَتَنَا، وَاسْلُلْ سَخِيمَةَ قَلُوبِنَا ))

“Ey Rəbbim, bizə kömək et, əleyhimizə olan işlərdə heç kəsə kömək etmə. Bizə qələbə bəxş et, heç kəsə bizim üzərimizdə qələbə qazandırma. Bizə düşmənlərimizə hiylə qurmağa kömək ol, başqasının bizə hiylə qurmasına yol vermə. Bizə hidayət ver və bizim üçün doğru yola yönəlməyi asanlaşdır. Bizə təcavüz edənə qalib gəlməyimizə yardım et. Ey Rəbbim, bizi yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bəndələr et. Ey Rəbbim, bizim tövbəmizi qəbul et, günahlarımızı yu, duamızı qəbul et, dəlilimizi möhkəmləndir, qəlbimizi haqqa yönəlt, dilimizi doğruluğa öyrət və qəlbimizin qara ləkəsini yox et!”[1]

---

[1] Sunən Əbu Davud, 1510; Musnəd İmam Əhməd, 1/227; Səhih əl-Ədəb əl-Mufrad, 665.

# Qırx doqquzuncu hədis

عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ عن النبي ﷺ قَالَ: "لَوْ أَنَّكُمْ تَوَكَّلُونَ عَلَى اللهِ حَقَّ تَوَكُّلِهِ لَرَزَقَكُمْ كَمَا يَرْزَقُ الطَّيْرَ تَغْدُو خِمَاصًا وَتَرُوحُ بِطَانًا".

رَوَاهُ أَحْمَدُ [رقم: ١/٣٠ و٥٢]، وَالتِّرْمِذِيُّ [رقم:٢٣٤٤]، وَالنَّسَائِيُّ فِي "الْكُبْرَى" كَمَا فِي "التُّحْفَة: [رقم: ٨/٧٩]، وَابْنُ مَاجَهْ [رقم: ٤١٦٤]، وَصَحَّحَهُ ابْنُ حِبَّانَ (٧٣٠)، وَالْحَاكِمُ ٤١٨، وَقَالَ التِّرْمِذِيُّ: حَسَنٌ صَحِيحٌ.

Ömər ibn əl-Xattab ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O, quşa ruzi verdiyi kimi sizə də ruzi verər. Belə ki, quş səhər-səhər *yuvasından* qarnı ac uçub gedir, axşam isə *ora* tox qayıdır."

Bu hədisi, İmam Əhməd, Tirmizi, Nəsai, İbn Macə, İbn Hibban və Hakim rəvayət etmişlər. Tirmizi: "Bu, həsən-səhih hədisdir"– demişdir.[1]

Bu hədis, Allaha təvəkkül etmək xüsusunda təməl sayılan hədisdir. Təvəkkül barədə Quranda neçə-neçə ayələr var. Ayələrin birində belə buyurulur: "Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər."[2] Başqa bir ayədə də belə buyurulur: "Əgər möminsinizsə, Allaha təvəkkül edin!" Həmçinin, "əl-Ənfal" surəsinin 2-ci, 3-

---

[1] Musnəd İmam Əhməd, 1/30 və 52; Sunən ət-Tirmizi, 2344; Sunən əl-Kubra, Nəsai, 8/79; Sunən İbn Macə, 4164; Səhih İbn Hibban, 730; Mustədrək əl-Hakim, 4/318; Silsilətul-Əhadisis-Səhihə, 310.

[2] Ali-İmran, 122.

cü və 4-cü ayələrində belə buyurulur: "Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir." Yeri gəlmişkən qeyd edək ki, Allaha təvəkkül etmək dinin yarısı hesab olunur. Bu xüsusda "əl-Fatihə" surəsində belə buyurulur: "Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!"

İbn Rəcəb ﷺ təvəkkül kəlməsinə belə tərif vermişdir: "Təvəkkül: dünyaya və Axirətə aid hər bir işdə xeyir əldə etmək və ya zərəri dəf etmək üçün səmimi-qəlbdən Allaha etimad etmək və Ondan başqasının nə *ruzi* verməyə, nə *verdiyinin* qarşısını almağa, nə xeyir verməyə, nə də zərər vurmağa qadir olduğuna iman etməkdir."[1] Qeyd edək ki, Allaha təvəkkül etmək ibadət sayılır. Allahdan qeyrisinə edilən təvəkkül isə üç qismdir: birincisi, Allahdan qeyrisinə, onun qadir olmadığı bir işdə ona təvəkkül etmək. Bu, böyük şirk sayılır. İkincisi, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad edərək ona təvəkkül etmək. Bu, kiçik şirk sayılır. Üçüncüsü isə, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad etmədən ona təvəkkül etmək. Bunu etmək isə günah sayılmır.[2] Yəni dünyəvi işlərdə olan səbəbləri götürərək Allaha təvəkkül etmək icazəlidir. Bu xüsusda "əl-Cuməə" surəsinin 10-cu ayəsində belə buyurulur: "Namaz başa çat-

---

[1] Camiul-Ulum vəl-Hikəm, 2/496-497.

[2] Cədid fi Şərh Kitab ət-Tövhid, 1/302.

dıqdan sonra yer üzünə dağılışıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız." Həmçinin, "ən-Nisa" surəsinin 71-ci ayəsində belə buyurulur: "Ey iman gətirənlər! Ehtiyatınızı əldən verməyin və *düşmənə qarşı* ya bölük-bölük, ya da hamınız birgə çıxın!" Həmçinin, "əl-Ənfal" surəsinin 60-cı ayəsində belə buyurulur: "*Düşmənlərə* qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın." Həmçinin, hədisdə rəvayət edilir ki, Məkkənin fəthi ilində Peyğəmbər ﷺ Məkkəyə daxil olduqda, başında dəbilqə var imiş. Yenə bir hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ öz səhabəsinə belə buyurmuşdur: "Sənə fayda verən işlərlə məşğul ol və Allahdan kömək dilə."[1] Yenə bir hədisdə xəbər verilir ki, səhabəsi ondan: "Dəvəmi buraxıb, Allaha təvəkkül edə bilərəmmi?"– deyə soruşduqda, Peyğəmbər ﷺ ona belə cavab vermişdir: "Dəvəni bağla, sonra təvəkkül et!"[2]

Şərh etdiyimiz hədisdən aydın başa düşülür ki, insan hər bir işdə, o cümlədən də ruzi əldə etməkdə, yalnız Allaha təvəkkül etməli və etiqad etməlidir ki, yer üzündə olan canlıların hamısının, hətta göydə uçan quşların belə, ruzisini verən, məhz Allahdır. Bu xüsusda "Hud" surəsinin 6-cı ayəsində belə buyurulur: "Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. *Allah* onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir." Bəzi cahillər Allah barədə pis zənnə qapılaraq: "Çox övladım olsa, onu necə saxlayacam"– deyir. Halbuki, onların da, bizim də, ruzimizi verən Allahdır.

---

[1] Səhih Muslim, 2664.

[2] Sunən ət-Tirmizi, 2517; Səhih əl-Cami, 1068.

Bu hədis dəlildir ki, həm quşlar, həm də digər yaradılanlar Allahı tanıyır, Onun ruzi verən olduğunu bilir və ona tərif deyirlər. Bu xüsusda "əl-İsra" surəsinin 44-cü ayəsində belə buyurulur: "Yeddi göy, yer və onlarda olanlar Ona tariflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız." Həmçinin, "əl-Həcc" 18-ci ayəsində belə buyurulur: "Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır. Allahın alçaltdığı kimsəyə heç kəs hörmət qoymaz. Həqiqətən, Allah istədiyini edər."

Rəvayət edilir ki, bir dəstə adam Yəməndən çıxıb Mədinəyə gəlir və özləri ilə yol azuqəsi götürmür. Ömər ibn əl-Xattab onlara rast gəlir və onlardan: "Siz kimsiniz?"– deyə soruşur. Onlar: "Biz, təvəkkül edənlərik!"– deyə cavab verirlər. Ömər ibn əl-Xattab da onlara belə deyir: "Əksinə, siz, müftəxorsunuz. Allaha təvəkkül edən adam, o kimsədir ki, o, öz əkin sahəsinə toxum səpir və Allaha təvəkkül edir."[1]

Burada "müftəxor" deyildikdə, özü zəhmət çəkməyib başqalarının hesabına yaşayan adam nəzərdə tutulur.

Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ quşu misal çəkir və möminləri də quş tək Allaha təvəkkül etməyə təşviq edir. İmam Muslimin "Səhih"ində buna bənzər, olduqca ibrətamiz bir hədis rəvayət edilmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Cənnətə elə bir toplum daxil olacaq ki, onların ürəyi, quş ürəyi kimi ola-

---

[1] ət-Təvəkkül, İbn Əbud-dunya, səh: 10.

caq."[1] Bu hədisdə söhbət zahiri oxşarlıqdan yox, mənəvi oxşarlıqdan gedir. Yəni möminlər arasında Allaha təvəkkül edən kimsələr Cənnətə daxil olacaq. Bu xüsusda Peyğəmbər ﷺ rəvayət etmişdir ki, Rəbbi ona belə buyurmuşdur: "Ümmətin arasında yetmiş min nəfər var ki, onlar Cənnətə sorğu-sualsız girəcəklər. Bunlar özlərinə ruqya oxunmasını tələb etməyən, *müalicə məqsədi ilə* bədənlərinə dağ basmayan, *hər hansı bir əlaməti* uğursuzluğa yozmayan və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir."[2] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən yetmiş min nəfər Cənnətə sorğu-sualsız girəcək. Onların üzü bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də *mömin* bir adamın qəlbi kimi olacaq. Mən Rəbbimdən bundan artığını istədim, O da, mənə *həmin yetmiş min nəfərdən* hər bir kəslə yetmiş min də əlavə Cənnətə sorğu-sualsız girəcəyini nəsib etdi."[3]

Peyğəmbər ﷺ həmişə evindən bayıra çıxdıqda, dua edib deyərmiş:

(( بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ ))

"Allahın adı ilə! Allaha təvəkkül etdim. Allahım, doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil ol-

---

[1] Səhih Muslim, 2840.

[2] Səhih əl-Buxari, 3410; Səhih Muslim, 520.

[3] Musnəd Əhməd, 1/203; Səhih əl-Cami, 1057.

maqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram!"[1] Digər bir hədisdə də, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam evindən bayıra çıxdığı zaman:

(( بِسْمِ اللهِ تَوَكَّلْتُ عَلَى اللهِ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

"Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır!"– desə, həmin vaxt *mələk ona*: "Doğru yola yönəldin, *işlərin* yoluna qoyuldu, *şərdən* qorundun!"– deyər, üstəlik, şeytan ondan uzaq durar və şeytanlardan biri o birisinə deyər: "Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama sən nə edə bilərsən ki?!"[2] Hədisə diqqətlə nəzər salsaq, görərik ki, bu duada keçən üç kəlmənin üçündə də Allaha təvəkkül etmək vardır. Belə ki, işinə Allahın adı ilə başlayan, bu işdə Ona arxayın olan və yalnız Onun gücünə və qüdrətinə etimad edən kimsə, əlbəttə ki, yalnız Allaha təvəkkül etmiş sayılır.

Yeri gəlmişkən qeyd edək ki, Allaha ən çox təvəkkül edən peyğəmbərlərdir, o cümlədən də, Peyğəmbərimiz ﷺ. Uca Allah ona "Mutəvəkkil" yəni təvəkkül edən adını vermişdir.

Rəvayət edilir ki, Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما Peyğəmbərin ﷺ Tövratdakı vəsfi barədə soruşulduqda, o, belə cavab vermişdir: "Vallahi ki, onun Qurandakı bir çox vəsfləri, Tövratda da belə vəsf edilmişdir: "Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi, xəbərdar edən və ümmiləri müdafiə edən olaraq göndərdik. Sən Mənim qulum və rəsulumsan. Sənə "Mutəvəkkil"

---

[1] Sunən ət-Tirmizi, 3423; Musnəd Əhməd, 6/306; Silsilətul-Əhadisis-Səhihə, 3163.

[2] Sunən ət-Tirmizi, 3427; Səhih ət-Tirmizi, 3/151

adını verdim. O *Peyğəmbər* nə sərtürəkli, nə kobud, nə də bazarda qışqır-bağır salan birisi deyildir; pisliyi pisliklə dəf etməz, əksinə, əfv edər və bağışlayar. Onun vasitəsilə əyri yolda olan millət "lə ilahə illəllah" deyib düzəlməyincə, Allah onu Öz yanına aparmaz; və bu *tövhid kəlməsi* sayəsində kor gözləri, kar qulaqları və bağlı qəlbləri açar."[1]

Sonda, hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( اللَّهُمَّ لَكَ أَسْلَمْنَا، وَبِكَ آمَنَّا، وَعَلَيْكَ تَوَكَّلْنَا، وَإِلَيْكَ أَنَبْنَا، وَبِكَ خَاصَمْنَا، وَإِلَيْكَ حَاكَمْنَا، فَاغْفِرْ لَنَا مَا قَدَّمْنَا وَمَا أَخَّرْنَا، وَمَا أَسْرَرْنَا وَمَا أَعْلَنَّا، أَنْتَ إِلَهُنَا، لا إِلَهَ إِلا أَنْتَ ))

"Allahım, Sənə təslim olduq, Sənə iman gətirdik, Sənə təvəkkül etdik, tövbə edib Sənə doğru döndük, Sənin uğrunda mübarizə apardıq və Sənin hökmünə üz tutduq. Əvvəl etdiyimiz, sonra edəcəyimiz, gizlin saxladığımız və üzə çıxardığımız pis əməllərimizi bağışla! Sən bizim məbudumuzsan, Səndən başqa *ibadətə layiq* məbud yoxdur."[2]

(( اللَّهُمَّ وَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَأَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَهْبَةً وَرَغْبَةً إِلَيْكَ، لاَ مَنْجَا وَلاَ مَلْجَأَ مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ ))

---

[1] Səhih əl-Buxari, 2125.

[2] Səhih əl-Buxari, 1120; Səhih Muslim, 1808.

"Allahım, Sənə ümid edərək və Səndən qorxaraq üzümüzü Sənə doğru çevirdik, canımızı Sənə təslim etdik, kürəyimizi Sənə etibar etdik. Sığınacaq və Sənin *əzabından* xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdik!"[1]

[1] Səhih əl-Buxari, 247; Səhih Muslim, 8/77.

# Əllinci hədis

عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ قَالَ: "أَتَى النَّبِيَّ ﷺ رجلٌ فَقَالَ: يَا رَسُولَ اللَّهِ إِنَّ شَرَائِعَ الْإِسْلَامِ قَدْ كَثُرَتْ عَلَيْنَا، فَبَابٌ نَتَمَسَّكُ بِهِ جَامِعٌ؟ قَالَ: لَا يَزَالُ لِسَانُكَ رَطْبًا مِنْ ذِكْرِ اللَّهِ عَزَّ وَجَلَّ".

رواه أحمد [رقم: ١٨٨ و ١٩٠].

Rəvayət edilir ki, Abdullah ibn Busr ﷺ demişdir: "Bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, İslam ayinlərinin çoxluğu bizə ağır gəlir. Bütün xeyirli əməlləri əhatə edən bir qapı varmı, biz ondan möhkəm tutaq?" Peyğəmbər ﷺ buyurdu: "Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın."

Bu hədisi, İmam Əhməd bu ləfz ilə rəvayət etmişdir.[1]

Bu o demək deyil ki, səhabə İslam ayinlərini – fərz buyurulan namazı, zəkatı, orucu, həcci və s. yerinə yetirmək istəmir, əksinə, o, sadəcə Peyğəmbərdən ﷺ bu ayinləri yerinə yetirməyi asanlaşdırmaq üçün ona yol göstərməyini, üstəlik, ondan bu ayinlərdən başqa nafilələri də yerinə yetirməyi asanlaşdıran bir əməl öyrətməyini xahiş edir ki, bu əməli davamlı şəkildə yerinə yetirə bilsin. Peyğəmbər ﷺ ona daim Allahı zikr etməyi nəsihət edir. Hədislərin birində Rəsulullah ﷺ demişdir: "Dünya və onun üzərindəkilər lənətlənmişdir. Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə, elm öyrədən və elm öyrənən şəxs istisnadır."[2]

---

[1] Musnəd İmam Əhməd, 4/188 və 190; Sunən ət-Tirmizi, 3375; Sunən İbn Macə, 3793; Səhih əl-Cami, 7700.

[2] Sunən ət-Tirmizi, 2323; Silsilətul Əhadisis-Səhihə, 2797.

İbn Rəcəb ﷺ bu hədisi belə izah etmişdir:[1] "Dünya və onun üzərindəkilər lənətlənmişdir, yəni Allahdan uzaqlaşdırılmışdır. Çünki dünya, adamı Allahı zikr etməkdən yayındırır. Allaha tərəf yönəldən və Onu tanıtdıran, Ona yaxınlaşdıran və Onun razılığını qazandıran faydalı elm öyrənmək və öyrətmək, habelə, Allahı zikr etmək və Allahın sevdiyi başqa əməlləri – *əməl sahibini Allaha yaxınlaşdıran işləri* yerinə yetirmək isə müstəsnadır. Dünyadan da məhz bu məqsədlə yararlanmaq olar. Belə ki, Allah Öz qullarına yalnız Allahdan qorxmağı və Ona itaət etməyi əmr etmişdir. Buna müvəffəq olmaq üçün isə Allahı davamlı şəkildə zikr etmək lazımdır. Bu xüsusda İbn Məsud ﷺ demişdir: "Allahdan layiqincə qorxmaq üçün Onu zikr etmək və Onu unutmamaq lazımdır."[2] Allahın *Öz qullarına* namaz qılmağı, həccə getməyi, Kəbəni təvaf etməyi *və digər ibadətləri yerinə yetirməyi* buyurması, məhz Onu zikr etmək üçündür. Abidlərin ən üstünü isə öz ibadətində Allahı ən çox zikr edənidir. Bütün bu deyilənlərin məzəmmət edilmiş dünyaya heç bir aidiyyəti yoxdur. Dünyanın və onun sakinlərinin yaradılışındakı məqsəd də məhz Allaha ibadət etməkdir. Bu xüsusda Uca Allah buyurur: "Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."[3]

İbn Qeyyim əl-Covziyyə ﷺ demişdir: "Peyğəmbər ﷺ Allahı zikr etmək xüsusunda yaradılanların ən kamili idi. Onun hər sözü Allahı zikr etmək və Onun rizasını qazanmaq üçün olmuşdur.

[1] Camiul-Ulum vəl-Hikəm, 1/298.

[2] Mustədrək əl- Hakim", 2/294.

[3] əz-Zariyat, 56.

Eləcə də ümməti üçün qanunilәşdirdiyi – onlara buyurduğu əmrlər və qadağalar, həmçinin, Rəbbinin adları və sifətləri, Onun verdiyi hökmlər və gördüyü işlər, vədləri və təhdidləri barədə xəbər verməsi, habelə, Allahı tərifləməsi, Onun şənini uca tutması, Ona həmd etməsi, Onun pak və müqəddəs olduğunu təsdiqləməsi, Ona yalvarması və Ona dua etməsi, Ondan qorxması və Onun mərhəmətinə ümid bəsləməsi ancaq Allahı zikr etmək üçün olmuşdur. Hətta onun susmağı belə, qəlbən Allahı zikr etməyinə aiddir. Rəsulullah ﷺ hər vaxt və hər bir halda – ayaq üstə də, oturaqlı halda da, uzanmış vəziyyətdə də, yol gedəndə də, minik üstündə də, səfərdə olanda da, qonaq qaldığı yerdə də, öz evində də davamlı olaraq Allahı zikr edərdi."[1]

İbn Qeyyim رحمه الله həmçinin demişdir: "Qəlbdə elə bir sərtlik vardır ki, onu yalnız Allahı zikr etmək yumşalda bilər. Odur ki, insan öz qəlbinin sərtliyini Uca Allahı zikr etməklə müalicə etməlidir."[2]

Məkhul demişdir: "Allahı zikr etmək şəfa, insanları zikr etmək isə dərddir."[3]

Zikrin fəzilətinə dair neçə-neçə ayələr və hədislər var:

Uca Allah buyurur: "Ey iman gətirənlər! Allahı çox zikr edin! Səhər-axşam Onun şəninə təriflər deyin!"[4]

---

[1] Zadul-Məad fi Hədyi Xayril-İbad, 2/332.

[2] əl-Vabilus-Sayyib, 1/99.

[3] əl-Vabilus-Sayyib, 1/99.

[4] əl-Əhzab, 41-42.

O, həmçinin buyurur: "Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!"[1]

O, həmçinin buyurur: "Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini zikr et və qafillərdən olma."[2]

O, həmçinin buyurur: "Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır."[3]

Peyğəmbər ﷺ demişdir: "Rəbbini zikr edən kimsə ilə Onu zikr etməyən kimsənin misalı, diri ilə ölünün misalına bənzəyir."[4]

Digər bir rəvayətdə o demişdir: "İçində Allah zikr edilən ev ilə içində Allah zikr edilməyən evin misalı, diri ilə ölünün misalına bənzəyir."[5]

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, bir dəfə Rəsulullah ﷺ Məkkəyə səfər edərkən yolda Cumdan adlanan dağın yanından keçdi və dedi: "Yolunuza davam edin. Bu, Cumdan dağıdır. Müfərridlər[6] *xeyirxah işlərdə* hamını ötüb keçmişlər." Səhabələr soruşdular: "Kimlərdir müfərridlər, ya Rəsulullah?" O, dedi: "Allahı çox zikr edən kişilər və qadınlar."[7]

---

[1] əl-Bəqərə, 152.

[2] əl-Əraf, 205.

[3] ər-Rəd, 28-29.

[4] Səhih əl-Buxari, 6407.

[5] Səhih Muslim, 779.

[6] Müfərrid: çoxluq içərisindən qurtulan tək kimsə.

[7] Səhih Muslim, 2676.

Əziz müsəlmanlar! Bilin ki, Uca Allah hər kəsə, hər vaxt və hər bir halda Allahı zikr etməyi nəsib etmir. Müsəlmanlar özlərini hesaba çəksələr, görərlər ki, lənətlənmiş dünya onların bir çoxlarının başını qatmış, mal-dövlətin çoxluğu onların bir çoxlarını Allahı zikr etməkdən yayındırmış və şeytan onlara Allahı yad etməyi unutdurmuşdur. Onlardan bəziləri səhər-axşam zikrlərini buraxır, bəziləri namazdan sonrakı zikrləri yerinə yetirmir, hətta, bəzilərinin yemək yeyəndə, yaxud su içəndə belə "Bismilləh!" demək belə heç yadına düşmür, daha dəqiq desək, etdiyi günahların əvəzi olaraq, Allah onu bu gözəl ibadəti yerinə yetirməyə müvəffəq etmir. Bilin ki, müvəffəqiyyət hər şeyə qadir olan Allahın Əlindədir. Allahdan diləyimiz budur ki, Öz Peyğəmbərini ﷺ hər zaman və hər bir halda Rəbbini zikr etməyə müvəffəq etdiyi kimi bizi də daim Rəbbimizi zikr etməyə müvəffəq etsin! Hər kim Allahın sevdiyi və razı qaldığı əməli yerinə yetirməyə müvəffəq olmaq istəyirsə, qoy, Rəsulullahın ﷺ Sünnəsindən möhkəm yapışsın və onun öz səhabəsi Muaz ibn Cəbələ رضي الله عنه verdiyi nəsihəti yerinə yetirsin. Bir zaman Rəsulullah ﷺ ona belə buyurmuşdur: "Ey Muaz, sənə tövsiyəm budur ki, hər namazın sonunda bu duanı tərk etməyəsən:

(( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ ))

"Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!"[1]

[1] Sunən Əbu Davud, 1522; Səhih Əbu Davud, 1362.

Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, hansı bir müsəlman gündəlik olaraq hər namazın sonunda səmimi-qəlbdən belə dua etsə, Rəbbi ona hər zaman və hər bir halda Allahı yad etməyə müvəffəq edər, dili də daim Allahı zikr etməklə islaq qalar. Bu xüsusda, İbn Abul-İz əl-Hənəfi ﵀ demişdir: "Bəndəni Allaha dua etməyə yönəldən məhz onun pak və müqəddəs olan Rəbbidir. Bu xeyir Allahdandır, tamamı da Ona aiddir. Necə ki, Ömər ibn əl-Xattab ﵁ demişdir: "Mən duanın necə qəbul olunacağından narahat deyiləm. Mən ancaq dua etməyə müvəffəq olub-olmayacağımdan narahatam. Və əgər dua etməyə müvəffəq olaramsa, onun nəticəsini görməyə də müvəffəq olaram." Buna Uca Allahın bu ayəsini dəlil göstərmək olar: "Allah göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da *bu işlər* sizin saydığınız *illərdən* min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir."[1] Allah Subhanəhu və Təalə bu ayədə bildirir ki, bütün işləri O Özü idarə edir, sonra da həmin işlər Ona doğru yüksəlir. Elə bəndənin dua etmək istəyini onun qəlbinə salan və bu istəyi ona əta edəcəyi xeyiri əldə etməsi üçün bir səbəb edən də məhz Allahdır. Bir işi görmək və savab qazanmaq xüsusunda olduğu kimi. *Yəni,* bəndəni tövbə etməyə müvəffəq edən, sonra da onun tövbəsini qəbul edən Odur. Həmçinin, Öz qulunu bir işi görməyə müvəffəq edən, sonra da buna görə ona mükafat verən Odur. Eləcə də, Öz qulunu dua etməyə müvəffəq edən, sonra da onu qəbul edən Odur. Yaradılanların heç biri bu işlərə təsir göstərə bilməz. Belə ki, Allah gördüyü bir işi, görəcəyi bir iş üçün səbəb edir.

---

[1] əs-Səcdə, 5.

Möhtərəm tabiinlərdən biri Mutarrif ibn Abdullah ibn əş-Şixxir ﵀ demişdir: "Görəcəyim *bütün* işlərə nəzər saldım, gördüm ki, bunların başlanması da, tamamlanması da Allahın istəyinə bağlıdır və baxdım ki, bunlara müvəffəq olmağın çarəsi ancaq dua etməkdir."[1]

İbn Teymiyyə ﵀ demişdir: "Sənin sualına – hansı əməlin fərz buyurulmuş əməllərdən sonra ən əfzəl əməllərdən sayıldığına dair verdiyin suala gəlincə, *bil ki,* əməllər fəzilət baxımından insanların gördükləri işlərdəki bacarıqlarına, üstəlik bu işlərin onların vaxtına münasib olub-olmamasına görə fərqlənir. Odur ki, bu suala əhatəli və hər kəsə aid ediləcək cavabı vermək mümkün deyil. Lakin alimlərin yekdil rəyinə görə demək olar ki, davamlı olaraq Allahı zikr etmək, insanın məşğul olduğu ən əfzəl işlərdən sayılır. Buna da Muslimin Əbu Hureyradan ﵅ rəvayət etdiyi hədisi dəlil göstərmək olar. Həmin hədisdə Rəsulullah ﷺ: "Müfərridlər *xeyirxah işlərdə* hamını ötüb keçmişlər"– demiş və səhabələr: "Kimlərdir müfərridlər, ya Rəsulullah?"– deyə soruşduqda, Rəsulullah ﷺ demişdir: "Allahı çox zikr edən kişilər və qadınlar."[2] Həmçinin, Əbu Davudun Əbu Dərdadan ﵅ rəvayət etdiyi hədisi də dəlil göstərmək olar. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ səhabələrindən: "Sizə əməllərinizin ən xeyirlisi, Rəbbiniz yanında ən təmizi və dərəcələriniz arasında ən yüksək olanı, üstəlik sizin üçün qızıl və gümüş sədəqə verməkdən, habelə, düşməninizlə qarşı-qarşıya gəlib onların boynunu vurmaqdan daha xe-

[1] Şərh əl-Əqidə ət-Təhaviyyə, 1/468-469.

[2] Səhih Muslim, 2676.

yirli olanı barədə xəbər verimmi?”– deyə soruşmuş, onlar da “Buyur, ya Rəsulullah!”– deyə cavab verdikdə, o demişdir: “*Bu,* Uca Allahı zikr etməkdir.”[1] Bu mövzuya dair həm Quranda, həm də imanla bağlı istər bəsirət, istər varid olmuş xəbərlər, istərsə də, nəzəriyyədə bir çox dəlillər vardır. Adam ən azı xeyir müəllimi və müttəqilərin imamı sayılan Peyğəmbərdən ﷺ varid olmuş zikrləri vaxtlı-vaxtında yerinə yetirməlidir. Buna da, gündüzün əvvəlində və axırında, yatağa uzandıqda, yuxudan oyandıqda, habelə, namazdan sonra deyilən, vaxtı təyin edilmiş zikrləri, həmçinin, yeməyə və içməyə başladıqda, paltarı geydikdə, yaxınlıq etdikdə, evə, məscidə və ayaqyoluna daxil olduqda, habelə, evdən, məsciddən və ayaqyolundan çıxdıqda, yağış yağdıqda, göy guruldadıqda və başqa bu kimi hallarda deyilən ayrıca zikrləri misal çəkmək olar. Bu mövzuya dair “Aməlul-Yovm vəl-Leylə” adlı neçə-neçə kitablar yazılmışdır. Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə, istənilən vaxt zikr etmək olar və bu zikrlərin ən fəzilətlisi “Lə ilahə illəllah” zikridir. Buna “Subhanəllah, vəlhəmdulilləh, vəllahu əkbər, vələ hovlə vələ quvvətə illə billəh!” sözünü artırdıqda bu zikrin fəziləti bir qədər də artmış olur. Onu da bilmək lazımdır ki, insanın Allaha yaxınlaşmaq məqsədilə, həm də faydalı elm öyrənmək və onu başqalarına öyrətmək, habelə, insanlara yaxşı işlər görməyi buyurmaq və onları pis işlərdən çəkindirmək üçün dediyi hər kəlməsi və qəlbindən keçirdiyi hər bir fikri Allahı zikr etmək sayılır. Odur ki, hər kim vacib buyurulanları yerinə yetirdikdən sonra faydalı elm öyrənməklə məşğul olar-

[1] Sunən ət-Tirmizi, 3673; Mişkatul-Məsabih, 2269.

sa, yaxud hər hansı bir məclisdə oturub Allahın və Onun rəsulunun ﷺ fiqh adlandırdığı elmdən öyrənərsə və ya bunu başqalarına öyrədərsə, bu da, həmçinin, ən əfzəl zikrlərdən sayılar."[1]

Məlumdur ki, zikrlər fəzilət baxımından biri digərindən üstün sayılır. Bunların ən fəzilətlisi isə əlbəttə ki, Allahın Kitabını oxumaq sayılır. İbn Teymiyyə رحمه الله demişdir:[2] "Quran ən əfzəl zikrdir. Bu xüsusda Uca Allah buyurur: "Bu, bizim nazil etdiyimiz mübarək bir Zikrdir."[3] O, həmçinin buyurur: "Artıq sənə Öz tərəfimizdən Zikr vermişik."[4] O, həmçinin, buyurur: "Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirəcəyik."[5] O, həmçinin buyurur: "Onlara öz Rəbbindən bir Zikr gəldikdə, ona istehza edərək, qulaq asmazlar"[6]

İbn Qeyyim əl-Covziyyə رحمه الله demişdir: "Quran oxumaq zikr etməkdən əfzəl, zikr etmək də dua etməkdən əfzəl sayılır. Bu, ümumən belə olsa da, lakin bəzən zikr etmək Quran oxumaqdan əfzəl sayılır, hətta zikr üçün təyin edilmiş vaxtda onu Quran oxumaqla əvəz etmək caiz hesab edilmir. Buna, rükuda və səcdədə təsbih gətirməyi misal çəkmək olar. Belə ki, bu halda zikr etmək Quran oxumaqdan əfzəldir, hətta rükuda və səcdədə Quran oxumaq qadağan edilmişdir. Rükudan qalxdıqda və qalxıb dikəldikdə oxu-

[1] Məcmu əl-Fətavə, 10/660-661.
[2] Məcmu əl-Fətavə, 23/285.
[3] əl-Ənbiya, 50.
[4] Ta ha, 99.
[5] Ta ha, 124.
[6] əl-Ənbiya, 2.

nan dualar, təşəhhüdü oxumaq, iki səcdə arasında "Rabbiğfirli vərhəmni vəhdini və afini vərzuqni" demək, namazı bitirib salam verdikdən sonra deyilən zikrlər və müəzzinin dediklərini təkrarlamaq da həmçinin, Quran oxumaqdan əfzəldir. Hərçənd, Uca Allah bütün məxluqatdan üstün olduğu kimi Quran da hər bir kəlamdan üstün sayılır, lakin hər bir məqamda deyiləcək zikrlər vardır ki, onları yerli-yerində, vaxtlı-vaxtında yerinə yetirməmək, birini başqası ilə əvəz etmək, hikmətsizlik etmək və tələb olunan faydanı itirmək deməkdir. Eləcə də, müəyyən vaxtlarda faydalı zikrlər etmək, ümumən, Quran oxumaqdan, habelə, Quran oxumaq, ümumən zikr etməkdən daha əfzəl sayılır."[1]

Əhməd Şihabuddin ibn Həcər əl-Heytəmi ﷺ demişdir: "Şəriətin, oxunması üçün müəyyən bir vaxt və ya hal təyin etmədiyi ən əfzəl zikr Quran oxumaqdır. Ondan sonra ən fəzilətli zikr "Lə ilahə illəllah" kəlməsidir."[2]

Zeynuddin Abdurrauf əl-Munavi ﷺ demişdir: "Quran oxumaqla məşğul olmaq digər zikrlərlə məşğul olmaqdan daha əfzəldir. Yalnız müəyyən vaxtlarda deyilməsi xüsusiləşdirilmiş zikrlər müstəsnadır."[3]

Sonda, əzəmətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bu işimizə bərəkət versin, onu səmimi-qəlbdən Onun Üzü xatirinə görülmüş əməllərdən etsin, onu Qiyamətədək oxunan kitablardan etsin, onun sayəsində müsəlmanlara, o cümlədən

---

[1] əl-Vabilus-Sayyib, 1/122.

[2] əl-Fətavə əl-Hədisiyyə, 1/230.

[3] Feydul-Qədir Şərh əl-Cami əs-Səğir, 2/57.

də bizə fayda versin, bizə savab qazandırsın və bizi Firdovs cənnətinin sakinlərindən etsin!

Dilədiyi kimsəni yaxşı işlər görməyə müvəffəq edən və doğru yola yönəldən məhz Allahdır. Bütün həmdlər yalnız aləmlərin Rəbbi Allaha məxsusdur. Muhəmməd peyğəmbərə ﷺ, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Hamımızın adından Peyğəmbərin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

(( رَبِّ أَعِنَّا وَلَا تُعِنْ عَلَيْنَا، وَانْصُرْنَا وَلَا تَنْصُرْ عَلَيْنَا، وَامْكُرْ لنَا وَلَا تَمْكُرْ عَلَيْنَا، وَاهْدِنَا وَيَسِّرِ الهُدَى إِلَيْنَا، وَانْصُرْنَا عَلَى مَنْ بَغَى عَلَيْنَا، رَبِّ اجْعَلْنَا لَكَ شَكَّارِينَ، لَكَ ذَكَّارِينَ، لَكَ رَهَّابِينَ، لَكَ مِطْوَاعِينَ، إِلَيْكَ مُخْبِتِينَ أَوَّاهِينَ مُنِيبِينَ، رَبِّ تَقَبَّلْ تَوْبَتَنَا، وَاغْسِلْ حَوْبَتَنَا، وَأَجِبْ دَعْوَتَنا، وَثَبِّتْ حُجَّتَنَا، وَاهْدِ قَلُوبَنَا، وَسَدِّدْ أَلْسِنَتَنَا، وَاسْلُلْ سَخِيمَةَ قَلُوبِنَا ))

“Ey Rəbbim, bizə kömək et, əleyhimizə olan işlərdə heç kəsə kömək etmə. Bizə qələbə bəxş et, heç kəsə bizim üzərimizdə qələbə qazandırma. Bizə düşmənlərimizə hiylə qurmağa kömək ol, başqasının bizə hiylə qurmasına yol vermə. Bizə hidayət ver və bizim üçün doğru yola yönəlməyi asanlaşdır. Bizə təcavüz edənə qalib gəlməyimizə yardım et. Ey Rəbbim, bizi yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bəndələr et. Ey Rəbbim, bizim tövbəmizi qəbul et, günahlarımızı yu, duamızı qəbul et, dəlilimizi möhkəmləndir,

qəlbimizi haqqa yönəlt, dilimizi doğruluğa öyrət və qəlbimizin qara ləkəsini yox et!”[1]

سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ.

[1] Sunən Əbu Davud, 1510; Musnəd İmam Əhməd, 1/227; Səhih əl-Ədəb əl-Mufrad, 665.

## Mündəricat

Müqəddimə ... 5
1-ci hədis. "Əməllər ancaq niyyətlərə görədir" ... 11
2-ci hədis. "Cəbrailin müsəlmanlara dinlərini öyrətmək üçün gəlməsi" ... 21
3-cü hədis. "İslam beş dayaq üzərində qurulmuşdur" ... 43
4-cü hədis. "Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən" ... 53
5-ci hədis. "Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər" ... 66
6-cı hədis. "Halal da bəllidir, haram da bəllidir" ... 78
7-ci hədis. "Din nəsihətdir" ... 88
8-ci hədis. "İnsanlarla vuruşmaq mənə əmr edildi" ... 97
9-cu hədis. "Mən nəyi sizə qadağan edirəmsə, ondan çəkinin" ... 107
10-cu hədis. "Həqiqətən, Uca Allah pakdır və yalnız pak olanları qəbul edər" ... 114
11-ci hədis. Səni şübhəyə salanı tərk et, səni şübhəyə salmayana bax" ... 126
12-ci hədis. "Müsəlmanın İslamının gözəlliyindəndir" ... 132
13-cü hədis. "Biriniz özü üçün istədiyini qardaşı üçün istəmədikcə, iman etmiş olmaz" ... 142
14-cü hədis. "Müsəlmanın qanı halal deyildir! – yalnız üç qism istisnadır" ... 150
15-ci hədis. "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" ... 161
16-cı hədis. "Qəzəblənmə!" ... 173
17-ci hədis. "Allah hər bir şeylə gözəl davranmağı əmr etmişdir" ... 182
18-ci hədis. "Harada olursan, ol Allahdan qorx!" ... 192
19-cu hədis. "Allahın *qoyduğu hüdudları* qoru ki, Allah da səni qorusun" ... 204
20-ci hədis. "Utanmırsansa, istədiyini et" ... 219

21-ci hədis. "Allaha iman gətirdim" de, sonra da düz yol tut!" ....... 226
22-ci hədis. "De görüm, əgər mən vacib buyurulmuş namazları qılsam, ramazan ayını oruc tutsam" ....... 232
23-cü hədis. "Təmizlik imanın yarısıdır" ....... 241
24-cü hədis. "Ey qullarım, Mən zülm etməyi Özümə haram etdim" ... 251
25-ci hədis. "Var-dövlət sahibləri *bizdən çox* savab qazanırlar" ...... 267
26-cı hədis. "İnsanın oynaqlarından hər biri üçün bir sədəqə vardır ....... 278
27-ci hədis. "Yaxşılıq gözəl əxlaqdır" ....... 286
28-ci hədis. "Sizə Allahdan qorxmağı tövsiyə edirəm" ....... 295
29-cu hədis. "*Gərək,* Allaha ibadət edəsən və Ona heç bir şeyi şərik qoşmayasan" ....... 306
30-cu hədis. "Uca Allah bir çox əməlləri fərz buyurmuşdur, onları puç etməyin" ....... 318
31-ci hədis. "Dünyaya könül bağlama, Allah səni sevsin" ....... 327
32-ci hədis. "Zərər vermək də olmaz, zərərin qarşılığını vermək də olmaz" ....... 340
33-cü hədis. "İddia edən şəxs dəlil-sübut gətirməli, bu iddianı inkar edən şəxs isə and içməlidir" ....... 346
34-cü hədis. "Sizdən biriniz bir münkər görərsə, bunu əli ilə düzəltsin" ....... 354
35-ci hədis. "Bir-birinizə həsəd aparmayın, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə nifrət etməyin" ....... 363
36-cı hədis. "Kim bir mömini dünya sıxıntılarından birindən qurtararsa" ....... 373
37-ci hədis. "Allah savab və günah işləri yazmış" ....... 388
38-ci hədis. "Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm" ....... 396
39-cu hədis. "Allah mənə görə, ümmətimə, onların xəta edərək və unudaraq etdikləri günahları bağışlamışdır." ....... 405
40-cı hədis. "Dünyada bir qərib, yaxud bir müsafir kimi ol!" ....... 412

41-ci hədis. "Sizdən birinizin nəfsinin istəyi mənim gətirdiyimə tabe olmadıqca, *tam şəkildə* iman etmiş olmaz." .... 420
42-ci hədis. "Ey Adəm övladı! Sən Mənə dua etdikcə və Mənə ümid bağladıqca" .... 426
43-cü hədis. "Fərz buyurulmuş miras paylarını sahiblərinə verin" ... 436
44-cü hədis. "Qan qohumlarına haram buyurulan şeylər süd qohumlarına da haram buyrulmuşdur" .... 444
45-ci hədis. "Allah və Onun rəsulu şərabın satılmasını haram etmişdir." .... 450
46-cı hədis. "Sərxoşedişi hər bir şey haramdır" .... 456
47-ci hədis. "İnsanın ən çox şər doldurduğu tuluq onun qarnıdır" ... 463
48-ci hədis. "Dörd *xislət* var ki, bunlar kimdə olsa, əsl münafiq sayılar" .... 470
49-cu hədis. "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz" .... 480
50-ci hədis. "Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın" ..... 488
Mündəricat .... 500